# Azad Laçın

**(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)**

***2024, 18 aprel***
- Laçın hava limanı “Phoenix” hava hərəkətinə nəzarət sistemi ilə təchiz ediləcək

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

***2024, 14 aprel***
- Laçında “Mərkiz” futbol klubu fəaliyyətə başlayıb - VİDEO

***2024, 10 aprel***
- Laçındakı seleksiya mərkəzində məhsuldar sortlardan olan heyvanlar yetişdirilir – FOTO

***2024, 9 aprel***
- Laçında atelye fəaliyyətə başlayıb
- Laçında mövqelərimiz atəşə tutulub - VİDEO
- Ermənistan müxtəlif təxribatlar törətməklə Azərbaycanı cavab tədbirləri görməyə təhrik etməyə çalışır

***2024, 7 aprel***
- Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur
- Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib
- Azərbaycan Ordusunun mövqeləri 16 dəfə atəşə tutulub

***2024, 6 aprel***
- Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb
- Laçında fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş olub
- Səhiyyə Nazirliyi Laçın şəhərində ağciyər xəstəliklərinin erkən aşkarlanması üçün müayinələr təşkil edib
- Müdafiə Nazirliyi: Ötən sutka ərzində mövqelərimiz 30 dəfə atəşə tutulub – VİDEO

***2024, 5 aprel***
- İtaliya saytı Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki mina problemindən yazıb

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 3 aprel***
- Milli Məclisin deputatları Laçın rayonuna səfər ediblər

***2024, 2 aprel***
- Nazir: Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb

***2024, 30 mart***
- Laçında daha 25 ailəyə evlərinin açarları təqdim olunub – VİDEO
- Laçın sakini: 32 il əvvəl doğma yurdumu tərk etdiyim maşınla geri qayıdıram
- Keçmiş məcburi köçkün: Yurduma qayıtmaq ən böyük arzum idi
- Laçın sakini: Bu yaşımda doğma torpaqları yenidən görmək çox gözəldir
- Keçmiş məcburi köçkün: Biz Laçında yeni bir həyata başlamalıyıq
- Böyük Qayıdış: Laçın rayonuna növbəti köç karvanı yola salınıb – VİDEO

***2024, 29 mart***
- Laçındakı Aqrosənaye parkında 46 müəssisə fəaliyyət göstərəcək
- Səhiyyə Nazirliyi Laçın şəhərində uşaqların kompleks tibbi müayinəsini aparıb və maarifləndirici aksiya təşkil edib

***2024, 20 mart***
- Laçın sakini: Doğma yurdda Novruz bayramını keçirmək böyük xoşbəxtlikdir

***2024, 19 mart***
- Laçınlılar Novruz bayramını doğma yurdlarında yüksək əhvali-ruhiyyə ilə qeyd ediblər – VİDEO

- Hərbi ekspert: Azad edilmiş ərazilərdə bayram tədbirlərinin keçirilməsi böyük mənəvi əhəmiyyət daşıyır
- Laçında “Can Laçın” Novruz yarmarkası keçirilir – FOTO

***2024, 18 mart***
- Zabux kənd məktəbində 32 ildən sonra Novruz şənliyi

***2024, 16 mart***
- “Can Laçın” Novruz yarmarkası keçiriləcək - FOTO VİDEO
- Laçın məktəblilərinin Novruz sevinci - VİDEO

***2024, 13 mart***
- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu
- Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib
- Zabuxda həkim məntəqəsi açılıb
- Agentlik sədri: Bu il Zabux kəndində su anbarının istifadəyə verilməsi gözlənilir

***2024, 10 mart***
- Laçının qarlı dağlarında görünən ağquyruq cüyürlərin gözəlliyi diqqəti cəlb edir - VİDEO
- Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib
- Laçın rayonunda ilk dəfə buraxılış imtahanı keçirilib - VİDEO
- DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir

***2024, 8 mart***
- Laçında 32 ildən sonra ilk toy sədası eşidilib – VİDEO

***2024, 7 mart***
- DİM ilk dəfə Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanları keçirəcək
- Laçında qanunsuz saxlanılan odlu silahlar təhvil götürülüb

***2024, 5 mart***
- Qaçqınkom tərəfindən Zabuxda ağacəkmə aksiyası keçirilib - VİDEO

***2024, 1 mart***
- Laçındakı kəsimxanada 20 laçınlı işlə təmin olunub

***2024, 28 fevral***
- Laçında daha 24 ailəyə evlərinin açarları təqdim olunub - FOTO
- Növbəti köç karvanı Laçına çatıb
- Laçın sakini: Doğma yurduma qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur
- Sakin: Laçını yenidən əvvəlkindən daha gözəl vəziyyətə gətirəcəyik
- Laçın şəhərinə növbəti köç karvanı yola düşüb

***2024, 27 fevral***
- Laçınlılar 32 ildən sonra ilk dəfə Su çərşənbəsini öz doğma evlərində qeyd edirlər

***2024, 26 fevral***
- Laçında Xocalı faciəsi qurbanlarının xatirəsi anılıb

***2024, 22 fevral***
- Laçında yeni təsərrüfat sahələri yaradılıb - FOTO
- Müvəqqəti yaşayış yerlərindən daimi məskunlaşmaya: Zabuxun 797 sakini doğma yurdda yaşayır

***2024, 21 fevral***
- Laçında ilk dəfə “Şampinyon” və “İstiridye” göbələk sortları becərilir - FOTO

***2024, 15 fevral***
- Laçında “Zerti” brendi ilə istehsal olunacaq ayaqqabılar Avropaya da ixrac ediləcək – FOTO
- “AzərEnerji”: 2024-cü ildə Laçında daha 5 SES istismara veriləcək
- “Dəyirmanın su dərdi” və “Laçın lətifələri” kitabları çap olunub

***2024, 14 fevral***
- BDU Laçındakı “Simurq” kitabxanasına kitablar hədiyyə edib

***2024, 13 fevral***

- Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır

***2024, 10 fevral***

- Laçında akvaponika üsulu ilə həm balıq yetişdirilir, həm də bitki becərilir - FOTO EKSKLÜZİV
- Laçında onlarla abidə erməniləşdirilməyə məruz qalıb ARAŞDIRMA

***2024, 7 fevral***

- Laçında avtomobil karvanı mərkəzi küçələr boyunca yürüş keçirib – FOTO
- İşğaldan azad olunan Laçında 5 seçki məntəqəsi fəaliyyət göstərir – VİDEO

***2024, 6 fevral***

- Laçında ekoodun müəssisəsi fəaliyyətə başlayıb – FOTO
- Laçında 100 il davamlılığı olan dam örtükləri istehsal edilir - FOTO

***2024, 4 fevral***

- Laçın şəhərində müasir kitabxana istifadəyə verilib – VİDEO

***2024, 31 yanvar***

- Laçın sakini: Doğma yurdumuzda səs verəcəyim üçün qürurluyam

***2024, 30 yanvar***

- Laçında daha 23 ailəyə evlərinin açarları təqdim olunub – VİDEO
- Laçına ilin ilk köç prosesi reallaşıb
- Laçına qayıdan keçmiş məcburi köçkün: Biz illərdir bu günü gözləyirdik
- Laçın sakini: Gözəl, firavan günlərimiz bundan sonra daha çox olacaq
- Laçın şəhərinə növbəti köç karvanı yola salınıb

***2024, 29 yanvar***

- Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var

***2024, 26 yanvar***

- Xudafərin-Qubadlı-Laçın yoluna düşən bir neçə məzarlıqlar və ziyarətgah köçürülüb
- Xudafərin-Qubadlı- Laçın yolu 2024-cü ilin sonuna kimi tamamlanacaq

***2024, 25 yanvar***

- Laçın sakinlərindən 7 tüfəng götürülüb
- Otuz ildən sonra gerçəyə çevrilən arzu... Laçından reportaj
- Şuşa, Laçın və Xocavənddə “Azərpoçt”un xidmətlərinin təşkili istiqamətində işlər aparılır

***2024, 20 yanvar***

- 121 saylı Laçın seçki dairəsi üzrə 5 məntəqə azad edilmiş ərazilərdə yerləşir
- Laçında 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb – VİDEO
- Bu il Şuşada, növbəti illərdə isə Ağdam, Cəbrayıl və Laçında “ASAN xidmət” mərkəzləri fəaliyyət göstərəcək

***2024, 17 yanvar***

- Laçın sakini: Fevralın 7-si bizim üçün yaddaşlara əbədi həkk olacaq təqvimə çevriləcək

***2024, 14 yanvar***

- Laçında polis əməkdaşları qarlı hava şəraitində xidməti fəaliyyətlərini davam etdirirlər

***2024, 13 yanvar***

- Laçın yenidən ağ örpəyə bürünür

***2024, 10 yanvar***

- Prezident: Yeni Laçın-Xankəndi yolunun çəkilməsi 23 aprel hadisələrinin təməlini qoymuşdu – VİDEO
- “Azərişıq” Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir

***2024, 9 yanvar***

- “Azercell” artıq Laçındadır!

***2024, 4 yanvar***

- Laçında yol qəzasında həlak olmuş hərbçilərə şəhid statusu veriləcək
- Laçında iki hərbçi yol qəzası nəticəsində həlak olub
- Laçına qayıtmış dərzi: Dövlət Bayrağı günü hərbçilərimiz mənim tikdiyim bayraqla yürüş etdilər

***2023, 31 dekabr***

- Laçında sakinlər Yeni ili atəşfəşanlıqla qarşılayıblar – VİDEO

***2023, 30 dekabr***

- Laçında ilk dəfə olaraq "Laçın hekayəsi" adlı klassik musiqi axşamı təşkil edilib

***2023, 29 dekabr***

- "Hər Obada Bayramdır" – Laçında bir gün

***2023, 28 dekabr***

- Laçında "Can Laçın" adlı bayram yarmarkası başlayıb – VİDEO
- Laçında daha 25 ailəyə evlərinin açarları təqdim olunub - YENİLƏNİB
- Laçında aparılan tikinti-quruculuq işlərində fərqlənən dövlət qurumları və şirkətlərin mükafatlandırma mərasimi keçirilib - YENİLƏNİB
- "İslimi" Xalçaçılıq mərkəzinin rəhbəri: Gələcəkdə Laçın xalçalarını bütün dünyada təmsil edəcəyik
- Laçında "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzi açılıb - FOTO
- Laçında "İslimi" Xalçaçılıq mərkəzi fəaliyyətə başlayıb – FOTO
- Doğma yurda yola düşən laçınlı: İlk olaraq əzizlərimin məzarlarını ziyarət edəcəyəm
- Laçın sakini: 31 ildən sonra gözəl yurduma qayıdıram
- Laçın sakini: Yurdumuz daha gözəlləşəcək, inkişaf edəcək
- Laçın sakini: Otuz bir il sonra doğma yurduma qayıdıram
- Laçın şəhərinə növbəti köç karvanı yola düşüb

***2023, 27 dekabr***

- Kəlbəcər və Laçında 5 KSES-in bərpası üçün Türkiyənin iki şirkəti ilə müqavilə imzalanıb

***2023, 26 dekabr***

- Laçındakı Həkəri Balıqçılıq Təsərrüfatının məhsulları gələn ildən bazarlara çıxarılacaq – EKSKLÜZİV

***2023, 25 dekabr***

- Laçında "Böyük Qayıdış: Heydər Əliyev dühası" adlı tədbir təşkil edilib

***2023, 22 dekabr***

- Laçına növbəti köç karvanı yola salınıb

***2023, 21 dekabr***

- Türk şirkəti Kəlbəcər və Laçında 5 KSES-in yenidən qurulmasını həyata keçirəcək

***2023, 20 dekabr***

- Laçında Qarabağda ilk texnoloji təqdimat və gənclər arasında oyun festivalı keçirilib
- Laçında "Araz" supermarket fəaliyyətə başladı

***2023, 18 dekabr***

- Laçın ağ örpəyə bürünüb – VİDEO

***2023, 15 dekabr***

- Zabuxa köçən sakin: Laçının mənzərəli yerləri, bulaqları üçün darıxmışam

***2023, 14 dekabr***

- Laçında daha 20 ailəyə evlərin açarları təqdim olunub
- Növbəti köç karvanı: Laçında daha 20 ailə öz yurduna qovuşdu
- Laçın sakini: Ağlayaraq tərk etdiyimiz torpaqlara bu gün gülərək və sevinərək qayıdırıq
- Böyük Qayıdış: Laçın şəhərinə növbəti köç karvanı yola düşüb

***2023, 12 dekabr***

- Laçında AZƏRTAC-ın "Heydər Əliyev Azərbaycandır!" sənədli filmi nümayiş olunub - VİDEO

***2023, 9 dekabr***

- Laçınlı xanımların və uşaqların düzəltdiyi əl işləri Yeni il yarmarkasına çıxarılacaq - VİDEO

***2023, 6 dekabr***

- Azər Əliyev: Laçınımız bizləri təsvir etdiyimizdən də gözəl qarşıladı, xoşbəxt günlərimiz yenidən başlayıb

***2023, 5 dekabr***

- Şuşa–Laçın avtomobil yolunun yenidən qurulmasına 6 milyon manat ayrılıb – SƏRƏNCAM

***2023, 4 dekabr***

- Laçında silah-sursat tapılıb - VİDEO
- "Hazırda fabrikdə 54 nəfər çalışır ki, onların da 42-si yerli sakindir" – Laçındakı mebel fabrikindən reportaj - VİDEO

***2023, 2 dekabr***

- Laçın rayonunun işğaldan azad olunması və yaranan hərbi infrastruktur – AÇIQLAMA

***2023, 1 dekabr***

- Laçınlı şair: Bugünkü şəhərin özgə hüsnü var
- Yazıçı Şərif Ağayar: Laçın hər kəsin qürur yeri olacaqdır...
- Hərbi şərhçi: Ötən bir il ərzində Laçında hərbi infrastruktur daha da gücləndirilib
- Polkovnik: Laçın sürətli inkişafı ilə heyrətləndirir
- Laçın dünyanın ən gözəl rayonlarından birinə çevrilir – RƏY
- Ay Laçın, can Laçın - strateji mövqedə yerləşən rayonun azad edilməsinin ildönümüdür: Laçınlılar 30 il həsrətində olduqları doğma yurda qayıdışın sevincini yaşayırlar

***2023, 30 noyabr***

- Laçında tikilən yeni məscid işğaldan azad edilən ərazilərdə ən böyük məscidlərdən biri olacaq

***2023, 29 noyabr***

Laçının daha 63 sakini doğma yurda yola salındı

***2023, 24 noyabr***

- Laçında ilk dəfə keçirilən əmək yarmarkasına 16 müəssisə üzrə 200-dək vakansiya çıxarılıb

***2023, 23 noyabr***

- Böyük Qayıdış: Zabuxa növbəti 25 ailə yola salınıb

***2023, 22 noyabr***

- Laçında peyk internet platforması quraşdırılıb
- Daha 21 laçınlı ailə doğma yurda yola salınıb

***2023, 21 noyabr***

- Laçın rayonuna infotur təşkil edilib

***2023, 20 noyabr***

- Böyük Qayıdış: Daha 91 nəfər Zabuxa yola salındı

***2023, 16 noyabr***

- Laçının Zabux kəndinə ikinci köç - 25 ailə doğma yurduna qayıdır

***2023, 14 noyabr***

- Laçının daha 40 sakini doğma yurda qayıdır

***2023, 13 noyabr***

- Laçında ictimai nəqliyyat fəaliyyətə başlayacaq

***2023, 12 noyabr***

- Laçının göz oxşayan işıqlı gecələri

***2023, 6 noyabr***

- Laçında "Bayraq yürüşü" keçirilib

***2023, 5 noyabr***

- Bu gün Laçına dünyanın iyirmi altı ölkəsindən əlli səyyah gəlib

***2023, 30 oktyabr***

- Böyük Qayıdış: Daha 70 sakin Laçına qayıdır

***2023, 23 oktyabr***

- Laçın şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib

***2023, 18 oktyabr***

- Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub

***2023, 16 oktyabr***
- Laçında məskunlaşan daha 26 ailəyə evlərinin açarları təqdim olunub
- Böyük Qayıdış: Daha 26 ailə Laçına yola salındı

***2023, 5 oktyabr***
- Agentlik: Laçın şəhərində yolların bərpası yaxın müddətdə yekunlaşacaq

***2023, 19 sentyabr***
- Blinken: ABŞ humanitar yüklərin Ağdam və Laçın yolları ilə Qarabağa daşınmasını alqışlayır

***2023, 18 sentyabr***
- Rusiya XİN Xankəndiyə humanitar yardımın çatdırılmasını şərh edib
- Şarl Mişel: Laçın və Ağdam yollarından Xankəndiyə yüklərin eyni vaxtda keçməsini alqışlayırıq
- BQXK-ya məxsus iki minik və bir yük avtomobilinin Laçından Xankəndiyə keçidi təmin edilib

***2023, 17 sentyabr***
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti: Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə yüklərin çatdırılması barədə razılığı alqışlayırıq
- XİN: Azərbaycan tərəfi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır
- ABŞ "humanitar fəlakət" adlı şou ilə bölgədə erməni məsələsini aktuallaşdırmaq istəyir – TƏHLİL
- Sevinc Fətəliyeva: ABŞ öz cəsarətsizliyinə görə günahı Azərbaycanın üzərinə atmağa çalışır
- Meksikanın "El Universal" qəzeti ölkəmizə qarşı qarayaxma kampaniyası barədə: Riyakarlıq və manipulyasiya sülhə maneə törədir
- ***2023, 16 sentyabr***
- Adil Əliyev: Ermənipərəst mövqeyini davam etdirsə, Fransa kimi, ABŞ da vasitəçi statusunu itirəcək
- ***2023, 15 sentyabr***
- Meksika mətbuatında ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası ifşa olunub

***2023, 13 sentyabr***
- Azərbaycanın xarici işlər naziri ölkəmizin sülh təşəbbüsləri barədə xarici jurnalistləri məlumatlandırıb
- Aclıqdan əziyyət çəkən insanlar üçün ərzağın haradan gəlməsinin heç bir əhəmiyyəti yoxdur və olmamalıdır – Gürcü politoloq
- ***2023, 12 sentyabr***
- RF XİN Ağdam-Xankəndi yolu ilə Rusiyanın yükünün çatdırılmasını şərh edib
- "The National Interest" jurnalında Ermənistanın Laçın yolu ətrafında süni böhran yaratmaq cəhdlərindən bəhs olunub
- XİN: Rusiyanın göndərdiyi yükün Ağdam-Xankəndi yolundan keçməsini mühüm irəliləyiş kimi qiymətləndiririk

***2023, 11 sentyabr***
- Beynəlxalq Qırmızı Xaç Komitəsi Qarabağda xaçpərəst siyasət yürüdür
- Deputat: Beynəlxalq Qırmızı Xaç Komitəsi Ermənistanla vahid mövqedən çıxış edir
- Ermənilər Ağdam-Xankəndi yolundan humanitar yüklərin buraxılmasına niyə mane olurlar?
- ***2023, 10 sentyabr***
- Ağdam-Xankəndi yolunun açılmamasının təşkilatçısı məhz BQXK-dır – ŞƏRH
- Beynəlxalq Qırmızı Xaç Komitəsi Qərbin əlində siyasi manipulyasiyalar üçün alətə çevrilib – RƏY
- Bəzi xarici qüvvələrin "fəaliyyəti" Rusiyadan gələn humanitar yük avtomobilinin Bərdədə gözləməsinə səbəb olur – Politoloq

***2023, 9 sentyabr***
- Ermənistan törətdiyi hərbi təxribatları Azərbaycanın adına yazmağa çalışır – ŞƏRH
- Ermənistanın təxribatçı hərəkətlərinə onların anladığı dildə cavab veriləcək – ŞƏRH
- Deputat: Cənubi Qafqazda sülhün təmini prosesi qlobal miqyasda diqqət mərkəzindədir

***2023, 8 sentyabr***

- Ceyhun Bayramov: Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri bölgədə əsas təhdid mənbəyidir
- Xarici İşlər Nazirliyi: Ermənistan Laçın yolundan qanunsuz hərbi məqsədlər üçün istifadə edib
- Regionda sabitliyin pozulması məsələsində Ermənistan tək deyil – ŞƏRH
- "Veçerni Bişkek" qəzeti Ermənistanın siyasi manipulyasiyaları haqqında məqalə dərc edib
- Almaniyanın xarici işlər naziri Ermənistanın davam edən hərbi təxribatları barədə məlumatlandırılıb

***2023, 7 sentyabr***

- Britaniyanın "Economist" jurnalı Azərbaycan səfirinin cavab məktubunu dərc edib
- Elçin Əmirbəyov: Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır
- BBC beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirməyə çalışır – ŞƏRH

***2023, 6 sentyabr***

- Orxan Amaşov: Ərzaq məsələsini Ermənistan və Xankəndidəki separatçı rejim siyasiləşdirir
- Qanunsuz erməni silahlıları Ordumuzun Laçın rayonu istiqamətində yeni səngər yolları qazmağa cəhd göstəriblər

***2023, 5 sentyabr***

- Mariya Zaxarova: Rusiya humanitar yardımın Ağdam marşrutu ilə maneəsiz çatdırılmasının tərəfdarıdır
- Ermənistan "Laçın" dövlət sərhədində buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilmir – ŞƏRH
- Bəhreynin nüfuzlu qəzeti Azərbaycanın sülhsevər siyasətindən yazıb

***2023, 4 sentyabr***

- "Əl-Cəzirə" qəzetində Azərbaycan səfirinin ölkəmizin sülh səyləri barədə məqaləsi dərc edilib

***2023, 2 sentyabr***

- Deputat: Fransa Ermənistanın işğalçı olduğunu bilavasitə təsdiq edib
- Laçında buraxılış məntəqəsinin yaradılması – Azərbaycanın suveren hüquqları çərçivəsində legitim addım
- İşğaldan azad olunmuş ərazilərimizdə sakinlər üçün hər cür şərait yaradılır – ŞƏRH

***2023, 1 sentyabr***

- Elçin Əmirbəyov: Ermənilər vaxtı uzadırlar və status-kvonu möhkəmləndirməyə çalışırlar
- Ermənistan İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətinə rəğmən, təxribatlarını davam etdirir – ŞƏRH
- Azərbaycan XİN Şarl Mişelin mətbuat katibinin bəyanatına cavab verib
- Azərbaycan Fransanın ölkəmizə qarşı neokolonialist siyasət aparmasına imkan verməyəcək Politoloq
- Fransa Ermənistanı geosiyasi maraqlarının girovuna çevirərək regionda sülhə təhdid yaradır – ŞƏRH
- Almaniyanın "TV Berlin" kanalı Laçın yolu ətrafında baş verən hadisələrə dair reportaj yayımlayıb
- Fransanın humanitar məsələlər adı altında təxribat kolonu – ŞƏRH

***2023, 30 avqust***

- Natamamlıq kompleksi
- Otuz ilə yaxın işğal altında qalan Laçın hazırda dirçəliş dövrünü yaşayır – ŞƏRH
- Laçın Şəhəri Günü - ədalətin və zəfərin təcəssümü
- Laçında ölkəmizin xarici və beynəlxalq təxribatlar qarşısında dönməz mövqeyi ifadə edildi – ŞƏRH
- Ombudsman Ermənistan seqmentindəki bəzi saytlarda yayımlanmış əsassız iddialara cavab verib

***2023, 29 avqust***

- "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini təmin edir – ŞƏRH
- Qənirə Paşayeva: Laçın sevincimizdən hər kəsə pay düşdü, kədərli tariximizi isə təkrarlanmaması üçün unutmuruq

- Fransa-Ermənistan cütlüyünün suverenliyimizə qarşı atacağı istənilən addıma ən sərt şəkildə cavab veriləcək – ŞƏRH
- Azərbaycan ombudsmanı Avropa Şurasının insan hüquqları üzrə komissarının bəyanatına cavab verib
- Politoloq: Laçın işğal dövründə ən çox "erməniləşdirilmiş" məntəqələrdən biri idi
- Qarabağda və Şərqi Zəngəzurda qısa müddət ərzində görülən işlər heyrətamizdir - Politoloq
- Ayxan Hacızadə Ermənistan XİN tərəfindən Azərbaycana qarşı səsləndirilmiş əsassız iddialara cavab verib

***2023, 28 avqust***

- Deputat: Azərbaycan regionda yeni reallıqların mövcud olduğunu açıq-aşkar nümayiş etdirir
- Prezident İlham Əliyevin "Laçın Şəhəri Günü" tədbirində iştirakı 30 illik neqativ sindromu məhv etdi - ŞƏRH
- Laçının Azərbaycanın nəzarətinə keçməsi erməni separatizminə vurulan ən böyük zərbədir - Politoloq
- Deputat: Doqquz aya Laçının bərpası Azərbaycan dövlətinin prinsipiallığından xəbər verir
- Laçın Şəhəri Günü bayram tədbirinin təşkili Laçına həyatın qayıtmasını əks etdirir
- Deputat: İşğaldan azad edilmiş ərazilərə ölkə Prezidentinin mütəmadi səfərlərinin hər biri bir çağırışdır
- Fransa Prezidenti Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik edir
- Ayxan Hacızadə: Fransa Prezidentinin qərəzli fikirləri sülh prosesinə xələl gətirir
- Prezident İlham Əliyevin Laçın səfəri - siyasi və iqtisadi gücümüzün daha bir nümayişi - ŞƏRH
- Laçında qanunsuz məskunlaşma aparan Ermənistan buranın azad olunacağını təsəvvürünə belə gətirmirdi – ŞƏRH

***2023, 27 avqust***

- Ermənistanın havadarlarının çirkin kampaniyaları heç bir nəticə verməyəcək – ŞƏRH
- Prezident İlham Əliyevin "Laçın Şəhəri Günü" münasibətilə bayram tədbirində iştirakı Gürcüstan mətbuatının diqqətində
- Səttar Möhbalıyev: Prezident İlham Əliyevin Laçında verdiyi mesajlardan Ermənistan nəticə çıxarmalıdır
- Laçın şəhərinə həyatın qayıtması tariximizin ən qürurlu səhifələrindən biridir
- Prezident İlham Əliyevin Laçına səfəri Azərbaycanın siyasi və hərbi qüdrətinin növbəti nümayişi kimi yadda qaldı
- Litvadakı Azərbaycan icması BMT-nin Cenevrədəki mənzil-qərargahına müraciət ünvanlayıb
- Rumıniya qəzetində Laçın şəhəri haqqında geniş məqalə dərc olunub

***2023, 26 avqust***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər - Dövlətimizin başçısı tədbirdə çıxış edib**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak ediblər**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçının Zabux kəndində görülmüş işlərlə tanış olublar və sakinlərlə görüşüblər**
- Prezidentin "Laçın Şəhəri Günü"ndə verdiyi mesajlar anti-Azərbaycan kampaniyasına yekun zərbə oldu
- "Laçın" buraxılış məntəqəsini həzm edə bilməyən Ermənistan dezinformasiya yaymaqla məşğuldur
- Adil Əliyev: "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması ölkəmizin legitim hüququ və onun gücünün təcəssümüdür
- Prezident İlham Əliyev: Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz
- Azərbaycan Prezidenti: Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük
- Prezident: 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir
- Prezident İlham Əliyev ermənilərin Laçında törətdikləri hərbi cinayətlərdən danışıb
- Prezident: Biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik
- Azərbaycan Prezidenti: Laçının işğalı böyük bir fəlakət idi

- Prezident İlham Əliyev: İlin sonuna qədər Laçında bir neçə min sakin yaşayacaq

***2023, 25 avqust***

- **Laçın rayonunda "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyaları istifadəyə verilib**
- **Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq**
- **Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanışlıq**
- **Laçında mehmanxana kompleksinin təməli qoyulub**
- **Prezident və birinci xanım Laçının sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, bir sıra müəssisələrdə yaradılan şəraitlə tanış olublar**
- **Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub**
- **Laçın rayon 2 nömrəli tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib**
- **Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışı olub**
- BMT-dəki daimi nümayəndəliyimiz Ermənistan nümayəndəliyinin təşkilatın mənzil-qərargahında keçirdiyi gizli iclası pisləyib

***2023, 24 avqust***

- Almaniyalı alim Mixael Raynhard Hess: Okamponun rəyi erməni maraqlarına onun güclü dəstəyini ifadə edir
- Mərakeşin "l'Opinion" nəşrində erməni təxribatları haqqında məqalə dərc olunub
- Türkiyə mediasında Laçın həqiqətlərindən bəhs edilib
- Azərbaycanın xarici işlər naziri: Yolların məqsədli şəkildə bloklanması qəbuledilməzdir
- Ceyhun Bayramov: Humanitar yükün gətirilməsi istiqamətində Ermənistan siyasi manipulyasiya xəttini tutub
- Reinteqrasiyanın alternativi yoxdur və bu proses tezliklə öz məntiqi sonluğuna çatacaq – RƏY

***2023, 22 avqust***

- Amerikalı jurnalist erməni yalanlarına uyan dünya ictimaiyyətini Azərbaycan həqiqətlərini öyrənməyə çağırıb
- Jalə Əliyeva: BMT Təhlükəsizlik Şurasının qərarı Azərbaycanın üstün mövqeyinin daha bir təntənəsidir
- MN: Laçın rayonu istiqamətlərində mövqelərimiz müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub
- Fəqət Şadlinskaya: BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının iflası oldu
- BMT TŞ-dəki müzakirələr Ermənistanın öz ampulasından kənarda siyasət yürüdə bilmədiyini təsdiqlədi
- Azərbaycan diplomatiyasının növbəti uğuru və Ermənistanın siyasi məsuliyyətsizliyinin daha bir nümunəsi

***2023, 20 avqust***

- MN: Qanunsuz erməni silahlılarının fortifikasiya qurğuları quraşdırmağa cəhdinin qarşısı alınıb
- Politoloq: Ermənistan regionda qaranlıq qalan problemlərin həllinə bir az da kölgə salır
- BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Azərbaycanın möhkəmlənən mövqeyinin təqdimatıdır

***2023, 19 avqust***

- Ermənistanın Qafan Hava Limanını istifadəyə vermək istəməsi siyasi şou xarakteri daşıyır - BAMF-in prezidenti
- Deputat: Qarabağdakı separatçılar törətdikləri cinayətlərə görə Azərbaycan qanunları ilə mühakimə olunacaq

***2023, 18 avqust***

- BMT TŞ-də müzakirə edilən məsələ Azərbaycanın daxili işlərinə kobud şəkildə müdaxilədir - Politoloq
- Ermənipərəst dünyanın diplomatik kapitulyasiyası – Təhlil
- Deputat: Ermənistan diplomatiyası tam iflası ilə diqqət mərkəzindədir
- Keniya Milli Assambleyasının spikeri Ermənistanın sülh prosesinə törətdiyi maneələr barədə məlumatlandırılıb
- BMT TŞ-nin Ermənistan və Fransanın ittihamlarını qəbul etməməsi Azərbaycan diplomatiyasının növbəti uğurudur
- Tahir Mirkişili: Diplomatik müharibədə Ermənistana növbəti zərbəni vurduq

- BMT TŞ-də Ermənistanın fiaskosu və Azərbaycanın əldə etdiyi 5 mühüm nəticə - Təhlil

***2023, 17 avqust***

- Ermənilərin “humanitar böhran” ssenarisi Nyu-Yorkda iflasa uğradı - QHT sədri
- Rəşad Mahmudov: Ermənistan diplomatik masada növbəti dəfə şok yaşadı
- Vüqar Rəhimzadə: BMT-dən Fransa və Ermənistana növbəti zərbə
- Azərbaycan XİN Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibət bildirib
- Ermənistanın beynəlxalq ictimaiyyəti aldatma cəhdləri yenə də fiaskoya uğradı - Şərh
- Rəsmi İrəvan reallıqdan konkret nəticə çıxarmalıdır
- Qətnamələrinin icrasını həyata keçirə bilməyən BMT TŞ bu gün erməni bayrağı altında “göz yaşlarına boğulub” - Açıqlama
- Politoloq: BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının tam iflasa uğradığını göstərdi
- “Laçın” sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq məqsədilə yaradılıb
- Yaşar Əliyev: Ermənistanın Təhlükəsizlik Şurasına müraciəti beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir

***2023, 16 avqust***

- Aİ-nin müşahidə missiyası “humanitar böhran” şousunun ən mühüm personajlarından biri kimi
- ***2023, 15 avqust***
- Azərbaycan və Rusiya XİN rəhbərləri regiondakı vəziyyəti müzakirə ediblər
- Milli Məclis Ermənistanın manipulyasiya cəhdləri ilə əlaqədar xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıb
- Politoloq: “Blokada” ssenarisinin arxasında riyakar siyasət və məkrli məqsədlər dayanır

***2023, 14 avqust***

- Türkiyə XİN Laçın yolu ilə bağlı bəyanat yaydı
- Deputat: Ermənistan sülh üçün yaranmış imkanları əldən verməklə yalnız özünə ziyan vurur
- Ermənilərin humanitar aksiya şousu beynəlxalq ictimaiyyəti çaşdırmağa hesablanıb – ŞƏRH
- Rusiya Xarici İşlər Nazirliyində Laçın yolundakı vəziyyət müzakirə edilib
- Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciəti diplomatik səylərə ciddi zərbə vurur
- Azərbaycan XİN: Ermənistan BMT Təhlükəsizlik Şurasını alətə çevirməyə cəhd göstərir

***2023, 12 avqust***

- İcma: Belçika Ermənistanın manipulyasiya siyasətinə aldanmamalıdır
- Qərbi Azərbaycan İcması Ermənistanı regionda vəziyyəti qəsdən gərginləşdirən əməllərə son qoymağa çağırır

***2023, 11 avqust***

- Azərbaycan XİN Ermənistanın baş nazirinə cavab verib
- XİN “Kommersant”ın yazısına münasibət bildirib: Qarabağın erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozub

***2023, 10 avqust***

- Nigar Arpadarai: BMT-nin ekspertlər qrupunun bəyanatı qeyri-adekvat və qanunsuzdur
- Qərbi Azərbaycan İcması Ermənistanda “Səlibçilər” adlı qrupun aksiyasını pisləyib

***2023, 7 avqust***

- XİN: BMT-nin bəzi xüsusi məruzəçilərinin “Laçın dəhlizi”nin blokadada saxlandığı iddiası təəssüf doğurur
- Politoloq: Ermənistanın Laçın yolu ilə bağlı yaratdığı "şou" məqsədlidir

***2023, 6 avqust***

- Ermənistanın əsl məqsədi Laçın yolu ilə bağlı beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmaqdır

***2023, 2 avqust***

- Ermənistan “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi istiqamətində təxribatı davam etdirir

***2023, 30 iyul***

- Azərbaycanın diaspor təşkilatları Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb

***2023, 28 iyul***

- Laçın yolundan Zəngəzur dəhlizinə: Azərbaycan qüdrətinin həqiqətləri

***2023, 26 iyul***

- Ermənistan tərəfindən nəqliyyat vasitələrinin "Laçın" buraxılış məntəqəsində cəmləşdirilməsi beynəlxalq ictimai rəyi çaşdırmaq cəhdidir

***2023, 25 iyul***

- DSX "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin Ermənistan tərəfində planlaşdırılan təxribatla əlaqədar xəbərdarlıq edib

***2023, 17 iyul***

- Nazir: Laçın sərhəd buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur

***2023, 13 iyul***

- Prezident İlham Əliyev Antoni Blinkeni Laçın sərhəd-buraxılış məntəqəsində silahlı təxribat və qaçaqmalçılıq barədə məlumatlandırıb

***2023, 12 iyul***

- Azərbaycan Ordusunun Şuşa və Laçın istiqamətində mövqeləri atəşə tutulub
- MN: Ermənistan silahlı qüvvələri Ordumuzun Laçın rayonundakı mövqelərini atəşə tutub

***2023, 11 iyul***

- Prezident: Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar atılacaq

***2023, 7 iyul***

- Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçın yolu ilə bağlı vəsatətini rədd edib

***2023, 24 iyun***

- Xarici diplomatlar Azərbaycan-Ermənistan sərhədində
- Xarici diplomatlar Laçın şəhərində görülən işlərlə tanış olublar
- Qazaxıstanın səfiri: Laçının iqtisadi potensialı böyükdür
- Xarici diplomatlar Laçında Aqro və Sənaye Parkında görülən işlər barədə məlumatlandırılıb
- Tacikistan səfiri: Laçın yolu ilə bağlı bütün məsələlər imzalanmış bəyanatlar çərçivəsində həll olunmalıdır
- Səfir: Laçındakı tikililər və infrastruktur ən yüksək dünya standartlarına uyğundur
- Xarici diplomatlar Laçın şəhərindəki bayraq meydanında
- Azərbaycandakı diplomatik korpusun nümayəndələri Zabuxda görülən işlərlə tanış olublar
- Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçında səfərdə olublar

***2023, 23 iyun***

- Prezident: Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması çox güclü siyasi iradəmizin göstəricisidir
- Türk deputat: Laçın dəhlizi ilə bağlı məruzə tamamilə birtərəfli qaydada hazırlanıb

***2023, 22 iyun***

- XİN: Nikol Paşinyanın Laçın yolu ilə bağlı fikirlərini qətiyyətlə rədd edirik

***2023, 21 iyun***

- M.Zaxarova: Laçın dəhlizində baş vermiş hadisə Ermənistan tərəfindən sərhədin delimitasiya olunmaması ilə bağlıdır

***2023, 16 iyun***

- Laçın sərhəd-buraxılış məntəqəsində baş vermiş təxribat məqsədli şəkildə törədilmiş aktdır - Açıqlama
- Laçın sərhəd-buraxılış məntəqəsində törədilmiş təxribatın məqsədi sülh prosesinə zərbə vurmaqdır - Rəy
- Ermənilərin Laçındakı təxribatının əsl səbəbi – Rusiya və Fransanın birgə planı - Şərh

***2023, 15 iyun***

- Ermənistan Laçın dövlət sərhəd-buraxılış məntəqəsini atəşə tutub, bir hərbçimiz yaralanıb
- XİN: Ermənistanın Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı hərbi təxribatını qətiyyətlə pisləyirik

***2023, 9 iyun***

- Əlaqələndirmə Qərargahının Laçın şəhərində növbəti iclası keçirilib

***2023, 5 iyun***

- XİN: Ermənistan rəsmisinin Laçın yolunun bağlanmasını iddia etməsi gülüncdür

***2023, 30 may***

- Laçınlıların doğma torpaqlarına may ayında qayıdışının rəmzi mənası vardır

*2023, 27 may*

- **Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri: Prezident İlham Əliyev Laçın rayonunda "Qorçu" yarımstansiyasının açılışında iştirak edib**
- **Laçının Qorçu qəsəbəsinin təməli qoyulub**
- **Prezident İlham Əliyev Laçın rayonunun Şəlvə kəndinin təməlini qoyub**
- **Prezident İlham Əliyev Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlərlə tanış olub**
- **Prezident İlham Əliyev "Laçın" şəhər yarımstansiyasının açılışını edib**
- **Laçın rayonunun Zabux kəndində aparılan tikinti işləri ilə tanışlıq**

*2023, 28 may*

- **Prezident İlham Əliyev Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin kəsişməsində lövhələrin açılışını edib**
- **Laçın şəhərində Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişməsində lövhələrin açılışı olub**
- **Prezident İlham Əliyev Laçında 1 Dekabr küçəsində lövhənin açılışını edib, bərpa olunmuş evlə tanış olub**
- **Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib: Prezident İlham Əliyevin çıxışı**
- **Prezident İlham Əliyevə Laçın şəhərinin Baş planı təqdim olunub**
- **Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub**
- **Laçın rayonunda Şərqi Qafqaz turları və şahin quşları təbiətə, müxtəlif növ balıqlar Həkəri çayına buraxılıb**
- **Laçın rayonunda Şərqi Qafqaz turları və şahin quşları təbiətə, müxtəlif növ balıqlar Həkəri çayına buraxılıb**
- Laçında İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub
- Azərbaycan Prezidenti: Laçın şəhərində hər şey çox böyük zövqlə yaradılır
- Bu ilin sentyabrına qədər Zabux kəndi zabuxluların sərəncamına veriləcək
- Prezident İlham Əliyev: Laçının azad olunmasının və bu gün keçirdiyimiz görüşün tarixlərinin rəmzi mənası var
- Azərbaycan Prezidenti: Laçın və Kəlbəcərin Ermənistanın əlində həmişəlik qalması ilə heç vaxt razılaşa bilməzdik
- Prezident İlham Əliyev laçınlılarla görüşdə torpaqlarımızı azad edən gənclərin qəhrəmanlığından danışıb
- Prezident: Laçın şəhərinin bugünkü siması göstərir ki, biz qurub-yaradan xalqıq
- Prezidentdən laçınlılara: Sizinlə Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz
- Prezident İlham Əliyev Laçından ermənilərə səsləndi: "Miatsum" kitabı bağlandı!
- Prezident: On bir il əvvəlki görüşdə demişdim ki, Laçına qayıdacağıq və belə də oldu
- Laçın şəhərinə qayıdış başlandı

*2023, 4 may*

- İƏT Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurması qərarını təqdir edir
- **Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.**

*2023, 3 may*

- Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başlaması tarixi hadisədir

*2023, 1 may*

- XİN: Ermənistan XİN-in Laçın yolunda sərhəd-nəzarət keçid məntəqəsi ilə bağlı cəfəng iddialarının heç bir əsası yoxdur
- Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsindən sərbəst keçid tam təmin olunub

**2023, 28 aprel**

- Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ermənilərin növbəti təxribatlarının qarşısını aldı - Politoloq
- Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması erməni ideologiyasının sonu oldu - Şərh

*2023, 27 aprel*

- Ceyhun Bayramov: Laçın yolu açıqdır və bundan sonra da açıq olacaq
- Prezident: Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququdur
- XİN: Paşinyanın Laçında qurulan nəzarət-buraxılış məntəqəsi ilə bağlı səsləndirdiyi cəfəng iddiaları rədd edirik
- Laçındakı nəzarət-buraxılış məntəqəsi sülhün yaradılması üçün əsas mexanizm olacaq - QHT sədri

***2023, 25 aprel***

- Laçın yolunda Azərbaycanın post qoyması Qarabağda yaşayan mülki ermənilərin təhlükəsizliyini təmin edəcək - Ekspert

***2023, 24 aprel***

- Laçın yolunda sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Hökumətinin legitim hüququdur
- Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur
- ATƏT PA-nın Büro iclasında Laçın yolunda qurulan sərhəd-buraxılış məntəqəsinin zəruriliyi haqqında məlumat verilib
- Deputat: Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin açılması tarixi hadisədir

***2023, 23 aprel***

- XİN Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanat yayıb
- Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin yaradılması hərəkətin təhlükəsizliyini təmin edəcək
- Müdafiə Nazirliyi: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub
- Ermənilərin Laçın yolundan sui-istifadə etməsi mülki insanlarımızın həyatına təhlükə yarada bilər

***2023, 18 aprel***

- Azərbaycan Prezidenti: Keçmiş köçkünləri Laçın şəhərinə vaxtından əvvəl qaytaracağıq
- Laçın şəhərində inşa olunacaq fərdi evlərin sayı açıqlanıb – Yeni rəqəmlər

***2023, 9 aprel***

- Laçın-Xankəndi yolunda hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir

***2023, 9 aprel***

- MN: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

***2023, 31 mart***

- Laçın rayonu tezliklə Şərqi Zəngəzurun mühüm mərkəzlərindən birinə çevriləcək

***2023, 30 mart***

- MN: Laçın rayonunda hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb
- Laçın rayonunun təhlükəsizliyi ilə bağlı mühüm addımlar atılır
- Səttar Möhbalıyev: Laçın rayonunun yeni inkişaf dövrü başlayır
- Əsas vəzifə Laçının təhlükəsizliyinin qorunması və keçmiş məcburi köçkünlərin qaytarılmasıdır

***2023, 28 mart***

- Prezident: Azərbaycan dövləti Laçına qayıdacaq keçmiş məcburi köçkünlərin rahat yaşamasını təmin edəcək
- Prezident İlham Əliyev: İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar
- Prezident İlham Əliyev: Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq
- Prezident İlham Əliyev: Ermənistan Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı
- Prezident: Laçın rayonunun təhlükəsizliyinin qorunması bizim əsas vəzifələrimizdən biridir
- Prezident: İki ildən çoxdur ki, Laçın rayonunun bərpası ilə bağlı işlər aparılır
- Yaxın gələcəkdə Laçın rayonuna təqribən 10 minə yaxın keçmiş köçkün yerləşdiriləcək
- Prezident: Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək
- Prezident İlham Əliyev: Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur
- Prezident: Biz Laçın və Kəlbəcərin su ehtiyatları hesabına böyük enerji mənbəyi yaradacağıq

- Prezident İlham Əliyev: Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır
**_2023, 25 mart_**
- MN: Ordumuz Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni fəaliyyətlərə qarşı tədbirlər görüb
- XİN: Ermənistanın son təxribatları göstərir ki, Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaradılması zəruridir
**_2023, 14 mart_**
- Prezident: Laçın yolunun blokadada olması barədə Ermənistanın iddiaları tamamilə əsassızdır
**_2023, 28 fevral_**
- Ceyhun Bayramov: Ermənistan tərəfi Laçın yolunda vəziyyətlə bağlı bütün məsuliyyəti Azərbaycanın və Rusiyanın üzərinə qoymağa çalışır
- Rusiya XİN rəhbəri: Laçın dəhlizindən həqiqətən onun təyinatı üzrə istifadə edilməsi barədə şübhələri texniki vasitələrlə aradan qaldırmaq mümkündür
**_2023, 25 fevral_**
- Azərbaycanın guya Laçın yolunu bağlamasına dair Ermənistanın iddiaları əsassızdır
**_2023, 24 fevral_**
- XİN: Laçın yolundan sui-istifadə hallarına yol verilməməlidir
**_2023, 31 yanvar_**
- BQXK-nın dörd avtomobili Laçına maneəsiz keçib
- Laçın yolundan sui-istifadənin dayandırılması barədə tələblər hələ də yerinə yetirilməyib
**_2023, 26 yanvar_**
- İtaliyalı parlamentarilərə Laçın yolundakı hadisələrlə bağlı real faktlar təqdim edilib
**_2023, 25 yanvar_**
- XİN: Ermənistan XİN başçısının Laçın yolu ətrafındakı vəziyyətin müharibə yolu ilə həlli təklifi ciddi təhdiddir
- XİN: Laçın yolunda dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur
**_2023, 21 yanvar_**
- XİN: Laçın yolunun fəaliyyətinə müdaxilə etməsi Ermənistanın işğalçılıq siyasətini unutmadığını göstərir
**_2023, 20 yanvar_**
- Ceyhun Bayramov: Laçın yolundan silah-sursatın daşınması yolverilməzdir
**_2023, 19 yanvar_**
- Kəlbəcər və Laçında hərbi hissələrin döyüş hazırlığı yoxlanılıb
**_2023, 14 yanvar_**
- "CNN Türk"ün müxbiri: Laçın yolu ilə silahların və minaların daşınmasına dair sübutlar var
**_2022, 31 dekabr_**
- Azərbaycan Prezidenti: Biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq
**_2022, 30 dekabr_**
- Laçın rayonu ərazisində yeni hərbi obyektlər istifadəyə verilib
**_2022, 28 dekabr_**
- Leyla Abdullayevadan ermənipərəst deputatlara: Laçın yolu Azərbaycanın suveren ərazisidir
**_2022, 27 dekabr_**
- Ceyhun Bayramov: Laçın dəhlizinə alternativ yolun çəkilməsi müsbət bir təcrübədir
**_2022, 25 dekabr_**
- “Laçın yolunda etirazların səbəbi sülh müqaviləsinə qarşı çıxan ermənilərin gərginliyi artırmasıdır” - italiyalı professor
- Laçın-Xankəndi yolu: Fəallar tələblərində israrlı görünürlər
- Sülhməramlılar konteyner və çadırları Laçın istiqamətində quraşdırdıqları postun ərazisinə daşıyıblar
**_2022, 22 dekabr_**
- Azərbaycanın və Rusiyanın XİN başçıları Laçın yolu ətrafında vəziyyəti müzakirə ediblər
**_2022, 21 dekabr_**
- Laçın-Xankəndi yolundakı aksiya beynəlxalq müqavilələrin tələblərinə uyğundur
**_2022, 20 dekabr_**

- Laçın-Xankəndi yolunda Rusiya sülhməramlılarının mövqeyində hansı dəyişikliklər olub?
- BQXK-nın avtomobillərinin Laçından Xankəndi istiqamətinə maneəsiz keçidi təmin edilib
- Baş katib: Laçın dəhlizi KTMT-nin səlahiyyət zonasına daxil deyil

***2022, 19 dekabr***
- Sülhməramlıların avtomobilləri Laçın-Xankəndi yolundan növbəti dəfə maneəsiz keçib

***2022, 17 dekabr***
- Laçın yolundakı aksiya ilə əlaqədar xarici ölkə parlamentlərinə məktublar ünvanlanıb

***2022, 16 dekabr***
- Adil Əliyev: Laçın yolundakı aksiya Azərbaycanın yumşaq gücünü göstərir

***2022, 15 dekabr***
- Laçın yolundakı pozuntular üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq baş verir

***2022, 13 dekabr***
- Hikmət Hacıyev: Ermənistanın Laçın yolunun bağlanması barədə iddialarını qətiyyətlə rədd edirik
- Laçın-Şuşa yolunda etiraz aksiyasına daha çox insan qoşulur

***2022, 12 dekabr***
- Laçın-Şuşa yolunda Azərbaycan ekoloq və fəallarının etiraz aksiyası davam edir

***2022, 8 dekabr***
- XİN: Karen Donfrid Laçın yolunda son qanunsuz fəaliyyətlər barədə məlumatlandırılıb: Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin köməkçisi arasında telefon danışığı olub

***2022, 29 noyabr***
- Laçın rayonu tezliklə Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək

***2022, 4 oktyabr***
- ABŞ mətbuatı Azərbaycan Prezidentinin Laçın şəhərinə səfərindən yazıb

***2022, 3 oktyabr***
- Hərbi hissənin yaradılmasının 22-ci ildönümü Laçında qeyd edilib

***2022, 28 sentyabr***
- Fransa mətbuatı Prezident İlham Əliyevin Laçın şəhərində etdiyi çıxışın tam mətnini yayıb

***2022, 27 sentyabr***
- Laçın istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirilib

***2022, 23 sentyabr***
- Moldova mətbuatı Prezident İlham Əliyevin Laçın şəhərinə səfərinə geniş yer ayırıb
- Siyasi-diplomatik qələbənin Laçın zirvəsi
- Müzəffər Ali Baş Komandan Laçın şəhərində üçrəngli bayrağımızı ucaltmaqla, tarixi ədaləti bərpa etdi
- Səttar Möhbalıyev: Laçın rayonu yaxın gələcəkdə ölkə iqtisadiyyatına mühüm töhfələr verəcək
- Laçın şəhərinin boşaldılması üçün ayrılan müddətin uzadılması dövlətimizin başçısının humanistliyinin daha bir nümayişi oldu
- Deputat: Laçın şəhərinin şəhid vermədən azad edilməsi mühüm tarixi hadisədir
- Laçında dalğalanan dövlət bayrağımız – mühüm tarixi hadisədir

***2022, 22 sentyabr***
- Prezident İlham Əliyevin Laçında Azərbaycan Bayrağını ucaltması Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb
- Azərbaycan Prezidentinin Laçına səfəri və söylədiyi fikirlər Gürcüstan KİV-in diqqət mərkəzindədir
- Deputat: Laçın şəhərinin şəhid vermədən azad edilməsi Prezident İlham Əliyevin siyasi-diplomatik qələbəsidir
- Yaponiya portalı Azərbaycan Prezidentinin Laçın şəhərinə səfəri və oradakı çıxışı barədə məlumatlar yayıb

***2022, 21 sentyabr***
- Erməni təxribatı zamanı Laçın istiqamətində basdırılan növbəti minalar zərərsizləşdirilib
- Prezident İlham Əliyev: Azərbaycan Bayrağı Laçın şəhərində əbədi dalğalanacaq
- Prezident: Minsk qrupunun həmsədrləri Laçında qanunsuz məskunlaşma aparıldığını görür, ancaq buna göz yumurdular
- Prezident İlham Əliyev: Laçın şəhəri, Zabux və Sus kəndləri, ilk növbədə, yenidən qurulacaq

- Prezident: Murov dağından Laçın şəhərinədək ümumi uzunluğu 17,5 kilometr olan 12 tunel tikilir
- **Prezident İlham Əliyev Laçın rayonuna səfər edib: Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanışlıq**
- **Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb: Prezident İlham Əliyevin çıxışı**
- **"Laçın" Qovşaq Yarımstansiyasının təməli qoyulub: Prezident İlham Əliyev tədbirdə iştirak edib**

***2022, 20 sentyabr***
- Laçın rayonu ərazisində erməni təxribatı zamanı basdırılan növbəti minalar zərərsizləşdirilib

***2022, 14 sentyabr***
- Kəlbəcər və Laçın istiqamətində bölmələrimiz artilleriya atəşinə məruz qalıb
- Laçında mövqelərimiz artilleriya qurğuları və minaatanlardan atəşə tutulur

***2022, 11 sentyabr***
- Müdafiə Nazirliyi: Kəlbəcər və Laçın istiqamətlərində mövqelərimiz yenidən atəşə tutulub

***2022, 9 sentyabr***
- Erməni əsilli "ombudsman"dan gülünc açıqlama: Laçında tapılan minalar Birinci Dünya müharibəsinə aid ola bilər

***2022, 7 sentyabr***
- Kəlbəcər və Laçın istiqamətlərində mövqelərimiz yenidən atəşə tutulub
- Laçında mülki şirkətə məxsus ekskavator atəşə tutulub

***2022, 6 sentyabr***
- İsrail mətbuatı Laçın şəhərinin azad olunmasının əhəmiyyətindən yazıb

***2022, 5 sentyabr***
- İndoneziya saytları Laçın şəhərinin ölkəmizin nəzarətinə keçməsi barədə azərbaycanlı professorun müsahibəsini yayıblar

***2022, 4 sentyabr***
- Kəlbəcər və Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

***2022, 3 sentyabr***
- Məşhur fotojurnalist Reza Deqati instaqram hesabında ermənilərin Laçında törətdikləri vəhşilikləri əks etdirən video paylaşıb

***2022, 2 sentyabr***
- Türkiyənin Anadolu Agentliyi Laçın rayonundan xüsusi reportaj hazırlayıb
- Laçında döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib
- Ərəb mediası Azərbaycan diplomatının azad Laçın haqqında məqaləsini dərc edib

***2022, 1 sentyabr***
- Müdafiə Nazirliyi Laçın rayonunun Sus kəndindən videogörüntülər yayıb

***2022, 31 avqust***
- Müdafiə Nazirliyi Laçın rayonunun Zabux kəndindən videogörüntülər yayıb
- Yaponiyalı mütəxəssis: Laçın şəhərinin azad olunması ilə Qarabağ ətrafında vəziyyət yeni mərhələyə qədəm qoydu

***2022, 30 avqust***
- İndoneziyalı ekspert: Laçının işğaldan azad olunması bizi çox sevindirir

***2022, 29 avqust***
- Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tədbirlər icra edilir

***2022, 28 avqust***
- Türkiyəli ekspert: Laçının mərkəzində Azərbaycan Bayrağının qaldırılmasını görməkdən qürur duyduq
- TÜRKPA Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasına dair bəyanat yayıb
- Laçın şəhəri, Zabux və Sus kəndlərində hərbi polisin xidməti fəaliyyəti təşkil edilib

***2022, 27 avqust***
- Türk Dövlətləri Təşkilatı Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı bəyanat yayıb
- Azərbaycan Ordusunun Laçın şəhərinə daxil olması Gürcüstan KİV-lərinin diqqət mərkəzindədir

- İstanbulda Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı tədbir təşkil edilib
- Hikmət Hacıyev: İşğal dövründə Ermənistan Zabux və Susda genişmiqyaslı qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirib
- Yaponiya portalı Azərbaycan bayrağının Laçında ucaldılması barədə məlumatlar yayıb
- Tahir Süleymanov: Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması beynəlxalq hüququn, ədalətin bərpasıdır
- Moldova KİV-ləri: Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb

***2022, 26 avqust***

- Azərbaycanın Dövlət Bayrağı Laçın şəhərində ucaldılıb
- Türkiyə mediası Laçın şəhərinin Azərbaycanın nəzarətinə keçməsindən yazıb
- Türkiyə XİN: Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasından məmnunluq duyuruq
- Ərəb mətbuatı Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlayıb
- Ukrayna KİV-i Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlərə geniş yer ayırıb
- Milli Məclisin sədri Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi ilə bağlı rəsmi tviter səhifəsində paylaşım edib
- Vüqar Rəhimzadə: Biz Laçına qayıtdıq!
- Azərbaycan öz ərazi bütövlüyünü təmin edir:Laçın həsrəti bitdi

**2022, 23 avqust**

- Müşfiq Cəfərov: Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması ədalətin bərpasıdır
- Fərid Şəfiyev: Laçın şəhəri artıq Azərbaycanın nəzarətinə keçir
- Bakıda "Laçın: Postmünaqişə dövrünün yeni mərhələsi" adlı dəyirmi masa keçirilib
- "Laçın və Laçın yolu: "Vətən müharibəsində qələbənin strateji vektoru" mövzusunda dəyirmi masa keçirilib

***2022, 22 avqust***

- Laçında iki hərbi qulluqçumuz minaya düşüb
- Jalə Əliyeva: Laçın da, Zabux da, Sus da öz əbədi-əzəli sakinlərini səbirsizliklə gözləyir

***2022, 20 avqust***

- Tamam Cəfərova: Azərbaycanlıların doğma yurda – Laçına qayıtmaları haqq-ədalətin bərpası baxımından olduqca önəmlidir

***2022, 19 avqust***

- Zəfərimizin Laçın dərsləri: Qələbəmizin dönüş nöqtəsi və Ermənistan dövlətinin terrorçu-vandalizm siyasəti üçün əcəl zəngləri

***2022, 18 avqust***

- Politoloq: Laçın dəhlizinə alternativ yolun istifadəyə verilməsi Azərbaycana bir sıra geostrateji üstünlüklər qazandırır
- Laçında qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib

***2022, 12 avqust***

- Prezident İlham Əliyev: Biz Laçına, Zabuxa, Susa qayıtmalıyıq

***2022, 9 avqust***

- Hikmət Hacıyev: İşğaldan sonra Laçında ermənilərin qanunsuz məskunlaşdırılması aparılıb

***2022, 5 avqust***

- Azərbaycan Ordusunun əsgəri Laçında döyüş tapşırığını yerinə yetirərkən vəfat edib, digər hərbçi xəsarət alıb

***2022, 30 iyul***

- Kəlbəcər və Laçında yerləşən mövqelərimiz atəşə tutulub

***2022, 1 iyul***

- Azər Badamov: Dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu

***2022, 29 iyul***

- Hikmət Babaoğlu: Laçın Beynəlxalq Hava Limanının inşası Şərqi Zəngəzurun inkişafı üçün açar rolunu oynayacaq

***2022, 28 iyul***
- Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarında hərbçilərlə birlikdə olması onlara göstərilən qayğının, dəstəyin ifadəsidir

***2022, 26 iyul***
- **Prezident İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib**
- **Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanışlıq**
- **Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq**

***2022, 24 iyul***
- Müdafiə Nazirliyi: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

***2022, 19 iyul***
- Kəlbəcər və Laçında tikintisi davam edən hərbi obyektlərə baxış keçirilib

***2022, 1 may***
- Laçında dislokasiya olunan hərbi hissədə cari tədris ilinin birinci rübünün nəticələrinə dair yekun iclas keçirilib

***2022, 8 aprel***
- Kəlbəcər və Laçında xidməti-döyüş fəaliyyətləri yoxlanılıb

***2022, 12 yanvar***
- Prezident: Laçın dəhlizi bizim nəzarətimizdədir, biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz

***2021, 30 dekabr***
- Laçın rayonunda yerləşən hərbi hissələrin döyüş hazırlığı yoxlanılıb

***2021, 18 dekabr***
- Kəlbəcər və Laçın rayonlarında hərbi obyektlər istifadəyə verilib

***2021, 14 dekabr***
- Prezident İlham Əliyev: Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır

***2021, 2 dekabr***
- Sədaqət Vəliyeva: Laçın rayonunun işğaldan azad olunması böyük strateji əhəmiyyətə malikdir
- Jalə Əhmədova: Laçın beynəlxalq hava limanı bölgənin statusunu və turizm potensialını artıracaq

***2021, 1 dekabr***
- Adil Əliyev: Laçında hava limanının inşası Azərbaycanın diplomatik gücünün və iqtisadi qüdrətinin təcəssümüdür
- Hicran Hüseynova: Laçın aeroportunun inşası azad edilmiş torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir
- Tamam Cəfərova: Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq
- Səttar Möhbalıyev: Laçında hava limanının tikintisi bölgənin beynəlxalq statusunu artıracaq
- Deputat: Laçın rayonunda inşa ediləcək aeroport ölkənin turizm potensialının artırılmasına təkan verəcək
- Laçın rayonunun işğaldan azad olunması ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi

***2021, 28 noyabr***
- Qubadlının azad edilməsi Laçın istiqamətində Ordumuzun yolunu açdı

***2021, 14 noyabr***
- Dövlət sərhədinin Laçın rayonu istiqamətində ermənilər növbəti təxribata cəhd göstərib

***2021, 10 noyabr***
- Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir

***2021, 22 oktyabr***
- Kəlbəcər və Laçın rayonlarında döyüş mövqelərinə baxış keçirilib

***2021, 21 oktyabr***
- Kəlbəcər və Laçın rayonlarında hərbi hissələrin qışa hazırlığı yoxlanılıb

***2021, 19 oktyabr***
- Laçında komanda-qərargah təlimi başlayıb

***2021, 17 oktyabr***
- Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır

***2021, 11 oktyabr***

- Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi başa çatıb
  ***2021, 7 oktyabr***
- Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi davam edir
  ***2021, 7 sentyabr***
- Misir nəşri Laçında keçirilən Azərbaycan-Türkiyə birgə təlimindən yazıb
  ***2021, 6 sentyabr***
- Laçın rayonunda Azərbaycan-Türkiyə birgə təlimi başlayıb
  ***2021, 24 avqust***
- Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir
  ***2021, 19 avqust***
- Qırğızıstan və Özbəkistan portalları Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri haqqında materiallar verib
  ***2021, 18 avqust***
- Sədaqət Vəliyeva: Müzəffər Ali Baş Komandanın Kəlbəcər və Laçın səfəri tarixi hadisədir
- Deputat: Prezidentin və birinci xanımın Kəlbəcərə və Laçına səfərləri erməni təxribatlarının arxasında dayananlara cəhdlərinin əbəs olduğuna dair mesajdır
  ***2021, 17 avqust***
- Prezident: Gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq
- Anadolu Agentliyi Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri ilə bağlı videomaterial yayıb
- Səttar Möhbalıyev: Azərbaycan Prezidentinin səfəri göstərdi ki, Kəlbəcər və Laçının parlaq gələcəyi uzaqda deyil
- Deputat: Prezident İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir
  ***2021, 16 avqust***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar**
  ***2021, 8 avqust***
- Müdafiə naziri Kəlbəcər və Laçın rayonlarında yerləşən hərbi hissələrdə olub
  ***2021, 7 avqust***
- Müdafiə naziri Kəlbəcər və Laçın rayonlarında hərbi tibb müəssisələrinə baxış keçirib
  ***2021, 26 iyul***
- MN: Laçın dəhlizi, Xocavənd və Naxçıvan istiqamətlərində guya döyüşlərin getməsi barədə Ermənistanın yaydığı məlumatlar əsassızdır
  ***2021, 8 iyul***
- Müdafiə Nazirliyi Laçın rayonunun Şeylanlı kəndindən videogörüntülər paylaşıb
  ***2021, 4 iyul***
- Laçın rayonunun Minkənd kəndindən videogörüntülər
  ***2021, 2 iyul***
- Müdafiə Nazirliyi Laçın rayonunun Seyidlər kəndindən videogörüntülər paylaşıb
  ***2021, 28 iyun***
- Müdafiə Nazirliyi Laçın rayonunun Şeylanlı kəndinin videogörüntülərini yayıb
  ***2021, 13 iyun***
- Laçın rayonunun Əhmədli kəndindən videogörüntülər
  ***2021, 12 iyun***
- Müdafiə Nazirliyi Laçın rayonunun Kamallı kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 11 iyun***
- Müdafiə Nazirliyi Laçın rayonunun Bozlu kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 8 iyun***
- Azərbaycan Müdafiə Nazirliyi: Laçın istiqamətində düşmənin diversiya qrupunun bir üzvü saxlanılıb

- Müdafiə Nazirliyi Laçın rayonunun Ağbulaq kəndinin videogörüntülərini paylaşıb

***2021, 6 mart***

- Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Qubadlı və Laçın rayonlarına səfəri təşkil edilib

***2021, 14 fevral***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar**

***2020, 29 dekabr***

- Azərbaycan Prezidenti hərbi qulluqçuların bir qrupunu "Laçının azad olunmasına görə" medalı ilə təltif edib

***2020, 3 dekabr***

- Laçın və Kəlbəcər rayonlarına komendantlar təyin olunub
- İşğaldan azad edilmiş Laçın rayonunun Hüsülü və Malıbəy kəndləri
- İşğaldan azad edilmiş Laçın şəhərinin videogörüntüləri
- Özbəkistan portalları Azərbaycan Prezidentinin Laçının işğaldan azad olunması ilə bağlı xalqa müraciəti haqqında materiallar verib

***2020, 2 dekabr***

- "Arabnews" qəzeti Laçın rayonunun işğaldan azad edilməsindən yazır
- Müdafiə Nazirliyi Laçın rayonunun Qarıqışlaq kəndindən videogörüntülər yayıb
- Moldova mətbuatı Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərləri geniş işıqlandırıb
- Ukrayna KİV-ləri Azərbaycan Ordusunun Laçın rayonuna daxil olmasına dair xəbərlərə geniş yer ayırıb

***2020, 1 dekabr***

- "Le Figaro" Laçının Azərbaycana qaytarılmasından yazıb
- Ərəb telekanalları Azərbaycan Ordusunun Laçına daxil olması barədə reportajlar yayıb
- Xalqımız Laçının işğaldan azad olunmasının sevincini yaşayır-Fotosessiya
- Böyük strateji əhəmiyyət kəsb edən Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri olan rayondur
- **Birinci vitse-prezident Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib**
- Türkiyə Milli Müdafiə Nazirliyi: Qəhrəman Azərbaycan Ordusu Laçına daxil olub
- Doğma Laçına kiçik ailə biznesləri ilə qayıdacaqlar
- İşğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağı qaldırılıb
- BERNAMA agentliyi Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olması barədə xəbəri yayıb
- Kolumbiya televiziyası erməni təcavüzünün nəticələrini işıqlandırıb
- Misir portalı Azərbaycan Ordusunun Laçına daxil olmasından yazıb
- Azərbaycan Ordusunun Laçına daxil olması Türkiyə mediasının baş xəbəridir
- Azərbaycan Ordusunun bölmələri Laçın rayonuna daxil olub
- **Prezident İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib**
- Bakı sakinləri Laçının işğaldan azad edilməsini avtomobil yürüşü ilə qeyd edirlər
- Prezident İlham Əliyev: Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək
- Laçın rayonunun azad edilməsi Azərbaycan Ordusunun tarixi qələbəsinin yekunudur
- Prezident İlham Əliyevin Laçının işğaldan azad olunması münasibətilə xalqa müraciəti Misir KİV-lərinin diqqət mərkəzindədir
- Laçın rayonunun Azərbaycana təhvil verilməsi ilə ölkəmizin ərazi bütövlüyü bərpa olunub
- Prezident İlham Əliyev Laçın dəhlizi ilə bağlı bəzi təfərrüatları açıqlayıb
- Laçının azad olunması ilə Azərbaycan üçün yeni dövr başlayır

***2020, 14 noyabr***

- Laçın rayonunun işğaldan azad olunan Güləbürd kəndindən videoreportaj

***2020, 25 oktyabr***

- Qoşunlarımız Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq yeni mövqelərə irəliləyib

***2020, 24 oktyabr***

- Azərbaycan MN: Laçın və Qubadlı rayonları Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutulur

**XİN: BMT-nin bəzi xüsusi məruzəçilərinin "Laçın dəhlizi"nin blokadada saxlandığı iddiası təəssüf doğurur**

BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil ekspertinin guya Azərbaycan tərəfindən "Laçın dəhlizi"nin blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı iddiası ilə çıxış etməsi təəssüf doğurur və BMT orqanlarının siyasi manipulyasiya alətinə çevrilməsi cəhdlərindən xəbər verir.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, 30 il ərzində Azərbaycan ərazilərinin işğalına, 1 milyona yaxın qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasına, son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğuna, məcburi köçkünlərin öz evlərinə geri qayıtmasına maneçilik törədilməsinə göz yuman BMT xüsusi məruzəçilərinin və ekspertlərinin Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verməsi narahatlıq doğurur. Bununla yanaşı, həmin şəxslərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyərək bəyanatda "Dağlıq Qarabağ" kimi ifadələr işlətməsi, ölkəmizin daxili işlərinə qarışması və ikili yanaşmalar tətbiq etməsi qəbuledilməzdir.

Bir daha xatırlatmaq istərdik ki, Ermənistan öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrini torpaqlarımızdan tam olaraq çıxarmamaqla yanaşı, Laçın yolu vasitəsilə onların rotasiyasını həyata keçirib, silah-sursatla təchiz edib, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi ilə məşğul olub. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatlar tərəfindən susqunluqla qarşılanıb.

Azərbaycan məhz öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə, özünün suveren ərazilərində Laçın sərhəd-buraxılış məntəqəsi təsis edib. Beynəlxalq Ədalət Məhkəməsinin də 6 iyul tarixli qərarında bu sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müraciəti yekdilliklə rədd etməsi, bir daha Ermənistan tərəfinin iddialarının əsassız olduğunu sübut edib.

Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi ərazilərimizdə qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə, bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, 15 iyun tarixində sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, yük avtomobillərinin 26 iyul tarixində Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı təxribatlardan çəkinilməsi və təhlükəsiz keçidə zəmanət verilməsinə dair çağırışlara baxmayaraq, Ermənistan tərəfi yenə də təxribatlarını davam etdirib.

Bütün bu təxribatlara baxmayaraq, Azərbaycan tərəfi BQXK tərəfindən erməni sakinlərin keçidinə şərait yaradır.

Azərbaycanın suveren ərazilərində yaşayan erməni sakinlərin ehtiyaclarının qarşılanması məsələsinə gəldikdə isə bunun üçün Azərbaycan tərəfindən "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürülməsinə və onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması "humanitar vəziyyət" barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Azərbaycan hazırda bölgədə davamlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün səy göstərir və bu məqsədlə sülh sazişi, delimitasiya, kommunikasiyaların açılması istiqamətində təşəbbüslər irəli sürüb. Bu səyləri dəstəkləmək əvəzinə qərəzli bəyanatlar verilməsi prosesə müsbət təsir etməyəcək.

**AZƏRTAC**
**2023, 7 avqust**

**Ermənistanın əsl məqsədi Laçın yolu ilə bağlı beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmaqdır**

Ermənistanın Azərbaycanla razılaşdırmadan suveren ərazimizə "humanitar yardım" adı altında yük avtomobilləri göndərmək cəhdi ərazi bütövlüyümüzə, beynəlxalq hüququn fundamental prinsiplərinə açıq hörmətsizlikdir. Çox təəssüf ki, biz bir sıra beynəlxalq təşkilatların, ayrı-ayrı ölkələrin bu məsələyə qeyri-obyektiv yanaşmasını müşahidə edirik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov deyib.

Deputat vurğulayıb ki, Ermənistanın əsl məqsədinin süni ajiotaj yaratmaq, Laçın yolu ilə bağlı beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmaqdan ibarət olduğu çox aydın şəkildə görünsə də, bəzi dövlətlər bu məsələyə ikili standartlar prizmasından qiymət verir.

Deputat xatırladıb ki, 2014-cü ildə Rusiya Federasiyasının Ukrayna ərazisinə humanitar yardım göndərmək təşəbbüsünə beynəlxalq birliyin reaksiyası tamamilə fərqli motivlərə əsaslanmışdı: "Bu barədə Azərbaycan mediasında da maraqlı araşdırmalar dərc olunub. Bu, əslində bütövlükdə Azərbaycan ictimaiyyətini maraqlandıran bir mövzudur. 2014-cü il avqustunda Rusiyanın irəli sürdüyü Donetsk və Luqanska humanitar karvanlarının göndərilməsi təklifi Qərb ölkələrinin kəskin etirazına səbəb olmuşdu. ABŞ Rusiyanın Ukraynaya humanitar yardım çatdırmaqla bağlı birtərəfli addımını birbaşa işğal kimi qiymətləndirəcəyini, ATƏT isə yardımın Ukraynanın ərazi bütövlüyünə hörmət edilmək şərti ilə çatdırılmasının zəruriliyini bəyan etmişdi. Ümumiyyətlə, müxtəlif ölkələrin və beynəlxalq qurumların məsələ ilə bağlı ümumi mövqeyi bundan ibarət idi ki, Ukraynanın rəsmi icazəsi olmadan "humanitar yük" karvanının göndərilməsi Ukraynanın suverenliyinə hörmətsizlikdir. Əlbəttə ki, onlar bu mövqelərində haqlı idilər. Məhz bu kontekstdə baxdıqda, bu gün Laçın yolu ətrafında baş verənlərə bir çox qərb dövlətləri və beynəlxalq təşkilatların yanaşması tamamilə anlaşılmazdır".

Soltan Məmmədov qeyd edib ki, Ermənistanın başqa bir dövlətin ərazisinə razılaşdırmadan humanitar yardım göndərmək cəhdi siyasi sabotajdır və əsas məqsəd Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlara zərbə vurmaqdan ibarətdir. Azərbaycanın mövqeyi isə beynəlxalq hüquqa əsaslanır: "Ukrayna və Qərb dövlətləri, eləcə də onlarla eyni mövqedən çıxış edən beynəlxalq təşkilatlar 9 il bundan öncə Rusiyanın Donetsk və Luqanska humanitar yardım göndərmək təşəbbüsünə hansı arqumentlərlə etiraz edirdilərsə Azərbaycan bu gün Ermənistanın eyni məzmunlu cəhdinə münasibətdə eyni arqumentlərə istinad edir. Çünki beynəlxalq hüquq ölkələrə və ərazilərə fərqli şəkildə tətbiq oluna bilməz. Təəssüf ki, biz bu gün həmin ölkələrin və qurumların tamamilə fərqli mövqeyini müşahidə edirik. Bu, beynəlxalq nizam qaydalarının işlək mexanizmlərinin effektivliyini itirdiyinə, ikili standartların beynəlxalq münasibətlər sisteminin ən təsirli prinsiplərindən birinə çevrildiyinə dair mülahizələrin əsaslı olduğunu göstərir".

Milli Məclisin deputatı bildirib ki, Azərbaycan öz haqlı mövqeyindən geri çəkilməyəcəyini ən yüksək səviyyədə bəyan edib. Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Laçın yolu ilə bağlı Azərbaycan dövlətinin mövqeyini çox aydın və konkret şəkildə bildirib: "Azərbaycana təzyiq yolu ilə hansısa ədalətsiz yanaşmanı qəbul etdirmək mümkün deyil. Yaxın tariximizin təcrübəsi bunu dəfələrlə təsdiq edib. Regionda və dünyada baş verən mürəkkəb, ziddiyyətli proseslər fonunda ölkənin milli təhlükəsizliyini və dövlət maraqlarını qorumaq nə qədər çətin olsa da Azərbaycan güclü bir dövlət kimi haqlı və ədalətli mövqeyini qətiyyətlə müdafiə edəcək".

**AZƏRTAC**
**2023, 6 avqust**

**Ermənistan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi istiqamətində təxribatı davam etdirir**

Ermənistan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində təxribatları davam etdirir. Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhaliyə Azərbaycan tərəfi ilə razılaşdırmadan "humanitar yük" daşıyan avtomobil karvanı iyulun 26-dan etibarən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfindəki aşırımda dayanıb.

AZƏRTAC xəbər verir ki, avqustun 2-də Azərbaycanın Qarabağ iqtisadi rayonuna hərəkət etmək istəyən daha iki yük avtomobili digər yük avtomobillərinin dayandığı əraziyə gəlib. Bununla da avtomobil karvanında olan nəqliyyat vasitələrinin sayı 21-ə çatıb.

Bu, Ermənistanın məkrli niyyətini və təxribatçılıq əməllərini davam etdirdiyini, gərginliyi artırmağa çalışdığını bir daha göstərir. Azərbaycanın ölkəmizlə razılaşdırmadan heç bir yükün suveren ərazilərimizə keçirilməsinə icazə verməcəyini, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizə malların daşınması üçün Ağdam-Xankəndi yolundan istifadə oluna biləcəyini dəfələrlə bəyan etməsinə baxmayaraq, ermənilərin "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən istifadə etməkdə israrlı olması ictimai rəyi çaşdırmaq üçün növbəti cəhdidir. Ermənistanın sərhəddə yol verdiyi əməllər birbaşa siyasi şou, manipulyasiya və təxribat xarakteri daşıyır.

Qeyd edək ki, aprelin 23-dən – "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi qurulduğu vaxtdan indiyədək Qarabağın 2 mindən artıq sakininin Ermənistana asan şəkildə gediş-gəlişi təmin olunub.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 2 avqust**

**Azərbaycanın diaspor təşkilatları Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb**

Azərbaycanın diaspor təşkilatları Laçın-Şuşa-Xankəndi yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriçin Azərbaycanın Qarabağ bölgəsindəki erməni sakinlər üçün təchizat məsələsi ilə bağlı 2023-cü il 28 iyul tarixli bəyanatı bizdə böyük təəccüb və təəssüf hissi yaratdı. Bu açıqlama Şuranın Nizamnaməsində, İnsan Hüquqları üzrə Avropa Konvensiyasında və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş məqsəd və prinsiplərə ziddir.

Azərbaycanın diaspor təşkilatları bildirir ki, ölkəmizin Qarabağ bölgəsində yaşayan ermənilərin guya blokadaya alınması və humanitar fəlakətlə üzləşməsi barədə deyilənlər Ermənistanın beynəlxalq ictimai rəyi çaşdırmaq üçün əl atdığı növbəti böhtan və cəfəngiyyatdır. Belə ki, 2020-ci ildə 44 gün davam edən və Azərbaycanın tarixi Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsindən qısa müddət sonra rəsmi Bakı 30 illik işğala və məşəqqətlərə baxmayaraq, iki ölkə arasında bir-birinin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşmasına dair baza prinsipləri, həmçinin sülh müqaviləsi təklifi ilə çıxış edib. Ermənistan tərəfi bu sülh təşəbbüslərinə uzun müddət cavab verməsə də və müxtəlif bəhanələrlə prosesi ləngitsə də, Azərbaycan tərəfi qətiyyət göstərərək sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması istiqamətində təşəbbüslərin irəlilədilməsi üçün xoşməramlı səylərini davam etdirib. Azərbaycanın hakimiyyət orqanları tərəfindən Qarabağ bölgəsinin yerli erməni sakinləri ilə dialoq istiqamətində ardıcıl addımlar atılıb, yeni Laçın yolunun tikintisi qısa müddətdə başa çatdırılıb və yol istifadəyə verilib.

Ermənistan tərəfi isə bunun əksinə, "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" kimi əsassız təkliflə çıxış edərək, Azərbaycan və yerli erməni sakinlər arasında təmaslara maneçilik törədib və faktiki olaraq ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirib. Eyni zamanda, 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmaya zidd olaraq, öz hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmayıb, mina xəritələrini rəsmi Bakıya təqdim etmək əvəzinə, ölkəmizin ərazilərini minalamağa davam edib. Nəticədə 2020-ci ilin noyabr ayından bəri ikisi jurnalist olmaqla, 303 azərbaycanlı minaların qurbanına çevrilib.

Azərbaycan sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi təsis edib. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, iyunun 15-də Azərbaycan sərhədçilərinin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, iyulun 26-da yük avtomobillərinin Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə, onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması Ermənistanın humanitar vəziyyət barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Azərbaycanın diaspor təşkilatları bəyan edir ki, Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini iflasa uğratmaqdan ibarətdir. Son günlər baş verən bütün bu təxribatlara görə məsuliyyət Azərbaycan ərazilərində qanunsuz hərbi mövcudluğu davam etdirən, separatizmi təşviq edən və reinteqrasiya səylərinə əngəl törədən Ermənistan və onun rəhbərliyinin üzərinə düşür. Eyni zamanda, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən zorla qovulmuş bir milyona yaxın azərbaycanlının çəkdiyi iztirablara, Ermənistanın 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində soyqırımı törətməsinə, 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamasına, Naxçıvan Muxtar Respublikasını 32 ildir blokadaya almasına, son üç il ərzində Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, Ermənistanın kommunikasiyaların açılmasına maneçilik törətməsinə göz yuman bir sıra ölkələrdən və beynəlxalq təşkilatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi, daxili işlərinə qarışmamağı və ikili standartlar siyasətinə son qoymağı tələb edirik".

**AZƏRTAC**
**2023, 30 iyul**

## Laçın yolundan Zəngəzur dəhlizinə: Azərbaycan qüdrətinin həqiqətləri

Dünyaya Azərbaycan həqiqətlərini təsdiqlədən Zəfər savaşı həm də "Qarabağ Azərbaycandır!" şüarını bunun əksini iddia edən erməni liderinə qəbul etdirdi. Vətən savaşından əvvəl Cıdır düzündə kef məclisi qurub sərsəm iddialarda olan Paşinyan ən yüksək səviyyədə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağın da ölkəmizin ayrılmaz hissəsi olduğunu bəyan etdi. İndi erməni baş nazirin daha bir sözünü geri götürmək zamanıdır. Söhbət "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən və Zəngəzur dəhlizindən gedir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Fəzail İbrahimli söyləyib.

F.İbrahimli bildirib: "Əvvəla onu qeyd edək ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-keçid məntəqəsinin yaradılması tarixi hadisə olaraq Zəfər savaşımızdan sonra ikinci böyük uğurumuz sayıla bilər. Bununla Vətən müharibəsindəki Qələbəmizə həm də rəsmi möhür vurulmuş oldu. Çünki Laçın yolu ermənilərin istədiyi kimi istifadə etdiyi marşruta çevrilmişdi və bu yolla Ermənistandan silah-sursat, hərbi texnika, minalar və canlı qüvvə daşınır, istənilən şəxs rahat şəkildə Azərbaycan ərazisinə girib-çıxa bilirdi. Daşınan minaların Azərbaycan Ordusunun hərəkət marşrutlarında basdırılması nəticəsində onlarla hərbçimiz şəhid olub. Sərhəd-buraxılış məntəqəsinin qurulması Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını maksimum şəkildə məhdudlaşdırmış oldu. Bu addım Azərbaycan dövlətinin qətiyyətini və Prezident İlham Əliyevin "nəyi nə zaman etmək lazım olduğunu mən yaxşı bilirəm" sözlərini bir daha təsdiqləmiş oldu".

Ötən müddət ərzində keçid məntəqəsində ermənilərin yoxlanılaraq normal gediş-gəlişinə şəraitin yaradıldığını, eyni zamanda, Azərbaycanın Qarabağda yaşayan ermənilərə humanitar yardım üçün Ağdam-Xankəndi yolunu təklif etdiyini vurğulayan Milli Məclis sədrinin müavini diqqətə çatdırıb: "Amma "humanitar böhran"dan dəm vuran ermənilər bu təklifi rədd ediblər. Əvəzində isə hər vəchlə çalışırlar ki, Laçın dəhlizində hansısa təxribata yol açsınlar. Ölkəmiz ilə razılaşdırmadan suveren ərazimizə "humanitar yük" adı altında avtomobil karvanı göndərən Ermənistan, sözün həqiqi mənasında, təxribat şousu yaradır. Bu prosesdə təəssüf doğuran məqamlardan biri də avropalı diplomatların bu təxribat planının iştirakçısına çevrilmələridir. Belə ki, "humanitar karvan" yola salınmazdan əvvəl Ermənistandakı bəzi diplomatik nümayəndələr Ermənistan XİN-ə dəvət olunub, "zəruri planlama" aparılıb. Ardınca isə Qərbin siyasi missionerləri "humanitar karvan"dan qabaq "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaxınlığında peyda oldu. Bu diplomatlar unudurlar ki, Azərbaycan tərəfinin addımları beynəlxalq hüququn normaları ilə müəyyənləşib: hər dövlətin sərhədi və sərhəd-keçid məntəqələri olduğu kimi, Azərbaycanın da qonşu dövlətlərlə sərhəd-keçid məntəqələri yaratması və burada öz suveren hüquqlarını qoruması təbiidir. Məqsəd həqiqətən də humanitar yüklər və keçidlər üçün istifadədirsə, heç bir problem yoxdur, Azərbaycan dövləti bunun üçün alternativ marşrut təklif edib".

F.İbrahimli qeyd edib ki, ermənilərin havadarları Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda öz iddialarından əl çəkməlidirlər. "Rəsmi Bakı dəfələrlə bəyan edib ki, rusiyalı sülhməramlıların müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yaşayan ermənilər üçün yüklərin daşınması məqsədilə Ağdam-Xankəndi marşrutundan istifadə oluna bilər. Bakının təklif etdiyi marşrutu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də təqdir və qəbul edib. Belə çıxır ki, indi "narahat" olan, ermənilərin şousuna qatılan Aİ nümayəndələri Ş.Mişelin mövqeyini heçə sayırlar?! Son təxribat bölgədə sülhün bərqərar olunmasına yox, yeni hərbi əməliyyatlara təkan verilməsinə yönəlib. İndi narahat olduqlarını deyən və Azərbaycana təzyiq göstərməyə çalışan avropalı siyasətçilər faktiki olaraq erməni separatizmini, revanşizmini və aqressiv radikalizmini dəstəkləyir, Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik nümayiş etdirir, ən başlıcası isə mövqelərimizdən zərrə qədər geri çəkilməyəcəyimizi anlamırlar. Onlar hesab edirlər ki, Azərbaycana bu təzyiqi etməklə ölkəmizin öz suveren hüquqlarından imtina etməsinə nail olacaqlar. Amma unudurlar ki, Qarabağ Azərbaycan ərazisidir. Dünyada elə ölkə yoxdur ki, kimsə onun sərhədlərini "humanitar yardım" adı ilə istənilən vaxt və istənilən şəkildə pozaraq oraya qeyri-qanuni şəkildə daxil olsun. Bu təxribat şousu da iflasa uğrayacaq. Ermənilər heç bir nəticə əldə edə bilməyəcəklər. Əksinə, İrəvan və onun himayədarları Azərbaycanın qüdrəti qarşısında bir daha əyiləcəklər. İndi təxribat şousu ilə nə qədər çabalasalar da, fitnə-fəsadlar törətsələr də, əngəl olmağa çalışdıqları Zəngəzur dəhlizi mütləq açılacaq. Bu təxribat Azərbaycanın qarşısını ala bilməyəcək və gün keçdikcə Zəngəzur dəhlizi aktuallıq

çəkisini artırdıqca, rəsmi Bakı lazım olan bütün addımları atacaq. Nəyi nə vaxt etməyi dəqiq bildiyimizi düşmənə dəfələrlə sübut etmişik!", - deyə F.İbrahimli vurğulayıb.

**AZƏRTAC**
**2023, 28 iyul**

**Ermənistan tərəfindən nəqliyyat vasitələrinin "Laçın" buraxılış məntəqəsində cəmləşdirilməsi beynəlxalq ictimai rəyi çaşdırmaq cəhdidir**

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti iyulun 25-də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırıldığı barədə məlumat yaymışdı. Azərbaycan tərəfi Ermənistanı təxribat xarakteri daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırmışdı və baş verə biləcək hər hansı hadisəyə görə məhz rəsmi İrəvanın məsuliyyət daşıyacağını bildirmişdi. Edilən xəbərdarlıqlara baxmayaraq, iyulun 26-da Ermənistan tərəfindən nəqliyyat vasitələrinin "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində cəmləşdirilməsi həyata keçirilib. Bu, Ermənistan tərəfinin siyasi şousu, manipulyasiyadır və növbəti təxribat cəhdidir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolundan istifadə oluna biləcəyini dəfələrlə bəyan edib. Yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən nə üçün imtina etmələri qətiyyən başadüşülən deyil. Əslində isə bu, rasizmin açıq təzahürü və beynəlxalq ictimai rəyi çaşdırmaq cəhdidir.

Ermənistan bu addımla siyasi şou yaradır və siyasi möhtəkirlik nümunəsi ortaya qoyur.

Xarici səfirliklərin, o cümlədən Avropa İttifaqının nümayəndələrini yığıb sərhədə gətirmək, sözün əsl mənasında, məsələdən tamaşa düzəltmək anlamına gəlir. Digər tərəfdən, Qərb ölkələrinin səfirliklərinin nümayəndələrinin bu tamaşada iştirakı riyakarlıqdan başqa bir şey deyil.

Ermənistanın və onun havadarlarının növbəti şousu heç bir nəticə verməyəcək və iflasa məhkumdur.

Xatırladaq ki, Azərbaycan tərəfi Ermənistanla sülh müqaviləsi imzalamaq niyyətində olduğunu bəyan edib və bununla bağlı təkliflərini də qarşı tərəfə təqdim edib. Bu, əraziləri uzun illər işğal altında qalmasına baxmayaraq, ölkəmizin sülhsevər siyasət yürütdüyünü göstərir. Eyni zamanda, Azərbaycan tərəfi Ermənistanı vəziyyəti gərginləşdirəcək hər hansı təxribatçı əməllərdən çəkinməyə çağırıb.

**Aydın Yavər**

**AZƏRTAC**
**2023, 26 iyul**

**DSX "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin Ermənistan tərəfində planlaşdırılan təxribatla əlaqədar xəbərdarlıq edib**

Əldə edilmiş məlumata əsasən, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində iyulun 26-da Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırılır.

Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

"Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırırıq. Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir", - deyə məlumatda bildirilib.

**AZƏRTAC**
**2023, 25 iyul**

**Nazir: Laçın sərhəd buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur**

Laçın sərhəd buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Mixail Yevdokimovla görüşü zamanı deyib.

Vurğulanıb ki, Laçın sərhəd buraxılış məntəqəsinin yaradılması qanunazidd fəaliyyətlərin qarşısının alınması, habelə şəffaflığın təmin olunması məqsədi daşıyır. Buna baxmayaraq, Ermənistan tərəfinin məntəqəyə qarşı 15 iyun və iyul ayının əvvəlində təxribatlardan əl çəkmədiyi qeyd olunub.

Azərbaycan tərəfi isə yenə də erməni sakinlərin bu məntəqədən keçidi üçün şərait yaradıb. Eyni zamanda, Azərbaycanın erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadənin mümkün olduğu diqqətə çatdırılıb.

**AZƏRTAC**
**2023, 17 iyul**

**Prezident İlham Əliyev Antoni Blinkeni Laçın sərhəd-buraxılış məntəqəsində silahlı təxribat və qaçaqmalçılıq barədə məlumatlandırıb**

Azərbaycan Prezidenti Prezident İlham Əliyev telefon danışığı zamanı ABŞ Dövlət katibi Antoni Blinkeni Laçın buraxılış məntəqəsində silahlı təxribat və qaçaqmalçılıq barədə məlumatlandırıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə humanitar yüklərin, fərdi keçidlərin və tibbi təxliyənin normal qaydada təşkil olunmasına baxmayaraq, iyunun 15-də Ermənistan tərəfindən törədilmiş silahlı təxribatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin müşayiəti ilə həyata keçirilən humanitar daşımalarda qaçaqmalçılıq hallarının aşkar edildiyini diqqətə çatdırıb və bu xüsusda araşdırmaların aparıldığını vurğulayıb.

**AZƏRTAC**
**2023, 13 iyul**

**Azərbaycan Ordusunun Şuşa və Laçın istiqamətində mövqeləri atəşə tutulub**

İyulun 12-si saat 09:25-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bundan başqa, saat 10:50-dən 12:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Zabux yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 12 iyul**

**MN: Ermənistan silahlı qüvvələri Ordumuzun Laçın rayonundakı mövqelərini atəşə tutub**

İyulun 12-si saat 13:50-dən 17:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Qızılcıq və Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd və Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 12 iyul**

**Prezident: Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar atılacaq**

Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səsləndirib.

"Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq. Biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**
**2023, 11 iyul**

**Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçın yolu ilə bağlı vəsatətini rədd edib**

Beynəlxalq Ədalət Məhkəməsi İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 2023-cü il 22 fevral tarixli Qərarında dəyişiklik edilməsi məqsədilə Ermənistanın 2023-cü il 12 may tarixli tələbini yekdilliklə rədd edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

“Biz Məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarını alqışlayırıq. Beləliklə, Ermənistan tərəfinin son qərarı yanlış şərh etməsi çıxılmaz vəziyyətdən fikri yayındırmaq cəhdindən başqa bir şey deyil.

Azərbaycanın Laçın yolunun girişində sərhəd-nəzarət buraxılış məntəqəsi təsis etmək qərarı onun sərhədlərin mühafizəsi üzrə suveren hüququdur. Qeyd edilən çərçivədə, bu qərar Azərbaycanın təhlükəsizliyini və sülh perspektivlərini təhdid edən respublikanın suveren ərazisinə qeyri-qanuni olaraq silah, hərbi texnika və hərbçilərin axınının dayandırılması zərurətindən irəli gəlir.

Bununla yanaşı, sərhəd-nəzarət buraxılış məntəqəsi yaradılandan etibarən erməniəsilli yerli sakinlər Azərbaycanın daxili və beynəlxalq öhdəlikləri çərçivəsində giriş-çıxışda sərhəd nəzarətinin ayrı-seçkilik olmadan həyata keçirildiyi sərhəd-buraxılış məntəqəsindən keçməkdədirlər.

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin Qərarını və beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirməkdədir. Azərbaycan Ermənistanın beynəlxalq hüququn davamlı şəkildə və tarixi ağır pozuntularına görə məsuliyyətə cəlb edilməsi istiqamətində bütün zəruri tədbirləri davam etdirəcək”, - deyə XİN-in məlumatında vurğulanıb.

**AZƏRTAC**
**2023, 7 iyul**

## Xarici diplomatlar Azərbaycan-Ermənistan sərhədində

İyunun 24-də Laçın rayonuna səfər çərçivəsində xarici diplomatlar Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüyə gəliblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə xarici diplomatlar Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüyə gəliblər. Onlara Ermənistanın bir sərhədçimizin yaralanması ilə nəticələnən son təxribatları haqqında məlumat verilib.

Bildirilib ki, silahlı təxribata qədər Xankəndidə yaşayan erməni əsilli sakinlər sərhəd-keçid məntəqəsindən heç bir maneə olmadan istifadə ediblər. Hazırda da Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə tibbi evakuasiya təyinatlı keçidə şərait yaradılır. Başqa sözlə, bəzi dairələrin iddia etdiyi kimi, yol bağlı deyil. Sadəcə, Ermənistanın son təxribatı ilə bağlı müvəqqəti istintaq tədbirləri həyata keçirilir.

Xarici diplomatların diqqətinə çatdırılıb ki, Ermənistan tərəfi sərhəd-gömrük buraxılış məntəqəsindəki hazırkı vəziyyətdən propaqanda vasitəsi kimi istifadə edir. Bəzi Avropa siyasətçiləri də gəlib körpünün digər hissəsində dayanaraq, həqiqəti əks etdirməyən birtərəfli məlumatlar paylaşırlar. Onlar bu vəziyyətdən özlərinin piar kampaniyaları üçün yararlanmağa çalışırlar.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Xarici diplomatlar Laçın şəhərində görülən işlərlə tanış olublar**

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçın şəhərində aparılan abadlıq, bərpa və quruculuq işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, diplomatlar Laçın şəhəri 1 Dekabr küçəsində salınmış ilk yaşayış məhəlləsinə baxış keçirib, artıq yurd-yuvasına geri dönmüş sakinlərlə söhbət ediblər.

Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhərdə ümumilikdə 700 tikili bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

Xatırladaq ki, səfərdə 33 ölkə, 10 təşkilatdan ümumilikdə 60 diplomat və hərbi attaşe iştirak edir.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Qazaxıstanın səfiri: Laçının iqtisadi potensialı böyükdür**

Biz bu gün səfirlər olaraq Azərbaycanın ən gözəl rayonlarından sayılan Laçına gəlmişik. Burada artıq tikinti-quruculuq və abadlıq işləri görülür. Biz Laçına - doğma yurdlarına qayıtmış sakinlərlə görüşdük. Rayonun həm təbiəti çox gözəldir, həm də iqtisadi potensialı böyükdür.

AZƏRTAC xəbər verir ki, bu sözləri iyunun 24-də Laçına səfər edən Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvlərindən biri – Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel jurnalistlərə müsahibəsində deyib.

"Ümid edirik ki, bölgəyə tezliklə sülh və inkişaf gələcək. Çünki bu, hər birimiz üçün çox önəmlidir", - deyə səfir vurğulayıb.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Xarici diplomatlar Laçında Aqro və Sənaye Parkında görülən işlər barədə məlumatlandırılıb**

Xəbər verdiyimiz kimi, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Laçında səfərdədir.

AZƏRTAC xəbər verir ki, şəhər ilə tanışlıqdan sonra diplomatlar bir sıra obyektlərə baş çəkiblər.

Laçın şəhərinə birdəfəlik qayıdan əhalinin məşğulluğunun artırılması üçün inşa olunan Aqro və Sənaye Parkı ziyarət edilib. Diplomatlara sənaye parkının imkanları, perspektivləri haqqında ətraflı məlumat verilib.

Hazırda Laçında həyata keçirilən davamlı reinteqrasiya çərçivəsində təkcə bu rayonun şəhər və kəndlərinin bərpası deyil, həm də bölgənin turizm və iqtisadi potensialından səmərəli istifadə prioritetdir.

Bildirilib ki, Aqro və Sənaye Parkı Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Kompleks tezliklə nəinki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, eləcə də ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək. Laçında iqtisadi inkişafın təmin edilməsi və məşğulluğun artırılması məqsədilə Parkda 6 istiqamət - qida sektoru, sənaye, ekoistehsalat, yaradıcılıq və tekstil, tədris, turizm və xidmət üzrə 1200-ə yaxın yerinin yaradılması nəzərdə tutulub.

Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisənin yaradılması planlaşdırılır.

Bu kompleksdə yaradılacaq iş yerlərində 850 nəfər Laçın sakini işlə təmin olunacaq. Onlardan 226 nəfəri artıq işə cəlb edilib. İşçilərin əksəriyyəti Türkiyə və Azərbaycanın peşə məktəblərində təhsil alıblar.

Xatırladaq ki, səfərdə 33 ölkə, 10 təşkilatdan ümumilikdə 60 diplomat və hərbi attaşe iştirak edir.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Tacikistan səfiri: Laçın yolu ilə bağlı bütün məsələlər imzalanmış bəyanatlar çərçivəsində həll olunmalıdır**

Bu, mənim Laçına ilk səfərim deyil. Ona görə deyə bilərəm ki, burada böyük dəyişikliklər baş verir. Prezident İlham Əliyevin tapşırığı ilə quruculuq işləri aparılır. Laçın rayonu mədəniyyət, turizm məkanıdır. Biz onun inkişafının şahidi oluruq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Tacikistanın Azərbaycandakı səfiri Rustəm Soliyev Laçında jurnalistlərə müsahibəsində söyləyib.

"Bu gün mən Laçında abadlıq-quruculuq işlərinin tam sürətlə getdiyini, dinc həyatın bərqərar olduğunu müşahidə etdim. Doğma yurdlarına qayıdacaq sakinlər bu cür gözəl yerlərdə yaşayacaqlar", - deyə diplomat qeyd edib.

Laçında sərhəd-buraxılış məntəqəsindən danışan diplomat deyib: "Laçın yolu ilə bağlı bütün məsələlər imzalanmış bəyanatlar çərçivəsində həll olunmalıdır. Gördüyümüz kimi, bəyanatlar reallaşdırılır. Bizi insanların sərhəd-buraxılış məntəqəsini azad şəkildə keçə bildikləri barədə məlumatlandırdılar".

**AZƏRTAC**
**2023, 24 iyun**

**Səfir: Laçındakı tikililər və infrastruktur ən yüksək dünya standartlarına uyğundur**

Bu, mənim Laçına ilk səfərimdir. Birincisi, buraya gəlib bu şəhəri öz gözlərimlə görmək fürsətinə görə Azərbaycan dövlətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki bildiyimiz kimi, Laçın uzun illər işğal altında olub. Burada dinc həyatın artıq bərqərar olduğunu sübut edən dəyişiklikləri görmək çox xoşdur. Laçın xüsusilə də ilin bu fəslində kurort şəhərinə çox bənzəyir. Buradakı tikililər və infrastruktur ən yüksək dünya standartlarına uyğundur. Bu, məni yaxşı mənada təəccübləndirir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qırğızıstanın Azərbaycandakı səfiri Kayrat Osmonaliyev Laçında jurnalistlərə açıqlamasında bildirib.

Laçının ən populyar turizm istiqamətlərindən biri olacağında əminliyini bildirən qırğız diplomat bu yerləri Alp dağları ilə müqayisə edib.

Diplomatik missiya rəhbəri vurğulayıb ki, onun ölkəsi bundan əvvəl dövlət başçıları səviyyəsində Laçın rayonunda bir sıra sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu artıq bildirib. “Ötən il iki səfər baş tutub – Qırğızıstan Prezidentinin Azərbaycana və Azərbaycan Prezidentinin Qırğızıstana səfərləri zamanı müzakirə edilən məsələlərdən biri infrastruktur layihələrinin reallaşdırılmasında ölkəmizin maraqlı olmasından ibarət idi. Çünki bu, həm regionları, həm də ikitərəfli münasibətləri yaxınlaşdırır və inkişaf etdirməyə kömək göstərir. Biz Azərbaycanla həm ikitərəfli əsasla, həm də müxtəlif beynəlxalq platformalarda və Türk dünyası çərçivəsində əməkdaşlıq edirik”, - deyə o qeyd edib.

Qırğızıstan şirkətlərinin burada tikinti işlərində iştirak etmək arzusunda olduqlarını söyləyən K.Osmonaliyev qeyd edib: “Qarabağ təkrarolunmaz iqlim və şübhəsiz ki, tarixi ilə fərqlənən xüsusi regiondur. Bizim üçün münasibətlərimizi bu şəkildə inkişaf etdirmək çox vacibdir. Zəngəzur dəhlizinin logistik imkanları çox böyük əhəmiyyət kəsb edir. Buna görə də biz regional sabitliyin, təhlükəsizliyin daha da möhkəmləndirilməsinin, logistik potensialın inkişafının tərəfdarıyıq”.

Üç ilə yaxın müddətdə Qarabağda və işğaldan azad edilmiş digər rayonlarda praktiki olaraq böyük dəyişikliklərin baş verdiyini vurğulayan diplomat bu regionda çox böyük perspektivlərin olduğunu vurğulayıb.

**AZƏRTAC**
**2023, 24 iyun**

## Xarici diplomatlar Laçın şəhərindəki bayraq meydanında

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri iyunun 24-də Laçın şəhərindəki bayraq meydanı, Heydər Əliyev küçəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev küçəsində yerləşən tikililərin bərpa edildiyi, bərpa işləri zamanı binaların əvvəlki görkəmini itirməməsinə xüsusi diqqət yetirildiyi qonaqların diqqətə çatdırılıb.

Laçın şəhəri ilə tanışlıq çərçivəsində xarici diplomatların səfər etdikləri növbəti məkan Həkəri çayının sahilində salınmış bulvar olub.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Azərbaycandakı diplomatik korpusun nümayəndələri Zabuxda görülən işlərlə tanış olublar**

Laçın rayonuna səfər çərçivəsində xarici diplomatlar 245 ailəlik (birinci mərhələdə 223 ailəlik) Zabux kənd yaşayış məntəqəsində həyata keçirilən tikinti-quruculuq işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara kənddə aparılan işlər barədə məlumat verilib.

Bildirilib ki, Zabux kəndinin ümumi ərazisi 80,9 hektar, planlaşdırılan ərazisi isə 64,30 hektardır. Zabux çayının mühafizə zonasının 14,68 hektar olması nəzərdə tutulub.

Layihəyə əsasən, ərazidə 53 ədəd ikiotaqlı, 116 ədəd üçotaqlı, 28 ədəd dördotaqlı, 26 ədəd beşotaqlı mənzil tikilib. Həmçinin kənddə kənd inzibati mərkəzinin, 50 yerlik uşaq bağçasının, ümumtəhsil məktəbinin, rekreasiya və məşğulluq zonasının, su anbarının və digər təyinatlı binaların tikintisi aparılır.

Xatırladaq ki, səfərdə 33 ölkə, 10 təşkilatdan ümumilikdə 60 diplomat və hərbi attaşe iştirak edib.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçında səfərdə olublar**

Yenidən qurulan, abadlaşan Laçın bu dəfə əcnəbi diplomatları qonaq edib. Belə ki, Azərbaycanda akkreditə olunmuş 33 ölkədən, 10 təşkilatdan ümumilikdə 60-a yaxın diplomat və hərbi attaşe, eləcə də onların ailə üzvləri iyunun 24-də Laçına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə xarici diplomatlar Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüyə gəliblər. Onlara Ermənistanın bir sərhədçimizin yaralanması ilə nəticələnən son təxribatları haqqında məlumat verilib.

Bildirilib ki, silahlı təxribata qədər Xankəndidə yaşayan erməni əsilli sakinlər sərhəd-keçid məntəqəsindən heç bir maneə olmadan istifadə ediblər. Hazırda da Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə tibbi evakuasiya təyinatlı keçidə şərait yaradılır. Başqa sözlə, bəzi dairələrin iddia etdiyi kimi, yol bağlı deyil. Sadəcə, Ermənistanın son təxribatı ilə bağlı müvəqqəti istintaq tədbirləri həyata keçirilir.

Xarici diplomatların diqqətinə çatdırılıb ki, Ermənistan tərəfi sərhəd-gömrük buraxılış məntəqəsindəki hazırkı vəziyyətdən propaqanda vasitəsi kimi istifadə edir. Bəzi Avropa siyasətçiləri də gəlib körpünün digər hissəsində dayanaraq, həqiqəti əks etdirməyən birtərəfli məlumatlar paylaşırlar. Onlar bu vəziyyətdən özlərinin piar kampaniyaları üçün yararlanmağa çalışırlar.

Qonaqlar səfər çərçivəsində Laçında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olublar. Laçın şəhəri 1 Dekabr küçəsində salınmış ilk yaşayış məhəlləsinə baxış keçirən qonaqlar artıq yurd-yuvalarına geri dönmüş sakinlərlə söhbət ediblər.

Daha sonra diplomatik korpusun nümayəndələri Laçında qurulmaqda olan Aqro və Sənaye Parkını ziyarət ediblər. Onlara sənaye parkının imkanları, perspektivləri haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Aqro və Sənaye Parkı Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Burada 46 şirkət fəaliyyət göstərəcək və ümumilikdə 1200-ə yaxın laçınlı işlə təmin ediləcək.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Laçın şəhərində ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

Xarici diplomatlar daha sonra Həkəri çayının sahilində salınan “Laçın bulvarı”na gəlib, bulvardakı quruculuq işləri ilə tanış olublar.

Laçına səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Zabux kəndində də olublar.

Onlara məlumat verilib ki, 30 ilə yaxın davam etmiş işğal dövründə kənd tamamilə dağıdılıb, məhv edilib. Hazırda isə Zabuxda genişmiqyaslı tikinti-bərpa işləri həyata keçirilir.

Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar daha sonra Zəngilanın Ağalı kəndinə gəliblər.

Burada qonaqlara Ağalıda tətbiq olunan “ağıllı kənd” konsepsiyası haqqında ətraflı məlumat verilib. Diplomatlar Ağalı sakinləri ilə söhbət ediblər.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Prezident: Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması çox güclü siyasi iradəmizin göstəricisidir**

İki ay əvvəl Ermənistan-Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı söyləyib.

"Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**
**2023, 23 iyun**

**Türk deputat: Laçın dəhlizi ilə bağlı məruzə tamamilə birtərəfli qaydada hazırlanıb**

Avropa Şurası Parlament Assambleyasında bəzi Avropa ölkələrinin nümayəndələri Türkiyə və Azərbaycana qarşı həmişə hər hansı bir tənqidi məruzə hazırlamağa çalışırlar. Onlar demokratiya, insan haqları və ya hər hansı dövlətlər arasında hadisələrlə bağlı sürətli qərarlar verir, məruzə hazırlayırlar. Avropanın burnunun ucunda insanlıq fəlakəti yaşandı. Yunanıstan sahilində gəmi batdı və yüzlərlə insan həyatını itirdi. Heç nə deyilmədi, bu faciədən söz belə açılmadı. Ancaq buna bənzər bir hadisə Türkiyə və ya Azərbaycan sahillərində olsaydı, bu iki ölkəni indi tənqidlərə bürüyərək "linç" etmişdilər.

Bu fikirləri türkiyəli deputat Kamil Aydın AZƏRTAC-a müsahibəsində söyləyib.

"Laçın dəhlizi ilə bağlı məruzə tamamilə birtərəfli qaydada hazırlanıb, onun reallıqla heç bir əlaqəsi yoxdur. Məruzəçi gedib vəziyyəti görmədən, mətbuatdan aldığı məlumatlar əsasında qərəzli, anti-türk xarakterli məruzə hazırlayıb. Assambleyada Avropa ölkələrinin nümayəndələri çox olduğu üçün məruzə qəbul edilib. Sənədə Laçın dəhlizi Azərbaycan tərəfindən bloklandığı, dərmanların buraxılmaması kimi yalan məlumatlar daxil edilib. Türkiyədə şəffaf və demokratik seçkilər keçirildi. Xalq öz seçimini etdi. Ancaq bütün Qərb mediası Türkiyədəki seçkiləri manipulyasiya etməyə çalışır. Bunu həzm edə bilmirlər", - deyə K. Aydın AŞPA-dakı qərəzli mövqedən bəhs edib.

O bildirib ki, demokratiya birlikdə, qarşılıqlı hörmət əsasında yaşam tərzidir. Ancaq bir xalqın qərarına hörmət edilmirsə, bu, demokratiya deyil. Türk və Azərbaycan xalqlarının yerinə Qərb qərar verəcəkmi? Fransada keçirilən seçkilərə biz eyni reaksiyanı veririkmi? Xeyr. Yəni, Avropa ölkələrindən də eyni reaksiyanı gözləyirik. Ancaq Qərbin beynində bir fikir var: bizi günahlandırmaq.

K. Aydın qeyd edib ki, hətta Ermənistanın baş naziri N. Paşinyan da Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu etiraf edir, ancaq AŞPA-da "Dağlıq Qarabağ" deyə durublar. BMT-nin qətnamələri var. Qarabağ işğal altında idi, azad edildi. Avropalı deputatlar erməni diasporunun dediklərini təkrarlayırlar.

"Türkiyə və Azərbaycana qarşı çıxışlar davam etdikcə, biz də mübarizəmizi möhkəmləndirəcəyik. Onlar gözləri kor, qulaqları kar olsa belə, biz həqiqəti daha uca səslə deyəcəyik. Biz bir millət olaraq Azərbaycan və Türkiyənin haqq səsini bu Assambleyada yüksəkdən eşitdirəcəyik", - deyə deputat vurğulayıb.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Strasburq**

**AZƏRTAC**
**2023, 23 iyun**

**XİN: Nikol Paşinyanın Laçın yolu ilə bağlı fikirlərini qətiyyətlə rədd edirik**

Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iyunun 22-dəki iclasında səsləndirdiyi, Azərbaycanın Laçın yolunda guya Beynəlxalq Ədalət Məhkəməsinin qərarına zidd olaraq "qeyri-qanuni blokada" tətbiq etməsinə dair cəfəng fikirlərini qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistanın baş nazirinin fikirlərinə dair şərhində yer alıb.

"Ermənistan tərəfinə bir daha xatırladırıq ki, Laçın sərhəd-buraxılış məntəqəsində Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əsilli sakinlərinin şəffaf və təhlükəsiz şəkildə hər iki istiqamətdə keçidi üçün müvafiq şərait yaradılmasına, məntəqə yaradılandan yüzlərlə erməni sakinin buradan keçməsinə baxmayaraq, məhz iyunun 15-də Ermənistan silahlı qüvvələrinin təxribatı Laçın sərhəd buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneçilik törədib.

Görünən odur ki, Ermənistan tərəfi 2020-ci ildən sonra Laçın yolu vasitəsilə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətdən məhrum olduğu, habelə erməni sakinlərin məntəqədən keçid zamanı Azərbaycan tərəfindən göstərilən müsbət yanaşmadan narahat olduğu üçün bu kimi təxribatlara əl atmaqdadır. Ərazidə "humanitar böhran" olduğu barədə Ermənistan tərəfindən aparılan propaqandanın heç bir əsası yoxdur.

Otuz ilə yaxın işğal dövründə mülki əhalini daim hədəfə alan, bir milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, kütləvi qırğınlar törədən, onların torpaqlarına ləyaqətli və təhlükəsiz şəkildə geri dönməsinə hərbi təxribatları ilə maneçilik törədən Ermənistanın Azərbaycanı "etnik təmizləmə" həyata keçirməkdə ittiham etməsi riyakarlıq nümunəsidir.

Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əsilli sakinləri ilə dialoqunda "beynəlxalq mexanizm"in tətbiq olunmasına və bu çərçivədə erməni əsilli sakinlərin "hüquqları və təhlükəsizliyi" məsələlərinin həll edilməsinə dair çağırışlarla bağlı bir daha vurğulayaq ki, Erməni əsilli sakinlərlə dialoq, habelə Azərbaycan ərazisində Azərbaycan qanunları çərçivəsində yaşayan şəxslərin hüquq və azadlıqlarının təmin olunması məsələsi Azərbaycanın daxili işidir. Azərbaycan erməni sakinlərinin reinteqrasiyası istiqamətində müvafiq zəruri tədbirlər həyata keçirməkdə qərarlıdır, bu və digər məsələlərin müzakirəsi məqsədilə erməni sakinlərə ünvanlanmış dəvət hələ də qüvvədədir.

Ermənistanın qeyd edilən məsələdən ənənəvi təcavüz siyasətinin bir elementi kimi manipulyasiya məqsədilə istifadəsi və sülh prosesinə maneçilik törətməsi qəbuledilməzdir.

Ermənistan tərəfindən səsləndirilən və Azərbaycanın suverenliyini hədəf alan bu tipli fikirlər, habelə bölgədə törədilən hərbi təxribatlar bu ölkənin "sülhün bərqərar olması üçün hər cür səy göstərən" tərəf olduğuna dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir", - deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

**AZƏRTAC**
**2023, 22 iyun**

# M.Zaxarova: Laçın dəhlizində baş vermiş hadisə Ermənistan tərəfindən sərhədin delimitasiya olunmaması ilə bağlıdır

İyunun 15-də Laçın dəhlizində baş vermiş hadisə Ermənistan tərəfindən Ermənistan-Azərbaycan sərhədinin delimitasiya olunmaması problemi ilə bağlıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

"Rusiya tərəfi dəfələrlə məsləhət yardımı ilə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə səmərəli, əsaslı işə start verməyə çağırıb. Biz sərhədin bu hissəsində də sərhəd xəttinin müəyyənləşdirilməsində kömək etməyə hazırıq", - deyə M.Zaxarova qeyd edib.

Laçın dəhlizində baş vermiş hadisədən sonra Ermənistan XİN-in Rusiya səfirini çağırması ilə bağlı suala cavab verən Rusiya XİN-in nümayəndəsi vurğulayıb ki, Rusiya sülhməramlılarına qarşı ittihamlar tamamilə əsasızdır və sübutsuzdur. "Biz KİV-də bu mövzu ilə bağlı ritorikanın dərəcəsini azaltmağı təkidlə tövsiyə edirik", - deyə o əlavə edib.

M.Zaxarova İrəvanı "üçtərəfli formatlarda işdən özünü kənara çəkməməyə" çağırıb". "Onların fəaliyyətində işin dayandırılması bölgədəki vəziyyətə mənfi təsir göstərir və eskalasiyaya səbəb olur", - deyə o bildirib.

***Fərİdə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Moskva**

**AZƏRTAC**
**2023, 21 iyun**

**Laçın sərhəd-buraxılış məntəqəsində baş vermiş təxribat məqsədli şəkildə törədilmiş aktdır**
**Açıqlama**

Laçın sərhəd-buraxılış məntəqəsində baş vermiş təxribat və xaincəsinə törədilmiş qəsd nəticəsində sərhədçimizin yaralanması, əlbəttə ki, məqsədli şəkildə törədilmiş bir aktdır. Bu hərəkətin məqsədi və arxasında duranların "qulaqları" aydın görünür. Təbii ki, hazırda Azərbaycan-Ermənistan arasında gedən proseslər, danışıqların sülh prosesinin intensivləşməsi ilk növbədə Rusiyanı və onların çaldığı hava ilə oynayan bəzi ruspərəst, revanşist daşnakları ciddi narahat edir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Cəmiyyətin İnkişafı Mərkəzi İctimai Birliyinin sədri Əhməd Abbasbəyli söyləyib.

O bildirib ki, Laçın sərhəd-buraxılış məntəqəsində ermənilərin maneəsiz-gediş gəlişinin intesivləşməsi, qəhrəman Azərbaycan sərhədçilərinin peşəkar, mədəni, obyektiv davranışı, artıq bu prosesin adiləşməyə başlaması da bu qüvvələrin illərdir yaratdıqları yalançı mifi alt-üst edirdi. Belə ki, onlar Qarabağ ermənilərini daim qorxu içində saxlamaq, inteqrasiyanın qarşısını almaq üçün Azərbaycanla bağlı özlərinə xas tərzdə qorxulu nağıllar uydurmuşdular. "Artıq erməni xalqı özü bu yalanları ifşa etməyə başlamışdı. Bu mənfur və təxribatçı qüvvələri narahat edən vəziyyət isə sülh prosesi nə qədər uğurlu irəliləyirsə, Ermənistan-Azərbaycan münasibətləri nə qədər yaxşılaşarsa onların bu günə qədər həyata keçirdikləri "bulanıq suda balıq tutmaq" kimi iyrənc fəaliyyətlərinin sonu olmasıdır. Amma bilməlidirlər ki, Azərbaycan Respublikası yolunu uğurla davam etdirəcək. Əl-ayağa dolaşanların isə cəhdləri əbəsdir, onlar elə ayaq altında qalacaqlar", - deyə Ə.Abbasbəyli qeyd edib.

**AZƏRTAC**
**2023, 16 iyun**

## Laçın sərhəd-buraxılış məntəqəsində törədilmiş təxribatın məqsədi sülh prosesinə zərbə vurmaqdır – Rəy

İyunun 15-də Laçın sərhəd-buraxılış məntəqəsində törədilmiş insident Ermənistanın məqsədyönlü şəkildə planlaşdırılmış növbəti təxribatıdır. Son vaxtlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində müxtəlif platformalarda müzakirələr aparılır. Bu müzakirələr zamanı mövqelər heç vaxt olmadığı qədər yaxınlaşıb, bir çox məsələlərdə isə razılıqlar əldə olunub. Təbii ki, bu razılaşmaların əldə edilməsində ABŞ-ın və Avropa İttifaqının mühüm rolu olub. ABŞ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında israrlıdır və xarici işlər nazirlərinin növbəti görüşünü təşkil etmək niyyətini açıqlamaqla bunu bir daha göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat bildirib ki, son zamanlar ölkələrimiz arasında sülh danışıqları prosesinin intensivləşməsi və müəyyən qədər nəticəyönümlü olması Ermənistandakı rusiyapərəst qüvvələri ciddi narahat edir. Son vaxtlar Azərbaycan-Ermənistan şərti sərhədində, Rusiya sülhməramlılarının məsuliyyət zonasında, o cümlədən Laçın sərhəd-buraxılış məntəqəsində təxribatların törədilməsinin məqsədi iki ölkə arasında davam edən sülh prosesinə zərbə vurmaqdır.

“Azərbaycanın Ermənistanla sərhəddə Laçın sərhəd-buraxılış məntəqəsi qurduqdan sonra Qarabağda yaşayan erməni əsilli sakinlərin buradan heç bir maneə olmadan keçmələrinə şəraitin yaradılması, o cümlədən onların Azərbaycana inteqrasiya olunmaq istəklərini bildirmələri çoxlarını narahat edir. Azərbaycan Qarabağdakı erməniləri öz vətəndaşları hesab etdiyini, onların hüquq və təhlükəsizliyinin qanunlarımıza uyğun təmin olunacağını bəyan etməsindən sonra erməni ictimaiyyətində Azərbaycan cəmiyyətinə inteqrasiya meyillərinin artması Ermənistandakı rusiyapərəst dairələrin istəkləri ilə üst-üstə düşmür. Onlar regionda sabitliyin yaranmasında və əməkdaşlığın qurulmasında maraqlı deyillər. Həm də həmin qüvvələrin əlində kifayət qədər təsir imkanları var ki, onlardan istifadə etməklə sülh prosesinin uğurla irəliləməsinə mane olmağa çalışırlar. Laçın sərhəd-buraxılış məntəqəsində törədilmiş təxribatın məqsədi sülh prosesinə zərbə vurmaq və Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın Azərbaycan cəmiyyətinə inteqrasiyasına mane olmaq məqsədi daşıyır. Amma onlar unudurlar ki, Azərbaycanla heç kim güc dilində danışa bilməz. Ölkəmizə qarşı törədilmiş hər bir təxribat cəhdinin qarşısı qətiyyətlə alınır və cavabı artıqlaması ilə verilir. Belə ki, Azərbaycanın suveren ərazisi olan Laçın sərhəd-buraxılış məntəqəsində bayrağımızın ucaldılması zamanı sərhədçilərimizə atəş açılması nəticəsində bir hərbçimiz yaralandı. Bundan sonra Ermənistanın iki snayperinin zərərsizləşdirilməsi bu təxribata açıq cavabdır", - deyə deputat vurğulayıb.

O əlavə edib ki, Azərbaycan bununla işini kifayətlənmiş hesab etməyəcək. Ölkəmiz bu terror aktının araşdırılması üçün artıq çox ciddi addımlar atıb. Laçın sərhəd-buraxılış məntəqəsində keçid dayandırılıb, baş vermiş terrorda əli olanların tapılması və məsuliyyətə cəlb olunması üçün bütün tədbirlər görülür. Bu məsələnin araşdırılmasında və cinayətkarların müəyyənləşdirilməsində rəsmi İrəvan və Rusiya sülhməramlıları məsuliyyət daşıyır.

“Hesab edirəm ki, onlar öz məsuliyyətlərini dərk edərək, baş vermiş insidentin araşdırılmasında Azərbaycanın müvafiq orqanlarına kömək göstərməlidirlər. Əks halda, Azərbaycan növbəti addımlarını plana uyğun davam etdirməlidir”, - deyə deputat vurğulayıb.

**AZƏRTAC**
**2023, 16 iyun**

**Ermənilərin Laçındakı təxribatının əsl səbəbi – Rusiya və Fransanın birgə planı – ŞƏRH**

İyunun 15-də Ermənistan silahlı qüvvələrinin "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsində həyata keçirdiyi təxribat məqsədyönlü xarakter daşıyırdı və bunun baş verməsində kənar qüvvələrin maraqlı olduğu ortadadır. Hərbi qulluqçumuzun yaralanması ilə nəticələnmiş təxribat Azərbaycanın suverenliyinə qarşı təcavüzün davamı kimi qəbul olunmalıdır. Azərbaycan dövləti tərəfindən sərhəd-buraxılış məntəqəsinin uğurlu fəaliyyətinin təşkil olunması, erməni sakinlərin təhlükəsiz və sərbəst keçidi müəyyən qüvvələrin maraqlarına cavab vermir. Buraxılış məntəqəsindən erməni sakinlərin heç bir çətinlik olmadan sərbəst hərəkətini həzm edə bilməyən dairələr Ermənistan-Azərbaycan münasibətlərini daha da pisləşdirməklə, gərginlik yaratmaqla sülh prosesinə mane olmaq istəyirlər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı İltizam Yusifov deyib.

O bildirilib ki, hazırda Azərbaycanla Ermənistan arasında gedən danışıqlar, sülh prosesinin intensivləşməsi həm Rusiyanı, həm də Ermənistandakı rusiyapərəst qüvvələri ciddi narahat edir. Bu təxribatın məhz sülh prosesinə zərbə vurmaq məqsədilə törədildiyinə yüksək əminlik var. Eyni zamanda, hazırda cərəyan edən proseslər Qarabağda yaşayan ermənilərin cəmiyyətimizə inteqrasiyası üçün yaxşı zəmin yaradıb və qarşıdan gələn dövrdə bu istiqamətdə irəliləyiş olması qaçılmazdır. Vəziyyətin bu istiqamətdə inkişafı Ermənistandakı rusiyapərəstlərin maraqları ilə üst-üstə düşmür. Ermənistanın müxtəlif strukturlarında, o cümlədən hərbi sahədə mövqeləri güclü olan bu qrup hər vəchlə sülhün bərqərar edilməsinə, ermənilərin inteqrasiyasına, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına zərbə vurmağa çalışırlar.

“Hesab edirəm ki, postda baş vermiş təxribata cavab olaraq Azərbaycan Qarabağdan Ermənistana gediş-gəlişə nəzarəti gücləndirməlidir. Ermənistan təxribata görə məsuliyyəti üzərinə götürməli, təxribatı törədənlər məsuliyyətə cəlb olunmalıdır. Qarabağdakı ermənilərin sosial ehtiyaclarının ödənilməsinə gəlincə, onlar bizim vətəndaşlardır və Bakı onların təminatını həyata keçirmək imkanındadır. Nəhayət, biz Xankəndiyə daxil olmalıyıq və oradakı insanları ayrı-ayrı qüvvələrin təsir dairəsindən çıxarmalıyıq. Qarabağdakı ermənilər dinc, təhlükəsiz yaşamaq istəyirlər, onlar müharibədən, təxribatlardan, alət olmaqdan beziblər. Otuzillik kölə həyatı onları yorub. Nəhayət, Bakı Qarabağ ermənilərinə kömək əlini uzatmalıdır”, - deyə İltizam Yusifov vurğulayıb.

O qeyd edib ki, bütün hallarda Azərbaycan Ordusu keçid məntəqəsində baş vermiş xoşagəlməz hadisəni törədənləri cəzalandırmalıdır. Yayılan məlumata görə, əsgərimizi yaralayan erməni snayperlər məhv edilib. Ötən gün sərhəddə baş vermiş atışmalar ona dəlalət edir ki, ordumuzun qisas zərbəsi çox ölümcül olub. Münaqişənin eskalasiyasının genişlənməsi Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistan sülh sazişi üzrə danışıqlar prosesini tamamilə şübhə altına alır. Erməni ordusu sərhəddən bir neçə kilometr uzaqlaşdırılmalı, orada bufer zona yaradılmalıdır ki, gələcəkdə dinc sakinlərimiz atəşə tutulmasın.

“Fransanın xarici işlər naziri Katrin Kolonna bir neçə gün öncə Laçın yolunun guya bağlı olmasını bəhanə edərək Avropa İttifaqını Azərbaycana qarşı sanksiyalara çağırmışdı. Sözdə Cənubi Qafqazda sülh prosesini dəstəkləyən Fransa, əslində, Ermənistanı Azərbaycana qarşı aqressiv siyasət yürütməyə sürükləyir. Ermənistan, Rusiya və Fransa Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaratmasından ciddi şəkildə narahatdırlar. Son məlumatlara görə, Fransa Ermənistanı silahlandırmağa da başlayıb. Rəsmi Parisin Ermənistana 50 ədəd zirehli texnika tədarük edəcəyi bildirilir.

Ukrayna müharibəsində dalana dirənən Rusiya isə Qərbin Ermənistanda möhkəmlənməsini qəbul edə bilmir. ABŞ və bəzi Avropa ölkələri Rusiyanı təkcə Ermənistandan deyil, ümumiyyətlə, Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyirlər.

Bu gün Azərbaycan dövləti, müzəffər Ordumuz hər cür təhdidin, təxribatın qarşısını almaq gücündədir”, - deyən deputat dövlətimizin bu proseslərdən qalib çıxacağına inamını ifadə edib.

**AZƏRTAC**
**2023, 16 iyun**

**Ermənistan Laçın dövlət sərhəd-buraxılış məntəqəsini atəşə tutub, bir hərbçimiz yaralanıb**

İyunun 15-də saat 08:45-də Ermənistan Respublikası ərazisindən açılmış atəş nəticəsində Laçın dövlət sərhəd-buraxılış məntəqəsində xidmət aparan Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, cavab atəşi ilə düşmənin atəş nöqtəsi susdurulub, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Yaralanmış hərbi qulluqçumuza ilkin tibbi yardım göstərilib, həyati təhlükəsi yoxdur.

Bu təxribata görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**AZƏRTAC**
**2023, 15 iyun**

**XİN: Ermənistanın Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı hərbi təxribatını qətiyyətlə pisləyirik**

Ermənistan silahlı qüvvələrinin iyunun 15-də Laçın dövlət sərhədindən buraxılış məntəqəsinə qarşı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş hərbi təxribatını qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) yaydığı bəyanatda qeyd olunub.

Bildirilib ki, bu hərbi təxribat Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüz olmaqla yanaşı, Azərbaycan tərəfdən sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə, erməni sakinlərin təhlükəsiz, sərbəst və maneəsiz keçidinə, habelə Laçın yolu ilə hərəkətinə maneçilik törətmək məqsədi daşıyır.

"Buraxılış məntəqəsindən erməni sakinlərin heç bir çətinlik olmadan sərbəst hərəkətini həzm edə bilməyən Ermənistanın bu hərbi təxribatı Ermənistanın Azərbaycanla münasibətlər qurmaqda və sülh prosesində maraqlı olmadığının bariz nümunəsidir. Ermənistanın bu kimi hərbi təxribatlarının qarşısı qətiyyətlə alınacaq və Ermənistan tərəfinin Azərbaycanın erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyasına mane olmaq istiqamətində cəhdləri uğursuz olacaqdır.

Beynəlxalq ictimaiyyəti Ermənistan tərəfinin bu təxribatını qətiyyətlə pisləməyə və Ermənistanı bölgədə sülhə və sabitliyə hədə olan təcavüzkar hərəkətlərdən çəkindirməyə çağırırıq", - deyə XİN-in bəyanatında vurğulanıb.

**AZƏRTAC**
**2023, 15 iyun**

**Əlaqələndirmə Qərargahının Laçın şəhərində növbəti iclası keçirilib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyunun 9-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın Laçın şəhərində növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Samir Nuriyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində dövlətimizin məhv olmaq təhlükəsindən xilas edildiyini, müstəqilliyimizin möhkəmləndirildiyini, ölkəmizin ardıcıl inkişaf yoluna qədəm qoyduğunu bildirib. Samir Nuriyev vurğulayıb ki, Ulu Öndər bütün qüvvəsini və xalqımızın potensialını vahid amal - torpaqlarımızın işğaldan azad olunması və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün səfərbər etdi. Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş və prinsipial siyasəti nəticəsində Azərbaycanın sürətli və hərtərəfli inkişafı təmin olundu, Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyuldu və ərazi bütövlüyümüz bərpa edildi. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır, artıq məcburi köçkünlər doğma yurdlarına qayıtmağa başlayıblar.

Əlaqələndirmə Qərargahının rəhbəri Azərbaycan Respublikası Prezidentinin 2023-cü ilin may ayı ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərlər edərək bir çox yaşayış məntəqələrinin təməllərini qoyduğunu, infrastruktur və digər obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdiyini, yenidənqurma və tikinti işləri ilə yerlərdə tanış olduğunu və müvafiq tapşırıqlar verdiyini bildirib. Qeyd edilib ki, çoxşaxəli və irimiqyaslı layihələrin reallaşdırılması dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi ilə bağlı müəyyən etdiyi sistemli, ardıcıl yol xəritəsinə və strateji xəttə uyğun şəkildə, sürətlə icra olunmaqdadır. Həyata keçirilən layihələr çərçivəsində işlərin miqyası genişləndiyinə görə, yerlərdə işin planlı və əlaqəli şəkildə aparılması, o cümlədən bütün aidiyyəti qurumların sıx əməkdaşlıq mühitində fəaliyyətinin təmin edilməsi, habelə vaxt və keyfiyyət amillərinin uzlaşdırılması məsələlərinə diqqətin artırılması zəruridir.

Sonra Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı verdiyi tapşırıqların icrası istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində 2023-cü il ərzində icrası davam etdirilən və həyata keçirilməsi nəzərdə tutulan işlərə dair məruzələr dinlənilib, müzakirələr aparılıb.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iclasın gündəliyinə daxil olan məsələlərin yerlərdə əlaqələndirilməsi, müvafiq ərazilər üzrə görülən işlərin icra dinamikası və qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasda Azərbaycan Prezidenti tərəfindən Qərargah qarşında qoyulmuş vəzifələrin tam şəkildə icrası və müəyyən edilmiş strateji xəttə uyğun həlli məsələləri müzakirə olunub.

Daha sonra Qərargahın üzvləri Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlər, Heydər Əliyev küçəsinin yenidənqurma konsepti ilə tanış olub, 1 Dekabr küçəsində yaşayış məhəlləsinə baxış keçiriblər. Onlara Həkəri çayının sahilində salınan “Laçın bulvarı”nda aparılan işlərlə bağlı məlumat verilib.

Qərargahın üzvləri Laçın rayonunun Zabux kəndinə səfər edərək, burada zəruri infrastrukturun yaradılması və kəndə qayıdacaq əhalinin rahat həyat şəraitinin təmin edilməsi istiqamətində aparılan genişmiqyaslı işlərlə tanış olublar.

Səfərin yekununda Samir Nuriyev qarşıda duran məsələlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün aidiyyəti orqanların rəhbərlərinə zəruri tapşırıqları çatdırıb.

**AZƏRTAC**
**2023, 9 iyun**

**XİN: Ermənistan rəsmisinin Laçın yolunun bağlanmasını iddia etməsi gülüncdür**

Laçın sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinlərin müvafiq prosedurlara əməl etməklə hər iki istiqamətdə sərbəst şəkildə keçməsini həzm edə bilməyən Ermənistan rəsmisinin Laçın yolunun bağlanmasını iddia etməsi gülüncdür.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın iyunun 4-də ölkəsinin İctimai Televiziyasına müsahibə zamanı səsləndirdiyi iddialara dair şərhində əksini tapıb.

Nazirlikdən bildirilib ki, erməni sakinlərin reinteqrasiyası məsələsinə müdaxiləyə dərhal son qoyulması, Ermənistanın sözdə deyil əməldə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edildiyinin göstəricisi olardı: "Bölgədə sülh prosesinin irəlilədilməsi əvəzinə, Ermənistanın rəsmi şəxsinin ölkəsinin yeni silahlanma dövrünə qədəm qoyduğunu bəyan etməsi, bu ölkənin hələ də tarixdən dərs çıxartmadığını nümayiş etdirir".

**AZƏRTAC**
**2023, 5 iyun**

**Laçınlıların doğma torpaqlarına may ayında qayıdışının rəmzi mənası vardır**

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın Müstəqillik Gününü Laçın şəhərinə qayıdan əhali ilə qeyd etdi və bildirdi ki, bu görüşü məhz 28 May tarixində təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, istənilən nəticəni əldə etməyə qadirdir.

İşğaldan azad edilmiş ərazilərimizdə hazırda geniş miqyas alan bərpa-quruculuq işləri ölkəmizin iqtisadi imkanlarının təqdimatıdır. Azərbaycan tarixi Zəfərindən dərhal sonra bu torpaqlarda bərpa işlərinə başlamaqla dünya hərb tarixində ilkə imza atmışdır. Azərbaycan bu ilkə imza ataraq qısa müddətdə ölçüyə gəlməsi mümkün olmayan işlər görüb. Bu müddətdə iki Beynəlxalq Hava Limanının işğaldan azad edilmiş Füzuli və Zəngilan rayonlarında tikilib istifadəyə verilməsi, üçüncü aeroportun Laçında tikintisinin davamı və 2025-ci ildə başa çatdırılmasının nəzərdə tutulması deyilənlərə bariz nümunədir. Prezident İlham Əliyevin laçınlılarla görüşündə qeyd etdiyi kimi, bu gün Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub. İlk 20 ailə artıq Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaq. Ümumilikdə ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək. Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilən Zabux və Sus kəndləri bu ilin sentyabr ayına qədər tamamilə inşa edilib sakinlərinin sərəncamına veriləcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Əliabbas Salahzadə bildirib.

O qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyevin mayın 27-də Kəlbəcər və Laçın rayonlarına reallaşdırdığı səfərlər mühüm məqamlarla yadda qaldı: "Ağalı, Talış kəndlərinin ardınca Laçın şəhəri sakinlərini qarşıladı. Dövlətimizin başçısının hər bir səfəri Böyük Qayıdışın daha da sürətləndirilməsinə xidmət edən mühüm addımlarla zəngindir. Yeni obyektlərin istifadəyə verilməsi, yaxud təməlqoyma mərasimlərinin keçirilməsi, bu və ya digər obyektlərdə görülən işlərlə tanışlıq və sair kimi işlərin hər birinin Prezident İlham Əliyevin nəzarətində olması hədəfə daha tez çatmağa stimul verir.

Deputat vurğulayıb ki, laçınlıların Laçın şəhərinə məhz may ayında qayıdışının təmin edilməsinin digər rəmzi mənası rayonun may ayında işğal edilməsidir. Laçınlılar 1992-ci ilin mayında işğal altına düşən rayonlarına 31 il sonra qayıtdılar. Artıq üç ildir ki, torpaqlarımızın işğal tarixlərini işğaldan azad edildikləri günlər əvəzləyib. Azərbaycan tarixi Zəfəri ilə torpağına sahib çıxaraq bir qarış torpağını belə düşmənə verməyəcəyini sübut edən xalq olduğunu təsdiqlədi.

Əliabbas Salahzadənin sözlərinə görə, tarixi Zəfərimizin reallıqları fonunda Azərbaycan bölgədə davamlı sülhün və təhlükəsizliyin təmini, Ermənistanla münasibətlərində yeni səhifənin açılması üçün sülh müqaviləsinin imzalanmasını təklif etdi. Ölkəmiz bunun reallığa çevrilməsi üçün üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir və bunu qarşı tərəfdən də tələb edir. Sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlar, keçirilən görüşlər Azərbaycanın diplomatik uğurlarının davamlılığının təsdiqidir. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi artıq sülh müqaviləsinin imzalanması prosesinin yaxınlaşmasına işarədir. Dövlətimizin başçısı Laçın əhalisi ilə görüşündə bu məqama da xüsusi diqqət yönəldərək bildirdi ki, indi artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb: "Əminəm ki, yaxın gələcəkdə, - əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, - sülh müqaviləsi imzalana bilər".

Deputat bildirib ki, sülh müqaviləsinin imzalanması Ermənistan üçün son şansdır. Prezident İlham Əliyevin vurğuladığı kimi, sülh müqaviləsi imzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf, danışıqlar masasında, sərhəddə güclü mövqelərə sahib olan Azərbaycandır. Sülh müqaviləsi imzalanmasa da, rahat və təhlükəsizlik şəraitində yaşayacağıq.

**AZƏRTAC**
**2023, 30 may**

**Azərbaycan Prezidenti: Laçın şəhərində hər şey çox böyük zövqlə yaradılır**

Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Dövlətimizin başçısı bildirib ki, cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

**AZƏRTAC**
**2023, 28 may**

**Bu ilin sentyabrına qədər Zabux kəndi zabuxluların sərəncamına veriləcək**

Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə bildirib.

Zabux və Sus kəndlərinin Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edildiyini xatırladan dövlətimizin başçısı deyib ki, orada da fəal iş aparılır. "Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident İlham Əliyev: Laçının azad olunmasının və bu gün keçirdiyimiz görüşün tarixlərinin rəmzi mənası var**

Laçının azad olunmasının və bu gün burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var. May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

Hakimiyyətə can atmış və hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşdüyünü vurğulayan dövlətimizin başçısı bildirib: “Aprel ayında biz Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik. Yəni, bu tarixlər arasında bağlılıq var”.

**AZƏRTAC**
**2023, 28 may**

**Azərbaycan Prezidenti: Laçın və Kəlbəcərin Ermənistanın əlində həmişəlik qalması ilə heç vaxt razılaşa bilməzdik**

Siz də, bütün Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də yaxşı bilirdi və bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Ermənistanın, sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün beş rayonu qaytarmağa hazırdır olduqları, Laçın və Kəlbəcərin isə onların əlində həmişəlik qalması ilə bağlı təklif irəli sürdüyünü xatırladan dövlətimizin başçısı qeyd edib: “Biz isə heç vaxt bununla razılaşa bilməzdik. Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik”.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident İlham Əliyev laçınlılarla görüşdə torpaqlarımızı azad edən gənclərin qəhrəmanlığından danışıb**

Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

“Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər”, - söyləyən dövlətimizin başçısı qeyd edib ki, Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər.

Allahdan bütün şəhidlərimizə rəhmət diləyən Prezident İlham Əliyev onların qəhrəmanlığının heç vaxt unutmayacağını bildirərək deyib: “Onların qəhrəmanlığı, şücaəti sayəsində biz, bax, bu gün burada oturmuşuq və bu gün bu torpaqlarda həyat canlanır”.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident: Laçın şəhərinin bugünkü siması göstərir ki, biz qurub-yaradan xalqıq**

Laçın şəhərinin bugünkü siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Laçın rayonunda, eyni zamanda, Kəlbəcər rayonunda ermənilərin qanunsuz məskunlaşma apardıqlarını söyləyən dövlətimizin başçısı qeyd edib ki, bu, beynəlxalq konvensiyalarla hərbi cinayət sayılır. "Ancaq onların hansı vəziyyətdə yaşamalarını mən buraya sentyabr ayında gələndə gördüm. Onların özləri üçün qurduqları şəraiti mən heç nə ilə müqayisə edə bilmirəm. Çünki insan o şəraitdə necə yaşayıb, onu yəqin ki, ancaq özləri bilə bilər", - deyə Prezident İlham Əliyev bildirib.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezidentdən laçınlılara: Sizinlə Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz**

Mən yaxşı xatırlayıram, yəqin ki, siz də xatırlayırsınız, 2011-ci il dekabrın 24-də ad günümdə mən laçınlılarla Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində görüşmüşdüm.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə bildirib.

Adətən öz ad günlərini, o cümlədən yubiley sayılan ad günlərini qeyd etmədiyini deyən dövlətimizin başçısı qeyd edib: "60 yaşımı Cıdır düzündə qeyd etmişəm, 50 yaşımı isə Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmişəm. O vaxt Taxtakörpü qəsəbəsində laçınlılar üçün 550-dən çox evdən ibarət bir qəsəbə salınmışdı. O görüşdə demişdim ki, gün gələcək, biz sizin üçün Laçında daha gözəl evlər tikəcəyik və gün gəldi. O tarixdən cəmi 11 il keçib, biz sizinlə artıq Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz".

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident İlham Əliyev Laçından ermənilərə səsləndi: "Miatsum" kitabı bağlandı!**

Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə Qarabağ ermənilərinə səslənib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı deyib: "Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə".

Dövlətimizin başçısı onlar üçün qalan yeganə yolu da açıqlayıb. Bu, Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq və "parlament"i buraxmaqdır.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident: On bir il əvvəlki görüşdə demişdim ki, Laçına qayıdacağıq və belə də oldu**

Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq!

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

"Əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçın şəhərinə qayıdış başlandı**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanır. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülür. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, ilkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Uzun illər yurd həsrəti ilə yaşasalar da, məcburi köçkünlər daim dövlət qayğısı ilə əhatə olunublar. Onların sosial müdafiəsinin təmin olunması istiqamətində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətini Prezident İlham Əliyev davam etdirib, bu kateqoriyadan olan həmvətənlərimizin yaşayış şəraitinin yaxşılaşdırılması üçün ardıcıl və genişmiqyaslı tədbirlər həyata keçirib. Məcburi köçkünlərin problemlərinin həllinə Birinci vitse-prezident Mehriban xanım Əliyeva da hər zaman diqqət göstərib, təhsil, mədəni inkişaf, sağlamlıq və digər məsələlərdə onlara yaxından kömək edib.

Hazırda məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurda qayıdışı dövlət siyasətinin mühüm prioritetidir. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər getdikcə sürətlənir, Böyük Qayıdış proqramı icra olunur.

Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinə köçən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Laçın şəhərinə ilk ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

**AZƏRTAC**
**2023, 28 may**

**Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri**
**Prezident İlham Əliyev Laçın rayonunda "Qorçu" yarımstansiyasının açılışında iştirak edib**

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonundan sonra Laçın rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kv-luq "Qorçu" yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün rayonun Qorçu kəndində 2021-ci ildə istismara verilən "Kəlbəcər" yarımstansiyasından 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və ən əsası yolsuzluq şəraitində çəkilən ötürmə xətti boyunca hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılıb. 110 kilovoltluq xəttin üzərindəki ildırımötürücü funksiyalı fiberoptik kabellə internet xətti çəkilib ki, bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsi və məsafədən rəqəmsal idarəetmə üçün vacib elementdir.

Qeyd edildi ki, paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq müasir texnologiyalı yarımstansiya tikilib. Burada perspektiv inkişaf nəzərə alınmaqla 110 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb və Rəqəmsal İdarəetmə Mərkəzi inşa edilib. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulmaqla tam avtomatlaşdırılıb, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğularla əlaqələndirilib. Müasir avadanlıqlarla təchiz edilərək tikilən yeni yarımstansiyada hər birinin gücü 25 MVA olan iki yeni transformator quraşdırılıb. Gələcəkdə ehtiyac yaranarsa, yarımstansiyanın transformatorlarının gücünü artırmaq mümkün olacaq.

Məlumat verildi ki, xüsusi razılaşdırılmış layihə əsasında müasir üslubda inşa edilən yarımstansiyanın idarəetmə binasında bütün parametrlər nəzərə alınıb. Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasının ərazisində işçilər üçün yataqxana binası tikilib, lazımi şərait yaradılıb. Burada işləyən və qalmaq yeri ilə təmin edilən əməkdaşlar məhz laçınlılardır.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

"Qorçu" yarımstansiyası yaxınlığında tikilən beynəlxalq hava limanının, Laçın və Kəlbəcərdəki meqalayihələrin, o cümlədən yaşayış massivlərinin, turizm və kənd təsərrüfatı infrastrukturunun enerji təchizatında xüsusi rol oynayacaq. Yaxın perspektivdə "Qorçu" yarımstansiyasından "Laçın" şəhər yarımstansiyasına 110 kV-luq ikidövrəli ötürmə xətti çəkiləcək və bununla da işğaldan azad edilən ərazilərin dairəvi elektrik təchizatı tamamlanmış olacaq.

Qeyd edək ki, "AzərEnerji" ASC tərəfindən bu günədək Qarabağda və Şərqi Zəngəzurda bir yerdə 330 kV-luq, 11 yerdə 110 kV-luq olmaqla 12 yarımstansiya tikilib, 700 kilometrə yaxın yüksəkgərginlikli ötürmə xətti çəkilib. Beləliklə, işğaldan azad olunan bütün rayonlar elektrik enerjisi ilə təmin edilib.

**AZƏRTAC**
**2023, 27 may**

**Laçının Qorçu qəsəbəsinin təməli qoyulub**

Mayın 27-də Laçın rayonunun Qorçu qəsəbəsinin təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun şimal-qərbində dağlıq ərazidə, Şəlvə çayının sol qolu olan Qorçu çayının sahilində yerləşən eyniadlı qəsəbə rayon mərkəzindən 64 kilometr, Bakı şəhərindən isə 475 kilometr məsafədədir.

Qorçu qəsəbəsi Laçının Ağalaruşağı, Oğuldərə, Zağaltı, Qarabəyli, Korcabulaq, Lolabağırlı kəndləri ilə birlikdə layihələndirilir. Ümumi sahəsi 300 hektar olan qəsəbənin layihələndirilmə işləri mərhələli şəkildə aparılacaq. Birinci mərhələdə salınacaq ərazinin sahəsi 142,54 hektar təşkil edir. Müasir səviyyədə qurulacaq qəsəbənin perspektivdə rayonun yerli əhəmiyyətli mərkəzlərindən biri kimi inkişafı əsas məqsədlərdəndir.

Diqqətə çatdırıldı ki, Qorçu qəsəbəsinə birinci mərhələdə köçürüləcək əhalinin yaşayışını təmin etmək məqsədilə birmərtəbəli 366 fərdi evin tikintisi nəzərdə tutulur. Bir fərdi evin həyətyanı sahəsi 700 kvadratmetr olacaq. Ərazinin kəskin relyefli olduğunu nəzərə alaraq, perspektivdə Qorçu qəsəbəsinin inkişaf dövrü üçün dördmərtəbəli 39 yaşayış binasından ibarət məhəllələrin salınması planlaşdırılıb.

Qeyd edildi ki, qəsəbənin mərkəzində birinci mərhələdə sosial və ictimai obyektlər olan inzibati bina, klub-icma mərkəzi, kitabxana və internet zalı, tibb məntəqəsi, mehmanxana, idman-sağlamlıq mərkəzi, restoran, xalq sənətkarlığı emalatxanaları, satış köşkləri və bazar kompleksinin tikintisi nəzərdə tutulur. Qəsəbədə təhsil ocaqlarına olan tələbatı ödəmək məqsədilə, ilk növbədə, 264 yerlik məktəb və 140 yerlik uşaq bağçası, perspektivdə isə 864 yerlik məktəb və 280 yerlik uşaq bağçası tikiləcək.

Bildirildi ki, həmçinin qəsəbədə yaşayacaq əhalinin məşğulluğunun təmin olunacağı idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri üçün şərait yaradılır. Yaşayış zonalarını əlaqələndirmək üçün Qorçu çayının üzərində körpülərin inşası da planlaşdırılır.

Prezident İlham Əliyev qəsəbənin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

**Prezident İlham Əliyev Laçın rayonunun Şəlvə kəndinin təməlini qoyub**

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Şəlvə kəndinin təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına Şəlvə kəndi barədə məlumat verildi.

Bildirildi ki, rayonun şimalında, Şəlvə çayının sahilində, dəniz səviyyəsindən 1540 metr yüksəklikdə yerləşən Şəlvə kəndindən Laçın şəhərinə qədər məsafə 55 kilometrdir. Yenidən qurulacaq yaşayış məntəqəsinin tərkibinə yaxınlıqda yerləşən İmanlar kəndi də daxil ediləcək.

Qeyd olundu ki, layihələndirilən ərazinin ümumi sahəsi 128 hektardır. Ərazidə 445 fərdi evin inşası nəzərdə tutulub. Birinci mərhələdə Şəlvə kəndinə qayıdacaq 494 sakin üçün 130 fərdi ev tikiləcək. Bundan başqa, kənd ərazisində inzibati bina, mədəniyyət evi, 264 şagird yerlik məktəb, 60 yerlik uşaq bağçası, ailə sağlamlıq mərkəzi, bazar kompleksi və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. İşğaldan əvvəl fəaliyyət göstərən və məcburi köçkünlük dövründə fəaliyyətini davam etdirən Şəlvə kənd musiqi məktəbi də yenidən tikiləcək.

Diqqətə çatdırıldı ki, kəndin ümumi konsepsiyası ərazinin coğrafi şəraiti, relyefi, mövcud və planlaşdırılan infrastrukturu, həmçinin tarixi quruluşu nəzərə alınaraq, müasir təcrübəyə uyğun orqanik layihələndirmə prinsipləri əsasında işlənilib. Yamacda yerləşən ərazilər əsasən evlərdən ibarət məhəllələr üçün nəzərdə tutulub və relyefə uyğun dolama küçələrlə əlaqələndirilib.

Müəyyən yerlərdə məhəllə meydanları layihələndirilib. İctimai binaların və fərdi evlərin memarlığı yerli ənənələrdən ilhamlanaraq, müasir standartlara uyğun dizayn edilib. Kənd ərazisində yerləşən və orta əsrlərə aid olan tarixi məbədin konservasiyası da nəzərdə tutulur. Bundan başqa, kəndin yerləşdiyi ərazinin səfalı və gözəl, bu səbəbdən turizm üçün əlverişli olmasını nəzərə alaraq, gələcəkdə burada Şəlvə çayının sahilində qonaq evinin və kotteclərin tikilməsi planlaşdırılır.

Prezident İlham Əliyev kəndin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

## Prezident İlham Əliyev Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlərlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın şəhərində Aqro və Sənaye Parkında aparılan işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın şəhərində istehsalat, xidmət və tədris müəssisələrinin yaradılması, məşğulluğun artırılması istiqamətində işlər davam etdirilir. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Müəssisələr qida, sənaye, yaradıcılıq, tekstil, tədris, turizm və xidmət sahələrində fəaliyyət göstərəcək. Hazırda fəaliyyət göstərən 7 müəssisədə 226 Laçın sakini işlə təmin edilib.

Məlumat verildi ki, Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək, onların da 80 faizinin bu il yay aylarının sonunadək işə başlayacağı nəzərdə tutulub. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan müəssisə, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi yaradılacaq. İyun ayından artıq keramik məhsullar fabriki fəaliyyətə başlayacaq. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili də nəzərdə tutulub.

**AZƏRTAC**
**2023, 27 may**

**Prezident İlham Əliyev "Laçın" şəhər yarımstansiyasının açılışını edib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kv-luq "Laçın" şəhər yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına yarımstansiya barədə məlumat verildi.

Bildirildi ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerjisisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində tikilən 110/35/10 kV-luq "Laçın" şəhər yarımstansiyası rəqəmsal qaydada ən müasir texnologiyalardan istifadə olunmaqla ərsəyə gətirilib. Paralel olaraq, Laçın şəhərinə "Qubadlı" yarımstansiyasından başlayaraq və "Güləbird" Su Elektrik Stansiyasından keçməklə ümumilikdə 40 kilometr məsafədə 110 kV-luq ötürmə xətti çəkilib.

İşğaldan azad edilən ərazilərdə indiyədək "AzərEnerji" ASC tərəfindən 11 yerdə tikilən 110 kV-luq yarımstansiyalardan "Laçın" şəhər yarımstansiyasının xüsusi fərqi ondan ibarətdir ki, bu yarımstansiya həm də işğaldan azad olunan ərazilərin qovşaq yarımstansiyası funksiyasını daşıyacaq. Belə ki, yeni istifadəyə verilən 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağından və Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq 110 kV-luq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyaları, oradan isə "Güləbird" Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq xətt artıq "Laçın" şəhər yarımstansiyasına birləşdirilib.

Digər istiqamətdən "Daşkəsən", "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına, o cümlədən "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına çəkilmiş mövcud 110 kV-luq ikidövrəli xətlər də gələcəkdə "Laçın" qovşaq yarımstansiyası ilə əlaqələndiriləcək. Bununla da Qarabağın və Şərqi Zəngəzurun 110 kV-luq ikidövrəli xətlərinin dairəvi elektrik təchizatı yaradılacaq və hansısa xətdə qəza baş versə belə, enerji təchizatında fasiləsizlik təmin ediləcək.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, strateji əhəmiyyətli "Laçın" şəhər yarımstansiyasında ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu və rəqəmsal idarəetmə mərkəzi tikilib. 35 kV-luq və 10 kV-luq qapalı paylayıcı qurğularla təchiz olunmuş İdarəetmə Mərkəzində yaradılan SCADA dispetçer idarəetmə sistemi rəqəmsal qaydada enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Bunun üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik şəbəkə yaradılıb. Eyni zamanda, yarımstansiyada yanğın və partlayışa qarşı SERJİ sistemi qurulub.

Yarımstansiya ərazisində əməkdaşlar üçün xüsusi yataqxana korpusu tikilib.

Qeyd edək ki, dövlətimizin başçısının Böyük Qayıdış strategiyasına uyğun olaraq işğaldan azad edilən ərazilərdə "AzərEnerji" tərəfindən tikilən bütün stansiya və yarımstansiyalarda əməkdaşlar yerli kadrlardan seçilir, onların işlə təminatı və məskunlaşmaları üçün digər zəruri tədbirlər görülür.

Prezident İlham Əliyev yolüstü balıq istehsalı müəssisəsinə də baxdı.

**AZƏRTAC**
**2023, 27 may**

**Laçın rayonunun Zabux kəndində aparılan tikinti işləri ilə tanışlıq**

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Zabux kəndində aparılan tikinti işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib.

Qeyd olundu ki, Zabux kəndində evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında “yaşıl enerji”dən istifadə edilməsi nəzərdə tutulub. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

**x x x**

Qeyd edək ki, bu gün Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsinə çevrilir. Mübaliğəsiz demək olar ki, şəhər əsl tikinti meydançasını xatırladır. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır.

Hazırda bütün yeraltı kommunikasiya xətləri tamamlanmaq üzrədir. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb.

Laçın şəhərinə girişdə bir neçə kilometri əhatə edən meyvə bağları göz işlədikcə uzanır. Şəhərə gedən yoldakı aşırımların ən yüksək nöqtəsindən açılan möhtəşəm mənzərəni seyr etmək üçün böyük terras qurulub. Laçının ətrafında vaxtilə Abdallar adlanan ərazidəki qədim kahalar bərpa olunaraq etnoqrafik turizm üçün maraqlı obyektlərdən birinə çevrilib.

Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Təkcə yol və binalar deyil, məkanın real coğrafi relyefini əks etdirən sal qayaların, yüksək zirvələrin, sıldırımların işıqlandırılması da Laçının gözəlliyini əks etdirir.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident İlham Əliyev Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin kəsişməsində lövhələrin açılışını edib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin kəsişməsində istiqamət bildirən lövhələrin açılışını edib.

AZƏRTAC xəbər verir ki, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan küçənin uzunluğu 6967 metr, eni isə 10-12 metr təşkil edir. Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 5239, eni isə 12 metrdir. 28 May küçəsinin isə uzunluğu 1703, eni isə 10 metr nəzərdə tutulur.

Qeyd edildi ki, şəhərin memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq bu küçələrdə ən müasir infrastruktur yaradılacaq.

Prezident İlham Əliyevə, həmçinin Laçın şəhərində görülən işlər və Heydər Əliyev küçəsinin yenidənqurma konsepti barədə məlumat verildi.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtükləri götürdü.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçın şəhərində Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişməsində lövhələrin açılışı olub**

Mayın 28-də Laçın şəhərində Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişməsində istiqamət bildirən lövhələrin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Xosrov bəy Sultanov küçəsinin uzunluğu 1329 metr, eni 12 metr olacaq.

Zəngəzur küçəsinin uzunluğu 2142 metr, eni isə 10 metr təşkil edəcək.

Qeyd edildi ki, küçələrdə aparılacaq yenidənqurma işlərindən sonra burada zəruri infrastruktur yaradılacaq.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtüyü götürdü.

Küçə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Laçın şəhərində inşa olunan kotteclərə baxdı.

**AZƏRTAC**
**2023, 28 may**

**Prezident İlham Əliyev Laçında 1 Dekabr küçəsində lövhənin açılışını edib, bərpa olunmuş evlə tanış olub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində “1 Dekabr” adı verilmiş küçədə lövhənin açılışını edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına küçədə görüləcək işlər və yaradılacaq şərait barədə məlumat verildi.

Bildirildi ki, 1 Dekabr küçəsi şəhərin diplomatik yolla işğaldan azad olunduğu tarixə əsasən belə adlandırılıb. Küçənin uzunluğu 1566 metr, eni isə 10 metr təşkil edir.

Prezident İlham Əliyev küçənin adının yazıldığı lövhənin üzərindən örtüyü götürdü.

Sonra dövlətimizin başçısı küçədə yerləşən və bərpa edilmiş yaşayış evində yaradılan şəraitlə tanış oldu.

**AZƏRTAC**
**2023, 28 may**

## Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin
### çıxışı

- Bu gün Müstəqillik Günüdür. Əziz laçınlılar, ilk növbədə sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. Bu gün ikiqat bayramdır. Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Bu görüşü məhz 28 May tarixində təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir.

Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır.

Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək.

Bununla paralel olaraq indi tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait yaradılır. Dünən mənə göstərilən təqdimatda gördüm ki, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir.

Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda yaradılmaqda olan bütün şəhər və kəndlərimiz təxminən bax bu səviyyədədir. Dünən Kəlbəcər və Laçın rayonlarında yeni yaradılan və yaxın gələcəkdə istifadəyə veriləcək kəndlərin təməlqoyma mərasimlərində iştirak etmişəm. Yəni, azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır. Yəni, bu, bir daha onu göstərir ki, biz - o torpaqların sahibləri gəlmişik qurmaq üçün, yaratmaq üçün. Mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub, özü də yaşamayıb, bizə də yaşamağa imkan verməyib. Biz isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik.

Laçın rayonunun işğal altına düşməsi hamımız üçün böyük faciə idi,- ilk növbədə, sizin üçün, çünki siz artıq doğma torpaqlarda yaşaya bilmirdiniz,- eyni zamanda, gənc, müstəqil Azərbaycan üçün. Çünki Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu. Bizim müstəqilliyimizin bərpasının heç bir yaşı tamam olmamışdı. Mənfur düşmən bizə qarşı artıq açıq təcavüzə keçmişdi. Əfsuslar olsun ki, nə ovaxtkı Azərbaycan rəhbərliyi, nə də rəhbərliyə can atan müxalifət qüvvələri öz məsuliyyətini dərk edə bilməmişlər, bir çox hallarda hər ikisi xəyanət törətmişdir. Laçının

ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. Görün, bu tarixlərin - yəni, Laçının azad olunmasının və bu gün bizim burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var. May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq.

1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü, artıq hakimiyyətə can atmış və hakimiyyəti zəbt etmiş o qüvvələrin xəyanəti nəticəsində. Aprel ayında biz Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik. Yəni, bu tarixlər arasında bağlılıq var. O vaxt Azərbaycan müstəqil ölkə kimi yaşasa da, ancaq müstəqil siyasət apara bilmirdi. Azərbaycan zəif idi, gücsüz idi, ölkədə gedən dağıdıcı proseslər yeni əldə edilmiş müstəqilliyi faktiki olaraq şübhə altına qoymuşdu. Ölkədə həm iqtisadi böhran, siyasi böhran, hərbi böhran hökm sürürdü, hakimiyyət uğrunda mübarizə, demək olar ki, savaş gedirdi, vətəndaş müharibəsi alovlanırdı. Bütün bu işlərin səbəbkarı o vaxt Xalq Cəbhəsi-Müsavat cütlüyünün mənfur fəaliyyəti idi.

Bu ay biz Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etmişik və ilin sonuna qədər tədbirlər davam edəcək. Məhz onun Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, Azərbaycan inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu. 1993-cü ilin oktyabr ayından – o, prezident vəzifəsinə seçiləndən sonra bu günə qədər Azərbaycan sabitlik məkanı kimi, dünyada nümunəvi ölkə kimi özünü təsdiqləyib. O vaxt isə vəziyyət tam fərqli idi. Laçın, Kəlbəcər və Şuşa işğal olunandan sonra təbii ki, erməni silahlı qüvvələri böyük strateji - hərbi üstünlük əldə etmişlər və digər torpaqlarımızı da işğal edə bilmişlər.

Siz yaxşı bilirsiniz, mən uzun illər ərzində çalışırdım ki, biz bu işğala danışıqlar yolu ilə son qoyaq. 20 ilə yaxın apardığım danışıqlar bunu bir daha göstərir. Ancaq siz də, bütün Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də yaxşı bilirdi və bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi. Sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq üçün, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün belə bir təklif irəli sürürdü ki, bəli, guya onlar beş rayonu qaytarmağa hazırdırlar, ancaq Laçın və Kəlbəcər onların əlində həmişəlik qalmalıdır. Biz isə heç vaxt bununla razılaşa bilməzdik. Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik. Danışıqlar yolu ilə olsaydı, daha yaxşı olardı, ancaq mən deyirdim ki, biz hər varianta hazır olmalıyıq və azadlıq gününü hər birimiz yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq. Danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik. Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır.

Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub. Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər. Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların qəhrəmanlığını heç vaxt unutmayacağıq. Onların qəhrəmanlığı, şücaəti sayəsində biz, bax, bu gün burada oturmuşuq və bu gün bu torpaqlarda həyat canlanır.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. İkinci Qarabağ müharibəsindən keçən dövr də gələcək üçün çox önəmli idi. Çünki müharibə başa çatanda, demək olar ki, bu məsələ ilə vaxtilə məşğul olmuş vasitəçilər heç özləri də bilmirdilər ki, bundan sonra onlar nə ilə məşğul olacaqlar. Ermənistan tamamilə aciz vəziyyətdə idi, o, acı məğlubiyyətin ağrılarını, yaralarını hələ də sağalda bilmir. Onlara böyük psixoloji zədə, travma vuruldu, bu, təbiidir. Ona görə Azərbaycan burada yenə də liderlik göstərdi. Yəni, bu gün bizim yaşadığımız reallıq məhz İkinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində əldə edilmiş nəticələr əsasında formalaşıb. Biz demişik ki, ATƏT-in Minsk qrupunun xidmətlərinə, - əslində, bu, ayı xidməti idi, - ehtiyac yoxdur. Biz dedik ki, Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyü prinsipi əsas tutularaq sülh müqaviləsi imzalanmalıdır. Biz lazımi addımlar ataraq bu gün Qarabağda Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazilərdə istədiyimizə nail olmuşuq. Biz 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoyaraq məsələni birdəfəlik həll etdik, ərazi bütövlüyü məsələlərini birdəfəlik həll etdik. Onsuz da İkinci Qarabağ müharibəsi nəticəsində ərazi

bütövlüyümüz bərpa edilmişdir. Ancaq sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır.

Yəni, bütün bu reallıqları yaradan biz olmuşuq. Məhz bunun nəticəsində İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra həm Azərbaycan-Ermənistan sərhədində, həm Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə, həm sərhəd-buraxılış məntəqəsini qoymaqla biz yeni reallıq yaratdıq və Ermənistanı məcbur etdik ki, bizim dediyimizi onlar da təkrarlasın. Mən bunu İkinci Qarabağ müharibəsi başa çatandan sonra demişdim, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl “Qarabağ Ermənistandır” deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim “Qarabağ Azərbaycandır!” sözlərimin təkrarıdır.

İndi isə artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Əminəm ki, yaxın gələcəkdə, - əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, - sülh müqaviləsi imzalana bilər. İmzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq.

Mən yaxşı xatırlayıram, yəqin ki, siz də xatırlayırsınız, 2011-ci il dekabrın 24-də ad günümdə mən laçınlılarla Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində görüşmüşdüm. Mən adətən öz ad günlərimi, o cümlədən yubiley sayılan ad günlərimi qeyd etmirəm, 60 yaşımı Cıdır düzündə qeyd etmişəm, 50 yaşımı isə Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmişəm. O vaxt Taxtakörpü qəsəbəsində laçınlılar üçün 550-dən çox evdən ibarət bir qəsəbə salınmışdı. O görüşdə demişdim ki, gün gələcək, biz sizin üçün Laçında daha gözəl evlər tikəcəyik və gün gəldi. O tarixdən cəmi 11 il keçib, biz sizinlə artıq Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, hamımız bu gün xoşbəxtlik içində yaşayırıq. Böyük nikbinliklə yaşayırıq. Qürur hissi ilə yaşayırıq. Çünki İkinci Qarabağ müharibəsi bizim əbədi qürur mənbəyimizdir. Bu Zəfər bizimlə əbədi olacaq və gənc nəsil, uşaqlar, bax, bu Zəfər qüruru ilə yaşayacaqlar.

İndi isə qurub-yaratmaq vaxtıdır. Bir daha demək istəyirəm ki, bugünkü Laçın şəhərinin siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq, birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir. Bu, həmişə bizim torpaq olub. Sadəcə olaraq, mənfur düşmən öz xarici havadarları ilə birlikdə bizim zəifliyimizdən istifadə edib, hakimiyyətsizlikdən istifadə edib bu torpaqları zəbt etmişdi və burada əbədi yaşamaq istəyirdi.

Onu da bildirməliyəm ki, Laçın rayonunda, eyni zamanda, Kəlbəcər rayonunda ermənilər qanunsuz məskunlaşma aparırdılar. Bu, beynəlxalq konvensiyalarla hərbi cinayət sayılır. Ancaq onların hansı vəziyyətdə yaşamalarını mən buraya sentyabr ayında gələndə gördüm. Onların özləri üçün qurduqları şəraiti mən heç nə ilə müqayisə edə bilmirəm. Çünki insan o şəraitdə necə yaşayıb, onu yəqin ki, ancaq özləri bilə bilər.

Biz Laçına qayıdandan dərhal sonra artıq quruculuq işlərinə start verdik. Mən sentyabr ayında gəldim, sentyabrın sonundan biz artıq işlərə başlamışıq.

Siz yaxşı bilirsiniz ki, İkinci Qarabağ müharibəsi başa çatanda Laçın, Kəlbəcər və Ağdam rayonunun böyük hissəsi hələ də işğal altında idi. Müharibə zamanı dəfələrlə deyirdim ki, Ermənistan rəhbərliyi mənə tarix verməlidir, bizim torpaqlarımızdan öz qoşunlarını nə vaxt çıxaracaq, ancaq o təqdirdə biz müharibəni dayandıra bilərik. Şuşa işğaldan azad olunandan, bir çox kəndlər azad olunandan sonra Ermənistan faktiki olaraq kapitulyasiya aktına imza atmışdır. Əldə edilmiş razılaşmaya görə, ermənilərin yaşadıqları Qarabağ bölgəsi ilə Ermənistan arasında bir yol bağlantısı olmalı idi və Rusiya sülhməramlı qüvvələri bu yola nəzarət etməli idilər. Beləliklə, Laçın şəhəri hələ də faktiki olaraq işğal altında idi və məhz noyabrın 10-na qədər gedən danışıqlar nəticəsində mən təkidlə nail oldum ki, yeni yol çəkiləcək və yeni yol çəkiləndən sonra Laçın şəhəri bizə qaytarılacaq. Yolun razılaşdırılması üçün üç il vaxt müəyyən edilmişdi, sadəcə olaraq, yolun marşrutunun razılaşdırılması üçün. Biz nəinki bunu razılaşdırdıq, eyni zamanda, ilyarım ərzində bu yolu inşa etdik və avqustun əvvəlində artıq Laçında yaşamış ermənilərə və Rusiya sülhməramlı qüvvələrinə bildiriş göndərdik ki, biz artıq gəlirik, xahiş edirik, buradan çıxın. Ondan sonra bizdən xahiş

olundu ki, müəyyən vaxt verilsin, avqustun 25-nə qədər vaxt verilsin və ondan sonra onlar Laçını, Zabux və Sus kəndlərini boşaldacaqlar. Mən isə razılaşdım, çünki 20 gün o qədər də böyük fərq deyil. Beləliklə, avqustun 25-də sonuncu erməni işğalçı, yaxud ki, qanunsuz yaşayan Laçını tərk etdi və avqustun 26-da biz Laçına qayıtdıq.

Bax, bu, bir daha onu göstərir ki, hər bir qarış torpaq bizim üçün əziz və doğmadır. Hər şəhər, hər kənd bizimdir və torpaqdan pay ola bilməz. Danışıqlar zamanı müxtəlif mərhələlər olub, müxtəlif məqamlar olub. Təzyiqlər də olub, hədələr də olub və bəziləri bizi işğalla barışmaq üçün böyük səylər göstərirdilər. Ancaq bizim əyilməz mövqeyimiz, iradəmiz bütün bu səyləri alt-üst etmişdir. Mən deyirdim ki, heç bir güzəşt ola bilməz. "Beş rayon bizə qaytarılsın, iki rayon qalsın əbədi ermənilərin nəzarəti altında" - bu, mümkün deyil. Biz bir kəndi də güzəştə getmək fikrində deyildik və bu gün bunu sübut etdik. Aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi bu gün Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır. Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq. Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır.

İki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm. Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni, nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır. Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər.

Bir müddət bundan əvvəl bizim iki hərbçimiz yolu azaraq Ermənistan ərazisinə keçib və orada da işgəncələrə məruz qalıb. Bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər, əgər kimsə yolu azsa, - çünki bu ehtimal çox böyükdür, xüsusilə qış aylarında, siz özünüz bilirsiniz ki, burada iqlim çox sərtdir, dağlardır, dərələrdir, yolu azmaq olar, - əgər belə bir hal baş verərsə, maksimum iki günə o adamlar qaytarılmalıdır. Biz buna əməl edirdik. Onları maksimum iki gün saxlayıb, sorğu-suala tutub qaytarırdıq, mülki vətəndaşları da,

hərbçiləri də. Görün, onlar nə etdilər?! Onlar, birincisi, yolu azmış hərbçilərimizi vəhşicəsinə döyüblər, qandallayıblar, ləyaqətini alçaldıblar, döyülmə anlarını videoya çəkiblər. Ondan sonra həbs ediblər və artıq məhkum ediblər. Bu, harada görünüb? Mayın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşdə mən bildirdim ki, bu, dözülməzdir. Əgər siz bu razılaşmanı pozursunuzsa, bunun acısını siz özünüz çəkəcəksiniz. Dərhal bizim hərbçilərimizi qaytarın. Amma bunun əvəzinə onlara iş verilib, 11 il müddətinə məhkum ediliblər. Nə məhkəmə olub, nə vəkil olub, nə hakim olub, nə də media nümayəndələri. Belə məhkəmə olar? Bu, qanunsuzluqdur. Ona görə bu gün də deyirəm, hələ ki, gec deyil. Hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki, Ermənistan sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim.

Ona görə delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bu, bizim şərtlərimizdir. Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar.

Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.

Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

**x x x**

Sonra dövlətimizin başçısı Laçın şəhərinə qayıdan sakinlərə evlərin açarlarını təqdim etdi.

Sakinlər dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

**Sakin Elbrus Sadıqov:** Cənab Prezident, xoş gördük. Mən çoxdan arzulayırdım ki, Sizi qucaqlayım öpüm. Şükür Allaha arzuma çatdım. Çox sevinirəm. Allah Sizin canınızı sağ eləsin. Sizinlə fəxr edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin İsaq Musayev:** Cənab Prezident, mən də Sizə həm "Çox sağ olun!" deyirəm, həm də Sizi təbrik edirəm. Sizə cansağlığı, hərbçilərimizə uzun ömür, sağlamlıq, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Qazilərimizə, əlillərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun ki, bu günü bizə nəsib etdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Elbrus Sadıqov:** Cənab Prezident, 31 illik işğaldan sonra Sizi cənnətə çevirdiyiniz Laçın şəhərində salamlayır və "Xoş gəldiniz!" deyirəm. Biz 31 il bu həsrətlə yaşamışıq. Şükürlər olsun Allaha, qayıtmışıq torpağımıza. Axşam mən gələndə qürur hissi duydum, Laçının belə gözəlləşməsi, tez bir zamanda quruculuq işləri, abadlıq işləri Sizin sayənizdə görülübdür və biz çox qürur hissi keçiririk. Siz bizim torpağımızı qaytarmısınız, Siz bizə həyat bəxş etmisiniz. Mən bir ağsaqqal kimi Laçın ağsaqqalları və bütün laçınlılar adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Cənab Prezident, 44 günlük müharibə vaxtı biz Sizin bütün çıxışlarınızı, məlumatlarınızı izləyirdik. Şəhidlər verdik. Allah onlara rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Amin.

**Elbrus Sadıqov:** Allah qazilərimizə cansağlığı versin, xoşbəxtlik versin. Qısa zamanda torpaqlarımızı azad etdiniz, 50 milyonluq Azərbaycan xalqının başını uca etdiniz. Allah Sizə yar olsun. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün bizim üç gözəl bayramımız var - Müstəqillik Günümüz,

bizim Laçına qayıdış günümüz və Türkiyədə prezident seçkiləri günü. Allaha dua edirik ki, bu gün bizim dostumuz, qardaşımız, arxamız, dayağımız olan hamımızın sevimlisini prezident görək. Allah ona da cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Elbrus Sadıqov:** Səbirsizliklə gözləyirik ki, bir yaxşı xəbər eşidək. İnşallah, eşidərik. Bir arzum da var idi. Şükür Allaha ki, onu da görmək nəsib oldu. Mən həmişə televiziyada Sizi izləyirdim. Müharibə başa çatanda Sizi televiziyadan öpdüm, minnətdarlığımı bildirdim. Allah Sizi başımızın üstündən əskik etməsin. Bu gün arzuma çatdım, mənim ən böyük arzum yerinə yetdi. Qayıtmışıq, həm sevinir, həm kədərlənirik. Əzizlərimizdən dünyadan köçənlər var, Sizin sayənizdə ruhları şad olacaq. Allah Sizi qorusun. Allah Sizi daim bizim Prezidentimiz eləsin. Arzu edirəm ki, siz 100 yaşınızı, bax, burada qeyd edəsiniz.

**Sakin Əjdər Əhmədov:** Cənab Prezident, Sizi doğma yurdumuzda, torpağımızda xoş gördük. Mən Sizi, Mehriban xanım Əliyevanı 28 May bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bizim yaşlı nəsil, şəxsən mənim atam, anam bu gün burada iştirak edə bilmir. Bu gün burada olduğuma görə həm sevincliyəm, həm də kədərliyəm. Onlar burada iştirak etməsələr belə, biz bir övlad kimi, Laçınımızdayıq və Sizə bildirmək istəyirəm ki, bu gündən etibarən biz doğma yurdumuzda yaşayacağıq, yaradacağıq. Laçınımızın gözəlləşməsi üçün əlimizdən gələni edəcəyik. Cənab Prezident, bu günü bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin Qadir Vəliyev:** Hörmətli Prezident, cənab Ali Baş Komandan, Siz bizə 44 günlük müharibədə Zəfər yaşatdınız. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Sizin müdrik siyasətiniz nəticəsində biz laçınlıların 31 illik həsrətinə son qoyuldu. Sizi və ailə üzvlərinizi bu münasibətlə bütün laçınlılar adından təbrik edirəm. Sizə uzun ömür və cansağlığı arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha bayramınız mübarək olsun.

**x x x**

Sonra xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2023, 28 may**

## President İlham Əliyevə Laçın şəhərinin Baş planı təqdim olunub

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Laçın şəhərinin Baş planı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Prezident İlham Əliyevə Baş planda nəzərdə tutulan tədbirlər və plana əsasən görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb.

Şirkətin həmtəsisçisi və tərəfdaşı Dunya Kovari-Binggeli bildirdi ki, Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

Diqqətə çatdırıldı ki, Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, yaşıl enerji mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

Qeyd olundu ki, Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

Xatırladaq ki, ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçında İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirak edib.

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerlə-yeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır. Belə muzey komplekslərindən biri də Laçında yaradılır.

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına kompleksdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir.

Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir.

Muzeyin binası əzəmətli və estetik gözəlliyi ilə fərqlənən memarlıq quruluşuna malikdir. Belə ki, binanın təpənin yamacına doğru uzanması sabitlik və dayanıqlılığı ifadə edir. Rəmzi olaraq binanın quruluşu torpaqdan güc alaraq səmaya doğru yüksəlişi təcəssüm etdirir. Binanın qismən yerin alt hissəsinə keçən maili forması sayəsində muzeyin ümumi daxili sahəsi 2400 kvadratmetr təşkil edir.

Muzeyin interyeri hər tərəfdən rahat giriş imkanı yaratmaq və ətrafdakı parkla inteqrasiyanı təmin etmək üçün xüsusi formada dizayn olunub. Ərazinin relyefi ilə ahəng yaradan tikilinin dam hissəsində həm binanın daxilindən lift vasitəsilə, həm də Memorial Parkdan keçid imkanı olan iki panoramlı terras yerləşəcək.

Beş mərtəbədən ibarət olacaq muzeyin birinci mərtəbəsində bilet satış mərkəzinin yerləşdiyi geniş foyenin və inzibati otaqların yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə İşğal Muzeyi, üçüncü mərtəbədə kafe, dördüncü mərtəbədə isə Zəfər Muzeyi yaradılacaq. Sonuncu – beşinci mərtəbədə istirahət zalı və kitab mağazasından ibarət olan və yuxarı hissədən binaya girişi təmin edən foye yerləşəcək.

İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək.

Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial Park salınacaq. Memorial Parka daxil olan dağıntılar bədii instalyasiyalarla zənginləşdirilərək açıq səma altında muzeyə çevriləcək.

Dövlətimizin başçısı Laçın İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoydu.

Qeyd edək ki, muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən və Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub**

Mayın 28-də Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, layihələndirilən yaşayış məhəlləsi Laçın şəhərinin cənub-qərb hissəsində 16,3 hektar ərazidə planlaşdırılıb. Ərazidə müasir tipli yaşayış binaları və şəhər sakinlərinə xidmət göstərəcək idman kompleksinin inşası nəzərdə tutulub. Təklif layihəsində binaların memarlıq kompozisiya həlli və yerləşməsi ərazinin relyefi, demoqrafik tələbləri, sosial, məişət və sanitar xüsusiyyətləri nəzərə alınaraq hazırlanıb.

Diqqətə çatdırıldı ki, yaşayış binaları üzrə ümumi sayı 462 olmaqla birotaqlı 45, ikiotaqlı 126, üçotaqlı 180 və dördotaqlı 108 mənzil nəzərdə tutulub. Məhəllədə 1630 nəfərin yaşaması planlaşdırılıb.

Məlumat verildi ki, ərazidəki idman sağlamlıq mərkəzində müxtəlif idman növləri üzrə və üzgüçülük hovuzu ilə birlikdə iaşə obyektləri, inzibati və digər köməkçi sahələr yaradılacaq.

Eyni zamanda, yaşayış məhəlləsində ticarət obyekti, açıq idman meydançası, uşaq əyləncə və istirahət sahələrinin yaradılması nəzərdə tutulur.

Dövlətimizin başçısı yaşayış məhəlləsinin təməlini qoydu.

**X X X**

Prezident İlham Əliyev, həmçinin son tamamlanma işləri aparılan idman kompleksi ilə tanış oldu.

Qeyd edək ki, ölkəmizin hər bir guşəsində yaradılan, ən müasir avadanlıqla təchiz edilən bu cür idman infrastrukturu gənclərin idmanın müxtəlif növlərinə marağını artırmaqla yanaşı, əhalinin sağlam həyat tərzi keçirməsinə də hərtərəfli töhfə verir.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçın rayonunda Şərqi Qafqaz turları və şahin quşları təbiətə, müxtəlif növ balıqlar Həkəri çayına buraxılıb**

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Əvvəlcə Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində rayonun ərazisinə boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları və şahin quşları təbiətə buraxıldı.

Məlumat verildi ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsli tükənib.

Həmçinin qeyd olundu ki, adı “Qırmızı kitab”a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib. Bundan əvvəl də 200-dək şahin quşu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qətər Dövlətinin Proqramı çərçivəsində ölkəmizin bioloji müxtəlifliyinin inkişafına dəstək məqsədilə Xızı, Siyəzən və Şabran rayonları ərazisində vəhşi təbiətə buraxılıb.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

Bildirildi ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5-8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində də iştirak etdi.

Dövlətimizin başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində otuz ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan “Qırmızı kitab”ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. Otuz ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

Bildirildi ki, işğal dövründə tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilib. Ərazidən axan əsas çaylar üzərində 11 avtomat hidroloji, Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji, Zəngilan rayonundakı “Ağıllı kənd” ərazisində avtomat aqrometeoroloji, həmçinin transsərhəd ərazilərdə radiasiya fonunun nəzarətdə saxlanılması məqsədilə avtomat radioekoloji stansiyalar quraşdırılıb.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə formalaşan bərk məişət tullantılarının idarə olunması istiqamətində görülən işlər barədə də məlumat verildi. Bu ərazilərdə tullantıların müasir standartlara uyğun idarə olunması üçün xüsusi təyinatlı texnika və avadanlıqların alındığı və Regional Strategiyanın hazırlandığı diqqətə çatdırıldı.

**x x x**

Sonra Prezident İlham Əliyev istirahət üçün nəzərdə tutulan kottec tipli evlərin inşası ilə tanış oldu.

**AZƏRTAC**
**2023, 28 may**

**Laçın rayonunda Şərqi Qafqaz turları və şahin quşları təbiətə, müxtəlif növ balıqlar Həkəri çayına buraxılıb**

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Əvvəlcə Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində rayonun ərazisinə boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları və şahin quşları təbiətə buraxıldı.

Məlumat verildi ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsli tükənib.

Həmçinin qeyd olundu ki, adı "Qırmızı kitab"a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib. Bundan əvvəl də 200-dək şahin quşu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qətər Dövlətinin Proqramı çərçivəsində ölkəmizin bioloji müxtəlifliyinin inkişafına dəstək məqsədilə Xızı, Siyəzən və Şabran rayonları ərazisində vəhşi təbiətə buraxılıb.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

Bildirildi ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5-8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində də iştirak etdi.

Dövlətimizin başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində otuz ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Qırmızı kitab"ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. Otuz ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

Bildirildi ki, işğal dövründə tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilib. Ərazidən axan əsas çaylar üzərində 11 avtomat hidroloji, Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji, Zəngilan rayonundakı "Ağıllı kənd" ərazisində avtomat aqrometeoroloji, həmçinin transsərhəd ərazilərdə radiasiya fonunun nəzarətdə saxlanılması məqsədilə avtomat radioekoloji stansiyalar quraşdırılıb.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə formalaşan bərk məişət tullantılarının idarə olunması istiqamətində görülən işlər barədə də məlumat verildi. Bu ərazilərdə tullantıların müasir standartlara uyğun idarə olunması üçün xüsusi təyinatlı texnika və avadanlıqların alındığı və Regional Strategiyanın hazırlandığı diqqətə çatdırıldı.

**x x x**

Sonra Prezident İlham Əliyev istirahət üçün nəzərdə tutulan kottec tipli evlərin inşası ilə tanış oldu.

**AZƏRTAC**
**2023, 28 may**

**İƏT Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurması qərarını təqdir edir**

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibliyi Azərbaycanın təhlükəsizlik təhdidlərinə cavab olaraq, beynəlxalq hüququn prinsip və normalarına uyğun şəkildə öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə bağlı qanuni qərarını və addımını təqdir edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər təşkilatın Baş katibliyinin bəyanatında yer alıb.

Bəyanatda deyilir: "Baş Katiblik 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya Federasiyası arasında imzalanmış üçtərəfli Bəyanatda digər məsələlərlə yanaşı, bütün hərbi fəaliyyətlərin dayandırılması barədə razılaşmaya istinad edir və Ermənistanı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağırır.

Üçtərəfli sazişə əsasən, Azərbaycan Laçın-Xankəndi yolu ilə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə təminat vermək öhdəliyini daşıyır. Baş Katiblik etiraf edir ki, sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan hökumətinin səlahiyyəti, həmçinin milli təhlükəsizlik, dövlət suverenliyi və qanunun aliliyi üçün zəruri şərtdir.

Baş Katiblik İƏT Xarici İşlər Nazirləri Şurasının Mavritaniya İslam Respublikasının Nuakşot şəhərində keçirilmiş 49-cu sessiyasında və əvvəlki sessiyalarda Azərbaycan və Ermənistan arasında münasibətlərin qarşılıqlı tanınması və bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında normallaşdırılması çağırışını bir daha vurğulayır".

**AZƏRTAC**
**2023, 4 may**

**Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub**
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.**

Mayın 4-də Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Qeyd olundu ki, Güləbird kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev Güləbird kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

## Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başlaması tarixi hadisədir

Hər bir müstəqil ölkənin öz suveren ərazilərinə nəzarət etməsi üçün sərhəd-buraxılış məntəqəsinin olması zəruri hallardandır. O cümlədən Azərbaycanın da beynəlxalq səviyyədə tanınmış ərazilərini qoruması və qonşu respublikalarla sərhəddə nəzarət xidmətini yaratması beynəlxalq sənədlərə görə suveren hüququdur. Aprelin 23-də Həkəri çayı üzərindəki körpüdə Ermənistanla şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başlanması tarixi hadisədir və 30 illik istəyimizin reallaşmasıdır. Bu xidmət məntəqəsi artıq qurulub və girişdə “Siz Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz” yazısı da yazılıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

“Laçın yolunun başlanğıcındakı sərhəd xidməti qısa bir müddət ərzində çox yüksək səviyyədə qurulub. Belə ki, burada sərhəd-keçid nəzarətinin həyata keçirilməsi üçün bütün infrastruktur və şərait yaradılıb. Artıq bu keçiddən Qarabağda yaşayan etnik ermənilərin keçdiyini də müşahidə edirik. Sərhədi keçən ermənilərə yüksək mədəniyyət və nəzakətlə yanaşılır, sənəd yoxlanışından keçilməsi üçün onlara sərhədçi-nəzarət kabinəsinə yaxınlaşmağı xahiş olunur, sonra da avtomobillərin yük hissəsinə baxış həyata keçirilir. Bu, sərhədçilərimizin yüksək peşəkarlığının göstəricisidir. Hesab edirəm ki, sərhədi keçən ermənilərin sənədlərinə ərazilərimizə giriş-çıxışla bağlı möhür də vurulacaq. Çünki Qarabağda yaşayan ermənilər Azərbaycan ərazisinə daxil olduğunu hiss etməlidirlər və bunun məsuliyyətini daşımalıdırlar. Təbii ki, belə nəzarəti dünyanın əksər ölkəsi öz sərhədində tətbiq edir”, - deyə A.Badamov vurğulayıb.

Deputat qeyd edib ki, Laçın-Xankəndi yolunda sərhəd məntəqəsi qurulaması nəticəsində yolun bağlanması barədə Ermənistanın yaydığı xəbərlər tamamilə yalandır və həqiqəti əks etdirmir. Ermənilər bu kimi dezinformasiyalarla öz yalanlarını dünya ictimaiyyətinə çatdırmaqda davam edirlər. Amma artıq beynəlxalq ictimaiyyət də erməni yalanlarından yorulub. Bu yalanlara reaksiya verənlər isə ancaq onların “bacı-qardaşları” və erməni lobbisinin pulla ələ aldıqları şəxslərdir. Sərhəd xidmətinin nəzarətə başladığı zamandan bəri həmin yoldan keçən mülki erməni avtomobillərinin və sakinlərinin sayının artması bir daha yolun humanitar məqsədlər üçün açıq olduğunu göstərir. Laçın yolunun başlanğıcında postun qurulması Ermənistandan Qarabağa silah-sursat daşınmasının, hərbçilərin rotasiyasının aparılmasının qarşısını aldı. Bundan sonra Ermənistandan Azərbaycana qeyri-qanuni və təhlükə törədəcək heç nəyin aparılmasına imkan verilməyəcək.

“Azərbaycan Qarabağda yaşayan ermənilərin Ermənistana və əks istiqamətdə maneəsiz keçidini təmin edir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən eyni hüquqa Naxçıvanda yaşayan azərbaycanlılar da malikdirlər. Biz çox ciddi şəkildə Naxçıvanda yaşayan azərbaycanlıların Zəngəzurdan maneəsiz keçidini tələb etməliyik, çünki razılaşmaların icrası qarşılıqlı olmalıdır. Azərbaycanın gələcəyə dair baxışları içərisində qonşu ölkələrlə sülh və əməkdaşlıq mühitində yaşamaq məsələləri də yer alır. Amma bununla yanaşı, heç bir qonşumuzun da daxili işlərimizə qarışmasına və birtərəfli şəkildə üstünlük əldə etməsinə imkan verilməməlidir.

**AZƏRTAC**
**2023, 3 may**

## XİN: Ermənistan XİN-in Laçın yolunda sərhəd-nəzarət keçid məntəqəsi ilə bağlı cəfəng iddialarının heç bir əsası yoxdur

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyanın "Azadlıq" radiosunun sualına cavabında Laçın yolunda sərhəd-nəzarət keçid məntəqəsinin təsis edilməsi, Ermənistanın Azərbaycan ərazisində qüvvələri, 8 kəndin hələ də işğal altında saxlanması ilə bağlı səsləndirdiyi cəfəng iddiaların heç bir əsası yoxdur və onları qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı şərhində bildirilib.

Qeyd olunub ki, Azərbaycanın öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə legitim qərarı və addımı bütün beynəlxalq hüquq prinsiplərinə və normalara uyğundur. Ermənistanın Azərbaycanın bu qərarına müdaxiləsi qəbuledilməzdir.

Göründüyü kimi, Ermənistan tərəfi Laçın yolunda etiraz aksiyalarını şərh edərkən, sözügedən aksiyaların Laçın yolundan qeyri-qanuni fəaliyyətlər və hərbi təxribatlar üçün istifadəyə qarşı yönəldiyini unudub və Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti qərarını yanlış təfsir etməkdən hələ də çəkinmir.

Azərbaycanlı ekofalların Xankəndi-Laçın yolunda keçirdiyi etiraz aksiyalarının guya "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və s. kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə Ermənistanın iki əsas iddiasının Məhkəmə tərəfindən rədd edilməsi faktını Ermənistan tərəfinin hələ də həzm edə bilməməsi acınacaqlıdır.

Ermənistan tərəfinin Azərbaycana qarşı son 30 ildə törətdiyi mina təhdidləri məsələsindən boyun qaçırması və öhdəliyi öz üzərindən atması təəssüf doğurur. Məsələ üzrə sonuncu Məhkəmə dinləmələri bir daha göstərib ki, Ermənistanın mina istehsal etmədiyi və basdırmadığı barədə beynəlxalq təşkilatlara açıqladığı hesabatlar yalan üzərində qurulub. Eyni zamanda, mina məsələsində mahiyyət üzrə qərarın sonrakı dövrə saxlanılması barədə Məhkəmənin qərarının, Məhkəmənin məsələni rədd etməsi kimi qələmə verilməsi tamamilə yanlışdır. Bu müvəqqəti qərarın Ermənistanı, Azərbaycan ərazilərində minalar və mina tələlərinin yerləşdirilməsi, Laçın yolundan sui-istifadə edərək Azərbaycan ərazilərinə 2021-ci il istehsalı minaların daşıması və minalanmış ərazilər barədə həqiqi xəritələrin təqdim edilməməsi kimi öhdəliklərin pozuntularından azad etmədiyi bəllidir.

Ümumiyyətlə, müstəqillik qazanan dövrdən beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə qarşı hərbi təcavüz, kütləvi qırğınlar törədən, işğal altında olan şəhərləri və yüzlərlə kəndi viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, yüz minlərlə əhalini öz doğma torpaqlarından qovan, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirməyən Ermənistanın Azərbaycanı təcavüzdə, "etnik təmizləmədə" və Ermənistana məxsus kəndlərin işğalında təqsirləndirməsi absurddur.

Ermənistanın hələ üçtərəfli Bəyanatı imzalayan zaman üzərinə götürdüyü öhdəlik çərçivəsində Naxçıvanın Sədərək rayonunun Kərki və Qazaxın Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndlərini azad etmək əvəzinə, sözügedən kəndlərin Azərbaycana məxsusluğunu sual altına qoyması bu ölkənin hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini göstərir.

Ermənistanın baş naziri Nikol Paşinyanın müharibəni uduzmağı Ermənistanda olan "5-ci kolonla" əlaqələndirməsini, müharibənin Ermənistan silahlı qüvvələri tərəfindən aparılmasını təsdiq etdiyini, bütün hərbi komandanlığın Ermənistan Müdafiə Nazirliyinə tabe olmasını, yüksək siyasi və hərbi rəhbərliklərinin qüvvələrin hələ də çıxarılmadığı barədə etiraflarını göz ardına vuran Ermənistan XİN-in sözçüsünün Azərbaycanda Ermənistan silahlı qüvvələrinin olmadığını bildirməsi bu ölkənin xarici siyasətinin yalanlarla bəsləndiyinin göstəricisidir. Uzun müddət məhz qondarma rejimin hərbçiləri kimi təqdim edilən şəxslərə qarşı Ermənistanın özünün hüquq-mühafizə orqanları tərəfindən cinayət işlərinin aparılması bu hərbçilərin məhz Ermənistana tabe olduğunun əyani sübutudur.

Azərbaycan bir daha Ermənistanı ölkəmizə qarşı ərazi iddialarından əl çəkməyə çağırır. Bölgədə sülh və sabitliyin təmini Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməsindən asılıdır.

**AZƏRTAC**
**2023, 1 may**

**Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsindən sərbəst keçid tam təmin olunub**

Azərbaycanın Laçın rayonunda Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsindən insanların və avtomobillərin sərbəst keçid təmin olunub.

AZƏRTAC xəbər verir ki, nəzarət-buraxılış məntəqəsində xidmətlə bağlı yayılan kadrlardan göründüyü kimi, vətəndaşların sərhədi keçməsi qaydalara uyğun olaraq, nizam-intizamla və nəzakətli şəkildə təşkil edilir.

Azərbaycan sərhədçiləri vəzifələrinin icrasında yüksək peşəkarlıq nümayiş etdirirlər.

Beləliklə, Ermənistan rəsmilərinin Qarabağ ermənilərinə qarşı "etnik təmizləmə" və Laçın yolunun "blokada"sı ilə bağlı iddiaları növbəti yalan təbliğatdan başqa bir şey deyil.

Laçın yolunda qurulan sərhəd-keçid məntəqəsində təhlükəsizliyə və hərəkətə nəzarət tam təmin edilib, insanların qayda-qanun çərçivəsində sərhədi keçməsi ilə bağlı heç bir problem müşahidə olunmur.

Bu, bir daha göstərir ki, Azərbaycanın sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratmasının məqsədi heç də Ermənistan tərəfinin iddia etdiyi kimi, hərəkəti məhdudlaşdırmaq deyil, əksinə, Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etmək, ölkəmizin ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaqdır.

**AZƏRTAC**
**2023, 1 may**

**Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ermənilərin növbəti təxribatlarının qarşısını aldı - Politoloq**

Son 30 ilin tarixi sübut etdi ki, Cənubi Qafqaz regionuna fəlakətlər gətirmiş erməni ideologiyası XX əsrdə dağıdıcı və fəlakətli Dünya müharibəsinə səbəb olmuş faşist şüurundan fərqlənmir. Həmçinin onların təbliğat və təşviqat üsulları da çox oxşardır. SSRİ kimi ideoloji plüralizmə yer olmayan bir dövlətdə qadağalara və məhdudiyyətlərə baxmayaraq, belə neonasist ekstremist təmayüllü ideologiyanın çiçəklənməsi bu siyasətin mərkəzi hakimiyyətin məqsədli strategiyası olmasına dəlalət edirdi.

Qırx dörd günlük Vətən müharibəsindən sonra aydın oldu ki, torpaqlarımızı sürətli hücumla azad etməyimiz və regionda yeni reallıqlar yaratmaq təşəbbüslərimiz bəzi dairələrin ürəyincə deyil. Keçmiş münaqişənin hərbi mərhələsinin tez bitməsi ilə bu dairələrin planlaşdırdığı ssenarilərin həyata keçirilməsi imkanları sıfıra endi. Ordumuz ətraf rayonları işğaldan azad etdi, Azərbaycan-Ermənistan şərti sərhədində təhlükəsizlik şərtlərini formalaşdırdı.

Dövlətimizin başçısının Vətən müharibəsi ərəfəsində daxili və xarici mediada səsləndirdiyi bütün bəyanatları Azərbaycanın ərazilərini işğaldan azad edəcəyi və Konstitusiya şərtlərinin ölkənin bütün ərazilərində bərpa olunacağına dair qətiyyətli və ardıcıl mesajlardan ibarət idi. Bu xalqını sevən qətiyyətli Prezidentin sərt və barışmaz mövqeyi idi. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat imzalanarkən Ermənistan və havadarları Laçın dəhlizi ilə bağlı fərqli fikirlər səsləndirirdilər. Buna baxmayaraq, Prezident İlham Əliyevin təklifi ilə dəhlizin 5 kilometr müəyyən edilməsi, 3 il müddətində yeni yolun istifadəyə verilməsi və Laçın rayonunun mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəalar məhz üçtərəfli Bəyanatda əksini tapmışdı. Qarşı tərəfin mövqeyi isə dəhlizin 20 kilometr enində olması kimi absurd təkliflərdən ibarət idi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Gənc Demokratlar İnstitutu İctimai Birliyinin sədri, politoloq Yeganə Hacıyeva deyib.

Politoloq qeyd edib ki, Azərbaycan Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsini yaratmasa idi, qarşı tərəfin son 2 il 5 ay ərzində atdığı təxribatçı addımları bölgədə və ümumilikdə Cənubi Qafqazda təhlükəsizliyin təminatında ciddi problemlər yarada bilərdi.

Bir sıra avropalı rəsmilərin və siyasətçilərin, ABŞ-dan erməni diaspor nümayəndələrinin Xankəndiyə qanunsuz səfərlərinin təşkil olunması Azərbaycanın ərazi bütövlüyünə qarşı nümayişkaranə şəkildə hörmətsizlik, bundan əlavə beynəlxalq hüquq normalarının pozulması idi. Azərbaycan məhz bu cür səfərlərin və qanunsuz davranışların qarşısını almaq məqsədilə Laçın yolunda sərhəd-buraxılış məntəqəsini qurdu. Ölkəmizin bu addımı isə istər Ermənistanda, istərsə də separatçı rejimin tör-töküntüləri arasında revanşizm duyğularının oyanmasına səbəb oldu.

"Azərbaycan üzərinə götürdüyü öhdəliyə əsasən, tikintisi üç ilə nəzərdə tutulan yeni yolu il yarıma yekunlaşdıraraq tez bir zamanda istifadəyə verdi. Ermənistan isə 7 kilometrlik yolun tikintisini süni şəkildə ləngitdi. 2022-ci ilin avqustunda isə təxribatlara əl atdı. Buna baxmayaraq, Ermənistan 2022-ci ilin sentyabrında Laçının mərkəzinin qansız və heç bir qurban olmadan Azərbaycanın nəzarətinə keçməsi prosesinə mane ola bilmədi. Ötən ilin sentyabrın 21-də Prezident İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Laçına səfər etdi və şəhərin mərkəzində Azərbaycan Bayrağını ucaltdı.

Azərbaycanın Laçının mərkəzinə nəzarət etməsi ilə ermənilərin Qarabağa silah-sursat daşıması, hərbi kontingent formalaşdırmağa cəhd göstərməsi faktlarının daha çox ifşa etdilməsinə şərait yarandı. Ən əsası isə Qarabağda Azərbaycanın təbii sərvətlərinin talanması və Laçın yolu ilə Ermənistana çıxarılması faktlarla sübut olundu. Bu faktın ifşasından sonra Azərbaycanda vətəndaş cəmiyyətinin nümayəndələri, xüsusilə ekofəallar Laçın-Xankəndi yolunda etiraz aksiyasına başladılar ki, bu da ermənilərin qanunsuz əməllərinin qarşısına sədd çəkdi. Paralel olaraq, Azərbaycana qarşı qlobal səviyyədə dezinformasiya və manipulyasiya dalğası start götürdü. Ölkəmizə qarşı təhrif olunmuş məlumatlar üzərindən "qara piar" kampaniya təşkil edildi, ölkə daxilində həssas sahələrə xüsusi diqqət ayırmaqla təzyiq alətləri formalaşdırıldı. Xarici mediada bir neçə həftə ərzində "Xankəndində blokada realiti-şousu" adı ilə Azərbaycanın Qarabağda guya etnik təmizləmə siyasəti həyata keçirməsi kimi absurd təbliğat kampaniyaları aparıldı. Lakin heç bir təzyiq Prezident İlham Əliyevi öz qətiyyətli mövqeyindən geri döndərə bilmədi. Azərbaycan öz haqqını tələb etməkdə davam etdi", - deyə politoloq vurğulayıb.

O xatırladıb ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya, həmçinin Qarabağda infrastruktur layihələrinin icrası məsələlərinin müzakirəsi məqsədilə Bakıda görüşə dəvət etdi. Lakin Ermənistanın və havadarlarının təhriki

ilə Qarabağdakı etnik erməni sakinləri Azərbaycanın bütün çağırışlarını cavabsız qoydu. Son aylar ərzində isə ermənilər tərəfindən təxribatlar davam etdi, müxtəlif yollarla Qarabağa silah daşınması daha da aktivləşdi. Məhz ötən ay Ordumuz Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni fəaliyyətlərə qarşı tədbirlər gördü. Nəhayət, aprelin 23-də Dövlət Sərhəd Xidmətinin (DSX) bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması, həm ermənilərin növbəti təxribatlarının qarşısını aldı.

Bu isə Azərbaycan Prezidentinin istər 44 günlük Vətən müharibəsi günlərində, istərsə də üçtərəfli Bəyanatın imzalanmasından keçən 2 il 5 ay ərzində daxili və xarici platformalarda səsləndirdiyi dövlətin ərazi bütövlüyünün tam bərpa edəcəyi ilə bağlı verdiyi mesajların əməldə sübutu idi.

**AZƏRTAC**
**2023, 28 aprel**

**Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması erməni ideologiyasının sonu oldu - Şərh**

Azərbaycan Vətən müharibəsindən sonra qarşıya qoyduğu hədəflərə ardıcıl şəkildə, inamla və sürətlə irəliləməkdə davam edir. Ermənistan və onun havadarlarının isə fərqli yollarla maneçilik törətmə cəhdləri iflasa uğradı. Prezident İlham Əliyev diplomatik və siyasi təcrübəsi əsasında mümkün ola biləcək bütün təhdidlərin aradan qaldırılması istiqamətində bir sıra mühüm addımlar atdı. Azərbaycan humanitar məqsədlər üçün Laçın dəhlizinə icazə verərkən paralel olaraq, beynəlxalq ictimaiyyətə açıq mətnlə bildirdi ki, Laçın yolunun başlanğıcında nəzarət məntəqəsi quraşdıracaq. Ermənistan isə hər zaman olduğu kimi, etinasız yanaşaraq dəhlizdən sui-istifadə hallarını genişləndirərək qeyri-qanuni daşınmaları həyata keçirirdi. Belə ki, Ermənistan ölkəmizin təbii sərvətlərini talayır və 2021-ci il istehsalı olan minaları daşınaraq çirkin əməllərini bir daha nümayiş etdirirdi. Ona dəstək olan müəyyən qüvvələr, bəzi beynəlxalq insan hüquq və azadlıq təsisatları Ermənistanın qanunsuz əməllərini görməzdən gələrək azərbaycanlılara qarşı mina terrorları ilə bağlı səslərini çıxarmadılar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Tural Əliyev vurğulayıb.

“2022-ci il dekabrın 12-dən Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclərin və ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası başladı. Ermənistanı dəstəkləyən dövlətlər isə ekoaksiyanı fürsət bilib, ucuz şou gündəmi qurmağa niyyətləndilər. Yalnız unutduqları həqiqətləri və reallıqları hesaba ala bilmədilər. Belə ki, onlar Azərbaycanın gücünü tam olaraq qavramaqda çətinlik yaşadılar.

“Etnik təmizləmə” kimi saxta, yalan və heç bir əsası olmayan xəbərlər tirajlayan bəzi xəbər saytları, satın alınmış siyasətçilər, parlament nümayəndələri növbəyə düzülərək Azərbaycana qarşı böhtan kampaniyasına start verdilər. Məqsədləri Azərbaycanı haqlı olduğu yoldan çəkindirmək, müxtəlif siyasi don geyindirməklə diqqəti tamam başqa səmtə yönəltmək idi. Ölkəmizin çevik xarici siyasəti nəticəsində beynəlxalq hüquqi normativlər çərçivəsində gözlənilən təhlükələr bloklandı. Bəzi xarici dairələrin dövlətimizə qarşı diplomatik hücumları fikirdən əmələ keçmədi. Həmin dairələr prosesin Azərbaycanın nəzarəti altında olduğu və buna qarşı tab gətirə bilməcəyəklərini anlamaq üzrədirlər”,-deyə T.Əliyev vurğulayıb.

O bildirib ki, Azərbaycanın həm müharibəyə qədər, həm də sonrakı tələbi bir qarış belə torpağın güzəştə gedilməyəcəyi üzərində idi, ancaq Ermənistan siyasi rəhbərliyi mesajların dərin mahiyyətinə məsuliyyətsizlik göstərərək kimlərəsə və nələrəsə arxayın olaraq işğal siyasətlərini əbədiləşdirəcəklərini düşünürdülər. Dövlətimizin başçısı bütün beynəlxalq platformalarda dünya ölkələrindən Ermənistanın törətdiyi cinayətlərinə və işğala ədalətli yanaşmağı tələb edirdi. Əks halda, Azərbaycan Ordusunun öz torpaqlarını hər an işğaldan azad etməyə hazır olduğunu bildirirdi. Zaman yetişdi, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz üzərinə götürdü. Belə ki, müzəffər Ordumuz torpaqlarını düşmən işğalından azad edərək suverenliyini Qarabağ üzərində bərpa etdi. Görünən odur ki, qarşı tərəf yenə də doğru-dürüst nəticə çıxarmaq istəmir.

Politoloq deyib: “Aprelin 23-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması illərdi uydurulan tarixi erməni ideologiyasının sonu oldu. Çünki öz varlıqlarını başqalarının torpaqları hesabına sürdürən erməni şovinizmi Azərbaycanın gücü önündə bütün imkanlarından məhrum edildi. Uzun bir müddət ərzində regionda maraqları olan dövlətlərin siyasi alətinə çevrilən Ermənistan böyük bir ideoloji boşluğa düşdü. Həqiqətə söykənməyən istənilən təhlükəli cərəyanlar məhvə məhkumdur. Qarabağda yaşayan etnik ermənilərin separatçı qondarma rejimin girovluğundan çıxıb Azərbaycanın vətəndaşı olmaqdan başqa yolu qalmayıb. Bununla bağlı Ermənistandakı revanşist qüvvələr də barışa çağırış etməlidirlər”.

T.Əliyev əlavə edib ki, Azərbaycan Prezidentinin müsahibələrində verdiyi bütün mesajlar mütləq qaydada icra olunur. Ermənistan və havadarları artıq reallıqlarla barışmağa məcburdurlar. Ölkəmiz regionda sülh naminə atılan bütün addımları alqışlayır. Bunun əksinə olaraq, alternativini düşünən və puç olmuş xəyalların yenidən qayıtmasını arzulayan dairələr isə acı məğlubiyyətlə üzləşəcəklər.

**AZƏRTAC**
**2023, 28 aprel**

**Ceyhun Bayramov: Laçın yolu açıqdır və bundan sonra da açıq olacaq**

Bütün xəbərdarlıqlara baxmayaraq, Ermənistan imzaladığı sənədlərə əməl etməyib. Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə Laçın yolu üzərindən şəffaf rejimin təmin edilməsi, o cümlədən nəzarət-buraxılış məntəqəsinin Ermənistanla paralel olaraq həyata keçirilməsi təklif olunmuşdu. Bu təkliflər Ermənistan tərəfindən qəbul olunmayıb. Belə olan təqdirdə, Laçın yolu üzərində şəffaf rejimin təmin olunması üçün aprelin 23-də Azərbaycan nəzarət-buraxılış məntəqəsi qurdu.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə keçirdiyi mətbuat konfransında bildirib.

Nazir qeyd edib ki, 2020-ci il üçtərəfli Bəyanata əsasən, Laçın yolu üç məqsədlə istifadə oluna bilər. Yoldan vətəndaşların, yüklərin və nəqliyyat vasitələrinin keçidi nəzərdə tutulub. Laçın yolu bu məqsədlər üçün açıqdır və bundan sonra da açıq olacaq.

**AZƏRTAC**
**2023, 27 aprel**

**Prezident: Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququdur**

Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşımasını həyata keçirirdi.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edərkən bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququnun və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir.

**AZƏRTAC**
**2023, 27 aprel**

**XİN: Paşinyanın Laçında qurulan nəzarət-buraxılış məntəqəsi ilə bağlı səsləndirdiyi cəfəng iddiaları rədd edirik**

Azərbaycanın Xarici İşlər Nazirliyi Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis edilməsi ilə bağlı Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 27-də hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara münasibət bildirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Nazirliyin bununla bağlı bəyanatında deyilir: "Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 27-də hökumət iclasında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi ilə bağlı səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik.

Azərbaycanın daxili işi olan öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsi məsələsinə Ermənistan tərəfinin hər hansı bir müdaxiləsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiadır və Ermənistan tərəfindən Praqa və Soçidə öz üzərlərinə götürdükləri öhdəliklərə, eləcə də beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistan tərəfinin bu kimi bəyanatları bölgədə sülh və əmin-amanlığa töhfə verməməklə yanaşı, qəsdən gərginliyin artması məqsədi daşıyır.

44 günlük Vətən müharibəsindən sonra üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Ermənistan tərəfinin vəziyyətin gərginləşməsinə xidmət edən addımları kimi Azərbaycana qarşı hərbi təxribatlara son qoyulmamasını, yoldan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə edilməsini, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən tam olaraq çıxarılmamasını Ermənistan baş nazirinə xatırlatmaq kifayətdir. Bu xüsusda, qeyd edilən təxribatların qarşısını alacaq bu məntəqənin təsis edilməsinin sülh prosesinə mənfi təsir etdiyi barədə fikirlər tamamilə qəbuledilməzdir. Əksinə, bu addımın atılması sözügedən qeyri-qanuni fəaliyyətlərin effektiv qarşısının alınmasına xidmət edəcək.

Yola sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi tamamilə yanlışdır. Bununla yanaşı, baş nazirin iddialarının əksinə, üçtərəfli Bəyanata əsasən Azərbaycanın Laçın yolu üzərində səlahiyyətləri və suveren hüquqları mövcuddur. Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın-Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələri və yüklərin təhlükəsizliyinə zamanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək.

Sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsinin "etnik təmizləmə" məqsədi güddüyü barədə baş nazirin cəfəng iddiası qəbuledilməzdir. Məntəqədən Azərbaycan Respublikasının Qarabağ bölgəsinin yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün müvafiq şərait mövcuddur.

Baş nazirin erməni sakinlərlə dialoq, "təhlükəsizlik zəmanəti" "mübahisələrin həlli mexanizmi", "beynəlxalq faktaraşdırıcı missiya göndərilməsi" kimi məsələlər üzrə dəfələrlə təkrarlanmış arzu və iddiaları ilə əlaqədar qeyd edək ki, Azərbaycan tərəfi erməni sakinlərlə dialoqu ölkə qanunvericiliyi çərçivəsində həyata keçirəcək və üçüncü tərəflərin bu məsələyə müdaxiləsi qəbuledilməzdir.

Ermənistan tərəfini əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara məsuliyyətlə və konstruktiv yanaşmağa, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik".

**AZƏRTAC**
**2023, 27 aprel**

**Laçındakı nəzarət-buraxılış məntəqəsi sülhün yaradılması üçün əsas mexanizm olacaq – QHT sədri**

Aprelin 23-də Laçın-Xankəndi yolunda Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin yaradılması Azərbaycan dövlətinin prinsipiallığının və qətiyyətinin daha bir sübutu oldu. Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində regionda yaranan yeni reallıqlar kontekstində humanizm prinsiplərini əsas götürərək Xankəndidə yaşayan erməni əsilli vətəndaşların inteqrasiyasına səy göstərir. Amma təəssüf ki, dövlətimizin xoşniyyətli mövqeyi düzgün başa düşülmür. Hətta bəzi qonşu dövlətlər müxtəlif formada “Dəmir yumruq” əməliyyatı sayəsində həll olunmuş məsələni yenidən “alışdırmağa”, Azərbaycana güc nümayiş etdirmək və ermənilərə dəstək göstərmək məqsədilə müxtəlif tədbirlərə əl atıblar.

Bu sözləri AZƏRTAC-a açıqlamasında “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə bildirib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində beynəlxalq müstəvidə və regional miqyasda belə çirkin oyunlar iflasa uğramaqdadır. Laçın ətrafında baş verən prosesləri tarixi ardıcıllıqla izləsək, mövcud təzyiqlərin və Azərbaycanın sərt mövqeyinin şahidi oluruq. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanması ərəfəsində Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan danışıqlarda Ermənistanın dəhlizin 20 kilometr enində və öz nəzarətində olmasını təkid etməsi ermənilərin məqsədli formada bu yolu əlaqə vasitəsi kimi deyil, başqa məqsədlər üçün istifadə etmək fikrində olduqlarını sübut edir. Həmin dövrdə Prezident İlham Əliyevin sərt və barışmaz mövqeyi, dəhlizin 5 kilometr müəyyən edilməsi, 3 il müddətində yeni yolun istifadəyə verilməsi və Laçın rayonunun mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəaların üçtərəfli Bəyanatda əksini tapması ölkəmizin beynəlxalq hüquqa əsaslanan düşünülmüş strategiyasının olduğunu göstərirdi. 2022-ci ilin sentyabrında Laçının mərkəzinin döyüşsüz və heç bir itkisiz Azərbaycanın nəzarətinə keçməsi, yeni yolun ilyarıma istifadəyə verilməsi və digər nəticələr düşünülmüş strategiyanın sübutudur.

C.Hüseynzadə bildirib ki, ermənilərin Laçın yolu ilə Qarabağa silah-sursat daşımaları, burada hərbi kontingent formalaşdırmağa cəhd göstərmələri kimi amillər Azərbaycanın daha ciddi addımlar atmasını sürətləndirdi. Azərbaycanın nəzarət-buraxılış məntəqəsi yaratması bir daha sübut etdi ki, hər hansı xarici qüvvələrin müxtəlif təzyiq metodu olsa da, dövlətimizin başçısı yeni yaranmış situasiyada belə qətiyyətli addımlar ataraq ölkənin milli maraqlarını ən yüksək səviyyədə qoruyur. “Hesab edirəm ki, nəzarət-buraxılış məntəqəsi sülhün yaradılması üçün əsas mexanizm olacaq. Çünki Ermənistandan Qarabağ bölgəsinə silah-sursatın daşınmasının qarşısını almadan sülh quruculuğundan, təhlükəsizlikdən danışmaq mümkün deyil. Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini hamıya bir daha sübut etdi”, - deyə İctimai Birliyin sədri vurğulayıb.

**AZƏRTAC**
**2023, 27 aprel**

## Laçın yolunda Azərbaycanın post qoyması Qarabağda yaşayan mülki ermənilərin təhlükəsizliyini təmin edəcək - Ekspert

Aprelin 23-ü Azərbaycanın tarixində ən əlamətdar günlərdən biri olaraq qalacaq. Çünki həmin gündə Azərbaycan tərəfindən Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Dövlət Sərhəd Xidmətinin (DSX) nəzarət-buraxılış məntəqəsinin qurulması ölkəmizin əraziləri üzərində suverenliyinin növbəti təsdiqidir. Bununla yanaşı, Cənubi Qafqazda sülhün, sabitliyin, rifahın və əmin-amanlığın təməlinin qoyulması istiqamətində mühüm addımdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini, politoloq Fuad Çıraqov söyləyib.

O qeyd edib ki, Laçın yolunda Azərbaycanın sərhəd-buraxılış məntəqəsini qoyması Qarabağda yaşayan mülki ermənilərin hüquqları və təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan mühüm addımdır. Son zamanlar xaricdə ölkəmizə qarşı aparılan çirkin təbliğatın əsas iddialarından biri odur ki, Azərbaycan Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyini təmin edə bilməz. Həmçinin Bakının məqsədi guya ki, burada etnik təmizləmə həyata keçirməkdir. Bu təbliğata uyan bəzi dövlətlərin rəsmiləri də yersiz olaraq öz çıxışlarında və bəyanatlarında Azərbaycanı Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyini təmin etməyə çağırırlar. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır, ancaq cinayətkar elementlər 30 il burada yaşayan insanları girov saxlamaqdadır. Ona görə də Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi və hüquqlarının təminatını Azərbaycandan tələb edən qüvvələr Laçın yolunda DSX postunun qoyulmasını bu baxımdan qiymətləndirməli və alqışlamalıdırlar. Belə ki, hər hansı bir yerdə insanların hüquq və təhlükəsizliyinin təmin edilməsindən bəhs edilərkən həmin ərazidə beynəlxalq hüquq normalarına uyğun olaraq konstitusiya quruluşunun və legitim dövlət orqanlarının normal fəaliyyətinin bərqərar olunması ilkin şərtlərdəndir. Bu məqsədlə həmin ərazi qeyri-qanuni cinayətkar elementlərdən və silahlı dəstələrdən təmizlənməli və hüququn aliliyi təmin edilməlidir.

"Cinayətkar elementlərin və silahlı dəstələrin əsirlərinə çevrilən Qarabağdakı ermənilərin bu gün hansısa formada özlərinin fikirlərini və iradələrini açıq şəkildə ifadə etdiyini düşünmək absurddur. Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması Qarabağı cinayətkar elementlərdən və qeyri-qanuni silahlı birləşmələrdən azad etməklə, buradakı erməni əhalisini uzun illərin girovluğundan azad edəcək. Eyni zamanda, onların həqiqi hüquq və təhlükəsizliyini təmin etməyə imkan verəcək.

Təəssüflər olsun ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Ermənistan Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi bölgədə özünün cinayətkar, dağıdıcı və təcavüzkar fəaliyyətini davam etdirirdi. Bəyanatın müddəalarına zidd olaraq Ermənistan və qanunsuz erməni hərbi birləşmələri yoldan hərbi məqsədlərlə istifadə edirdi, xarici terrorçu qüvvələri bölgəyə gətirirdi. Başqa sözlə, məhz Ermənistan öz fəaliyyəti ilə buradakı dinc ermənilərin həyatlarını və təhlükəsizliyini risklə üz-üzə qoyurdu. Azərbaycan tərəfinin Ermənistana və Rusiya sülhməramlılarına iki il yarım ərzində bəyannamənin müddəalarına əməl etməklə bağlı çoxsaylı iradları və çağırışları lazımi nəticə vermədi. Buna görə də, Azərbaycan özünün suveren hüququndan çıxış edərək və bölgədəki əhalinin hüquqları və təhlükəsizliyi təmin etməklə bağlı beynəlxalq öhdəliklərinə uyğun olaraq Laçın yolunda DSX sərhəd-buraxılış məntəqəsini qurdu",- deyə F.Çıraqov əlavə edib.

**AZƏRTAC**
**2023, 25 aprel**

**Laçın yolunda sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Hökumətinin legitim hüququdur**

Ermənistan parlamentinin spikeri Alen Simonyanın Laçın-Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi təsis edilməsi ilə bağlı sosial şəbəkələrdə verdiyi açıqlama qəbuledilməzdir. Bu, Azərbaycanın daxili işlərinə növbəti müdaxilə cəhdidir, bölgədə sülh və əmin-amanlığa töhfə vermir.

Ermənistan rəsmiləri, həmçinin parlamentin spikeri açıqlama və bəyanatlarında beynəlxalq birliyi Azərbaycana qarşı qarayaxma kampaniyasına alət etmək, o cümlədən bu məqsədlə Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarını təhrif etmək cəhdlərindən çəkinməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisin mətbuat xidmətinin Ermənistan parlamentinin spikeri Alen Simonyanın Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi haqqında bəyanatı ilə bağlı mətbuata açıqlamasında qeyd edilib.

Açıqlamada, həmçinin deyilir: "Vurğulamaq lazımdır ki, sərhəd təhlükəsizliyinin, o cümlədən hərəkətin təhlükəsizliyinin təmin edilməsi milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir. Laçın yolunda sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadənin qarşısının alınması, sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Hökumətinin legitim hüququdur. Azərbaycan Hökumətinin bu qərarı da qanunsuz hərəkətin qarşısını almaq, ölkə ərazisinə nizamlı giriş-çıxışı təşviq etmək məqsədinə xidmət edir.

**AZƏRTAC**
**2023, 24 aprel**

**Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur**

AŞPA qış sessiyasının son iş günündə – yanvarın 27-də Strasburqda dəhşətli xəbər eşitdik. İran İslam Respublikasında Azərbaycan səfirliyinə silahlı hücum edilmiş, qətlə yetirilən və yaralanan var idi. Biz dərhal bununla bağlı bəyannamə hazırladıq və bir çox avropalı deputatlarda onu imzaladılar. Həmin bəyannamə Assambleyanın saytında yerləşdirdikdən sonra tezliklə üzv ölkələrdən olan deputatların bəyannamədə imzaları sürətlə artmağa başladı. Baş Katib dərhal arzuolunmaz hadisəyə rəsmən öz həssas münasibətini bildirdi. Belə fəal həmrəyliyin yaratdığı ilk qənaət ondan ibarət idi ki, şərə qarşı mübarizə birləşdirə, səfərbər edə bilir.

Bu fikirləri AŞPA yaz sessiyasında Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov nümayəndə heyətimizin qış sessiyasında hazırladığı bəyannamə haqqında məlumat verərək deyib. Bildirib ki, İran Avropa ölkəsi deyil və onun birbaşa Avropa Şurasına aidiyyəti yoxdur. Amma İran getdikcə daha artıq dərəcədə təhlükə kəsb etməkdədir və bu təhlükələr həm birbaşa bir sıra Avropa ölkələrinə, həm də dünyaya yönəlibdir.

O, belə arzuolunmaz hadisələr və addımlardan sonra Avropa Şurasının belə hərəkətləri qınayan bəyanatlarının olmasını təqdirəlayiq hesab edərək bildirib ki, deputatlar belə hadisələrə sadəcə passiv müşahidəçi kimi qalmamalıdırlar. Belə fəlakətlərin qarşısını almaq üçün qabaqlayıcı addımların olmasının vacibliyini qeyd edib. Məhz buna görə də region ölkələri, Avropa və dünya üçün getdikcə daha artıq təhlükə mənbəyinə çevrilən belə təhlükələrlə bağlı Avropa Şurasının daha ciddi və təxirəsalınmaz tədbirlər görməsi, xüsusi qətnamənin qəbul edilməsi ilə nəticələnəcək ayrıca müzakirələr təşkil etməsinə ciddi ehtiyac olduğunu deyib.

Azərbaycanlı deputat son günlərin ən əlamətdar hadisəsi – Laçın-Xankəndi yolunun girişində Azərbaycanın nəzarət buraxılış məntəqəsi qurması məsələsindən söz açaraq, əvvəlcə bu qərarın verilməsini şərtləndirən mühüm amilləri açıqlayıb. R. Hüseynov bildirib ki, 2022-ci ilin avqustundan etibarən Ermənistandan Laçın yolu vasitəsilə Azərbaycan ərazisinə 2700-dən artıq piyada əleyhinə minalar gətirilib və onların hamısı 2021-ci ildə Ermənistanda istehsal edilib. Bu addımlar Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci ilin noyabrında bağlanmış üçtərəfli müqavilədən xeyli sonra baş verib.

Ötən il dekabrın 12-dən etibarən Azərbaycan vətəndaş cəmiyyəti fəallarının həmin yolda keçirdiyi ardıcıl aksiyalar Ermənistana oradan minaları keçirərək, Azərbaycan ərazisində yerləşdirmək imkanını məhdudlaşdırdığından gizli yollardan istifadə edilib. Onların bu cəhdləri Azərbaycan Müdafiə Nazirliyinin apardığı video çəkilişlərlə qeydə alınmışdır. Bütün bunları nəzərə alaraq Azərbaycan bütün mümkün təhlükələrin qarşısını almaq üçün Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış keçid məntəqəsinin yaradılmasını qət etmişdir. Ərazisində belə bir qərar qəbul etmək Azərbaycanın suveren hüququdur.

Rafael Hüseynov Ermənistan Xarici İşlər Nazirliyinin aprelin 23-də həmin nəzarət-buraxılış keçid məntəqəsinin yaradılması ilə bağlı verdiyi bəyanatı və Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin üzvünün çıxışına toxunaraq bildirib: “Ermənistan Xarici İşlər Nazirliyinin, eləcə də Ermənistanın buradakı nümayəndə heyətinin çıxışını mahiyyəti etibarilə rədd edir, bunu Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndiririk. Belə bir nəzarət-buraxılış keçid məntəqəsini yaratmaq Azərbaycanın haqqıdır, 5 kilometrlik bu sahə Azərbaycan ərazisidir və heç bir təxribatçı çıxış və bəyanatlar Azərbaycana öz ərazisində vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsiz hərəkəti üçün müəyyənləşdirdiyi qaydaları tətbiq etməsindən çəkindirə bilməz”.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri, Strasburq***

**AZƏRTAC**
**2023, 24 aprel**

**ATƏT PA-nın Büro iclasında Laçın yolunda qurulan sərhəd-buraxılış məntəqəsinin zəruriliyi haqqında məlumat verilib**

Aprelin 24-də ATƏT Parlament Assambleyasının (PA) Kopenhagendə Büro iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadiyyat və Ekologiya Komitəsinin sədri Azay Quliyev Azərbaycanın Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi, belə bir qərarın qəbul olunmasının səbəbləri və nəticələri barədə ATƏT PA-nın Büro üzvlərini məlumatlandırıb.

Ermənistan-Azərbaycan sərhədində, Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasını zəruri edən amilləri sadalayan Azay Quliyev bildirib ki, Ermənistan son 3 ilə yaxındır 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın bəndlərini kobud şəkildə pozaraq Laçın yolundan sistemli şəkildə sui-istifadə edib: "Ermənistan Azərbaycanın ərazisində hələ də qanunsuz olaraq saxladığı silahlı birləşmələrin rotasiyasını həyata keçirib, Laçın yolu vasitəsilə qanunsuz silah və sursat daşıyıb, terrorçuların və sabotaj qrupu üzvlərini Qarabağa gətirib, Azərbaycanın təbii ehtiyatlarının və mədəni sərvətlərinin talanması və xaricə satılması məqsədilə istifadə edib. Həmçinin Laçın yolu Ermənistan tərəfindən minaların və partlayıcı maddələrin Azərbaycana gətirilməsi və azərbaycanlıların öldürülməsi üçün istifadə edilib. Təkcə 2022-ci ilin avqust ayından bəri Azərbaycan ərazisində Ermənistanın istehsal etdiyi 2700 piyadalar əleyhinə mina basdırılıb. Son iki ildə 294 azərbaycanlı mina partlayışının qurbanı olub".

Azay Quliyev Büro üzvlərinin diqqətinə çatdırıb ki, sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasının çox böyük faydası olacaq və bununla, mövcud problemlərin hamısı həll olunacaq.

İlk növbədə, Laçın yolunda hərəkətin şəffaflığı təmin olunacaq, Azərbaycan bütün ərazisində milli təhlükəsizliyini, suverenliyini və qanunun aliliyini təmin edəcək. Eyni zamanda, Azərbaycan üçtərəfli Bəyanata uyğun olaraq Laçın yolu üzərindən hər iki tərəfə vətəndaşların və nəqliyyatın təhlükəsizliyinə zəmanət verəcək. Ölkəmiz beynəlxalq hüquqa uyğun olaraq ərazisinə qanunsuz giriş və çıxışların, xüsusilə yuxarıda qeyd olunan sui-istifadələrin qarşısı alınacaq.

Azay Quliyev əminliklə bildirib ki, Ermənistan-Azərbaycan sərhədində, Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılması hazırda mövcud olan problemləri kökündən həll edəcək.

ATƏT PA qeyd olunan müsbət dinamikanı nəzərə almalı və Azərbaycan Ermənistan arasında sülh sazişinin imzalanmasına töhfə verməlidir.

Qeyd edək ki, bu gün Büro ATƏT PA-nın fəaliyyətini, qurumun Siyasi məsələlər və təhlükəsizlik, İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit, demokratiya, insan haqları və humanitar məsələlər üzrə komitələrinin hesabatları və qətnamə layihələrini müzakirə edib.

**AZƏRTAC**
**2023, 24 aprel**

**Deputat: Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin açılması tarixi hadisədir**

Sülh şəraitində və birgəyaşayış kimi yaşam tərzi Ermənistan dövləti üçün xarakterik deyil. Ermənistan cəmiyyətinə adi müşahidə kifayət edir ki, bu danılmaz həqiqətin real olduğunu görəsən. Öz xalqına olan sevgisini digərlərinə nifrət üzərində qurmaq, ksenofobiyanın yaratdığı ifrat təzahürlər bu ölkənin dövlət siyasətinin tərkib hissəsidir. Təsadüfi deyil ki, bu nifrətin davamı kimi Ermənistan dünyada yeganə monoetnik dövlətə çevrilib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib. Deputat bildirib ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır, lakin separatçılar ciddi şəkildə buna mane olurlar. Sülh danışıqları gündəmə gəlincə, sərhəddə Ermənistanın siyasi-hərbi hakimiyyətinin birbaşa tapşırığı ilə təxribatlarla qarşılaşırıq. Götürdüyü öhdəliklərin heç birini yerinə yetirməyən Ermənistandan fərqli olaraq Azərbaycanın açdığı humanitar dəhlizdən rəsmi İrəvan öz çirkin məqsədləri üçün istifadə etməklə davamlı şəkildə gərginlik yaradır. Bununla yanaşı, mina terroru, ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı erməni vəhşiliyinin mahiyyətini göstərir. Bütün bunların fonunda rəsmi Bakının Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycan - Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsini təsis etməsində qeyri-adi heç nə yoxdur.

Birincisi, bu, ölkəmizin suveren hüququdur. İkincisi, rəsmi Bakının bu qərarı sülh prosesinə töhfə vermiş olacaq. Ermənilər başa düşməli və anlamalıdırlar ki, 44 günlük Qarabağ müharibəsində bütün cəbhə boyu müzəffər ordumuz Ermənistan silahlı qüvvələrinin qalıqlarını məhv etmək qüdrətində idi. Ölkəmiz üçtərəfli Bəyanata imza atmaqla sülhə sədaqətini nümayiş etdirdi və indiyə qədər Bəyanatın bütün müddəalarına əməl edib. Ermənistan da üçtərəfli Bəyanata və digər beynəlxalq öhdəliklərə əməl etməyə borcludur.

Deputat sonda qeyd edib ki, Ermənistan hakimiyyətinin və parlamentinin spikeri Alen Simonyanın hay-həşiri başadüşüləndir. Çünki sərhəd-buraxılış məntəqəsini açmaqla Azərbaycan separatçı, başıpozuq birləşmələrin silahlanmasını və digər çirkin niyyətləri məhdudlaşdırmış oldu.

Bu mənada Azərbaycan sərhəd qoşunlarının Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin açılması tarixi hadisədir.

Bu qərarın icrasını təhdid sevməyən Azərbaycan ordusu həyata keçirəcək, düşünürəm ki, qarşı tərəf bunun fərqində olmalıdır.

**AZƏRTAC**
**2023, 24 aprel**

**XİN Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanat yayıb**

Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan Respublikası tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Hökuməti Ermənistan tərəfinin Laçın-Xankəndi yolundan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd şəkildə sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadənin davam etdiyini və bundan qaynaqlanan təhlükəsizlik hədələrini nəzərə alaraq, Azərbaycan ilə Ermənistan arasında sərhəddə yolun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirib.

Məlum olduğu kimi, üçtərəfli Bəyanatın imzalanmasından keçən iki il yarım müddət ərzində Azərbaycan tərəfi davamlı şəkildə Laçın yolunun Ermənistan tərəfindən genişmiqyaslı sui-istifadə hallarına diqqəti cəlb edib. Bu cür sui-istifadə hallarına Azərbaycan ərazisində qalmaqda davam edən erməni silahlı qüvvələrinin şəxsi heyətinin rotasiyası, silah və sursatın daşınması, terrorçuların keçidi, habelə təbii sərvətlərin və mədəni mülkiyyətin qanunsuz daşınmasını misal göstərmək olar.

Yoldan minaların daşınaraq sonradan Azərbaycan Respublikasının suveren ərazilərində basdırılması xüsusilə ağır fəsadlar doğurur. 2022-ci ilin avqust ayından etibarən Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə mina aşkar edilib. Aydındır ki, bu minalar üçtərəfli Bəyanata zidd olaraq Azərbaycan ərazisinə məhz Laçın yolu vasitəsilə daşınıb. Sonuncu dəfə 2023-cü il aprelin 22-də Azərbaycan Ordusunun hərbi yük maşını ermənilər tərəfindən basdırılmış 2021-ci il istehsalı minaya düşərək partlayıb və 3 hərbi qulluqçumuz yaralanıb. Müharibənin sonundan etibarən 294 azərbaycanlı mina qurbanı olub.

Bununla yanaşı, aprelin 22-də Ermənistana məxsus yük avtomobilləri ilə iki ədəd hərbi məqsədlər üçün yaşayış konteynerlərinin və hərbi avtomobillər konvoyunun üçtərəfli Bəyanata və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan ərazisinə keçirildiyi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müşahidə kameraları tərəfindən qeydə alınıb. Daha sonra Ermənistan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycan ərazisinə ən yaxın məntəqədə hərbi yaşayış konteynerlərinin yerləşdirilməsi və hərbi infrastruktur qurmaq fəaliyyəti müşahidə edilib.

Qeyd edilən təhdidlər və təxribatlar nəzərə alınaraq Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcəkdir.

Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan Hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir.

Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq.

Yuxarıda qeyd edilən nəzarət mexanizmi Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirmə şəraitində həyata keçiriləcək.

Azərbaycan tərəfi Ermənistanla birgə sərhəddə nəzarət-sərhəd rejiminin şəffaf və təhlükəsiz fəaliyyəti naminə əməkdaşlığa hazır olduğunu bildirir.

**AZƏRTAC**
**2023, 23 aprel**

**Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin yaradılması hərəkətin təhlükəsizliyini təmin edəcək**

Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə bəyanatında bildirilib.

Bəyanatda, həmçinin qeyd olunub. "Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan Hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir.

Üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq”.

**AZƏRTAC**
**2023, 23 aprel**

**Müdafiə Nazirliyi: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub**

Aprelin 23-ü saat 15:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Qızılcıq yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin (MN) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 23 aprel**

## Ermənilərin Laçın yolundan sui-istifadə etməsi mülki insanlarımızın həyatına təhlükə yarada bilər

Aprelin 23-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri - qəhrəman sərhədçilərimiz tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması, son aylarda Azərbaycanın Qarabağ ərazisində, Azərbaycan-Ermənistan şərti sərhədlərində baş verən hadisələrin, separatçıların, Ermənistan hərbçilərinin təxribatlarının, Rusiyanın "sülhməramlı" adlanan qüvvələrinin davranışlarının məntiqi nəticəsidir. Hesab edirəm ki, bu məsələnin əhəmiyyətini düzgün və obyektiv dəyərləndirmək üçün bir neçə aspektdən baxmaq lazımdır. Əlbəttə, hadisəyə hüquqi baxımdan yanaşsaq, bu, Azərbaycan Respublikasının öz suveren ərazilərini qanunsuz müdaxilələrdən qoruması və sərhəd-keçid məntəqələrində nəzarəti təmin etməsi kimi suveren və ayrılmaz hüququndan istifadənin təcəssümüdür və bu, bütün sivil beynəlxalq ictimaiyyət, siyasətçilər və ekspertlər tərəfindən normal, təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Cəmiyyətin İnkişafı Mərkəzi İctimai Birliyinin sədri Əhməd Abbasbəyli söyləyib.

"Digər tərəfdən, bu, dövlətin öz vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Belə ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından az qala üç ilə yaxın vaxt keçməsinə baxmayaraq, hələ də erməni diversantları tərəfindən minaların basdırılması nəticəsində hərbçilərimiz və mülki şəxslər həlak olur, xəsarət alırlar. Əgər nəzərə alsaq ki, Azərbaycan tezliklə Laçın da daxil olmaqla digər azad edilmiş ərazilərə mülki insanlar köçürəcək, görünən odur ki, ermənilərin Laçın yolundan sui-istifadə etməsi, mülki insanlarımızın təhlükəsizliyi, onların dinc yaşaması üçün ciddi problemlər yarada bilər. Azərbaycan dövlətinin bütün növ terrorçulara, separatçılara, revanşistlərə, başqa dövlətlərə bağlı, onların tapşırığını, əmrlərini yerinə yetirənlərə qarşı mövqeyi birmənalıdır, bizim ərazilərimizdə onlara yer yoxdur, buna cəhd edənlərlə isə cavabımız qəti və ciddi olacaq", - deyə Əhməd Abbasbəyli qeyd edib.

Bu hadisənin dövlətlərarası münasibətlər, o cümlədən Azərbaycan-Ermənistan münasibətləri baxımından əhəmiyyətli, hətta irəli atılmış bir addım olduğunu söyləyən Ə.Abbasbəyli deyib: "Bu hadisə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasının növbəti mühüm göstəricisidir. Ermənistan hər bir vəchlə öz ərazi bütövlüyünün və suverenliyinin qorunmasını, eks-territorial yanaşmaların qəbuledilməz olduğunu bildirir. Praqa və Soçi sənədləri ilə Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Bu günlərdə parlamentdə çıxışı zamanı N.Paşinyan bunu bir daha təsdiq etdi. Bütün bu sadalanan və sadalanmayan faktlar sübut edir ki, əslində regionda əmin-amanlığın və sülhün bərqərar olması üçün zəmin var. Kənardan suyu bulandırmağa, bu bulanıq suda balıq tutmağa cəhd edənlər öz bədxah əməllərindən əl çəksələr, yalançı təəssübkeşliklərini kənara qoysalar bu proses daha da sürətlə gedər".

Onun sözlərinə görə, bu hadisə Qarabağda yaşayan ermənilər üçün də yeni mərhələnin başlanğıcı ola bilər. Azərbaycan tərəfi ən yüksək səviyyədə elan edib ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edib ölkənin qanunlarına tabe olsalar, digər vətəndaşlarla bərabər hüquqa malik olacaq və normal, hətta əvvəlkindən daha da yaxşı şəraitdə yaşamaq imkanı əldə edəcəklər. Bu baxımdan onların Azərbaycanın təklifini qəbul edib reinteqrasiya məsələləri üzrə təmaslara başlaması üçün vaxt yetişib. Bu proses nə qədər tez başlayarsa, o qədər də tez yerli erməni əhalinin həyat tərzi yaxşılaşar.

"Düşünürəm ki, regionda sülhün, təhlükəsizliyin təmin olunmasını həqiqətən də istəyən, bu prosesə səmimi yanaşan hər kəs prosesə mane olmamalı, əksinə dəstək olmalıdırlar. Təbii ki, bu sözlər ilk növbədə Fransaya, o cümlədən Rusiyanın "sülhməramlı" adlanan qüvvələrinə aiddir", - deyə Əhməd Abbasbəyli diqqətə çatdırıb.

**AZƏRTAC**
**2023, 23 aprel**

**Azərbaycan Prezidenti: Keçmiş köçkünləri Laçın şəhərinə vaxtından əvvəl qaytaracağıq**

Keçmiş köçkünlər Laçın şəhərinə vaxtında əvvəl qaytarılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində danışıb.

Dövlətimizin başçısı qeyd edib: "Mən bir müddət bundan əvvəl demişdim ki, biz keçmiş köçkünləri bu ilin sonuna qədər Laçın şəhərinə qaytaracağıq. Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni, biz bu işi vaxtından tez görürük".

**AZƏRTAC**
**2023, 18 aprel**

**Laçın şəhərində inşa olunacaq fərdi evlərin sayı açıqlanıb – Yeni rəqəmlər**

Əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində söyləyib.

Dövlətimizin başçısı bildirib: “Eyni zamanda, 140-dan çox mənzil hazır olacaqdır. Yəni, beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik”.

Qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlərin getdiyini vurğulayan Azərbaycan Prezidenti deyib ki, o kəndlərə keçmiş köçkünlər ilin sonuna qədər qaytarılacaq.

**AZƏRTAC**
**2023, 18 aprel**

**Laçın-Xankəndi yolunda hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir**

Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir.

AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, bu dəqiqələrdə sülhməramlılara məxsus şəxsi heyət daşıyan daha 4 avtomobilinin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

Beləliklə, gün ərzində indiyədək sülhməramlıların ümumilikdə 31 avtomobili aksiya ərazisindən keçib.

Bu, bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin olunur. Siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir.

Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 9 aprel**

**MN: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub**

Aprelin 7-si saat 13:20-dən 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 7 aprel**

**Laçın rayonu tezliklə Şərqi Zəngəzurun mühüm mərkəzlərindən birinə çevriləcək**

Qırx dörd günlük Vətən müharibəsinin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə böyük bərpa-quruculuq işlərinə başlanıb ki, bu da Azərbaycan dövlətinin gücünü göstərir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov söyləyib.

Onun sözlərinə görə, artıq 3 ildir ki, işğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bərpa-quruculuq işləri bu torpaqların əsl sahiblərinin kim olduğunu bir daha dünyaya nümayiş etdirir. Keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması, 30 il işğal altında qalmış ərazilərdə həyatın yenidən canlanması Azərbaycan xalqı üçün son dərəcə mühüm əhəmiyyətə malik bir məsələdir.

"Prezident İlham Əliyev 2022-ci il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirdi ki, 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar.

Dövlətimizin başçısı İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən işğaldan azad olunan ərazilərimizdə tətbiq edilən yeni idarəetmə üsulunun nəticələrindən bəhs etdi və vurğuladı ki, öz sahibinə qovuşan torpaqlarımızda yeni idarəetmə üsulu tətbiq edilir.

İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə öz standartlarını yaradıb və bu, dirçəlişin Azərbaycan modelidir. Belə ki "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri uğurla icra edilir. Bu torpaqlarda təkmil infrastruktur layihələri həyata keçirilir ki, bu, hər bir bölgənin iqtisadi inkişafında vacib amildir", - deyə A.Məmmədov qeyd edib.

Deputat bildirib ki, dövlətimizin başçısı Laçın rayonunun malik olduğu potensialdan, rayonda həyata keçirilən infrastruktur layihələrindən, kənd, qəsəbə yollarının bərpasından geniş bəhs edərək görülən işlərin yüksək keyfiyyətlə aparılmasının, ətraf mühitin mühafizəsinin və qanunvericiliyə əməl olunmasının vacibliyinə diqqət çəkdi. Prezident İlham Əliyev Laçın şəhərində görülən işlərin fonunda qeyd etdiyi kimi, Laçın nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, eyni zamanda, bir cənnət məkan olacaqdır. İki ildən artıq dövrdə bu torpaqlarda aparılan bərpa-quruculuq işləri Azərbaycanın iqtisadi imkanlarının təqdimatıdır. Bütün bu işlər ölkəmizin daxili imkanları əsasında həyata keçirilir. Bircə faktı qeyd etmək lazımdır ki, Azərbaycan qısa zamanda həm Qarabağın, həm də Şərqi Zəngəzurun hava qapılarını dünyaya açdı. Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının ardınca 2024-cü ilin sonu 2025-ci ilin əvvəlində Şərqi Zəngəzurun növbəti hava qapısı dünyaya açılacaq. Belə ki, Laçın Beynəlxalq Hava Limanı qeyd edilən vaxtda istifadəyə veriləcək.

"Prezident İlham Əliyev, həmçinin laçınlılara xoş xəbərlər də çatdırdı. Belə ki, bu ilin sonuna kimi Laçın şəhərinə minlərlə insan qayıdacaq. Bu, onu deməyə əsas verir ki, laçınlıların öz doğma yurdunda xoşbəxt həyatı uzaqda deyil. Ölkəmizin başçısının vurğuladığı kimi birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur, 30-dan çox ictimai bina inşa edilir.

Beləliklə, ölkəmizin bu gözəl guşəsində yenidən həyat canlanacaq, insanlar öz yurdlarına qayıdacaq və tezliklə, Laçın rayonu da Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək", - deyən Anar Məmmədov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 31 mart**

**MN: Laçın rayonunda hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb**

Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**
**2023, 30 mart**

**Laçın rayonunun təhlükəsizliyi ilə bağlı mühüm addımlar atılır**

"İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır" deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir". Bu sözləri Prezident İlham Əliyev cari il martın 28-də Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsini qəbul edərkən deyib. Artıq Laçın azaddır və Laçın şəhərində genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu il laçınlılar Laçına, öz doğma torpaqlarına qayıdacaqlar.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov söyləyib.

Bu gün dövlətimizin Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olduğunu vurğulayan Əhliman Əmiraslanov bildirib: "Biz mövqelərimizi gücləndiririk. Laçın rayonunun təhlükəsizliyi ilə bağlı mühüm addımlar atılır, tədbirlər görülür və bu tədbirlər imkan verir ki, oraya qayıdacaq soydaşlarımız rahat, təhlükəsizlik şəraitdə yaşasınlar. Laçın şəhərində işlər ötən ilin avqustun 26-dan sonra başlayıb. Ötən ilin sentyabrında Prezident İlham Əliyevin Laçın rayonuna səfəri Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması ilə tarixə yazıldı. O da məlumdur ki, Laçın rayonu hərbi-siyasi yolla işğaldan azad edilib. Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Laçın rayonu dekabrın 1-də boşaldılıb. Ondan sonra rayonun bərpa-quruculuq dövrü başlanıb. Dövlətimizin başçısı qısa dövrdə görülən genişmiqyaslı işlərdən bəhs edərək bildirib ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur, 30-dan çox ictimai bina inşa edilir. Bu il və gələn il Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş məcburi köçkün yerləşdiriləcək".

Ə.Əmiraslanov qeyd edib ki, Prezident İlham Əliyev, Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən işğaldan azad edilən ərazilərimizdə tətbiq olunan yeni idarəetmə üsulunun nəticələrindən bəhs edərək belə bir əminliyi də ifadə edib ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcək. Bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur.

**AZƏRTAC**
**2023, 30 mart**

**Səttar Möhbalıyev: Laçın rayonunun yeni inkişaf dövrü başlayır**

İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda hazırda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Rayon ərazisində yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. Rayona səfəri zamanı Azərbaycan Prezidenti təməlqoyma və açılış mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, qiymətli tapşırıq və tövsiyələrini verir. Görülən işlərin keyfiyyəti və sürəti bir daha göstərir ki, Laçın sakinlərini öz ata-baba yurdlarında xoş və firavan həyat gözləyir. Laçın ərazisində tikilməkdə olan beynəlxalq hava limanı xüsusilə böyük əhəmiyyət daşıyır. Belə ki, bu həm rayonun, həm də bölgənin sosial-iqtisadi inkişafına kömək edəcək, turizm imkanlarını artıracaq, logistik mərkəzlərin yaradılmasına gətirib çıxaracaq. Nəticə etibarilə daha çox iş yerlərinin açılmasına, sakinlərin məşğulluğunun təmin edilməsinə təkan verəcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

“Prezident İlham Əliyev Laçın rayonuna təyin etdiyi xüsusi nümayəndəsini qəbul edərkən bir sıra vacib və konkret tapşırıqlar verdi. Dövlətimizin başçısı görülən işlərin yüksək keyfiyyətinin, ətraf mühitin qorunmasının, qayda-qanuna əməl edilməsinin vacibliyinə diqqət çəkdi. Prezident, həmçinin laçınlılara xoş müjdə də verdi. Belə ki, minlərlə insan bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq. Bu, onu göstərir ki, laçınlıların öz yurdlarında xoşbəxt həyatı o qədər də uzaqda deyil. Məlumdur ki, Böyük Qayıdış proqramı uğurla icra edilir. Tərtər rayonunun Talış kəndinə də ilkin mərhələdə 20 məcburi köçkün ailəsi köçürülüb. Təbii ki, həmin mənzərəni hər birimiz böyük qürurla seyr etdik, Talış sakinlərinin üzündəki xoşbəxt təbəssüm bizi xeyli fərəhləndirdi. Sakinlər fərdi evlərə köçürüldülər, onlar doğma kəndlərində hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar”, - deyə AHİK sədri bildirib.

Onun sözlərinə görə, həyata keçirilən yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir. İşğal dövründə Ermənistan Laçın rayonunda böyük dağıntılar törədib, meşələri məhv edib, hətta qanunsuz məskunlaşma da həyata keçirmişdir.

“Bu cür əməllər bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir. Amma, təəssüflər olsun ki, bir dəfə də səslərini çıxarmadılar, bütün haqsızlıqlara göz yumdular. Bu gün Azərbaycan əleyhinə qətnamələr qəbul edən Avropa Parlamenti həmin vaxt tamamilə susurdu, işğalçını öz adı ilə çağırmırdı. İndi isə ermənipərəst qüvvələrin təsiri altında mənasız və ədalətsiz qətnamələr qəbul edir. Bəlkə də, düşünürlər bununla nəyəsə nail ola biləcəklər. Əsla. Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, heç kəs bizim iradəmizə təsir edə bilməz. Zaman da bunu göstərir ki, ədaləti bərpa edən Azərbaycan öz yolu ilə gedir, bölgədə sülh və təhlükəsizliyə əsaslanan siyasətini uğurla davam etdirir”, - deyə Səttar Möhbalıyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 30 mart**

**Əsas vəzifə Laçının təhlükəsizliyinin qorunması və keçmiş məcburi köçkünlərin qaytarılmasıdır**

Laçın rayonu 1992-ci il mayın 18-də Şuşadan sonra Ermənistanın işğalına məruz qalmış ikinci rayon idi. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmış, rayonda dövlət və xüsusi mülkiyyətə ciddi zərər yetirilmişdi. Ermənistan işğalçı tərəf kimi Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan erməni əsilli qaçqınların məqsədyönlü məskunlaşdırılması siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllər ilə məşğul olmuşdu. Ermənilər, eyni zamanda, meşə fondunu qanunsuz istismar etmiş, talamış və satmışdı.

Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov AZƏRTAC-a açıqlamasında deyib.

Laçının işğalının AXC-Müsavat cütlüyünün çirkin xəyanətinin nəticəsi olduğunu diqqətə çatdıran R.Vəlibəyov əlavə edib: “AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Heç şübhəsiz ki, Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdu. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdi və bu, daha böyük faciələrə yol açdı. Məhz bundan sonra Kəlbəcər işğal altına düşdü. Lakin 28 il sonra Azərbaycan xalqı beynəlxalq qanunların aliliyini və tarixi ədaləti özü bərpa edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun və xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, kapitulyasiya etmiş Ermənistan dekabrın 1-də Laçın rayonunu təhvil verdi. Lakin bundan əvvəl, yəni, noyabrın 9-u Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 8397 hərbi qulluqçusu 2020-ci il noyabrın 26-da təsis edilmiş “Laçının azad olunmasına görə” medalı ilə təltif olunub”.

İşğaldan azad edilmiş digər ərazilərimiz kimi, bu gün Laçın rayonunun da bərpa edildiyini vurğulayan R.Vəlibəyov deyib ki, Laçın rayonu inkişafının yeni mərhələsini yaşayır. Hazırda dövlətin əsas vəzifələrindən biri Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm də oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılmasıdır. Bunun üçün Laçın rayonunun Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri həyata keçirilib. Laçın rayonunda 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq, generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Eləcə də, Prezident İlham Əliyevin Sərəncamına əsasən uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu inşa edilir. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa edilən Beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Bununla yanaşı, Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, 30-dan çox ictimai bina inşa edilir. Eyni zamanda, Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verilib. Zabux kəndində 1000-dən, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Beləliklə, bu il və gələn il Laçın rayonuna təqribən 10 mindən çox keçmiş köçkün yerləşdiriləcək. Güləbird və Qorçu kəndlərinin Baş planı da təsdiqlənib. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Bir sözlə, “Böyük Qayıdış” Dövlət Proqramına uyğun olaraq bütün başqa rayonlar kimi Laçın rayonu da bərpa olunacaq, laçınlılar da öz doğma yurduna qayıdacaqlar.

**AZƏRTAC**
**2023, 30 mart**

**Prezident: Azərbaycan dövləti Laçına qayıdacaq keçmiş məcburi köçkünlərin rahat yaşamasını təmin edəcək**

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

"Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident İlham Əliyev: İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar**

İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.

Dövlətimizin başçısı bildirib ki, xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər: “Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməmişdir”.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident İlham Əliyev: Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq**

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

“Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident İlham Əliyev: Ermənistan Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı**

Uzun illər aparılmış danışıqlar əsnasında hər zaman vasitəçilər Laçın rayonuna hansısa xüsusi bir yanaşma sərgiləyirdilər və Ermənistan bütövlükdə Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.

“Halbuki onlar digər rayonlardan da çıxmaq fikrində deyildilər. İndi - müharibədən iki il yarım keçəndən sonra bu, hər kəsə daha aydın oldu. Beynəlxalq vasitəçilər - ATƏT-in ovaxtkı Minsk qrupu danışıqların aparılması ilə faktiki olaraq bu işğalı möhkəmləndirməyə çalışırdılar”, - deyə dövlətimizin başçısı bildirib.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident: Laçın rayonunun təhlükəsizliyinin qorunması bizim əsas vəzifələrimizdən biridir**

Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

Laçın rayonunun təhlükəsizliyi ilə bağlı atılan addımlardan danışan dövlətimizin başçısı deyib ki, Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri başa çatmaq üzrədir: "Beləliklə, bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq".

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident: İki ildən çoxdur ki, Laçın rayonunun bərpası ilə bağlı işlər aparılır**

Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

Hava limanının yerini müəyyən edərkən qarşıya çıxan çətinliklərdən danışan dövlətimizin başçısı deyib: "Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək".

**AZƏRTAC**
**2023, 28 mart**

## Yaxın gələcəkdə Laçın rayonuna təqribən 10 minə yaxın keçmiş köçkün yerləşdiriləcək

Güləbird və Qorçu kəndlərinin Baş planı təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib: "Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Yəni, gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə - bu il və gələn il biz Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdirəcəyik".

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident: Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək**

Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Məscidin təməlini də mən Laçında olarkən özüm şəxsən qoydum.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.

“Bununla paralel olaraq, Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start vermişik. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək”, - deyən dövlətimizin başçısı bildirib ki, Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident İlham Əliyev: Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur**

Laçın şəhərinin bütün infrastrukturu – su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, 50 kilometrdən çox daxili yollar yenidən qurulur.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, Laçın şəhəri Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, bir cənnət məkan olacaq. "Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparırıq və bu işləri öz hesabımıza görürük və görəcəyik", - deyə Azərbaycan Prezidenti qeyd edib.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident: Biz Laçın və Kəlbəcərin su ehtiyatları hesabına böyük enerji mənbəyi yaradacağıq**

Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

"İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Bütövlükdə isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var", - deyə dövlətimizin başçısı əlavə edib.

**AZƏRTAC**
**2023, 28 mart**

**Prezident İlham Əliyev: Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır**

Bundan sonra Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

Ölkəmizin bəzi yerlərində ətraf mühitə böyük ziyan vurulduğunu qeyd edən dövlətimizin başçısı deyib: “Yəni, siz mənim nümayəndəm kimi və bütün vətəndaşlar bilməlidirlər ki, burada qayda-qanun var, özbaşına heç kim heç bir iş görə bilməz. Qaydalar nədir, qanunlar nədir, hər kəs ona əməl etməlidir. Torpaqların zəbt edilməsi, meşə fondunun məhv edilməsi və digər xoşagəlməz hallar olmamalıdır”.

**AZƏRTAC**
**2023, 28 mart**

**MN: Ordumuz Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni fəaliyyətlərə qarşı tədbirlər görüb**

Son günlər Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması intensivləşib. Bu daşımalar, xüsusilə gecə vaxtı və dumanlı hava şəraitindən istifadə etməklə həyata keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən bəzi dağlıq və torpaq ərazilərdən keçməklə bir neçə marşrut üzrə yeni yolların çəkilməsi, həmçinin köhnə cığırların genişləndirilməsi üzrə işlər həyata keçirilir. Bu məqsədlə, hərbi, mühəndis və xüsusi texnikadan, habelə işçi qüvvəsi kimi müqaviləli əsasda hərbi xidmətə cəlb olunmuş şəxslər və yerli sakinlərdən istifadə olunur.

Son bir neçə gündə Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimalda keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni tikinti və təkmilləşdirmə işlərinin intensivləşməsi Azərbaycan Ordusunun texniki müşahidə vasitələri ilə qeydə alınıb. Bu yollardan, həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin döyüş mövqelərinin təminat və təchizatını həyata keçirmək üçün istifadə olunur.

Azərbaycan tərəfinin çoxsaylı müraciətlərinə və bu xüsusda aparılmış müzakirələrə baxmayaraq, silah-sursat və digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması üçün bu günədək heç bir zəruri tədbir görülməyib.

Yaranmış vəziyyət nəzərə alınaraq Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib.

**AZƏRTAC**
**2023, 25 mart**

**XİN: Ermənistanın son təxribatları göstərir ki, Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaradılması zəruridir**

Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycanın ərazilərinə silah-sursat daşımaqla vəziyyətin daha da gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısını almaq məqsədilə Azərbaycan Müdafiə Nazirliyinin müvafiq nəzarət tədbirləri həyata keçirməsi ilə bağlı açıqlama yayıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, martın 25-də Azərbaycan Ordusunun bölmələri Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə silah-sursat daşımaqla vəziyyətin daha da gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısını almaq məqsədilə müvafiq nəzarət tədbirləri həyata keçirib.

Məlum olduğu kimi, son günlər Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması intensivləşib. Bununla yanaşı, son bir neçə gündə Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimaldan keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni yol tikinti işlərinin aparılması müvafiq müşahidə vasitələri ilə qeydə alınıb.

Azərbaycan tərəfinin çoxsaylı müraciətlərinə və bu xüsusda aparılmış müzakirələrə baxmayaraq, silah-sursat və digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması üçün bu günədək heç bir zəruri tədbir görülməyib.

Bununla yanaşı, martın 5-də Xankəndi-Xəlfəli-Turşsu yolunda, habelə martın 20-də Zəngilan rayonu istiqamətində Ermənistanın törətdiyi təxribatlar nəticəsində Azərbaycan hərbçilərinin şəhid olması və yaralanması Ermənistanın vəziyyəti qəsdən gərginləşdirmək niyyətini nümayiş etdirib.

Qeyd edək ki, Ermənistan tərəfinin sözügedən hərbi təxribatları, həmçinin Ermənistan rəhbərliyinin son günlərdə təcavüzkar ritorikası ilə müşayiət olunub. Xüsusilə Ermənistan Prezidenti, baş naziri və xarici işlər naziri tərəfindən Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı davam edən bəyanatları bu ölkənin Azərbaycana qarşı ərazi iddialarından hələ də əl çəkmədiyinin bariz nümunəsidir.

Vurğulanıb ki, Ermənistan tərəfinin bu addımları son zamanlar sülh sazişi üzrə beynəlxalq səylərin canlanması şəraitində Ermənistanın sülh prosesini məqsədyönlü şəkildə pozmaq niyyətini, eləcə də bölgədə sülh və sabitliyin təmin edilməsində maraqlı olmadığını göstərib.

“Ermənistanı bölgədə vəziyyəti gərginləşdirən təxribatçı addımlardan və bəyanatlardan, Azərbaycanın daxili işlərinə müdaxilədən çəkinməyə, beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərini davam etdirmək əvəzinə, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırırıq.

Ermənistan tərəfinin son təxribatları göstərir ki, Azərbaycanın suveren ərazilərində qeyri-qanuni fəaliyyətin qarşısının alınması məqsədilə Laçın yolunun son nöqtəsində Azərbaycanla Ermənistan arasında sərhəd-keçid və nəzarət məntəqəsinin yaradılması zəruridir”, - deyə açıqlamada qeyd edilib.

**AZƏRTAC**
**2023, 25 mart**

**Prezident: Laçın yolunun blokadada olması barədə Ermənistanın iddiaları tamamilə əsassızdır**

Laçın yolunun blokadada olması barədə Ermənistanın iddiaları tamamilə əsassızdır, yol üzrə hərəkət təmin edilir, dekabrın 12-dən etibarən Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4 mindən artıq nəqliyyat vasitəsi, 150-dən çox tibbi yardıma ehtiyacı olan şəxs keçib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşündə bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğu və Laçın yolundan hərbi məqsədlər, hərbi daşımalar üçün istifadə olunması Azərbaycanı narahat edir.

**AZƏRTAC**
**2023, 14 mart**

## Ceyhun Bayramov: Ermənistan tərəfi Laçın yolunda vəziyyətlə bağlı bütün məsuliyyəti Azərbaycanın və Rusiyanın üzərinə qoymağa çalışır

Ermənistan tərəfi Laçın yolunda vəziyyətlə bağlı bütün məsuliyyəti Azərbaycanın və Rusiyanın üzərinə qoymağa çalışır.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu fikri Rusiya XİN rəhbəri Sergey Lavrovla birgə mətbuat konfransında söyləyib.

**AZƏRTAC**
**2023, 28 fevral**

## Rusiya XİN rəhbəri: Laçın dəhlizindən həqiqətən onun təyinatı üzrə istifadə edilməsi barədə şübhələri texniki vasitələrlə aradan qaldırmaq mümkündür

Laçın dəhlizinin fəaliyyət rejimi 2020-ci il 9 (10) noyabr tarixli birinci Üçtərəfli Bəyanata uyğun olmalıdır. Bu, yalnız mülki və humanitar təyinatlı yüklərin sərbəst daşınması deməkdir. Biz də öz əlaqələrimizdə, ilk növbədə Rusiya sülhməramlı kontingenti xətti ilə buna çalışırıq.

AZƏRTAC xəbər verir ki, Rusiya XİN rəhbəri Sergey Lavrov bu fikri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat konfransında söyləyib.

S.Lavrov deyib: "Orada nəzarət-buraxılış məntəqələri yaradılması nəzərdə tutulmayıb, lakin dəhlizdən həqiqətən onun təyinatı üzrə istifadə edilməsi barədə şübhələri texniki vasitələrlə aradan qaldırmaq mümkündür".

**AZƏRTAC**
**2023, 25 fevral**

**Azərbaycanın guya Laçın yolunu bağlamasına dair Ermənistanın iddiaları əsassızdır**

Son aylar Laçın yolundan 3000-dən yuxarı nəqliyyat vasitəsinin keçməsi və digər faktlar nəzərə alınmaqla, Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı “blokada” tətbiq edildiyi və “gərgin humanitar vəziyyət” yarandığı barədə Ermənistan tərəfinin iddialarının heç bir əsası yoxdur.

AZƏRTAC xəbər verir ki, bu barədə fevralın 25-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiçlə görüşdə deyib.

Həmçinin görüşdə hələ 2022-ci ilin dekabr ayında ehtiyac olacağı təqdirdə Azərbaycan tərəfinin birbaşa və ya BQXK vasitəsilə yerli erməni sakinlərə yardım göstərməyə hazır olduğunu bildirdiyi xatırlanıb.

**AZƏRTAC**
**2023, 25 fevral**

**XİN: Laçın yolundan sui-istifadə hallarına yol verilməməlidir**

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Laçın yolundan istifadə qanuni və şəffaf olmalıdır və yoldan sui-istifadə hallarına yol verilməməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın Beynəlxalq Ədalət Məhkəməsinin qərarı ilə bağlı bəyanatına dair şərhində yer alıb.

"Azərbaycan Laçın yolunun başlanğıcında sərhəd nəzarət keçid məntəqəsi yaradılması barədə təkliflə çıxış edib. Bu təklif Azərbaycanla Ermənistan arasında postmünaqişə normallaşma prosesi çərçivəsində Laçın yolu üzrə şəffaf mexanizm və etimad quruculuğu tədbiri kimi beynəlxalq tərəfdaşlar tərəfindən də müsbət qarşılanıb. Lakin Ermənistanın bu təklifdən heç bir əsas gətirmədən imtina etməsi Ermənistanın Laçın yolunda şəffaflıqda maraqlı olmadığını və sui-istifadə hallarını davam etdirmək niyyətinin göstəricisidir", - deyə XİN-in şərhində bildirilib.

**AZƏRTAC**
**2023, 24 fevral**

**BQXK-nın dörd avtomobili Laçına maneəsiz keçib**

Ekoaksiyanın iştirakçıları yanvarın 31-da Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

AZƏRTAC xəbər verir ki, bu dəqiqələrdə Xankəndidə Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus üç minik və bir yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

Bu da Laçın-Xankəndi yolunda humanitar məqsədli avtomobillərin keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

**Elmir Səftərov**

**AZƏRTAC**
**2023, 31 yanvar**

**Laçın yolundan sui-istifadənin dayandırılması barədə tələblər hələ də yerinə yetirilməyib**

Üçtərəfli Bəyanata zidd olaraq, Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin və Laçın yolundan sui-istifadənin dayandırılması barədə etirazçıların tələbləri təəssüf ki, hələ də yerinə yetirilməyib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla telefon danışığı zamanı bildirib.

Nazir xatırladıb ki, blokada və humanitar vəziyyət barədə iddiaların heç bir əsası yoxdur.

**AZƏRTAC**
**2023, 31 yanvar**

## İtaliyalı parlamentarilərə Laçın yolundakı hadisələrlə bağlı real faktlar təqdim edilib

Azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası təbii ehtiyatlarımızın qanunsuz istismarına yönəlib və ermənilərin Qarabağda ətraf mühitə vurduğu ziyanın qiymətləndirilməsi məqsədi daşıyır. Azərbaycan regionda yeni kommunikasiyaların yaradılmasında maraqlıdır, sülhə, sabitliyə və inkişafa sadiqdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri, deputat Azər Kərimlinin Romada italiyalı parlamentarilərlə keçirdiyi görüşlərdə səsləndirilib.

Qarşılıqlı maraqlara və dostluğa əsaslanan Azərbaycan-İtaliya münasibətlərinin hazırda çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyən A.Kərimli ikitərəfli əlaqələrin bugünkü yüksək səviyyəsinin təməlinin məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Deputat ötən müddət ərzində Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın qarşılıqlı səfərlərinin tərəfdaşlığın gücləndirilməsindəki rolunu qeyd edib, ölkəmizin başçısının ötən ilin sentyabrında 48-ci Beynəlxalq Çernobbio Forumunda iştirakının əhəmiyyətini vurğulayıb.

A.Kərimlinin İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasının sədri, senator Culio Terzi ilə görüşündə İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu və İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının formalaşdırılması prosesinə dair müzakirələr aparılıb. İtaliyalı senator Azərbaycan ilə tərəfdaşlığın gücləndirilməsində maraqlı olduqlarını bildirib. İki ölkənin dostluq münasibətlərini davam etdirməyə və möhkəm tərəfdaşlıq etməyə hazır olduqlarını qeyd edib.

İtaliya Deputatlar Palatasında Xarici əlaqələr və icma komissiyasının sədri Culio Tremonti ilə görüşdə isə ikitərəfli əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlığın mühüm rol oynadığı vurğulanıb.

Deputatlar Palatasında Xarici əlaqələr və icma komissiyasının üzvü Ettore Rosato ilə görüşdə İtaliya parlamentinin nümayəndə heyətinin 2020-ci ildə Ermənistanın işğalından azad olunmuş ərazilərimizə səfəri xatırladılıb. Vurğulanıb ki, İtaliya parlamentarilərinin ilk Qərb nümayəndə heyəti kimi ölkəmizə səfəri Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

A.Kərimlinin İtaliya Senatında Xarici əlaqələr və müdafiə komissiyasının üzvü Alessandro Alfieri, komissiyanın katibliyinin rəhbəri Ciovanni Baioççi, Deputatlar Palatasında Beynəlxalq Əlaqələr xidmətinin rəhbəri Mario di Napoli, Xarici Əlaqələr və icma komissiyasının vitse-prezidenti Quartapelle Prokopio Lia, “Lega Salvini Premier - Partito Sardo d'Azione” siyasi qrupunun rəhbəri Rikardo Molinari, “Partito Democratico - Italia Democratica e Progressista” siyasi qrupunun rəhbəri Debora Serroççiani, Müdafiə komissiyasının üzvü Roberto Baqnasko və “Fratelli d'Italia” siyasi qrupunun rəhbəri Foti Tommaso ilə görüşlərində italiyalı parlamentarilərə azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyasının məqsədi və baş verənlərlə bağlı reallığı əks etdirən faktlar təqdim olunub.

İtaliyalı parlamentarilər Azərbaycanın İtaliyanın strateji tərəfdaşı olduğunu, iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildiriblər.

Qeyd edilib ki, İtaliya Azərbaycanın, Azərbaycan isə Cənubi Qafqaz regionunda İtaliyanın ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan uzun illərdir İtaliyanın əsas neft tədarükçüsüdür, TAP boru kəmərinin istismara verilməsi ilə ölkəmiz İtaliyanın əsas təbii qaz tədarükçülərindən birinə çevrilib. Ölkələrimiz arasında əməkdaşlıq təkcə enerji sektoru ilə məhdudlaşmır, hazırkı strateji tərəfdaşlıq siyasi-institusional və humanitar sahələrdə möhkəm təməllər üzərində qurulub, bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar var. Prezident İlham Əliyevin İtaliyaya sonuncu səfəri çərçivəsində Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının və Mədəniyyət Mərkəzinin açılışı, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində ADA Universiteti ilə İtaliyanın beş aparıcı universiteti arasında əməkdaşlığa dair imzalanmış sazişlər mübadiləsi bunun bariz nümunəsidir. Vurğulanıb ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

A.Kərimli Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binası və Mədəniyyət Mərkəzinin ekspozisiya zalları ilə də tanış olub.

***Nihad Budaqov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Roma***

**AZƏRTAC**

**2023, 26 yanvar**

**XİN: Ermənistan XİN başçısının Laçın yolu ətrafındakı vəziyyətin müharibə yolu ilə həlli təklifi ciddi təhdiddir**

Ermənistan xarici işlər nazirinin Laçın yolu ətrafında yaranmış vəziyyətin müharibə yolu ilə həll edilməsi təklifi ciddi təhdiddir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Avropa İttifaqı Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxışına dair şərhində bildirilib.

Qeyd olunub ki, Ermənistan rəhbərləri tərəfindən müharibəyə çağırış ideyalarının yeni olmadığı məlumdur. Hələ 2019-cu ildə Ermənistan baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır", keçmiş müdafiə naziri Tonoyan isə "yeni torpaqlar üçün yeni müharibə" barədə fikirlər səsləndirib. Xarici işlər naziri Mirzoyanın hərbi həll variantını təklif etməsi Ermənistanın tarixdən dərs çıxarmadığını və 30 il müddətində Azərbaycan ərazilərini işğalda saxlamasının nə ilə nəticələndiyini hələ də anlamadığını göstərir. Ermənistan tərəfinin bu avantürasının qarşısının alınması zəruridir.

**AZƏRTAC**
**2023, 25 yanvar**

**XİN: Laçın yolunda dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur**

Laçın yolu ətrafında yaranmış vəziyyətlə əlaqədar Ermənistan tərəfindən dəfələrlə səsləndirilmiş və sonuncu çıxış zamanı da təkrarlanmış ideyalarla əlaqədar qeyd olunmalıdır ki, Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının, bu sərvətlərin Azərbaycandan Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Azərbaycanın suveren ərazisi olan Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Avropa İttifaqı Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxışına dair şərhində qeyd edilib.

Diqqətə çatdırılıb ki, erməni sakinlərin yaşadığı Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətlər Azərbaycanın milli təhlükəsizliyinə hədədir və belə fəaliyyətlərə son qoyulması zəruridir.

Azərbaycan bundan sonra da öz milli maraqlarının və təhlükəsizliyinin müdafiəsi məqsədilə bütün lazımi tədbirləri görməyə davam edəcək.

**AZƏRTAC**
**2023, 25 yanvar**

**XİN: Laçın yolunun fəaliyyətinə müdaxilə etməsi Ermənistanın işğalçılıq siyasətini unutmadığını göstərir**

Azərbaycanın suveren ərazisi olan Laçın yolunun fəaliyyətinə müdaxilə etməsi Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçılıq siyasətini hələ də unutmadığının göstəricisidir. Halbuki, Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağın bütün dünya tərəfindən Azərbaycan ərazisi kimi tanındığını dəfələrlə bəyan edib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yanvarın 20-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın "Armenpress" xəbər agentliyinə müsahibəsi zamanı səsləndirdiyi fikirlərlə bağlı medianın sualını cavablandırarkən söyləyib.

Laçın yolu ətrafında yaranmış vəziyyətə dair əsassız iddialara da cavab verən A.Hacızadə deyib: "Bir daha xatırladırıq ki, üçtərəfli Bəyanatın 6-cı bəndinə əsasən, Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. Təhlükəsizlik zəmanəti, həmçinin Laçın yolundan sui-istifadənin qarşısının alınmasını ehtiva edir. Ermənistanın Laçın yolundan sui-istifadənin qarşısını almaq əvəzinə, üçtərəfli Bəyanata zidd olaraq Laçın yolundan istifadə etməklə yeni istehsal edilmiş minaları Azərbaycana gətirməsi, Ermənistanın rəhbər şəxsləri tərəfindən də təsdiq edildiyi kimi, Azərbaycan ərazisindən hələ də çıxarılmayan erməni qüvvələrinin təchizatını və rotasiyasını davam etdirməsi, Azərbaycan ərazisində qanunsuz çıxarılan təbii sərvətlərin Ermənistana nəqlini təşkil etməsi faktları bir daha sübut edir ki, Ermənistan öhdəliklərinin icrasında maraqlı deyil, Azərbaycana qarşı işğalçılıq siyasətini və beynəlxalq hüquqazidd əməllərini hələ də davam etdirir".

**AZƏRTAC**
**2023, 21 yanvar**

**Ceyhun Bayramov: Laçın yolundan silah-sursatın daşınması yolverilməzdir**

Azərbaycan üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliklərinə əməl edir. Belə ki, Laçın yolu humanitar məsələlər üçün açıqdır.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov söyləyib.

Nazir qeyd edib ki, Laçın yolundan silah-sursatın, minaların və s. daşınması yolverilməzdir.

**AZƏRTAC**
**2023, 20 yanvar**

## Kəlbəcər və Laçında hərbi hissələrin döyüş hazırlığı yoxlanılıb

Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər vəzifəli şəxsləri Kəlbəcər və Laçın rayonları ərazilərindəki bir neçə hərbi hissələrdə olub, bölmələrin döyüş hazırlığını yoxlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Qərargah rəisi əməliyyat şəraiti və döyüş növbətçiliyinin təşkili ilə bağlı məruzələri dinləyib, ehtimal olunan təxribatların qarşısının vaxtında və qətiyyətlə alınması üçün müvafiq tapşırıqlar verib.

General-polkovnik K.Vəliyev döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə təlim və məşqlərin intensivliyinin artırılması və bölmələrin idarə edilməsi bacarıqlarının təkmilləşdirilməsi barədə göstərişlər verib.

**AZƏRTAC**
**2023, 19 yanvar**

**"CNN Türk"ün müxbiri: Laçın yolu ilə silahların və minaların daşınmasına dair sübutlar var**

Biz buraya gələndə nə ilə qarşılaşacağımızı dəqiq bilmirdik. İkinci Qarabağ müharibəsi sona çatsa da, burada bəzi problemlər hələ də qalmaqdadır. Hazırda olduğumuz, Ermənistanla Qarabağı birləşdirən Laçın-Xankəndi yolunda azərbaycanlı gənclər, ekofəallar dünyaya ekoloji terrorun dayandırılması ilə bağlı mesajlar verirlər.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "CNN Türk" telekanalının müxbiri Ahmed Türkeş söyləyib.

O qeyd edib ki, Qarabağda ekoloji fəlakət baş verir. Buna görə də talanan mədənlərə baxış keçirilməli, araşdırmalar aparılmalıdır. Aksiya ərazisində asılan plakatların görüntülərindən burada vəziyyətin necə olacağı bəllidir. Bəs bu gənclər nə istəyirlər? Bizim görmədiyimiz o iki mədəndə nələr baş verir? Burada ekofəalların istəyi odur ki, suallarına cavab tapsınlar, tədqiqatçılar gedib mədənləri araşdırsınlar.

Ahmet Türkeş, həmçinin deyib: “Ermənistan deyir ki, bura blokadadadır. Bu iddia doğru deyil. Ərazidə olduğumuz müddətdə nəqliyyat vasitələrinin yoldan maneəsiz keçidlərinin şahidi oluruq”.

O bildirib ki, aksiyaçılarla söhbət zamanı burada Azərbaycan vətəndaşlarının əsas narahatlığının İkinci Qarabağ müharibəsindən sonra bu bölgədə 200-dən çox azərbaycanlının mina qurbanı olması ilə bağlı olduğunu öyrənib. “Eşitdiyimizə görə, bu minaların istehsal ili müharibədən sonrakı dövrə təsadüf edir. Ona görə də Azərbaycan tərəfində Ermənistanın Laçın yolu ilə silah və minaların daşınmasına dair sübutlar var”, - deyə jurnalist vurğulayıb.

Problemlərin aradan qaldırılması üçün Ermənistanla Azərbaycanın bir araya gəlib danışmalı olduqlarını söyləyən jurnalist deyib: “Sülh istiqamətində vacib addımlar atılmalıdır. Bu, çox mühüm məsələdir. Çünki bu ərazilərdə diplomatlar susduqca, silahlar danışır. Əgər sülh istəyi varsa, tələblər razılaşdırılmalı və müzakirə edilməlidir. Ermənistan isə özünə bu sualı verməlidir. Mən nə istəyirəm? Problemlərin böyüməsini, yoxsa həll edilməsini?”.

**AZƏRTAC**
**2023, 14 yanvar**

**Azərbaycan Prezidenti: Biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq**

Avqustun 26-da - nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl biz Laçın şəhərini də azad etdik və eyni zamanda, Laçın rayonunun Zabux və Sus kəndlərinə də qayıtdıq. Bu da böyük nailiyyətdir.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində deyib.

Artıq Laçın şəhərində çox genişmiqyaslı quruculuq-bərpa işlərinin aparıldığını diqqətə çatdıran Azərbaycan Prezidenti bildirib: "Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar".

**AZƏRTAC**
**2022, 31 dekabr**

**Laçın rayonu ərazisində yeni hərbi obyektlər istifadəyə verilib**

Azərbaycan Ordusunun maddi-texniki təminatının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

AZƏRTAC Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, Laçın rayonu ərazisində yeni inşa edilmiş yerləşmə məntəqələri istifadəyə verilib.

Müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev Laçında yerləşən bir neçə döyüş mövqeyini və yeni istifadəyə verilmiş məntəqələri ziyarət ediblər.

Məruzə edilib ki, döyüş mövqeyində xidmət edən hərbi qulluqçular ayıq sayıq xidmət aparır, Vətənin keşiyində durmaqla qürur duyurlar.

Yerləşmə məntəqələrində qərargah binaları, yeməkxanalar, silah otaqları, tibb məntəqələri, əsgər yataqxanaları, hamam-camaşırxana kompleksləri, anbarlar, avtomobil parkları inşa edilib. Mərkəzləşdirilmiş istilik sisteminin təminatı məqsədilə qazanxana kompleksi, fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlar və günəş panelləri mövcuddur. Ərazidə abadlıq işləri aparılıb və müxtəlif ağaclar əkilib.

Sonra şəxsi heyətin döyüş hazırlığı yoxlanılıb. Döyüş hazırlığının müxtəlif elementləri üzrə icra olunan taktiki tapşırıqlar hərbi qulluqçular tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib.

Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşən nazir müavinləri onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndiriblər.

Hərbi qulluqçular qarşıdan gələn bayramlar münasibətilə təbrik edilib və onlara hədiyyələr təqdim olunub.

Müdafiə nazirinin müavinləri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili, hərbi qulluqçuların sosial-məişət şəraitinin və maddi-texniki təminatının daha da yaxşılaşdırılması ilə bağlı general-polkovnik Zakir Həsənovun tapşırıqlarını aidiyyəti şəxslərə çatdırıblar.

**AZƏRTAC**
**2022, 30 dekabr**

**Leyla Abdullayevadan ermənipərəst deputatlara: Laçın yolu Azərbaycanın suveren ərazisidir**

Qarabağ, o cümlədən Laçın yolu Azərbaycanın suveren ərazisidir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva Fransa parlamentinin ermənipərəst deputatlarının “Le Monde” qəzetində Laçın yolu ilə bağlı çağırışına münasibət bildirərkən yazıb.

Səfir özünün tviter hesabında bununla bağlı etdiyi paylaşımda, həmçinin yazıb: “Qarabağ erməniləri Azərbaycan vətəndaşları sayılırlar. “Universal dəyərlər, mənəvi borc və şərəf sizdən Azərbaycanın sülh səylərini dəstəkləməyi tələb edir”.

**AZƏRTAC**
**2022, 28 dekabr**

**Ceyhun Bayramov: Laçın dəhlizinə alternativ yolun çəkilməsi müsbət bir təcrübədir**

Azərbaycan dəfələrlə qeyd edib ki, Qarabağda yaşayan etnik ermənilərin, oraya aid olan insanların Azərbaycanda yaşamaq hüququ var.

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 27-də xarici işlər naziri Ceyhun Bayramov ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında deyib.

Nazirin sözlərinə görə, Azərbaycan dövləti bu mövzuda dialoqun aparılmasına açıqdır və bu istiqamətdə bir sıra addımlar atıb. Sözügedən sahədə həssaslığı nəzərə alaraq, addım-addım irəliləmək lazımdır.

Laçın dəhlizinə alternativ yolun çəkilməsini müsbət bir təcrübə adlandıran Ceyhun Bayramov deyib: "Bu yol ermənilərin yaşadıqları ərazilərdən keçirdi. Yolun tikintisi zamanı yerli ermənilərin müraciətləri nəzərə alınıb. Yaxud Sərsəng su anbarı ilə bağlı müzakirələr aparıldı ki, torpaqların suvarılması üçün nə qədər su götürülsün, elektrik enerjisi istehsalı necə təmin edilsin. Lakin ləkəli keçmişi olan şəxs bölgəyə göndərilir. Azərbaycan belə təxribatların qarşısını almağa hazırdır".

**AZƏRTAC**
**2022, 27 dekabr**

**“Laçın yolunda etirazların səbəbi sülh müqaviləsinə qarşı çıxan ermənilərin gərginliyi artırmasıdır” - italiyalı professor**

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində narahatedici hadisələr baş verir. ABŞ Konqresinin sanksiya tətbiq etdiyi rus-erməni milyonçu Ruben Vardanyanın beynəlxalq sanksiyalardan qaçıb Qarabağa gəlməsi və buradakı təbii ehtiyatların erməni qüvvələri tərəfindən qanunsuz ələ keçirilməsi kimi. Azərbaycan ekofəallarının etirazlarının kökündə məhz bu mürəkkəb nüanslarla dolu proses dayanır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçellinin İtaliyanın nüfuzlu “La Stampa” qəzetində dərc olunan məqaləsində yer alıb.

“Azərbaycan öz qanuni sərhədlərini geri alır: Rusiyanın müdaxiləsi vəziyyəti daha da pisləşdirir” adlı məqalədə müəllif bildirir ki, BMT Təhlükəsizlik Şurasının dekabrın 20-də Laçın yolunda vəziyyətlə bağlı müzakirələri zamanı Azərbaycan nümayəndəsi Ermənistanın hansı qanunsuz hərəkətlərinin azərbaycanlıların aksiyalarına səbəb olduğunu yaxşı izah edib: mineral ehtiyatların qanunsuz istismarından tutmuş, Azərbaycan ərazisinə çoxlu sayda piyada əleyhinə minalar yerləşdirilməsinin davam etdirilməsi kimi. Həmçinin mülki istifadə üçün malların tədarükü və ya zəruri tibbi xidmətlərin göstərilməsi ilə bağlı heç bir maneənin olmaması, Azərbaycanın hər cür iradəsinin olması və bu məsələdə Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə daimi əməkdaşlıq etdiyi bildirilib.

Tarixə nəzər salan professor qeyd edir ki, postsovet məkanındakı problemlərdən danışarkən etik-siyasi dəyər daşıyan tarixi müddəa irəli sürmək lazımdır. 1991-ci ildə 15 sovet respublikası ayrılaraq rəhbər prinsip əsasında ərazi bütövlüyü haqqında saziş imzaladı. Postsovet məkanında silahlı münaqişələr həmişə bu prinsipin pozulmasından qaynaqlanıb və sazişi şübhə altına alıb. Ermənistan bunu təkcə Qarabağ bölgəsini deyil, azərbaycanlıların məskunlaşdığı digər yeddi rayonu da Azərbaycandan qoparmaqla və buranın mülki əhalisini qovmaqla, XX əsrin texniki baxımdan ən böyük etnik təmizləmə əməliyyatını həyata keçirməklə edib.

Etik-siyasi dəyərə gəldikdə... Qərbdə hamısı olmasa da, çox ölkə Ukrayna tərəfdarıdır, Rusiyanın təcavüzünə qarşıdır və Ukrayna dövlətinin ərazi bütövlüyünü qoruyur. Bu səbəbdən Avropa İttifaqına üzv ölkələrin əksəriyyəti rəsmi Kiyevə silah göndərməyə, Moskvanı ciddi sanksiyalara məruz qoymağa çalışır. Bu qətiyyətli və bütün Qərbdə geniş yayılan mövqenin niyə Ermənistanın Azərbaycan ərazilərinə təcavüzünə şamil edilməməsi aydın deyil. Axı, “Donbas respublikası” olmadığı kimi, “Artsax respublikası” da yoxdur. “Donbas respublikası” ən azı Rusiya tərəfindən tanınıb, “Artsax respublikası” isə hətta Ermənistan tərəfindən də tanınmayıb! Əgər bir prinsip tətbiq olunursa, yəni dövlətlərin ərazi bütövlüyünün qorunması, bu, hamıya şamil edilir. A və ya B seriyalı hücumlar olmamalıdır. Əks halda bu, ikili standartdır.

“İndiki böhrana gəldikdə, Azərbaycan 2020-ci ilin noyabrında diplomatik həll yolunu 30 ilə yaxın gözlədikdən sonra BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində öz ərazilərini hərbi yolla Ermənistanın işğalından azad etdi. 44 günlük müharibə BMT nizamnaməsinin 51-ci maddəsinə əsasən özünümüdafiə hüququ əsasında o qədər qanuni idi ki, rəsmi Bakıya bir dənə də olsun sanksiya tətbiq olunmadı. Bunun Azərbaycanın neft istehsalçısı kimi mövqeyi ilə heç bir əlaqəsi yoxdur. Əgər biz Rusiya neftinə sanksiya tətbiq ediriksə, bunu Azərbaycan neftinə də tətbiq edə bilərdik. Bunun baş verməməsi isə beynəlxalq ictimaiyyətin Azərbaycanın öz sərhədlərini bərpa etmək hüququna malik olduğunu dərk etməsidir.

Amma biz müharibədən sonrakı ilk gündə deyilik. Sülh müqaviləsi yaxınlaşır. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə artıq bir neçə dəfə görüşüblər. Aİ-nin missiyası davam edir. Azərbaycan sülh müqaviləsinin tez bir zamanda imzalanmasında maraqlı olsa da, Ermənistanda vəziyyət daha mürəkkəbdir və düşmən qüvvələr müqavilənin tərəfdarları ilə toqquşur”, - deyə müəllif bildirir.

Daniel Pommier vurğulayır ki, son günlərdə Laçın yolunda baş verənlərin kökündə məhz ermənilər arasında sülh müqaviləsinə qarşı çıxan və qərbdən daha çox rəsmi Moskva ilə bağlı qüvvələrin gərginliyi artırması dayanır. Bunun əvəzində isə rəsmi Bakı nəyin bahasına olursa-olsun regionun gələcəyinin təməl daşı sayılacaq sülh müqaviləsini imzalamaq istəyir.

***Nihad Budaqov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Roma***

**AZƏRTAC**
**2022, 25 dekabr**

**Laçın-Xankəndi yolu: Fəallar tələblərində israrlı görünürlər**

Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiya davam edir.

AZƏRTAC-ın hadisə yerinə ezam olunmuş müxbiri xəbər verir ki, aksiya fəalları bu dəqiqələrdə də plakat qaldırıb, şüarlar səsləndirirlər.

Onlar Azərbaycan tərəfinin haqlı tələblərinin yerinə yetirilməsini istəyirlər. Fəallar bildirir ki, onların tələbləri Azərbaycan ictimaiyyətinin haqlı narazılığının ifadəsidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Onlar tələblərində israrlıdırlar.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı təşkil olunan aksiya artıq on dörd gündür davam edir.

**AZƏRTAC**
**2022, 25 dekabr**

**Sülhməramlılar konteyner və çadırları Laçın istiqamətində quraşdırdıqları postun ərazisinə daşıyıblar**

Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunun Xankəndiyə aid hissəsində Rusiya sülhməramlılarına məxsus çadır və konteynerlər tamamilə sökülüb.

AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, konteyner və çadırlar yük avtomobilləri ilə Laçın istiqamətində quraşdırılan postun ərazisinə daşınıb. Yolun Xankəndi hissəsində Rusiya sülhməramlılarına məxsus post isə sökülməyib, sülhməramlılar adi qaydada buradakı xidmətlərini davam etdirirlər.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarına və ekoloji terrora son qoyulmasına qarşı azərbaycanlı fəalların təşkil etdiyi aksiya davam edir.

**Ceyhun Alışlı**

**AZƏRTAC**
**2022, 24 dekabr**

**Azərbaycanın və Rusiyanın XİN başçıları Laçın yolu ətrafında vəziyyəti müzakirə ediblər**

Dekabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə və Laçın yolu ətrafında mövcud vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin Laçın yolunda öhdəliklərə uyğun olaraq vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verdiyini və Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının, sülhməramlı kontingentin avtomobillərinin və digər nəqliyyat vasitələrinin hərəkəti barədə videolardan göründüyü kimi yolun açıq olduğunu diqqətə çatdırıb.

Bununla yanaşı, azərbaycanlı fəalların etiraz aksiyasının Azərbaycan ərazilərində ermənilərin qeyri-qanuni iqtisadi fəaliyyətinə qarşı həyata keçirildiyi, habelə hərbi təxribatların qarşısının alınması barədə etirazçıların tələblərinin yerinə yetirilməsinin vacib olduğu vurğulanıb.

Yoldan humanitar məqsədlər üçün istifadə edilməsinə bütün şəraitin yaradılmasına baxmayaraq, Ermənistan tərəfinin və Azərbaycan ərazilərində erməni sakinlərin "nümayəndələri" kimi özlərini təqdim edən şəxslərin əhalini yoldan istifadədən çəkindirməsinin, bununla süni şəkildə guya humanitar vəziyyətin pisləşməsi təəssüratı yaratmasının qəbuledilməz olduğu bildirilib.

Telefon danışığı zamanı, həmçinin iki dövlət arasında əməkdaşlıq gündəliyinin aktual məsələləri və qarşılıqlı maraq doğuran digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2022, 22 dekabr**

## Laçın-Xankəndi yolundakı aksiya beynəlxalq müqavilələrin tələblərinə uyğundur

Laçın-Xankəndi yolunda keçirilən aksiyalar 30 ilə yaxın bir dövr ərzində qanunsuz şəkildə talanan təbii sərvətlərimizlə bağlı hazırkı vəziyyətin öyrənilməsi və buna uyğun olaraq təxirəsalınmaz tədbirlərin görülməsinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir.

Bu fikirləri Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov AZƏRTAC-a açıqlamasında deyib.

“Təbii ki, Azərbaycan ərazilərində Ermənistan tərəfindən təbii sərvətlərin qanunsuz istismarı, talan edilməsi və nəticədə həmin fəaliyyətlərin səbəb olduğu ətraf mühitin ciddi şəkildə çirkləndirilməsinin qarşısını almaq məqsədilə Laçın-Xankəndi yolunda davam edən aksiya ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun şəkildə keçirilir. Belə ki, Azərbaycan Respublikası 1998-ci il Avropa İqtisadi Komissiyasının Ətraf mühit məsələlərində informasiya əldə etmək, qərarların qəbulunda ictimai iştirak və ədalət mühakiməsinə çatımlılıq haqqında Konvensiyanı (Orxus Konvensiyası) ratifikasiya etmiş ölkələrdən biridir. Vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin və ətraf mühitin mühafizəsinə mühüm önəm verən ictimai fəalların təşkil etdikləri dinc aksiyalar isə tamamilə həmin Konvensiyaya uyğundur”, - deyə Müqalib Mahmudov vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanan birgə Bəyanatla münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunduğu tarixədək və ondan sonrakı dövrlərdə ölkəmizə qarşı törətdiyi ekoloji cinayətlərə, ətraf mühitə dəymiş ziyana görə beynəlxalq hüququn normalarına və milli qanunvericiliyə uyğun olaraq Ermənistana qarşı müvafiq məsuliyyət tədbirləri tətbiq edilməlidir.

**AZƏRTAC**
**2022, 21 dekabr**

**Laçın-Xankəndi yolunda Rusiya sülhməramlılarının mövqeyində hansı dəyişikliklər olub?**

Laçın-Xankəndi yolunda azərbaycanlı fəalların dinc etiraz aksiyası keçirdikləri əraziyə cəlb olunmuş Rusiya sülhməramlılarının mövqeyində dünəndən başlayaraq müəyyən dəyişikliklər müşahidə edilməkdədir. Lakin etirazçılar bundan istifadə edərək irəli getmək fikrindən uzaqdırlar.

AZƏRTAC-ın müxbiri hadisə yerindən xəbər verir ki, bu, aksiyanın dinc xarakterli olduğunu bir daha göstərir. Çünki aksiyaçıların məqsədi sülhməramlılarla qarşıdurmaya getmək yox, Azərbaycanın suveren ərazisindəki yataqlarda monitorinqin aparılması üçün şəraitin yaradılmasına nail olmaqdır. Etiraz aksiyasının iştirakçıları təbii sərvətlərimizin talanmasının, ərazilərimizin ekoloji çirkləndirilməsinin dayandırılmasını tələb edirlər.

**Elmir Səftərov**

**AZƏRTAC**
**2022, 20 dekabr**

**BQXK-nın avtomobillərinin Laçından Xankəndi istiqamətinə maneəsiz keçidi təmin edilib**

Dekabrın 20-də aksiya iştirakçıları Laçın-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Laçından Xankəndi istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

AZƏRTAC xəbər verir ki, dekabrın 19-da da Beynəlxalq Qırmız Xaç Komitəsi (BQXK) bir nəfər xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycan tərəfinə müraciət etmişdi. Azərbaycan tərəfi isə müraciətə dərhal cavab vermiş və keçid uğurla təmin olunmuşdu.

Qeyd edək ki, bu, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

**Elmir Səftərov**

**AZƏRTAC**
**2022, 20 dekabr**

**Baş katib: Laçın dəhlizi KTMT-nin səlahiyyət zonasına daxil deyil**

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) hesab edir ki, Laçın dəhlizi məsələsi qurumun səlahiyyət zonasına daxil deyil.

AZƏRTAC xəbər verir ki, belə bəyanatla KTMT-nın Baş katibi Stanislav Zas çıxış edib.

O bildirib ki, Ermənistandan Laçın dəhlizi ilə bağlı müraciət daxil olmayıb. "Biz hesab edirik ki, bu məsələ KTMT-nin səlahiyyət zonasından kənardadır", - deyə S.Zas vurğulayıb.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Moskva**

**AZƏRTAC**
**2022, 20 dekabr**

**Sülhməramlıların avtomobilləri Laçın-Xankəndi yolundan növbəti dəfə maneəsiz keçib**

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edə bilirlər.

AZƏRTAC xəbər verir ki, Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus daha iki təminat avtomobilinin aksiya keçirilən məkandan maneəsiz keçməsinə şərait yaradılıb. Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmir.

**Elmir Səftərov**

**AZƏRTAC**
**2022, 19 dekabr**

**Laçın yolundakı aksiya ilə əlaqədar xarici ölkə parlamentlərinə məktublar ünvanlanıb**

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qrupları, o cümlədən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi tərəfindən xarici ölkə parlamentlərindəki həmkarlarına Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının həyata keçirdiyi etiraz aksiyası ilə bağlı məktublar ünvanlanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məktublarda Ermənistan tərəfindən Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərindəki təbii sərvətlərin qanunsuz şəkildə istismar edilərək, Laçın yolu vasitəsilə Ermənistana daşınmasına, Azərbaycanın aidiyyəti dövlət qurumları nümayəndələrinin faydalı qazıntı yataqlarının yerləşdiyi ərazilərə səfərinin əngəllənməsinə cavab olaraq, Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri və ekologiya fəallarının Şuşa-Laçın yolunda etiraz aksiyasına başladıqları bildirilib.

Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu vurğulanaraq, Laçın yolundakı məhdudiyyətlərin azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya sülhməramlı kontingenti tərəfindən yaradıldığı, etiraz aksiyasının məqsədinin yolun bağlanması deyil, talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısının alınması olduğu, mülki təyinatlı nəqliyyat vasitələrinin hərəkətinə heç bir maneə törədilmədiyi qeyd edilib.

Məktublarda, həmçinin Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq Laçın yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması üçün istifadə etdiyi, bununla da Praqa və Soçi görüşlərində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi üzrə qəbul etdiyi öhdəliklərə zidd olaraq, qanunsuz fəaliyyətlərini davam etdirdiyi diqqətə çatdırılıb. Ermənistanın bu cür qanunsuz fəaliyyətləri ilə bağlı obyektiv məlumatlandırmanın zəruriliyi xüsusilə vurğulanıb.

**AZƏRTAC**
**2022, 17 dekabr**

### Adil Əliyev: Laçın yolundakı aksiya Azərbaycanın yumşaq gücünü göstərir

Rusiya sülhməramlılarının Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilməsi 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli Bəyanatın şərtlərindən biridir və bu şərt dərhal yerinə yetirilib. Amma Bəyanatın digər şərtləri, xüsusilə qanunsuz silahlı birləşmələrin Rusiya sülhməramlılarının məsuliyyət zonasından çıxarılması və nəqliyyat-kommunikasiya xətlərinin, xüsusən də Azərbaycanla Naxçıvan arasında dəhlizin açılması şərtləri hələ də yerinə yetirilməyib. Qanunsuz erməni silahlı birləşmələrinin Qarabağ ərazisindən çıxarılması Rusiya sülhməramlılarının üzərinə düşür. Əgər onlar bu qanunsuz silahlı birləşmələrin onların məsuliyyət zonasından çıxarılmasını təmin edə bilməyiblərsə və ya etmək istəməyiblərsə, deməli, öz vəzifələrinin öhdəsindən gələ bilmirlər və beləliklə, üçtərəfli Bəyanatı pozurlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ifadə edib.

Adil Əliyev bildirib ki, Qarabağ ərazisinə silahların gətirilməsinə, qanunsuz səfərlərin edilməsinə, o cümlədən bir qrup İran vətəndaşının Azərbaycanın icazəsi olmadan Qarabağa gəlməsinə, yumşaq desək, göz yumublar. Bu məsələlər də bir daha Rusiya sülhməramlılarının fəaliyyəti haqqında ciddi suallar yaradır, ümumiyyətlə, üçtərəfli Bəyanatın onlar tərəfindən pozulması hallarını üzə çıxarır.

Son günlər azərbaycanlı ekoloq və mütəxəssislərin qanunsuz istismar edilən qızıl və mis-molibden mədənlərində monitorinq aparılmasına sülhməramlı qüvvələrin mane olduqlarını bildirən Milli Məclis sədrinin müavini xatırladıb ki, həmin mədənlərin fəaliyyəti üçün işğal dövründə Kəlbəcər yolundan istifadə edilirdi. Kəlbəcər azad edildikdən sonra mədəndə fəaliyyət dayanmışdı. Amma indi mədənlərdə qeyri-qanuni istismar işlərinin aparılması və materialların Ermənistana daşınması üçün Laçın yolundan istifadə edilir. Yəni, sülhməramlılar Laçın yolu ilə müvafiq material və avadanlıqların daşınmasına imkan verməklə, əslində bu qeyri-qanuni fəaliyyətə dəstək vermiş olurlar. Bu da Azərbaycan ictimaiyyətinin ciddi etirazına səbəb olub.

“Nəticədə bir neçə gündür ki, Azərbaycanın ətraf mühitin qorunması üzrə ictimai fəalları, vətəndaş cəmiyyəti və QHT nümayəndələri Şuşa-Laçın yolunda ekoloji tələblərlə etiraz aksiyası keçirirlər. Göründüyü kimi, hələ də Rusiya sülhməramlılarının komandanı onlarla görüşməyib və problemin həlli istiqamətində addım atmayıb. Əksinə, Rusiya sülhməramlılarının azərbaycanlı ictimai fəalların və QHT nümayəndələrinin dinc aksiyasına mane olmaq cəhdləri, onlarla kobud davranış halları mediada yayılan kadrlardan görünür.

Beləliklə, Rusiya sülhməramlılarının komandanı Volkov nəhayət ki, Rusiya Prezidenti Vladimir Putinin də imzaladığı üçtərəfli Bəyanata uyğun fəaliyyət aparmalı və müvəqqəti yerləşdikləri ərazidə qeyri-qanuni fəaliyyətlərin, ətraf mühitə ziyan vuran işlərin dayandırılmasını, qeyri-qanuni silahlı dəstələrin neytrallaşdırılmasını və azərbaycanlı mütəxəssislərin monitorinq aparmasını təmin etməlidir. Əks təqdirdə, bu onların fəaliyyətini sual altında qoyur”, - deyə Milli Məclisin sədr müavini diqqətə çatdırıb.

Adil Əliyev Azərbaycan vətəndaş cəmiyyətinin Şuşa-Laçın yolu ərazisində keçirilən aksiyasının böyük rezonans doğurduğunu və Azərbaycanın yumşaq gücünün səmərəliliyini göstərdiyini vurğulayaraq deyib: “Bu aksiya məsələyə beynəlxalq ictimaiyyətin diqqətini çəkib. Ermənistanın və bir sıra dairələrin iddialarının əksinə olaraq, aksiya Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid törətmir. Ruben Vardanyan kimi insanların simasında hadisələrin təhrif edilməsi və azərbaycanlılarla ermənilərin sülh şəraitində və dinc yaşayışına xaricdən gəlmiş emissarların mane olduğu, bu aksiyanın gedişində özünü açıq şəkildə göstərdi. Digər tərəfdən, beynəlxalq reaksiyalardan bəzən açıq, bəzən də sətiraltı surətdə Qarabağ mövzusunun Azərbaycan Respublikasının daxili işi hesab olunduğu sezilir. Hesab edirəm ki, bu məqamlar Azərbaycan vətəndaş cəmiyyətinin və QHT-lərinin keçirdiyi dinc aksiyanın təsirli olduğundan xəbər verir və postmünaqişə dövründə Azərbaycanın yumşaq gücünün önəmini göstərir”.

**AZƏRTAC**
**2022, 17 dekabr**

**Laçın yolundakı pozuntular üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq baş verir**

Diplomatlarla Laçın yolundan çoxsaylı sui-istifadə hallarından, qanun pozuntuları hallarından bəhs etmək istəyirik.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə diplomatik korpusun nümayəndələri ilə görüşündə bildirib.

Nazir deyib: "Sui-istifadə halları, qanun pozuntuları üçtərəfli Bəyanatın müddəalarının əksinə olaraq baş verir. Bu hadisədən ümumi anlayışımızın olmağı üçün önəmlidir".

**AZƏRTAC**
**2022, 15 dekabr**

**Hikmət Hacıyev: Ermənistanın Laçın yolunun bağlanması barədə iddialarını qətiyyətlə rədd edirik**

Ermənistan tərəfinin guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə iddialarını qətiyyətlə rədd edirik. Ermənistan tərəfindən Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısının alınması vacibdir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev xarici işlər nazirinin müavini Elnur Məmmədovla birgə diplomatik korpusun nümayəndələri ilə görüşündə bildirib.

Ermənistanın sabiq rəhbərləri R.Köçəryan və S.Sarkisyanın işğal dövründə törətdikləri hərbi cinayətlərinə və qeyri-qanuni iqtisadi əməllərinə toxunan Prezidentin köməkçisi indi də kriminal iş adamı olan Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə və ətraf mühitə ciddi ziyan vurmasına imkan verilməyəcəyini qeyd edib.

**AZƏRTAC**
**2022, 13 dekabr**

**Laçın-Şuşa yolunda etiraz aksiyasına daha çox insan qoşulur**

Laçın-Şuşa yolunda Azərbaycan ekoloqları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və fəalların keçirdiyi etiraz aksiyası davam edir. Ölkənin ərazi bütövlüyünün müdafiəsi və Azərbaycanın təbii resurslarının qanunsuz istismarının dayandırılması ilə bağlı ədalətli tələblərə dəstək olaraq ölkənin müxtəlif bölgələrindən getdikcə daha çox insan gəlir.

AZƏRTAC-ın müxbiri hadisə yerindən xəbər verir ki, fəallar general-mayor Andrey Volkovun aksiya yerinə gəlməsini tələb ediblər.

Aksiyanın keçdiyi ərazidə, işğaldan azad olunmuş bütün torpaqlarda olduğu kimi, Azərbaycan bayraqları ucaldılıb. Aksiya iştirakçılarının alqışları ilə üçrəngli bayraq bura gətirilən tikinti kranının vasitəsilə dalğalandırılıb.

**Ziyadxan Həsənov**

**AZƏRTAC**
**2022, 13 dekabr**

**Laçın-Şuşa yolunda Azərbaycan ekoloq və fəallarının etiraz aksiyası davam edir**

Şaxtalı havaya baxmayaraq qeyri-hökumət təşkilatlarını təmsil edən bir qrup Azərbaycan ekoloqunun Laçın-Şuşa yolunda etiraz aksiyası davam edir. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etirazlarını bildirirlər.

AZƏRTAC-ın müxbiri hadisə yerindən xəbər verir ki, ekoloji fəallar təbii sərvətlərin talan edilməsinə son qoyulması tələblərini bildirən şüarlar söyləyirlər. Etirazçılar Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına buraxılmayınca aksiyanı davam etdirmək fikrində olduqlarını bildirirlər. Etirazçılar üçün qurulmuş çadırlara isti yemək çatdırılır.

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya tərəfinə etiraz notası göndərib. Notada Azərbaycan nümayəndələrinin göstərilən yataqlara maneəsiz baş çəkmələrini təmin etməyə çağırış əks olunub. Belə səfərə maneə törətməyin və ya hər hansı şərtlər irəli sürməyin yolverilməz olması vurğulanıb. 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycan ərazisində yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti tərəfindən Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət edilməsinin zəruriliyi diqqətə çatdırılıb.

**Ziyadxan Həsənov**

**AZƏRTAC**
**2022, 12 dekabr**

**XİN: Karen Donfrid Laçın yolunda son qanunsuz fəaliyyətlər barədə məlumatlandırılıb**

**Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin köməkçisi arasında telefon danışığı olub**

Xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, habelə Azərbaycan və ABŞ arasında əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov sülh müqaviləsi üzrə aparılan danışıqların cari vəziyyəti, kommunikasiyaların açılması və delimitasiya məsələləri üzrə səylər barədə məlumat verib. Bununla yanaşı, Laçın yolundan istifadə etməklə həyata keçirilən son qanunsuz fəaliyyətlər qeyd olunub.

Karen Donfrid ABŞ-ın bölgədə sabitliyin təmin edilməsi səylərini dəstəklədiyini vurğulayıb. Liderlər və nazirlər arasında əldə olunmuş razılıqlara uyğun olaraq sülh prosesinin irəlilədilməsinin vacib olduğunu bildirib.

**AZƏRTAC**
**2022, 8 dekabr**

**Laçın rayonu tezliklə Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək**

Azərbaycanın dilbər guşələrindən olan Laçının işğaldan azad edilməsindən iki il ötür. Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və rəşadətli Ordumuzun Qələbəsi Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Bundan əvvəl isə noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri işğaldan azad edilmişdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov deyib.

Azərbaycanın öz ərazilərini işğaldan azad etməklə beynəlxalq qanunlarının aliliyini və tarixi ədaləti bərpa etdiyini bildirən deputat burada diqqət çəkən əsas məqamın Laçın da daxil, bəzi rayonlarımızın bir güllə atılmadan, bir şəhid vermədən azad edilməsi olduğunu diqqətə çatdırıb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin vurğuladığı kimi, Ağdam, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və buna böyük vaxt sərf olunacaqdı.

“Laçın AXC-Müsavat cütlüyünün hakimiyyət uğrunda mübarizəsinin qurbanı oldu. Onu da qeyd edək ki, Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan tərəfindən işğal edilib. Həmin dövrdə respublikamızın daxilində ictimai-siyasi böhran, anarxiya hökm sürürdü. Müəyyən qüvvələr hakimiyyət uğrunda mübarizə aparırdı və bu prosesdə Azərbaycan Xalq Cəbhəsi əsas rol oynayırdı. Belə bir şəraitdə torpaqlarımızın düşməndən qorunması həmin qüvvələri düşündürmürdü. Onlar üçün əsas məqsəd hakimiyyətə gəlmək idi. Beləliklə, 1992-ci il mayın 15-də AXC-Müsavat cütlüyü qanunsuz hakimiyyətə gəldikdən cəmi 3 gün sonra - mayın 18-də Laçın rayonu Ermənistan tərəfindən işğal olundu. Bir sözlə, Laçın AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlmək üçün apardığı mübarizənin qurbanı oldu. Onu da xüsusi olaraq qeyd etmək yerinə düşər ki, Laçının işğal edilməsi ilə ölkəmiz üçün yeni faciələrin, torpaq itkilərinin əsası qoyuldu. Çünki Laçın rayonu böyük strateji əhəmiyyət kəsb edirdi. Belə ki, Ermənistanı Dağlıq Qarabağla birləşdirən yol məhz buradan keçir. Laçının işğalından sonra Ermənistan üçün bu yol açıldı. AXC-Müsavat cütlüyünün hakimiyyəti isə Laçını nəinki işğaldan azad edə bilmədi, əksinə digər torpaqlarımız da erməni işğalına məruz qaldı. Nəhayət, 28 ildən sonra 44 günlük Vətən müharibəsi nəticəsində Laçın rayonu işğaldan azad edildi.

Laçın rayonun işğaldan azad olunması da olduqca mühüm strateji əhəmiyyət kəsb edir. Bu rayon Ermənistanı Qarabağın dağlıq hissəsi ilə birləşdirən dəhliz rolunu oynayır. Eyni zamanda, rayonda generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək”, - deyə A.Məmmədov bildirib.

İşğaldan azad edilmiş Laçın rayonunda yol infrastrukturunun da tikintisinin diqqətdə saxlanıldığını diqqətə çatdıran deputat vurğulayıb ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Laçın rayonunda həyata keçirilən digər böyük layihə beynəlxalq hava limanının tikintisidir. İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaqdır. Azad edilmiş torpaqlarda ümumilikdə üç beynəlxalq hava limanı tikiləcək. Hava limanlarının mülki aviasiya, yükdaşıma və hərbi əhəmiyyəti danılmazdır. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq.

“Ümumilikdə Laçının işğaldan azad olunması ilə ölkəmizin bu gözəl guşəsində yenidən həyat canlanacaq, insanlar öz yurdlarına qayıdacaq və tezliklə, Laçın rayonu da Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək”, - deyən deputat fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 29 noyabr**

### ABŞ mətbuatı Azərbaycan Prezidentinin Laçın şəhərinə səfərindən yazıb

Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında Prezident İlham Əliyevin cari ilin sentyabrında erməni işğalından azad edilmiş Laçın şəhərinə səfərindən bəhs edən "Azərbaycan Prezidenti Qarabağ bölgəsinin Laçın şəhərinə səfər edib" sərlövhəli məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın müəllifi olduğu məqalədə üçtərəfli Bəyanata əsasən cari il avqustun 26-da erməni işğalçı qüvvələrinin tərk etdiyi və Azərbaycan Silahlı Qüvvələrinin daxil olduğu Laçın şəhərinə Azərbaycan Prezidentinin sentyabrın 21-də səfər etdiyinə və şəhər mərkəzində Azərbaycan bayrağını dalğalandırdığına diqqət cəlb edilib.

Azərbaycanın Ermənistan torpaqlarında müharibə aparması ilə bağlı iddialara cavab olaraq Prezident İlham Əliyev bildirib ki, iki ölkə arasında sərhədlərin demarkasiyası həyata keçirilmədiyi üçün Azərbaycan heç bir dövlətin sərhədlərini pozmayıb: "Bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir... Biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq... Bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz".

Qeyd olunub ki, Azərbaycan Prezidenti Ermənistanın istər Laçında, istərsə də Qarabağın digər rayonlarında vəhşiliklər törətdiyini, Laçında 1400-ə yaxın mina yerləşdirdiyini, müharibə başa çatdıqdan sonra da tarixi və dini abidələri dağıtdığını vurğulayıb. Ölkə Prezidenti Azərbaycanın Ermənistanla müharibə başa çatan kimi sülh müqaviləsi imzalamağı təklif etməsinə baxmayaraq, qarşı tərəfin nəinki sülh sazişini imzalamaqdan imtina etdiyini, hətta yeni təxribatlar törətdiyini qeyd edib.

Məqalədə Prezident İlham Əliyevin öz çıxışında BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu kimi beynəlxalq təşkilatların da fəaliyyətinə toxunduğu, Şuranın dörd qətnaməsini pozaraq Azərbaycan ərazilərini 30 il ərzində işğal altında saxlayan Ermənistana qarşı adıçəkilən qurumların heç bir sanksiya tətbiq etməməklə təcavüzkara dəstək verdiyini vurğuladığı diqqətə çatdırılıb. Azərbaycan Prezidenti çıxışının sonunda Laçında həyata keçirilən və qarşıda duran işlərdən danışaraq qeyd edib ki, yaxın vaxtlarda Laçında Qubadlı-Laçın dəmir yolunun tikintisinə başlanacaq. Murovdağdan Laçın şəhərinə qədər olan hissədə 12 tunelin tikintisi də həlli gözlənilən vəzifələr sırasındadır. Elektrik enerjisi ilə bağlı problemlərin qarşısının alınması məqsədilə Laçında "Güləbird" Su Elektrik Stansiyasının tikintisi də nəzərdə tutulub.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

### Hərbi hissənin yaradılmasının 22-ci ildönümü Laçında qeyd edilib

Oktyabrın 3-də "N" hərbi hissənin yaradılmasının 22-ci ildönümü münasibətilə Laçında tədbir keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər hərbi hissənin yaranma tarixindən, Vətən müharibəsində keçdiyi döyüş yolundan və qarşısında duran vəzifələrdən danışıblar. Qeyd olunub ki, bir çox uğurlu əməliyyatlarda iştirak edən hərbi hissə qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı siyasətin bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Bildirilib ki, dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində hərbi hissənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, eləcə də şəxsi heyətin sosial-məişət şəraiti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

**AZƏRTAC**
**2022, 3 oktyabr**

**Fransa mətbuatı Prezident İlham Əliyevin Laçın şəhərində etdiyi çıxışın tam mətnini yayıb**

Fransa KİV-ləri Prezident İlham Əliyevin Laçın şəhərində Azərbaycan Bayrağını ucaldarkən etdiyi çıxışın tam mətnini yayıblar.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyi Prezident İlham Əliyevin çıxışının tam mətnini fransız dilinə tərcümə edərək bu ölkədə akkreditə olmuş diplomatik nümayəndəliklərə, beynəlxalq təşkilatlara və yerli kütləvi informasiya vasitələrinə göndərib.

Dövlətimizin başçısı çıxışında bildirilib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq, erməni işğalından azad edilmiş Laçın şəhərində Azərbaycan Bayrağı ucaldılıb. Bu şəhərdə də yenidənqurma işlərinə başlanılıb.

Bu addımı atmaqda səfirliyin məqsədi Fransada ölkəmizə qarşı yayılan dezinformasiyanın qarşısını almaq, diplomatik nümayəndəliklərə, beynəlxalq təşkilatlara regionla bağlı reallıqları çatdırmaq, eləcə də fransız kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə tirajlanan qərəzli məlumatların qarşısını almaqdır. Səfirlik bununla, eyni zamanda, Azərbaycanın məsələ ilə bağlı mövqeyini bir daha dünya ictimaiyyətinə çatdırıb.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri, Paris***

**AZƏRTAC**
**2022, 28 sentyabr**

**Laçın istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirilib**

Laçın rayonu istiqamətində Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "UL-350" tipli pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə yerə endirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

**AZƏRTAC**
**2022, 27 sentyabr**

**Moldova mətbuatı Prezident İlham Əliyevin Laçın şəhərinə səfərinə geniş yer ayırıb**

Moldovanın nüfuzlu xəbər portalları Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Laçın şəhərinə səfəri ilə bağlı materiallara geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, Moldovanın “NOİ”, “Tribuna”, “Rupor”, “Dosarmedia”, “Realitatea” və digər xəbər portallarında rumın və rus dillərində dərc edilən məqalələrdə Prezident İlham Əliyevin Laçın şəhərində söylədiyi nitqdə Ermənistan barədə fikirləri yer alıb.

Məqalələrdə Prezident İlham Əliyevin çıxışına istinadla qeyd edilir ki, Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif edib. Ermənistan isə sözdə onları qəbul edib, əməldə isə heç nə etmir, yenə də vaxt uzatma taktikası seçib. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Onlar Qarabağdan hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu da müəyyən olunmayıb.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu***

**AZƏRTAC**
**2022, 23 sentyabr**

**Siyasi-diplomatik qələbənin Laçın zirvəsi**

"Biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!". Prezident İlham Əliyevin rəsmi tviter səhifəsində yazılan bu sözlər Laçının yeni dövrə qədəm basdığından, bu rayonumuzun da digər işğaldan azad olunan ərazilərimiz kimi yenidən qurulacağından xəbər verir. Qısa zamanda Füzulidə Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, bu ilin oktyabr ayından Zəngilan Beynəlxalq Hava Limanının və 2024-cü ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə veriləcəyi avtomobil, dəmir yolu ilə yanaşı hava məkanından istifadə edərək bu ərazilərdə olan maddi və mədəni irsimizi beynəlxalq aləmə tanıtmaqla yanaşı, beynəlxalq investisiyanın bu ərazilərə cəlbi baxımdan mühüm əhəmiyyət kəsb edir. Laçında ümumtəhsil müəssisəsinin tikilməsi, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikinti işləri ilə bağlı tədbirlər haqqında sərəncamlar Laçının yeni dövrə qədəm qoymasının tərənnümüdür.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı İltizam Yusifov Prezident İlham Əliyevin Laçın şəhərinə səfəri zamanı bu ərazidə yol infrastrukturunun qurulması, Laçında bayrağımızın ucaldılması məsələsinə münasibət bildirərkən deyib.

Azərbaycanın hər bir qarış torpağı kimi Laçının da bizim üçün əziz olduğunu diqqətə çatdıran deputat deyib: "Prezident İlham Əliyevin Laçın şəhərində Azərbaycan Bayrağını dalğalandırması, tarixi hadisədir. 1992-ci ilin mayında o zaman hakimiyyətdə olanların xainliyi nəticəsində itirdiyimiz Laçın şəhəri də digər işğaldan azad olunan ərazilərimiz kimi erməni vandallarının təsirinə məruz qalıb. Dövlətimizin başçısı Laçın şəhəri ilə tanış olarkən oradakı infrastrukturların yerlə-yeksan edildiyinin bir daha şahidi olduq. Prezident İlham Əliyevin dediyi kimi artıq Laçında araşdırma işləri aparılır, dəymiş ziyan hesablanır.

Təəssüf ki, erməni havadarları bu kimi vəhşiliyi görmək əvəzinə Azərbaycan əleyhinə çıxışlar edirlər. Onların bu kimi çıxışlarının təbii ki, heç bir əsası yoxdur və bunu Prezident İlham Əliyev Laçın şəhərində nitqi zamanı bir daha vurğuladı ki, Azərbaycanla heç kim zor dili ilə danışa bilməz. Bu gün regionda ciddi hadisələr baş verir. Şimalda, cənubda baş verən hadisələrin fonunda Azərbaycanın tarixi torpaqlarına sahib çıxması zamanın tələbidir. Müzəffər Ordumuz bu işi qətiyyətlə və yüksək məharətlə həyata keçirir".

İ.Yusifov əlavə edib: "Beynəlxalq aləmin "kor olan gözləri" açılmalı, erməni vandalizminə beynəlxalq səviyyədə qiymət verilməlidir. Prezident İlham Əliyev dövrümüzün ən böyük strateqidir. Dövlətimizin başçısı Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz daim inkişaf edib. Qlobal böhrandan ən az ziyanla çıxan ölkələrdən olduq, pandemiya bəlasından, eləcədə digər qlobal problemlərdən məharətlə çıxmağı bacardıq. Bütün bunlar üçün yüksək idarəçilik, düşünülmüş və planlaşdırılmış addımlar atıldı. Bu gün bir sıra özünü müxalif elan edən, əslində cəmiyyətdə heç bir nüfuzu olmayanlar Laçın şəhərinin işğaldan azad olmasını həzm edə bilmirlər. Nəzərə almaq lazımdır ki, Laçın bir güllə atılmadan belə düşməndən azad olunub. Bu, yeni dünya tarixində bənzəri olmayan bir hadisədir ki, işğal altında olan torpağını düşmənə güllə atmadan, qan tökmədən geri ala biləsən. Bunu Prezident İlham Əliyev bacardı. Heç olmasa, bu kimi nüansa qiymət vermək, sosial şəbəkənin verdiyi imkanlardan istifadə edərkən bu məsələləri göz önünə gətirmək lazımdır".

Deputatın sözlərinə görə, son hadisələr onu göstərir ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır, delimitasiya prosesinə başlamaqdan hər vəchlə yayınır: "Nə qədər ki, düşmən sülhdən yan qaçacaq o zamana kimi məğlub olacaq. Ermənistan daxilində baş qaldıran etiraz aksiyaları da onu deməyə əsas verir ki, bu ölkədə həm sosial, həm siyasi mühit qarışıqdır. Ermənistan bu şansdan düzgün istifadə etməsə hazırkı vəziyyətdən də daha çətin vəziyyətə düşəcək. Artıq nə Rusiya, nə də Qərb Ermənistan kimi problemlə yaşamaq istəmir. Prezident İlham Əliyevin "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq" fikri regionun gələcək taleyindən xəbər verir. Dar düşüncə sahibi olan düşmən ölkənin rəhbərliyi gec-tez bu dəhlizin açılmasına şahidlik edəcək".

**AZƏRTAC**
**2022, 23 sentyabr**

## Müzəffər Ali Baş Komandan Laçın şəhərində üçrəngli bayrağımızı ucaltmaqla, tarixi ədaləti bərpa etdi

Prezident İlham Əliyevin Laçın şəhərində Azərbaycan Bayrağını ucaltması və Laçından verdiyi bəyanatlar gərgin geosiyasi situasiyada rəsmi Bakının mövqeyinin və güc mərkəzi kimi nüfuzunun bir daha bəyan edilməsi baxımdan son dərəcədə zəruri bir gediş oldu.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov söyləyib.

Onun sözlərinə görə, ilk növbədə, bu səfər 12-13 sentyabr erməni təxribatlarına cavab olaraq həyata keçirilən əks həmlə əməliyyatlarının siyasi yekunu hesab oluna bilər. Prezident İlham Əliyevin özünün ifadə etdiyi kimi, "Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik. Bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bununla fəxr edir. Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli bayrağımız bizim Zəfərimizin rəmzidir".

Prezident İlham Əliyevin çıxışının daha bir reallığı üzə çıxardığını qeyd edən deputat deyib: "Aydın oldu ki, Azərbaycan Prezidenti sərrast taktiki-siyasi gedişləri ilə Ermənistanı və havadarlarını elə İrəvanın öz təcavüzkar siyasətinin qurbanına çevirib. Belə ki, əgər İrəvan faktiki olaraq sərhədlərin delimitasiya və demarkasiya prosesində real addımlardan yayınırsa, sərhəd tanıma prosesi reallaşmayıbsa 12-13 sentyabr hadisələrindən sonra Azərbaycana yönəlmiş istənilən ittiham hüquqi cəhətdən əsassızdır. Dövlətimizin başçısının da dediyi kimi, "bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq".

Azərbaycan rəhbərinin digər möhtəşəm, hüquqa və ədalətə əsaslanan diplomatik konfiqurasiyası isə bu məqamda işə düşür - delimitasiya hansı xəritələr əsasında həyata keçiriləcək? Prezident İlham Əliyev bütün dünyaya bəyan edərək XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələrə diqqət çəkməklə, əslində, həyata keçirilməsi on illər sürə biləcək titanik, konseptual bir fəaliyyəti yerində və məqamında, bütün maraqlı qüvvələrin gözü Laçında ikən cəmi 24 dəqiqəlik bir çıxışla reallaşdırdı. Azərbaycan Prezidentinin də dediyi kimi, "Xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir".

Laçın səfərinin digər əhəmiyyəti ondan ibarətdir ki, Prezident İlham Əliyev üçtərəfli Bəyanatın öhdəliklərinə uyğun olaraq Laçın şəhərinin, Zabux və Sus kəndlərinin boşaldılmasının məhz Azərbaycanın şərtləri və iradəsi daxilində təmin olunmasını rəsmiləşdirdi və dünyaya nümayiş etdirdi ki, həqiqətən bizi heç kim dayandıra bilməz".

Bəhruz Məhərrəmov vurğulayıb ki, 30 illik erməni işğalına yol açmış əsas amillərdən biri Laçın və Şuşanın işğalı və bu işğala xəyanətkarcasına rəvac verilməsi idi. Ermənistan və digər 3-cü dövlətlər məhz bu rayonlar işğal edildikdən sonra Xankəndi ilə sərbəst kommunikasiya quraraq separatizmi və terrorçu quldur rejimi açıq və gizli formada dəstəkləyirdi. Müzəffər Ali Baş Komandan Laçın şəhərində üçrəngli Bayrağımızı şəxsən ucaltmaqla, tarixi ədaləti bərpa etdi, habelə, AXC-Müsavat rejimini xalq qarşısında məsuliyyətdən azad etməsə də onların xəyanətinin 30 illik zərərli siyasi nəticələrini aradan qaldırmış oldu. Üstəlik, Ağdam, Kəlbəcər, Laçın kimi alınmaz qalaya da bir güllə atmadan, şəhid vermədən geri dönüşü təmin etməsi Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri kimi tarixə düşdü.

**AZƏRTAC**
**2022, 23 sentyabr**

**Səttar Möhbalıyev: Laçın rayonu yaxın gələcəkdə ölkə iqtisadiyyatına mühüm töhfələr verəcək**

Bu gün hər birimiz uzun illər işğal altında olan Laçın şəhərində böyük əzəmətlə dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımızı görəndə qəlbimiz fərəh hissi ilə dolur. Müzəffər Ali Baş Komandan İlham Əliyev sentyabrın 21-də şəhərin mərkəzində bayrağımızı ucaldarkən bir daha bildirdi ki, bu bayraq burada əbədi dalğalanacaq. Məlumdur ki, işğala qədər mühüm geostrateji mövqeyə malik Laçın Azərbaycanın inkişaf etmiş rayonlarından biri olub. Lakin rayonun işğal olunması ölkəmizin iqtisadiyyatına xeyli ziyan vurdu, dövlət və xüsusi mülkiyyətə zərər yetirildi, əhalisi etnik təmizləməyə məruz qaldı. Ermənistanın vandal əməllərinin izləri burada da dərindir. Rayonun təbii resursları talan edilirdi, gəlir mənbəyi kimi istifadə olunurdu. Onlar yaşayış məntəqələrinin coğrafi adlarını dəyişərək özününküləşdirməyə çalışırdılar. Həmçinin beynəlxalq hüququn bütün prinsiplərini tapdalayaraq Suriyadan, Livandan olan erməni əsilli qaçqınları məqsədyönlü şəkildə həmin ərazilərə köçürür, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərə əl atırdılar. Azərbaycan dəfələrlə bu hərbi cinayət barədə beynəlxalq təşkilatları məlumatlandırmışdı, xüsusilə münaqişənin həlli missiyasını öz üzərinə götürmüş Minsk qrupunu. Yenə də onlar təcavüzkar dövlətin bu kimi hərbi cinayətlərinə, digər çirkin əməllərinə laqeyd yanaşır, müxtəlif bəhanələrlə münaqişənin həlli prosesini ləngidirdilər. Bir sözlə, Minsk qrupu nümayiş etdirdiyi ədalətsiz mövqe və ikili standartlar səbəbindən öz vəzifələrini icra edə bilmədi. Bu missiyanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri şərəflə yerinə yetirdi, beynəlxalq hüququn Ermənistan tərəfindən pozulmuş prinsiplərini bərpa etdi, separatçı qüvvələrə tutarlı dərs verdi, işğalçı ordunu məhv etdi. Bu, tarixi bir missiya idi ki, Azərbaycan Ordusu bunun öhdəsindən cəmi 44 günə gələrək tarixi ədaləti bərpa etdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

“Ermənistan tərəfi hələ də reallıqları qəbul etmək istəmir, hərbi təxribatlara əl atır, mina terrorunu davam etdirir. Bu onu göstərir ki, Azərbaycanın sülh çağırışlarına adekvat cavab vermək niyyətlərində deyillər. Anlamırlar ki, qalib ölkənin bütün səyləri regionda sülhə və sabitliyə əsaslanır, ümumilikdə regionun hərtərəfli inkişafını hədəfləyir. Gərək onlar bu ilin 13 sentyabrında baş verən hadisələrdən ciddi nəticə çıxarsınlar. Bilsinlər ki, bu kimi əməlləri ilə düşdükləri bataqlıqda daha da dərinliyə enəcəklər. Prezident İlham Əliyev Laçın şəhərində bir daha bəyan etdi ki, “əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik”. Odur ki, onların yeganə xilas yolu qalib ölkənin diktə etdiyi sülh təklifidir, bununla razılaşmalıdırlar”, - deyə Milli Məclisin deputatı bildirib.

O qeyd edib ki, bu gün Laçın rayonu ərazisində sürətli və sistemli abadlıq-quruculuq işləri həyata keçirilir, avtomobil yolları, enerji və su təchizatı, daxili infrastrukturlar yaradılır, yaşayış məskənləri salınır. Görülən bütün işlər Prezident İlham Əliyevin şəxsi nəzarətindədir. Dövlətimizin başçısı rayona səfər edərək görülən işlərlə maraqlanır və hər səfərində hansısa obyektin ya açılışını edir, ya da təməlini qoyur. İnanırıq ki, yaxın gələcəkdə Laçın ölkəmizin inkişaf etmiş rayonlarından biri olacaq, əraziyə qayıdacaq sakinlər öz ata-baba yurdunda əbədi və xoşbəxt yaşayacaqlar.

**AZƏRTAC**
**2022, 23 sentyabr**

**Laçın şəhərinin boşaldılması üçün ayrılan müddətin uzadılması dövlətimizin başçısının humanistliyinin daha bir nümayişi oldu**

1990-cı illərin əvvəllərində, daha dəqiq desək 1992-ci və 1993-cü illərdə Ermənistan Kəlbəcər və Laçın rayonlarını işğal etməklə böyük strateji və eyni zamanda, mənəvi-psixoloji üstünlüklər əldə etmişdi. Ermənilər hesab edirdilər ki, artıq öz məqsədlərinə çatıblar və bu torpaqlarda əbədi yaşayacaqlar. Onların bu ümidləri, ilk növbədə, bütün dünyada olan havadarlarının dəstəyi və beynəlxalq təşkilatların proseslərə biganəliyi ilə bəslənirdi. İşğalın artıq ilkin mərhələlərində dünya ictimaiyyəti Azərbaycan ərazilərində ermənilərin törətdikləri vandalizm aktlarını, xalqımıza qarşı həyata keçirilən qırğınları və qətliamları susqunluqla qarşılayır və bununla da faktiki olaraq işğalçı rejimi yeni cinayətlərə təhrik edirdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı söyləyib.

O bildirib ki, Ağdam, Kəlbəcər və Laçın rayonlarının qan tökülmədən geri qaytarılması Azərbaycan diplomatiyasının böyük uğuru kimi qiymətləndirilməlidir. İkinci Qarabağ müharibəsi ermənilərin və onların havadarlarının bütün planlarını əsaslı şəkildə pozdu. Şanlı Azərbaycan Ordusunun təzyiqi altında dözüm gətirə bilməyən erməni hərbi birləşmələri döyüş meydanında hərbi texnikalarını və yaralı əsgərlərini qoyaraq qaçırdı. Sentyabrın 21-də Laçın şəhərində etdiyi çıxışında dövlətimizin başçısı da bildirdi ki, Laçın və Kəlbəcər rayonlarının bir hissəsi 44 günlük Vətən müharibəsi dövründə azad edilmişdi. Ancaq Laçın şəhəri Azərbaycanın nəzarətindən kənarda qalmışdı. Bunun da səbəbi o idi ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin mərkəzindən keçirdi. Lakin noyabrın 9-da aparılan danışıqlar nəticəsində dövlətimizin başçısının təkidi ilə alternativ yolun çəkilişi sənəddə təsbit edildi.

“Laçın şəhərinin boşaldılması üçün ayrılan müddətin avqustun 5-dən 25-dək uzadılması da Prezident İlham Əliyevin humanistliyinin bir göstəricisidir. Şəhəri tam nəzarətə götürmək üçün, ilk növbədə, Ermənistanla Xankəndini birləşdirən nəqliyyat dəhlizinə alternativ yol çəkilməli idi. Azərbaycan bu işin öhdəsindən 1 il 8 aya gəldi. Lakin Laçında və işğal altında olan ətraf ərazilərdə qeyri-qanuni məskunlaşdırılmış ermənilər Prezident İlham Əliyevə müraciət edərək, köç vaxtını avqustun 25-nə qədər uzatmağı xahiş etmişdilər. Hər zaman olduğu kimi, dövlətimizin başçısı bu dəfə də insanseverlik prinsiplərinə sadiqliyini nümayiş etdirdi və Laçın şəhərinin boşaldılması üçün son tarixi avqustun 25-i olaraq müəyyən etdi. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu. Bu, böyük əhəmiyyət kəsb edən tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Sentyabrın 21-də Prezident İlham Əliyev Laçın şəhərinin mərkəzində Azərbaycan Bayrağını ucaltdı. Artıq bu bayraq azad edilmiş digər ərazilərdə olduğu kimi, burada da əbədi dalğalanacaq”, - deyə A.Naxçıvanlı qeyd edib.

Deputat işğal dövründə Laçın şəhərinin də böyük dağıntılara məruz qoyulduğunu vurğulayaraq deyib ki, Azərbaycanın işğal altında olmuş bütün əraziləri misli görünməmiş talançılıq və vandalizmlə üzləşib. O cümlədən Laçın şəhəri də işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi, erməni vandalizminə məruz qalıb. Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri isə buna, sadəcə olaraq, göz yumurdular. Avqustun 26-da Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də nəzarətə götürülüb. Bu tarixi biz heç vaxt unutmamalıyıq.

“Dövlətimizin başçısının dediyi kimi, biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün dədə-baba torpaqlarımıza qayıtmışıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Azərbaycan Prezidenti isə həmişə deyirdi ki, xalqımız buna heç vaxt razı olmayacaq və məsələ sülh yolu ilə həll olunmasa, ölkəmiz bunu hərb yolu ilə həll edəcək. 2020-ci ilin sentyabr-noyabr aylarında dövlətimizin başçısının bu sözləri də öz təsdiqini tapdı. Cəmi 44 gün ərzində Ermənistan ordusu darmadağın oldu. Şanlı Ordumuz alınmaz qala sayılan Şuşanı azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Xocavənd döyüş meydanında azad olundu. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur qaldı. Əgər düşmən bundan sonra da Azərbaycana qarşı təxribat törədəcəksə, bu zaman Şanlı Ordumuz onun layiqli cavabını verəcək. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Artıq heç kim Azərbaycanla ultimatum dili ilə danışa bilməz və bunu bütün dünya bilir”, - deyən Aqiyə Naxçıvanlı fikirlərini tamamlayıb.

**AZƏRTAC**
**2022, 23 sentyabr**

**Deputat: Laçın şəhərinin şəhid vermədən azad edilməsi mühüm tarixi hadisədir**

Ölkəmizin zəngin mikroflorası və təbiəti ilə seçilən Laçın şəhəri 1992-ci ilin mayında o dövrün rəhbərlərinin yarıtmaz siyasəti və xəyanəti nəticəsində düşmən tərəfindən işğal edilmişdi. Şəhər yandırılmış, xarabazara çevrilərək tanınmaz hala gətirilmişdi. Artıq bundan sonra Laçın əbədi olaraq əsl sahiblərinin olacaq.

Bu sözləri Milli Məclisin deputatı Cavanşir Paşazadə AZƏRTAC-a açıqlamasında söyləyib.

O qeyd edib ki, Laçının bir güllə atmadan, şəhid vermədən azad edilməsi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin diplomatik uğurudur: “Vətən müharibəsi və onun nəticələri Azərbaycan Silahlı Qüvvələrinin Cənubi Qafqazın ən qüdrətli ordusu olduğunu sübuta yetirdi. Ötən illər ərzində ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, orduda aparılan islahatlar və bu sahədə qazanılan uğurlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən islahatların nəticəsidir.

Bizim 44 günlük Vətən müharibəmiz şanlı tariximizdir. Azərbaycan otuz illik həsrətə 44 günə nail olmaqla onu istəməyən, ona qarşı düşmən mövqeyində dayananlara bir mesaj verdi. Ancaq çətin relyefini, soyuq iqlimini nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir. Laçın şəhəri ilə yanaşı digər işğal olunmuş ərazilərimizdə ermənilərin qanunsuz məskunlaşmasına, dini və mədəni abidələrimizin dağıdılmasına beynəlxalq aləmin, dünya dövlətlərinin müəyyən qədər biganə qalması ermənilərin vandalizm hərəkətlərinə daha da rəvac verib. Azərbaycan dövləti işğaldan azad edilmiş digər rayon və şəhərlərdə olduğu kimi, Laçında da qısa zaman ərzində genişmiqyaslı quruculuq, abadlıq işləri aparacaq. Bütün bunlarla yanaşı, sərhəd zolaqlarının yaradılması uzun onilliklərlə Azərbaycana hakim düşmən mövqeyində olan Ermənistana hətta sülh müqaviləsi bağlanması da təklif olunmuşdu. Azərbaycanın humanist mövqeyinə əks olaraq sentyabrının 12-də və 13-də ermənilər normallaşma prosesini heçə sayaraq yenidən Azərbaycan sərhədində hərbi təxribat törətdi. Nəticədə ermənilər yenidən hərbi itkilərə yol verdi. Artıq hər kəs Azərbaycan Ordusunun gücünə bələddir. Dövlətimiz, həmçinin rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı siyasətlə bundan sonra da inamla irəliləyəcək”.

**AZƏRTAC**
**2022, 23 sentyabr**

### Laçında dalğalanan dövlət bayrağımız – mühüm tarixi hadisədir

"Bu bayraq burada əbədi dalğalanacaq!" - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Laçında söylədiyi bu fikir səfərin əsl mahiyyətini ifadə edir.

AZƏRTAC xəbər verir ki, bu fikri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri professor Hicran Hüseynova söyləyib.

Deputat bildirib ki, dövlətimizin başçısı qədim, tarixi Azərbaycan torpağında Dövlət Bayrağımızı qaldıraraq həm keçmişdən, həm indiki vəziyyətdən, həm də perspektivlərdən bəhs etdi. Otuz ilə yaxın erməni işğalı altında qalmış ərazilərimiz azad olunub, Azərbaycan suveren hüquqlarını və ədaləti bərpa edib. Erməni terroruna, vandalizminə məruz qalmış kənd və şəhərlərimizdə bərpa-quruculuq işləri həyata keçirilir.

"Artıq Böyük Qayıdışın ilk mərhələsi başlayıb, keçmiş məcburi köçkünlər öz doğma yurdlarında əbədi yaşamaq, qurub-yaratmaq üçün qayıdır. Prezident bir daha qeyd etdi ki, Azərbaycan hər zaman sülhün tərəfdarı olub, məsələnin dinc yolla və ədalətli şəkildə həll edilməsinə çalışıb. Lakin ötən dövr ərzində Ermənistan həmişə olduğu kimi, yenə də müxtəlif bəhanələr və şərtlər, təxribatlar törətməklə prosesə mane olub. Təəssüf ki, beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupu da bu məsələnin həllində qətiyyət nümayiş etdirmirdi, əksinə, qarşı tərəfin beynəlxalq hüququn bütün norma və prinsiplərini ciddi şəkildə pozmasına, tarixi Azərbaycan ərazilərinin erməniləşdirilməsinə, toponimlərin dəyişdirilməsinə, qanunsuz məskunlaşmaya göz yumurdu", - deyə H.Hüseynova qeyd edib.

"Vaxtilə ulu öndər Heydər Əliyev deyirdi ki, "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır". O, xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra nizamlı ordunun qurulmasına nail oldu", - söyləyən deputat əlavə edib ki, lakin, əlbəttə, ölkənin iqtisadiyyatını inkişaf etdirmədən, iqtisadi imkanları artırmadan güclü ordu qurmaq mümkün deyil. Ümummilli Lider bu sahədə mühüm tədbirlər həyata keçirdi, bütün sahələrdə islahatlar aparıldı. Onun başladığı işi Prezident İlham Əliyev daha da gücləndirdi və 44 günlük Vətən müharibəsi bu prosesin ən mühüm, tarixi uğuru oldu.

Prezident İlham Əliyevin dediyi kimi, dünya hərb tarixində belə bir təcrübə yoxdur ki, qalib ölkə kapitulyasiya edən dövlətə, onun törətdiyi bütün cinayətlərə, apardığı işğalçılıq siyasətinə baxmayaraq sülh təklif edir. Çünki Azərbaycan xalqı sülhsevərdir, Azərbaycan dövləti humanist dövlətdir. Biz istəyirik ki, vətəndaşlarımız tezliklə öz doğma evlərinə qayıtsınlar, yenə də Qarabağ və Şərqi Zəngəzurda sülh və əmin-amanlıq olsun. Azərbaycan bu gün Cənubi Qafqazda, eləcə də regionda yeni reallıqlar yaradır, yeni nəqliyyat və kommunikasiya layihələri ilə Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə yaxınlaşdıran nəhəng layihələr həyata keçirir, qlobal təşəbbüslər irəli sürür. Biz ərazi bütövlüyümüzü təmin etmişik, lakin sülh və təhlükəsizliyin təmin olunması bütün region dövlətləri üçün, o cümlədən dalan ölkəsinə çevrilmiş Ermənistan üçün daha yeni imkanlar yarada bilər. Müharibədən dərhal sonra Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif edib. Moskva və Brüssel formatında aparılan görüşlərdə bu məsələ davamlı olaraq müzakirə olunur. Lakin yenə də Ermənistan sülh yaratma və münasibətlərin normallaşması prosesinə maneələr yaradır, üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir. Sərhədlərin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması üzrə komissiyaların işinə formal olaraq başlansa da, reallıqda Ermənistan prosesi heç bir əməli nəticəyə gətirmir və həqiqətən nəyisə anlamaq istəyən dünya ictimaiyyəti Azərbaycana sual verməzdən əvvəl birbaşa Ermənistana üz tutmalı və sual etməlidir: niyə öz öhdəliklərini yerinə yetirmir? 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan Ermənistan tərəfi bir sıra bəndləri, xüsusilə nə silahlı birləşmələrin Qarabağdan çıxarılmasına dair 4-cü, nə də Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasına, o cümlədən Zəngəzur dəhlizinin inşasına dair 9-cu bəndi yerinə yetirmir. Lakin Prezident İlham Əliyevin təkidi ilə Bəyanatda təsbit olunan alternativ yolun çəkilməsi ilə bağlı Azərbaycan tərəfi öz üzərinə götürdüyü öhdəliyə əsasən, qısa müddət ərzində yerinə yetirdi. Artıq 1 il 8 aydan sonra yeni yol hazır oldu. Buna baxmayaraq, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Ermənistan tərəfi nəinki razılaşdırılmış yolu açmayıb, hətta Zəngəzur dəhlizinin marşrutu belə Bakıya təqdim edilməyib. Eyni zamanda, Azərbaycan ən çətin dağlıq şəraitdə işlərini davam etdirir, kommunikasiyalar qurur, böyük sərmayələr qoyur.

Prezident İlham Əliyevin "Delimitasiyadan əvvəl heç kim Azərbaycanı günahlandıra bilməz" tezisi dövlətimizi nədəsə, xüsusən də hansısa absurd "təcavüz"ə və başqa məsələlərə görə "qınayanların" hamısına layiqi cavab oldu. Bu, açıq-aşkar ermənipərəst mövqe tutan və anti-Azərbaycan mövqe nümayiş etdirən bəzi təşkilatlara, qurumlara və ölkələrə aiddir.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan sülh təklif edir, delimitasiya və demarkasiya prosesinə başlamağı təklif edib. Lakin qarşı tərəf bu təklifi müxtəlif bəhanələrlə bir ildən çox uzadaraq vaxt qazanmağa çalışır. Hazırda bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Dövlətimizin başçısı Laçına səfəri zamanı qeyd edib ki, biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır. Ermənilərin bu məsələni uzatması bir daha göstərir ki, onlar sülh istəmir, revanşist xəyallarla yaşayırlar. Hərbi-siyasi təxribatlar törətməklə, prosesə əngəl olmaq istəyirlər. Lakin bu gün Azərbaycanın hərbi və siyasi gücünü hər kəs görür. Bununla bağlı Prezident bir daha vurğulayıb: “Əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar…” . Bu fikirlər həm Ermənistan hərbi-siyasi rəhbərliyinə, Ermənistan cəmiyyətinə, həm də ona havadarlıq edən erməni diaspor və havadarlarına qətiyyətli bir mesajdır.

Prezident İlham Əliyev bildirib ki, dünya hərb tarixində belə bir təcrübə yoxdur ki, qalib dövlət kapitulyasiya edən dövlətə, onun törətdiyi bütün cinayətlərə, apardığı işğalçılıq siyasətinə baxmayaraq sülh təklif edir. Çünki Azərbaycan sülhsevər xalqdır, humanist dövlətdir. Biz istəyirik ki, vətəndaşlarımız tezliklə öz doğma evlərinə qayıtsınlar, yenə də Qarabağ və Şərqi Zəngəzurda sülh və əmin-amanlıq olsun. Azərbaycan bu gün Cənubi Qafqazda, eləcə də regionda yeni reallıqlar yaradır, yeni nəqliyyat və kommunikasiya layihələri ilə Şərqlə Qərbi, Şimalla-Cənubu bir-birinə yaxınlaşdıran nəhəng layihələr həyata keçirir, qlobal təşəbbüslər irəli sürür. Biz ərazi bütövlüyümüzü təmin etmişik, lakin sülh və təhlükəsizliyin təmin olunması bütün region dövlətləri üçün, o cümlədən dalan ölkəsinə çevrilmiş Ermənistan üçün daha yeni imkanlar yarada bilər. Müharibədən dərhal sonra Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif edib. Moskva və Brüssel formatında aparılan görüşlərdə bu məsələ davamlı olaraq müzakirə olunur. Lakin yenə də Ermənistan sülh yaratma və münasibətlərin normallaşması prosesinə maneələr yaradır, üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir.

Təəssüflər olsun ki, Ermənistan Azərbaycanın uzatdığı əli görməmiş kimi davranır və bu, onun hələ də apardığı ikiüzlü siyasətindən xəbər verir. Görünür, İrəvan nəyəsə ümid edir. Ancaq Ermənistan dərk etməlidir ki, bu gün dünyada gedən geosiyasi proseslərdə ondan müəyyən maraqlar üçün istifadə olunur. Bu isə Ermənistan dövlətinə və xalqına heç nə verməyəcək. O anlamalıdır ki, bu gün düşdüyü ağır vəziyyətdən onu yalnız imzalayacağı sülh müqaviləsi xilas edə bilər. Prezident İlham Əliyevin dediyi kimi, ermənilər əldə etdikləri dərsləri çox zəif öyrənirlər və erməni revanşizmi hələ də yaşayır və davam edir. Bu da bir həqiqətdir ki, artıq vəziyyət yarım il əvvəlkindən fərqlidir və erməni revanşizmi Azərbaycanın tam nəzarəti altındadır. Hadisələrin gedişi göstərir ki, Ermənistan silahlı təxribatlarını davam etdirərsə, sülh razılaşmasına nail olmaq üçün eyni dərəcədə səmərəli “B” variantından istifadə oluna bilər. Artıq Yerevanın illüziyalarından qurtulmasının vaxtı çatıb. Nə isə, İlham Əliyevin xəbərdarlıq etdiyi kimi, “biz heç kimin çağırışı, heç bir bəyanatı, heç bir təşəbbüsü ilə dayanmayacağıq”.

Hazırda bir reallıq var - Azərbaycan torpaqlarını 30 illik erməni işğalından azad edib. Qarabağ və Şərqi Zəngəzurda tikinti-bərpa işləri aparılır, erməni terroruna məruz qalmış şəhər və kəndlərimiz yenidən qurulur. Bütün dünya kimin dağıdıcı, kimin isə qurucu dövlət olduğunu görür. Ölkə başçısı İlham Əliyevin Laçın şəhərinin bərpası ilə bağlı verdiyi son qərarlar,“Azərenerji” ASC tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq “Laçın” Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak etməsi, Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanış olması, həmçinin “Laçın şəhəri, 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında”, “Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında” , “Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında” sərəncamların imzalanması bir daha göstərir ki, biz torpaqlarımızı müdafiə edir, quruculuq işlərini aparırıq. Azərbaycan təkcə öz dövləti, xalqı üçün deyil, həm də region üçün davamlı sülhün və təhlükəsizliyin təmin olunması naminə öz layiqli töhfəsini verir.

**AZƏRTAC**
**2022, 23 sentyabr**

**Prezident İlham Əliyevin Laçında Azərbaycan Bayrağını ucaltması Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb**

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaltması Türkiyə kütləvi informasiya vasitələri tərəfindən günün aktual mövzusu olaraq geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu və İHA xəbər agentlikləri, “TRT Haber”, “TGRT”, “TRT Avaz”, “CNN Türk” və başqa telekanallar, “Milliyet”, “Hurriyet”, “Takvim”, “Star” və digər qəzetlər başda olmaqla, ölkənin aparıcı media qurumları Azərbaycanın dövlət başçısının Laçın səfərinin təfərrüatlarını geniş şəkildə Türkiyə ictimaiyyətinə təqdim edib.

Orijinal video və fotolarla yayılan xəbərlərdə diqqətə çatdırılır: “Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə işğalçı Ermənistana xəbərdarlıq edib ki, heç bir revanş cəhdlərinin faydası yoxdur”.

Müxtəlif sərlövhələrlə yayılan informasiyalarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə və ondan sonrakı proseslərə müraciət olunub. Həmçinin Prezident İlham Əliyevin Laçın şəhərindən verdiyi mesajların siyasi mahiyyəti analiz edilib.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2022, 22 sentyabr**

**Azərbaycan Prezidentinin Laçına səfəri və söylədiyi fikirlər Gürcüstan KİV-in diqqət mərkəzindədir**

Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Laçın rayonuna növbəti səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, aktual.ge, 24news.ge, kavkasia.net, interprees.ge portalları Azərbaycan Prezidentinin bu səfəri ilə bağlı silsilə materiallar dərc edib.

Azərbaycanın dövlət başçısının çıxışından sitatlarla verilən materiallarda deyilir: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar Bizi heç kimin çağırışı, heç bir bəyanatı, heç bir təşəbbüsü dayandırmayacaq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq".

Mətbuat, həmçinin Azərbaycan tərəfinin 95 erməni hərbçisinin nəşinin qarşı tərəfə təhvil verməsi barədə materiallar yayıb.

***Xətayi Əzizov***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Tbilisi**

**AZƏRTAC**
**2022, 22 sentyabr**

**Deputat: Laçın şəhərinin şəhid vermədən azad edilməsi Prezident İlham Əliyevin siyasi-diplomatik qələbəsidir**

İki il öncə 44 günlük Vətən müharibəsi düşmənə sarsıdıcı zərbə vurdu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz misilsiz Qələbə qazandı və torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan Ordusunun rəşadəti və diplomatiyada üstünlük Ermənistanı işğal altında olan digər əraziləri məcburən qaytarmağa sövq etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib.

"Bu kontekstdə Laçın kimi strateji şəhərin bir güllə atılmadan, şəhid vermədən azad edilməsi Prezident İlham Əliyevin böyük xidməti və siyasi-diplomatik qələbəsidir. Prezident İlham Əliyevin sentyabrın 21-də Laçına səfəri zamanı bəyan etdiyi kimi bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Dövlətimizin başçısının Laçın şəhərinin mərkəzində qaldırdığı Azərbaycan Bayrağı orada əbədi dalğalanacaqdır. Bir sözlə, bizim 44 günlük Vətən müharibəmiz şanlı tariximizdir. Ancaq xüsusi strateji əhəmiyyətini, çətin relyefini, ağır, soyuq iqlimini nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir", - deyə V.İskəndərov vurğulayıb.

Ermənilərin 30 illik işğal dövründə Laçında da misilsiz vəhşiliklər törətdiyini diqqətə çəkən deputat deyib: "1990-cı illərdə bizim məcburi köçkünlərimiz doğma torpaqlarından zorla çıxarılarkən onlar heç bir obyektə, evlərinə zərrə qədər də ziyan vurmamışdılar. Hətta vacib olan əşyalarından başqa hər şeyi orada qoymuşdular. Çünki bildirdilər ki, onlar o torpaqlara nə vaxtsa qayıdacaqlar. Bu yerlər bizim dədə-baba yurdumuzdur. Amma ermənilər isə əksinə, düşünürdülər ki, burada onlar müvəqqətidir. Ona görə bu rayonların heç birində, o cümlədən Laçında normal bir tikinti-quraşdırma işləri aparmamışdılar. Dövlətimizin başçısının bəyan etdiyi kimi Laçın şəhəri işğal altında olmuş bütün başqa yaşayış məntəqələrimiz kimi erməni vandalizminə məruz qalmışdır. Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, həmçinin Füzuli şəhəri, Cəbrayıl şəhəri və bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib".

Lakin artıq Laçının azad olduğunu qürur hissi ilə qeyd edən V.İskəndərov deyib: "Azərbaycan dövləti qısa zaman ərzində digər işğaldan azad edilmiş rayon və şəhərlərdə olduğu kimi, Laçında da genişmiqyaslı quruculuq, abadlıq işləri aparacaq. Laçın şəhəri, Zabux və Sus kəndləri, ilk növbədə, yenidən qurulacaq. Dövlətimizin başçısının əminliklə bəyan etdiyi kimi biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz doğma diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik".

**AZƏRTAC**
**2022, 22 sentyabr**

**Yaponiya portalı Azərbaycan Prezidentinin Laçın şəhərinə səfəri və oradakı çıxışı barədə məlumatlar yayıb**

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Laçın şəhərinə səfəri və orada çıxışı barədə məlumatlar yayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dilində yayılan məlumatlarda Prezident İlham Əliyevin Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağını qaldırması və son hadisələrlə əlaqədar çıxışından əsas məqamlar yer alıb.

Yazılarda Azərbaycan Prezidentinin sözləri sitat gətirilərək bildirilib: "Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb".

Dövlətimizin başçısına istinadla qeyd edilib ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti həmin ərazilərdən çıxarmalı, Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Lakin ötən dövr ərzində bu addımların heç biri atılmayıb, əksinə, işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniləri və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti reallaşdırmağa çalışıblar.

Yazılarda Azərbaycan Prezidentinin Ordumuz tərəfindən Laçın şəhərinin qaytarılmasının tarixi hadisə adlandırıldığı xüsusi qeyd edilib. Bu şəhərin işğal altında olmuş digər yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qaldığını vurğulayan dövlətimizin başçısına istinadla bildirilib: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir".

Məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan xalqının bununla heç vaxt razılaşmadığını və torpaqlarımızı hər zaman istənilən yolla azad etməyə qadir olduğunu dediyi də əksini tapıb: "Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır".

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Tokio**

**AZƏRTAC**
**2022, 22 sentyabr**

**Erməni təxribatı zamanı Laçın istiqamətində basdırılan növbəti minalar zərərsizləşdirilib**

Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan ərazisində basdırdıqları minaların aşkarlanaraq zərərsizləşdirilməsi istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 20-də mühəndis-istehkamçılarımız tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində Laçın rayonu ərazisində Böyük İşıqlı dağının dərə boşluğunda 2021-ci ildə Ermənistanda istehsal edilmiş növbəti 90 ədəd Э-001 M tipli piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis istehkam-bölmələri qarşı tərəfin minaladığı ərazilərimizin təmizlənməsi üzrə fəaliyyətlərini yüksək peşəkarlıqla davam etdirir.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident İlham Əliyev: Azərbaycan Bayrağı Laçın şəhərində əbədi dalğalanacaq**

Avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması mərasimindəki çıxışında bildirib.

Laçın şəhərinin işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qaldığını vurğulayan dövlətimizin başçısı deyib: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir".

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident: Minsk qrupunun həmsədrləri Laçında qanunsuz məskunlaşma aparıldığını görür, ancaq buna göz yumurdular**

Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb, bəzi yerlərdə qanunsuz məskunlaşma aparılıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması mərasimindəki çıxışında deyib.

"Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident İlham Əliyev: Laçın şəhəri, Zabux və Sus kəndləri, ilk növbədə, yenidən qurulacaq**

İndi isə Laçın şəhərini bərpa etmək vaxtı çatıb və artıq buna hazırlıq görülür.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması mərasimindəki çıxışında bildirib.

Hazırlıq işlərindən danışan dövlətimizin başçısı deyib: "Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda, təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq".

Buna tez bir zamanda nail olunacağına əminliyini bildirən Azərbaycan Prezidenti vurğulayıb ki, Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz genişmiqyaslı quruculuq və bərpa işləri öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa etdiyimizi və edəcəyimizi göstərir.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident: Murov dağından Laçın şəhərinədək ümumi uzunluğu 17,5 kilometr olan 12 tunel tikilir**

Murov dağından Laçın şəhərinə qədər 12 tunel tikilir. Bu tunellərin ümumi uzunluğu 17,5 kilometrdir. Onların içində ən böyüyü – Murovdağ tuneli 12 kilometr uzunluğundadır. Yəni, mən indi bir neçə saat yol gəlmişəm. Amma gün gələcək - iki ilə, maksimum iki il yarıma çox rahatlıqla Göygöldən Murov dağının altı ilə insanlar gəlib burada yaşayacaqlar.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması mərasimindəki çıxışında bildirib.

Eyni zamanda, Qubadlı-Laçın avtomobil yolunun inşası ilə bağlı göstəriş verildiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: “Biz Horadiz-Zəngilan-Qubadlı avtomobil yolunun inşası ilə məşğuluq. Göstəriş vermişəm, Qubadlı-Laçın avtomobil yolu da dördzolaqlı inşa ediləcək. Yəni, bu yol əsasdır”.

Prezident qeyd edib ki, elektrik enerjisi ilə bağlı Laçına dərhal mütəxəssislər ezam olundu, elektrik təsərrüfatına baxış keçirildi, lazımi tədbirlər görüldü, generatorlar gətirildi. Güləbird Su Elektrik Stansiyasından buraya xətlər çəkiləcək və beləliklə, elektrik enerjisi ilə burada heç bir problem olmayacaq.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident İlham Əliyev Laçın rayonuna səfər edib**
**Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanışlıq**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın rayonuna səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yeni inşa olunan tunel barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur. Hazırda bu yolun və yol üzərində tunellərin inşası davam etdirilir.

Məlumat verildi ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. Yolboyu tikintisi nəzərdə tutulmuş 12 avtomobil tunelindən 5-nin (T1, T2, T5, T6 və T7) tikinti işləri uğurla davam etdirilir.

Bildirildi ki, dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bundan başqa, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınıb. Tunellər bir istiqamət üzrə bir hərəkət zolaqlı və 11,60 metr enində olacaq. Tunellərin ümumi uzunluğu 7596,5 metr təşkil edəcək.

Qeyd edildi ki, Kəlbəcər-Laçın yolunda inşa olunan birinci tunelin (T1) uzunluğu 187 metrdir. Hazırda bu tunelin giriş portalının tikintisi həyata keçirilir. Uzunluğu 354,4 metr olan T2 tunelində giriş istiqaməti üzrə 115,8 metr qazma işləri görülüb. Uzunluğu 448,7 metr olan T5 tunelində çıxış istiqaməti üzrə 331 metr qazma işləri aparılıb. T6 tunelinin uzunluğu 612,4 metrdir. Tuneldə hər bir istiqamət üzrə ümumilikdə 537,4 metr qazma işləri yerinə yetirilib. T7 tuneli 2420,1 metr uzunluğunda olmaqla inşa edilir. Tunelin hər bir istiqaməti üzrə ümumilikdə 532 metr qazma işləri görülüb. Bu tunellərdə giriş və çıxış olmaqla hər iki istiqamətdə qazma, partlatma və qırıcı üsullarla qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam etdirilir.

Bildirildi ki, layihələndirilən digər tunellərdə isə işlərə mərhələlərlə başlanılması nəzərdə tutulur. T3 tuneli 900,2 metr, T4 tuneli 853,7 metr, T8 tuneli 230 metr, T9 tuneli 700 metr, T10 tuneli 200 metr, T11 tuneli 320 metr və T12 tuneli 370 metr uzunluğunda olacaq.

Diqqətə çatdırıldı ki, Kəlbəcər-Laçın avtomobil yolu boyunca torpaq yatağı üçün təməlin hazırlanması, yamacların formaya salınması, 12 düzbucaqlı və 4 dairəvi borunun inşası işləri davam etdirilir.

Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci, ikinci və üçüncü texniki dərəcələrə uyğun olaraq inşa edilir. Yolun ilk 38 kilometrlik hissəsində suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 3348 metr olan 60 dairəvi boru, həmçinin zəruri yerlərdə ümumi uzunluğu 1038 metr olan 9 avtomobil körpüsünün inşası nəzərdə tutulur.

Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb.

AZƏRTAC xəbər verir ki, sonra dövlətimizin başçısı çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Qırx dörd günlük Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi Zəfəri təsdiqləndi. Bu kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi.

Laçın və Kəlbəcər rayonlarının bir hissəsi 44 günlük Vətən müharibəsi dövründə azad edilmişdi. Laçının cənub, Kəlbəcərin şimal hissəsini müzəffər Azərbaycan Ordusu işğalçılardan azad etmişdi. Ancaq Laçın şəhəri nəzarətimizdən kənarda qalmışdı. Bunun da səbəbi o idi ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçir və buna görə biz Laçın şəhərini nəzarətə götürə bilməmişdik. Ancaq 9 noyabr tarixində aparılan danışıqlar nəticəsində mənim təkidimlə alternativ yolun çəkilişi sənəddə təsbit edildi və 3 il ərzində yeni yolun çəkilişi ilə bağlı razılaşmalar aparılmalı idi. Biz isə razılaşmaları daha tez bir zamanda başa çatdırdıq, Rusiya tərəfi ilə yeni yolun marşrutu təsdiqlənmişdi və təxirəsalınmaz tədbirlər görülərək yeni yolun çəkilişinə başladıq. Bu müddət cəmi bir il 8 ay çəkdi. Yəni, bir il 8 aydan sonra artıq alternativ yol hazır idi. Biz rəsmi qaydada bildiriş göndərmişdik ki, avqustun 2-də yol hazırdır, avqustun 5-də Azərbaycan Laçın şəhərinə və o cümlədən köhnə yola daxil olur və Laçın şəhərinə qayıdır. Ondan sonra bizə Qarabağda yaşayan ermənilər müraciət etmişdilər, xahiş etmişdilər ki, onlara avqustun 25-nə qədər əlavə vaxt verilsin. Baxmayaraq ki, burada qanunsuz məskunlaşma olub, biz yenə də humanistlik göstərərək onlara bu imkanı verdik. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq.

Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır.

Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır. Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir.

Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Ancaq yenə də bəzi yerlərdə qanunsuz məskunlaşma aparılmışdır. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Laçın rayonunun və Laçın şəhərinin işğaldan azad edilməsi, bir daha demək istəyirəm ki, tarixi hadisədir. Bizim bütün şanlı Vətən müharibəmiz şanlı tariximizdir. Ancaq xüsusi strateji əhəmiyyətini, çətin relyefi, ağır, soyuq iqlimi nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir. Laçın və Kəlbəcər rayonları 1990-cı illərin əvvəllərində işğal edilərkən faktiki olaraq Ermənistanla Qarabağ arasında coğrafi bağlantı yaradılmışdı. Laçın rayonu 1992-ci il mayın 18-də, Kəlbəcər rayonu 1993-cü il aprelin əvvəlində işğal altına düşmüşdü və beləliklə, ermənilər öz arzularına çatmışdılar. Onlar hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar. Hesab edirdilər ki, buna nail olacaqlar. Görürdülər ki, onlara himayədarlıq edən bir neçə ölkə, onların cinayətlərinə göz yuman, bu

məsələ ilə bilavasitə məşğul olan təşkilat buna biganə qaldı. Sanki onlara bəraət qazandırırdılar və daha da azğınlaşırdılar. İşğalın ilkin mərhələsində bizim bütün yaşayış məntəqələrimizi dağıtmışdılar. Ancaq sonra hiss etdilər ki, artıq bunların cinayəti cəzasız qalır, burada qanunsuz inşaat işlərinə başladılar, o cümlədən Laçın şəhərində, o cümlədən Zabux və Sus kəndlərində.

Onu da bildirməliyəm ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilmişdir. Yəni, bütün bu tarixi biz heç vaxt unutmamalıyıq. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır.

İkinci Qarabağ müharibəsi olmaya da bilərdi, əgər Ermənistan bizim sözümüzə baxsaydı. Əgər öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya bilərdi. 2016-cı ilin Aprel döyüşləri bizim çox böyük qələbəmiz idi, mənəvi cəhətdən və strateji nöqteyi-nəzərdən. O döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər bizə əlavə imkanlar yaratdı, o cümlədən İkinci Qarabağ müharibəsində uğurlu yürüşümüzə də zəmin yaratdı.

Aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi. Ancaq ondan sonra sözünü tutmadı. Aprel döyüşləri onlar üçün dərs olmadı. Ondan iki il sonra Naxçıvanda "Günnüt" əməliyyatı keçirildi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu da onlara dərs olmadı. Nəhayət İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq. Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən.

Biz müharibədən dərhal sonra onlara sülh təklif etdik. Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır.

Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar.

Üstəlik, son aylar ərzində dəfələrlə bizə qarşı hərbi təxribatlar törədilirdi. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənmişdir və bu minalar 2021-ci ildə basdırılmışdır, yəni, müharibədən sonra. Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir. Müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq.

Nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik. Biz otuz il bu sərhədlərdə olmamışıq.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər.

Yəni, bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz.

Sentyabrın 13-də biz yenə də şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah qazilərimizə şəfa versin. Allah şəhidlərimizin yaxınlarına səbir versin. Amma onlar bilməlidirlər ki, şəhidlər Vətən uğrunda şəhadətə yüksəliblər. Biz müharibə istəmirik, istəmirdik. Məhz buna görə 30 ilə yaxın müddət ərzində danışıqlar aparırdıq. Məhz ona görə İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik.

Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik. Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik. Bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bununla fəxr edir. Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli Bayrağımız bizim Zəfərimizin rəmzidir.

İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək. Artıq buna hazırlıq işləri görülür. Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda, təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik.

Bu gün Murov dağından buraya gələrkən, bu gözəl dağlara baxarkən bir daha görürəm ki, bizim Vətənimiz nə qədər gözəldir. Murov dağından, bax, Laçın şəhərinə qədər 12 tunel tikilir, təsəvvür edin, təkcə bu istiqamətdə. Mən hələ Füzuli-Şuşa istiqamətini, digər istiqamətləri, Horadiz-Ağbənd istiqamətini demirəm. Ancaq Murov dağından Laçın şəhərinə qədər 12 tunel tikilir. Bu tunellərin ümumi uzunluğu 17,5 kilometrdir. Onların içində ən böyüyü – Murovdağ tuneli 12 kilometr uzunluğundadır. Yəni, mən indi bir neçə saat yol gəlmişəm. Amma gün gələcək, - o gün uzaqda deyil, iki ilə, maksimum iki il yarıma, - çox rahatlıqla Göygöldən Murov dağının altı ilə insanlar gəlib burada quracaqlar, yaşayacaqlar. Eyni zamanda, Qubadlı-Laçın avtomobil yolunun inşası ilə bağlı göstəriş verilibdir. Biz Horadiz-Zəngilan-Qubadlı avtomobil yolunun inşası ilə məşğuluq. Göstəriş vermişəm, Qubadlı-Laçın avtomobil yolu da dördzolaqlı inşa ediləcək. Yəni, bu yol əsasdır.

Elektrik enerjisi ilə bağlı dərhal buraya mütəxəssislər ezam edilmişdir. Laçının elektrik təsərrüfatına baxış keçirildi, lazımi tədbirlər görüldü, generatorlar gətirildi. Güləbird Su Elektrik Stansiyasından, - hansı ki, biz qısa müddət ərzində inşa etmişik, - buraya xətlər çəkiləcək və beləliklə, elektrik enerjisi ilə burada heç bir problem olmayacaq.

Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş Baş Planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik.

İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini aparatrkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir.

Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!

**x x x**

Daha sonra dövlətimizin başçısı Laçın şəhərinin mərkəzi küçəsində ermənilərin törətdikləri dağıntılara baxdı, şəhərin ərazisini seyr etdi.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**“Laçın” Qovşaq Yarımstansiyasının təməli qoyulub**
**Prezident İlham Əliyev tədbirdə iştirak edib**

Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq “Laçın” Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı “Laçın” Qovşaq Yarımstansiyasının təməlini qoydu.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə “Laçın” Qovşaq Yarımstansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində inşa olunacaq rəqəmsal yarımstansiya Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış layihə üzrə tikiləcək. Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Belə ki, Füzulidəki “Şükürbəyli” yarımstansiyasından çıxaraq “Cəbrayıl”, “Zəngilan”, “Qubadlı” yarımstansiyalarına, oradan isə “Güləbird” Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, “Daşkəsən” yarımstansiyasından “Kəlbəcər” və “Qorçu” yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin “Şükürbəyli” yarımstansiyasından “Füzuli” və “Şuşa” yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt “Laçın” şəhər yarımstansiyası ilə əlaqələndiriləcək. Beləliklə, 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaq. Bununla da, işğaldan azad olunmuş ərazilərdəki yüksəkgərginlikli xətlərdən birində qəza baş verərsə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə oraya gərginlik veriləcək. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaq.

Diqqətə çatdırıldı ki, strateji əhəmiyyətə malik bu yarımstansiyada müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri, sabit və dəyişən cərəyan qurğuları, 35 kV-luq və 10 kV-luq qapalı paylayıcı qurğular ilə təchiz olunmuş İdarəetmə Mərkəzi, ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu yaradılacaq, həmçinin işçi heyət üçün xüsusi yataqxana korpusu tikiləcək.

Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulacaq və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunacaq.

“Laçın” Qovşaq Yarımstansiyasında yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə nasosxana binası, yanğın su hovuzu, qəza yağ tutumu, yanğından mühafizə və yanğın xəbərverici sistemləri də quraşdırılacaq.

**AZƏRTAC**
**2022, 21 sentyabr**

**Laçın rayonu ərazisində erməni təxribatı zamanı basdırılan növbəti minalar zərərsizləşdirilib**

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı zamanı diversiya qruplarının minaladıqları ərazilərin və təminat yollarının mühəndis-istehkam bölmələrimiz tərəfindən təmizlənməsi prosesi davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Laçın rayonu ərazisində aparılan minatəmizləmə fəaliyyəti nəticəsində sentyabrın 19-da Böyük İşıqlı dağının şimal-şərq hissəsindəki dərə boşluğunda 2021-ci ildə Ermənistanda istehsal edilmiş növbəti 100 ədəd Э-001 M tipli piyada əleyhinə mina aşkar edilib.

Azərbaycan Ordusunun mühəndis istehkam-bölmələri tərəfindən aşkar olunan minalar təhlükəsizlik qaydalarına riayət olunmaqla ərazidən çıxarılıb.

Ərazidə mühəndis təminatı üzrə görülən işlər davam etdirilir.

**AZƏRTAC**
**2022, 20 sentyabr**

**Kəlbəcər və Laçın istiqamətində bölmələrimiz artilleriya atəşinə məruz qalıb**

Ermənistan silahlı qüvvələri atəşkəs barədə əldə olunmuş razılaşmanı yenə də pozaraq sentyabrın 13-dən 14-nə keçən gecə və bu gün səhər saatlarında Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən bölmələrimizi müxtəlif çaplı minaatan və artilleriya qurğularından atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülür.

Hazırda mövqelərimiz fasilələrlə atəşə tutulur. Bölmələrimiz tərəfindən zəruri cavab tədbirləri görülür.

**AZƏRTAC**
**2022, 14 sentyabr**

**Laçında mövqelərimiz artilleriya qurğuları və minaatanlardan atəşə tutulur**

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən mövqelərini artilleriya qurğularından, 82 və 120 millimetrlik minaatanlardan atəşə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

**AZƏRTAC**
**2022, 14 sentyabr**

**Müdafiə Nazirliyi: Kəlbəcər və Laçın istiqamətlərində mövqelərimiz yenidən atəşə tutulub**

Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik, Yellicə, Yuxarı Ayrım və Laçın rayonunun Sadınlar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqeləri sentyabrın 10-u gündüz saatlarından 11-i səhər saatlarınadək Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca, Aşağı Şorca, Zərkənd və Gorus rayonunun Xəzinəvar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimizin adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**AZƏRTAC**
**2022, 11 sentyabr**

**Erməni əsilli “ombudsman”dan gülünc açıqlama: Laçında tapılan minalar Birinci Dünya müharibəsinə aid ola bilər**

Avropa Parlamentində ermənipərəst mövqeyi ilə tanınan deputat Peter van Dalanın təşkilatçılığı və Belçikada fəaliyyət göstərən “Avropa-Ermənistan Ədalət və Demokratiya Fondu” adlı lobbi təşkilatının təşəbbüsü ilə “Dağlıq Qarabağdakı ermənilərin hüquqları” mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə özünü “Dağlıq Qarabağın Ombudsmanı” kimi tanıdan Geqam Stepanyan və erməni müharibə əsirlərinin Avropa İnsan Hüquqları Məhkəməsindəki qəyyumu Siranuş Sahakyan ağlasığmaz iddialarla çıxış ediblər. Onlar Azərbaycanı dinc erməni əhaliyə hücum etməkdə günahlandırıb və bu yaxınlarda Laçında qanunsuz məskunlaşan erməni əsilli şəxslərin qovulmasını soyqırımına bərabər tutublar.

Erməni yalanlarının və şüursuzluğunun təbliğinə hesablanmış tədbir Azərbaycan tərəfindən gizli saxlanılmağa çalışılsa da, Azərbaycan həqiqətlərini Avropada təbliğ edən Xəzər Avropa İnteqrasiya və Əməkdaşlıq Təşəbbüsü (CİEİP) təşkilatının fəalları tədbirə qatılaraq erməni yalanlarını ifşa etməyə nail olublar.

Belə ki, təşkilatın fəalı Səbinə Hüseynova özünü “insan hüquqları müdafiəçisi” kimi tanıdan şəxsdən tədbirdə Qarabağın azərbaycanlı əhalisinin hüquqları barədə danışılmamasının səbəbini soruşsa da, qarşı tərəf sualdan boyun qaçırıb və konkret cavab verə bilməyib. CİEİP üzvü, həmçinin işğaldan sonrakı dövrdə Azərbaycan dövlətinin azad edilmiş ərazilərdə gördüyü quruculuq işlərini və gələcək planlarını auditoriyanın diqqətinə çatdıraraq etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının öz vətəndaşlarına bərabər səviyyədə xidmət göstərdiyini vurğulayıb.

Daha sonra təşkilatın sədri Orxan Bəşirli Laçın rayonu ərazisinə qanunsuz köçürülmüş ermənilərin rayonu tərk edərkən meşələri və evləri yandırdığını, hətta ərazidən minaların tapıldığını bildirib, həmin proseslərin sülh quruculuğuna zərər vurduğunu qeyd edərək bu barədə erməni əsilli spikerlərin mövqeyini soruşub. Erməni yalanlarının havadarı Peter van Dalan bu məqamda suallara cavab verilməsini gözləmədən qəsdən tədbiri bitirib.

Qondarma “ombudsman” tədbirin sonunda Orxan Bəşirliyə yaxınlaşaraq Laçındakı minaların ermənilər tərəfindən yerləşdirilməsi barədə sübutların olmadığını bəyan edib, həmin minaların, bəlkə də Birinci Dünya müharibəsi dövründə basdırıldığını deyib.

Laçında cəmi 28 illik tarixi olan xalqın bu dövr ərzində minaların mövcudluğundan xəbərsiz yaşaması cəfəngiyyatdır və çox gülünc səslənir. Beləliklə, CİEİP üzvləri erməni lobbisinin yalanlarını və böhtanlarını ifşa etməklə yanaşı, Azərbaycanın haqq mövqeyini müdafiə edib.

***Vüqar Seyidov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Brüssel***

**AZƏRTAC**
**2022, 9 sentyabr**

**Kəlbəcər və Laçın istiqamətlərində mövqelərimiz yenidən atəşə tutulub**

Sentyabrın 6-sı saat 19:50-dən 7-si saat 01:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca və Qarakilsə rayonunun Noravan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zəylik və Laçın rayonunun Əhmədli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2022, 7 sentyabr**

**Laçında mülki şirkətə məxsus ekskavator atəşə tutulub**

Sentyabrın 7-si saat 08:10-dan 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, eyni zamanda, qeyd olunan istiqamətdə bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalıb.

Şirkətin texnikasına zərər dəysə də, xəsarət alan olmayıb.

Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarının qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Bildiririk ki, dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**AZƏRTAC**
**2022, 7 sentyabr**

**İsrail mətbuatı Laçın şəhərinin azad olunmasının əhəmiyyətindən yazıb**

İsrailin geniş oxucu kütləsinə malik ən nüfuzlu qəzetlərindən sayılan “Israelhayom”da Laçın şəhərinin Ermənistanın işğalından azad edilməsinin İsrail dövləti üçün əhəmiyyəti barədə məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tanınmış israilli politoloq və jurnalist Reyçel Avrahamın müəllifi olduğu və müxtəlif beynəlxalq ekspertlərin fikirlərinin də yer aldığı məqalədə bildirilir ki, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən Laçın şəhərini tərk edən ermənilərin bu ərazidə törətdiyi ekosid ətraf mühit və ümumilikdə Qafqaz bölgəsində sülh üçün ciddi fəsadlar vəd edir. Məqalədə təəssüf hissi ilə qeyd olunub ki, İkinci Qarabağ müharibəsindən sonra analoji qaydada hərəkət edən ermənilərdən bu destruktivlik gözlənilən idi. Belə ki, təxliyə üçün ayrılan vaxtdan əşyaları yandırmaq üçün istifadə edən ermənilər hətta arılara da acımayıblar. Müəllif ermənilər tərəfindən eyni hərəkətlərin bolşevik inqilabından sonra Şərqi Anadoluda da edildiyinə diqqət çəkərək, tərk etməyə məcbur olduğunu məhv etməyin erməni mədəniyyətində dərin kök saldığını vurğulayıb.

Qeyd olunub ki, İsrail bir çox məsələlərdə, o cümlədən Qarabağın yenidən qurulması və kənd təsərrüfatının dirçəlişində Azərbaycanın müttəfiqi və tərəfdaşıdır. Laçın rayonunda ekologiyanın və kənd təsərrüfatı torpaqlarının geniş şəkildə məhv edilməsi yenidənqurma prosesinə və beləliklə, İsrailin Azərbaycanla kənd təsərrüfatı əlaqələrindən faydalanmaq imkanlarına mənfi təsir göstərə bilər. Belə ki, iki ölkə arasında əldə olunmuş razılaşmaya əsasən, İsrail Qarabağda kənd təsərrüfatının yenidən qurulmasına kömək edəcək və bunun müqabilində Azərbaycan buğda tədarükünü təhlükə altına alan Ukrayna müharibəsindən sonra İsrailin ərzaq təhlükəsizliyinin təmin edilməsində yardımçı olacaq. Ermənistanın Laçın rayonunda törətdiyi ekosid isə bu razılaşmanın həyata keçirilməsinə ciddi maneədir. Eyni zamanda, müəllif hesab edir ki, sözügedən ərazidə ətraf mühitin məhv edilməsi İsrailin Azərbaycanla kənd təsərrüfatı əlaqələrinə əngəl törətsə də, son nəticədə Laçının Azərbaycana təhvil verilməsi İsrailin regiondakı geostrateji mövqeyini mütləq gücləndirəcək, çünki güclü Azərbaycan İsrail üçün böyük əhəmiyyət kəsb edir.

**AZƏRTAC**
**2022, 6 sentyabr**

**İndoneziya saytları Laçın şəhərinin ölkəmizin nəzarətinə keçməsi barədə azərbaycanlı professorun müsahibəsini yayıblar**

Laçın şəhərinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı ölkəmizin İndoneziyadakı səfirliyini təşəbbüsü ilə Azərbaycan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri professor Tahirə Allahyarovanın AZƏRTAC-a verdiyi müsahibə bu ölkənin saytlarında yayımlanıb.

"Zəfərimizin Laçın dərsləri: Qələbəmizin dönüş nöqtəsi və Ermənistan dövlətinin terrorçu-vandalizm siyasəti üçün əcəl zəngləri" başlıqlı müsahibə "gpriority.co.id", "disway.id", "citayambersatu.com", "mancode.id", "heaptalk.com", "sinarharapan.id" və "warnaplus.com" saytlarında AZƏRTAC-a istinadla yer alıb.

Məqalələrdə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin strateji diplomatik zəkası, qətiyyəti, iradəsi və hərbi-siyasi rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazandığı, Ermənistanın isə kapitulyasiya aktını imzaladığı əksini tapıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir güllə atılmadan belə Azərbaycana təhvil verildiyi qeyd olunub.

Yazılarda Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında Laçın şəhərinin, Zabux və Sus kəndlərinin boşaldılaraq geri qaytarılmasının da dövlətimizin başçısının şəxsi iradəsi ilə təsbit edildiyi bildirilib. Bununla yanaşı, Qarabağda Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazidə ermənilərin Azərbaycandan 2022-ci ilin avqust ayının sonuna qədər vaxt verilməsini xahiş etdiyi qeyd olunub. Ədalət və haqq müharibəsinin bütün qanunlarına əməl edən dövlətimizin ermənilər üçün bu şansı da yaratdığı, Ermənistanın Laçın şəhəri, Zabux və Sus kəndlərinin tamamilə boşaldılması öhdəliyinin avqust ayının sonuna kimi yekunlaşdığı vurğulanıb.

Məqalələrdə, həmçinin ermənilərin tərk etdikləri Zabux və Sus kəndlərində apara bilmədiklərini yandırdığı, məhv etdiyi qeyd olunub. Yerli və beynəlxalq mediada evlərə od vurulması, meşələrin alova qərq edilməsi, torpaqlara minaların basdırılması, mədəni abidələrə qarşı vandalizm aktlarının törədilməsi, təbiətə qarşı cinayətlərin yenidən dəyişməz xəbər başlıqlarına çevrildiyi bildirilib. Ermənistanın insanlıq əleyhinə cinayətlər törətməkdə, beynəlxalq konvensiyaları kobud şəkildə pozmaqda, regional və qlobal təhlükəsizliyə ciddi təhlükə törədən dövlət olmasını nümayiş etdirməkdə davam etdiyi diqqətə çatdırılıb. Bütün bunların fonunda erməni əhalinin etnik təmizləməyə məruz qalması ilə bağlı Ermənistan dövlətinin əsassız hay-küyü və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək kampaniyasına başladığı vurğulanıb.

Ermənistanın son 30 ildə Qarabağda həyata keçirdiyi terrorçuluğun, vandalizmin çoxşaxəli olmaqla, siyasi, hüquqi, iqtisadi, ekoloji, mülkiyyət əleyhinə, insan hüquqları, mədəni soyqırımı, şəhərlərin məhv edilməsi və təbiətə qarşı törədilən cinayətlərin tam bir kompleksini formalaşdırdığı qeyd edilib. Cənnətməkan Qarabağda "yandırılmış torpaq" siyasətini, təbiətə qarşı ən ağır cinayətləri törətdiyi, təbii sərvətlərimizi qanunsuz istismar etdiyi, coğrafi landşaftı və torpaq kadastrını viran qoyduğu əksini tapıb. Həmçinin Qarabağda bütöv şəhərləri yer üzündən silməklə beynəlxalq konvensiyaları kobud şəkildə pozduğu, bundan əlavə, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma kimi hərbi və insanlıq əleyhinə cinayətlər törətdiyi yazılıb.

Məqalələrdə Tahirə Allahyarovanın sözləri sitat gətirilib: "Kapitulyasiya aktının reallaşdırılması fonunda Azərbaycan dövləti dünyada ilk dəfə baş verən XXI əsrin ən geniş miqyaslı qlobal humanitar layihəsini - 30 ildən sonra azad Qarabağa qaçqın və məcburi köçkünlərin qayıdışını gerçəkləşdirir. Bu gün Laçın və Zabuxda terror mahiyyətli dövlət siyasətini davam etdirən Ermənistana törətdiyi bu cinayətlərin ağır yükü heç də asan başa gəlməyəcək. İşğalçılıq siyasətinin davam etdiyi otuz ilin hesabı bu ölkədən istəniləcək".

Zəfər tarixinin yazılması ilə dövlətimizin nəinki son iki ildə, həmçinin paralel olaraq, son 30 ildə törədilən bütün cinayətlər kompleksini heç bir istisna olmadan beynəlxalq hüquqi instansiyalara daşınmasını təmin edəcəyi fikrinə yer verilib. Azərbaycana vurulmuş ziyanın hesablandığı, Azərbaycanın Baş Prokurorluğunun müvafiq cinayət işlərini qaldırdığı vurğulanıb. Növbəti mərhələnin beynəlxalq məhkəmə və tribunallarda Ermənistanın terrorçu və vandalizm dövlət siyasəti nəticəsində Azərbaycana vurulan ziyanla bağlı təzminatın tələb edilməsi mərhələsi olduğu diqqətə çatdırılıb.

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri, Cakarta***

**AZƏRTAC**
**2022, 5 sentyabr**

**Kəlbəcər və Laçın istiqamətində mövqelərimiz atəşə tutulub**

Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabr ayının 3-ü günorta saatlarından 4-ü səhər saatlarınadək Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər, Gorus və Qarakilsə rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, şəxsi heyət və texnikamızda itki yoxdur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2022, 4 sentyabr**

**Məşhur fotojurnalist Reza Deqati instaqram hesabında ermənilərin Laçında törətdikləri vəhşilikləri əks etdirən video paylaşıb**

Xəbər verdiyimiz kimi, məşhur fotojurnalist Reza Deqati Azərbaycanın nəzarətinə keçən Laçın şəhərində olub.

AZƏRTAC xəbər verir ki, Reza Deqati Laçında apardığı çəkilişlər barədə özünün instaqrram hesabında video paylaşıb.

O, burada ermənilərin azərbaycanlıların qəbirlərini təhqir etməsini, onların şəhərdə yandırdıqları evləri, meşələri və qəbiristanlıqları lentə alıb.

R.Deqati bildirib ki, Azərbaycan torpaqlarının ermənilər tərəfindən 30 illik işğalı zamanı 1 milyona yaxın azərbaycanlı öz evlərini tərk etmək məcburiyyətində qalıb, həmçinin ermənilər azərbaycanlıların qəbiristanlıqlarını yandırıb, evlərini talan ediblər.

“Bu gün 2022-ci il sentyabr ayının 3-dür və biz 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın müddəalarına uyğun olaraq, ermənilərin tərk etdiyi Laçın şəhərindəyik. Biz burada olan dağıntıları və vəhşilikləri indi öz gözümüzlə görürük. Buradakı azərbaycanlıların evləri və qəbiristanlıqları dağıdılıb və yandırılıb. Buradakı məzar daşları qazılaraq çıxarılıb və oğurlanıb. Qəbirlər təhqir edilib, məzarların içərisi qazılaraq insanların sümükləri çıxarılıb. Laçında qəbiristanlıqda gəzmək özü də təhlükəlidir, çünki ermənilər tərəfindən burada çoxlu sayda minalar basdırılıb.

Buradakı azərbaycanlıların qəbirləri qazılıb və onların qızıl dişləri çıxarılıb.

Ermənilər Laçın şəhərini tərk etməmişdən buradakı evləri, yaşayış binalarını, meşələri və hətta qəbiristanlıqları belə yandırıblar.

Ermənilər burada mərmərdən olan məzar daşlarını söküb aparıb, bəzi qəbirləri isə qarət məqsədilə dağıdıblar”, - deyə fotojurnalist qeyd edib.

**AZƏRTAC**
**2022, 3 sentyabr**

**Türkiyənin Anadolu Agentliyi Laçın rayonundan xüsusi reportaj hazırlayıb**

Aradan illər keçməsinə baxmayaraq, 1992-ci ildə baş verən işğalın izlərini unutdurmayan Laçın şəhərində bəzi evlər yaşayış səviyyəsini saxlasa da, çox sayda məhv edilmiş və yararsız hala salınan evlər var. Artıq Azərbaycanın nəzarətinə keçən Laçında yerləşən Azərbaycan Ordusu həm bu bölgədəki strateji nöqtələrdəki mövqelərini gücləndirir, həm də minalardan təmizləmə fəaliyyəti həyata keçirir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin Anadolu Agentliyinin Laçın rayonundan hazırladığı xüsusi reportaj bu ifadələrlə başlanır.

Məlumat verilir ki, yaxşı vəziyyətdə olan binaların əksəriyyəti şəhəri tərk edən ermənilər tərəfindən dağıdılıb. Şəhərin bir çox məhəllələri uzun müddət normal həyatdan məhrum olduğu üçün ot basıb.

İkinci Qarabağ savaşının nəticələrinə uyğun olaraq Ermənistanın imzalamağa məcbur olduğu kapitulyasiya aktı əsasında Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarıldığını xatırladan müəllif təəssüflə məlumat verir ki, ermənilər Laçın bölgəsinin əsas hissəsini 44 günlük Vətən müharibəsindən sonra minalayıb, bölgəni tərk edərkən evlərə od vurublar.

Reportaj bölgədən lentə alınmış orijinal videomaterial və fotolarla birlikdə türkdilli ictimaiyyətə təqdim olunub.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2022, 2 sentyabr**

**Laçında döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə döyüş növbətçiliyinin təşkili ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Laçın rayonunda Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən strateji əhəmiyyətli Üçdik yüksəkliyində döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib.

Burada şəxsi heyətin gecə və gündüz nümunəvi xidmət etməsi, döyüş qabiliyyətinin və döyüşə hazırolma vəziyyətinin daim yüksək səviyyədə saxlanılması məqsədilə bütün zəruri tapşırıqlar icra olunur.

Azad olunmuş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən kompleks tədbirlər davam edir.

**AZƏRTAC**
**2022, 2 sentyabr**

### Ərəb mediası Azərbaycan diplomatının azad Laçın haqqında məqaləsini dərc edib

Fələstinin “Səma”, Misirin “Misr əl Yom” və “VDL News” nəşrlərində Azərbaycanın Dubay Əmirliyində baş konsulu Cavidan Hüseynovun işğaldan azad olunmuş Laçın rayonu barədə məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə erməni quldur dəstələrinin 30 ilə yaxın müddətdə Laçın şəhəri və kəndlərdə törətdikləri vəhşiliklər, qətliamlar və vandal əməlləri haqqında ətraflı məlumat verilib.

Müəllif qeyd edib ki, ermənilər Cenevrə Konvensiyasının müddəalarını kobudcasına pozaraq Laçın bölgəsində Azərbaycan kəndlərinin və şəhərlərinin adlarını, buradakı demoqrafik situasiyanı dəyişib, rayonun zəngin təbii sərvətlərini talan edib, 200-dən artıq tarixi mədəniyyət abidəsi və məbədləri, o cümlədən qədim Alban kilsəsini dağıdıb və ya təhqir edib, XIV əsrə aid Malik Əjdər türbəsini, Qaraqışlaq kəndində məscidi və Zabuxda qəbiristanlığı viran qoyublar. Hələ 1992-ci ildə Amerikanın “The Times” nəşri Laçın şəhərinin quldur erməni dəstələri tərəfindən yandırılması və dağıdılması haqqında məqalə dərc etmişdi.

Məqalədə bildirilib ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun şanlı Zəfərindən - 2020-ci il noyabrın 10-da Ermənistan ordusunun kapitulyasiyasından sonra Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyannamədə Laçının Azərbaycana qaytarılması maddəsi də əks olunub, bu yaxınlarda isə Laçın şəhərində və kəndlərində Azərbaycan bayrağı dalğalanıb, bu bölgə Ordumuzun tam nəzarətinə keçib. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş Qarabağda irimiqyaslı bərpa-quruculuq işləri aparılır və bu proses Laçında da davam edir. Eyni zamanda, rəsmi Bakı Ermənistanla sülh müqaviləsinin imzalanması, regionda nəqliyyat dəhlizləri və kommunikasiyaların açılması təşəbbüsləri ilə çıxış edib, bu bölgənin sülh və inkişafı məkanına çevrilməsi istiqamətində fəaliyyətləri davam etdirir.

***Oqtay Bayramov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə***

**AZƏRTAC**
**2022, 2 sentyabr**

**Müdafiə Nazirliyi Laçın rayonunun Sus kəndindən videogörüntülər yayıb**

Müdafiə Nazirliyi Laçın rayonunun Sus kəndindən videogörüntülər yayıb.
AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**
**2022, 1 sentyabr**

**Müdafiə Nazirliyi Laçın rayonunun Zabux kəndindən videogörüntülər yayıb**

Müdafiə Nazirliyi Laçın rayonunun Zabux kəndindən videogörüntülər yayıb.
AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**
**2022, 31 avqust**

**Yaponiyalı mütəxəssis: Laçın şəhərinin azad olunması ilə Qarabağ ətrafında vəziyyət yeni mərhələyə qədəm qoydu**

Laçın şəhərinin, Zabux və Sus kəndlərinin azad olunması təqdirəlayiqdir və bununla Qarabağ ətrafında vəziyyət öz yeni mərhələsinə qədəm qoydu.

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə Kaişi Universitetinin professoru, "ajmedia.jp" portalının baş redaktoru Akira Matsunaqa deyib.

Professor qeyd edib ki, 2020-ci ildə baş verən Vətən müharibəsində Azərbaycan 30 ilə yaxın bir dövrdə Ermənistan tərəfindən işğal altında olan ərazilərinin əksəriyyətini azad edib. Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanan birgə bəyanata əsasən Rusiya Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizinə sülhməramlı qüvvələr yerləşdirib. Avqustun 26-da Azərbaycan Laçın şəhəri də daxil olmaqla bir neçə obyektdə nəzarəti bərpa edib. Bununla üçtərəfli bəyanatlarda əksini tapmış öhdəliklər icra olunub və bu, təqdirəlayiq haldır.

Yapon professor əlavə edib ki, Laçının Azərbaycanın nəzarətinə keçməsi ilə Qarabağ regionunda vəziyyəti yeni mərhələyə adlayıb. Bununla Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etmək gücündə olduğunu bütün dünyaya bir daha nümayiş etdirib. Eyni zamanda, bu, Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına və Cənubi Qafqazda davamlı sülh, sabitlik və dayanıqlı inkişafa nail olmağa şərait yaradıb.

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Tokio**

**AZƏRTAC**
**2022, 31 avqust**

## İndoneziyalı ekspert: Laçının işğaldan azad olunması bizi çox sevindirir

Qədim Azərbaycan torpağı olan Laçın şəhərinin işğaldan azad edilməsi və dost Azərbaycanın öz əraziləri üzərində nəzarəti bərpa etməsi bizi çox sevindirir. Bu bizim üçün çox ürəkaçan xəbərdir və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm.

Bu sözləri AZƏRTAC-ın İndoneziya üzrə xüsusi müxbirinə müsahibəsində ANTARA agentliyinin sabiq redaktoru, İndoneziya Müsəlman Jurnalistlər Assosiasiyasının (PJMI) təsisçisi Məhəmməd Entoni deyib.

İndoneziyalı ekspert bildirib ki, o, xalqımızın tezliklə sülh şəraitində yaşayacağına inanır: “İnanıram ki, bundan sonra heç bir qarşıdurma və müharibə olmayacaq. Azərbaycan və Ermənistan xalqları sülhsevər qonşu ölkələr kimi harmoniya şəraitində yaşayacaqlar. İki dövlət arasında olan problemlər sülh yolu ilə həllini tapacaq”.

M.Entoni vurğulayıb ki, Azərbaycan və Ermənistan bütün dünyaya qarşılıqlı hörmət və tərəfdaşlıq münasibətlərinə əsaslanan nümunəvi əlaqələr qurmağa qadir olduqlarını nümayiş etdirə bilərlər. Bu isə yeni nəslin uzaqgörən liderlərin miras qoyacağı sülh və sabitlik şəraitində yaşamasına imkan yaradar.

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri, Cakarta***

**AZƏRTAC**
**2022, 30 avqust**

**Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tədbirlər icra edilir**

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tapşırıqlar icra edilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri yüksək peşəkarlıqla yerinə yetirilir.

Yaşayış məntəqələrində əsas səylər təhlükəsizlik qaydalarına ciddi riayət etməklə, kombinə edilərək kustar üsulla hazırlanan partlayıcıların və tələ minaların aşkarlanaraq zərərsizləşdirilməsinə yönəldilir.

**AZƏRTAC**
**2022, 29 avqust**

**Türkiyəli ekspert: Laçının mərkəzində Azərbaycan Bayrağının qaldırılmasını görməkdən qürur duyduq**

Laçının qayıdışı xeyirli olsun. Azərbaycanın nə qədər güclü olduğunu qazandığı uğurlar müqabilində hər birimiz gördük. Laçının qayıtması ilə biz Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarının bir daha şahidi olduq. Türkiyə ictimaiyyəti olaraq Azərbaycan Bayrağının Laçının mərkəzində qaldırılmasını görməkdən böyük qürur duyduq. Bu, bütün türk dünyası üçün qürur günündür.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə mediasının təmsilçisi, siyasi ekspert Güngör Yavuz Aslan deyib.

44 gün davam edən Vətən müharibəsindən sonra 10 noyabr 2020-ci il tarixində imzalanmış Bəyanatın ən diqqət çəkən nöqtələrindən birinin də Laçın ilə bağlı əldə olunan razılıq olduğunu deyən ekspert bildirib: "Bəyanata əsasən, qeyd edilən bölgələrdə müvəqqəti olaraq Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirildi ki, bununla da ermənilərin bölgədə keçidlərini açıq saxlamaq üçün bir dəhliz yaradıldı. Bu, onu göstərir ki, Azərbaycan tərəfi adıgedən Bəyanatın müddəalarını yerinə yetirir və qarşı tərəfin də bu müddəalara uymasını tələb edir. Laçın dəhlizi həm də Zəngəzur dəhlizinin açılması üçün atılan ən vacib addımlardan biri idi. Yəni, Azərbaycanın Laçın dəhlizini açıq saxlamasının qarşısında Ermənistan müddəalara əməl edərək Bakı-Naxçıvan arasında bağlantı olacaq Zəngəzur dəhlizini açmağa məcburdur. Zəngəzur dəhlizinin açılması Qarabağda sabitliyin qorunması baxımından da vacibdir. Hamımıza bəlli olduğu kimi, ermənilər boşaltdıqları əraziləri yandırır, oraları xarabalığa çevirməyə çalışırlar. Bu cür təxribatların təkrarlanmaması, yəni, Qarabağın təhlükəsizliyi üçün də Zəngəzur dəhlizi çox vacibdir. Əks halda Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan istər hərbi, istərsə də diplomatik yollarla Ermənistanın hər bir təxribatına cavab verəcək gücə malikdir".

***Günel Məlikova***
***AZƏRTAC-ın xüsusi müxbiri, İstanbul***

**AZƏRTAC**
**2022, 28 avqust**

**TÜRKPA Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasına dair bəyanat yayıb**

Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasına dair bəyanat yayıb.

TÜRKPA-dan AZƏRTAC-a bildirilib ki, Assambleyanın Katibliyi 2020-ci il 9/10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq davam etməkdə olan prosesin bir hissəsi kimi, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasını təqdir edir.

TÜRKPA qardaş Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə sadiqliyini bir daha xatırladaraq, Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşması üçün səylərə dəstəyini ifadə edir və bu prosesin Cənubi Qafqazda davamlı sülh, sabitlik və dayanıqlı inkişafa nail olunmasına töhfə verəcəyinə inanır.

**AZƏRTAC**
**2022, 28 avqust**

**Laçın şəhəri, Zabux və Sus kəndlərində hərbi polisin xidməti fəaliyyəti təşkil edilib**

Azərbaycan Ordusunun hərbi polis bölmələrinin Laçın şəhəri, Zabux və Sus kəndlərində xidməti fəaliyyəti təşkil edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan ərazilərdə hərbi polis tərəfindən təhlükəsizlik fəaliyyətləri həyata keçirilir.

Yaşayış məntəqələrində yeni qurulan stasionar və səyyar postlarda sutkalıq xidmət təşkil olunur, buraxılış rejimi, həmçinin xidmət və döyüş növbətçiliyi zamanı hərbi qulluqçular tərəfindən günün nizam qaydalarının yerinə yetirilməsinə nəzarət edilir.

Nəzarət-buraxılış məntəqələrində patrul xidməti həyata keçirilir, obyektlər mühafizə olunur, əraziyə daxil olan texnikanın uçotu aparılır, hərbi nəqliyyat vasitələrinin hərəkəti istiqamətləndirilir, həmçinin kolonların təhlükəsizliyi məqsədilə onlar müşayiət olunur.

Bundan əlavə hərbi polisin tabeliyində fəaliyyət göstərən Kinologiya Mərkəzində xüsusi təlim keçmiş cins itlərinin cəlb edilməsi ilə ərazidə mina axtarış tədbirləri və qarovul xidmətinin təşkili həyata keçirilir.

**AZƏRTAC**
**2022, 28 avqust**

**Türk Dövlətləri Təşkilatı Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı bəyanat yayıb**

Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevin imzası ilə yayılan bəyanatda deyilir: "TDT Katibliyi 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın icra prosesinin davamı kimi Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsini məmnuniyyətlə qarşılayıb.

Təşkilat qardaş Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha bəyan edir, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində münaqişədən sonra apardığı bərpa-yenidənqurma səylərinə töhfə verməyə hazır olduğunu bildirir. TDT Cənubi Qafqazda sülh və sabitliyə, eləcə də məcburi köçkünlərin azad edilmiş torpaqlarına qayıtmasına xidmət edəcək diplomatik səylərin vacibliyinə diqqət çəkərək Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını dəstəkləyir".

***Günel Məlikova***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2022, 27 avqust**

**Azərbaycan Ordusunun Laçın şəhərinə daxil olması Gürcüstan KİV-lərinin diqqət mərkəzindədir**

Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması və şəhərdə Azərbaycan Bayrağının ucaldılması Gürcüstan KİV-lərinin diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın interpressnews.ge, gaxa.ge, aktual.ge, kavkasia.net, 24news.ge, aktual.ge portallarında silsilə materiallar dərc edilib.

Azərbaycan, gürcü, ingilis və rus dillərində olan materiallarda oxuculara Azərbaycan Ordusunun bölmələrinin Laçına daxil olması və Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması, eləcə də Azərbaycan Prezidentinin bununla əlaqədar söylədiyi fikirlər barədə ətraflı məlumatlar çatdırılıb.

Materiallarda Laçın rayonunun tam Azərbaycan Ordusunun nəzarətinə keçdiyi xüsusi qeyd olunur.

***Xətayi Əzizov***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Tbilisi**

**AZƏRTAC**
**2022, 27 avqust**

**İstanbulda Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı tədbir təşkil edilib**

Avqustun 27-də İstanbulda Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) təşkilatçılığı ilə baş tutan tədbirdə mediaya açıqlama verilib.

İSTAD-ın rəhbəri Səfər Qaraqoyunlu tərəfindən verilən açıqlamada Azərbaycanın 44 gün davam edən Vətən müharibəsindən sonra 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın ən önəmli məqamlarından birinin də Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi olduğu bildirilib.

Azərbaycanın dillərə dastan olan şanlı Qarabağ Zəfərindən sonra digər torpaqlarla bərabər Laçının da öz sahiblərinə qaytarılmasının böyük tarixi hadisə olduğunu vurğulayan dərnək rəhbəri bunun həm də türk tarixinin ən şanlı səhifələrindən biri olduğunu deyib.

Səfər Qaraqoyunlu bunun bütün türk dünyası üçün bir bayram olduğunu bildirib.

***Günel Məlikova***
***AZƏRTAC-ın xüsusi müxbiri, İstanbul***

**AZƏRTAC**
**2022, 27 avqust**

**Hikmət Hacıyev: İşğal dövründə Ermənistan Zabux və Susda genişmiqyaslı qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirib**

Şuşada keçirilən beynəlxalq konfransda iştirak edən səfirlər azad olunmuş ərazilərimizdə bu miqyasda dağıntıdan sonra Ermənistan tərəfindən beynəlxalq məhkəmələrdə Azərbaycandan təzminatların istənilməsi məsələsi ilə bağlı suallar ünvanladılar. Riyakarlığa baxın ki, Azərbaycana qarşı bu qədər dağıntı törədəndən, bu qədər vəhşilik və vandalizm həyata keçirəndən sonra Ermənistan Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Konvensiya əsasında Azərbaycana qarşı iddialarla çıxış edir. Bu iddiaları irəli sürən dövlət beynəlxalq ictimaiyyət qarşısında utanmalıdır. Hər halda, Azərbaycanın cavabı çoxdur. Həmin konvensiyalar çərçivəsində və digər konvensiyaların imkanları da araşdırılaraq Azərbaycan Ermənistana qarşı iddialar irəli sürür. Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycanın Ermənistana qarşı dövlət ittihamı əsaslı müraciəti var.

AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşada jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

İşğal dövründə Zabux və Sus kəndlərində Ermənistan tərəfindən genişmiqyaslı qeyri-qanuni məskunlaşdırma siyasətinin həyata keçirildiyini deyən Prezidentin köməkçisi qeyd edib ki, bu, ermənilərin arzuladıqları formada geniş miqyas almayıb. Çünki onların burada yaşadıqları şərait xaricdən hər hansı erməninin gətirilib orada məskunlaşdırılması üçün cəlbedici ola bilməzdi. Amma müəyyən süni proqramlar həyata keçirilib. Bu, xüsusilə də Laçında, o cümlədən Zabux və Sus kəndlərində müşahidə olunur. “Ümumiyyətlə, işğal dövründə işğalçı ölkənin həmin ərazinin etnik-dini tərkibini dəyişdirməsi, mədəniyyət abidələrini məhv etməsi, arxitektura üslubunu dəyişdirməsi müharibə cinayətləri kimi tövsif olunan hallardır. Ermənistan tərəfindən həyata keçirilən bu addımlar, xüsusən Zabux və Sus kəndlərinə regionla hər hansı əlaqəsi olmayan, Yaxın Şərqdən olan insanların köçürülməsi belə hallardandır. Dövlətimizin başçısı tərəfindən bununla bağlı da müvafiq tapşırıqlar verilib. Təhlükəsizlik tədbirləri, minaların təmizlənməsi həyata keçiriləndən sonra müvafiq faktaraşdırıcı, sənədləşdirmə missiyaları həyata keçiriləcək”, - deyə H.Hacıyev əlavə edib.

**AZƏRTAC**
**2022, 27 avqust**

**Yaponiya portalı Azərbaycan bayrağının Laçında ucaldılması barədə məlumatlar yayıb**

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan bayrağının Laçın rayonunda ucaldılması barədə məlumatlar yayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayılan məlumatlarda avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət bayrağının ucaldılması haqqında xəbərlər əksini tapıb.

Məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə etdiyi paylaşım xüsusi yer alıb. Dövlətimizin başçısının bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik etdiyi qeyd edilib.

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Tokio**

**AZƏRTAC**
**2022, 27 avqust**

**Tahir Süleymanov: Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması beynəlxalq hüququn, ədalətin bərpasıdır**

Azərbaycanın şanlı Qələbəsi ilə yekunlaşan Vətən müharibəsi siyasi, diplomatik müstəvidə uğurla davam edir. Respublikamız addım-addım öz mühüm vəzifəsinə doğru inamla irəliləyir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik bacarığı, Azərbaycan Ordusunun rəşadəti sayəsində bu gün artıq Laçın şəhərindəyik, Zabux və Sus kəndlərindəyik. Dövlətimiz istər döyüş meydanında, istərsə də informasiya cəbhəsində sübut etdi ki, Qarabağ və Şərqi Zəngəzur əzəli Azərbaycan torpağıdır. Azərbaycanlılar deyil, məhz ermənilər bu torpağa gəlmədirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Tahir Süleymanov ifadə edib.

Onun sözlərinə görə, Azərbaycanın əsas hədəfi regionda sülhün qorunub saxlanılması, ölkəmizin suverenliyinin tam bərpası, beynəlxalq təşkilatların qəbul etdiyi ümumbəşəri sənədlərin icrası və əmin-amanlığı uzunmüddətli prosesə çevirməkdir. Bu proses isə öz növbəsində Azərbaycanla yanaşı, regionun sosial-iqtisadi rifahına, sülhə və təhlükəsizliyə birbaşa təsir göstərəcək. Azərbaycan həm də məsuliyyətli, ləyaqətli dövlət olduğunu bütün dünyaya sübut etdi. Belə bir güclü Azərbaycanla dünya ölkələri, beynəlxalq təşkilatlar da əməkdaşlıq etməyə hazırdır.

Tahir Süleymanov qeyd edib ki, Vətən müharibəsinin yekunlaşmasından keçən qısa müddətdə bu qədər avtomobil və dəmir yollarının, körpülərin, tunellərin çəkilməsi, sosial infrastrukturun qurulması, kəndlərin, şəhərlərin salınması, tarixi-dini irsimizin yenidən bərpa edilməsi, beynəlxalq hava limanlarının tikilməsi... bütün bunlar Azərbaycanın iqtisadi potensialından, xalqımızın qurub-yaratmaq əzmindən xəbər verir.

“Ölkəmiz 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına uyğun şəkildə, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Bəyanatın şərtlərinə uyğun olaraq Laçını tərk edən ermənilər ölkəmizin onlar üçün yaratdığı şəraitdən, göstərdiyi humanizmdən sui-istifadə edərək Kəlbəcərdə törətdikləri barbarlığı, vəhşiliyi Laçında da təkrarladılar. Evlərə, meşələrə od vuran ermənilər faşizm ideologiyasına sadiq olduqlarını açıq şəkildə nümayiş etdirdilər. Ermənilərin Azərbaycanın əzəli torpaqlarını tərk edən zaman törətdikləri vəhşiliklər də onların əsl simalarının təqdimatında mühüm rol oynayır. Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda azərbaycanlılara məxsus tarixi coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan gətirilmiş ermənilərin məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni işlər görüblər. Onların torpaqlarımızı boşaldarkən törətdikləri cinayətlərə dünyanın susmasını artıq Azərbaycan ictimaiyyəti təəccüblə qarşılamır. Çünki ötən dövrdə biz bəzi dünya gücləri tərəfindən tətbiq edilən ikili siyasətin acı nəticələrini yaşamışıq. Lakin bütün hallarda Azərbaycan otuz il əvvəlki Azərbaycan olmadığını ədalətin və beynəlxalq hüququn fonunda həm döyüş meydanında, həm də informasiya cəbhəsində ermənilərə və onlara havadarlıq edən dövlətlərə çatdırdı. Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması, ilk növbədə, beynəlxalq hüququn, ədalətin bərpasıdır”, - deyə Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini vurğulayıb.

O qeyd edib ki, bu gün ölkəmizin iqtisadi, siyasi üstünlüyü, dövlətimizin başçısı İlham Əliyevin qətiyyəti, iradəsi açıq-aydın görünür. Azərbaycan Prezidenti elə bir müdrik və mükəmməl siyasət həyata keçirir ki, qarşı tərəf nə qədər əngəl, maneə yaratmaq istəsə də heç nəyə nail ola bilmir və bilməyəcək. Laçın şəhəri, eləcə də Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması bu ərazilərdən didərgin salınmış on minlərlə məcburi köçkünün təhlükəsiz və ləyaqətli geri qayıdış hüququnun təmininə şərait yaratmaqla, ümumilikdə münaqişədən sonrakı normallaşma üçün mühüm addım olacaq. Ermənistan tərəfinin bütün razılaşma və öhdəliklərdən boyun qaçırmasına və hər cür maneələr yaratmasına baxmayaraq, Azərbaycan tərəfi növbəti dəfə konstruktivlik nümayiş etdirərək, yerli erməni əhalinin xahişini nəzərə alaraq, yolun Ermənistandan keçən hissəsi yekunlaşana qədər 4,7 kilometrlik müvəqqəti yolun istifadə olunmasına razılıq verib.

“Cənubi Qafqazdakı son hadisələr Azərbaycan Respublikasının qalib olduğunu və bölgədə artıq yeni reallıqların mövcudluğunu bir daha açıq-aşkar göstərir. Ermənistan indi Azərbaycanın hüquqi və qanuni iddialarını əks etdirən yeni reallıqları yerində qəbul etməlidir. Beləliklə, sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu region dövlətlərinin qarşılıqlı əməkdaşlığının daha da güclənməsindən keçir”, - deyə Tahir Süleymanov diqqətə çatdırıb.

**AZƏRTAC**
**2022, 27 avqust**

## Moldova KİV-ləri: Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb

Moldovanın nüfuzlu KİV-lərində Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlanıb.

AZƏRTAC xəbər verir ki, “Noi”, “Publika”, “Primele Stiri” və digər xəbər portallarında rumın və rus dillərində çap olunan məqalələrdə avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması qeyd olunub.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu***

**AZƏRTAC**
**2022, 27 avqust**

## Azərbaycanın Dövlət Bayrağı Laçın şəhərində ucaldılıb

Azərbaycan Respublikasının Dövlət Bayrağı avqustun 26-da Laçın şəhərində ucaldılıb.

AZƏRTAC xəbər verir ki, korpus komandiri general-mayor Kənan Seyidov bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə edib. Məruzədə qeyd olunub: "Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan! Əmrinizə əsasən, Azərbaycan Ordusu Laçın şəhərini, Zabux və Sus yaşayış məntəqələrini tam nəzarətə götürdü. Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır. Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib. Dövlətimizin başçısı bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

**AZƏRTAC**
**2022, 26 avqust**

**Türkiyə mediası Laçın şəhərinin Azərbaycanın nəzarətinə keçməsindən yazıb**

Laçın şəhərinin yenidən Azərbaycanın nəzarətinə keçməsi barədə məlumat Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin baş xəbərinə çevrilib. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəsmi tviter səhifəsində bununla bağlı etdiyi paylaşım qardaş ölkə mediası tərəfindən geniş işıqlandırılmaqdadır.

AZƏRTAC xəbər verir ki, Anadolu və İHA agentlikləri, "TRT Haber", "Haber Global", "CNN Türk" telekanalları, "Hurriyet" və digər qəzetlər, habelə TRT-nin müxtəlif qurumları mövzu ilə bağlı geniş məlumatlar yayıblar.

Türkiyə mətbuatı Prezident İlham Əliyev Laçının qaytarılması ilə bağlı paylaşımını təqdim edib. Bildirilib ki, bu müjdəli xəbəri ölkə ictimaiyyətinə Prezident İlham Əliyev çatdırıb.

İnformasiyalarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun qazandığı rəşadətli Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanatla təcavüzkar Ermənistanın İkinci Qarabağ savaşındakı biabırçı məğlubiyyəti və işğalçı dövlətin kapitulyasiya aktı imzalamaqla üzərinə götürdüyü öhdəliklər xatırlanır. Diqqətə çatdırılır ki, Azərbaycan beynəlxalq hüququn prinsipləri əsasında öz ərazisində suveren hüquqlarını təmin edir.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2022, 26 avqust**

**Türkiyə XİN: Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasından məmnunluq duyuruq**

Laçın şəhərinin, Zabux və Sus kəndlərinin üçtərəfli anlaşma əsasında davam edən proses çərçivəsində bu gün Azərbaycana qaytarılmasından məmnunluq duyuruq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Xarici İşlər Nazirliyinin açıqlamasında əksini tapıb.

Diqqətə çatdırılıb ki, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar edilməsi istiqamətində mühüm addım olan bu hadisənin Azərbaycan-Ermənistan münasibətlərinə olduğu kimi, regional normallaşmaya da töhfə verəcəyinə ümid edirik.

Türkiyə bu günə qədər olduğu kimi, bundan sonra da qardaş Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyəcək.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri, Ankara***

**AZƏRTAC**
**2022, 26 avqust**

**Ərəb mətbuatı Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlayıb**

Ərəb KİV-lərində Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlanıb.

AZƏRTAC xəbər verir ki, Misirin "Əl Əhram", "Əl Fağr", "Nəbd", Birləşmiş Ərəb Əmirliklərinin "Emarat", Livanın "Əl Nashra" qəzetlərində avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması haqqında materiallar dərc olunub.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib. Dövlət başçısı bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

***Oqtay Bayramov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə***

**AZƏRTAC**
**2022, 26 avqust**

## Ukrayna KİV-i Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlərə geniş yer ayırıb

Ukraynanın nüfuzlu KİV-də Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlanıb.

AZƏRTAC xəbər verir ki, "RBK-Ukrayna", "Gordon", "Korrespondent", "Ukraynskaya Pravda", "Fokus", "24kanal" və digər informasiya agentlikləri, xəbər portallarında dərc olunan məqalələrdə avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması qeyd olunub.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri, Kiyev***

**AZƏRTAC**
**2022, 26 avqust**

**Milli Məclisin sədri Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi ilə bağlı rəsmi tviter səhifəsində paylaşım edib**

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi ilə bağlı rəsmi tviter səhifəsində paylaşım edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, paylaşımda deyilir: "Azərbaycan Ordusu Laçın şəhərindədir. Zabux və Sus kəndləri bizim nəzarətimiz altına götürülüb. Biz Laçın şəhərinə qayıtmışıq".

**AZƏRTAC**
**2022, 26 avqust**

**Vüqar Rəhimzadə: Biz Laçına qayıtdıq!**

İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasına öz sarsılmaz gücü, qüdrəti, qətiyyəti sayəsində daxil olduğunu əyani surətdə təsdiqlədi. Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr Bəyanatının müddəalarına uyğun olaraq ermənilər noyabrın 15-də Kəlbəcəri, 20-də Ağdamı və dekabrın 1-də isə Laçını təhvil verməli idilər. Kəlbəcərin boşaldılması noyabrın 15-i üçün nəzərdə tutulsa da Ermənistan Rusiya Prezidentinin vasitəçiliyi ilə Azərbaycandan əlavə vaxt istədiyi üçün bu rayon noyabrın 25-də təhvil verildi. Bununla da Azərbaycan humanist dövlət olduğunu sözdə deyil, əməldə bir daha təsdiqlədi. Digər tərəfdən, Azərbaycan dövləti hər zaman bu xatırlatmanı da edir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini 44 gündə təkbaşına icra etdiyimiz kimi, Bəyanatdan irəli gələn vəzifələrin də yerinə yetirilməsinə nail olmaq imkanımızı heç kim unutmamalıdır. Bunun nəyə işarə olduğu aydındır. İlk növbədə, dövlət başçısı İlham Əliyev bütün çıxışlarında bu məqamı bəyan edir ki, mən nəyi nə zaman etmək lazım olduğunu yaxşı bilirəm. Digər çağırış isə Vətən müharibəsinin rəmzinə çevrilən dəmir yumruğun yerində olmasıdır. Dövlətimiz istər döyüş meydanında, istərsə də informasiya cəbhəsində sübut etdi ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Azərbaycanlılar yox, məhz ermənilər bu torpağa gəlmədir. 30 ildə bu həqiqətləri görməzdən gələn dünyanın bəzi aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidentinin 30-a yaxın xarici media qurumlarına müsahibəsi əsasında bu reallıqları öyrənməyə məcbur oldular. Hazırda yaşadığımız postmünaqişə dövrünün reallıqları da dünya gücləri tərəfindən qəbul edilir və onlar fəaliyyətlərini bu istiqamətdə qururlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə azərbaycanlıların Laçın şəhərinə qayıdışına münasibət bildirərkən söyləyib.

Vüqar Rəhimzadə 1992-ci ilin mayında Laçının işğalından bəhs edərək deyib ki, Ermənistan hərbi birləşmələri tərəfindən bu rayonun zəbt edilməsindən sonra ermənilər nağıl dünyalarına qapanaraq özlərində belə bir inam yaratmağa çalışdılar ki, bu yerlərdə əbədi yaşayacaqlar, Qarabağın yeni sahibi onlar olacaq. Bu, mənfur düşmənin 44 günlük İkinci Qarabağ müharibəsinə qədər özləri üçün qurduqları xəyallar idi. Baxmayaraq ki, Vətən müharibəsinə qədər Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında Ermənistana dərs vermişdi, amma bu və ya digər dövlətlərin maraqlarının həyata keçirilməsində bir vasitə kimi istifadə edilən ermənilər görünür aldıqları tarixi dərsləri tez unudurlar. 44 günlük İkinci Qarabağ müharibəsində isə Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə tarixdə heç zaman unuda bilməyəcəyi dərsi verdi. Vətən müharibəsində tarixi Zəfərimizdən sonra tez-tez bu çağırış da səsləndirilir ki, işğalçı dövlətdə baş qaldırmaq istəyən revanşist qüvvələr dəmir yumruğun yerində olduğunu unutmasınlar. Bu ayın əvvəlində Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq qətiyyətlə həyata keçirilən və düşmənə öldürücü zərbə vuran “Qisas” əməliyyatı bunu bir daha təsdiqlədi.

YAP Xətai rayon təşkilatının sədri bu məqamı da xüsusi qeyd edib ki, işğal dövründə Laçın düşmən təbliğat maşını tərəfindən Qarabağ ermənilərinin blokadadan çıxması üçün guya zəruri bir humanitar dəhliz kimi təqdim edilsə də əsl həqiqətdə ermənilər bu dəhlizdən öz terrorçu maraqları üçün bəhrələnirdilər. Məhz bu dəhlizdən gələn dəstək nəticəsində Qarabağdakı separatçıların hərbi imkanları dəfələrlə artmışdı. Amma bu gün Laçını Qarabağ ermənilərinin blokadadan çıxması üçün zəruri bir humanitar dəhliz gözündə görən ermənilərin ümidlərinə son qoyuldu. Avqustun 26-da azərbaycanlılar Laçın şəhərinə qayıtdılar. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Lakin bu məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycan Ermənistandan fərqli olaraq ermənilərin Qarabağda qalıb yaşamaları üçün qaydaları açıqladı. Dövlət başçısı İlham Əliyev avqustun 12-də İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində bir daha bildirdi ki, əgər Qarabağda kimsə yenə də hansısa populizm naminə, yaxud da kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, bilmək lazımdır ki, o, erməni xalqının birinci düşmənidir. Çünki Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Yol ancaq budur.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq Laçını tərk edən ermənilər ölkəmizin onlar üçün yaratdığı şəraitdən, göstərdiyi humanizmdən sui-istifadə edərək Kəlbəcərdə törətdikləri barbarlığı, vəhşiliyi Laçında da təkrarladılar. Evlərə, meşələrə od vuran

ermənilər faşizm ideologiyasına sadiq olduqlarını açıq şəkildə nümayiş etdirdilər. Dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə səfərləri zamanı şahidi olduğu dağıntılardan bəhs edərkən hər zaman bildirir ki, dünya bu günədək necə vəhşi ilə üz-üzə qaldığını görsün. Kəlbəcərin və Laçının boşaldılması zamanı edilən vəhşiliklər də onların əsl simalarının təqdimatında mühüm rol oynayır. Reallıq budur ki, Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda azərbaycanlılara məxsus tarixi coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən başda Suriyadan gətirilmiş ermənilər olmaqla məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməlləri həyata keçirmişdir. Bu gün onların torpaqlarımızı boşaldarkən törətdikləri cinayətlərə dünyanın susması artıq Azərbaycan ictimaiyyəti tərəfindən təəccüblə qarşılanmır. Çünki 28 ildən artıq dövrdə biz bəzi dünya gücləri tərəfindən tətbiq edilən ikili siyasətin acı nəticələrini yaşamışıq. İşğala məruz qalan Azərbaycan olsa da Ermənistanın başına çəkilən sığallardan sanki belə qənaət yaranırdı ki, sivil dünya, ümumiyyətlə, hüquq anlayışından xəbərsizdir. Lakin bütün hallarda Azərbaycan artıq 30 illik işğal dövrünün Azərbaycanı olmadığını ədalətin və beynəlxalq hüququn öndə saxlanılması fonunda həm döyüş meydanında, həm də informasiya cəbhəsində ermənilərə və onlara havadarlıq edən dövlətlərə çatdırdı. Bir daha sübut olundu ki, beynəlxalq münasibətlərdə güc və hüquq anlayışları əsasdır.

“Zabuxun və Susun boşaldılması fonunda yaşanan vandallıq onu deməyə əsas verir ki, ermənilər yüzilliklər keçsə də belə xislətlərini dəyişmək niyyətində deyillər. Düşmən belə bir reallığı qəbul etmək istəmirdi ki, qanunsuz məskunlaşmış ermənilər günlərin birində hökmən Azərbaycan torpaqlarını tərk etməli olacaqlar. Prezident İlham Əliyev Azərbaycan Televiziyasına sözügedən müsahibəsində bu məsələyə də münasibətini bildirərək vurğulamışdır ki, avqustun 5-i olmasın, 25-i olsun, sentyabrın 1-i olsun böyük fərq etmir. Eyni zamanda, Qarabağda yaşayan ermənilər bizə müraciət etdilər ki, Ermənistan sərhədinə birləşdiriləcək nöqtəyə qədər 4 kilometr qrunt yolu da Azərbaycan tiksin. Ona da biz razılaşdıq. Amma əlbəttə ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır. Bu, təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir. Çünki o, Cenevrə Konversiyalarının qaydalarına ziddir. İşğalçı ölkə zəbt edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz”, - deyə Vüqar Rəhimzadə bildirib.

YAP Xətai rayon təşkilatının sədri bir daha diqqəti Müzəffər Ali Baş Komandanın “Azərbaycan istədiyinə nail olur. Kimin hansı mövqedə olmasından asılı olmayaraq nail olur və biz bir nöqtəyə vururuq və nəticə də hasil edilir” fikirlərinə yönəldərək bildirib ki, ermənilərin vəhşiliklərinə, vandallılarına rəğmən biz Laçına qayıtdıq. Dövlətimizin başçısının avqustun 26-da rəsmi tviter səhifəsində Laçınla bağlı paylaşımında bu qayıdış münasibətilə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib. Prezident İlham Əliyev bəyan etdi: “Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq”. Eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin azərbaycanlıların Laçına qayıdışı ilə bağlı tvitini paylaşaraq qeyd edib: “Qarabağ Azərbaycandır!!!”. Həmçinin avqustun 26-da üçrəngli Bayrağımız Laçın şəhərində ucaldılıb.

Vüqar Rəhimzadə yaşanan belə sevincli, qürurlu anların fonunda dövlətimizin mövqeyinin dəyişməzliyini, hər bir məqsədə nail olmaq üçün səylər göstərildiyini qeyd edərək deyib: “Prezident İlham Əliyev Ermənistana mesaj ünvanlamışdı: "Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq!”. Müzəffər Ali Baş Komandanın hər bir çağırışının real həyatda öz əksini tapması Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətinin nəticəsidir. Azərbaycan üzərinə götürdüyü bütün öhdəliklərinə sadiqdir. Zaman Azərbaycanın lehinə işləyir. Tarixi Zəfərimizin reallıqları fonunda əldə etdiyimiz hər bir qələbə, uğurlu nəticə harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlını qürurlandırır və daha yüksək səslə “Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!” söyləyir”.

**AZƏRTAC**
**2022, 26 avqust**

**Azərbaycan öz ərazi bütövlüyünü təmin edir:Laçın həsrəti bitdi**

Qırx dörd gün davam edən və şanlı Qələbə ilə bitən Vətən müharibəsi bu gün də siyasi, diplomatik müstəvidə davam edir. Azərbaycan ötən müddət ərzində addım-addım öz mühüm vəzifəsinə doğru irəliləyir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik bacarığı, ordumuzun rəşadəti sayəsində tədricən məqsədlərimizə nail oluruq. Bu gün artıq Laçındayıq, Zabuxdayıq, Susdayıq!

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova ifadə edib.

Bu xüsusi gündə xalqımızı, laçınlıları təbrik edən deputat deyib: "Biz böyük minnətdarlıq hissi ilə bütün şəhidlərimizi yad edir, qazilərimizə cansağlığı, müharibə iştirakçılarına, rəşadətli Ordumuza təşəkkür edirik. Azərbaycan bundan sonra daha da inkişaf edəcək, xalqımız öz əzəli torpaqlarına qayıdacaq. Biz bu gün çox xoşbəxtik, çünki öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, eyni zamanda, Qarabağımızın əsrarəngiz guşəsi olan Laçına qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq.

Tarix də sübut edirik biz haqlı mübarizə aparırıq. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini Azərbaycan öz gücünə yerinə yetirdi. İqtisadi imkanlarımız artmadan buna nail olmaq çətin olardı. Güclü ordu, işğaldan azad edilən ərazilərimizin yenidən bərpası, 30 ilə yaxın öz Vətənlərində məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın doğma yurdlarında firavan və təhlükəsiz yaşaması üçün iqtisadiyyatımızın inkişafı mühüm məsələ idi. Müharibənin bitməsindən keçən qısa müddətdə bu qədər yolun, körpünün, tunelin inşası, sosial infrastrukturun qurulması, kəndlərin, şəhərlərin salınması, tarixi-dini irsimizin bərpa edilməsi, beynəlxalq hava limanlarının tikilməsi - bütün bunlar ölkəmizin iqtisadi potensialından, xalqımızın qurub-yaratmaq əzmindən xəbər verir", - deyə H.Hüseynova qeyd edib.

O vurğulayıb ki, Azərbaycan həm də məsuliyyətli, ləyaqətli dövlət olduğunu bütün dünyaya sübut etdi. Belə güclü Azərbaycanla dünya ölkələri, beynəlxalq təşkilatlar da əməkdaşlıq etməyə hazırdır.

Azərbaycan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın müddəalarına uyğun olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Ölkəmizin iqtisadi, siyasi üstünlüyü, dövlət başçımızın qətiyyəti, iradəsi açıq-aydın görünür. Prezident İlham Əliyev elə müdrik və mükəmməl siyasət həyata keçirir ki, qarşı tərəf nə qədər əngəl, maneə yaratmaq istəsə də, heç nəyə nail ola bilmir və bilməyəcək. Çünki Ermənistan üzərinə öhdəlik götürüb və onu da yerinə yetirməlidir. Qeyd edilməlidir ki, yeni yolun marşrutu üçtərəfli Bəyanata uyğun olaraq müəyyənləşdirilib və razılaşdırılıb. Bu yolun digər mühüm əhəmiyyəti ondan ibarətdir ki, Laçın şəhəri, eləcə də Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması oradan didərgin salınmış on minlərlə məcburi köçkünün təhlükəsiz və ləyaqətli geri qayıdış hüququnun təmin edilməsinə şərait yaratmaqla, ümumilikdə münaqişədən sonrakı normallaşma üçün mühüm addım olacaq.

"Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması, ilk növbədə" beynəlxalq hüququn, ədalətin bərpasıdır. Belə ki, 1994-cü ildə həmin ərazilərdə qanunsuz məskunlaşmanın aparılması Ermənistanın müharibə cinayətlərinin növbəti təzahürüdür və Cenevrə konvensiyalarının ciddi pozuntusuna yol verilmişdir. Buraya köçürülən erməni ailələri heç zaman Qarabağda, hətta Ermənistanda belə yaşamayıblar. Onlar Suriyada, Livanda yaşayan ermənilərdir. Ona görə də qarşı tərəfin apardığı bu qanunsuz məskunlaşma siyasəti müharibə cinayət olmaqla bərabər Ermənistan üçün beynəlxalq hüquqi məsuliyyət yaradır. Biz bu faktdan yararlanmalı və müvafiq təşkilatlar qarşısında məsələ qaldırmalıyıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik", - deyə komitə sədri fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 26 avqust**

**Müşfiq Cəfərov: Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması ədalətin bərpasıdır**

Azərbaycan və Ermənistan arasında Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş razılığa əsasən ölkəmiz yüksək keyfiyyətlə və qısa müddətdə Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisini başa çatdırdı. Bu da dövlətimiz tərəfindən götürülmüş öhdəliklərin, o cümlədən üçtərəfli Bəyanatın icrasına yanaşmanın bariz nümunəsidir. Yeni yolun tikintisi ilə birlikdə Laçın şəhəri, eləcə də Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması bu ərazilərdən didərgin salınmış on minlərlə məcburi köçkünün təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdış hüququnun təmin olunmasına şərait yaradır. Bu proses də ümumilikdə münaqişədən sonrakı normallaşma üçün mühüm addım olacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov söyləyib.

Deputat qeyd edib ki, yeni yolun inşası ilə bağlı Azərbaycan tərəfindən ardıcıl və sürətli addımlar atıldığı halda, Ermənistanın ərazisindən keçən hissənin tikintisinin vaxtının uzadılması bu ölkənin öz öhdəliklərinin icrasına necə yanaşdığını göstərir. Azərbaycan isə hər zamankı kimi konstruktivlik nümayiş etdirir.

Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu öz növbəsində erməni əhalisinin yeni marşrutdan problemsiz istifadəsinə imkan yaradacaq. Göründüyü kimi, bir tərəfdə Azərbaycan öz öhdəliklərinə məsuliyyətlə yanaşaraq münasibətlərin normallaşması, sülhün və əmin-amanlığın təminatı üçün addımlar atır. Bunun əksinə olaraq, Ermənistan Azərbaycanın qərb hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişə süni maneələr yaradır. Belə ki, Ermənistan üçtərəfli Bəyanatdan irəli gələn öhdəliyin icrasından boyun qaçırmaqda davam edir.

"Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisi zamanı yerli erməni əhali ilə azərbaycanlıların təmasları olub. İnşaat prosesinin mühüm bir hissəsi isə Rusiya sülhməramlı kontingentinin müşayiəti olmadan aparılıb ki, bu da azərbaycanlı və erməni əhali arasında birbaşa təmasın və birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir. Yerli erməni əhalisi yeni yolun fəaliyyətə başlamasına razı olduğu təqdirdə, məhz Ermənistan hökuməti növbəti ilin sonuna qədər bunu təxirə salmaq üçün cəhdlər göstərirdi", - deyə M. Cəfərov vurğulayıb.

O əlavə edib ki, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun fəaliyyətə başlaması ilə Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması, ilk növbədə, beynəlxalq hüququn, ədalətin bərpasıdır. Eyni zamanda, Azərbaycan Ermənistanın işğalı nəticəsində didərgin salınmış on minlərlə məcburi köçkünün tezliklə öz doğma yurdlarına qaytarılmasını reallaşdıracaq.

Laçın şəhəri, Zabux və Sus kəndlərində işğal dövründə qanunsuz məskunlaşmanın aparılması Ermənistanın müharibə cinayətlərinin növbəti təzahürüdür. Həmçinin qanunsuz məskunlaşdırma Cenevrə Konvensiyalarının ciddi pozuntusu, müharibə cinayəti olmaqla bərabər, Ermənistan üçün beynəlxalq hüquqi məsuliyyət yaradır. Biz bütün beynəlxalq təşkilat və qurumlardan Ermənistanın bu addımlarına qarşı bəyanatlarla çıxış etməsini gözləyirik. Çünki Ermənistanın bu əməlləri hər şeydən əvvəl dünyanın demokratik ölkələri tərəfindən qəbul olunmuş beynəlxalq hüquqi statusa malik olan konvensiyaların pozulması, heçə sayılması deməkdir.

**AZƏRTAC**
**2022, 23 avqust**

**Fərid Şəfiyev: Laçın şəhəri artıq Azərbaycanın nəzarətinə keçir**

Laçın şəhəri artıq Azərbaycanın nəzarətinə keçir.

AZƏRTAC xəbər verir ki, bu sözləri avqustun 23-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində keçirilən “Laçın: Postmünaqişə dövrünün yeni mərhələsi” adlı dəyirmi masada mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib.

O bildirib ki, 1992-ci ilin mayında Şuşa və Laçının işğalı böyük faciə idi. Laçının statusu həmişə danışıqlar zamanı xüsusi yer tuturdu.

Minsk qrupu çərçivəsində də Laçın məsələsi ayrı bir maddə kimi müzakirə olunurdu.

Artıq Minsk qrupu fəaliyyət göstərmir, amma vaxtaşırı beynəlxalq ekspertlər Laçın məsələsini gündəmə gətirirdilər.

“Bu gün təşkil olunan müzakirələrdə buna aydınlıq gətirmək istəyirik. "Azərbaycanın baxışı, dövlətin mövqeyi nədən ibarətdir" kimi suallara cavablar veriləcək", - deyə İdarə Heyətinin sədri qeyd edib.

**AZƏRTAC**
**2022, 23 avqust**

**Bakıda "Laçın: Postmünaqişə dövrünün yeni mərhələsi" adlı dəyirmi masa keçirilib**

Avqustun 23-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) "Laçın: Postmünaqişə dövrünün yeni mərhələsi" adlı dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev artıq Laçın şəhərinə nəzarətin Azərbaycana keçdiyini deyib. O bildirib ki, 1992-ci ilin mayında Şuşa və Laçının işğalı böyük faciə idi. Laçının statusu həmişə danışıqlar zamanı xüsusi yer tuturdu. Minsk qrupu çərçivəsində də Laçın məsələsi ayrı bir maddə kimi müzakirə olunurdu. Artıq Minsk qrupu fəaliyyət göstərmir, amma vaxtaşırı beynəlxalq ekspertlər Laçın məsələsini gündəmə gətirirdilər. Bu gün təşkil olunan dəyirmi masada müzakirələrlə buna aydınlıq gətirmək istəyirik.

BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova Laçının strateji cəhətdən önəmini qeyd edib. Diqqətə çatdırılıb ki, Ermənistan üçtərəfli Bəyanatdakı öhdəlikləri yerinə yetirməkdən yayınır. Ancaq Laçın şəhəri, Zabux və Sus kəndlərində yaşayanların mütləq əksəriyyəti Yaxın Şərq ölkələrindən gətirilmiş ermənilərdir, onlar bu torpaqları tərk etməlidirlər.

BMTM-in aparıcı məsləhətçisi Mətin Məmmədli nəzərə çatdırıb ki, Laçın Qarabağın qapısıdır. Laçın şəhəri hər zaman Azərbaycanın tarixi ərazisi olub. Laçındakı toponimlər də təsdiq edir ki, bu ərazilər etno-mədəni baxımından bizə məxsus olub.Ermənilər sovetlər dövründə də Qarabağla Ermənistan arasında maneə saydıqları Laçının statusunu ləğv etməyə çalışıb, buna nail ola bilməyiblər. Bu günlərdə Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçməsi ümumən Cənubi Qafqazda təhlükəsizlik mühitinə böyük töhfə verəcək.

Politoloq Zaur Məmmədov ermənilərin əsrlərdir ki, Laçını ələ keçirməyə çalışdıqlarını söyləyib. Politoloq qeyd edib ki, Laçın rayonunun Azərbaycana qaytarılmasına dair öhdəlik üçtərəfli Bəyanatda əksini tapıb. 1994-cü ildən sonrakı dövrlərdə aparılan sülh danışıqlarında da, həmçinin Laçın xüsusi yer tuturdu.

Tədbir müzakirələrlə davam etdirilib.

**AZƏRTAC**
**2022, 23 avqust**

**“Laçın və Laçın yolu: “Vətən müharibəsində qələbənin strateji vektoru” mövzusunda dəyirmi masa keçirilib**

Sosial Tədqiqatlar Mərkəzində “Laçın və Laçın yolu: “Vətən müharibəsində qələbənin strateji vektoru” mövzusunda dəyirmi masa keçirilib

AZƏRTAC xəbər verir ki, dəyirmi masada STM-in İdarə Heyətinin üzvləri, millət vəkilləri, media və vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.

Tədbirin moderatorluğunu Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu edib. O bildirib ki, Laçın dəhlizinə alternativ yolun çəkilməsi istiqamətində Azərbaycan üzərinə düşün bütün addımları atıb, 32 km uzunluğunda olan yolu öz ərazisində tamamlayıb. Ermənistan isə bu günə qədər məsələ ilə bağlı da üzərinə düşən öhdəliyi yerinə yetirməyib. Qeyd edib ki, Azərbaycan ərazilərinin işğaldan azad olunması, suverenliyinin bərpası uğrunda strategiyanı uğurla həyata keçirir, eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizdə infrastruktur layihələri gerçəkləşdirilir. Vurğulayıb ki, Ermənistan Qarabağda yaşayan ermənilərin taleyi ilə maraqlanmır. Yeni dəhlizlə bağlı layihənin reallaşmasında iştirakçı olmaması bunun bariz nümunəsidir. Bildirib ki, Ermənistanın sərgilədiyi mövqe Azərbaycan ərazisində yaşayan ermənilərin yeganə sığınacaq yerinin Azərbaycan dövləti olduğunu, onların talelərini yalnız Azərbaycana bağlaya biləcəklərini göstərir.

Sonra dəyirmi masanın proqramına uyğun məruzələr dinlənilib.

Milli Məclisin deputatı, YAP İH-nin üzvü Hikmət Məmmədov Laçın yoluna üçtərəfli Bəyanatın şərtləri kontekstində diqqət çəkib. Ermənistan dövlətinin Bəyanatın şərtlərinə necə əməl etməsindən danışıb. Qeyd edib ki, 30 ilə yaxın işğala Azərbaycan Müzəffər Ali Baş Komandanın qətiyyəti, ordumuzun qəhrəmanlığı nəticəsində son qoyulub, Cənubi Qafqazda yeni siyasi reallıq yaranıb. Deputat Ermənistan tərəfindən üçtərəfli Bəyanatın yerinə yetirilməyən bəndlərinə toxunub. Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin ordumuzun bölmələrinə qarşı törətdiyi terror-təxribatı nəticəsində şəhid verdiyimizi bildirib. Bunu siyasi terror kimi dəyərləndirmək lazım olduğunu ifadə edib. "Qisas" əməliyyatından sonra isə artıq Ermənistanın qərarlarında dəyişiklik edərək, Zəngəzur və Laçın dəhlizi ilə bağlı layihəni dəstəklədiyini bildirib. Qeyd edib ki, Azərbaycan öz milli gücünün müxtəlif komponentlərini işə salaraq Bəyanatın tələblərinin yerinə yetirilməsinə çalışır, yumşaq və hərbi gücü paralel tətbiq edərək özünün qüdrətini bir daha göstərir.

Laçında davam edən ekoloji terror və mədəni abidələrə qarşı erməni vandalizmindən bəhs edən STM-in İdarə Heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri, professor Tahirə Allahyarova bu əməllərin insanlıq əleyhinə cinayət kimi beynəlxalq hüquqi qiymətləndirilməsinin önəmini vurğulayıb. Bildirib ki, Ermənistan Azərbaycana qarşı bütün soyqırımı modellərini, növlərini törədib. Qeyd edib ki, Ermənistanın üzərinə götürdüyü Laçın şəhəri, Zabux və Sus kəndlərinin tamamilə boşaldılması öhdəliyi avqust ayının sonuna kimi yekunlaşacaq. Bundan əvvəl 2020-ci ilin dekabrında olduğu kimi, ermənilər tərk etdikləri ərazilərdə apara bilmədikləri nə varsa hamısını yandırmağa, məhv etməyə, dağıtmağa başlayıblar. Ermənistanın insanlıq əleyhinə cinayətlər törətməklə, beynəlxalq konvensiyaları kobud şəkildə pozmaqla, regional və qlobal təhlükəsizliyə ciddi təhlükə törədən dövlət olmasını nümayiş etdirməkdə davam etdiyini ifadə edib.

İdarə Heyətinin üzvü qeyd edib ki, Ermənistanın son 30 ildə Qarabağda həyata keçirdiyi terrorçuluq, vandalizm çoxşaxəli olmaqla, siyasi, hüquqi, iqtisadi, ekoloji, mülkiyyət əleyhinə, insan hüquqları, mədəni soyqırımı, şəhərlərin məhv edilməsi və təbiətə qarşı törədilən cinayətlərin tam bir kompleksini formalaşdırıb. Vurğulayıb ki, Zəfər tarixinin yazılması ilə dövlətimiz nəinki son iki ildə, bu gün, həmçinin paralel olaraq, son 30 ildə törədilən bütün cinayətlər kompleksini heç bir istisna olmadan beynəlxalq hüquqi instansiyalara daşınmasını təmin edəcək.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov beynəlxalq hüquq kontekstində Laçın rayonunda qanunsuz məskunlaşdırma mövzusuna toxunub. Bildirib ki, 30 ilə yaxın davam etmiş, 44 günlük müharibəylə son qoyulmuş işğal dövründə Ermənistan kütləvi şəkildə beynəlxalq cinayətlər törədib ki, bunlardan biri qanunsuz məskunlaşdırmadır. Qeyd edib ki, müharibələr və silahlı münaqişələr dövründə qeyri-qanuni məskunlaşdırmanın həyata keçirilməsi beynəlxalq humanitar norma və prinsiplərinə ziddir. Bu addımla məqsədin regionda demokratik vəziyyətin dəyişdirilməsi, həmin dövrdə mövcud olan status-kvonun saxlanması, məcburi köçkünlərin öz yurdlarına qayıtmasının qarşısının alınmasından ibarət olduğunu vurğulayıb. Bu cinayətləri törədən şəxslərin ədalət mühakiməsi qarşısında cavab verəcəyinə ümidini bildirib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev Laçın ərazisində mina çirklənməsindən söz açıb. Bildirib ki, Laçın dəhlizi Birinci və İkinci Qarabağ müharibəsinin taleyini həll edən ən strateji nöqtə olub. Laçın dəhlizinin ləğvi ilə Qarabağa giriş-çıxış Azərbaycanın tam nəzarətinə keçir. Bildirib ki, Ermənilər Laçındakı meşələri yandırır, abidələrimizi məhv edir. Vurğulayıb ki, onlar yerin altını da minalarla çirkləndirilər və bu, insanlığa qarşı törədilən bəşəri cinayətdir. Ermənilərin hələ də Azərbaycan torpaqlarında minalar basdırmağa davam etdiyini ifadə edib. Mina qurbanları, zərərçəkən hadisələrinə toxunub. Qeyd edib ki, azad olunan ərazilərdə ən böyük təhlükə minalardır və Azərbaycan ən yüksək mina təhlükəsi olan ölkələr siyahısındadır.

Daha sonra mövzu ətrafında müzakirələr baş tutub.

**AZƏRTAC**
**2022, 23 avqust**

**Laçında iki hərbi qulluqçumuz minaya düşüb**

Qubadlı hərbi prokurorluğu Laçın rayonunda iki hərbi qulluqçumuzun minaya düşməsi ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Müdafiə Nazirliyinin hərbi qulluqçuları Vüqar Süleymanovun avqustun 20-də, Heydər Gülmalıyevin isə avqustun 21-də işğaldan azad olunmuş Laçın rayonunun ərazisində minaya düşmələri nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə bağlı araşdırmalara başlanılıb.

**AZƏRTAC**
**2022, 22 avqust**

**Jalə Əliyeva: Laçın da, Zabux da, Sus da öz əbədi-əzəli sakinlərini səbirsizliklə gözləyir**

“…Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən Dövlət Qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar və biz onları yaxın zamanlarda öz doğma yerlərinə qaytaracağıq…”

Bu sözləri Müzəffər Ali Baş Komandan, qalib Sərkərdə, Prezident İlham Əliyev bir neçə gün əvvəl Azərbaycan Televiziyasına müsahibəsində söyləyib.

Müsahibəsində bir çox məsələlərə toxunan Ali Baş Komandan Ermənistanın, fitnəkar ermənilərin son təxribatlarına, o cümlədən onlar tərəfindən qanunsuz məskunlaşdırma siyasətinin davam etdirilməsinə toxunaraq növbəti dəfə xəbərdarlıq etdi, sərt mesajlar verdi.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, professor Jalə Əliyeva bildirib.

Deputat bildirib: “Müsahibəsində “…Biz bu yeni Laçın yolunu inşa etməyə başlayanda Rusiya tərəfi vasitəsilə Ermənistana müraciət etdik və dedik ki, – çünki mən təxmin edirdim ki, onların necə deyərlər belə hoqqabazlığı olacaq, - təklif etmişdik ki, gəlin biz də sizin ərazidə yol tikək. Orada cəmi 8-9 kilometrdir. İmtina etdilər bundan. Dedilər ki, yox, biz özümüz edəcəyik. Və nə vaxt buna başladılar?! Özü də buna başlamaq demək mümkün deyil, çünki elə ancaq texniki-iqtisadi əsaslandırmasını bunlar indi işləyirlər. O vaxt ki, biz artıq rəsmi məktubla Rusiya tərəfinə bildiriş göndərdik. Bildiriş göndərdik ki, bu yolu biz başa çatdırırıq avqustun 5-də və xahiş edirik ki, siz sülhməramlı kontingentin postlarını köhnə yoldan yeni yola keçirin. Bu da təbiidir. Biz bu məktubu onlara göndərəndə yəqin ki, Ermənistan tərəfi də o məktubla tanış oldu, ondan bir gün sonra Ermənistan bəyan etdi ki, biz bu yolun iqtisadi əsaslandırmasını başlamaq istəyirik və 2023-cü ilin sonuna qədər biz bunu inşa edəcəyik. Yəni, bu, faktiki olaraq manipulasiyadır” deyən dövlətimizin başçısı bəyan etdi ki, bu, tamamilə qeyri-ciddi və qeyri-adekvat addımdır. Azərbaycan Prezidenti Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanların çıxarılmalı olduğunu bir daha xatırlatdı”.

J.Əliyeva diqqətə çatdırıb ki, bu, təbiidir, bu, bizim haqlı tələbimizdir. Çünki onların orada qalması, əslində, müharibə cinayətidir. Çünki bu, Cenevrə konvensiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşdırma apara bilməz.

“Son günlər baş verənlər, Laçın rayonunun Zabux və Sus kəndlərində qeyri-qanuni məskunlaşdırılmış ermənilərin yaşadıqları yeri tərk edərkən evləri yandırmaları, ərazinin ekosisteminə zərər vurmaları məkrli və fitnəkar qonşularımızın nə qədər barbar, vandal olduqlarının növbəti nümayişidir. Onlardan yaxşı heç nə, insanlıq gözləməyə dəyməz. Özlərinin dağıdıcı, barbar mahiyyətlərinə uyğun davranırlar.

Ümumiyyətlə, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində-dəfələrlə ermənilərin vandallığına, barbarlığına məruz qalıb.

Bütün bunlara baxmayaraq, Azərbaycan həm 44 günlük Vətən müharibəsində, həm də postmüharibə dövründə sülhpərvər, humanist mövqe nümayiş etdirib.

Prezident İlham Əliyevin də dediyi kimi, Qarabağdakı etnik ermənilər Azərbaycan vətəndaşı kimi bu ərazilərdə yaşaya bilərlər, lakin onların nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı olacaq. Azərbaycan vətəndaşları necə, onlar da elə yaşayacaqlar”, - deyə deputat əlavə edib.

Jalə Əliyeva vurğulayıb ki, Laçın rayonunun Zabux və Sus kəndlərində yaşayan ermənilər oraya qanunsuz olaraq yerləşdiriliblər. Bu, qeyri-qanuni məskunlaşmadır və beynəlxalq hüquqa tamamilə ziddir. Vaxtilə burada yaşayan minlərlə azərbaycanlı öz doğma ata-baba yurdundan didərgin salınıb. Onların doğma yurdlarına geri qayıtmaları beynəlxalq hüquq, eləcə də haqq-ədalətin bərpası baxımından olduqca önəmlidir. Ermənilər Ağdamı, Kəlbəcəri, Laçını tərk edərkən törətdikləri vəhşilikləri indi də Laçın şəhərində, Zabux və Sus kəndlərində edirlər. Beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlar dünyanın gözünü bağlasa da, qulaqlar kar, gözlər kor olsa da, reallığı inkar etmək mümkün deyil. Azərbaycanlılarla ermənilər arasındakı fərq göz qabağındadır, bunun sübuta ehtiyacı yoxdur.

“Biz Laçına da, Zabuxa da, Susa da qayıdacağıq. Orada bir dənə də olsun erməni qalmamalıdır və qalmayacaq. İşğala qədər orada ermənilər yaşamayıblarsa, işğal aradan qaldırıldıqdan sonra da orada ermənilər ola, yaşaya və qala bilməzlər. Laçın da, Zabux da, Sus da öz əbədi-əzəli sakinlərini, bu torpaqların qanuni sahibləri olan insanları, azərbaycanlıları, laçınlıları həsrətlə və səbirsizliklə gözləyir. Biz qayıtmışıq, biz qayıdırıq, biz qayıdacağıq! Bizim qarşımızı kimsə kəsə, kimsə bizi öz yolumuzdan döndərə, kimsə bizi dayandıra bilməz və bilməyəcək.

Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanındır!”, - deyə Milli Məclisin deputatı fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 22 avqust**

**Tamam Cəfərova: Azərbaycanlıların doğma yurda – Laçına qayıtmaları haqq-ədalətin bərpası baxımından olduqca önəmlidir**

Laçın rayonunun Zabux və Sus kəndlərində qeyri-qanuni olaraq məskunlaşdırılmış ermənilərin yaşadıqları yeri tərk edərkən evləri yandırmaları, ərazinin ekosisteminə zərər vurmaları ilə əlaqədar görüntülər hamıya məlumdur. Bunlar ermənilərin nə qədər barbar, vandal olduqlarının növbəti nümayişidir. Təəssüf ki, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində ermənilərin bu vandallığına məruz qalıb. Bütün bunlara baxmayaraq, Azərbaycan həm 44 günlük Vətən müharibəsində, həm də postmüharibə dövründə sülhpərvər, humanist mövqe nümayiş etdirib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat bildirib ki, üçtərəfli Bəyanatın 6-cı maddəsində tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən, Laçın dəhlizindən yan keçən yeni hərəkət marşrutunun inşası planı və həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verməsi nəzərdə tutulmuşdu. Həmişə olduğu kimi, bu məsələdə də Azərbaycan verdiyi vədə əməl edərək, öz öhdəliyini yerinə yetirib. Qarabağda yaşayan etnik ermənilər üçün müasir standartlara uyğun yeni yol artıq inşa olunub. Buradan belə aydın olur ki, Bəyanatın müvafiq bəndinə əsasən, yerdəyişmənin həyata keçirilməsi üçün heç bir maneə qalmayıb. Bu yeni yolun Azərbaycan Respublikasının ərazisindəki hissəsinin bu qədər qısa müddətdə və belə yüksək keyfiyyətlə inşa olunması bir daha onu göstərir ki, Azərbaycan verdiyi vədlərə və üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə sonadək sadiqdir. Azərbaycan hər zaman olduğu kimi, yenə də humanist mövqe nümayiş etdirir. Buna baxmayaraq, son günlər Ermənistan tərəfi bölgədə vəziyyəti gərginləşdirərək, prosesə süni maneələr yaratmağa çalışır. Əlbəttə, bu, qəbulolunmazdır. Azərbaycan tərəfi isə həmişə olduğu kimi, qarşı tərəfin bütün cəhdlərinə cavab verməyə hazırdır. Bunun ən bariz örnəyini avqust ayının 4-də qəhrəman Ordumuzun həyata keçirdiyi “Qisas” antiterror əməliyyatında gördük. “Qisas” əməliyyatı düşmənə çox ciddi xəbərdarlıq idi.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin də dediyi kimi, Qarabağdakı etnik ermənilər Azərbaycan vətəndaşı kimi bu ərazilərdə yaşaya bilərlər, lakin onların nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı olacaq. Azərbaycan vətəndaşları necə, onlar da elə yaşayacaqlar.

“Xüsusilə qeyd etməliyik ki, Laçın rayonunun Zabux və Sus kəndlərində yaşayan ermənilər oraya qanunsuz olaraq yerləşdiriliblər. Bu, qeyri-qanuni məskunlaşmadır və beynəlxalq hüquqa tamamilə ziddir. Vaxtilə burada yaşayan minlərlə azərbaycanlı öz doğma ata-baba yurdundan didərgin düşüb. Onların doğma yurdlarına geri qayıtmaları beynəlxalq hüquq və eləcə də haqq-ədalətin bərpası baxımından olduqca önəmlidir. Ermənilər Ağdamı, Kəlbəcəri, Laçını tərk edərkən törədikləri vəhşilikləri indi də Laçın şəhərində, Zabux və Sus kəndlərində edirlər.

Beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlar dünyanın gözünü bağlasa da, reallığı inkar etmək mümkün deyil. Azərbaycanlılarla ermənilər arasındakı fərq göz qabağındadır. Ermənilər dağıdıcı, vəhşi, vandal, azərbaycanlılar isə qurucu, yaradıcı xalqdır, - deyə Tamam Cəfərova diqqətə çatdırıb.

**AZƏRTAC**
**2022, 20 avqust**

**Zəfərimizin Laçın dərsləri: Qələbəmizin dönüş nöqtəsi və Ermənistan dövlətinin terrorçu-vandalizm siyasəti üçün əcəl zəngləri**

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin strateji diplomatiya zəkası, qətiyyəti, iradəsi və hərbi-siyasi rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazandı, Ermənistan isə kapitulyasiya aktını imzaladı. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan Azərbaycana təhvil verildi.

Xalqımız və dünya ictimaiyyəti məhz həmin vaxt Laçın və Kəlbəcər rayonlarını tərk edən ermənilərin terrorçu və vandalizm aktlarının canlı şahidi oldular. Ermənilər evləri, mədəniyyət abidələrini dağıdıb, meşələri, qaz, işıq, su infrastrukturunu, kənd təsərrüfatı obyektlərini, arı pətəklərini yandırıblar. Həmçinin torpaqlarımıza piyada əleyhinə saysız-hesabsız minalar basdırıblar. Millətçi-şovinist, qanunsuz erməni silahlı dəstələrinin təxribatlar törətməsi ilə bağlı kadrlar bu gün də müvafiq arxivlərdə saxlanmaqdadır. Baş verən terror və vandalizm aktları Ermənistan dövlətinin siyasət mahiyyətini bir daha sübuta yetirir.

Ermənistan tərəfindən imzalanmış sözü gedən kapitulyasiya aktında Laçın şəhəri, Zabux və Sus kəndlərinin boşaldılaraq geri qaytarılması da dövlətimizin başçının şəxsi iradəsi ilə təsbit edilib. Bununla yanaşı, Qarabağda Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazidə yaşayan ermənilər Azərbaycandan 2022-ci ilin avqust ayının sonuna qədər vaxt verilməsini xahiş etmişdi. Ədalət və haqq müharibəsinin bütün qanunlarına əməl edən dövlətimiz ermənilər üçün bu şansı da yaradıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri professor Tahirə Allahyarova söyləyib.

Professor qeyd edib ki, müharibələr nə qədər böyük fəlakət olsa da, hərbi əməliyyatların da beynəlxalq hüquqda müəyyən edilmiş qaydalar çərçivəsində aparılması, qəddarlığa qoyulan məhdudiyyətləri var. Eyni zamanda, son otuz ildə erməni işğalı və terroru ilə üz-üzə qalan Azərbaycan xalqı etnik təmizləməyə, hüdudsuz qəddarlığa, amansız cinayətlərə məruz qalıb. Bu gün də həmin cinayətlərin izlərinə şahidlik edirik.

Ermənistanın üzərinə götürdüyü Laçın şəhəri, Zabux və Sus kəndlərinin tamamilə boşaldılması öhdəliyi avqust ayının sonuna kimi yekunlaşacaq. Bundan əvvəl 2020-ci ilin dekabrında olduğu kimi, ermənilər tərk etdikləri Zabux və Sus ərazisində apara bilmədikləri nə varsa hamısını yandırmağa, məhv etməyə, dağıtmağa başlayıblar. Yerli və beynəlxalq mediada evlərə od vurulması, meşələrin alova qərq edilməsi, torpaqlara minaların basdırılması, mədəni abidələrə qarşı vandalizm aktlarının törədilməsi, ekosid və urbisid adlanan təbiətə qarşı cinayətlər yenidən dəyişməz xəbər başlığına çevrilib. Belə ki, Ermənistan insanlıq əleyhinə cinayətlər törətməklə, beynəlxalq konvensiyaları kobud şəkildə pozmaqla, regional və qlobal təhlükəsizliyə ciddi təhlükə törədən dövlət olmasını nümayiş etdirməkdə davam edir.

İdarə Heyətinin üzvü bildirib ki, bütün bunların fonunda erməni əhalinin etnik təmizləməyə məruz qalması ilə bağlı Ermənistan dövlətinin əsassız hay-küyü və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmə kampaniyası başlayıb. Halbuki, Nikol Paşinyan da bəyan edib ki, Laçın dəhlizinə alternativ yol tikildikdən sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisindən kənarda yerləşən yaşayış məntəqələri, o cümlədən hazırda ermənilərin məskunlaşdığı Laçın və Zabux kəndləri Azərbaycana təhvil veriləcək.

Ermənistanın son 30 ildə Qarabağda həyata keçirdiyi terrorçuluq, vandalizm çoxşaxəli olmaqla, siyasi, hüquqi, iqtisadi, ekoloji, mülkiyyət əleyhinə, insan hüquqları, mədəni soyqırımı, şəhərlərin məhv edilməsi və təbiətə qarşı törədilən cinayətlərin tam bir kompleksini formalaşdırıb. Belə ki, Azərbaycan torpaqlarında təsbit olunan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Keçmiş Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənistan, həmçinin Qarabağda etnik təmizləməyə məruz qoyduğu soydaşlarımızı, Xocalı qətliamını törədib. İnsanlıq əleyhinə ən ağır soyqırımı cinayətini dövlət siyasəti səviyyəsində reallaşdırıb, 30 il ərzində qaçqın və məcburi köçkünləri əmlak-mülkiyyət hüquqlarından tamamilə məhrum edib. Cənnətməkan Qarabağda "yandırılmış torpaq" siyasətini təbiətə qarşı ən ağır cinayətləri törədib. Təbii sərvətlərimizi qanunsuz istismar edib, coğrafi landşaft və torpaq kadastrını viran qoyub. Həmçinin Qarabağda bütöv şəhərləri yer üzündən silməklə beynəlxalq konvensiyaları kobud şəkildə pozub. Bundan əlavə, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma kimi hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədib.

"Kapitulyasiya aktının reallaşdırılması fonunda Azərbaycan dövləti dünyada ilk dəfə baş verən XXI əsrin ən geniş miqyaslı qlobal humanitar layihəsini 30 ildən sonra azad Qarabağa qaçqın və məcburi

köçkünlərin qayıdışını gerçəkləşdirir. Bu gün Laçın və Zabuxda terrorçu mahiyyətli dövlət siyasətini davam etdirən Ermənistana törətdiyi bu cinayətlərin ağır yükü heç də asan başa gəlməyəcək. İşğalçılıq siyasətinin davam etdiyi otuz ilin hesabı bu ölkədən istəniləcək.

Təkcə beynəlxalq hüququn təsbit etdiyi haqlı cəza deyil, işğalçı siyasətin digər nəticələri də Ermənistanı təqib etməkdədir. Belə ki, Ermənistanın nəinki beynəlxalq nüfuzu çöküb, həmçinin erməni diasporasında da nüfuzunun azalması prosesləri başlayıb. Livan, Suriya, İraq və s. ölkələrin erməni əsilli əhalisi işğalçı və cinayətkar Ermənistanın diasporunun hərbi-siyasi rəhbərliyin əlində, sadəcə, oyuncaq olduqlarının fərqindədir. Dövlətimizin tələbi ilə Zabuxda hazırda tərk edilən qəsəbəyə investisiya yatıran iş adamları nəinki öz maliyyəsinin havaya uçmasını, üstəlik Ermənistan dövləti tərəfindən beynəlxalq və insanlıq əleyhinə cinayətlər işləməyə məcbur edilmələrini dərk edirlər",- deyə Tahirə Allahyarova vurğulayıb.

O əlavə edib ki, bu gün Zabuxda terror və vandalizm törədənləri təqdir edən Andranik Çavuşyanın beynəlxalq tribunal qarşısına çıxarılacağı gün uzaqda deyil. Zəfər tarixinin yazılması ilə dövlətimiz nəinki son iki ildə, bu gün, həmçinin, paralel olaraq, son 30 ildə törədilən bütün cinayətlər kompleksini heç bir istisna olmadan beynəlxalq hüquqi instansiyalara daşınmasını təmin edəcək. Azərbaycana vurulmuş ziyanın təfərrüatları hesablanır. Belə ki, artıq Azərbaycan Respublikasının Baş Prokurorluğu müvafiq cinayət işlərini qaldırıb. Növbəti mərhələ beynəlxalq məhkəmə və tribunallarda Azərbaycana Ermənistanın terrorçu və vandalizm dövlət siyasəti nəticəsində vurulan təzminatın tələb edilməsi mərhələsidir.

Strateji diplomatik zəkanın Laçın dönüşü Ermənistan dövlətinin terrorçu siyasətinə çalınan son əcəl zəngidir. Həmçinin ermənilərin bir daha azad Qarabağda bu siyasətə cürət etməyəcəyi ilə bağlı son xəbərdarlıqdır. Azərbaycanın ərazi bütövlüyünün dönüş nöqtəsi regional və qlobal, milli və bəşəri sülhün təhlükəsizliyinin təməl şərti olmasının bariz sübutudur. Əksinə, bu gün sülh müqaviləsindən boyun qaçıran, bütün təşəbbüsləri sabotaj edən Ermənistan regionda təhlükəsizliyi təhdid edən dövlət olaraq qalır. Zəfərimizin daha bir Zabux dərsi-alternativ Laçın yolunun Azərbaycan vətəndaşı olan ermənilərin gələcəyinin müstəsna firavanlıq, sülh yolu olacağına əminliyin rəmzidir.

**AZƏRTAC**
**2022, 19 avqust**

**Politoloq: Laçın dəhlizinə alternativ yolun istifadəyə verilməsi Azərbaycana bir sıra geostrateji üstünlüklər qazandırır**

Laçında qeyri-qanuni məskunlaşmış ermənilərin çıxarılması prosesi həyata keçirilir. Lakin xüsusi vurğulamaq lazımdır ki, ermənilər bu prosesdə də öz barbarlıqlarını və vandallıqlarını nümayiş etdirirlər. Belə ki, onlar torpaqlarımızı tərk edərkən ərazilərə od vurur və nəinki evləri, eləcə də meşələri yandırırlar. Bütün bunlar erməni xislətinin bariz nümunələridir. Eyni zamanda, qeyd olunmalıdır ki, Laçın şəhərinin, eləcə də Zabux və Sus kəndlərinin qeyri-qanuni məskunlaşdırılması siyasəti uzun illər davam etdirilib. Hazırda Ermənistanın hərbi-siyasi rəhbərliyi bu müharibə cinayətlərinə görə cavab verməlidir.

Bunu AZƏRTAC-a açıqlamasında politoloq İlyas Hüseynov söyləyib.

Politoloq bildirib ki, Cenevrə Konvensiyasının və onun əlavə protokollarının kobud şəkildə pozulması göz qabağındadır. Eyni zamanda, Laçın dəhlizinə alternativ yolun istifadəyə verilməsi Azərbaycana bir sıra geostrateji üstünlüklər qazandırır. Bu yol üzərində nəzarətin daha da gücləndirilməsi prosesi həyata keçiriləcək. Prezident İlham Əliyev bununla bir daha nümayiş etdirdi ki, təhlükəsizliyin təmin olunması, regionun hərbsizləşdirilməsi və üçtərəfli Birgə Bəyanatın implementasiyası Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir.

"Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti "nəyi, necə, nə vaxt etmək lazımdır" tezisi ilə ideoloji konsepsiya formalaşdırıb. Həm torpaqların işğaldan azad olunması, həm də postmüharibə reallıqları kontekstində milli maraqlarımız çərçivəsində bütün proseslərin həll edilməsinin şahidi oluruq. Bu da ölkəmizə bir sıra üstünlüklər qazandırır. Azərbaycan tərəfi nəinki üçtərəfli Birgə Bəyanatda qeyd olunmuş maddələrin icra edilməsində yaxından iştirak edir və müxtəlif təşəbbüslər irəli sürür, eyni zamanda, digər məsələlərin də siyasi gündəliyə salınmasına böyük səylə çalışır. Bu xüsusda, həm sərhədlərin delimitasiyası və demarkasiyası, həm Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minə yaxın soydaşımızın aqibətinin müəyyən olunması, eləcə də Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı proseslərə məhz dövlətimizin başçısının irəli sürdüyü təşəbbüslər sayəsində başlanılıb. Həmçinin iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpa edilməsi, kommunikasiya xətlərinin açılması Azərbaycana nəqliyyat-logistika baxımından da bir sıra üstünlüklər qazandıracaq ki, ölkəmiz bununla da regionun inkişaf xəritəsində mühüm rol oynayacaq", - deyə İ.Hüseynov qeyd edib.

**AZƏRTAC**
**2022, 18 avqust**

**Laçında qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib**

Laçın rayonunun şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələri tərəfindən ərazinin kəşfi aparılıb. Aşkar edilmiş minalar xüsusi hazırlıq keçmiş istehkam qrupu tərəfindən zərərsizləşdirilib.

Avqustun 15-də, bir gün ərzində, minalanmış sahədən ümumilikdə 991 ədəd PMN-E növlü piyada əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla utilizasiya edilib.

Xüsusi qeyd etmək lazımdır ki, bu istiqamətində aşkar edilən minaların hamısı Vətən müharibəsindən sonra - 2021-ci ildə Ermənistanda istehsal olunub.

**AZƏRTAC**
**2022, 18 avqust**

**Prezident İlham Əliyev: Biz Laçına, Zabuxa, Susa qayıtmalıyıq**

Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən artıq Dövlət qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar. Biz yaxın zamanlarda onları öz doğma yerlərinə qaytaracağıq.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

Azərbaycanın 2020-ci il 10 noyabr Bəyanatı ilə üzərinə götürdüyü bütün öhdəliklərə sadiq qaldığını, Laçından yan keçən yeni yolun tikintisini və digər addımları da bu öhdəliklər əsasında atdığını və gördüyünü bildirən dövlətimizin başçısı deyib: "Ermənistan isə, sadəcə olaraq, yenə də fitnəkarlıqla məşğuldur. Bir də ki, onlar başa düşməlidir, vaxt uzatmaq onlara heç nə verməyəcək. Əgər onlar fikirləşirlər ki, bir ildən, yaxud il yarımdan sonra nəsə dəyişəcək bunların xeyrinə, səhv edirlər. Nəsə dəyişə bilər, amma bizim xeyrimizə. Çünki dünyada, bölgədə gedən geosiyasi vəziyyət göz qabağındadır. Böyük siyasətçi olmaq lazım deyil ki, bunu hər kəs görsün. Azərbaycanın artan gücü, həm hərbi, həm iqtisadi, həm siyasi gücü, Ermənistanın faktiki olaraq, əgər belə demək mümkündürsə, təklənməsi. Nə üçün təklənməsi? Ona görə ki, onlar haqsızdır. Onlar nahaq iş görürlər. Onlar hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər. Halbuki, mən onlara birbaşa demişəm, özü də rəsmi qaydada. Əl çəkin ərazi iddialarından. Əl çəkməsəniz, o zaman biz də ərazi iddiası qaldıra bilərik Ermənistana qarşı".

Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır.

**AZƏRTAC**
**2022, 12 avqust**

**Hikmət Hacıyev: İşğaldan sonra Laçında ermənilərin qanunsuz məskunlaşdırılması aparılıb**

Laçının işğalı və talan edilməsindən sonra Yaxın Şərqdən olan ermənilər bu ərazilərdə qanunsuz məskunlaşdırılıb.

Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbəsinin müdiri Hikmət Hacıyev özünün tviter hesabındakı paylaşımında qeyd edib.

AZƏRTAC paylaşımı təqdim edir: “Robert Silinin 1992-ci ilin mayında Laçının Zabux kəndinin Ermənistan tərəfindən qanunsuz işğalı, yandırılması və talan edilməsi haqqında “Times” qəzetində reportajı. İşğaldan sonra ermənilərin Yaxın Şərqdən köçürülməsi yolu ilə qanunsuz məskunlaşdırılması aparılıb. Əlyazmalar yanmır”.

**AZƏRTAC**
**2022, 9 avqust**

**Azərbaycan Ordusunun əsgəri Laçında döyüş tapşırığını yerinə yetirərkən vəfat edib, digər hərbçi xəsarət alıb**

Avqustun 5-i Laçın rayonunda çətin relyefli ərazidə xidməti döyüş tapşırığını yerinə yetirərkən sıldırım qayalıqlardan qopan qaya parçası Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Xudiyev Samir Səməd oğlu və əsgər Əliyev Tahir Çingiz oğlunun üzərinə düşüb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib

Nəticədə əsgər S.Xudiyev aldığı bədən xəsarətlərindən hadisə yerində vəfat edib. Müxtəlif bədən xəsarətləri almış əsgər T.Əliyevin vəziyyəti ağır qiymətləndirilir.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

**AZƏRTAC**
**2022, 5 avqust**

**Kəlbəcər və Laçında yerləşən mövqelərimiz atəşə tutulub**

İyulun 30-u günorta saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**AZƏRTAC**
**2022, 30 iyul**

**Azər Badamov: Dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu**

Prezident İlham Əliyevin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərləri "Böyük Qayıdış"ın əhatə dairəsini genişləndirir və sürətləndirir. Dövlətimizin başçısı bu ərazilərə səfərləri çərçivəsində verilmiş tapşırıqların icrasını yoxlayır, yeni layihələrə baxış keçirir. Həmçinin hazır layihələrin açılışlarını edir və lazımi mesajlar verir. İşğaldan azad olunmuş ərazilərdə görülən işlərin miqyası gündən-günə genişlənməkdədir. Azad olunmuş bütün ərazilərdə bu gün bərpa-quruculuq işlərinə başlanılıb. Açılışları olmuş infrastruktur layihələri yenilərinin başlanılmasını sürətləndirir və icrasını asanlaşdırır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat qeyd edib ki, dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu. Bu səfərin Silahlı Qüvvələr Gününə təsadüf etməsinin də böyük siyasi əhəmiyyəti var. Yəni, bu o deməkdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyev hər zaman öz əsgərinin yanındadır.

"Ordumuz gündən-günə güclənir. Qələbə qazandığımız 44 günlük Vətən müharibəsində döyüş əməliyyatları bir daha təftiş olunur, üzə çıxmış zəif yerlər yenidən nəzərdən keçirilir və düzəlişlər edilir. O cümlədən, qələbənin qazanılmasında xüsusi şücaət göstərmiş xüsusi təyinatlı birliklərin təcrübəsi genişləndirilir. Belə ki, yeni komando ordu növlərinin yaradılması prosesi də genişləndirilir. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə komando hərbi hissələrinin açılışlarında iştirak edir, döyüş bayrağını təqdim edərək öz tapşırıqlarını verir. Komando qoşun növünün genişlənməsi Ordumuzun gücünün dəfələrlə artdığını göstərir. Çünki komandolar qarşısına qoyduğu hər bir döyüş tapşırığını yüksək səviyyədə icra etmək iqtidarında olan qoşun növüdür.

Biz, həmçinin Ermənistanla dövlət sərhədimizi möhkəmləndiririk. Paralel olaraq, infrastruktur formalaşdırılır. Belə ki, həmin ərazilərdə hərbçilərin hərəkətini təmin etmək üçün 700 kilometrdən çox yol çəkilib. Dövlətimizin başçısı komando hərbi hissəsinin açılışında çıxış edərkən Ermənistana da çox ciddi mesajlar ünvanladı. Yəni, ölkələrimiz arası münasibətlərin tənzimlənməsinin və Zəngəzur dəhlizinin açılmasının alternativi yoxdur, İrəvanda baş qaldıran revanşistlərin başını yenidən əzməyə Azərbaycan hər zaman hazırdır. Düzdür, müharibə istəmirik, istəyirik ki, gündəlikdə olan məsələlər danışıqlar yolu ilə həll olunsun. Əks halda isə, tarixi torpaqlarımızı da özümüzə qaytarmağımıza məcbur olacağıq", - deyə deputat qeyd edib.

A.Badamov bildirib ki, dövlətimizin başçısı səfər çərçivəsində İstisu sanatoriyasının təməlqoyma mərasimində iştirak etdi. Kəlbəcər rayonu böyük turizm potensialına malikdir. Bu ərazilərin füsunkar təbiəti, təmiz havası, qaynayan bulaqları turizmin müxtəlif sahələrin fəaliyyəti üçün imkanlar açır. O cümlədən İstisuyun müalicəvi əhəmiyyəti sağlamlıq turizminin inkişafına, həm də İstisu mineral suyunun istehsalı prosesinin təşkil olunaraq satışının həyata keçirilməsi bu rayonun iqtisadiyyatının yenidən dirçəlməsinə imkan verəcək.

Kəlbəcər rayonunun baş planının təbiətə inteqrasiya olunmuş şəkildə nəzərdə tutulması bu şəhərə unikal görkəm verəcək. İşğal və zəfər muzeylərinin inşası həm rayonun tarixini yaşadacaq, həm də rayona səfər etmiş hər bir qonaq üçün məlumat mənbəyi olacaq. Bu ərazilərin yol infrastrukturunun yenidən qurulması, dağların altından tunellərin çəkilməsi, çətin relyefə malik Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi bu ərazilərin yenidən qurulması üçün yüklərin daşınmasını asanlaşdıracaq, həm də Şuşaya və digər rayonlara səfərlərin daha rahat şəkildə həyata keçirilməsinə imkan verəcək.

"İşğaldan azad olunmuş əraziləri dövlətimizin başçısı "yaşıl enerji" zonası adlandırıb. Bu ərazilərdə bərpaolunan enerjinin istehsalı üçün yeni stansiyalar quraşdırılır. O cümlədən ermənilərin torpaqlarımızı işğal etdiyi dövrdə darmadağın edərək taladıqları 30-a yaxın kiçik su elektrik stansiyaları yenidən bərpa edilərək müasirləşdirilir. Bu stansiyalarda heyət iştirak etmədən uzaqdan idarəetmə elektron sistemləri quraşdırılır ki, bu da həmin stansiyalarda istehsal olunan elektrikin maya dəyərinin çox aşağı olmasına gətirib çıxarır. Bu günə qədər işğaldan azad olunmuş ərazilərdə 5 su elektrik stansiyası yenidən qurulub, 4 su elektrik stansiyasının da cari ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulub ki, bu da ölkəmizin enerji gücümüzün artmasına bir töhfəsi olacaq", - deyə Azər Badamov qeyd edib.

Deputat diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərimizdə icra olunan bütün meqa layihələri heç bir xarici dəstək olmadan Azərbaycan dövləti ancaq öz gücü hesabına həyata keçirir. Bu, həm də

Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Dövlətimizin başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi siyasət kursu Azərbaycanı güclü iqtisadiyyatı olan ölkəyə çevirib.

“Onu da qeyd etmək istəyirəm ki, cari ildə işğaldan azad olunmuş ərazilərə 2,2 milyard manat vəsait ayrılmasına baxmayaraq, dövlət büdcəsinə yenidən baxmaq imkanı əldə etməyimizi və həmin ərazilərin yenidən qurulmasına 1,5 milyard manata qədər əlavə vəsaitin ayrılmasını ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin uğuru hesab edirəm. İşğaldan azad olunmuş ərazilərimizdə yeni yaşayış məntəqələrinin sürətlə inşa edilməsi “Böyük Qayıdış” prosesini uğurla həyata keçirməyimizə imkan verəcək”, - deyən Azər Badamov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 1 iyul**

**Hikmət Babaoğlu: Laçın Beynəlxalq Hava Limanının inşası Şərqi Zəngəzurun inkişafı üçün açar rolunu oynayacaq**

Azərbaycan Prezidenti İlham Əliyevin Şərqi Zəngəzura səfəri işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və vətəndaşlarımızın öz ata-baba yurdlarına qayıtmasının təşkili baxımından olduqca vacib əhəmiyyətli bir səfər kimi yadda qaldı. Azərbaycan 30 il sürən işğaldan sonra öz torpaqlarını azad edib.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib.

Deputatın sözlərinə görə, hazırda ən ümdə milli vəzifəmiz azad olunmuş torpaqlarımızda yaşayışı bərpa etmək, insanlarımızı öz doğma yurdlarına qaytarmaqdır. Ancaq bunun üçün bir necə vacib məsələ öncədən həll edilməlidir. Birincisi sərhdlərimizdə və bütövlükdə işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik təmin edilməlidir. Azərbaycan Ordusu və digər müvafiq qurumlarımız bu işin öhdəsindən layiqincə gəlirlər.

"Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etdi. Dövlətimizin başçısı mərasimdə çıxışı zamanı məhz təhlükəsizlik məsələlərini önə çəkərək bildirdi ki, bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlayıb, Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır. İkinci vacib məsələ erməni barbarları tərəfindən dağıdılan kənd və şəhərlərimizin yenidən qurulmasıdır ki, hazırda bu prosesin ilkin mərhələsindəyik. Yəni bunun üçün ilk növbədə yol nəqliyyat infrastrukturu da daxil olmaqla enerji və digər bütün kommunikasiyaların yaradılması vacibdir. Eyni zamanda, yurd yerlərinə qayıdacaq vətəndaşlarımızın məşğulluğunun təmin edilməsi də əsas prioritetlərdən biridir. Ona görə də Azərbaycan Prezidenti Laçın və Kəlbəcərdə bir neçə su elektrik stansiyalarının təməlini qoydu. Kəlbəcərdə "İstisu" sanatoriyasının və İstisu mineral su zavodunun tikinti işlərinə start verdi. Tikilməkdə olan körpü və yolların tikinti işləri ilə tanış oldu", - deyə H.Babaoğlu qeyd edib.

Deputat bildirib ki, Laçın Beynəlxalq Hava Limanının və Həkəriçay Su Anbarının tikintisi Şərqi Zəngəzurun inkişafı üçün açar rolunu oynayacaq. "Ancaq məsələnin, həm də mühüm mənəvi tərəfi də var. Biz uzun illər işğal altında qalan, adlarını tələffüz etdiyimiz zaman kədərə boğulduğumuz Vətən torpaqlarına böyük coşqu ilə qayıdırıq. Bu, əsl milli qürur hadisəsidir.

**AZƏRTAC**
**2022, 29 iyun**

**Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarında hərbçilərlə birlikdə olması onlara göstərilən qayğının, dəstəyin ifadəsidir**

Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımıza dəfələrlə səfər edib. Bu səfərlər müxtəlif təyinatlı və məqsədli olur. Xarici ölkə rəhbərləri ilə görüş, beynəlxalq və milli əhəmiyyətli mədəniyyət tədbirlərində iştirak, quruculuq, bərpa işlərində təməlqoyma və açılışlarla müşayiət olunur. Yəni, bu səfərlərin hər biri özünəməxsusluğu ilə seçilir, lakin hamısı siyasi, iqtisadi, hərbi mahiyyət daşıyır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyasının sədr müavini Yalçın Hacızadə söyləyib.

O qeyd edib ki, Prezident İlham Əliyev bu səfərlərdə keçmişdə münaqişənin həlli ilə bağlı aparılmış danışıqlar barədə, günümüzdə görülən quruculuq, bərpa işləri, gələcək planlar və regional siyasətlə əlaqəli çıxışlar edir. Ona görə də belə səfərləri təkcə bizim ictimaiyyət deyil, Ermənistan və regionda maraqlı olan ölkələr də diqqətlə izləyir və müzakirə edir.

Dövlətimizin başçısının son səfərinin Silahlı Qüvvələr Günündə olması heç də təsadüfi deyil. Belə bir gündə Prezident, Ali Baş Komandan İlham Əliyevin ölkənin ən çətin coğrafi relyefinə malik Kəlbəcər və Laçın rayonlarında hərbçilərlə birlikdə olması onlara göstərilən qayğının, dəstəyin ifadəsidir.

"Prezident İlham Əliyev səfər çərçivəsində yeni komando hərbi hissəsinin açılışını edib və döyüş bayrağını təqdim edib. Komando birliklərinin yaradılması tarixi Qələbəmizdən sonra ordu quruculuğumuzu Türkiyə Respublikasının Silahlı Qüvvələri tipində yenidən formalaşdıracağıq fikri istiqamətində görülən işlərdir. Səfərlər çərçivəsində yeni–yeni layihələrin təməli atılır və ya tikintisi bitmiş layihələrin açılışı edilir. Əlbəttə, bütün bunlar regionun inkişafına, ərazidə yaşayacaq sakinlərin məşğulluğuna xidmət edəcək. Yenidənqurma və bərpa işləri üçün əvvəlcə ərazinin təhlükəsizliyini təmin edəcək şərait yaradılır, hərəkət üçün yol - nəqliyyat, hava limanları, kommunal xidmətlər infrastrukturu qurulur, köçürüləcək sakinlərə məşğulluğun və iş yerlərinin yaradılması üçün müəssisələr hazırlanır. Həmçinin kənd təsərrüfatı sahələrinin becərilməsi üçün suvarma sistemləri, su anbarlarının inşası həyata keçirilir.

Y.Hacızadə əlavə edib ki, dövlətimizin başçısının səfərləri, aparılan işlər yaranmış yeni siyasi şəraitin geri dönüşünün olmayacağını göstərir. Ermənistan işğal etdiyi ərazinin maddi–mənəvi sərvətlərini talayıb. Eyni zamanda, işğal etdiyi ərazilərdə 30 il müddətində heç bir iş görməyib. Çünki düşmən ölkə torpaqların onlara məxsus olmadığını, nə vaxtsa sahibinə geri dönəcəyini bilirdi.

İşğaldan azad edilmiş ərazilərdə həyatın bərqərar olması, inkişafın təmin edilməsi, bölgənin coğrafi mövqeyinin verdiyi imkanlardan istifadə edərək beynəlxalq kommunikasiya sistemlərinin qurulması sahəsində dövlətin vahid siyasi xətti var. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin güclü lider kimi formalaşdırdığı xalqın birliyi, güclü ordu və iqtisadi sabitliyə əsaslanır.

**AZƏRTAC**
**2022, 28 iyun**

**Prezident İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib**

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub, Kəlbəcər rayonunda yeni tikilmiş “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq “Qorçu” elektrik yarımstansiyasında aparılan işlərlə tanış olub.

Dövlətimizin başçısına Laçın rayonunda “Həkəriçay” su anbarı layihəsi təqdim edilib. Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub.

Dövlətimizin başçısına Kəlbəcər şəhərinin baş planı təqdim edilib.

Sonra Prezident İlham Əliyev Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun təməlini qoyub, tikilməkdə olan “Çıraq-1” kiçik su elektrik stansiyasında olub. Burada dövlətimizin başçısına hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə məlumat verilib.

Prezident İlham Əliyev Kəlbəcər rayonunda İstisu sanatoriyasının təməlini qoyub.

Sonra dövlətimizin başçısı çıxış edib.

**AZƏRTAC**
**2022, 26 iyun**

**Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanışlıq**

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.

Qeyd edildi ki, "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

**AZƏRTAC**
**2022, 26 iyun**

**Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq**

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir.

Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək.

Qeyd olundu ki, aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.

Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

**AZƏRTAC**
**2022, 26 iyun**

**Müdafiə Nazirliyi: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub**

İyunun 24-ü gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2022, 24 iyun**

**Kəlbəcər və Laçında tikintisi davam edən hərbi obyektlərə baxış keçirilib**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Kəlbəcər və Laçında tikintisi davam edən hərbi obyektlərdə görülən işlərlə tanış olublar.

Məruzə olunub ki, işğaldan azad olunmuş rayonlarda hərbi polisin xidməti fəaliyyətinin yüksək səviyyədə təşkili üçün yataqxana və xidməti otaqlar, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi, eləcə də digər infrastruktur obyektlərinin tikilməsi və müasir avadanlıqlarla təchiz olunması nəzərdə tutulub.

Sonra general-polkovnik Z.Həsənov tikintisi davam edən maddi-texniki təminat anbarlarına baxış keçirib. Bildirilib ki, iqlim və relyefdən asılı olmayaraq qoşunların fasiləsiz və dayanıqlı fəaliyyətini təşkil etmək məqsədilə müasir tələblər nəzərə alınaraq inşa edilən anbarlar vasitəsilə bölmələr silah-sursat, yanacaq-sürtkü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla mərkəzləşdirilmiş qaydada təmin olunacaq.

Tikinti işlərinin gedişatını yoxlayan müdafiə naziri təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi, inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlarını verib.

**AZƏRTAC**
**2022, 19 iyun**

**Laçında dislokasiya olunan hərbi hissədə cari tədris ilinin birinci rübünün nəticələrinə dair yekun iclas keçirilib**

Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Laçında dislokasiya olunan hərbi hissədə 2022-ci tədris ilinin birinci rübünün nəticələrinə dair yekun iclas keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Vəzifəli şəxslər bölmələrin döyüş qabiliyyətinin artırılması, xidməti-döyüş fəaliyyətinin təşkili ilə bağlı 2022-ci ilin birinci rübü ərzində keçirilən təlim-məşqlər və görülən digər tədbirlər barədə geniş məruzələrlə çıxış ediblər.

İclasda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiymət, göstərdiyi diqqət və qayğı xüsusi vurğulanıb.

Sərt iqlim şəraitində, çətin relyefli dağlıq ərazidə xidmət aparan hərbi qulluqçuların dövlət sərhədi istiqamətində döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması ilə bağlı müdafiə nazirinin tapşırıqları aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırılıb.

Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən hərbi qulluqçular təltif olunublar.

**AZƏRTAC**
**2022, 1 may**

**Kəlbəcər və Laçında xidməti-döyüş fəaliyyətləri yoxlanılıb**

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti dövlət sərhədinin Kəlbəcər və Laçın rayonu sahəsində yerləşən bir sıra döyüş mövqelərinə baxış keçirib, burada xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb. Qeyd olunub ki, döyüş növbətçiliyinin gecə və gündüz keyfiyyətli təşkili və aparılması üçün hər cür şərait mövcuddur. Müşahidə məntəqələri müasir texniki avadanlıqlarla təchiz olunub.

General-polkovnik Z.Həsənov şəxsi heyətlə görüşərək onların qayğıları ilə maraqlanıb, xidmətlərində uğurlar arzulayıb. Hərbi qulluqçular dövlət sərhədində xidmət etməkdən qürur duyduqlarını və burada yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Müdafiə naziri döyüş növbətçiliyinin təşkili və qoşunların döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Sonra nazir Kəlbəcər və Laçın rayonlarında yeni istifadəyə verilmiş hərbi obyektlərə baxış keçirib. Məruzə olunub ki, müasir tələblər nəzərə alınmaqla yeni inşa edilmiş hərbi infrastrukturlarda şəxsi heyət üçün lazımi şərait yaradılıb. Binalar bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar mövcuddur.

Daha sonra nazirliyin rəhbər heyəti hərbi hissələrin parkında texnikaların saxlanma şəraiti, istismarı və göstərilən texniki xidmətin keyfiyyəti ilə maraqlanıb. Texniki xidmət və təmir məntəqələrində yaradılan şəraitlə tanış olan müdafiə nazirinə bildirilib ki, müasir avadanlıqlarla təchiz olunan məntəqələrdə döyüş texnikaları və avtomobillərə texniki xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb. Bu məntəqələrdə döyüş texnikası və nəqliyyat vasitələrinə planlı şəkildə mövsümi qulluğun göstərilməsi nəzərdə tutulub. General-polkovnik Z.Həsənov məntəqələrdə görüləcək işlər zamanı şəxsi heyətin təhlükəsizlik qaydalarına tam əməl etməsi, eləcə də digər vacib məsələlərlə bağlı tapşırıqlarını çatdırıb.

Sonda Kəlbəcər və Laçın rayonlarında tikintisi davam edən bir neçə hərbi obyektdə aparılan inşaat işlərinin gedişatını yoxlayan nazir tikinti işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

**AZƏRTAC**
**2022, 8 aprel**

**Prezident: Laçın dəhlizi bizim nəzarətimizdədir, biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz**

Sülhməramlıların fəaliyyətini qiymətləndirmək üçün hesab edirəm ki, biz daha geniş prizmadan yanaşmalıyıq və əlbəttə ki, qıcıq doğuran məqamlar az deyil. Amma, eyni zamanda, onların müsbət funksiyalarını da qeyd etməmək ədalətsizlik olar. Onlar indi önəmli funksiyanı yerinə yetirirlər. Eyni zamanda, onlar Kəlbəcər, Laçın rayonlarına bizim həm hərbçilərimizin, həm də yüklərin göndərilməsini və daşınmasını müşayiət edirlər və prinsipcə deyə bilərəm ki, mən onların ümumi fəaliyyətinə müsbət yanaşıram.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib.

Dövlətimizin başçısı deyib: "Yəni, keçən il bir çox şeylərə aydınlıq gətirdi, çünki eyni zamanda, bizim Rusiya ilə əlaqələrimizdə yeni bir element yarandı, hansı ki, bu element yox idi. Azərbaycan–Rusiya əlaqələri həmişə çox müsbət olub. Amma keçən il bu əlaqələr daha da dinamik olub və təmaslar daha çox olub, o cümlədən prezidentlər səviyyəsində, müxtəlif səviyyələrdə. Bu, bizim əlaqələrimiz üçün bir yenilik idi və bu yenilik ikitərəfli əlaqələrə problem yarada bilərdi, ya da ki, ikitərəfli əlaqələri gücləndirə bilərdi. Mən deyə bilərəm, artıq keçən ili, bu ili təhlil edərkən sülhməramlı missiyanın Azərbaycan tərəfdaşları ilə münasibətləri ikitərəfli əlaqələrə müsbət təsir göstərmişdir. Ona görə bunu biz bilməliyik, Azərbaycan vətəndaşları da bilməlidirlər".

Qıcıq doğuran məsələlərə toxunan Prezident İlham Əliyev qeyd edib ki, dəfələrlə qanunsuz səfərlər baş verdikdə rəsmi qaydada Rusiya tərəfinə irad bildirilir. Valeri Pekresin son qanunsuz səfəri ilə bağlı da eyni addımlar atılıb. Bizə belə bir cavab verildi ki, biz görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair. "Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər. Onun yanında Fransanın keçmiş xarici işlər naziri, avrokomissar Barnye, bir deputat olmuşdur. Onlar gizli şəkildə oraya getdilər və qayıtdılar. Qayıdandan sonra artıq xəbər çıxdı, çünki yəqin ehtiyatlanırdılar ki, biz Laçın dəhlizində onları dayandıracağıq. Çünki əgər xəbərimiz olsaydı ki, onlar oradadırlar, biz onları geri buraxmayacaqdıq, birmənalı şəkildə. Laçın dəhlizi bizim nəzarətimiz altındadır. Siz Şuşada olmusunuz, görmüsünüz. Biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz", - deyə Prezident vurğulayıb.

**AZƏRTAC**
**2022, 12 yanvar**

**Laçın rayonunda yerləşən hərbi hissələrin döyüş hazırlığı yoxlanılıb**

Müdafiə nazirinin tapşırığına əsasən müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Laçın rayonunda dislokasiya olunan hərbi hissələrdə olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərt iqlim şəraitində, çətin relyefli dağlıq ərazidə xidmət aparan şəxsi heyətlə görüşən Baş Qərargah rəisi dövlət sərhədində, o cümlədən Qaragöl gölü istiqamətində döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazır olma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün lazımi tapşırıqlar verib.

Sonra hərbi birliyin şəxsi heyəti ilə xidməti müşavirə keçirilib, 2021-ci ilin yekunları təhlil olunub. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və müdafiə nazirinin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar, o cümlədən hərbi qulluqçuların sosial-məişət şəraiti və mənəvi psixoloji durumunun yaxşılaşdırılması istiqamətində aparılan işlər müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Xidməti döyüş fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

Müşavirədə polkovnik Münasib Babayevə "general-mayor" ali hərbi rütbəsi verilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı oxunub, ona gələcək xidmətində uğurlar arzulanıb, xidməti fəaliyyətin daha səmərəli təşkili ilə bağlı müdafiə nazirinin tapşırıq və tövsiyələri çatdırılıb.

Sonda Baş Qərargah rəisi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından şəxsi heyəti təbrik edib.

**AZƏRTAC**
**2021, 30 dekabr**

**Kəlbəcər və Laçın rayonlarında hərbi obyektlər istifadəyə verilib**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğı nəticəsində həyata keçirilən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kəlbəcər və Laçın rayonlarında səfərdə olan nazirliyin rəhbərliyi yeni inşa olunmuş hərbi təyinatlı obyektlərin açılışında iştirak edib.

Hərbi qulluqçuların yaşayış yeri ilə tanış olan general-polkovnik Zakir Həsənova məruzə olunub ki, hərbi hissələrdə şəxsi heyət üçün lazımi şərait yaradılıb. Binalar bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarla təchiz edilib. Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar mövcuddur. Binalar istilik, işıq və su xətləri ilə təmin olunub.

Hərbi hissələrin avtomobil parkı ilə tanış olan müdafiə nazirinə bildirilib ki, alınan yeni tırtıllı və xizəkli texnika vasitələri ilə qarla örtülmüş çətin relyefli ərazilərdə şəxsi heyətin, o cümlədən yüklərin fasiləsiz daşınması təmin edilir.

Döyüş hazırlığı planına uyğun olaraq keçirilən məşğələlərin gedişini izləyən müdafiə nazirinə məruzə edilib ki, silahlanmaya yeni qəbul olunmuş texnikanın gücü ilə bölmələrin fəaliyyəti daha operativ olub.

Səfər zamanı yeni tikilmiş yeməkxananın da açılışı olub. Müasir avadanlıqla təchiz edilmiş mətbəx, hərbi qulluqçuların isti yeməklə qidalanmasını təmin edən heyət üçün ayrıca istirahət otağı, ərzaq anbarları və digər sahələrdən ibarət yeməkxanada sanitar-gigiyenik qaydalara tam riayət olunur.

Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**
**2021, 18 dekabr**

**Prezident İlham Əliyev: Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır **

Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev NATO-nun mənzil-qərargahında Alyansın Baş katibi Yens Stoltenberq ilə birgə keçirilən mətbuat konfransında müvafiq suala cavabında bildirib.

“Bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması”, - deyə Prezident İlham Əliyev qeyd edib.

**AZƏRTAC**
**2021, 14 dekabr**

**Sədaqət Vəliyeva: Laçın rayonunun işğaldan azad olunması böyük strateji əhəmiyyətə malikdir**

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusu tərəfindən ağır məğlubiyyətə uğradılan işğalçı Ermənistan ötən il noyabrın 10-da kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanata uyğun olaraq ötən il dekabr ayının 1-də Laçın rayonu qeyd-şərtsiz boşaldılaraq Azərbaycana təhvil verildi. Bununla da bütün dünya Ali Baş Komandanımız İlham Əliyevin qətiyyətinin, dəmir yumruğunun gücünün və Ermənistanın hərbi, siyasi, diplomatik məğlubiyyətinin şahidi oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

S.Vəliyeva bildirib ki, rəşadətli Azərbaycan Ordusu ötən il dekabrın 1-də Laçın rayonuna daxil olaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa edib: "Laçın rayonunun hərbi-siyasi yolla, qan tökülmədən və bir güllə belə atılmadan işğaldan azad edilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik hərbi və diplomatik siyasətinin nəticəsidir".

"Laçın rayonun işğaldan azad olunması tarixi hadisə idi", – deyən Milli Məclisin deputatı əlavə edib ki, böyük iqtisadi potensiala və zəngin yeraltı, yerüstü sərvətlərə, qiymətli mineral sulara malik Laçın rayonunun işğaldan azad edilməsi Azərbaycan iqtisadiyyatının inkişafına öz töhfəsini verəcək: "Həmçinin, dəhliz rolunu oynayan Laçın rayonunun işğaldan azad olunması böyük strateji əhəmiyyətə malikdir. Sirr deyil ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş digər rayonlarla yanaşı, Laçın rayonuna da dəfələrlə səfər edib. Ölkə başçımızın rəhbərliyi və şəxsi nəzarəti altında Laçın rayonunda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Əminliklə demək olar ki, qurucu lider İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sürətli bərpa və quruculuq işləri nəticəsində, qısa zamanda Laçın rayonu dünyanın ən dilbər guşələrindən birinə çevriləcək".

**AZƏRTAC**
**2021, 2 dekabr**

**Jalə Əhmədova: Laçın beynəlxalq hava limanı bölgənin statusunu və turizm potensialını artıracaq**

Azərbaycanın dilbər guşələrindən və zəngin təbii ehtiyatlara malik rayonlarından biri olan Laçının işğaldan azad olunmasından bir il keçir.

Əhəmiyyətli geostrateji mövqeyə malik olan Laçının Ermənistan tərəfindən işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurub. Bundan başqa, işğal nəticəsində rayonda 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Jalə Əhmədova söyləyib.

Onun sözlərinə görə, ötən illər ərzində Ermənistan işğalçı tərəf olaraq Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınları köçürməklə məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərlə məşğul olub.

Ermənistanın 30 ilə yaxın davam edən işğalına son qoyulduğunu qeyd edən deputat deyib: "Azərbaycan xalqı ərazi bütövlüyünü özü bərpa etməklə beynəlxalq qanunların aliliyini və tarixi ədaləti də bərpa etdi. Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Bundan əvvəl isə, noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın rayonuna səfər edərək 2020-ci il fevralın 14-də Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı".

Jalə Əhmədova vurğulayıb ki, bu gün Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir və infrastruktur layihələri reallaşdırılır. Artıq Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Hazırda Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Kəlbəcər-Laçın avtomobil yolu tikilməkdədir.

"Regionun strateji əhəmiyyətini artıran ən mühüm amillərdən biri isə Laçında beynəlxalq hava limanının inşasına başlanmasıdır. Bu hava limanının inşası bölgənin beynəlxalq statusunu artırmaqla yanaşı, mülki aviasiya, yükdaşıma və hərbi baxımdan da böyük əhəmiyyətə malikdir. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına kömək edəcək. Mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək və o, Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq.

Sovet dövründə bu ərazidə hava limanının tikilməsi mümkün olmasa da, bu gün müstəqil Azərbaycan bunu öz gücü hesabına həyata keçirir. Laçın rayonunda beynəlxalq aeroportun tikilməsi ölkəmizdə həm texniki, həm maliyyə imkanlarının, həm də bu layihəni reallaşdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü siyasi iradənin olduğunu sübut edir.

**AZƏRTAC**
**2021, 2 dekabr**

**Adil Əliyev: Laçında hava limanının inşası Azərbaycanın diplomatik gücünün və iqtisadi qüdrətinin təcəssümüdür**

Laçında beynəlxalq hava limanının tikintisinə start verilməsi ilə işğaldan azad edilmiş ərazilərimizdə inşa edilən hava limanlarının sayı üçə çatıb. Gəncə Beynəlxalq Hava Limanını və hazırda fəaliyyət göstərməyən, amma gələcəkdə bərpa olunması nəzərdən keçirilən Naftalan aeroportunu da nəzərə alsaq, Qarabağ bölgəsi beş hava limanı ilə əhatə olunacaq. Yeni aeroportların inşası üçün strateji mövqelər seçilib. Füzuli İranla, Zəngilan isə həm İran, həm Ermənistan ilə həmsərhəd rayonlardır. Eyni zamanda, Zəngilan Zəngəzur dəhlizinin üzərində yerləşir. Laçın aeroportu isə xüsusilə həssas nöqtədə, yəni, Laçın dəhlizinin keçdiyi yerin, ərazimizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının və Ermənistanla sərhədimizin yaxınlığındadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev ifadə edib.

O bildirib ki, hava limanları beynəlxalq aviasiya təşkilatları tərəfindən tanınır və rəsmi qeydiyyatdan keçir. Bu isə öz növbəsində həmin aeroportların və onların yerləşdikləri ərazilərin Azərbaycan Respublikasının yurisdiksiyasına aid olduğunu beynəlxalq səviyyədə bir daha təsbit edir. Bunun əhəmiyyətini anlamaq üçün Qarabağda hələ sovet dövründən mövcud olmuş Xocalı aeroportunu xatırlayaq. Ermənistan işğal dövründə ciddi cəhdlər etsə də, Xocalı aeroportundan istifadə edə bilmədi. Məhz ona görə ki, bu hava limanı beynəlxalq hüquqla Azərbaycanın yurisdiksiyasındadır. Beynəlxalq hüquqda mövqeyimizin güclü olması bizim xeyrimizədir. Hətta Fransa Prezidenti Emmanuel Makron erməni diasporunun nümayəndələri ilə görüşdə etiraf etməyə məcbur oldu ki, bu torpaqlar beynəlxalq hüquqa əsasən Azərbaycan Respublikasına məxsusdur və bu səbəbdən Fransa müharibəyə müdaxilə edə bilməzdi. Oxşar fikirləri 44 günlük Vətən müharibəsinin gedişi zamanı Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də səsləndirdi. Bu baxımdan işğaldan azad edilən ərazilərdə beynəlxalq hava limanlarının inşası və onların strateji mövqelərdə yerləşməsi Qələbəmizin nəticələrinin beynəlxalq hüquq müstəvisində möhkəmləndirilməsinə xidmət edir. Bu isə Azərbaycan dövlətinin diplomatik gücünün təzahürüdür.

A.Əliyevin sözlərinə görə, hava limanlarının tikintisinin əhəmiyyəti təkcə beynəlxalq hüquq konteksti ilə məhdudlaşmır. Məsələnin ciddi praktiki əhəmiyyəti var. Onların inşası xüsusən də işğaldan azad edilmiş torpaqların, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun Azərbaycanın qalan hissəsi ilə yenidən inteqrasiyası üçün önəmlidir. Təbii ki, hava nəqliyyatının olması işğaldan azad edilmiş ərazilərin bərpasında və yenidənqurması işlərinin sürətlənməsində, həmin ərazilərin məskunlaşdırılması üçün insanların gediş-gəlişində əhəmiyyətli rol oynayacaq. Hava limanları daha sonrakı perspektivdə regionun turizm potensialının reallaşdırılması, iqtisadi və logistik mərkəzlərin yaradılması imkanlarını genişləndirəcək. Bölgədə çoxsaylı hava limanlarının olmasının praktik faydaları digər amillərlə birlikdə sıravi erməni sakinlərin yenidən Azərbaycan Respublikasının vətəndaşları kimi Azərbaycana inteqrasiyasını stimullaşdıracaq. Bu perspektivin artıq ilkin işartıları var. Prezident İlham Əliyevin qeyd etdiyi kimi bəzi erməni sakinlər Azərbaycan tərəfinə tikinti və yenidənqurma layihələrində işləmək istədiklərini bildiriblər.

Adil Əliyev qeyd edib ki, hava limanlarının yaradılması ciddi maliyyə və iqtisadi resurslar tələb edir ki, Azərbaycan dövləti də bunu təmin etməyə qadirdir. Amma siyasi iradə və diplomatik güc olmadan təkcə iqtisadi imkanların mövcudluğu bu işlərin həyata keçirilməsi üçün yetməzdi. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərimizdə tikilən hava limanlarının, xüsusən də aeroport tikintisi üçün olduqca çətin relyefini və coğrafi şəraitini nəzərə alsaq, Laçın hava limanının inşasına başlanması Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və dövlət başçısının diplomatik məharətinin təcəssümüdür.

**AZƏRTAC**
**2021, 1 dekabr**

## Hicran Hüseynova: Laçın aeroportunun inşası azad edilmiş torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir

Azərbaycanın dilbər guşələrindən biri olan Laçın rayonu 28 ildən sonra öz azadlığına qovuşdu. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı Azərbaycanın təkcə iqtisadiyyatına deyil, mədəniyyətinə, tarixi-mədəni irsinə də ciddi ziyan vurmuşdu. Erməni işğalı nəticəsində 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdır. VI əsrə aid Alban Ağoğlan məbədi, IV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilmişdir. Lakin rəsmi İrəvanın işğalçılıq siyasəti bununla yekunlaşmadı. Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adları dəyişdirmiş, rayonun təbii resurslarını talan edərək əlavə qazanc mənbəyinə çevrilmişdir. Xüsusilə Suriyadan erməni əsilli qaçqınların Laçında qeyri-qanuni şəkildə məqsədyönlü məskunlaşdırılması siyasətini aparmışdır. Bununla da işğalçı tərəf demoqrafik tərkibin dəyişdirilməsinə çalışmışdır. Əfsuslar olsun ki, bütün bunlar beynəlxalq təşkilatların gözü qarşısında baş verirdi. Azərbaycanın etirazlarına baxmayaraq, heç bir qurum Ermənistanın beynəlxalq hüquqi norma və prinsiplərini pozduğuna görə qınamadı, ona qarşı hər hansı sanksiya tətbiq edilmədi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova ifadə edib.

Deputat deyib: “Zaman yetişdi və Azərbaycan xalqı özü beynəlxalq qanunlarının aliliyini və tarixi ədaləti bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Vətən müharibəsində qazandığı Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Bundan əvvəl - noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi.

Artıq Laçın azaddır və rayonda tikinti-quruculuq işləri aparılır. Bu ilin fevral və avqust aylarında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Laçın rayonunda səfərdə oldular. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev fevralın 14-də Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı”.

Hazırda Laçın istiqamətində dövlət sərhədlərinin möhkəmləndirildiyini qeyd edən deputat bildirib ki, eyni zamanda, Laçın rayonunda fərqli təyinatlı yol, enerji infrastrukturu layihələri reallaşdırılır.

H.Hüseynova qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Azad edilmiş torpaqlarda ümumilikdə üç beynəlxalq hava limanı tikiləcək. Aeroportların mülki aviasiya, yükdaşıma və hərbi əhəmiyyəti danılmazdır. Artıq Füzuli Beynəlxalq Hava Limanı fəaliyyət göstərir.

Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın aeroportu Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən hava limanı olacaq. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Prezident İlham Əliyev Laçında hava limanının inşası ilə bağlı çıxışında vurğulayıb: “Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var”.

“Bəli, Azərbaycan Vətən Müharibəsindən ötən bir ildə işğaldan azad olunmuş ərazilərdə nəhəng layihələr həyata keçirməklə, bütün dünyaya bu torpaqların əsl sahibinin kim olduğunu bir daha nümayiş etdirir. Əminik ki, tezliklə keçmiş məcburi köçkünlərimiz öz doğma ata-baba yurdlarına qayıdacaq, Qarabağda, Şərqi Zəngəzurda həyat yenidən canlanacaq”, - deyə deputat əlavə edib.

**AZƏRTAC**
**2021, 1 dekabr**

**Tamam Cəfərova: Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq**

Bu gün Azərbaycan xalqı böyük qürur hissi ilə Laçın rayonunun erməni işğalından azad olunmasının birinci ildönümünü qeyd edir. Məlum olduğu kimi, Laçın rayonu Ermənistanın kapitulyasiya aktını imzalaması nəticəsində Azərbaycana təhvil verilib. Bundan əvvəl isə noyabrın 9-da Laçın rayonunun Güləbürd, Səfiyan və Türklər kəndləri ordumuz tərəfindən azad edilib. Bununla da Azərbaycan xalqı hərbi-siyasi yolla beynəlxalq qanunların aliliyini və tarixi ədaləti bərpa edib.

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat xatırladıb ki, Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri arasında imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Burada diqqətçəkən əsas məqam bu üç böyük rayonun bir güllə atılmadan, bir şəhid vermədən azad edilməsidir. Azərbaycan Ordusunun hər üç rayonun azad edilməsi ilə bağlı hərbi planları mövcud olub, lakin bu bölgələrin çətin relyefi uğurun daha böyük itkilər hesabına olacağını deməyə əsas verir. Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması ilə əlaqədar xalqa müraciətində demişdir: “Bizim planlarımız var idi və biz ardıcıl şəkildə bu planlara doğru gedirdik. Ancaq hər kəs bilməlidir ki, Kəlbəcər və Laçın rayonlarının çox çətin relyefi var... Xüsusilə qış mövsümünü, çətin relyefi nəzərə alsaq böyük itkilərimiz ola bilərdi. Həm Ağdam, həm Laçın, həm Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və böyük vaxt sərf olunacaqdı”. Ağdam, Kəlbəcər və Laçının itki vermədən azad olunması Azərbaycanın hərbi sahədə olduğu kimi, diplomatik sahədə də qazandığı böyük uğurun nəticəsidir.

T.Cəfərova qeyd edib ki, Laçın rayonunun işğaldan azad olunması olduqca mühüm strateji əhəmiyyət kəsb edir. Bu rayon Ermənistanı Dağlıq Qarabağla birləşdirən dəhliz rolunu oynayır. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil olub. Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Rayonun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. Rayonun əhalisi 79.1 min nəfər olmaqla respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu. Bu nöqteyi-nəzərdən qeyd etməliyik ki, 28 il sonra Laçın rayonunun düşmən işğalından azad olunması mühüm tarixi hadisə idi.

Regionun strateji əhəmiyyətini artıran hava limanlarına diqqət çəkən deputat bildirib ki, işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Azad edilmiş torpaqlarda ümumilikdə üç beynəlxalq hava limanı tikiləcək. Hava limanlarının mülki aviasiya, yükdaşıma və hərbi əhəmiyyəti danılmazdır. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa edilən hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. İşğaldan azad olunmuş digər rayonlarımızda olduğu kimi Laçına da tezliklə həyat qayıdacaq. Tezliklə Laçın rayonu da Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək.

Bir daha Laçın rayonunun işğaldan azad olunması münasibətilə bütün laçınlılar olmaqla, Azərbaycan xalqını təbrik edirəm.

**AZƏRTAC**
**2021, 1 dekabr**

**Səttar Möhbalıyev: Laçında hava limanının tikintisi bölgənin beynəlxalq statusunu artıracaq**

Bu gün Laçın rayonunun düşmən işğalından azad olunduğu gündür. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçın işğala qədər - 1992-ci il mayın 18-dək Azərbaycanın inkişaf etmiş rayonlarından biri olub. Rayon faydalı qazıntılarla, o cümlədən 3 filiz, 37 qeyri-filiz və inşaat materialları yataqları, civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Rayonun işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurub, dövlət və xüsusi mülkiyyətə zərər yetirilib. Əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. Ümumiyyətlə, Ermənistan bütün beynəlxalq hüquq normalarını pozaraq işğalla yanaşı, dəhşətli vandalizm aktları törədib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Deputat bildirib: “Rayon işğaldan azad ediləndən sonra həmin ərazilərə səfərləri təşkil olunmuş xarici diplomatlar və KİV nümayəndələri də bu vəziyyəti müşahidə ediblər. Ermənilər Laçın rayonunun və onun kəndlərinin coğrafi adlarını dəyişdirməklə özününküləşdirməyə çalışıblar. Suriyadan olan erməni əsilli qaçqınlar məqsədyönlü şəkildə həmin ərazilərdə yerləşdirilməsi, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllər törədirdilər. Rayonun təbii resursları talan edilirdi, gəlir mənbəyi kimi istifadə olunurdu”.

AHİK sədri bildirib ki, Laçın rayonunun işğaldan azad olunması tarixi ədalətin bərpa edilməsidir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistan silahlı birləşmələrini məhv etdi. Ermənistanın yeganə çıxış yolu kapitulyasiya aktı oldu ki, bununla da ermənilər diz çökdülər, məğlubiyyətlərini rəsmiləşdirdilər və digər ərazilərimizdən də çıxmaq məcburiyyətində qaldılar. Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Hərbi əməliyyatlar gedən vaxtı isə yenilməz Ordumuz noyabrın 9-da Laçının Güləbürd, Səfiyan və Türklər kəndlərini azad etmişdi. Odur ki, işğal altında olan digər ərazilərimiz kimi, Laçın rayonu da nəyin bahasına olursa-olsun azad ediləcəkdi.

“Hazırda Laçında da yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir. Bu il fevralın 14-də və avqustun 16-da dövlətimizin başçısı İlham Əliyev Laçın rayonunda səfəri zamanı görülən işlərlə yaxından tanış olub. Burada artıq “Güləbird” Su Elektrik Stansiyası işə salınıb. Həmçinin uzunluğu 72,8 kilometr təşkil edəcək Kəlbəcər-Laçın avtomobil yolu üzərində altkeçidlər və körpü inşa olunacaq, eləcə də 3 tunelin tikintisi aparılacaq. Həmçinin rayonda beynəlxalq hava limanının tikintisinə başlanılıb. Bu, bölgənin beynəlxalq statusunu yüksəldəcək, sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artmasına gətirib çıxaracaq”, - deyə S.Möhbalıyev əlavə edib.

**AZƏRTAC**
**2021, 1 dekabr**

**Deputat: Laçın rayonunda inşa ediləcək aeroport ölkənin turizm potensialının artırılmasına təkan verəcək**

Vətən müharibəsində qazandığımız Qələbə nəticəsində ölkəmiz ərazi bütövlüyünü bərpa etdi. Üçtərəfli Bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu bir güllə belə atmadan, itkisiz Azərbaycana təhvil verildi. Laçın rayonunun Güləbürd, Səfiyan və Türklər kəndləri isə Azərbaycan Silahlı Qüvvələri tərəfindən noyabrın 9-da işğaldan azad edilmişdi. Razılaşma əsasında Laçın, Kəlbəcər və Ağdam rayonlarının döyüş aparmadan və itki vermədən Azərbaycana təhvil verilməsi dövlətimizin başçısı İlham Əliyevin düşünülmüş və müdrik siyasətinin nəticəsidir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.

Deputat bildirib ki, Şuşadan sonra Ermənistanın işğalına məruz qalan ikinci rayonumuz Laçın Azərbaycanın dilbər guşələrindən biridir. Özündə 125 kəndi birləşdirən Laçında işğaldan əvvəl 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisə, 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər müəssisə, 5 musiqi məktəbi, bir internat məktəbi, bir orta texniki peşə məktəbi fəaliyyət göstərib. Erməni barbarları işğal etdikləri digər ərazilər kimi Laçını da talan edib və dağıdıblar. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq erməni işğalçıları tərəfindən məhv edilib. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası bunların sırasındadır.

Laçın rayonunun 1992-ci il mayın 18-də işğal edildiyini xatırladan C.Məmmədov düşmən qüvvələrinin böyük hissəsinin əraziyə Laçın dəhlizi vasitəsilə daxil olduğunu bildirib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qaldı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Rayonun əhalisi 79.1 min nəfər olmaqla respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşdı.

Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla məqsədyönlü məskunlaşma siyasəti apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllər həyata keçirdi.

"Zəfərimizdən dərhal sonra işğaldan azad olunmuş bütün ərazilərdə olduğu kimi, Laçında da bərpa və quruculuq işlərinə başlanılıb. Həmin ərazilərdəki inşa edilən üç hava limanından biri məhz Laçın rayonundadır.

Hazırda Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir və fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır. Artıq Laçın rayonunda generasiya gücü 8 meqavat olan "Güləbird" Su Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Böyük əhəmiyyətə malik olan və uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində alt keçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq", - deyə C.Məmmədov qeyd edib.

Deputat vurğulayıb ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, aeroportun tikilməsi bölgənin sosial-iqtisadi inkişafını sürətləndirəcək, turizm potensialının artırılmasına təkan verəcək.

Onun sözlərinə görə, son dərəcə mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

"Dövlətimizin uğurla həyata keçirdiyi Böyük Qayıdış proqramı əsasında Laçın rayonu tezliklə abad məkanlardan birinə çevriləcək. Bu yerlərin sakinləri o gözəl torpaqlarda yeni həyata başlayacaqlar, - deyə C.Məmmədov bildirib.

**AZƏRTAC**
**2021, 1 dekabr**

**Laçın rayonunun işğaldan azad olunması ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi**

Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan tərəfindən işğal olunmuşdu. Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayon idi. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalmış, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdü. İşğal nəticəsində rayonda dövlət və xüsusi mülkiyyətə ciddi zərər yetirilmiş, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdı. Ermənistan işğalçı tərəf kimi Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan erməni əsilli qaçqınların məqsədyönlü məskunlaşdırılması siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllər ilə məşğul olmuşdu.

Bunu AZƏRTAC- açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

İşğaldan 28 il sonra Azərbaycan xalqının beynəlxalq qanunlarının aliliyini və tarixi ədaləti özünün bərpa etdiyini vurğulayan R.Vəlibəyov bildirib: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun və xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, kapitulyasiya etmiş Ermənistan dekabrın 1-də Laçın rayonunu təhvil verdi. Lakin bundan əvvəl, yəni, noyabrın 9-u Laçın rayonunun Güləbürd, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 8395 hərbi qulluqçusu 2020-ci il noyabrın 26-da təsis edilmiş "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdu".

"Bu gün işğaldan azad edilmiş digər ərazilər kimi Laçın rayonu da bərpa edilməkdədir", – deyən R.Vəlibəyov əlavə edib ki, Prezident İlham Əliyev cari ilin fevralın 14-də və avqustun 16-da Laçın rayonunda səfərdə olub, Azərbaycan bayrağını qaldırıb. O qeyd edib ki, hazırda Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir, fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır. Eyni zamanda, Laçın rayonunda generasiya gücü 8 meqavat olan "Güləbird" Su Elektrik Stansiyasını işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Eləcə də Prezident İlham Əliyevin Sərəncamına əsasən inşa edilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

"Bunlarla yanaşı, Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Mülki aviasiya, yükdaşıma və hərbi əhəmiyyət baxımdan işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Əlbəttə ki, bütün bu işləri həyata keçirmək üçün müstəqil Azərbaycan dövlətinin texniki, maliyyə imkanlarımız və güclü iradəsi var", - deyə R.Vəlibəyov vurğulayıb.

**AZƏRTAC**
**2021, 1 dekabr**

## Qubadlının azad edilməsi Laçın istiqamətində Ordumuzun yolunu açdı

## AZƏRTAC-ın müxbirləri Qubadlı döyüşlərində iştirak edən hərbçilərimizin bir neçəsi ilə həmsöhbət olublar

Ötən il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatlarının 29-cu günü – oktyabrın 25-də Qubadlı şəhəri erməni işğalından azad edildi. Qubadlı şəhəri Vətən müharibəsi dövründə düşmən əsarətindən xilas edilən dördüncü şəhər idi. Cəbrayıl rayonunda düşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və cənubda yerləşən Zəngilan rayonunda qısa müddətdə aparılan uğurlu əməliyyatlar Azərbaycan Ordusu bölmələrinin Qubadlı rayonunun inzibati hüdudlarına çıxmasına şərait yaratdı. Oktyabrın 20-də Zəngilan şəhəri azad olunandan sonra növbəti istiqamət Qubadlı idi. Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Şəhərdə güclü istehkamlar qurulmuş, yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki Ermənistan silahlı qüvvələrinin bölmələri həmin yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açır, Ordumuzun irəliləməsinə mane olurdu. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusunun illərdir əldə etdiyi hərbi biliklər, qazandığı praktiki vərdişlər və göstərdiyi əzmkarlıq əməliyyatın uğurla icra edilməsi ilə nəticələndi. Əvvəlcə şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri işğaldan azad edildi və strateji yüksəkliklər ələ keçirildi. Oktyabrın 25-də Azərbaycan Ordusu şəhəri düşməndən tam təmizlədi. Qubadlının azad edilməsi Laçın istiqamətində Ordumuzun yolunu açdı.

**AZƏRTAC-ın müxbirləri Qubadlının azad edilməsində fədakarlıq nümunələri göstərən qəhrəman hərbçilərin bir neçəsi ilə həmsöhbət olub, onların xidmətləri ilə maraqlanıblar.**

Vətən müharibəsi iştirakçısı **Əsgər Hacıyev** AZƏRTAC-ın əməkdaşları ilə söhbətində oktyabrın 20-dən 25-dək Qubadlı uğrunda döyüşlərdə iştirak etdiyini vurğulayaraq deyib: “Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə Ordumuz düşmənin təxribatlarının qarşısını almaq üçün genişmiqyaslı əks-hücum əməliyyatına başladı. Ali Baş Komandanın bu əmri ilə bizim də vəzifə borcumuzu yerinə yetirməyimiz üçün imkan yarandı. Çünki ermənilər bizim torpaqlarımızı işğal etməkdən əlavə, qadınlarımızı, uşaqlarımızı, yaşlıları amansızcasına qətlə yetirmişdilər. Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə torpaqlarımızı işğal edən ermənilərə layiqli cavab verməklə yanaşı, xalqımızın başına gətirilən müsibətlərin də qisasını aldı. Apardığımız əks-hücum əməliyyatlarında yaralansam da, sevinirəm ki, torpaqlarımız uzun həsrətdən sonra əsl sahiblərinə qovuşdu. Vətən müharibəsində göstərdiyim şücaətə görə “Qubadlının azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunmuşam. Bundan sonra da canımı Azərbaycan üçün fəda etməyə hazıram”.

**Əsgər İbrahim Sadıqov** isə müharibə ilə bağlı xatirələrini bölüşərək qeyd edib: “Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində uğurlu hərbi əməliyyatlar keçirərək təxminən otuz il işğal altında qalmış torpaqlarımızı azad etdi. Ermənistan silahlı qüvvələri nəinki açıq döyüşdə Azərbaycan Ordusu ilə bacara bilmədi, hətta düşmən hərbçiləri bütün silahlarını, nəqliyyat vasitələrini, ərzaqlarını qoyub qaçdılar. Düşmənin müqavimət göstərə bilməyib geri çəkilməsi bizdə ruh yüksəkliyini və özünəinamı artırdı. Ötən ilin oktyabrında bu ərazilərdə hər kənd, hər qəsəbə uğrunda şiddətli döyüşlər gedirdi. Addım-addım irəlilədikcə mən də daxil olmaqla Azərbaycan Ordusunun hərbi qulluqlarının özünəinamı hər keçən gün artırdı. Ordumuz yalnız irəli gedir, hər gün müxtəlif kəndləri, yaşayış məntəqələrini düşməndən təmizləyirdi. Bunun da məntiqi nəticəsi kimi oktyabrın 25-də Qubadlı rayonu düşmən işğalından azad olundu.

Qubadlı uğrunda döyüşüb, həm də burada xidmət etməkdən qürur duyduğunu vurğulayan **İ.Sadıqov** fikirlərini belə ifadə edib: “Bir əsgər üçün döyüşdüyü yerdə xidmət etmək qürurverici hissdir. Çünki insan uğrunda can verilən, qan tökülən, həmçinin azad edilməsində özünün də payı olduğu bir torpaqda xidmət edəndə fərəhlənir. Azərbaycan xalqı həm müstəqillik, həm də ərazi bütövlüyü uğrunda minlərlə şəhid verib. Şəhidlərimizin qanı ilə yoğurulan torpaqlara düşmən ayağının dəyməsinə heç vaxt imkan verməyəcəyik”.

Qubadlı şəhərinin mühüm strateji mövqedə yerləşdiyini vurğulayan **mayor İbrahim Əliyev** bildirib ki, burada strateji yüksəkliklər olduğu üçün qonşu rayonlara nəzarət etmək daha rahatdır. Buna görə də düşmən Qubadlını itirməyi qəbul edə bilmirdi. Bu səbəbdən Qubadlı uğrunda şiddətli döyüşlər gedib.

Rəşadətli Azərbaycanın Ordusu güclü müqavimətlə qarşılaşmasına baxmayaraq, düşmənin nəinki dirənişini, hətta belini qıraraq əzəli torpaqlarımızı azad etdi. Ordumuz düşmənə elə zərbə vurdu ki, onlar canlarını qurtarmaq üçün təkcə döyüş sursatlarını, texniki vasitələrini deyil, məhv edilən hərbi qulluqçularının cəsədlərini və yaralananları da döyüş meydanında qoyub qaçırdılar.

**Mayor İbrahim Əliyev** Vətən müharibəsi ilə bağlı xatirələrini bölüşərkən bir məqamı xüsusi vurğulayıb: “Qubadlıya yaxın ərazidə mühüm bir yüksəkliyin alınması şəhərə tam nəzarət etmək imkanı yaradırdı. Yuxarı komandanlıqdan həmin yüksəkliyin mütləq ələ keçirilməsi ilə bağlı tapşırıq verildi. Bu yüksəklik uğrunda ağır döyüşlər getdi. Şəhidlərimiz, yaralılarımız olmasına baxmayaraq, yüksəkliyi düşməndən azad etdik. Bundan sonra düşmənin müqaviməti qırıldı və onlar Qubadlını boşaltdılar. Hazırda isə Azərbaycan Ordusu burada - Qubadlıdadır. Şəhidlərin və yaralıların canı-qanı bahasına azad edilən bu torpaqlarda, həmçinin bizim də uğrunda döyüşdüyümüz yerdə xidmət etmək unudulmaz, qürurverici hisslərdir. Biz Qubadlını göz bəbəyimiz kimi qoruyuruq. Bir daha düşmən ayağının bu müqəddəs torpaqlarımıza dəyməsinə imkan verməyəcəyik”.

Qubadlının işğaldan azad edilməsi əməliyyatından danışan **baş leytenant Emin Abdullayev** bildirib: “Qubadlı uğrunda döyüşlər zamanı qrupumuza şəhərin mərkəzindən on kilometr məsafədə mühüm mövqedə yerləşən kəndin düşməndən azad olunması tapşırığı verildi. Tapşırığa uyğun olaraq, kəndi işğaldan azad etmək üçün hücuma keçdik. Həmin istiqamətdə pusquya düşdük və bir şəhidimiz oldu. Lakin çətin vəziyyətdən uğurla çıxaraq, düşmənin müqavimətini qırdıq və həmin mövqeni ələ keçirdik. Qubadlı rayonu azad olunandan sonra digər istiqamətlərdə də döyüşlərdə iştirak etdik. Ermənistan ordusu məğlub olacağını müharibənin ilk günlərindən dərk etməyə başlamışdı. Rəşadətli Azərbaycan Ordusu 44 gündə istədiyinə nail oldu və düşməni təslim olmağa məcbur etdi.

Uğrunda döyüşdüyüm torpaqlarda xidmət etməyin xüsusi önəmi var. Burada həm döyüşmək, həm də xidmət etmək böyük şərəfdir. Biz ata-baba yurdumuzu düşməndən azad etdik, onların ruhu qarşısında vəfa borcumuzu yerinə yetirdik”.

**AZƏRTAC**
**2021, 28 noyabr**

**Dövlət sərhədinin Laçın rayonu istiqamətində ermənilər növbəti təxribata cəhd göstərib**

Ermənistan-Azərbaycan dövlət sərhədinin Laçın rayonu sahəsində vəziyyəti gərginləşdirmək məqsədilə Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti təxribata cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 14-ü səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bir qrup şəxsi heyətinin və texnikasının Laçın rayonunun sərhədi istiqamətində cəmləşdirilməsi, o cümlədən təxribata hazırlığı bölmələrimiz tərəfindən müşahidə edilib.

Ermənilərin növbəti təxribatının qarşısını almaq məqsədilə Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri təxirəsalınmaz tədbirlər həyata keçirib.

Əməliyyat şəraitinə uyğun olaraq Ordumuzun bölmələri tərəfindən əvvəlcədən müəyyən edilmiş plana əsasən, zəruri fəaliyyətlər icra olunub.

Nəticədə qarşı tərəfin hərbi qulluqçuları ərazidən çəkilməyə məcbur edilib.

Hazırda əməliyyat şəraiti nəzarətimiz altındadır.

Ötən həftə də Ermənistan tərəfi dövlət sərhədinin Laçın istiqamətində 60 nəfər şəxsi heyəti yerləşdirməklə təxribat törətməyə cəhd göstərmiş və iflasa uğramışdı.

Müdafiə Nazirliyi tərəfindən bəyan edilmişdi ki, Ermənistan tərəfinin bu kimi təxribatlarının qarşısı qətiyyətlə alınacaqdır.

Ermənistanın hərbi-siyasi rəhbərliyi bu kimi hərbi avantüraya son qoymalıdır. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistan tərəfi iki ölkənin dövlət sərhədinin danışıqlar yolu ilə delimitasiyası və demarkasiyasında maraqlı deyildir.

Bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

**AZƏRTAC**
**2021, 14 noyabr**

**Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir**

Mübarizliyi və cəsurluğu ilə seçilən Azərbaycan xalqı tarixboyu müstəqilliyə can atması ilə regiondakı digər xalqlardan seçilib. Böyük imperiyaların hədəfində olması da, Azərbaycanı daim gərgin mübarizələrin və qaynar hadisələrin mərkəzinə çevirib.

Bunu AZƏRTAC-a açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirov deyib.

Politoloq bildirib ki, XIX əsrin əvvəllərindən başlayaraq artıq planın növbəti mərhələsi, tarixi ərazilərimizdə süni şəkildə hayların yerləşdirilməsi və qədim Azərbaycanın parçalanması prosesinə başlanıldı: "Bu proses ötən əsrdə də davam etdi və Qarabağın və ətraf ərazilərin də daxil olduğu iyirmi faiz torpaqlarımızın düşmənin nəzarətinə keçməsi ilə nəticələndi. Ancaq bu prosesə başı qarışan və əvvəlki itkiləri kimi müəyyən müddət bu hadisələri də əvvəlkilər kimi unudacağımıza ümid edən düşmən yanıldı. Yanıldı ki, biz xalq olaraq, əslində, heç əvvəlki xəyanətləri də, itkiləri də unutmamışıq. Əksinə, bu günə qədər verdiyimiz itkilər və bizim itkilərimiz nəticəsində onların qazandıqları bizim qan yaddaşımıza həkk olunub. İki əsrlik bir məkrli planın qarşısını almaq və bu məğlubiyyət sindromunu qırmaq üçün bizə, ilk növbədə, çox güclü milli birlik, sarsılmaz və mərkəzləşdirilmiş dövlət və məğlubedilməz ordu lazım idi. Bunun da həyata keçirilməsi üçün bütün xalqı bu istiqamətdə səfərbər edəcək qətiyyətli iradəyə sahib liderə ehtiyac var idi. Çünki biz yalnız yeni imicdə qarşımıza çıxan ermənilərə deyil, həm də onları əsrlərdir ki, özlərinin planlarına alət edən qüvvələrə qarşı mübarizəyə hazır olmalıydıq.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycanda siyasi hakimiyyətinin ilk illərindən siyasi, iqtisadi və beynəlxalq əlaqələr baxımından çox güclü mərkəzi idarəetmə mexanizminə malik dövlətin əsasını qoydu. Ancaq bu prosesi yekunlaşdırmaq üçün daha uzun zamana ehtiyac var idi və o prosesin daha da sürətli davamını Prezident İlham Əliyev özünün gərgin fəaliyyəti ilə gətirdi. Dövlətimizin başçısı hakimiyyətdə olduğu 18 ilin hər ilində, hər ayında, hər günündə və hər saatında belə qarşıya qoyulan hədəflərə doğru uğurla irəlilədi. Bütün bu illər ərzində dövlətimizin siyasi, iqtisadi, beynəlxalq əlaqələr və ordu quruculuğu istiqamətində yüksək inkişafını təmin etməklə yanaşı, artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı sülh və danışıqlar prosesini də davam etdirdi. Paralel olaraq danışıqlar prosesini davam etdirməklə Prezident İlham Əliyev Azərbaycan xalqının çoxəsrlik sülhün, sabitliyin və mehribançılığın tərəfdarı olmaqla bağlı müsbət imicini də qorudu. Bununla biz həm də, gələcəkdə istənilən an danışıqlar prosesinə alternativ olacaq əks-hücum yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyimizlə bağlı prosesə hüquqi zəmini gücləndirdik".

Danışıqlar prosesinin artıq dalana dirəndiyini və Ermənistan rəhbərliyinin təxribatçı bəyanatlarının bu danışıqların sonu olduğunu söyləyən X.Bəşirov bildirib ki, artıq Azərbaycanın da səbri tükəndi və Ermənistanın sentyabrın 27-də başladığı hərbi təxribata Ordumuz əks-hücum əməliyyatı ilə cavab verdi: "Azərbaycan dünyada müharibələr tarixində müddət baxımından ən qısa, məzmun və nəticə baxımından isə ən böyük müharibələrindən birini reallaşdırdı. Azərbaycan ən yeni texnologiyalar vasitəsilə həyata keçirdiyi döyüşün Qalibi adını qazandı. Müharibəyə qədər əldə etdiyimiz siyasi və diplomatik uğurlarımız nəticəsində düşməni bütün siyasi, hərbi və maddi dəstəyinə rəğmən döyüş meydanında tək qoymağımızın da bu prosesdə çox böyük rolu oldu. 44 gün ərzində düşməni çox böyük itkilərə məruz qoyub darmadağın etdik. Nəticədə Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Bir sözlə, Azərbaycan mövcud imkanları olmasına baxmayaraq, 30 ilə yaxın gözləməklə, əslində, müharibənin deyil, məhz sülhün tərəfdarı olduğunu nümayiş etdirdi".

X.Bəşirov üçtərəfli Bəyanatın Ermənistanın kapitulyasiyası olduğunu bildirərək deyib: "Düşmən təslim olmağa, ağ bayraq qaldırmağa məcbur oldu. Məhz o sənəd əsasında düşmən iyirmi gün ərzində üç böyük rayonumuzu - Ağdam, Laçın və Kəlbəcəri döyüşsüz boşaltdı. Əlbəttə ki, bu, hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir".

**Səadət Hakıyeva**

**AZƏRTAC**
**2021, 10 noyabr**

**Kəlbəcər və Laçın rayonlarında döyüş mövqelərinə baxış keçirilib**

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirliyin rəhbərliyi Kəlbəcər və Laçın rayonlarında yerləşən bir sıra döyüş mövqelərində olub, burada xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə nazirinə məruzə olunub ki, dövlət sərhədində 3400 metrədək hündürlükdə, o cümlədən Kəlbəcər və Laçın rayonlarının digər sahələrində yerləşən döyüş mövqelərində inşa edilən konteynerlərdən ibarət modul tipli yerləşmə məntəqələrində şəxsi heyətin bütün zəruri ehtiyacları qarşılanıb. Bu məntəqələrdə silah otağı, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, eləcə də istilik sobaları ilə təchiz edilmiş yataqxana mövcuddur. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar və günəş panelləri quraşdırılıb.

Bildirilib ki, döyüş növbətçiliyinin gecə və gündüz keyfiyyətli təşkili və aparılması üçün bütün lazımi şərait yaradılıb. Mövqelər texniki müşahidə avadanlıqları ilə təchiz olunub.

Komanda-müşahidə məntəqəsindən qarşı tərəfin fəaliyyətini izləyən general-polkovnik Z.Həsənov döyüş növbətçiliyinin təşkili və aparılması ilə bağlı əlavə göstərişlər verib.

Müdafiə naziri hərbi qulluqçular üçün yaradılan şəraiti və onların mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirərək məmnunluğunu ifadə edib. Nazir şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

**AZƏRTAC**
**2021, 22 oktyabr**

**Kəlbəcər və Laçın rayonlarında hərbi hissələrin qışa hazırlığı yoxlanılıb**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində dislokasiya olunan hərbi hissələrin qışa hazırlığını yoxlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirə hərbi hissələrdə yataqxana və xidməti otaqların fasiləsiz istilik sistemi ilə təmin edildiyi, silah və texnikanın payız-qış mövsümünə keçidinin təşkil olunduğu məruzə edilib.

Hərbi qulluqçuların ərzaq və isti geyimlə təminatı normaya uyğun şəkildə icra edilib. Yüksək dağlıq və sərt iqlim şəraiti olan ərazilərdə dislokasiya olunan bölmələrə normadan əlavə təminat və təchizat vasitələri ayrılıb.

Qeyd olunub ki, silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yüksək keyfiyyətli yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqla təmin edilib. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtkü materialları mövsümü tələblərə uyğun olaraq dəyişdirilərək mürəkkəb və soyuq iqlim şəraitində istismar olunması üçün hazır vəziyyətə gətirilib.

Sərt iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılması üçün planlı şəkildə bütün zəruri tədbirlərin həyata keçirildiyi barədə Müdafiə nazirinə məlumat verilib. Məruzə olunub ki, şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması məqsədilə hər növ mebel və inventarla təmin olunmuş yeni modul tipli konteynerlərdən ibarət yaşayış məntəqələrinin quraşdırılması işləri sürətlə davam etdirilir.

Bundan başqa, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə Mühəndis Qoşunlarının bölmələri tərəfindən çətin relyefli ərazilərdə hərəkət yollarının inşası və bərpası istiqamətində görülən işlərlə bağlı ətraflı məlumat verilib.

Müdafiə naziri Azərbaycan Ordusunda şəxsi heyətin təzə və yüksək kalorili qida ilə fasiləsiz təmin olunması, yaşayış məntəqələrinin inşa edilməsi üzrə görülən işlərin sürətləndirilməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin daim yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Laçında komanda-qərargah təlimi başlayıb**

Quru Qoşunlarının 2021-ci ilin hazırlıq planına uyğun olaraq, oktyabrın 19-dan Laçında komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlim kommunikasiya vasitələrinin geniş tətbiqi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunur.

Komanda-qərargah təlimində müasir idarəetmə üsullarının icrası ilə Quru Qoşunlarının digər qoşun növləri ilə qarşılıqlı əlaqədə fəaliyyəti yoxlanılır.

**AZƏRTAC**
**2021, 19 oktyabr**

**Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır**

Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib ki, uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları yaratmışıq.

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi başa çatıb**

Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının Laçın rayonunda keçirilən birgə döyüş atışlı taktiki təlimi başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlim zamanı xüsusi təyinatlı qruplar mürəkkəb relyefli ərazilərdə kəşfiyyatın aparılması, əlaqə yollarında pusquların qurulması, ərazidə təxribat qruplarının aşkarlanması, zərərsizləşdirilməsi, məhv edilməsi, o cümlədən müxtəlif maneələri dəf edərək gizli yollarla şərti düşmənə yaxınlaşma və qarşıya qoyulan digər tapşırıqları uğurla yerinə yetiriblər.

Hər iki ölkənin hərbi qulluqçularının təlimdə nümayiş etdirdikləri peşəkarlıq yüksək qiymətləndirilib.

**AZƏRTAC**
**2021, 11 oktyabr**

**Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi davam edir**

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Laçın rayonunda keçirilən birgə döyüş atışlı taktiki təlim davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti günündə xüsusi təyinatlı qruplarla mürəkkəb relyefli ərazilərdə kəşfiyyatın aparılması, əlaqə yollarında pusquların qurulması, ərazidə təxribat qruplarının aşkarlanması və məhv edilməsi, o cümlədən müxtəlif maneələri dəf edərək gizli yollarla şərti düşmənə yaxınlaşma tapşırıqları icra olunub.

Xüsusi təyinatlılar qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

**AZƏRTAC**
**2021, 9 sentyabr**

**Misir nəşri Laçında keçirilən Azərbaycan-Türkiyə birgə təlimindən yazıb**

Misirin nüfuzlu "Əl Masr Əl Yom" nəşrində Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi haqqında xəbər dərc edilib.

AZƏRTAC-a istinadla dərc olunmuş xəbərdə bildirilib ki, işğaldan azad edilmiş Laçın rayonu ərazisində birgə döyüş atışlı taktiki təlim Azərbaycan və Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən keçirilir.

Yazıda diqqətə çatdırılıb ki, Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsədin döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsi, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsi olduğunu, təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirildiyini bildirib.

***Oqtay Bayramov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə***

**AZƏRTAC**
**2021, 7 sentyabr**

**Laçın rayonunda Azərbaycan-Türkiyə birgə təlimi başlayıb**

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Laçın rayonunda birgə döyüş atışlı taktiki təlim başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsinə, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilib.

**AZƏRTAC**
**2021, 6 sentyabr**

**Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir**

Ötən ilin noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verildi. Öncə diqqət yetirilən əsas məsələlərdən biri infrastrukturun yenilənməsi və bərpası oldu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cari ilin yanvarında Qarabağın tacı olan Şuşamıza səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının təməli qoyulmuşdur. Bu addımı azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihə kimi dəyərləndirən ölkə Prezidenti uçuş-enmə zolağının cari ildə istifadəyə veriləcəyini bildirmişdir. Artıq eniş-uçuş zolağı hazır olan Füzuli Beynəlxalq Hava Limanında ilk sınaq uçuşu həyata keçirilib.

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Füzuli Beynəlxalq Hava Limanı regionda ən qısa zamanda inşa edilən aeroportlardan biridir: "Cari ilin əvvəlində təməli qoyulan hava limanında artıq növbəti ay ilk uçuşların həyata keçirilməsi nəzərdə tutulur. Digər iki hava limanı isə Zəngilanda və Laçında inşa ediləcək. Prezident İlham Əliyev hər iki hava limanının təməlqoyma mərasimində iştirak edib. Atılan bu addımlar artıq Böyük Qayıdışın başlandığının təsdiqidir. Ölkə Prezidenti İlham Əliyev bu əminliyi ifadə edir ki, necə düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Qarabağ Azərbaycandır!"

Baş redaktor bildirib ki, işğaldan azad olunan ərazilərdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan kifayət qədər səmərəli olacaq: "Qeyd etdiyimiz kimi, Füzuli Hava Limanı Qarabağa getmək istəyən yerli və xarici turistlər üçün cəlbedici olacaq. Bu hava limanı Zəfər Yoluna, Zəngilan Hava Limanı Zəngəzur dəhlizinə, Zəngəzur dəhlizinin də Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacağı nəzərə alınaraq həm sərnişin, həm də beynəlxalq yük daşımaları baxımından Zəngilanda da hava limanına ehtiyacın olduğu önə çəkildi. İşğaldan azad edilmiş ərazilərimiz öz potensial imkanları ilə diqqətdədir. İnfrastrukturun beynəlxalq standartlara uyğunlaşdırılması, yenidən bərpası bu potensialdan səmərəli istifadəyə geniş imkanlar açacaq. Eyni zamanda, bu fakt da inkaredilməzdir ki, işğaldan azad edilmiş torpaqlarımız yerli və xarici turistlər üçün diqqətçəkəndir. Bu ərazilərimizdə üç Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi qət olunacaq məsafənin azaldılmasına, bununla, həmçinin turist axınının sürətləndirilməsinə də öz böyük təsirini göstərəcək".

Baş redaktor üçüncü hava limanının Laçında inşa edilməsinin vacibliyini də diqqətə çatdırıb: "Laçının strateji əhəmiyyətini nəzərə aldıqda beynəlxalq standartlara uyğun infrastrukturun formalaşdırılması çox vacib idi. İnşa edilən hava limanlarının hər birinin bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanında olmaları onların strateji əhəmiyyətini göstərən amillərdəndir. Dövlət başçısı İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilərkən bu məqamı da xüsusi qeyd edib ki, Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Seçilən yerdə yenə də böyük torpaq işlərini aparmaqla hava limanının tikintisi mümkündür. Dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir".

V.Rəhimzadə vurğulayıb ki, azad edilmiş bölgələrin-Şərqi Zəngəzurun, Qarabağın bərpası, vətəndaşlarımızın bu regiona qayıtmaları üçün yeni imkanlar yaranır: "Kəlbəcər-Laçın zonasında hava limanının tikintisi çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Dövlət başçısı "Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir" söyləyərək bu işlərin görülməsi üçün texniki, maliyyə imkanlarımızın və güclü iradəmizin mövcudluğunu bir daha diqqətə çatdırır. Bir sözlə, Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir".

**AZƏRTAC**
**2021, 24 avqust**

**Qırğızıstan və Özbəkistan portalları Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri haqqında materiallar verib**

Bişkek, 19 avqust, AZƏRTAC

Qırğızıstanın "goldenbridgenews.com" və "turkelpress.com" portalları avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarında olmaları haqqında AZƏRTAC-ın geniş materialını və ayrı-ayrı hissələrini rus dilində işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Özbəkistanın "qalampir.uz" saytı isə bununla bağlı şərh materialı verib.

Materiallarda qeyd edilir ki, Prezident İlham Əliyev çıxışlarında İkinci Qarabağ müharibəsinin bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalması, öz dədə-baba torpaqlarımıza Ermənistan faşizminin başını əzərək, şəhidlərimizin qanını alaraq qayıtmağımız, Kəlbəcərin işğal altına düşməsinin xalqımızın böyük faciəsi olması, bizim qızıl yataqlarımızın xarici şirkətlər tərəfindən istismar edilməsi, Qaragöl və başqa yerlərin də bizim torpaqlar olması, beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb etmək məsələsi, erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoymağımız, dağıdılmış binalar, məscidlər, qazılmış qəbirlər - bunları yadplanetlilərin yox, ermənilərin etməsi, indiki mərhələdə bizim əsas vəzifəmizin azad edilmiş torpaqlarda möhkəmlənməyimiz, Qarabağda törədilmiş erməni vəhşiliyini dünyaya göstərmək istəyi və digər məsələlərə toxunub.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri, Bişkek***

**AZƏRTAC**
**2021, 19 avqust**

**Sədaqət Vəliyeva: Müzəffər Ali Baş Komandanın Kəlbəcər və Laçın səfəri tarixi hadisədir**

Laçın və Kəlbəcər rayonları strateji bölgələr hesab edilir. Bu rayonlar 1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyətinin xəyanəti nəticəsində Ermənistan tərəfindən işğal edilmişdi. Bununla da Ermənistanla Qarabağ arasında quru əlaqəsi yaranmışdı. Bu da Azərbaycanın digər rayonlarının işğalına şərait yaratmışdı. Lakin 2020-ci ildə Prezident İlham Əliyevin diplomatik səyləri ilə bir güllə atılmadan düşmən işğalından tamamilə xilas olundular.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Onun sözlərinə görə, səfər zamanı çəkilmiş kadrlardan da görünür ki, hər iki rayonun yolları, relyefi necə sərt və çətindir. Qış aylarında orada hərbi əməliyyatlar aparmaq həqiqətən də böyük itkilərə səbəb ola bilərdi. Bu baxımdan Prezident İlham Əliyevin bir güllə atmadan hər iki rayonu düşmən işğalından azad etməsi möhtəşəm zəfərin nişanəsidir. Məhz, bu mənada Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri tarixi hadisə hesab edilməlidir.

Sədaqət Vəliyeva bildirib ki, işğaldan azad olunmuş digər rayonlar kimi Kəlbəcər və Laçın da Prezident İlham Əliyevin göstərişi ilə bərpa olunur, cənnətə çevrilir. Dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın səfər çərçivəsində Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlini qoyması, tamamilə yenidən qurulan Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası ilə tanış olması, 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının açılışında iştirak etməsi, uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunun üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, Laçın Beynəlxalq Hava Limanının təməlini qoyması bir daha Qarabağ və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesinin sürətlə reallaşdırıldığını isbat edir və Azərbaycan hakimiyyətinin iradəsini nümayiş etdirir.

“Qarabağ, Şərqi Zəngəzur bölgələri, eləcə də Kəlbəcər, Laçın rayonları barədə həqiqətləri bütün cəmiyyətimiz, xüsusilə də gənclərimiz bilməlidir”, – deyən Sədaqət Vəliyeva əlavə edib ki, Azərbaycan Ordusu və Müzəffər Ali Baş Komandan Kəlbəcər və Laçın kimi digər rayonları da işğaldan azad etməklə zəfər, qələbə tarixi yazdılar. Azərbaycan illərdir silahlanan işğalçı Ermənistanı məğlub etdi. İllərdir özləri haqqında mif formalaşdırmış düşmən ordusunu, Köçaryanı, Sarkisyanı, Ohanyanı rəzil vəziyyətinə saldı. Azərbaycan erməni vəhşiliyini, faşizmini də məhv etdi. İllərdir ədalətin təmin olunmasına mane olan Ermənistan havadarlarının təzyiqlərinə baxmayaraq, BMT TŞ qətnamələrini də həyata keçirdi. Eyni zamanda, təxminən 30 il öncə torpaqlarımızı satmış AXC-Müsavat cütlüyünün vurduğu milli zərər, qeyrət ləkəsi təmizləndi. Hər bir azərbaycanlı bilməlidir ki, satqın və xilaskar kimlərdir. Biz tariximizi nə qədər dərindən öyrənsək, satqınlıq və xilaskarlıq tarixini nə qədər yaxşı bilsək, bir o qədər də güclü, qüdrətli olacağıq, haqqımız olanı təmin edəcəyik, hər kəsi yeni reallıqla barışmağa məcbur edəcəyik.

**AZƏRTAC**
**2021, 18 avqust**

**Deputat: Prezidentin və birinci xanımın Kəlbəcərə və Laçına səfərləri erməni təxribatlarının arxasında dayananlara cəhdlərinin əbəs olduğuna dair mesajdır**

Prezident İlham Əliyev "CNN Türk"ə verdiyi müsahibədən iki gün sonra - avqustun 16-da birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər və Laçın rayonlarına səfər etdilər. Dövlətimizin başçısı həmin müsahibədə Ermənistanın hamilərinə və dünya birliyinə kifayət qədər ciddi, açıq və sətiraltı mesajlar ünvanlamışdı. Elə bu səbəbdən, müsahibə beynəlxalq media ilə yanaşı, ölkə mətbuatında və sosial şəbəkələrdə geniş müzakirələrə yol açıb. Bu da təsadüfi deyil. Çünki Ermənistanın atəşkəsi davamlı şəkildə pozması, müttəfiqlərindən və havadarlarından gələn qızışdırıcı və ziddiyyətli açıqlamalar cəmiyyətimiz tərəfindən yeni müharibəyə çağırış kimi qiymətləndirilir, haqlı olaraq etirazla qarşılanır. Prezidentin müsahibəsi bir daha əminlik yaratdı ki, Ermənistanın təqsiri üzündən dövlət sərhədlərimizdə, Qarabağda və Şərqi Zəngəzurda baş verən ən xırda insident belə, Azərbaycan hakimiyyətinin xüsusi diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin verdiyi açıqlamalar və səsləndirdiyi mesajlar Ermənistanın müharibədən sonrakı təxribatlarının səbəblərinə rəsmi şəkildə aydınlıq gətirdi və ictimai müzakirələrdə irəli sürülən ehtimallardan bəzilərinin əsassız olmadığını təsdiq etdi. Prezident İlham Əliyevin "Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir" məzmunlu ismarıcı, Rusiya müdafiə nazirinin Ermənistanın silahlandırılması ilə bağlı açıqlamasının sülhməramlı missiyanın mahiyyətinə uyğun olmadığının qeyd edilməsi və qonşu İrandan İslami dəyərlərə uyğun olan dost davranışı gözləntimizin vurğulanması, Zəngəzur dəhlizinin açılması ilə bağlı mövqeyimizin Avropa İttifaqının rəsmi mövqeyi ilə tam üst-üstə düşdüyünün altının cızılması, digər açıq və sətiraltı mesajlar əksər mətləblərə aydınlıq gətirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ülvi Quliyev söyləyib.

Deputat vurğulayıb ki, dövlətimizin başçısı məhz bu mesajlarını ictimailəşdirdikdən sonra Kəlbəcər və Laçın rayonlarına səfər etdi. O əraziyə ki, Ermənistan son vaxtlar atəşkəsi əsasən bu istiqamətdə pozur. Səfər üçün Kəlbəcər və Laçının seçilməsi, onun məhz müsahibədən sonrakı günə təsadüf etməsi erməni təxribatlarının, buna rəvac verənlərin qarşısında ölkəmizin inamlı və qətiyyətli ali siyasi iradəsinin dayandığının nümayişidir. Prezident İlham Əliyevin səfər çıxışında söylədiyi növbəti fikir Ermənistana dirijorluq edənlərə müsahibədə ünvanladığı mesajlarının daha sərt məzmunlu məntiqi davamıdır: "Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq... Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir".

Ermənistan tərəfindən atəşkəsin daha çox pozulduğu əraziyə Prezident İlham Əliyevlə Mehriban xanım Əliyevanın birgə səfər etməsi erməniləri cızığından çıxmağa təhrik edənlərə həmin cəhdlərinin əbəs olduğuna açıq ismarıcdır. Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində, Murovdağında inşa olunacaq 11.6 kilometr uzunluğunda tunelin təməlini qoydular, "Kəlbəcər-1" Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri ilə tanış oldular, "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3.4 kilometr uzunluğundakı tunelin təməlini atdılar, Laçın rayonunun Qorçu kəndi ərazisində Laçın Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində iştirak etdilər. Prezident İlham Əliyev Qarabağda və Şərqi Zəngəzurda dəyəri milyardlarla ölçülən bu və digər layihələrə start verməklə, onları əyani şəkildə nümayiş etdirilməklə Ermənistana və onu təxribata sürükləyən dairələrə bu mesajı verdi ki, heç kim və heç bir təxribat Azərbaycanı yolundan döndərə və dayandıra bilməz.

Ülvi Quliyev diqqətə çatdırıb ki, Prezident İlham Əliyev səfər çərçivəsində cəmiyyətimizə də çağırış etdi: "Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır... Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri". Prezidentin bu çağırışını xatırlatmağım təsadüfi deyil, məqsədlidir. Qaragöl ətrafında tarixi və beynəlxalq hüquqla tanınan sərhədlərimizdə mövqelərimizi möhkəmləndirdikdən sonra ermənilər hay-küy saldılar ki, guya Azərbaycan onların ərazisinə keçib. Ən ağrılısı odur ki, bu hay-küyü qızışdıranlar təkcə onların xaricdəki havadarları deyildi. Təəssüf ki, öz içərimizdən olan bəziləri də kimlərinsə dirijor çubuğu ilə erməni isterikasında onlara züy tuturdular. Belələri, əsasən, AXC-Müsavat hakimiyyətində təmsil olunan və səriştəsizlikləri ucbatından xalqımız tərəfindən hakimiyyətdən qovulan, Qarabağın işğalına görə məsuliyyət daşıyan o zamankı siyasi camiyənin günümüzə qədər gəlib çatmış bəzi təmsilçiləridir. Nə qədər paradoksal görünsə də, məhz onlar hələ də barışmaz, radikal siyasi müxalifət adına iddia edir, ötən günlərinin həsrəti ilə alışıb-yanırlar. Yansınlar, amma elə ümummilli məsələlər var ki, siyasi

düşərgədən asılı olmayaraq, bu cür məqamlarda qırmızı xətti keçmək və onu tapdalamaq xalqımız tərəfindən erməni dəyirmanına su tökmək, xəyanət kimi qəbul edilir. Çünki məhz belələri Ermənistanın siyasi-hərbi hakimiyyətinin və ona xaricdən havadarlıq edən məlum dairələrin yalanla dolu ritorikasını eynilə təkrarlayır, sosial şəbəkələrdə və yutub kanallarında bar-bar bağırırlar ki, guya atəşkəsi ermənilər deyil, ölkəmiz pozur. Həmin şəxslər bunu müxalifətçilik və söz azadlığı hesab edirlərsə, kökündən yanılırlar. Hakimiyyətə müxalif olmaq olar, millətə və xalqa isə əsla. Ona görə də bu cür addımlar cəmiyyətimiz tərəfindən bağışlanmır və satqınlıq kimi qiymətləndirilir. Hətta bir anlığa, yalnız nəzəri cəhətdən ehtimal etsək ki, Azərbaycan əsgəri hərbi üstünlüyümüz naminə hansısa strateji yüksəklikdə möhkəmlənib, bunu azərbaycanlı siyasətçi, politoloq və ya ekspert adı altında qəsdən qabardan birisi Azərbaycan cəmiyyətinin əfvinə və güzəştinə heç vaxt ümid edə bilməz. Nə qədər gülməli olsa da, reallıq budur ki, onların arasında vaxtilə qoz və hamam vədi ilə camaatın dilində lətifələr “qəhrəmanına” və istehza ünvanına çevrilmiş Ə.Vəzirov zehniyyətində olanlar kifayət qədərdir. Bunların içərisində eləsi də var ki, demokrat adlandırıb hələ də səcdə etdiyi, “Qarabağ Ermənistandır” söyləyən Paşinyan kimi birisinə müharibədən əvvəl səlis rus dilində bilirsiniz nə təklif edirdi? Deyirdi ki, gəlin vuruşmayaq, kimin güclü olduğunu savaş meydanında yox, şahmat lövhəsində yoxlayaq. Əgər bu təklif həmin siyasi camiyədə təmsil olunanlardan guya ən ağıllısının düşüncə tərzidirsə və beləsinin İQ (intellekt əmsalı) səviyyəsinin göstəricisidirsə, bütövlükdə onlardan ciddi nəsə gözləmək sadəlövhlükdür...

“Prezident İlham Əliyev Ermənistan və ona havadarlıq edənlərlə yanaşı, cəmiyyətimizdəki bu “ağıl” sahiblərinə də tutarlı bir mesaj verdi: “Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir... Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik”. Allah yar olsun!”, - deyə deputat fikrini tamamlayıb.

**AZƏRTAC**
**2021, 18 avqust**

**Prezident: Gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq**

Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Laçında hava limanının təməlqoyma mərasimində çıxışında deyib.

Müharibə başa çatandan sonra Kəlbəcər və Laçın rayonlarında beynəlxalq hava limanları tikilməsi üçün yer axtarılacağını bildirdiyini qeyd edən dövlətimizin başçısı vurğulayıb ki, yerin axtarışı, əlbəttə, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yol, düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Anadolu Agentliyi Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri ilə bağlı videomaterial yayıb**

Türkiyənin Anadolu Agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri ilə bağlı videomaterial yayıb.

AZƏRTAC xəbər verir ki, videomaterialda dövlətimizin başçısı İlham Əliyevin öz səsi ilə səfər və onun təfərrüatı barədə türkdilli ictimaiyyətə məlumat çatdırılır. Bölgənin füsunkar gözəlliyi, Prezidenti İlham Əliyevin Kəlbəcərdə dövlət bayrağımızı yüksəltməsi, dövlətimizin başçısının yerli sakinlər, eləcə də arıçılarla görüşü və səmimi söhbəti orijinal kadrlar əsasında materialda əksini tapıb.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri, Ankara***

**AZƏRTAC**
**2021, 17 avqust**

**Səttar Möhbalıyev: Azərbaycan Prezidentinin səfəri göstərdi ki, Kəlbəcər və Laçının parlaq gələcəyi uzaqda deyil**

Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə şəxsən özü nəzarət edir. Mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, görülən işlərin gedişi ilə maraqlanır, yeni infrastruktur layihələrinin təməlini qoyur. Bu, Azərbaycan Prezidentinin işğaldan azad olunan ərazilərimizə nə qədər önəm verdiyinin təzahürüdür.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, dövlətimizin başçısının hər dəfə işğaldan azad olunan ərazilərimizə səfərləri xalqımız üçün yeni müjdələrdən xəbər verir. Avqustun 16-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı dövlətimizin başçısının Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda və Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunellərin, həmçinin Laçın Beynəlxalq Hava Limanının təməllərini qoyması, eyni zamanda “Kəlbəcər” yarımstansiyasının açılışını etməsi kompleks şəkildə görülən işlərin əhəmiyyətini və miqyasını göstərir. Çətin keçilən relyefə malik ərazilərimizdə müasir standartlara cavab verən yolların çəkilməsi, tunellərin inşası uzun zaman və böyük məbləğdə maliyyə vəsaiti tələb etsə də, görürük ki, dövlətimiz bunların öhdəsindən ləyaqətlə gəlir. “Mən həm də bir iqtisadçı kimi, müsahibələrimdə Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu bildirmişəm. İşğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. Bir fakta diqqət çəkmək istəyirəm. Biz hələ də tam sovuşmayan pandemiya şəraitində yaşayırıq. Bilirik ki, pandemiya bütün dövlətlərin iqtisadi əsaslarını laxlatdı, sosial vəziyyəti ağırlaşdırdı. Həm də biz müharibədən çıxmış bir dövlətik. Müharibə aparmaq və bu müharibədə qalib gəlmək həmçinin böyük iqtisadi güc tələb edir. Azərbaycan iqtisadiyyatı hər iki sınaqdan üzüağ çıxdı. Eyni zamanda, müharibədən dərhal sonra işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işlərinə başlanması dediklərimizi bir daha təsdiq edir. Hamıya məlumdur ki, bütün bu uğurların önündə Prezident İlham Əliyevin düzgün qurulmuş iqtisadi siyasəti dayanır. Heç vaxt öz torpaqları, əraziləri olmayan indiki Ermənistan qədim Azərbaycan torpaqlarında yaradılıb. Qurama, süni bir dövlətdir. Tarixə nəzər salsaq, görərik ki, Ermənistanın mövcud olduğu ərazilərin adları Azərbaycan adlarıdır. Kəlbəcərdə səfərdə olarkən Prezident İlham Əliyev bu məsələyə toxundu. Bildirdi ki, həmin ərazilərin adları sonradan dəyişdirilib, erməni adları verilib. Ermənilərin “Vardenis” adlandırdığı rayon əslində qədim Azərbaycan torpağı Basarkeçərdir, Göyçə mahalının tərkibindədir. Dövlətimizin başçısı çox əhəmiyyətli bir təşəbbüs irəli sürdü. Vurğuladı ki, biz indiki Ermənistan ərazisində qalan torpaqlarımızı əsl adı ilə adlandırmalıyıq. Həqiqətən də, bu, çox vacib və strateji bir məsələdir. Biz öz tariximizə sahib çıxan xalqıq. Bu da bizim tarixi haqqımızdır. Gələcək nəsillər də bunu bilməlidir ki, Ermənistan dövləti qədim Azərbaycan torpaqlarında quraşdırılıb. Xislətlərində işğalçılıq meyilləri buradan qaynaqlanır. Amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, həmçinin xalqımızın bir yumruq kimi nümayiş etdirdiyi sarsılmaz birlik bir də çətin yadlarına düşə biləcək işğal arzularını alt-üst etdi”, - Milli Məclisin deputatı vurğulayıb.

“İşğal dövründə ermənilər Basarkeçərdən Kəlbəcərə Laçın dəhlizinə alternativ yol çəkəndə biz buna ciddi etiraz etdik, daxilimizdə bir narahatlıq var idi. Axı bu ərazilər bizimdir. İkili standartlardan çıxış edən beynəlxalq və regional təşkilatlar, həmçinin münaqişənin həlli ilə məşğul olan Minsk qrupu buna göz yumdu. Onlar digər yollar da çəkmək niyyətində idilər, qanunsuz məskunlaşma da həyata keçirirdilər. “Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm”, - deyən Prezidentimizin böyük məharətlə hazırladığı və uğurla tətbiq etdiyi strategiyası nəticəsində bu yoldan bu gün biz istifadə edirik. Dağıtdıqları şəhərləri, kəndləri bərpa edirik. Oraya qayıdacaq sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılır. Təbii ki, həmin ərazilərə turist axını da çox olacaq. Kəlbəcərin, həmçinin işğaldan azad edilmiş digər ərazilərimizin turizm imkanları çox genişdir. Bu istiqamətdə də kompleksi işlər görülür. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular. Bundan öncə isə Füzuli və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisinə başlanıldı. Bölgənin işıqlı gələcəyinə rəng qatacaq bu cür layihələr ümumilikdə ölkəmizin hərtərəfli inkişafına töhfə vermiş olacaq”, - S.Möhbalıyev qeyd edib.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Deputat: Prezident İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir**

Azərbaycan Prezidenti İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti torpaqlarımızı işğaldan azad edərək tarix yazan şanlı və qalib Ordunun Müzəffər Ali Baş Komandanı kimi çıxışında ölkəmizin prinsipial mövqeyini növbəti dəfə qətiyyətlə ifadə etdi, hazırkı hərbi-siyasi vəziyyəti dəqiq qiymətləndirdi, Ermənistana, onun havadarlarına ünvanlanmış açıq və konkret mesajlar verdi. Bir daha aydın oldu ki, siyasi və hərbi-strateji şərait tam Azərbaycanın nəzarətindədir. Öz milli gücü vasitəsilə ərazi bütövlüyünü bərpa edən və hazırda bütün şərtləri diktə edən Azərbaycan istənilən təxribat cəhdinin qarşısını almaq, revanşizm təfəkkürü ilə yaşayan erməni faşizminin başını əzmək iqtidarındadır.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu deyib.

Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində bir çox mifi darmadağın edərək reallığın nədən ibarət olduğunu təkcə işğalçı Ermənistana deyil, hələ də müstəmləkəçilik təfəkkürü ilə yaşayan mərkəzlərə, ermənipərəst və islamofob dairələrə sübut etdi. Azərbaycan Ordusu “qəhrəman erməni əsgəri”, “görkəmli erməni sərkərdələri” kimi mifi darmadağın etdi. Rəşadətli Ordumuz döyüş meydanında öz sözünü dedi, ancaq əliyalın insanlarla müharibə aparmaq qabiliyyətinə malik olan erməni cəlladları qaçıb gizləndilər. Xocalıda dinc əhalini qıran Koçaryan, Sarkisyan, Ohanyan kimi canilər rəşadətli Ordumuzun qarşısına çıxmaqdan qorxaraq Yerevana qaçdılar. Azərbaycan Silahlı Qüvvələri “yenilməz erməni ordusu” mifini də məhv edərək təcavüzkar qüvvələrə layiqli cəza verdi. Bunu görmək istəyənlər xalqımızın çoxəsrlik tarixinin bənzərsiz qələbəsi olan tarixi Zəfərimizin rəmzi kimi çıxış edən Hərbi Qənimətlər Parkına nəzər salsınlar.

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Prezident İlham Əliyev səfər zamanı, həmçinin Azərbaycan dövlətinin milli maraqlara əsaslanan bütün məsələlərdə prinsipial yanaşma ortaya qoyduğunu diqqətə çatdırdı. Bu kontekstdə işğal dövründə Azərbaycanın təbii sərvətlərini talayan xarici şirkətlərin cinayətlərinin gündəmə gətirilməsi xüsusi əhəmiyyətə malikdir. Dövlətimizin başçısı bu şirkətlərin iki yolu olduğunu – ya təzminat ödəyəməli olduqlarını, ya da beynəlxalq məhkəməyə veriləcəklərini vurğuladı. Bu, heç şübhəsiz, haqlı və ədalətli mövqedə olan Azərbaycanın qətiyyətinin bariz nümunəsi, milli gücünün ifadəsidir.

Bunlarla yanaşı, dövlətimizin başçısı Azərbaycanın strateji hədəfləri, perspektivə baxışı və çoxşaxəli fəaliyyət istiqamətləri ilə əlaqədar konkret məsələlərə toxundu. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq prosesi, zəruri infrastruktur yaradılması istiqamətində işlərin ardıcıl olaraq davam etdirildiyini, ölkəmizin “Böyük qayıdışı” ən yüksək səviyyədə davam etdirmək əzmində olduğunu nəzərə çatdırdı.

H.Babaoğlu diqqətə çatdırıb ki, dövlətimizin başçısının “Biz Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır”, “Biz harada lazım bilsək, orada da duracağıq” fikirləri isə qalib Liderin qəti iradənin, əzmin və prinsipial mövqeyinin ifadəsidir. Nəticə etibarilə, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Azərbaycan dövlətinin öz qətiyyətli mövqeyindən bir addım da geri çəkilmədiyini, bütün strateji hədəflərinə addım-addım irəlilədiyini göstərir.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar**

Xəbər verildiyi kimi, avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

**Prezident İlham Əliyev:** Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

**X X X**

Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə **Prezident İlham Əliyev** deyir: Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.

**X X X**

Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlətimizin başçısı tunelin təməlini qoydu.

**X X X**

**Prezident İlham Əliyev** dedi: Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda “Vardenis rayonu” deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona “Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda “Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın “Yerasx” kəndində, onun ətrafında

hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər - Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

**X X X**

**Prezident İlham Əliyev:** Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi “Kəlbəcər-1” Su Elektrik Stansiyasının yerinə gəlmişik.

**X X X**

Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

**Prezident İlham Əliyev:** Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.

**XXX**

Bura da “Kəlbəcər” yarımstansiyasıdır. Qısa müddətdə - cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

**X X X**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

**X X X**

Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən **Prezident İlham Əliyev** dedi:

-Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

**X X X**

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu.

**Dövlətimizin başçısı dedi:** Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi, Azərbaycanda, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdı və hərtərəfli işlər gedir - elektrik xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, tunellər, körpülər, hava limanları, sosial obyektlər və bütün digər məsələlər. Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq.

Qarabağ Azərbaycandır!

**X X X**

**Prezident İlham Əliyev:** İndi biz Laçın rayonuna gedirik. Sonra Kəlbəcər şəhərinə gedəcəyik. Yolumuz Laçın rayonunadır. Hava limanının təməlini qoyacağıq.

**Birinci xanım Mehriban Əliyeva:** Bu yol təzə yoldur? Yoxsa olub bu yol?

**Prezident İlham Əliyev:** Yox, bu, olub. Kəlbəcər-Laçın yolu da təbii ki, ən yüksək səviyyədə yenidən qurulacaq. İndicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir - inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər.

Azərbaycanın gözəl mənzərələri. Kəlbəcər və Laçın rayonları təbiət nöqteyi-nəzərdən ən gözəl rayonlardandır. Ermənilər təbiətimizə nə qədər ziyan vursalar da, onu tam məhv edə bilmədilər.

**X X X**

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular.

Tədbirdə çıxış edən **Prezident İlham Əliyev** dedi

-Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoydum. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, - mən müharibə başa çatandan sonra elan etmişdim, - yer axtarılacaq və beynəlxalq hava limanı tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, arxamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi təpələr kəsiləcək, bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı, uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Amma bunu demək çətindir. Çünki mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən – oktyabr ayından sonra buralarda qar yağacaq. Ona görə yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər, böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.

**X X X**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət etdilər.

**Arıçılar:** Azərbaycanda arı ailələri iki dəfədən çox artıb

**Prezident İlham Əliyev:** Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq. Ona görə gərək həm daxili bazarı təmin edəsiniz, həm də ki, ixrac edəsiniz. Göstərməyə bir şey var?

**Arıçı:** Göstərməyə bəli var. Mən indi bir arı papağı verəcəyəm

**Prezident İlham Əliyev:** Onlar bilirlər biz kimik, bizə dəyməzlər. Bu, baldır?

**Arıçı:** Bəli, baldır, əsl Kəlbəcər balıdır. İcazə versəydiniz, bunlardan Sizə iki dənə hədiyyə verərdim.

**Prezident İlham Əliyev:** İki dənə çoxdur, yox. Bir dənə bəsdir. Biz Kəlbəcər balından da dadarıq. Hazırdır da bu?

**Arıçılar:** Bəli, artıq hazırdır. Biri budur, birini də başqa yeşikdən taparam.

**Prezident İlham Əliyev:** Yox, biri bəsdir. Bir dənə bəsdir dadmaq üçün.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə bəsdir.

**Arıçılar:** Vuracaq indi

**Prezident İlham Əliyev:** Yox, bizə dəyməz, o, bilir ki, biz kimik. Sizdən başqa da arıçılar var?

**Arıçılar:** Var, başqa arıçılar da var. Pilot layihə kimi 5 arıçı gəldi. Sonra başqa arıçılar gəldilər. Qoy bir dənə də çıxarım.

**Prezident İlham Əliyev:** Yox, yox bəsdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arı qalıb üstündə.

**Arıçı:** Bu, tam möhürlü olmadı, istəyirəm tam möhürlüsünü verim.

**Prezident İlham Əliyev:** Yox, elə bu, kifayətdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arılar var. Çəkirəm.

**Prezident İlham Əliyev:** Gəlin birlikdə şəkil çəkdirək.

Sağ olun. Mən bütün köçkünlərə söz vermişdim ki, onları dədə-baba yurduna qaytaracağam.

**Arıçılar:** Biz inanırdıq, ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz.

**Arıçı**: Bəli genişləndirəcəyik. Çünki tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

**Prezident İlham Əliyev:** Sovet vaxtında da Kəlbəcərdə arıçılıq inkişaf etmişdi.

**Arıçılar:** Kəndin özündə olub sovet vaxtında. Sovet İttifaqında Kəlbəcər balının adı çıxmışdı. Bu adı inşallah, özünə qaytaracağıq.

**Prezident İlham Əliyev**: Ermənilər çox qanunsuz işlər görüblər, təbiətimizi məhv ediblər, istismar ediblər.

**Arıçı:** Ata-babalarımızın kökü buradadır, atamın qəbri buradadır. Kəlbəcərdə heç vaxt erməni yaşamayıb

**Prezident İlham Əliyev:** Bilirəm, heç vaxt. Amma sonra Kəlbəcəri özününküləşdirmək istədilər, adını dəyişdirməyə çalışdılar. Biz də gəldik, dərsini verdik, torpağımızı geri aldıq.

**Arıçılar:** Çox sağ olun. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun, uğurlar sizə. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bütün qohum-qardaşlara salam deyin

**Arıçılar:** Allah Sizi bu xalqımıza çox görməsin. Sağ olun.

**X X X**

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq.

Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar.

**X X X**

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə gəldilər. Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltdı və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam

rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi.

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var. Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir. Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir.

Əlbəttə, biz torpaqlarımızı azad etmək üçün addımlarımızı elə atırdıq ki, bütün torpaqlar azad edilsin. Artıq bu da sirr deyil ki, danışıqlar dövründə masa üzərində olan təkliflər bizim maraqlarımızı qane etmirdi. Mən bunu açıq bəyan etmişdim və məhz buna görə təklif edilən varianta razılıq vermirdim. Çünki son 10 il ərzində nədən söhbət gedirdi - beş rayon Azərbaycana qaytarıla bilər, Kəlbəcər və Laçın rayonları isə

keçmiş Dağlıq Qarabağda referendum keçiriləndən sonra Azərbaycana qaytarıla bilər. Əlbəttə, biz buna heç cür razı ola bilməzdik. Çünki heç bir referendumdan söhbət gedə bilməzdi. Mənim siyasətim ondan ibarət idi və mən bunu açıq şəkildə bəyan edirdim ki, bizim bütün torpaqlarımız işğalçılardan azad edilməlidir, ərazi bütövlüyü tam bərpa edilməlidir, bizə məsələnin yarımçıq həlli lazım deyil. Məhz buna görə edilən təkliflərə Azərbaycan tərəfi razılıq vermirdi. Ancaq sonra bilindi ki, Ermənistan da buna razı deyil. Çünki Ermənistanın məqsədi bu torpaqları, zəbt edilmiş bütün torpaqları əbədi işğal altında saxlamaq idi. İndi çıxan yeni məlumatlar və eyni zamanda, azad edilmiş torpaqlarda mövcud olan mənzərə onu göstərir. Torpaqları təhvil vermək istəyən 6 xətt müdafiə istehkamları qurmazdı. İndi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, bizə bir qarış torpaq qaytarmamaq, məsələni uzatmaq idi. Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər. Hesab edirdilər ki, bu siyasət onlara xeyir gətirəcək. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar

Ancaq bu gün İkinci Qarabağ müharibəsi ilə bağlı bu sözləri deyərkən bir məsələyə diqqət yetirmək istəyirəm. Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, otuz il ərzində ermənilər dırnaqarası “hərbi qələbə” ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu “yenilməz ordu”dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu “yenilməz ordu” kimi təqdim edən mifologiyaya son qoyduq.

İkinci mif ondan ibarət idi ki, erməni əsgəri “cəsur”dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni, bu mif də darmadağın edildi. Erməni əsgəri fəraridir.

Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq. Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi.

Növbəti mif onların dırnaqarası “sərkərdələri” ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, “tuşenka” satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma göröndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası “qəhrəmanlarını”, “Artsax”, olmayan “Artsax” qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar. Fərarilər, satqınlar, cəlladlar, qorxaqlar - onlar ancaq əliyalın əhali ilə müharibə apara bilərlər. Necə ki, vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə

yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları – uşaqları, qadınları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır.

Erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər.

Onlar artıq buradan gedəsi olanda, kapitulyasiya aktını imzalayandan sonra da bizdən vaxt istədilər. Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şülələrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir.

Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər.

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.

Biz isə indi genişmiqyaslı bərpa işlərinə start verdik. O cümlədən Kəlbəcər və Laçın rayonlarında, Şərqi Zəngəzur regionunda. Artıq bu işlərin bir hissəsi bu gün qeyd olundu – yarımstansiya fəaliyyətə başladı, su elektrik stansiyasının tikintisi ilə tanış oldum, Laçın rayonunda beynəlxalq hava limanının təməli qoyuldu, iki tunelin təməli qoyuldu və digər infrastruktur layihələri artıq icra edilməkdədir. Eyni zamanda, biz pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərini buraya göndərdik, ezam etdik, şərait yaratdıq ki, onlar işə başlasınlar və artıq bu işlərə də start verildi.

Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk. Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim

torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni, torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən hansısa xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər.

Bildiyiniz kimi, mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.

Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

**X X X**

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhəri. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerlə-yeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kənləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir.

**X X X**

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissəyə gəldi.

Quru qoşunları komandanı general-mayor Ənvər Əfəndiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi

-Cənab Ali Baş Komandan, quru qoşunlarının əməliyyat şəraitində dəyişiklik olmayıb, hadisə baş verməyib.

Prezident, Ali Baş Komandan hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb. Hərbi hissənin maddi-texniki təchizatı da ən yüksək səviyyədə həyata keçirilib. Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

**X X X**

**Prezident İlham Əliyev:** İndi isə biz İstisuya gəldik. İstisu sanatoriyasının dağılmış görüntüləri gözümüzün önündədir. Vəhşi düşmən buranı da söküb. Baxın, nə günə qoyub sanatoriya korpuslarını.

**X X X**

Kəlbəcər faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və “İstisu” sanatoriyası ilə də məşhurdur. Erməni vandalları ərazilərimizi işğal etdikdən sonra oradakı təbii ehtiyatları da istismar ediblər. İndi “İstisu”ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində “İstisu” sanatoriyasında da oldular.

İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.

**Prezident İlham Əliyev:** Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada “mir” yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq.

Prezident İlham Əliyev burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxdı.

**Prezident İlham Əliyev** dedi: Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir, uzunluğu 51 kilometrdir. Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq. Beləliklə, biz növbəti yol infrastrukturunu yaradacağıq. Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda, vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir. Xəritədə də artıq yaşayış məntəqələrindən keçən yol göstərilir.

Beləliklə, Kəlbəcər və Laçın rayonlarına səfərimiz başa çatır. Səfər çox uğurlu idi. Bir çox önəmli obyektlərin açılışını etdik, təməlini qoyduq. Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

**X X X**

**Prezident İlham Əliyev:** Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi. İşğaldan əvvəl heyvandarlar həmişə buraya gəlirdilər. İndi bizi salamlayırlar. Biz də onları salamlayırıq. Xoş gəliblər öz Vətənlərinə.

Səma bizi yola salır, biz də Ömər aşırımına yaxınlaşırıq, qayıdırıq.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Müdafiə naziri Kəlbəcər və Laçın rayonlarında yerləşən hərbi hissələrdə olub**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən hərbi qulluqçuların xidmət və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qurumun rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən əsaslı təmir olunmuş hərbi hissələrə baxış keçirib.

Əvvəlcə tank bölmələrinin döyüş hazırlığının səviyyəsini yoxlayan müdafiə naziri burada hərbi qulluqçular üçün yaradılan şəraitlə maraqlanıb. Məruzə olunub ki, hərbi hissədə şəxsi heyətin xidməti üçün bütün lazımi şərait yaradılıb.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi qeyd olunan ərazilərdə dislokasiya olunan digər hərbi hissələri ziyarət edib.

Bildirilib ki, hərbi hissələr müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə silah otaqları, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqələri, ərzaq və əşya anbarları, hamam-sanitar qovşaqları istifadəyə verilib. Ərazilərin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb.

Müdafiə naziri şəxsi heyətlə görüşərək Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Zəfərin tarixi əhəmiyyətini bir daha hərbi qulluqçuların diqqətinə çatdırıb, onlara xidmətlərində uğurlar arzulayıb.

Sonda müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**
**2021, 8 avqust**

**Müdafiə naziri Kəlbəcər və Laçın rayonlarında hərbi tibb müəssisələrinə baxış keçirib**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir. Hərbi hissələrdə müasir standartlara cavab verən tibbi infrastrukturun yaradılması istiqamətində müvafiq fəaliyyətlər həyata keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Kəlbəcər rayonu ərazisində əsaslı təmir edilmiş hərbi hospitala baxış keçirib.

Əraziyə baxış zamanı müdafiə nazirinə məruzə edilib ki, müasir tibbi avadanlıqla təchiz olunan hospitalda hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb. Qeyd olunub ki, hərbi hospitalda cərrahi-əməliyyat bloku, qəbul-diaqnostika, terapiya, cərrahiyyə, infeksion xəstəliklər, tibbi-təchizat, laboratoriya, anesteziologiya və intensiv terapiya bölmələri, həmçinin yeməkxana zalı, rentgen və stomatoloji kabinetlər mövcuddur.

Sonra nazir Laçın rayonu ərazisində müasir avadanlıqla təchiz edilmiş hərbi tibb məntəqəsinə gələrək burada yaradılan şəraitlə tanış olub.

Sonda müdafiə naziri tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

**AZƏRTAC**
**2021, 7 avqust**

**MN: Laçın dəhlizi, Xocavənd və Naxçıvan istiqamətlərində guya döyüşlərin getməsi barədə Ermənistanın yaydığı məlumatlar əsassızdır**

Laçın dəhlizi, Xocavənd və Naxçıvan istiqamətlərində guya atəş səslərinin müşahidə edilməsi və döyüşlərin getməsi barədə Ermənistan tərəfinin yaydığı məlumatların heç bir əsası yoxdur.

Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətinin AZƏRTAC-a açıqlamasında qeyd olunub.

Nazirliyin açıqlamasında bildirilib ki, əldə olunan məlumata əsasən, erməni hərbi qulluqçu qarşılıqlı münasibətlərin pozulması və bir-birinə açılan atəş nəticəsində yaralanıb.

**AZƏRTAC**
**2021, 26 iyul**

**Müdafiə Nazirliyi Laçın rayonunun Şeylanlı kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Laçın rayonunun işğaldan azad edilmiş Şeylanlı kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Şeylanlı kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları birgə üçtərəfli Bəyanata əsasən, Laçın rayonu 2020-ci il dekabrın 1-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 8 iyul**

**Laçın rayonunun Minkənd kəndindən videogörüntülər**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Minkənd kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 4 iyul**

**Müdafiə Nazirliyi Laçın rayonunun Seyidlər kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Laçın rayonunun işğaldan azad edilmiş Seyidlər kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 2 iyul**

**Müdafiə Nazirliyi Laçın rayonunun Şeylanlı kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Şeylanlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Şeylanlı kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları birgə üçtərəfli Bəyanata əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 28 iyun**

**Laçın rayonunun Əhmədli kəndindən videogörüntülər**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Əhmədli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 13 iyun**

**Müdafiə Nazirliyi Laçın rayonunun Kamallı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Kamallı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Kamallı kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı Qələbəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan üçtərəfli Bəyanata əsasən, Laçın rayonu dekabrın 1-də azad olunub.

**AZƏRTAC**
**2021, 12 iyun**

**Müdafiə Nazirliyi Laçın rayonunun Bozlu kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Bozlu kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Minkənd çayının sol sahilində, Qarabağ yaylasında yerləşən Bozlu kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı Qələbəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan üçtərəfli Bəyanata əsasən Laçın rayonu dekabrın 1-də azad olunub.

**AZƏRTAC**
**2021, 11 iyun**

**Azərbaycan Müdafiə Nazirliyi: Laçın istiqamətində düşmənin diversiya qrupunun bir üzvü saxlanılıb**

İyunun 8-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Laçın rayonu sahəsində əlverişsiz hava şəraitindən istifadə edən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu ərazimizə daxil olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələrinin sayıqlığı nəticəsində qrupun bir üzvü, hərbi qulluqçu Artur Kartanyan saxlanılıb. Qrupun digər üzvləri geri çəkilərək ərazini tərk ediblər.

Diversantın saxlanıldığı ərazinin koordinatları: X8610021, Y4387428.

İlkin araşdırmalara görə, düşmənin kəşfiyyat-diversiya qrupunun tapşırığı ərazilərimizin minalanması olub.

Hazırda qrupun saxlanılan üzvü haqqında məlumatlar dəqiqləşdirilir.

**AZƏRTAC**
**2021, 8 iyun**

**Müdafiə Nazirliyi Laçın rayonunun Ağbulaq kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Ağbulaq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Rayon mərkəzindən 62 kilometr şimal-qərbdə yerləşən Ağbulaq kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı qələbəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan üçtərəfli Bəyanata əsasən, Laçın rayonu dekabrın 1-də azad olunub.

**AZƏRTAC**
**2021, 8 iyun**

## Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Qubadlı və Laçın rayonlarına səfəri təşkil edilib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 6-da ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, onlar bu gün Qubadlı və Laçın rayonlarında olacaqlar.

Səfərdə xarici ölkələrin Azərbaycandakı səfirləri, səfirliklərin nümayəndələri, hərbi attaşelər və digərləri, ümumilikdə 100-dən artıq şəxs iştirak edir. Həmçinin nüfuzlu beynəlxalq media qurumlarının əməkdaşlarının səfərdə iştirakı da təmin olunub.

**AZƏRTAC**
**2021, 6 mart**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar**

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

**XXX**

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.

Zəngilana gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

-Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı, bax, bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci “ağıllı kənd” layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq “ağıllı kənd” layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

**XXX**

Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan **Prezident İlham Əliyev** dedi:

-Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi “ağıllı kənd” konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır? Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. “Azərişıq” artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş – ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün

biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız Qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun, bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada -

Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**XXX**

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyev “Güləbird” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, “Güləbird” Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

**XXX**

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.

Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

**Prezident İlham Əliyev:** Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.

**XXX**

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa

edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

**AZƏRTAC**
**2021, 15 fevral**

**Azərbaycan Prezidenti hərbi qulluqçuların bir qrupunu "Laçının azad olunmasına görə" medalı ilə təltif edib**

Prezident İlham Əliyev dekabrın 29-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının Laçın rayonunun işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərmiş 5775 hərbi qulluqçu "Laçının azad olunmasına görə" medlı ilə təltif olunub.

Təltif edilənlərin 5-i polkovnik, 39-u polkovnik-leytenantdır.

**AZƏRTAC**
**2020, 29 dekabr**

**Laçın və Kəlbəcər rayonlarına komendantlar təyin olunub**

İşğaldan azad olunmuş ərazilərimizdə müvəqqəti xüsusi idarəetmənin təşkilinə dair Azərbaycan Respublikası Prezidentinin imzaladığı Fərmana uyğun olaraq, Daxili İşlər Nazirliyi müvafiq ərazilərin müvəqqəti komendantlarını təyin edir və müvəqqəti komendantlıqların fəaliyyətini təşkil edir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmrlərinə əsasən Laçın Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Adil Əliyev Laçın rayonuna, Kəlbəcər Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Haqverdi Əkbərov Kəlbəcər rayonuna komendant təyin olunublar.

Şöbələrin şəxsi heyəti müvafiq rayon sakinlərinin sıx məskunlaşdıqları bölgələrdə fəaliyyətlərini davam etdirməklə yanaşı, işğaldan azad olunan rayonlarda xidmətə cəlb ediliblər.

**AZƏRTAC**
**2020, 3 dekabr**

**İşğaldan azad edilmiş Laçın rayonunun Hüsülü və Malıbəy kəndləri**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın rayonunun Hüsülü və Malıbəy kəndlərinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Xatırladaq ki, hər iki kənd 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Bu kəndlər işğaldan sonra vəhşicəsinə talan edilib.

Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı qələbəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan üçtərəfli bəyanata əsasən, Laçın rayonu dekabrın 1-də azad olunub

**AZƏRTAC**
**2020, 3 dekabr**

**İşğaldan azad edilmiş Laçın şəhərinin videogörüntüləri**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Laçın şəhərindən çəkilmiş videogörüntüləri paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Xatırladaq ki, Laçın şəhəri 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı qələbəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında imzalanan Bəyannaməyə əsasən, Laçın rayonu dekabrın 1-də azad olunub.

**AZƏRTAC**
**2020, 3 dekabr**

**Özbəkistan portalları Azərbaycan Prezidentinin Laçının işğaldan azad olunması ilə bağlı xalqa müraciəti haqqında materiallar verib**

Özbəkistanın “kun.uz”, “qalampir.uz” və ”tarjumon.uz” portalları Azərbaycan Prezidenti İlham Əliyevin Laçın rayonunun azad olunması münasibətilə xalqa müraciəti haqqında özbək və rus dillərində şərh materialları çap edib.

AZƏRTAC xəbər verir ki, məqalələrdə müraciətdən sitatlar gətirilir və buna münasibət bildirilir.

“kun.uz” portalı Fransa Senatının “Dağlıq Qarabağ respublikası”nın tanınmasına dair qətnamə təklifi”nin səsə qoyulması və qəbul edilməsi haqqında məlumat verib və buna Azərbaycan Prezidenti İlham Əliyevin müraciətdəki cavabını çap edib.

Dövlət başçısı deyib: “Min kilometrlərlə məsafədə yerləşən ölkələr, indi qanunlar qəbul edirlər, parlamentlər bu məsələni müzakirə edirlər. Nə işi var Fransa parlamentinin bizim məsələ ilə əlaqədar? Neçə ildir Fransa Minsk qrupunun həmsədridir? Daşı daş üstə qoyub? Bir məsələnin həlli üçün praktiki addım atıb? İndi məsələ həll olunandan sonra görün nələr baş verir? Fransa Senatı qətnamə qəbul edir ki, Dağlıq Qarabağ tanınsın. Sizin onlardan xoşunuz gəlirsə, mən müharibə dövründə demişdim, verin Marsel şəhərini, onun adını dəyişdirin, onlara orada ikinci dövlət yaradın”.

“qalampir.uz” portalı da özbək dilində çap etdiyi məqalədə müraciətə istinadla yazır: “Əgər kimsə Ermənistana ikinci dövlət yaratmaq üçün ərazi vermək istəyirsə versinlər, orada ikinci erməni dövləti yaratsınlar, öz ərazisinin bir hissəsini onlara versinlər. Amma gəlib bizdən tələb etmək ki, tarixi, hüquqi Azərbaycan torpağında erməni dövləti yaradılsın, bu, hansı məntiqə sığır?”.

“tarjumon.uz” portalı Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 10-da imzaladıqları birgə Bəyanat haqqında da məlumat verir, məhz bu sənədə əsasən Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad olunmasını yazır. Bildirilir ki, bu ərazilər bir güllə atmadan və bir şəhid vermədən Azərbaycana qaytarılıb.

“sof.uz” saytında isə Qarabağın, ayrıca olaraq Şuşanın və Xankəndinin tarixi haqqında ətraflı danışılır. Bildirilir ki, Rusiya və İran arasında 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinə əsasən, ermənilər Dağlıq Qarabağa köçürülüb.

Vurğulanır ki, 1752-ci ildə Qarabağ xanı Pənahəli xan Şuşa şəhərinin əsasını qoyub, onun oğlu İbrahimxəlil xan isə Şuşa dağının ətəyində özünə yay iqamətgahı tikdirib və həmin ərazi Xankəndi adlandırılıb.

**Qulu Kəngərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Daşkənd**

**AZƏRTAC**
**2020, 3 dekabr**

**"Arabnews" qəzeti Laçın rayonunun işğaldan azad edilməsindən yazır**

Ərəb dünyasının ingiliscə nəşr olunan nüfuzlu "Arabnews" qəzetində Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olmasından və bu ərazidə bayrağımızın dalğalanmasından bəhs edən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı bəyanata əsasən Qarabağın işğal altında olan sonuncu ərazisi – Laçın rayonunun Azərbaycana təhvil verildiyi qeyd olunub. Vurğulanıb ki, Ermənistan silahlı qüvvələrinin Laçını, həmçinin Ağdam və Kəlbəcəri tərk etməsi 44 günlük müharibədə Azərbaycan Ordusunun qazandığı Qələbə ilə əlaqədardır. Diqqətə çatdırılıb ki, Rusiya sülhməramlı qüvvələri müəyyən müddət ərzində Laçın dəhlizində keçidin təhlükəsizliyini təmin edəcək.

Məqalədə separatçı ermənilərin işğal edilmiş Qarabağ ərazisini, xüsusən əsas şəhər olan Şuşanı tərk etməsindən, Kəlbəcər və Laçında qanunsuz məskunlaşan ermənilərin evləri və meşələri yandırmasından bəhs olunur. İşğal illərində Laçında məskunlaşmış 48 yaşlı Levon Gevorqyan adlı erməninin AFP informasiya agentliyinin müxbirinə söylədikləri buna misaldır: "Mən 22 ildir ki, burada yaşayıram, ev tikmişəm. Əgər evimi tərk etsəm, onu yandıracağam".

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2020, 2 dekabr**

**Müdafiə Nazirliyi Laçın rayonunun Qarıqışlaq kəndindən videogörüntülər yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Laçın rayonunun Qarıqışlaq kəndindən videogörüntülər yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**
**2020, 2 dekabr**

**Moldova mətbuatı Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərləri geniş işıqlandırıb**

Moldovanın aparıcı KİV-ləri Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, “NOİ.md”, “publika.md”, “deschide.md” və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələrinin Laçın rayonuna daxil olması barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil olub.

Yazılarda vurğulanır ki, 30 ilə yaxın müddətdə Laçın rayonu Ermənistanın nəzarətində idi.

*Emil Hüseynli*
*AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu*

**AZƏRTAC**
**2020, 2 dekabr**

**Ukrayna KİV-ləri Azərbaycan Ordusunun Laçın rayonuna daxil olmasına dair xəbərlərə geniş yer ayırıb**

Ukrayna mətbuatı Azərbaycanın Laçın rayonunun işğaldan azad olunmasına dair xəbərlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, "RBK-Ukrayna", "Gordon", "Dialog.ua", "Podrobnosti.ua" və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələri kalonunun Laçın rayonuna daxil olması barədə məlumat verilib.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinadla qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil olub.

Ukrayna mətbuatında Azərbaycan hərbçilərinin Laçında Dövlət Bayrağımızı sancması videosu da yayılıb.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri, Kiyev***

**AZƏRTAC**
**2020, 2 dekabr**

**“Le Figaro” Laçının Azərbaycana qaytarılmasından yazıb**

Fransanın “Le Figaro” qəzeti Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması barədə xəbəri dərc edib.

AZƏRTAC xəbər verir ki, yazıda noyabrın 10-da imzalanan birgə bəyanata əsasən, Laçın rayonunun Azərbaycana geri qaytarıldığı bildirilir. Qeyd olunur ki, Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçına daxil olub.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatına istinadən dərc olunan xəbərdə noyabrın 10-da imzalanan birgə bəyanatdan bəhs olunur, Kəlbəcər və Ağdamdan sonra dekabrın 1-də Laçın rayonunun da Azərbaycanın nəzarəti altına keçdiyi qeyd edilir.

Altı həftə davam edən müharibədə Azərbaycan Ordusunun qazandığı uğurlar qeyd edilir, bir neçə rayonun məhz hərbi əməliyyatlar zamanı işğaldan azad edildiyi diqqətə çatdırılır.

Həmçinin bildirilir ki, birgə bəyanata əsasən Azərbaycana qaytarılan əraziləri tərk edən ermənilər evləri yandırıb və bütün infrastrukturu dağıdıb.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Paris**

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Ərəb telekanalları Azərbaycan Ordusunun Laçına daxil olması barədə reportajlar yayıb**

Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması ərəb ölkələrinin televiziya kanallarının da diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, "Əl-Hədat", "Əl-Cəzirə", "Əl-Məmləkə", "Əl-Ərəbiyyə" və "Extranews" telekanalları şanlı Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması ilə bağlı kadrlarını əks etdirən reportajlar yayımlayıb.

Reportajlarda qeyd olunub ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 10-da imzaladığı Bəyanatın şərtlərinə uyğun olaraq, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Laçın rayonuna daxil olub.

Diqqətə çatdırılıb ki, 44 gün davam edən və Ermənistanın kapitulyasiya aktı imzalaması ilə başa çatan döyüşlərdən sonra işğalçı ölkə son bir ay müddətində Ağdam, Kəlbəcər və Laçın rayonlarını azad etməyə məcbur edilib.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Xalqımız Laçının işğaldan azad olunmasının sevincini yaşayır-Fotosessiya**

Dekabrın 1-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Laçının işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib və Şəhidlər xiyabanı ziyarət edilib.

AZƏRTAC xəbər verir ki, Su İdman Sarayının yanından start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektləri boyunca hərəkət ediblər. Şəhidlər xiyabanını ziyarət edən Bakı sakinləri və laçınlılar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıblar.

Əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar “Laçın azaddır”, “Biz Laçına qayıdırıq”, “Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!”, “Qarabağ Azərbaycandır!” şüarları səsləndirib, Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

Yürüş iştirakçılarından bir neçəsi sevinc hisslərini AZƏRTAC-la bölüşüb.

Paytaxt sakini Nicat Məmmədov deyib: “Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, rəşadətli Ordumuzun şücaəti, xalqın öz lideri ətrafında yumruq kimi birləşməsi Qələbəmizi təmin etdi. Bu gün Laçın rayonu işğaldan azad olundu. Ali Baş Komandanımız ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Bu gün tarixi gündür. Xalqımız dövlətimiz və ordumuzla qürur duyur, Vətən torpaqları uğrunda canından keçən bütün şəhidlərimizin xatirəsini ehtiramla yad edir”.

Digər müsahibimiz Muxtar Ələsgərov da Laçının işğaldan azad edilməsindən duyduğu sevinc hisslərini dilə gətirib: “Bu gün Laçın bizə qayıtdı, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Yaşasın Müzəffər Ali Baş komandan İlham Əliyev. Qarabağ Azərbaycandır!”

Paytaxt sakini Rəşad Əliyev Laçının işğaldan azad edilməsinin Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildirərək ölkəmizin ərazi bütövlüyünün bərpasına görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq hissələrini ifadə edib.

Həmsöhbət olduğumuz digər yürüş iştirakçıları da Laçının azad olunmasını daha bir zəfər kimi qiymətləndirib, Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Laçında üçrəngli bayrağımızın dalğalanmasından keçirdikləri qürur hissələrini dilə gətiriblər.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Böyük strateji əhəmiyyət kəsb edən Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri olan rayondur**

Laçın Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayondan biridir. Şuşa şəhərinin azad edilməsinin ardınca noyabrın 9-da Azərbaycan Ordusu Laçının da Güləbürd, Səfiyan, Türklər kəndlərini işğalçılardan təmizləyib. Müzəffər Azərbaycan Ordusunun Laçın rayonunun bir hissəsinə və digər mühüm strateji mövqelərə daxil olmasından, xüsusilə Şuşa şəhəri və onun ardınca 70-dən artıq kəndin azad olunmasından az sonra Ermənistan kapitulyasiyasını elan edib. Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələri Laçını da Ağdam və Kəlbəcər kimi Azərbaycana təhvil verməli olub.

Bu gün Laçını tərk edən erməni əhalisi 1992-ci ildə rayonun işğalından sonra orada qeyri-qanuni məskunlaşıb. Ağdam və Kəlbəcərdə olduğu kimi, qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər Laçından da təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla bütün əşyalarını götürüblər. Azərbaycan Ordusu onlara ərazini tərk etmək üçün bütün şəraiti yaradıb. Bunun müqabilində isə, Laçından çıxan ermənilər qaldıqları evləri yandırıb, vandallıq edib, meşələrə od vuraraq, suları çirkləndirərək ekoloji fəlakət törədiblər. Bu gün təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən erməni əhalisindən fərqli olaraq, 1992-ci ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub. Onların bir çoxu qırğına məruz qalıb, atəşə tutulub, meyitləri belə təhqir edilib. İşğalı dövründə Laçın rayonu yüzlərlə şəhid verib, onlarla dinc insan Laçında girov götürülüb.

Rayondan köçkün düşən Azərbaycan əhalisi özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı Ermənistan ordusu tərəfindən qarət olunub. Bu gün baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün növbəti əyani nümunədir.

Laçın rayonu respublikanın cənub-qərbində, Qarabağ silsiləsində yerləşir. Rayonun relyefi dağlar və dağlıq yaylalardan ibarətdir. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 m). Bitki örtüyü kolluq və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq və s.), subalp və alp çəmənliklərindən ibarətdir. Ərazisinin çox hissəsində qışı quraq keçən mülayim-isti, soyuq iqlim tipi, Qarabağ yaylasında isə dağ-tundra iqlimi üstünlük təşkil edir. İllik yağıntının miqdarı 600-900 mm-dir. Rayon ərazisindən Həkəri çayı və onun qolları keçir.

Rayonun meşə fondu işğal dövründə əhəmiyyətli hissəsi Ermənistan tərəfindən məhv edilib.

Laçında 10 ədəd Şərq çinarı növünə məxsus qədim ağaclar təbiət abidələri kimi qeydə alınıb. Bunlardan 8 ədədi rayonun Malxələf kəndindədir, ən yaşlı ağacın diametri 210 sm, hündürlüyü 26 metr, yaşı isə 400 il təşkil edib. Rayon ərazisində ümumi sahəsi 1092 ha olan üçüncü dövrün relikt növlərinə aid “Ardıc meşəsi” dövlət təbiət abidələri kimi xüsusi qiymətli meşə sahələrinin siyahısına daxil edilib. Burdakı ağacların yaşı 100-150 ilə çatır.

Rayon ərazisində 2 xüsusi mühafizə olunan təbiət ərazisi - Qaragöl Dövlət Təbiət Qoruğu və Laçın Dövlət Təbiət Yasaqlığı yerləşir.

Qaragöl Dövlət Təbiət Qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 m hündürlükdə, Həkəri çayının sağ qolu olan Ağoğlan çayının mənbəyinə yaxın 240 hektar ərazidə yaradılıb. Gölün dərinliyi 5-6 metr olmaqla vulkanik mənşəlidir. Qaragölün əsas biokütləsində “Gammarus lacustris” şirinsu xərçəngi mühüm yer tutmaqla qiymətli balıq növü olan Qızılxallı balıq (forel) üçün yem bazası hesab olunub. Gölün müasir vəziyyəti heç də qənaətbəxş deyil, aerokosmik şəkillərdən gölün tamamilə quruduğu müşahidə edilib. Ətraf çəmənliklər sistemsiz olaraq intensiv otarılmaqla bitki örtüyü korlanıb.

Laçın Dövlət Təbiət Yasaqlığı: 1961-ci ilin noyabr ayında Laçın rayonu ərazisində 20 000 hektar ərazidə yaradılıb. Bitki örtüyünə görə yasaqlığın ərazisi iberiya palıdlarından ibarət olan orta dağ-meşə (1000-1700 m), Şərq palıdından ibarət olan yuxarı dağ meşə (1700-2200 m), sulbalp (2200-2500 m) və alp (2500-2800 m) çəmənlikləri qurşaqlıqlarına ayrılır. Sahəsinin 7 369 ha və ya 34,5%-i meşə sahəsi, 1 448 və ya 6,8%-i alp çəmənliyi, 7 400 ha və ya 34,8%-i subalp çəmənliyi, 4 257 ha və ya 20% otlaqlar, 862 və ya 4% qayalar və uçqunlar, 34 ha xüsusi təyinatlı torpaqlardır. Burada Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilən heyvan növlərindən dağ keçisi (Bezoar keçisi), Avropa cüyürü, Nəcib maral, Xəzər uları, Ütəlgi qızılquş, Adi qızılquş, Qonur ayı, Ağbaş kərkəs məskunlaşıb. Meşələri əsasən vələs, cökə, ağcaqayın və s. qarışıq tip meşələrdir. Yasaqlığın ərazisindəki Hacısamlı meşəsində dünyada qiymətli sayılan Qırmızı palıdın (Qızıl palıd) təbii arealı mövcud olub. Bu ağac Azərbaycan Respublikasında ancaq həmin yasaqlıqda yayılıb.

Həkəriçay Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazisindən axaraq Araz çayına tökülür. Kiçik Qafqazın Azərbaycan daxilində Tərtərçaydan sonra (Bazarçayla birlikdə) ikinci ən böyük çayı olub, qar, yağış və yeraltı sulardan qidalanır. Çayın sutoplayıcı sahəsi 1180 km2, uzunluğu 113 km, çoxillik orta su sərfi 10,8 m3/san, illik axımın həcmi 341 mln.m3-dir.

Ağsuçay Laçın rayonu ərazisinə daxil olur və Həkəriçayına tökülür. Axımı əsasən qar və yeraltı sulardan qidalanır. Çayın sutoplayıcı sahəsi 88 km2, uzunluğu 25 km-dir.

Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göldən Laçın rayonu ərazisində yerləşən Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl böyük antropogen təsirə məruz qalıb.

Laçın rayonu zəngin faydalı qazıntılarla, o cümlədən (3 filiz, 37 qeyri-filiz və inşaat materialları yataqları) civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Gilgəzçay, Sarıbulaq, Narzanlı civə, Ahnəzər əlvan daşı, Qarabəyli, Dəlikdaş, Çorman və Narzanlı kimi vermikulit yataqları daha böyük ehtiyatlara malikdir.

| S/s | Yataqların adı | Yatağın növü | Təsdiq edilmiş ehtiyatı |
|---|---|---|---|
| 1 | Quşçu | sement xammalı | 2 144 min $m^3$ |
| 2 | Laçın | əhəng xammalı | 4 458 min ton |
| 3 | Hocaz | üzlük daşı | 2 533 min $m^3$ |
| 4 | Yuxarı Həkəriçay | qum-çınqıl | 15 794 min $m^3$ |
| 5 | Əhmədli | mişar daşı | 4 752 min $m^3$ |
| 6 | Novruzlu | gil | 998 min $m^3$ |
| 7 | Fingə-I | üzlük daşı | 2 160 min $m^3$ |
| 8 | Fingə-II | üzlük daşı | 1 800 min $m^3$ |
| 9 | Vağazin | üzlük daşı | 3 200 min $m^3$ |
| 10 | Bozdağan | üzlük daşı | 7 645,7 min $m^3$ |
| 11 | Qaraqışlaq I | tikinti daşı | 1 740 min ton |
| 12 | Əhmədli I | sement xammalı | 21 000 min ton |
| 13 | Qızılca II | sement xammalı | 210 min ton |
| 14 | Minkənd | sement xammalı | 75 min ton |
| 15 | Yaxartəpə | sement xammalı | 2 203 min ton |
| 16 | Sonasar | sement xammalı | 600 min ton |
| 17 | Qızılca-Suss | sement xammalı | 2 500 min ton |
| 18 | Suss | sement xammalı | 2 040 min ton |
| 19 | Zabux | sement xammalı | 1 575 min ton |
| 20 | Əliqulu | sement xammalı | 781 min ton |
| 21 | Pircahan | sement xammalı | 780 min ton |
| 22 | Quşçu-I | sement xammalı | 450 min ton |
| 23 | Quşçu-II | sement xammalı | 3 267 min ton |
| 24 | Mirik | sement xammalı | 2003,63 min $m^3$ |
| 25 | Qarakeçdi-I | sement xammalı | 1315,86 min $m^3$ |
| 26 | Seyidlər | sement xammalı | 656,6 min $m^3$ |
| 27 | Qarakeçdi-II | sement xammalı | 3926,5 min $m^3$ |
| 28 | Qoçaz | sement xammalı | 720,8 min $m^3$ |
| 29 | Kamallı-I | sement xammalı | 2176,02 min $m^3$ |
| 30 | Kamallı-II | sement xammalı | 2176 min $m^3$ |
| 31 | Zərti | sement xammalı | 15 min $m^3$ |
| 32 | Ahnəzər | əlvan daş | 915 min ton |
| 33 | Minkənd | sement xammalı | 75 min ton |
| 34 | Qarabəyli | vermikulit | 263 min ton |
| 35 | Dəlikdaş | vermikulit | 183 min ton |
| 36 | Çorman | vermikulit | 3,7 min ton |

| | | | |
|---|---|---|---|
| 37 | Narzanlı | vermikulit | 1683 min ton |
| 38 | Narzanlı | civə | Filiz - 71788 ton |
| | | | Hg - 441,6 ton |
| 39 | Sarıbulaq | civə | Filiz - 1056,6 ton |
| | | | Hg - 48,33 ton |
| 40 | Çilgəzçay | civə | Filiz - 112056 ton |
| | | | Hg - 359,3 ton |

Laçın rayonunda 73 tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Onlardan 3-ü ölkə əhəmiyyətli memarlıq, 8-i ölkə əhəmiyyətli arxeoloji, 47-si yerli əhəmiyyətli memarlıq, 3-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi, 3-ü yerli əhəmiyyətli arxeoloji, 9-u dekorativ-tətbiqi sənət nümunələri (xalq daş heykəltəraşlıq) abidələridir.

Rayon ərazisində yerləşən Ağoğlan məbədi, Məlikəjdər türbəsi, Sarı Aşığın xatirə muzeyi, Həmzə Soltan sarayı və Dəmirovlu Pir məbədi Azərbaycan Respublikası ərazisində mövcud olan daşınmaz tarix-mədəniyyət abidələri içərisində xüsusi önəmə malikdir.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Birinci vitse-prezident Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edirəm! Qoy Uca Allah mərhəmətini xalqımızdan əsirgəməsin, bütün həmvətənlərimizə cansağlığı və səadət, Vətənimizə sülh, firavanlıq və nurlu gələcək bəxş etsin! Qarabağ Azərbaycandır!".

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Türkiyə Milli Müdafiə Nazirliyi: Qəhrəman Azərbaycan Ordusu Laçına daxil olub**

Qardaş Azərbaycan Qarabağda əldə olunan böyük zəfərdən sonra işğal altındakı torpaqlarına qovuşmaqda davam edir. Qəhrəman Azərbaycan Ordusu Ağdam və Kəlbəcərdən sonra bu dəfə də Laçına daxil olub. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu ifadələr Laçın rayonunun işğaldan azad olunması münasibətilə Türkiyə Milli Müdafiə Nazirliyinin internet səhifəsində yer alan paylaşımda əksini tapıb. Paylaşımda şanlı ordumuzun Laçın rayonuna daxil olmasını əks etdirən görüntülər də yer alıb.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Doğma Laçına kiçik ailə biznesləri ilə qayıdacaqlar**

Azərbaycanın daha bir rayonu – Laçın erməni faşizminin əsarətindən azad edilib və 30 ilə yaxın davam edən Laçın həsrətinə son qoyulub. Bu gün Laçın rayonundan olan özünüməşğulluq proqramı iştirakçılarının da sevincinin, qürur duyğularının həddi-hüdudu yoxdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən ötən dövrdə proqrama cəlb olunanlar arasında laçınlılar da az deyil.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, proqram çərçivəsində verilmiş mal və materiallar, avadanlıqlar hesabına müxtəlif iqtisadi fəaliyyət növləri üzrə kiçik ailə bizneslərini qurublar.

Onlar yaratdıqları bizneslərini də Laçına aparacaqlarını və doğma yurdlarında daha da genişləndirəcəklərini söyləyirlər.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**İşğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağı qaldırılıb**

Rəşadətli ordumuzun bölmələri işğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağını qaldırıblar.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyi Laçın rayonunda Azərbaycan bayrağının qaldırılmasına dair videogörüntüləri təqdim edib.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**BERNAMA agentliyi Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olması barədə xəbəri yayıb**

Malayziyanın BERNAMA Agentliyi Azərbaycan Ordusunun bölmələrinin Laçın rayonuna daxil olması barədə xəbəri yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Azərbaycan Ordusu 28 ildən sonra Laçın rayonuna daxil olub" adlı xəbərdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə istinadla dekabrın 1-də Ordumuzun bölmələrinin bu rayona daxil olduğu barədə məlumat verilib.

Müdafiə Nazirliyinin məlumatından gətirilən sitatda deyilir: "Azərbaycan Respublikasının, Rusiya Federasiyasının prezidentləri və Ermənistanın baş naziri arasında imzalanmış üçtərəfli bəyanata əsasən dekabrın 1-də Azərbaycan Ordusunun bölmələri Laçın rayonuna daxil olub".

Xəbərdə keçmiş Sovet İttifaqının iki respublikası arasında ötən əsrin 90-cı illərində baş vermiş silahlı qarşıdurma nəticəsində xarici havadarlarına arxalanan Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik daha yeddi rayonu işğal etməsi barədə məlumat verilir.

Qeyd edilir ki, cari il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı növbəti təxribatlarından sonra Azərbaycan Ordusu əks-hücuma keçib. 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan bir sıra şəhərləri və 300-dək yaşayış məntəqəsini azad edib.

Noyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli bəyanat imzalanıb. Vurğulanır ki, bu, Azərbaycanın tam qələbəsi, Ermənistanın isə məğlubiyyəti kimi qiymətləndirilir.

***Vüqar Ağayev***
***AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur***

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Misir portalı Azərbaycan Ordusunun Laçına daxil olmasından yazıb**

Misirin "Masravi" informasiya portalı Azərbaycan Ordusunun Laçına daxil olması haqqında xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, portalın xəbərində Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələrinin dekabrın 1-də Laçın rayonuna daxil olması qeyd olunur.

Bildirilir ki, sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüşlərdə böyük Qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri 27 ildən çoxdur Ermənistanın işğalı altında olan Laçına daxil olub. Xəbərdə vurğulanır ki, uzun illər ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən uğursuz olub. Torpaqlarının işğalı faktı ilə barışmayan Azərbaycan beynəlxalq hüquq normaları və BMT-nin qətnamələrinə uyğun olaraq ərazi bütövlüyün bərpa edib.

***Oqtay Bayramov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə***

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Azərbaycan Ordusunun Laçına daxil olması Türkiyə mediasının baş xəbəridir**

Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələrinin dekabrın 1-də Laçın rayonuna daxil olması barədə məlumat Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən dünyada baş verən ən mühüm hadisə kimi təqdim olunub.

AZƏRTAC xəbər verir ki, televiziya kanalları və xəbər agentlikləri, o cümlədən qəzetlərin elektron versiyaları Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi hərbi zəfərinin növbəti qələbəsi ilə bağlı anındaca məlumat yaymağa başlayıblar. Məlum təslimçilik razılaşmasına məcbur edilən Ermənistanın işğal etdiyi rayonlardan axırıncını tərk etməsi, o cümlədən qoşun birləşmələrimizin bölgəyə girməsi ilə bağlı geniş kadrlar yayılıb. Vurğulanır ki, bu gündən prosesin yeni bir mərhələsi başlanır.

Ermənilərin bölgəni tərk etməzdən əvvəl yaşayış binalarına, tarixi yerlərə və təbiətə qarşı törədilən amansız rəftar barədə süjetlər yayan telekanallar baş verənləri vandalizm aktı kimi dəyərləndirir. Diqqətə çatdırılır ki, eyni vəhşilik və vandallıq Ağdam və Kəlbəcər rayonları ərazisində təkrar olunub. Diqqətə çatdırılır ki, Azərbaycan humanistlik nümayiş etdirərək işğalçı qüvvələrin bölgəni tərk etməsinə yetərincə zaman verir. Lakin işğalçı ordunun silahlı quldurları azərbaycanlı əhalini öz yurdlarından vəhşiliklə, ayaqyalın qovmuşdular.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri*, Ankara**

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Azərbaycan Ordusunun bölmələri Laçın rayonuna daxil olub**

Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Laçının azad olunması ilə Azərbaycan üçün yeni dövr başlayır**

Bu gün Laçın işğaldan azad olundu. Laçının azad olunması ilə Azərbaycan üçün yeni dövr başlayır - yeni quruculuq, inkişaf, azad edilmiş ərazilərimizin bərpası dövrü. İnanıram ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə göstərəcək. Xalqımız yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir.

Bu münasibətlə bütün laçınlıları, xalqımızı təbrik edirəm, "Gözünüz, gözümüz aydın olsun!" deyirəm. Artıq heç bir azərbaycanlı qaçqın deyil, onlarla yanaşı, biz də doğma torpaqlarımıza qovuşduq. Biz bütövləşdik, vahid olduq. Bu gün torpaqlarımızın işğaldan azad olunması prosesi başa çatır. Bundan sonra daha çətin, uzun və gərgin bir mərhələ başlayır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova söyləyib.

Komitə sədri bildirib ki, mənfur düşmən şəhər və kəndlərimizi yerlə-yeksan edib, yeraltı və yerüstü sərvətlərimizi talayıb, ekoloji terror törədib, mədəni, tarixi, dini irsimizi dağıdıb. Bu cinayətlərə görə düşmən məsuliyyət daşımalı, layiq olduğu cəzanı almalıdır. Ölkəmizə vurduğu ziyana görə təzminat ödəməlidir. Əlbəttə ki, bu gün hər birimiz həmin torpaqlara can atırıq, Qarabağın havasını udmaq istəyirik. Artıq tikinti-bərpa işlərinə başlanılıb, dağıdılan hər bir yer yenidən inşa edilir. İşğal olunmuş ərazilərimizdə meşələr və yaşıllıqlar təkrar canlandırılacaq və o yerlər öz əsrarəngiz, göz oxşayan təbiətinə qovuşacaq.

Hicran Hüseynova bildirib ki, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu illər ərzində ölkəmizdə sistemli siyasət həyata keçirilməklə güclü iqtisadiyyat yaradılıb, qüdrətli ordu formalaşdırılıb, xarici ölkələrdə uğurlu diplomatik münasibətlər və əməkdaşlıq qurulub. 1992-1993-cü illərdə xalqımız bütövlükdə "uduzmuş xalq" sindromunu yaşayırdı, bu gün artıq xalqımız qalibdir, özünə, dövlətinə, ordusuna bütün varlığı ilə inanır. Qarabağa yenidən həyat qayıdır. Başımızın tacı olan hər qarış torpağımızı göz bəbəyi kimi qorumalıyıq. Bundan sonra hər sabahımız bütöv Azərbaycana açılacaq. Qələbəmiz mübarək olsun! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2020, 1 dekabr**

## Prezident İlham Əliyevin Laçının işğaldan azad olunması münasibətilə xalqa müraciəti Misir KİV-lərinin diqqət mərkəzindədir

Misir KİV-ləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə xalqa müraciətinin tam mətnini yayıb.

Ölkəmizin Misirdəki səfirliyinin dəstəyi ilə AZƏRTAC-ın ərəb dilində təqdim etdiyi mətni baş xəbər kimi yerləşdirən "Aldiplomasy", "Rayetmisr", "Əlğad" informasiya portalları Azərbaycan Prezidentinin müraciətini dost ölkənin ictimaiyyətinin diqqətinə təqdim edib.

Qeyd olunub ki, dövlətimizin başçısı laçınlıların qısa müddət ərzində öz doğma torpaqlarına qayıdacağı üçün tədbirlər görüləcəyini, ermənilərin bu rayonda dağıtdığı infrastrukturun və evlərin bərpa ediləcəyini bildirib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev qələbə çalan və düşmənin başını əzən Azərbaycanın artıq yeni reallıq yaradığını, kapitulyasiya aktını imzalayan Ermənistan kimi, hər kəsin bu reallıqla barışmalı olacağını vurğulayıb. Əlavə edib ki, ölkəmiz BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini yerinə yetirdi, ərazi bütövlüyünü bərpa edərək işğala son qoydu. "Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur", -deyə Müzəffər Ali Baş Komandan bəyan edib.

***Oqtay Bayramov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə***

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Laçın rayonunun azad edilməsi Azərbaycan Ordusunun tarixi qələbəsinin yekunudur**

Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil olub. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev bu gün qədim Azərbaycan torpağı, ərazi baxımından Azərbaycanın ən böyük rayonlarından biri olan füsunkar təbiətə, zəngin mədəni irsə, tükənməz təbii ehtiyatlara malik Laçının işğaldan azad olunması münasibətilə bütün Azərbaycan xalqını, xüsusən də laçınlıları təbrik edib.

Laçın rayonunun azad edilməsi Azərbaycan Prezidenti, qalib sərkərdə İlham Əliyevin uzaqgörən, düşünülmüş, düzgün taktika və strategiyasının parlaq nəticəsinin təzahürü kimi qiymətləndirilməlidir. Bu zəfər həm də şanlı Azərbaycan Ordusunun igid, qorxmaz, qəhrəman əsgər və zabitlərinin müqəddəs və doğma torpaqlarımız uğrunda yüksək hərbi peşəkarlıq və tükənməz Vətən sevgisi ilə son damla qanlarına kimi qəhrəmancasına vuruşmalarının əyani təzahürüdür.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib.

Deputat xatırladıb ki, 1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsindən az sonra – həmin il mayın 18-də Laçının qaniçən düşmən tərəfindən işğalını xeyli asanlaşdırdı. Nəticədə, günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovuldu, Laçının tarixi abidələrinə, təbiətinə böyük ziyan vuruldu. Laçının işğalı hiyləgər və mənfur düşmənin öz çirkin məqsədlərinin tezliklə həyata keçirilməsinə geniş imkan yaratdı.

Laçının ardınca Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın xain Ermənistan tərəfindən işğal edildiyini deyən S.Xasayeva deyib: “Laçının işğalından istifadə edən Azərbaycan Xalq Cəbhəsi həmin dövrdə hərc-mərclikdən və özbaşınalıqdan istifadə edərək hakimiyyəti qəsb etdi. Başı hakimiyyət uğrunda mübarizəyə qarışan təcrübəsiz hökumət nümayəndələri qeyd olunan rayonların işğal altına düşməsinin qarşısının alınması və əhalinin təhlükəsizliyinin qorunması üçün qabaqlayıcı tədbirlər görə bilmədilər. Torpaqlarımız işğala məruz qaldı, mülki əhali öz doğma torpaqlarından didərgin salındı”.

Deputat diqqətə çatdırıb ki, ən qədim yaşayış məskənlərindən olan Laçın zəngin və ecazkar təbiəti ilə doğma Vətənimizin şanlı tarixini qəlbində yaşadan, heç vaxt unudulmaz və həmişə yaddaşımızda əbədi qalan əziz yurdumuzdur. Eyni zamanda, füsunkar uca dağları, şiş qayaları, saysız-hesabsız müalicəvi bulaqları, tayı-bərabəri olmayan yaşıl çəmənləri və meşələri ilə qəlbləri heyran edən və riqqətə gətirən elimizin-obamızın iftixar yeridir. Deputat vurğulayıb: “Zəngin mineral ehtiyatları ilə məşhur olan Laçın yaramaz, utanmaz və heç bir abır-həya bilməyən, faşist ideologiyasına can-başla xidmət etməkdən çəkinməyən, həyasız sabiq Ermənistan liderləri Koçaryan, Sarkisyan və digərləri başda olmaqla, millətçi və xəbis ermənilər tərəfindən talanıb və məhv edilib. Bu yırtıcı və amansız cəlladlar, oğrular laçınlıların evlərinə soxularaq 28 ildən artıq bir müddətdə orada yaşayıblar”.

Səbinə Xasayeva təəssüflə bildirib ki, ermənilər Kəlbəcərdə olduğu kimi, Laçını da tərk edərkən dünya ölkələrinin və onların insanlarının gözləri qarşısında meşələri qırıb taladılar, vəhşicəsinə yandırdılar, ekoloji faciə və fəlakət yaratdılar. Onlar hətta evləri, məktəbləri, tarixi abidələri yandırmaqdan belə çəkinmədilər, bütün maddi-mədəni irsimizi yerlə-yeksan etdilər. Heç bir insanlığa sığmayan bu vəhşi hərəkətləri azmış kimi, apara bilmədikləri ev heyvanlarını qəddarcasına öldürdülər, kommunikasiya xətlərini isə tam yararsız hala saldılar. Onlar təsəvvür edilməsi və dilə gətirilməsi insanlarda vahiməyə səbəb olan bu ləyaqətsiz və yaramaz hərəkətləri ilə əsl simalarını tam çılpaqlığı ilə açıq-aydın göstərdilər. Haqq-ədaləti qorumağı və müdafiə etməyi üstün tutan ölkələrin bəziləri onların kimliyini gec də olsa, anladılar və başa düşdülər.

Deputat vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin nüfuzlu beynəlxalq təşkilatların yüksək kürsülərindən Ermənistan dövləti və onu idarə edən kriminal liderləri barədə söylədikləri və dünyanın aparıcı kütləvi-informasiya vasitələrinə verdiyi müsahibələrdə ermənilərin iç üzünü, əsil simasını açıb dünyaya göstərdi. Dünya xalqları dərk etdilər ki, ermənilər yalnız yalan iddialarla bəşəriyyətə daim fəlakət və bəla gətirən faşist ideologiyasını utanmadan və çəkinmədən yerinə yetirən yeganə ölkə kimi, son dərəcə təhlükəli və qorxulu bir düşməndir. Ermənistanın əsas məqsədi onu dəstəkləyən ölkələrin hesabına yaşamaq və başqalarının qanuni ərazi və torpaqlarına sahib çıxmaqdır.

Yaşasın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan! Yaşasın qalib Azərbaycan Ordusu!

**AZƏRTAC**

**2020, 1 dekabr**

**Prezident İlham Əliyev: Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək**

Bəyanatın altıncı bəndində göstərilir ki, Ermənistan Respublikası 15 noyabrda Kəlbəcər rayonunu və 1 dekabr tarixinədək Laçın rayonunu qaytarır. Bildiyiniz kimi, Rusiya tərəfi bizə müraciət edərək bir qədər vaxt istəyib. Kəlbəcər rayonunun bizə qaytarılması 15 noyabrda yox, 25 noyabrda artıq təmin edilib. Altıncı bəndin bu hissəsi icra edilib. Laçın rayonu Azərbaycana qaytarılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev xalqa müraciətində üçtərəfli bəyanatın altıncı bəndini şərh edərkən bildirib.

"Laçın dəhlizi Şuşa şəhərinə toxunmayacaq 5 kilometr enliyində Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Mən bu bəndi artıq şərh etmişdim. Bunun ilkin variantında 30 kilometr, ondan sonra eni 10 kilometr və bu, Rusiya sülhməramlı kontingentinin yox, erməni silahlı qüvvələrinin nəzarəti altında qalırdı, onu da biz bu Bəyanatdan çıxartdırdıq. Göstərilir ki, tərəflərin razılığı əsasında növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur", - deyə dövlətimizin başçısı qeyd edib.

Bu məsələni ətraflı şərh edən Azərbaycan Prezidenti deyib: "İndi hamı yaxşı bilir ki, Laçın dəhlizi Laçın şəhərinin içindən keçir. Beləliklə, Laçın şəhəri o dəhlizin ortasında qalır. Mən isə Rusiya Prezidenti ilə söhbətlər əsnasında deyirdim ki, Laçın şəhəri də bizə qayıtmalıdır. Ona görə biz təklif edirik ki, yeni bir dəhliz inşa edilsin. Dağlıq Qarabağı Ermənistanla birləşdirən yeni bir dəhlizin marşrutu işlənilsin və inşa edilsin. Burada vaxt da göstərilib - 3 il ərzində. Ancaq mən hesab edirəm ki, biz bunu daha tez müddətdə edə bilərik. Yeni dəhlizin parametrləri müəyyən olunandan sonra Laçın şəhəri də bizə qaytarılacaqdır. Bu, xüsusi diqqətəlayiq məsələdir. Çünki əgər mən bunu bu Bəyanata saldırmasaydım, Laçın dəhlizi Laçın şəhərini həmişə əhatə edəcəkdi".

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Bakı sakinləri Laçının işğaldan azad edilməsini avtomobil yürüşü ilə qeyd edirlər**

Dekabrın 1-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Laçının işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib. Su İdman Sarayının yanından start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektlərində hərəkət edirlər.

AZƏRTAC xəbər verir ki, əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar "Laçın azaddır", "Biz Laçına qayıdırıq", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!", "Qarabağ Azərbaycandır!" şüarları səsləndirib, Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Laçın rayonunun Azərbaycana təhvil verilməsi ilə ölkəmizin ərazi bütövlüyü bərpa olunub**

Azərbaycan Ordusu Vətən müharibəsində yüksək qəhrəmanlığı və peşəkarlığı sayəsində düşməni diz çökməyə məcbur etdi. Qırx dörd günlük Vətən müharibəsi zamanı Azərbaycan ərazisi işğalçılardan təmizlənib və artıq azaddır. Dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Bunu ehtiyatda olan polkovnik Şair Ramaldanov AZƏRTAC-a müsahibəsində deyib.

Ş.Ramaldanov bildirib ki, Azərbaycan Ordusunun şücaəti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti ilə torpaqlarımız qısa müddətdə - 44 gündə minimum itkilərlə düşmən işğalından azad edilib. Ordumuzun gücünü görən düşmən diz çökməyə və kapitulyasiya tələblərinə cavab verən bəyanatı imzalamağa məcbur olub. Nəticədə Ermənistan, dövlətimizin başçısının dediyi kimi, işğal altında qalan digər ərazilərimizi – Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk etməsinə dair cədvəl təqdim etdi. Onun əsasında sonuncu Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini, o cümlədən Laçını tərk etdi.

Polkovnik qeyd edib ki, Azərbaycan qarşısına qoyduğu bütün hədəfləri yerinə yetirib. Əsas odur ki, ölkəmizin ərazi bütövlüyü tam təmin edilib. Azərbaycanın Ermənistan ilə beynəlxalq səviyyədə tanınan dövlət sərhədləri tam bərpa olunub. Azərbaycanın hərbi hissələri Ermənistanla sərhədboyu sərhədlərimizin təhlükəsizliyini təmin etmək üçün həmin ərazilərdə yerləşdirilib. Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazilərini tərk edib. Bunun və təhlükəsizliyin təmin olunmasına zəmanət məqsədilə Rusiyanın sülhməramlı kontingenti bölgədə yerləşdirilib.

“Hazırda mühüm işlərdən biri işğaldan azad olunmuş ərazilərin hərbi sursatlardan təmizləndikdən sonra dağılmış yaşayış məntəqələrini və infrastrukturu bərpa etməkdir. Sonra həmin ərazilərə məcburi köçkün vətəndaşlarımızı yerləşdirməkdir”, - deyə hərbi ekspert vurğulayıb.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Prezident İlham Əliyev Laçın dəhlizi ilə bağlı bəzi təfərrüatları açıqlayıb**

Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda, ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilib. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev xalqa müraciətində üçtərəfli Bəyanatla bağlı bəzi təfərrüatlardan danışarkən söyləyib.

“Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir”, - deyə dövlətimizin başçısı bildirib.

Prezident qeyd edib ki, 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bunun nəticəsində Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. Orada minlərlə, bəzi məlumatlara görə, bəlkə də 10 minə yaxın insan yaşayırdı. Belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Prezident İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib**

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, xalqa müraciətində bu xoş müjdəni çatdıran Prezident deyib: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Dövlətimizin başçısı qeyd edib ki, ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq.

"İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq. Əziz laçınlıları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, gözaydınlığı verirəm. Laçın işğal olunanda bu rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. İndi Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. Əlbəttə ki, laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq bizim əsas vəzifələrimizdən biri olacaqdır. Həmçinin biz çalışacağıq ki, keçmiş məcburi köçkünləri işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytaraq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2020, 1 dekabr**

**Laçın rayonunun işğaldan azad olunan Güləbürd kəndindən videoreportaj**

Müdafiə Nazirliyi Laçın rayonunun işğaldan azad olunan Güləbürd kəndindən videoreportaj yayıb. AZƏRTAC videoreportajı təqdim edir.

**AZƏRTAC**
**2020, 14 noyabr**

**Qoşunlarımız Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq yeni mövqelərə irəliləyib**

Oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən qoşunlarımızı atıcı silahlar, tanklar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.

Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə atəşlə ciddi zərbə vuraraq onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib.

Azərbaycan Ordusunun bölmələrinin Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərində yerləşən bölmələrinin atəşə tutması nəticəsində düşmənin canlı qüvvə baxımından çoxlu sayda ölən və yaralananı var. Onun döyüş sursatının tükəndiyi, artilleriya qurğularının isə sıradan çıxarıldığı məlum olub.

Qubadlı istiqamətinə gətirilən Ermənistan silahlı qüvvələri 543-cü alayının 1-ci taborunun bölmələri şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilib.

Ermənistanın Kotayk vilayətinin Tsaxkadzor yaşayış məntəqəsindən Dağlıq Qarabağa göndərilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin böyük hissəsi bölmələrimizin atəş zərbəsi nəticəsində məhv edilib.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 “Qiasint-B” topu, 7 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**
**2020, 25 oktyabr**

## Azərbaycan MN: Laçın və Qubadlı rayonları Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutulur

Azərbaycan Ordusu bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini güclü atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

**AZƏRTAC**
**2020, 24 oktyabr**

**Politoloq: Ermənistanın Laçın yolu ilə bağlı yaratdığı "şou" məqsədlidir**

Dövlətimizin başçısının “Euronews”a verdiyi müsahibə bir çox məqamlar baxımından olduqca vacib və xüsusi önəm daşıyır. Müsahibə bütövlükdə bölgədə sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində strateji yol xəritəsinin şifahi izahı kimi də qəbul edilə bilər. Belə ki, Prezident İlham Əliyev Azərbaycanın sülh tərəfdarı olduğunu və bu məqsədə çatmaq üçün məhz Ermənistan hakimiyyətinin lazımi siyasi iradə ortaya qoymalı olduğunu bəyan edib. Erməni cəmiyyətinə yönəlmiş açıq mesajlarda da vurğulanır ki, Azərbaycanın heç bir halda Ermənistana qarşı ərazi iddiası yoxdur və reinteqrasiya, eləcə də ikitərəfli əməkdaşlığın qurulması vacibdir.

Həqiqətən də sülhün əldə olunmasının yeganə şərti hazırda Ermənistanın siyasi hakimiyyətinin atacağı növbəti addımdan asılıdır. Müzakirələr konstruktiv mövqedə aparılarsa və heç bir tərəddüdlü fikirlər ortaya qoyulmazsa, eləcə də vaxt uzatmaq kimi siyasi manipulyasiyalar tətbiq olunmasa, ilin sonunadək bu missiyanı başa çatdırmaq olar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

Politoloq qeyd edib ki, müsahibədə diqqəti çəkən əsas məqamlardan biri də Laçın yolu ilə bağlıdır. Dövlətimizin başçısı bunun Azərbaycanın legitim hüququ olduğunu bir daha vurğuladı və yolun məhz humanitar məqsədlər üçün daim istifadə oluna biləcəyini bir daha təsdiqlədi. Ermənistan tərəfinin yaratdığı "şou" isə məqsədlidir və Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunur. Əgər doğrudan da ərazidə "humanitar fəlakət" varsa, bu, Azərbaycanın təklif etdiyi variant üzrə həll oluna bilər.

“Müsahibədə Qərbin və Rusiyanın yaranmış vəziyyətdə üzərilərinə düşən məsuliyyətləri haqqında vacib məqamlara da toxunuldu. Bildirildi ki, Qərb platformasının, xüsusilə də ABŞ-ın və Avropa İttifaqının (Aİ) vasitəçiliyi ilə keçirilən görüşlər Azərbaycan üçün məqbul hesab edilə bilər. Çünki bu müstəvidə aparılan danışıqlarda Azərbaycanın milli maraqlarına və təhlükəsizliyinə təhdidlər və təzyiqlər mövcud deyil. Artıq məhz bu platforma üzərində tərəflər arasında müvafiq razılaşmalar da əldə olunub. Bundan əlavə, Rusiyanın da səyləri ortadadır. Danışıqlar, həmçinin rəsmi Moskva müstəvisində aparılır. Rusiya Azərbaycanla strateji müttəfiqdir. Bütün danışıqlar məhz bu prizmadan, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və milli maraqları baxımından aparılmalıdır. Bu şərtlər daxilində Azərbaycan sülh danışıqlarını istənilən müstəvidə və əməkdaşlıq platformasında davam etdirə bilər”, - deyə A.Əliyev bildirib.

Onun sözlərinə görə, bölgədə yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının reinteqrasiyası ətrafında aparılan müzakirələr də diqqətçəkən məqamlardan hesab olunur. Bu prosesdə iştirak etmək istəyənlər Azərbaycanda yaşayan digər etniklər kimi bütün hüquq və vəzifələrdən istifadə edə biləcəklər. Bunu istəməyənlər isə son ünvan kimi Ermənistanı və ya digər üçüncü ölkəni seçməli olacaqlar. “Son zamanlar Azərbaycan-Ermənistan görüşlərində Qərbi azərbaycanlıların geri qayıtması haqqında məsələnin də gündəmə gətirilməsi diqqəti çəkən məqamlardan biri olduğu üçün bu məsələ müsahibə zamanı da müzakirə olundu. Əgər sülh sazişi imzalansa, bunun ardınca da ikitərəfli münasibətlər qurulacağı təqdirdə, Ermənistandan deportasiya olunmuş 250 mindən çox azərbaycanlı öz dədə baba torpaqlarına qayıtmaq hüququnu da əldə etmiş olacaq”, - deyən politoloq diqqətə çatdırıb ki, beləliklə, dövlətimizin başçısının “Euronews”a müsahibəsi tam mənasında müsbət siyasi və hüquqi notlara köklənmiş, bölgədə sülhün təmin olunması üçün konkret addımlar sistemini əhatə edir. Bu baxımdan hesab etmək olar ki, növbəti görüşlər ərəfəsində artıq Azərbaycan öz rəsmi mövqeyini vasitəçilərə və Ermənistan siyasi hakimiyyətinə bir daha bildirmiş oldu”.

**AZƏRTAC**
**2023, 7 avqust**

**Qərbi Azərbaycan İcması Ermənistanda "Səlibçilər" adlı qrupun aksiyasını pisləyib**

Qərbi Azərbaycan İcması son günlər Ermənistanda özlərinə "Səlibçilər" adı vermiş bir qrup caninin İrəvanın mərkəzində "Laçın yolunu güc yolu ilə açmaq üçün silah verin" tələbi ilə aksiya keçirməsini, daha sonra həmin şəxslərin Azərbaycanın məcburi köçkünlərin yenicə qayıtmağa başladığı Laçın rayonu istiqamətində sərhədə gələrək təxribat törətmək barədə açıqlamalarını pisləyir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

"Qərbi Azərbaycan İcması hesab edir ki, keçən il revanşist Ermənistan müxalifətinin minlərlə insanın iştirakı ilə "Türksüz Ermənistan" şüarı ilə İrəvanda keçirdiyi irqçi aksiyalara beynəlxalq ictimaiyyət tərəfindən lazımi reaksiya verilsəydi, bu gün Ermənistanda bəlkə də belə əməllər təkrarlanmazdı.

Qərbi Azərbaycan İcması Ermənistan cəmiyyətində revanşistlərin keçmiş münaqişəyə dini rəng verməsini yolverilməz hesab edir və beynəlxalq ictimaiyyəti, o cümlədən BMT-ni, onun xüsusi məruzəçilərini, Avropa İttifaqını, onun Ermənistandakı missiyasını, Laçın sərhəd-buraxılış məntəqəsi istiqamətinə tez-tez səfər edən ölkələrin səfirlərini, Avropa Şurasını, beynəlxalq qeyri-hökumət təşkilatlarını bu kimi təxribatçı, ksenofob, Azərbaycanofob əməlləri pisləməyə çağırır", - deyə İcmanın bəyanatında vurğulanıb.

**AZƏRTAC**
**2023, 10 avqust**

## Nigar Arpadarai: BMT-nin ekspertlər qrupunun bəyanatı qeyri-adekvat və qanunsuzdur

Artıq bir neçə gündür sosial şəbəkələrdə və mediada BMT-nin bir qrup eksperti (BMT Xüsusi Prosedurları) tərəfindən guya "blokada" adlanan hadisə ilə bağlı paylaşım barədə müzakirələr gedir. Bu qrupun varlığını az adam xatırlayır. Bu, yəqin ki, son onilliklər ərzində BMT-nin bu alətinin özünü heç bir şəkildə göstərməməsi ilə bağlıdır. Ən mühüm missiyası insan hüquqlarının qorunması olmasına baxmayaraq, düşünmürəm ki, BMT-yə üzv olan ölkələrin vətəndaşları onun mövcudluğu haqqında eşidiblər. Yəni, sadə dillə desək, müştəri xidmətin mövcudluğundan xəbərsizdir. Bu, yəqin ki, onun keyfiyyətini bariz şəkildə nümayiş etdirir. Otuz ildir ki, bu qrup XX əsrin sonlarında baş vermiş ən ağır insan haqları böhranlarından birinə - Azərbaycanın işğal olunmuş ərazilərindən etnik zəminə görə bütün mülki şəxslərin qovulmasına öz marağını heç vaxt nümayiş etdirməyib. Bununla belə, sözügedən qrup Qarabağdakı mövcud vəziyyətlə bağlı BMT-nin özünün, eləcə də dünyanın bu sahədə mandatı olan digər beynəlxalq təşkilatların mövqeyi ilə ziddiyyət təşkil edən bəyanat yayıb. Bu qrupun ekspertləri ödənişsiz və müstəqil ekspertlər kimi fərdi olaraq fəaliyyət göstərirlər və onların rəyi məsləhət xarakteri daşıyır. Lakin onların paylaşımında BMT-nin loqosu var ki, bu da təşkilatın mövqeyinin belə olduğu təəssüratı yaradır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Nigar Arpadarai söyləyib.

"Birincisi, BMT-nin ekspertlər qrupu yalnız konkret mövzu və ya ölkə üzrə verilən mandat əsasında fəaliyyət göstərə bilər. Müvafiq qurumun internet səhifəsində axtarış apardım. Azərbaycanda və ya keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı prosedura başlamaq qərarına istinad tapa bilmədim. Buna uyğun olaraq qrupun hansı səlahiyyətlər əsasında fəaliyyət göstərdiyi sualına cavab tapılmalıdır. Onlardan cavab alınması mütləqdir, çünki bu tip beynəlxalq qurumlar üzv ölkələr tərəfindən maliyyələşdirilir və məlumatların açıqlanması tələb olunur. Əgər belə bir qərar varsa və sadəcə olaraq dərc olunmayıbsa, o zaman sual yaranır. Əgər qrup Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələləri araşdırırsa, niyə onların rəyində aşağıdakı məqamlar əksini tapmır, məsələn: azərbaycanlı qaçqın və məcburi köçkünlərin evlərinin dağıdılması və torpaqların minalanması səbəbindən hələ də (ən azı böyük əksəriyyəti) öz evlərinə qayıda bilməmələri. Bu o deməkdir ki, ərazilər işğaldan azad olunsa da, Azərbaycan ərazisində qaçqın böhranı hələ bitməyib. Bilmək istərdik ki, qrup münaqişənin 30 ili ərzində bu vəziyyəti həll etmək üçün hansı səylər göstərib və hazırkı bəyanatla bağlı və kontekstdə hansı tədbirlər həyata keçirib? Bu, bir çox oxşar suallardan yalnız biridir və cavablar rəsmi və açıq şəkildə verilməlidir. Bu sualları həm rəsmi diplomatik nümayəndələrimiz, həm də qrupun mandatına uyğun olaraq adi vətəndaşlar verə bilərlər",-deyə Milli Məclisin deputatı bildirib.

Qrupun davranış kodeksini və onun qaydalarını oxuduğunu qeyd edən N.Arpadarai deyib: "Bir qrup ekspertin bəyanat vermə prosesi kifayət qədər aydın prosedurlarla, o cümlədən ərizələrin qəbulu, araşdırmalar, hökumətlərə sorğular və sair ilə müşayiət olunmalıdır. Müvafiq olaraq, qrup araşdırmasını dərc etməlidir ki, hansı əsasda 1) Laçın dəhlizinin "bağlanması", 2) "açılmasının"mütləq olması qənaətinə gəlmişdir. Eyni zamanda, xatırlatmaq istəyirəm ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın rayonlarının, o cümlədən Laçın rayonunun Ermənistan hərbçiləri tərəfindən qanunsuz işğalı faktını tanıyan və onun işğaldan azad edilməsinə çağıran qətnamələri var. Paylaşımda bu önəmli məlumata istinadı görmədim.

Bu qrupun məlum paylaşımı istənilən halda ciddi təhlilə dözmür, qeyri-adekvat və qeyri-qanuni görsənir. Ancaq bir acı faktı xatırlatmaq istəyirəm. BMT sistemində həm etnik ermənilərdən, həm də digər məlum ölkələrin nümayəndələrindən ibarət böyük və mütəşəkkil erməni lobbisi fəaliyyət göstərir. Bu mütəşəkkil dəstənin əsasən gizli şəkildə Azərbaycana zərər vurmağa çalışdığı dəfələrlə müşahidə olunub. Ekspertlər qrupunun "məhsulu" da bu reallığın nəticəsidir. Bununla mübarizə aparmaq üçün bizim əlavə xarici siyasət mexanizmlərimizin yaradılmasına ehtiyac var. Ölkəmizin mükəmməl dövlətlərarası diplomatiyası var. Azərbaycan Prezidenti dünyanın ən təcrübəli, xarizmatik və səriştəli dövlət başçılarından və diplomatlarından biridir ki, o, təkbaşına beynəlxalq müsahibələri və danışıqlar yolu ilə, müharibə zamanı erməni tərəfinin rəvayətini faktiki olaraq sındırıb və indi də bu işi davam etdirir. O, səbirlə irili-xırdalı ölkələrlə bərabərhüquqlu münasibətlər saxlayır. Müstəqilliyimizin bünövrəsini möhkəmləndirməklə, uzun və sabit ittifaqlar qurmaqdadır.

Dövlətimizin başçısı bu yaxınlarda Şuşada keçirilən Qlobal Media Forumunda vətəndaş təşəbbüsünün və ictimai nəzarətin vacibliyini qeyd etdi. Bu sözlər daha çox daxili gündəmə aid olsa da, mən inanıram ki, xarici əlaqələrə də aiddir. Biz xalq diplomatiyası - ictimai diplomatiya adlanan məfhumu

inkişaf etdirməliyik. Diasporlar, QHT-lər, jurnalistlər, blogerlər, idmançılar, musiqiçilər, alimlər rəsmi diplomatiyanı tamamlayan geniş mexanizmin bir hissəsi olmalıdırlar.

Müharibədən sonra dostlarımızın sayı artır, amma pis niyyətlilərin də sayı az deyil. Tamamilə gözlənilməz beynəlxalq vəziyyəti nəzərə alaraq, biz heç bir halda rahatlamamalı, xalq və dövlət olaraq azadlığımızın təməlini möhkəmləndirən alətlər yaratmağa davam etməliyik”.

**AZƏRTAC**
**2023, 10 avqust**

## XİN "Kommersant"ın yazısına münasibət bildirib: Qarabağın erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozub

Avqustun 11-də Rusiyanın "Kommersant" qəzetində "Arsax Qarabağa qarşı" adlı məqalədə Ağdam-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən istifadə müqabilində Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsindən keçidə imkan yaradacağına dair ilkin razılıqlar barədə fikirlər səsləndirilib.

AZƏRTAC bu fikirlərlə bağlı Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin şərhini təqdim edir.

Son günlər ərzində beynəlxalq tərəfdaşların səyləri nəticəsində Ağdam-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən yüklərin daşınması üçün istifadə olunması və bundan 24 saat sonra Laçın yolundan BQXK vasitəsilə keçidin daha da intensivləşməsinə dair razılıq mövcud idi.

Bununla yanaşı, Azərbaycan tərəfinin təklifi əsasında Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşün keçirilməsi razılaşdırılmış və bütün logistik məsələlər yekunlaşmışdı.

Bütün bu razılıqlara baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozublar.

Onların və bu mövzunu siyasi manipulyasiya alətinə çevirən Ermənistanın pozucu fəaliyyəti qarşı tərəfin sülh və sabitlikdə, habelə bu istiqamətdə dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdirib.

Bununla yanaşı, qeyd edilən addımlar humanitar əsasda iddiaların əsassız olduğunu bir daha sübut edərək, bölgədə vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

**AZƏRTAC**
**2023, 11 avqust**

## Azərbaycan XİN Ermənistanın baş nazirinə cavab verib

Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı səsləndirdiyi iddialara cavab verib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 11-də hökumətin iclasında çıxışı zamanı, növbəti dəfə bölgədə "gərgin humanitar vəziyyət" barədə iddiaları təkrarlayarkən, Ermənistan tərəfindən "humanitar yük" adı altında Laçın istiqamətində göndərilən yüklərin qəbul edilməməsinin erməni sakinlərə qarşı "etnik təmizləmə" kimi qələmə verməsi heç bir məntiqə sığmır.

"Azərbaycanın 20 faizə yaxın torpaqlarının işğalı nəticəsində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, nəinki bu torpaqlardan Ermənistan ərazisindən də azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş bir ölkənin rəhbərinin etnik təmizləmə iddiaları səsləndirməsinə mənəvi haqqı yoxdur.

Ermənistanın bu iddiaları davamlı olaraq təkrarlaması göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək Ermənistanın Laçın yolundan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması bu ölkəni narahat edir.

Erməni sakinlərin həqiqətən də iddia olunduğu kimi gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi Ağdam-Xankəndi yolundan istifadə edilməsi mümkündür.

Ermənistan tərəfi, əsassız şəkildə "humanitar böhran" barədə iddialar yaymaq və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribatlar törətmək əvəzinə, bölgədə sülh və sabitlik istiqamətində səy göstərməlidir", - deyə Xarici İşlər Nazirliyinin cavabında diqqətə çatdırılıb.

**AZƏRTAC**
**2023, 11 avqust**

**Qərbi Azərbaycan İcması Ermənistanı regionda vəziyyəti qəsdən gərginləşdirən əməllərə son qoymağa çağırır**

Qərbi Azərbaycan İcması Ermənistanın "humanitar böhran" şousu altında BMT Təhlükəsizlik Şurasının təcili iclasının çağırılması və Azərbaycana qarşı qətnamə qəbul edilməsinə çalışması niyyəti ilə əlaqədar bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a İcmanın mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda bildirilib ki, 30 il ərzində BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə məhəl qoymayan, hətta onlara istinad edilməsinə dözümsüz münasibət göstərən Ermənistanın indi Təhlükəsizlik Şurasından qətnamə umması riyakarlığın bariz nümunəsidir. Ermənistanın beynəlxalq humanitar hüquq və insan hüquqları sahəsində görməli olduğu iş öz ərazisindən qovduğu yüz minlərlə azərbaycanlının təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına imkan yaratmaqdır.

"Qərbi Azərbaycan İcması Ermənistanın bu hərəkətini onun Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü təhdid etməsi, daxili işlərinə kobud müdaxiləsi və 2022-ci il oktyabrındakı Praqa və Soçi, 2023-cü ilin iyulundakı Brüssel bəyanatlarında yer almış suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması müddəasından geri çəkilməsi kimi qiymətləndirir. Eyni zamanda, Ermənistanı regionda vəziyyəti qəsdən gərginləşdirən əməllərə son qoymağa çağırır", - deyə İcmanın bəyanatında qeyd olunub.

**AZƏRTAC**
**2023, 12 avqust**

**İcma: Belçika Ermənistanın manipulyasiya siyasətinə aldanmamalıdır**

Qərbi Azərbaycan İcması Belçika xarici işlər nazirinin “blokadanın aradan qaldırılması” ilə bağlı 2023-cü il avqustun 12-də səsləndirdiyi reallıqdan tamamilə uzaq, qərəzli fikirlərini qınayan bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a İcmanın mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda bildirilib ki, İcma Belçikanı Ermənistanın manipulyasiya siyasətinə aldanmamağa, ölkələrin suverenliyi, ərazi bütövlüyü məsələsinə münasibətdə selektiv yanaşmadan çıxış etməməyə və Azərbaycanın daxili işlərinə müdaxilə etməməyə çağırır.

“Belçikanın xarici işlər nazirinə xatırladırıq ki, Azərbaycan ərazisində “Dağlıq Qarabağ” adlı bir ərazi mövcud deyildir. Qərbi Azərbaycan İcması Belçikanın xarici işlər nazirini erməni həmkarı ilə növbəti təmaslarda, o cümlədən özünün anons etdiyi regiona gözlənilən səfəri zamanı qərbi azərbaycanlıların Ermənistana qayıdışı məsələsini rəsmi İrəvan qarşısında qaldırmağa çağırır",- deyə məlumatda qeyd olunub

**AZƏRTAC**
**2023, 12 avqust**

**Azərbaycan XİN: Ermənistan BMT Təhlükəsizlik Şurasını alətə çevirməyə cəhd göstərir**

Ötən ilin dekabrında ilk uğursuzluğuna baxmayaraq, Ermənistan yenidən BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirməyə cəhd göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

Bəyanatda vurğulanıb ki, Ermənistanın bölgədə "humanitar vəziyyətin pisləşməsi" və "davam edən blokada" ilə bağlı əsassız iddialarla əlaqədar BMT Təhlükəsizlik Şurasına müraciəti növbəti dəfə beynəlxalq tərəfdaşlar vasitəsilə balanslı, beynəlxalq hüquqa əsaslanan və məqbul həll yolu tapmağa yönəlmiş səylərə Ermənistanın qəsdən və məqsədyönlü şəkildə mane olduğu bir zamanda baş verir.

“Məlum olduğu kimi, son üç il ərzində Ermənistanın Laçın yolundan geniş miqyasda sui-istifadə etməsi halları Azərbaycanın öz sərhədində təhlükəsizlik və asayişi təmin etmək məqsədilə sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis olunması üçün legitim və hüquqi tədbirlər görməsini zəruri edib. Ermənistanın bu səyləri “blokada” kimi təqdim etməyə çalışmasına, nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması barədə qərar qəbul etmək üçün Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etməsinə baxmayaraq, məhkəmə 6 iyul tarixli qərarında bu tələbi yekdilliklə rədd edib”, - deyə XİN-in bəyanatında diqqətə çatdırılıb.

**AZƏRTAC**
**2023, 14 avqust**

**Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciəti diplomatik səylərə ciddi zərbə vurur**

Əgər Ermənistan və onun tabeliyindəki qondarma "qurum" razılaşmaya əməl etsəydi, məsələ avqustun əvvəlində, Qarabağ bölgəsinin sakinlərinə humanitar yüklərin çatdırılması, habelə insanların, malların və nəqliyyat vasitələrinin keçməsi üçün marşrutların asanlaşdırılması ilə bağlı məqbul çərçivənin təmin edilməsi ilə həll olunardı. Bu səbəbdən, Azərbaycanın Rusiya Federasiyası, ABŞ, Avropa İttifaqı və BQXK ilə bu vəziyyətdən çıxış yolları axtarmaq üçün apardığı intensiv qarşılıqlı fəaliyyətinə baxmayaraq, Ermənistanın bu diplomatik səylərə qəsdən mane olması heç bir şübhə doğurmamalıdır.

Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciəti bu kampaniyanın bir hissəsidir və bu baxımdan, iştirak edən tərəflərin, o cümlədən Təhlükəsizlik Şurasının üzvlərinin səylərinə ciddi zərbə vurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

Vurğulanıb ki, son həftələrdə beynəlxalq hüququn, habelə Ermənistanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatının 4-cü bəndində təsbit olunmuş öhdəliklərinin ciddi pozuntusu olan, Azərbaycan ərazisində qanunsuz yerləşdirilən Ermənistan silahlı qüvvələri hərbi-mühəndislik işlərini və digər hərbi quruculuq fəaliyyətini intensivləşdirib.

**AZƏRTAC**
**2023, 14 avqust**

**Rusiya Xarici İşlər Nazirliyində Laçın yolundakı vəziyyət müzakirə edilib**

Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin Ermənistanın bu ölkədəki səfiri Vaqarşak Arutunyan ilə Laçın yolundakı vəziyyəti müzakirə edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, tərəflər Laçın dəhlizindəki və bütövlükdə Qarabağdakı mövcud vəziyyəti müzakirə ediblər.

**AZƏRTAC**
**2023, 14 avqust**

**Ermənilərin humanitar aksiya şousu beynəlxalq ictimaiyyəti çaşdırmağa hesablanıb – ŞƏRH**

Ermənistan tərəfinin sülh danışıqlarından yayınması, siyasi manipulyasiyalarla məşğul olması müəyyən dərəcədə başa düşüləndir. Heç bir millət, dövlət bizim qədər erməniləri tanıya bilməz. Onların "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi İlə bağlı qaldırdığı hay-küy, şou əslində Qarabağda erməni silahlı dəstələrinin mövcudluğuna hesablanıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata görə, Ermənistan öz silahlı dəstələrini Qarabağdan çıxarmalı idi. Amma bu günə qədər də onlar bu bəndin tələbini yerinə yetirməyib. Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi istiqamətində göstərilən səylər Ermənistanın məqsədyönlü gərginlik və revanşizm siyasəti nəticəsində hələlik heç bir nəticə vermir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ramiz Alıyev söyləyib.

Onun sözlərinə görə, Ermənistan Xankəndiyə silah-sursat daşımaq üçün keçid məntəqəsinin ləğv edilməsini istəyir. Ermənilər beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün humanitar aksiya şousu yaradırlar. Heç kəs təminat verə bilməz ki, Ermənistanın Xankəndiyə göndərəcəyi yük maşınları ilə silah-sursat daşınmayacaq. Qırx dörd günlük Vətən müharibəsindən sonra biz ermənilərin Qarabağda minalar basdırdıqlarının şahidi olmuşuq. Müharibədən sonra bizim çoxlu sayda hərbçi və mülki şəxslərimiz minaya düşərək yaralanıblar, həlak olublar. Prezident, Ali Baş Komandan İlham Əliyev çox doğru olaraq "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasına göstəriş verdi. Bu, vaxtında atılmış bir addım idi. Ərazi bütövlüyü bizim üçün prinsipial məsələdir. Burada hər hansı güzəştdən söhbət gedə bilməz. BMT tərəfindən tanınan sərhədlərimiz çərçivəsində biz istənilən nöqtədə nəzarət-buraxılış məntəqəsi yarada bilərik. Beynəlxalq Ədalət Məhkəməsi də bu məsələdə Azərbaycanın maraqlarına uyğun qərar verdi, Ermənistanın müraciətini isə rədd etdi".

"Ermənistanda revanşist qüvvələr xaricdəki himayədarlarının göstərişi ilə sülh prosesinə əngəl yaradırlar, Azərbaycana qarşı qanunsuz, absurd iddialar irəli sürürlər. Ermənistanın bölgədə "humanitar vəziyyətin pisləşməsi" və "davam edən blokada" ilə bağlı əsassız iddiaları ikrah doğurur. Ermənistan Laçın yolundan sui-istifadə etdiyi üçün Azərbaycanın haqlı məhdudiyyətləri ilə üzləşib. Ermənistanın rəsmi Bakının qanuni addımlarını "blokada", "təzyiq" kimi dünyaya təqdim etməyə çalışması ciddi qəbul olunmur. Ermənistan Azərbaycan ərazisindən tam çıxarılmamış silahlı qüvvələrin ehtiyaclarını təmin və təchiz etmək üçün Azərbaycanın təbii sərvətlərini bu gün də qanunsuz olaraq istismar edir. Ermənistandakı revanşist qüvvələr istəyirlər ki, sülh prosesi uzansın. Ermənistanın Yevlaxda keçirilməsi planlaşdırılan görüşdən imtinası, diplomatik səylərə qəsdən mane olması və erməni silahlı qüvvələrinin ərzilərimizdə hərbi-mühəndislik işlərini və digər hərbi quruculuq fəaliyyətini davam etdirməsi bizdən adekvat addımlar atmağı tələb edir. Təbii ki, bizim səbirimiz tükənməz deyil. Müzəffər Ali Baş Komandan nəyi nə vaxt edəcəyini çox gözəl bilir. Necə ki, 2020-ci il sentyabrın 27-də hərbi əməliyyatlara start verərək 30 il işğal altında qalan torpaqlarımızı azad etdik. Eyni addımı Xankəndi üçün də ata bilərik. Biz Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ məsələsində heç zaman geri addım atmamışıq. Həmişə qabağa getmişik. Qarabağdakı erməni separatçılarının tör-töküntüləri elə zənn etməsinlər ki, Azərbaycan dövləti onların qanunsuz hərəkətlərinə, qıcıq doğuran, konstitusion dövlət quruluşumuza yönələn təhdidlərinə uzun müddət səssiz qalacaq. Biz imzamıza hörmət edən dövlətik. Əgər ermənilər Azərbaycanın humanistliyini düzgün dəyərləndirə bilməsə, yeni iddialar irəli sürsələr o zaman Ordumuz onlara layiq olduqları cavabı verəcək", - deyə politoloq vurğulayıb.

O əlavə edib ki, bu gün beynəlxalq ictimaiyyətin Ermənistanın təxribatlarına adekvat reaksiya verməsi olduqca önəmlidir. Azərbaycanın suveren ərazilərində qanunsuz yerləşdirilmiş radioelektron mübarizə vasitələrinin istifadəsi göstərir ki, ermənilər yeni müharibəyə hazırlaşırlar. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoymaq əvəzinə, təxribatlarla məşğul olması onlara yaxşı heç nə vəd etmir.

**AZƏRTAC**
**2023, 14 avqust**

**Deputat: Ermənistan sülh üçün yaranmış imkanları əldən verməklə yalnız özünə ziyan vurur**

Bölgədə yaranmış yeni geosiyasi durumla barışmaq istəməyən rəsmi İrəvan təxribatlarına davam edir. Ermənistan bu addımlarla, necə deyərlər, öz “ipini” kəsir. Son günlərdə baş verən təxribatlar, o cümlədən Laçın istiqamətinə toplanan ağır texnikalar, habelə “TIR şou”su bölgədə vəziyyəti gərginləşdirməkdən başqa bir amala xidmət etmir. Biz noyabr sazişinin 4-cü bəndinin, yəni Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizdə erməni silahlılarının çıxarılmasını tələb edirik. Bu vəziyyət atəşkəs üçün də təhlükəlidir. İstənilən an oradakı silahlılar təxribatlar törədə bilərlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov səsləndirib.

Ermənistanın Rusiya sülhməramlılarının nəzarəti ilə Xankəndi və ətraf ərazilərdəki silahlılar üçün təminat gətirdiyindən təəssüflədiyini bildirən A.Hüseynov deyib: “Onlar bununla mövqelərini gücləndirməyə cəhd edirlər. Təbii ki, bu addımlar və eləcə də Kəlbəcər, Laçın istiqamətində təxribatların törədilməsi vəziyyəti gərginləşdirmək istəyən qüvvələrin sifarişidir. Bura həm İrəvandakı, həm də bəzi beynəlxalq güclər daxildir. Azərbaycan Ermənistanla sülh bağlamaq üçün bütün humanitar addımları atır, üstəlik Qarabağdakı ermənilərlə də danışıqlara razılıq verildi. Nəticə məlumdur. Həm Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK), həm də Rusiya Sülhməramlı Kontingenti vasitəsilə, humanitar yüklərin Ağdam-Xankəndi yolundan istifadə etməklə daşınmasına razı idilər. Ermənistan tərəfi isə qoyulmuş beton və bütün digər fiziki maneələri qaldırmalı idi, amma bu baş vermədi. Ermənilər etibarsız tərəf olduqlarını, sülh istəmədiklərini bir daha sübut etdilər”.

Deputat bildirib ki, digər məsələ Azərbaycanın xüsusi nümayəndəsi və yerli erməni sakinlərinin nümayəndələri arasında Yevlaxda görüşün keçirilməsi barədə razılıq əldə olunması ilə bağlıdır. Ermənistan öz separatçı rejimi vasitəsilə qeyri-qanuni şərtlər və bəhanələr irəli sürərək əldə olunmuş hər iki razılıqdan son anda boyun qaçırdı. Bu da onu göstərir ki, danışıqlardan imtina Qarabağa yüklərin daşınması problemini də uzadır.

Problemin uzadılmasında səbəbkarın İrəvan və onun Xankəndidə dəstəklədiyi separatçı qurum olduğunu vurğulayan A.Hüseynovun sözlərinə görə, bu addım bir daha onu göstərir ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son qoymayıb və onun Azərbaycanın ərazi bütövlüyünü şifahi olaraq tanıması yerdəki əməllərindən fərqlənir.

“Dəfələrlə beynəlxalq hüquqa sadiqliyini bəyan etmiş Azərbaycan bu dəfə də beynəlxalq ictimaiyyətdən törədilən təxribatlara qarşı adekvat addımların atılmasını istəyir. Çünki yaranmış vəziyyət Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşmasını və Qarabağdakı ermənilərin reinteqrasiyası prosesini ləngidir. İrəvanın “humanitar fəlakət” və “blokada” iddiaları ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına müraciəti Ermənistanın qəsdli olaraq və məqsədli şəkildə beynəlxalq hüquqa əsaslanan danışıqlara zərbə vurmasıdır.

Ermənistan problemin həllinə əngəl törətməklə, regionda davamlı sülhün bərqərar olması üçün yaranmış tarixi imkanı əldən verə bilər. Bununla da yalnız özünə ziyan vurur”, - deyən Aydın Hüseynov fikirlərini tamamlayıb.

**AZƏRTAC**
**2023, 14 avqust**

**Türkiyə XİN Laçın yolu ilə bağlı bəyanat yaydı**

Türkiyə Laçın yolu ilə bağlı uzun müddətdir davam edən müzakirələri yaxından izləyir və Azərbaycanın bu məsələ ilə bağlı haqlı narahatlığını anlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyi bəyanat yayıb.

"Təəssüf ki, Azərbaycanın uzun müddətdir yüksək səslə səsləndirdiyi bu narahatlıqlar nəzərə alınmadı və nəticədə Azərbaycan öz suveren hüquqları çərçivəsində məqsədəuyğun hesab etdiyi tədbirləri həyata keçirdi.

Türkiyə bu fikirdədir ki, Laçın yolu ilə bağlı Azərbaycana qarşı tənqidlərə heç bir əsas yoxdur. Hazırda Laçın yolundan tibbi keçidlərin təmin edilməsi, eləcə də yüklərin daşınması üçün əlverişli olan digər marşrutlar Azərbaycan tərəfinin vicdanla maksimum səy göstərdiyini deməyə əsas verir.

Bizim Ermənistandan gözləntimiz təxribat xarakterli addımlardan çəkinmək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaq, Qarabağda erməni əhalisinin ehtiyaclarını ödəmək üçün Ağdam-Xankəndi və digər alternativ yollardan istifadəni dəstəkləmək, eləcə də Azərbaycanın erməni əhalisini reinteqrasiya etmək səylərinə dəstək verməkdir.

Türkiyə hesab edir ki, regionda sülh və sabitliyin təmin edilməsi üçün dost və qardaş Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və humanitar səyləri dəstəklənməli, vəziyyəti gərginləşdirən hərəkətlərə yol verilməməlidir", - deyə bəyanatda vurğulanıb

**AZƏRTAC**
**2023, 14 avqust**

**Politoloq: "Blokada" ssenarisinin arxasında riyakar siyasət və məkrli məqsədlər dayanır**

Avropa İttifaqı 30 ilə yaxın işğal dövründəki susqunluğunu normallaşma prosesi istiqamətində vasitəçilik missiyasını təklif etməklə pozdu. Avropa İttifaqı Brüssel formatı ilə qismən olsa da, regionda sülh quruculuğu prosesində maraqlı olduğunu nümayiş etdirmişdi.

Amma çox təəssüflər olsun ki, bu format çərçivəsində əldə olunmuş razılıqların həyata keçirilməsi ilə bağlı qətiyyətdə olduğu kimi nümayiş etdirilən "xoş niyyətin" də ömrü qısa oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi politoloq Aytən Qurbanova söyləyib.

Politoloqun sözlərinə görə, əslində, Avropa İttifaqının Ermənistana "mülki" adı altında göndərdiyi missiya bu təşkilatın riyakar siyasətinin ilkin təcəssümü idi. Heç şübhəsiz ki, daha sonra verilən qərəzli bəyanatların və "blokada" ssenarisinin arxasında da məhz eyni riyakar siyasət və məkrli məqsədlər dayanır. Belə ki, bu missiya artıq sərhəddə baş verən hadisələrin də birbaşa təşkilatçısı qismində çıxış etməyə başlayıb.

"Çünki "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən gündəlik keçidi aydın şəkildə müşahidə etmək imkanı olan belə missiyanın erməni tərəfinin yalançı "blokada" hekayələrini qlobal media qurumlarına ötürməsi anlaşılan deyil. Missiyanın separatçı qüvvələrin sərhəddə hərbi texnika yığmasını dəstəkləməsinin hər hansı başqa məntiqi izahı və ya "mülki məqsədi" ola bilməz. Demək ki, ilk gündən əsas məqsəd bir tərəfdən sülh masasında riyakar xoş niyyət nümayiş etdirmək, digər tərəfdən isə işğalçı Ermənistanın gizli şəkildə hərbiləşdirilməsinə dəstək vermək olub", - deyə Aytən Qurbanova vurğulayıb.

Politoloqun sözlərinə görə, bu da bir daha sübut edir ki, Fransa başda olmaqla Avropanın bir çox dövlətlərinin başlıca hədəfi Ermənistanın alət funksiyası vasitəsilə sülh quruculuğu prosesini uzatmaq və hərbi qarşıdurmaları təşviq etməklə növbəti bir "missiya" adı altında regiona nüfuz etməkdir.

**AZƏRTAC**
**2023, 15 avqust**

**Milli Məclis Ermənistanın manipulyasiya cəhdləri ilə əlaqədar xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıb**

Avqustun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Milli Məclisin xarici ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın Qarabağ bölgəsinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi hissəsində Ermənistan tərəfindən beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq məqsədi güdən cəhdlərlə əlaqədar beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a daxil olan müraciətdə Azərbaycanın beynəlxalq humanitar hüquqa və insan hüquqları üzrə normalara sadiq olduğu bir daha vurğulanır, Ermənistanın “blokada” və ya “humanitar böhranlar”la bağlı səsləndirdiyi əsassız iddialar qəti şəkildə rədd edilir, bunun Ermənistanın Azərbaycana qarşı apardığı geniş təbliğat kampaniyasının bariz təzahürü olduğu diqqətə çatdırılır.

Bildirilir ki, Qarabağ bölgəsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir, orada yaşayan etnik ermənilər isə Azərbaycan sakinləridir. Bu regionun “Dağlıq Qarabağ” adlandırılması Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, milli qanunvericiliyinə və coğrafi adların istifadəsi ilə bağlı BMT-nin normativ bazasına ziddir.

Azərbaycanın suveren ərazisində yerləşən, eksterritorial statusu olmayan “Laçın dəhlizi” adlanan yola gəlincə, Azərbaycan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla bağlı öhdəliklərinə sadiq qalaraq, bu yol boyunca hərəkətə icazə verib. Lakin Ermənistan yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş bu marşrutdan Azərbaycan ərazisində qanunsuz olaraq mövcud olan 10 minə yaxın silahlı qrupun rotasiyası, oraya silah, döyüş sursatı və minaların gətirilməsi, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və ixracı kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq şəkildə sui-istifadə edib.

Müraciətin mətnində deyilir ki, 2023-cü il aprelin 23-də Azərbaycan öz suverenliyini və təhlükəsizliyini qorumaq üçün legitim hüququnu həyata keçirərək, Ermənistan-Azərbaycan dövlət sərhədində Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi qurmuşdur ki, buna da bu yoldan yuxarıda qeyd olunduğu kimi Ermənistan tərəfindən geniş şəkildə sui-istifadə edilməsi səbəb olub.

Ermənistan Azərbaycan ərazisindən tam şəkildə çıxarılmamış silahlı qüvvələrini təmin etmək və saxlamaq, eləcə də Azərbaycanın təbii sərvətlərini qeyri-qanuni yolla çıxarmaq üçün vasitələrdən məhrum olmaq reallığı ilə barışa bilməyib, manipulyasiya və beynəlxalq ictimaiyyəti çaşdırmaq kampaniyasına başlayıb.

Xüsusilə qeyd olunur ki, Ermənistanın Azərbaycanın Laçın sərhəd keçid məntəqəsini qanunsuz kimi qələmə vermək cəhdlərinin əksinə olaraq, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) 2023-cü il 6 iyul tarixli Qərarı ilə Azərbaycanın şəxsi heyətinin Laçın yolundan çıxarılması ilə bağlı Ermənistanın müraciətini yekdilliklə və qəti şəkildə rədd edib. Bununla da Məhkəmə Ermənistanın sərhəd-keçid məntəqəsinin qanunsuz olması və onun Laçın yolunun hərəkətinə mane olması ilə bağlı sayıqlamalarını rədd edib.

Müraciətdə bildirilir ki, sərhəd keçid məntəqəsi yaradıldıqdan sonra Azərbaycanın Qarabağ regionundan Ermənistana mülki əhalinin hərəkəti xeyli artmış, cari ilin iyunun 15-dək bu məntəqədən 2000-dən çox şəxs keçib. Həmin gün Ermənistan silahlı qüvvələri Azərbaycan sərhədçilərinə və Rusiya sülhməramlı qüvvələrinə basqın edib, nəticədə Azərbaycan sərhədçisi ağır xəsarət alıb. Bu hücum təkcə Azərbaycan sərhədçilərinə qarşı yönəlməyib, həm də Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) əməkdaşlarına və nəzarət-buraxılış məntəqəsindən keçən mülki şəxslərə birbaşa təhlükə yaradıb. Bu silahlı təxribat BQXK-nın Qarabağ regionundan Ermənistana tibbi məqsədlərlə gedən bir qrup Ermənistan sakinini müşayiət etdiyi bir vaxtda baş verib, hücumun məqsədi Laçındakı yolun və sərhəd keçid məntəqəsinin uğurlu fəaliyyətini pozmaq olub.

Ermənistan Azərbaycanın Laçın yolunu qəsdən bağladığı barədə yalan iddiaya əl ataraq, gələcəkdə analoji xarakterli insidentlərin törədilməyəcəyinə zəmanət verməkdən imtina edir, bununla da faktiki olaraq sərhəd keçid məntəqəsinin işinin tam bərpa olunmasına mane olur.

Müraciətdə vurğulanır ki, Azərbaycan öz növbəsində dəfələrlə Ermənistanı sərhəd və gömrük qurumları vasitəsilə fiziki şəxslərin, yüklərin və xidmətlərin maneəsiz və təhlükəsiz transsərhəd daşınmasını təşviq etmək üçün əməkdaşlığa çağırsa da, bu çağırışlar bu günədək Ermənistan tərəfindən cavabsız qalmaqdadır.

Ermənistanın Azərbaycandakı qeyri-qanuni silahlı qruplaşmalarını təchiz etmək məqsədilə ikili təyinatlı bəzi malları qaçaqmalçılıq yolu ilə keçirmək üçün BQXK-nın konvoylarından istifadə etmək inadkarlığına və ehtiyatsız cəhdlərinə baxmayaraq, Azərbaycan təcili tibbi yardım məqsədilə yerli erməni sakinlərinin Ermənistana keçidini asanlaşdırmağa davam edir. Qaçaqmalçılığa gəlincə, BQXK-nın humanitar mandatına və reputasiyasına xələl gətirən bu həyasız hərəkət təşkilat tərəfindən açıq şəkildə etiraf edilib.

Ermənistanın barışmazlığı fonunda Azərbaycan öz digər bölgələrindən Qarabağ bölgəsinə humanitar yüklərin daşınması üçün Ağdam üzərindən Xankəndinə gedən şimal yolu kimi alternativ və daha qısa yollardan istifadə etmək üçün BQXK ilə əməkdaşlığı intensivləşdirib.

Müraciətdə vurğulanır ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident Əliyevlə Baş nazir Paşinyan arasında Brüsseldə keçirilən görüşün yekunlarına dair ictimai çıxışında Qarabağ sakinlərinin əsas ehtiyaclarının adekvat şəkildə ödənilməsini təmin edən komponent qismində Ağdam-Xankəndi marşrutundan mühüm marşrut kimi istifadəni təşviq edib.

O da qeyd olunur ki, bir sıra intensiv məsləhətləşmələrdən və “məkik diplomatiyası” səylərindən sonra, nəhayət humanitar yüklərin müxtəlif marşrutlar vasitəsilə Qarabağ bölgəsinə çatdırılması, eləcə də Azərbaycanın xüsusi nümayəndəsi ilə yerli erməni sakinlərinin nümayəndələri arasında görüşün təşkili ilə bağlı razılıq əldə olunub.

Birinci halda yerli sakinlərin ehtiyaclarını ödəmək məqsədilə BQXK tərəfindən humanitar yüklərin çatdırılmasına imkan vermək üçün Ermənistan tərəfinin Ağdam-Xankəndi yolundan istifadəsinə qoyduğu beton bloklar və bütün digər fiziki maneələr götürülməli idi. Bunun ardınca 24 saat ərzində BQXK tərəfindən Laçın yolundan istifadənin intensivləşdirilməsi aparılmalı idi. İştirak edən bütün tərəflər, o cümlədən Rusiya sülhməramlı kontingenti və BQXK bu razılaşmanı praktiki olaraq həyata keçirməyə hazır idi.

İkinci halda Azərbaycanın Yevlax şəhərində Azərbaycanın xüsusi nümayəndəsi və yerli erməni sakinlərinin nümayəndələri ilə görüşün keçirilməsi barədə razılıq əldə olunmuşdu.

Təəssüf ki, revanşist əhval-ruhiyyə ilə idarə olunan və normallaşma prosesi çərçivəsində öhdəliklərdən yayınan Ermənistan 5 avqust 2023-cü il tarixində qanunsuz olaraq qurulmuş kukla rejimi vasitəsilə son anda hər iki razılaşmadan geri çəkilib, siyasi motivli və qanunsuz ilkin şərtlər, həmçinin müxtəlif bəhanələr irəli sürüb.

Müraciətdə bildirilir ki, Ermənistan həllin bir hissəsi olmaq əvəzinə, gərginliyi süni şəkildə alovlandırmağa üstünlük verərək, Azərbaycanın daxili işlərinə qarışmaq cəhdlərinə, etnik ədavəti təbliğ etməyə, faktları saxtalaşdırmağa, çaşdırıcı məlumatlar yaymağa, “blokada” və “humanitar böhran”ların mövcudluğuna eyham vurmağa davam edir. Bu məqsədlə Ermənistan beynəlxalq ictimaiyyəti manipulyasiya etmək üçün ardıcıl səylər göstərir və paralel olaraq yerlərdə təxribat xarakterli siyasi və hərbi fəaliyyətlə məşğul olur.

Eyni zamanda, Ermənistanın təkrarlanan qeyri-konstruktiv davranış modeli Azərbaycanın Qarabağ bölgəsindəki etnik erməni sakinlərinin Azərbaycanın bərabərhüquqlu vətəndaşları kimi reinteqrasiyası cəhdlərinə də mane olur. Azərbaycan hökuməti öz sərhədləri daxilində yaşayan etnik ermənilərin rifahı üçün təminat verməyə, onların Azərbaycan Konstitusiyasında və Azərbaycanın qoşulduğu beynəlxalq mexanizmlərdə təsbit olunmuş bütün müvafiq hüquq və azadlıqlarını qorumağa hazırdır. Bu məqsədlə Azərbaycan bu prosesin tərkib hissəsi kimi bir neçə dəfə özünün Qarabağ bölgəsində yaşayan yerli ermənilərlə görüşlər keçirməyə hazır olduğunu bildirmişdir.

Müraciətdə nəzərə çatdırılır ki, Ermənistanın ardıcıl təxribatlarının iki ölkə arasında münasibətlərin normallaşması üçün tarixi imkan yarandığı bir vaxtda baş verdiyini vurğulamaq xüsusilə vacibdir. Son aylarda Azərbaycan beynəlxalq tərəfdaşların fəal iştirakı ilə normallaşma prosesinin əhəmiyyətli dərəcədə intensivləşməsinə töhfə verib. Diplomatik dialoqlar fikir ayrılıqlarının azaldılmasında və dayanıqlı sülh və dövlətlərarası münasibətlərin qurulmasına yönəlmiş gələcək ikitərəfli sazişin bir neçə maddəsində nəzərəçarpacaq irəliləyiş əldə edilməsində mühüm rol oynayıb.

Ona görə də bu kritik mərhələdə beynəlxalq ictimaiyyət Ermənistanın manipulyasiya və dezinformasiya cəhdlərini rədd etməklə bağlı yüksək məsuliyyət daşıyır. Beynəlxalq ictimaiyyət Ermənistanı daha da ruhlandırmaq əvəzinə, onu Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətlərinə son verməyə, onun daxili işlərinə qarışmaqdan çəkinməyə və münaqişədən sonrakı normallaşma danışıqlarında vicdanla iştirak etməyə məcbur etməlidir.

Son dərəcə vacibdir ki, Ermənistan regionda onsuz da kövrək olan sülh şəraitini yenidən pozmaq üçün beynəlxalq platformalardan və institutlardan istifadə etməkdən çəkinsin.

Müraciətin sonunda azərbaycanlı parlamentarilər tərəfindən xarici həmkarlarının qərəzsiz və ədalətli mövqe nümayiş etdirəcəklərinə, Ermənistanın təbliğatını rədd edəcəklərinə, obyektivliyə, həqiqətə, beynəlxalq hüquqa söykənən davranış sərgiləyəcəklərinə ümid ifadə olunur.

**AZƏRTAC**
**2023, 15 avqust**

**Azərbaycan və Rusiya XİN rəhbərləri regiondakı vəziyyəti müzakirə ediblər**

Avqustun 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı, Azərbaycan və Rusiya arasında mövcud əməkdaşlıq gündəliyi, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, habelə regionda cari vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov Ermənistanın beynəlxalq hüquq normaları və prinsiplərinə zidd olaraq, Azərbaycana qarşı hərbi-siyasi təxribatlarını intensivləşdirməsinin iki ölkə arasında mövcud normallaşma prosesinə ciddi zərbə vurduğunu diqqətə çatdırıb. Bölgədə guya “gərgin humanitar vəziyyət”, “blokada”nın mövcudluğu ilə bağlı manipulyasiyalarını davam etdirən Ermənistanın, erməni sakinlərin tələbatlarının ödənməsi üçün Laçın yolu və digər alternativ yollardan istifadə ilə bağlı məsələlərin həll olunması üçün əldə olunmuş razılaşmalara əməl etmək əvəzinə, sülh prosesinə maneçilik törətdiyi bildirilib.

Nazir Sergey Lavrov Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla təsbit olunmuş öhdəliklərə sadiqliyin vacibliyini qeyd edib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 15 avqust**

**Aİ-nin müşahidə missiyası "humanitar böhran" şousunun ən mühüm personajlarından biri kimi – ŞƏRH**

Avropa İttifaqının (Aİ) qanunsuz müşahidə missiyası ilk gündən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi ətrafında başlanan "humanitar böhran" şousunun ən mühüm personajlarından biri kimi çıxış etməkdədir. Bu günə qədər "tərəfsiz" qalaraq guya yalnız "müşahidə etdiyi həqiqətləri" qeyd edən, lakin yaydığı fotolar, verdiyi bəyanatlarla Ermənistanın informasiya təcavüzünün mühüm alətlərindən birinə çevrilən Aİ missiyası, analoji davranışın İrəvana fayda vermədiyini görərək artıq informasiya savaşında tərəf kimi davranmağa başlayıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov söyləyib.

Deputat bildirib ki, ötən gün Ermənistan tərəfi Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisində guya Avropa İttifaqının müşahidəçiləri və onların avtomobili istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə məlumat yayıb. Erməni informasiya resurslarında bu dezinformasiya yayıldıqdan sonra ilk saatlarda xəbərləri nə təkzib, nə də təsdiq etməsə də, sonradan Aİ missiyası rəsmi "X" sosial media hesabından ermənilərin iddiasını yalanlayan bəyanat yayaraq bildirdi ki, "missiyanın atəşə tutulması barədə məlumatlar doğru deyil". Lakin bir neçə saat sonra missiya Azərbaycan əleyhinə istifadə edə biləcəyi bu fürsəti qaçırmamaq üçün dezinformasiyaları təkzib edən tviti silərək Azərbaycan tərəfindən atəşə tutulduqları ilə bağlı açıqlamalar veriblər.

"Əlbəttə, Avropa İttifaqının müşahidə missiyası bölgəyə gəldiyi gündən bizim məsələyə münasibətimiz və gözləntilərimiz aydın olub. Azərbaycan ən ali səviyyədə missiyanın xoş olmayan niyyəti barədə fikrini ifadə edib. Lakin Avropa İttifaqının müşahidəçilərinin belə açıq formada ucuz və diletant təxribatların tərkib hissəsi kimi çıxış edəcəyi bizim özümüz üçün də gözlənilməz oldu. Çünki Müdafiə Nazirliyinin yaydığı məlumatda da ifadə edildiyi kimi, "Avropa İttifaqının müşahidəçilərinin Ermənistanda şərti sərhəd istiqamətində səfərlərinin vaxtı, onların hərəkət marşrutu, ərazidəki koordinatları, eləcə də avtomobillərin markası və nömrə nişanları Azərbaycan tərəfinə əvvəlcədən təqdim edilir. Azərbaycan Ordusunun bölmələri missiyanın səfərləri barədə məlumatlıdır". Belə olan halda, o cümlədən Azərbaycan ətrafında süni surətdə beynəlxalq diqqətin artdığı bir zamanda Avropa İttifaqının müşahidəçilərinin atəşə tutulması mümkündürmü, yaxud bu bizə nə verə bilər? Görünən odur ki, ortada yalnız bir təxribat var, o da əvvəlcə təkzib vermək, ardınca isə ittiham etməklə Avropa İttifaqının müşahidə missiyası tərəfindən törədilməkdədir. Aİ missiyası faktiki olaraq özünün qərəzli və şantajçı mövqeyi ilə Ermənistanın saxta informasiya daşıyıcısı funksiyasını yerinə yetirir. Təsəvvür edin, atəşə tutulduqlarını iddia edən beynəlxalq "müşahidəçilər"in atəşə tutulmasını şərh edərkən müsahibədə onların üzü görünmür. Yaxud Ermənistan tərəfinin təqdim etdiyi və guya missiyanın atəşə tutulduğunu sübut etdiyi deyilən videolar faktiki olaraq yararsız səhnələşdirmədən ibarətdir və nəinki Azərbaycan tərəfinin missiya üzvlərinə atəş açmasını sübuta yetirmir, əksinə təqdim olunan görüntülərin qurma olması şübhə doğurmur. Təbii ki, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının bu faktlar qarşısında susması və ən azı təmsil etdiyi qurumun nüfuzuna yaraşmayan formada Ermənistanın əlində təbliğat alətinə çevrilməsi təəssüf doğurur. Eyni zamanda, baş verənlər sübut edir ki, İrəvanın da, havadarlarının da resursları artıq tükənir. Açıq böhtan xarakterli üsul və vasitələrə əl atmaları göstərir ki, Qarabağda "humanitar böhran" ssenarisi də, bu şounun müəllifləri özləri də iflasa uğramaqdadır", - deyə Bəhruz Məhərrəmov vurğulayıb.

**AZƏRTAC**
**2023, 16 avqust**

**Yaşar Əliyev: Ermənistanın Təhlükəsizlik Şurasına müraciəti beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir**

Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı əslində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının iclasında çıxışında deyib.

Ermənistanın ölkəmizə qarşı təbliğ etdiyi "blokada" və ya "humanitar böhran" ilə bağlı bütün əsassız və sübutu olmayan iddiaları qətiyyətlə rədd edən daimi nümayəndə bildirib: "Məhz Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb. Bu xüsusda, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümündən başqa bir şey deyil və onun Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir. Əgər Ermənistan yardım etmək istəyində səmimi olsaydı, bu, dərhal baş verərdi. Bu, həqiqətən də bu yaxınlarda - bir neçə gün əvvəl beynəlxalq aktorların, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərinin fəal iştirakı nəticəsində praktiki olaraq mümkün idi. Bu, təkcə Ermənistanın imtinası nəticəsində baş tutmadı".

**AZƏRTAC**
**2023, 17 avqust**

**“Laçın” sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq məqsədilə yaradılıb**

“Laçın dəhlizi” adlanan yol Azərbaycanın suveren ərazisi daxilində, heç bir ekstraterritorial statusu olmayan, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, ilk növbədə, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Qarabağ bölgəsində guya yaranmış “humanitar böhran”ın müzakirəsinə dair təcili iclasında çıxışında deyib.

Y.Əliyev bildirib ki, sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın “Laçın” keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib

**AZƏRTAC**
**2023, 17 avqust**

**Politoloq: BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının tam iflasa uğradığını göstərdi**

Ermənistan Azərbaycanla münasibətlərin normallaşması, sülh müqaviləsinin imzalanması üzrə aparılan prosesi pozmaq üçün addımlarını davam etdirir. Normallaşma istiqamətində müəyyən qədər yolun qət edildiyi və regionda sülhün əldə olunması real imkanlar yarandığı bir vaxtda rəsmi İrəvan yenə öz təxribatları ilə gərginlik yaratmaqla məşğuldur. Bir tərəfdən "humanitar böhran", "aclıq" şousu quran Ermənistan, digər tərəfdən Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqla təxribatlarının miqyasını daha da genişləndirməyə çalışır.

Təəssüf ki, bəzi beynəlxalq oyunçular Ermənistanın təxribatlarını, pozuculuq fəaliyyətini, revanşizm siyasətini pisləmək əvəzinə, İrəvan hakimiyyətinin qurduğu tamaşada rol alırlar.

Azərbaycanın sülh prosesi, Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı mövqeyi bəllidir. Bu, dəfələrlə ən yüksək səviyyədə açıqlanıb. Rəsmi Bakının qeyd edilən məsələlərdə ortaya qoyduğu mövqe, təklifləri beynəlxalq normalara əsaslanır. "Aclıq", "Tır" şousu kimi pozucu planları ilə istədiyi nəticəni əldə edə bilməyən Ermənistan hakimiyyəti BMT Təhlükəsizlik Şurasına üz tutub və təcili iclasın çağırılmasını tələb edib. İrəvan ilk dəfə deyil ki, Azərbaycana qarşı bu addımı atır. İkinci Qarabağ müharibəsinin gedişində də belə cəhdlər edilib. Amma hər dəfə uğursuzluğa düçar olub. Çünki qeyd etdiyimiz kimi, Azərbaycan bu məsələlərdə tam haqlıdır və beynəlxalq hüquqa zidd olan hansısa addımı atmayıb.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq İlqar Vəlizadə söyləyib.

Politoloq deyib ki, 2022-ci ilin dekabrında Fransa və Ermənistanın azərbaycanlıların Laçın yolundakı aksiyası ilə bağlı BMT Təhlükəsizlik Şurasının iclasını çağırmasını xatırladan politoloqun sözlərinə görə, məqsəd müzakirələrin yekunu olaraq Azərbaycana qarşı əvvəlcə bəyanatın, daha sonra isə qətnamənin qəbul edilməsi idi. Lakin bu, baş vermədi. Belə ki, Böyük Britaniya, Rusiya, BƏƏ və Albaniya əvvəldə Fransa tərəfindən hazırlanan bəyanata düzəlişlər etməyi istədilər, sonda bu ölkələrin qəti mövqeyi nəticəsində yekun mətn qəbul olunmadı.

“Ermənistan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsini 30 ilə yaxın yerinə yetirməyən bir ölkədir. İşğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən bu qətnamələr mövcud olduğu halda, BMT TŞ ötən illər ərzində Ermənistandan onların icrasını tələb etmədi. Həmçinin Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı məsələ qaldırmadı. Təəssüf ki, bəzi beynəlxalq qurumlar, o cümlədən BMT TŞ Ermənistanın əlində alətə çevrilib. Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciəti normallaşma istiqamətində diplomatik səylərə ciddi zərbə vurur”, - deyə İ.Vəlizadə diqqətə çatdırıb.

Politoloq bildirib ki, uzun illər Təhlükəsizlik Şurasının və BMT Baş Assambleyasının qətnamələrinə məhəl qoymayan Ermənistan indi Qarabağ məsələsi ilə bağlı təcili iclasın keçirilməsini tələb edir. Maraqlıdır, Paşinyan hökuməti Təhlükəsizlik Şurasından hansı qərarın olmasına ümid edir? Ən yaxşı halda, media üçün bir açıqlama və ya sədrin mövcud problemlərin dialoq yolu ilə həll edilməsi, Qarabağ ermənilərinin təhlükəsizliyinin və humanitar ehtiyaclarının təmin edilməsi üçün tərəflərə müraciəti ola bilər. Deməli, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son kompromis təklifinə uyğun olaraq, Təhlükəsizlik Şurasına getmədən bütün bunlara nail olmaq mümkün idi. Ermənilər bağladıqları Ağdam-Əsgəran yolunu istifadə etmək üçün açıb, Yevlaxda dialoqa gəlsəydilər, daha yaxşı olardı.

“Hesab edirəm ki, Paşinyan hökuməti İrəvanda seçkilər ərəfəsində seçicilərə Qarabağ erməniləri üçün əllərindən gələni etdiklərini nümayiş etdirməyə çalışır. Laçın postunun girişində düzülmüş humanitar karvan, BMT Təhlükəsizlik Şurasına müraciət də bu planın tərkib hissəsidir. Eyni zamanda, İrəvan Qarabağdakı qeyri-qanuni erməni qüvvələrinin tərk-silah edilməsi üzrə antiterror əməliyyatını təxirə salmaq üçün beynəlxalq ictimaiyyətin diqqətini regiondakı vəziyyətə yönəltməyə çalışır. Xarici siyasətdə Paşinyan və komandasının diplomatik və informasiya hiylələri çətin ki, dividend gətirsin, lakin onlar daxili siyasi məqsədlər üçün işləyə bilərlər. Heç bir, hətta ən səmərəli təşkil edilmiş informasiya səs-küyü Ermənistan-Azərbaycan münasibətlərinin aktual problemlərinin həllində əməli hərəkətləri əvəz edə bilməz”, - deyə politoloq vurğulayıb.

İlqar Vəlizadə qeyd edib ki, Ermənistanın bütün mümkün vasitələrdən Azərbaycanın əleyhinə istifadə etməsi cəhdlərinin sonu uğursuzdur. Vurğulanıb ki, indiyədək əleyhimizə olan bütün cəhdlər uğursuzluqla nəticələnib. Bu dəfə də elə oldu. Müzakirələrin nəticəsi beynəlxalq hüququn, haqq-ədalətin Azərbaycanın tərəfində olduğunu sübut etdi. Bu da təbii ki, Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir.

Politoloq əlavə edib ki, BMT TŞ-dəki müzakirələr Ermənistan diplomatiyasının tam iflasa uğradığını göstərdi. Ermənistanın, erməni diasporu və lobbisinin səyləri bu dəfə nəticəsiz qaldı. BMT tribunasından belə müzakirələrə ehtiyac olmadığı bir daha təsdiq olundu. Revanşist xülyalarla yaşayan ermənilərə başa saldılar ki, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır.

**AZƏRTAC**
**2023, 17 avqust**

**Qətnamələrinin icrasını həyata keçirə bilməyən BMT TŞ bu gün erməni bayrağı altında "göz yaşlarına boğulub" - Açıqlama**

Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında özünü ali orqan hesab edən BMT Təhlükəsizlik Şurası (TŞ) təsis olunduğu 1945-ci ildən bu günə qədər dünyada sülhün və əmin-amanlığın yaradılması kimi böyük məsuliyyəti öz üzərinə götürüb. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmləndirmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək olan BMT bu gün nədənsə özünü ali orqan yox, ali ədalətsiz təşkilat kimi göstərməyə çalışır. Belə ki, qurum dünən Ermənistanın guya Qarabağda "humanitar böhran", aclıq, blokada və s. şəraitində yaşamasını əsas götürüb növbədənkənar iclas keçirdi. Bununla BMT Təhlükəsizlik Şurası bir daha sübut etdi ki, vaxtilə erməni silahlı birləşmələrinin tam, qeyri-şərtsiz və dərhal Azərbaycan ərazilərindən çıxarılması üçün qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin hər biri formaldır. Çünki bu qətnamələri Azərbaycan Ordusu öz gücünə yerinə yetirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı İlham Məmmədov söyləyib.

"Azərbaycan hökuməti otuz ilə yaxındır bütün dünyaya, o cümlədən BMT Təhlükəsizlik Şurasına sübut və izah etməyə çalışırdı ki, biz işğala məruz qalmışıq, tarixi və dədə-baba torpaqlarımız düşmən tapdağı altındadır, məscidlərimizdə düşmən donuz saxlayır. Eyni zamanda, bizə qarşı dünyada görünməyən vəhşiliklər olub. Bəs o zaman dünyada böyük hərflərlə özünü sülhün və təhlükəsizliyin qarantı hesab edən BMT harada idi? Deməli, doğrudan da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi "Əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq işləmir" ifadəsi öz təsdiqini tapıb. Əgər həqiqətən də dünyada beynəlxalq hüquq işləsəydi, BMT Təhlükəsizlik Şurası 1993-cü il aprelin 30-da Kəlbəcərin işğalından sonra 822 saylı, 1993-cü il iyulun 29-da Ağdamın işğalından sonra 853 saylı, 1993-cü il oktyabrın 14-də Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının işğalından sonra 874 saylı, 1993-cü il noyabrın 12-də Zəngilan və digər Azərbaycan rayonlarının işğal olunmasından sonra 884 saylı qəbul etdiyi qətnamələri dərhal yerinə yetirərdi.

İndi necə olur ki, bu gün BMT Təhlükəsizlik Şurası erməni bayrağı altında "göz yaşlarına boğulub". Bu gün Qarabağdakı ermənilər "humanitar böhran" içində yaşayırlar, yaxud da Laçın dövlət sərhədindən buraxılış məntəqəsi onların üzünə bağlanıb kimi ifadələrə artıq heç kim inanmır", - deyə deputat bildirib.

O əlavə edib ki, torpaqlarımızı işğal altında saxlayan Ermənistan və onun vətəndaşları otuz il ərzində Qarabağ ərazisində qanunsuzluqlarla məşğul olublar. Onlar bu gün də elə başa düşürlər ki, bu qanunsuz əməllərinə davam edərək, nə istəsələr edə bilərlər. Ancaq anlamırlar ki, Azərbaycan müstəqil, suveren dövlətdir, öz sərhədlərini, dövlət təhlükəsizliyini tam şəkildə müdafiə edir.

İ.Məmmədov deyib: "Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması Azərbaycanın erməniləri blokadada saxladığı anlamına gəlmir. Yox, bu əsla belə deyil, biz sadəcə, öz qanunlarımız daxilində ölkəmizə gələn vətəndaşları, daşınan yükləri və s. yoxlamalıyıq və öz qanunlarımız daxilində buna imkanlar yaratmalıyıq. Odur ki, Azərbaycanın qanunlarına tabe olan Qarabağda yaşayan ermənilər Laçın postundan rahatlıqla keçə və bu imkanlardan istifadə edə bilərlər. Hesab edirəm ki, dünən BMT Təhlükəsizlik Şurasının keçirdiyi iclas əsassız və sifarişlidir. Eyni zamanda, iclas növbəti erməni yalanının təzahürü kimi dünyada beynəlxalq hüququn olmaması deməkdir və Azərbaycana qarşı yönəlmiş növbəti təxribatdır. Biz öz hüquqlarımızı və haqlarımızı bilirik, eyni zamanda, ölkəmizə qarşı yönəlmiş təxribatların da qarşısı uğurla alınır".

**AZƏRTAC**
**2023, 17 avqust**

**Rəsmi İrəvan reallıqdan konkret nəticə çıxarmalıdır**

BMT Təhlükəsizlik Şurasının ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolundakı vəziyyətlə bağlı iclası bir sıra mühüm məqamlarla yadda qaldı və mövcud reallıqların təqdimatı oldu.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Ermənistanın və separatçıların "humanitar böhran" iddiasının və "blokada" şousunun iflasa uğradığını qeyd edən S.Novruzovun sözlərinə görə, rəsmi İrəvanın "humanitar problem" kimi təqdim etməyə çalışdığı məsələnin, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı təxribat xarakterli və beynəlxalq hüquq normalarına, üçtərəfli Bəyanata zidd siyasi kampaniya olduğu BMT tribunasından sübuta yetirildi.

“BMT-nin tribunasından ölkəmizin mövqeyinin haqlı, yanaşmasının ədalətli olduğu bir daha öz təsdiqini tapdı. Azərbaycanın Ağdam-Xankəndi yolundan istifadə təklifinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanması hərb meydanında məğlubiyyətə düçar olan Ermənistanın diplomatik kapitulyasiyası oldu. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən regionda sülh və sabitliyin əsasının həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınması olduğunun vurğulanması Prezident İlham Əliyevin sülh və etimad quruculuğu siyasətinin real nəticəsi, Azərbaycanın Zəfər diplomatiyasının təntənəsidir”, - deyə komitə sədri vurğulayıb.

Siyavuş Novruzov bildirib ki, BMT-nin Təhlükəsizlik Şurasının üzv dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən fikirlər və nümayiş etdirilən konkret mövqe Ermənistan üçün dərs olmalıdır: “Rəsmi İrəvan bu reallıqdan konkret nəticə çıxarmalıdır. İstər rəsmi dairələr, istərsə revanşistlər, istərsə də separatizmə dəstək verən bəzi güc mərkəzləri anlamalıdırlar ki, Ermənistan ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, kommunikasiyaların bərpası və sülh müqaviləsinin imzalanması məsələsində konstruktiv mövqe tutmalıdır. Çünki İrəvanın alternativ seçimi və əlavə şansı yoxdur”.

**AZƏRTAC**
**2023, 17 avqust**

**Ermənistanın beynəlxalq ictimaiyyəti aldatma cəhdləri yenə də fiaskoya uğradı - Şərh**

Ermənistanın, separatçıların və erməni lobbisinin beynəlxalq ictimaiyyəti aldatma cəhdləri yenə fiaskoya uğradı. Açığı desək, çox həvəslə hazırlaşmışdılar və böyük gözləntiləri vardır. Erməni lobbisinin maliyyə dəstəyi ilə bəzi xarici media qurumlarında Azərbaycanın yaratdığı "blokada" və "soyqırımı" təhlükəsi ilə bağlı yazılar tirajlanırdı. Ermənilər məzlum xalq obrazı yaradaraq, ictimaiyyət və beynəlxalq təşkilatlar üçün rəy formalaşdırmağa çalışdılar. Amma məsələ budur ki, artıq 1990-cı illər deyil. İndi dünyaya informasiyanı, mövcud reallıqları müxtəlif formalarda çatdırmaq və göstərmək imkanları var. Əvvəllər erməni yalanlarını dünyaya çatdırmaq gücümüz və imkanımız olmasa da, indi həm diplomatik, həm də texniki göstəricilərimiz kifayət qədərdir. Azərbaycan regionda baş verən hadisələri izləyəcək texniki qurğulara və eyni zamanda, bu məlumatları çatdıra biləcək gücə sahibdir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyası sədrinin müavini, politoloq Yalçın Hacızadə söyləyib.

O qeyd edib ki, Ermənistan 1990-cı illərin əvvəlində də bu "taktikadan" istifadə edərək "aclıq çəkdiyini", aclığa görə "soyqırımı" təhlükəsi ilə "üzləşdiyini" iddia edirdi. Həmin zaman da Qərb mediasında bu barədə böyük kampaniya aparılırdı. Avropa İttifaqı(Aİ) da Ermənistana təcili yardım etməyə çalışırdı. Ermənistanın Xocalıda soyqırımı törətməsindən, Şuşanı, Laçını və digər yerləri işğal və minlərlə insanları qətl etməsindən, yüz minlərlə sakinin öz yerlərindən məcburi köçürülmələrindən isə danışılmırdı. Sanki Azərbaycan işğala məruz qaldığına görə günahkar idi. Heç kim maraqlanmırdı ki, "aclıqdan yox olmaq təhlükəsi" yaşayan bir dövlət necə olur da qonşu ölkəyə hücum edir, onun torpaqlarını işğal edir. Bütün bunları görməzdən gələn Avropa İttifaqı, Rusiya, İran və bəzi ölkələr Ermənistana yardım edirdi. Silah, ərzaq və elektrik enerjisi və s. dəstəyi alan Ermənistan Azərbaycanın 20 faizə qədər torpaqlarını işğal edərək, 30 ilə yaxın "sülh danışıqları" imitasiyası yaratdı. BMT-nin işğalı pisləyən və ermənilərin Azərbaycan torpaqlarından çıxmasını tələb edən dörd qətnaməsi Ermənistan tərəfindən icra edilmədi. Eyni zamanda, beynəlxalq təşkilatlar və aktorlar da Ermənistana qarşı sanksiya və digər təzyiqlər göstərərək qətnamələrin icrasını tələb etmirdilər.

"Azərbaycan beynəlxalq hüququn, BMT Nizamnaməsinin verdiyi imkanlardan istifadə edərək 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə işğal altında olan torpaqlarını azad etdi. Bütün bunlar da onu göstərir ki, ədalət, beynəlxalq hüquq güclə təmin olunur. Bu gün regionda Azərbaycan siyasi, iqtisadi və hərbi gücə malikdir. Azərbaycan dövləti və xalqı bütün dünyaya sübut etdi ki, ərazisində separatizmin davam etməsinə imkan verməyəcək. Dövlətimiz bütün bu imkanlara malik olmasına baxmayaraq, regionda sülhün yaranmasında, çoxillik münaqişənin bitməsində maraqlıdır. Ona görə sülh danışıqlarını davam etdirir və ərazisində yaşayan erməni əsilli şəxslərin reinteqrasiyasına çalışır. Ermənistanın "humanitar" şousunun əksinə olaraq, erməni əsilli şəxslərin ehtiyaclarını təmin etməyə hazır olduğunu bildirir. Amma təəssüflər olsun ki, qarşı tərəf yenə yalan və saxta ittihamlarla çıxış edərək ölkəmizə qarşı beynəlxalq təzyiq formalaşdırmağa çalışır. Ərazimizdə separatizmin davam etməsində maraqlı olan Fransa, Rusiya və İranın dəstəyi ilə ermənilər yenidən təşkilatlanaraq, münaqişəni alovlandırmağa nail olmaq istəyirlər. Amma anlamırlar ki, daha hay-küy salmaqla reallığı dəyişə, diplomatiyanı və hərbi gücü üstələyə bilməzlər. Laçın dövlət sərhədindən buraxılış məntəqəsi qurmaq, orada keçid rejimi müəyyən etmək və tənzimləmək Azərbaycanın müstəsna hüququdur. Buna görə də dövlətimiz kimdənsə icazə almayaraq tədbirlər görməyə davam edir. Belə hallar ölkəmizin "sərhəd keçid rejimini" tənzimləyən daxili qanunvericiliyi ilə təmin edilir. Ona görə Azərbaycanın Ermənistandan gələn yüklərin və nəqliyyat vasitələrinin haradan keçməsinə icazə verməsini kimləsə müzakirə etmək fikri yoxdur. Əgər vəziyyət həqiqətən Ermənistanın bildirdiyi kimi "təhlükəli" həddədirsə, o zaman alternativ yoldan imtina etməməlidirlər",-deyə politoloq bildirib.

Y.Hacızadə əlavə edib ki, Ermənistanın BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxardığı "məsələyə" görə dəstək ala bilməməsi Azərbaycan dövlətinin, diplomatiyasının və hərbi gücünün nəticəsidir. Azərbaycan hansısa dövlətin və beynəlxalq təşkilatın bəyanatından və qərarından asılı olmayaraq öz ərazisində separatizmin kökün kəsmək, ərazi bütövlüyünü təmin etmək gücündədir və bu istiqamətdə qarşısına qoyduğu məqsədə çatacaq.

Ermənistanın belə ziqzaqvari siyasi gedişi mümkün sülh variantlarını tükəndirməyə aparır. Ermənilər oturduğu budağı yenə baltalamaqla məşğuldurlar. Ermənistanın "Qarabağ Ermənistandır" və ya "yeni müharibə, yeni torpaqlar" iddiasının nəticələrini tez unutması "Dəmir yumruğun" yenidən hərəkətə keçməsi ilə nəticələnə bilər.

**AZƏRTAC**
**2023, 17 avqust**

## Azərbaycan XİN Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı (BMT TŞ) müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN Ermənistan baş nazirinin çıxışında müzakirə və bəyanatları təhrif etməsini Ermənistanın növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmədiyi kimi şərh edib.

Bildirilir ki, bölgədə "humanitar vəziyyət" barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam-Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi qarşı tərəfin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Məlumatda deyilir: "Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. Eyni zamanda, üzv dövlətlərin Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının nəzərə alınmasının zəruri olduğunu bildirmələri, bu narahatlarıqların həlli istiqamətində səylərin birləşdirilməsinin vacib olduğunu bir daha xatırladır. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya ölkəmiz tərəfindən erməni sakinlərə qarşı ataş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi "etnik təmizləmədə" təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

**AZƏRTAC**
**2023, 17 avqust**

**Vüqar Rəhimzadə: BMT-dən Fransa və Ermənistana növbəti zərbə**

BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr Azərbaycanın diplomatik qələbəsi oldu

Bakı, 17 avqust, AZƏRTAC

Hazırda günümüzün əsas müzakirə mövzusu avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycanın Qarabağ bölgəsinin ermənilərin yaşadığı hissəsinin Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi və ölkəmizin növbəti diplomatik uğurudur. Ermənistan yenə də ona havadarlıq edən dövlətlərin dəstəyinə arxalanaraq BMT Təhlükəsizlik Şurasına müraciət etdi və daim ədalətin, beynəlxalq hüququn yanında olan Azərbaycanın diplomatik gücünün bir daha şahidinə çevrildi. Onu da qeyd edək ki, bu, Fransa və Ermənistanın növbəti iflasıdır. Belə ki, ötən ilin dekabrında da sözügedən məsələnin BMT Təhlükəsizlik Şurasında qaldırılmasına cəhd göstərilsə də, nəticəsiz qalmışdı. Təbii ki, Ermənistanın bu əsassız təbliğatları, yalanları, beynəlxalq ictimaiyyətin diqqətini məsələnin əsl mahiyyətindən yayındırmaq cəhdləri bizə 30 illik işğal dövrünün reallıqlarını yada salmağa çağırış edir. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz yeni reallıq yaratsa da keçmişdə yaşananlar, eyni zamanda, dünyada ədalət və beynəlxalq hüquq prinsiplərinin hansı şəkildə tətbiq edildiyi və qorunduğu unudulmur. İşğalçını adı ilə çağırmağın bəzi güclər üçün nə qədər "çətin" olmasına baxmayaraq, Ermənistana hərtərəfli dəstək belə qənaət yaradırdı ki, sanki təcavüzkarı müdafiə etmək beynəlxalq hüququn prinsipidir. Amma Azərbaycan keçmişdə qalan Qarabağ münaqişəsinin həllində vacib amillərdən bəhs edərkən beynəlxalq dəstəyi önə çəksə də bununla kifayətlənmədi, əksinə, daxildə daha da möhkəmləndi və tarixi ədaləti öz gücünə bərpa etdi.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

Vüqar Rəhimzadə diqqəti Azərbaycan Xarici İşlər Nazirliyinin BMT-də aparılan müzakirələrlə bağlı bəyanatına yönəldərək vurğulayıb ki, Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Belə bir ali orqanı Ermənistanın bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. Bəyanatda, həmçinin bildirilir ki, Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülhün və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır. Bir daha təsdiq edildi ki, belə müzakirələrə ehtiyac yox idi. Məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyünə hörmət ifadə edildi və Ağdam yolunun açılması vacib sayıldı. Ən əsası Azərbaycanın yerində vəziyyətə nəzarət etməsi faktı qəbul edildi. Sual olunur: Ermənistan bundan sonra sülhdən necə danışacaq? Azərbaycanın irəli sürdüyü sülh təklifi beynəlxalq hüququn 5 əsas prinsipini özündə ehtiva edir ki, onların sırasında ərazi bütövlüyünün tanınması əsas şərtlərdəndir. Ermənistan sülh müqaviləsinin imzalanması ilə bağlı keçirilən görüşlərdə bu prinsipləri dəstəkləsə də Azərbaycan bunun sənəddə qeyd edilməsinə çağırış edir.

YAP Xətai rayon təşkilatının sədri onu da qeyd edib ki, mayası yalan, hiylə və xəyanətlə yoğurulan ermənilər beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq üçün total böhtan və feyklərdən istifadə etsələr də, son nəticədə yalanın həqiqət üzərində qələbəsinin mümkünsüzlüyünün şahidinə çevrilirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının tam iflasıdır. Ermənistanın, erməni diasporunun, ermənipərəst dairələrin səyləri növbəti dəfə nəticəsiz qaldı. Qısa desək, toplaşdılar, söhbətləşdilər və dağılışdılar. Yaşanan bu mənzərə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsində bütün çıxışlarında, xalqa müraciətlərində hər kəsin səbirsizliklə gözlədiyi bu ifadəni bir daha yada saldı: nə oldu, Paşinyan? Ermənistan və ona havadarlıq edən dövlətlər artıq bu reallığı qəbul etmək məcburiyyətindədirlər ki, yalanlarının ayaq tutub yeridiyi zamanlar Birinci Qarabağ müharibəsi dövründə qaldı. Artıq Azərbaycan o dövrün Azərbaycanı deyil. Bu günə qədər ermənipərəst siyasəti ilə diqqətdə olan, ölkəmizin əleyhinə təbliğat aparan bəzi dünya güclərinin də bu gün Qarabağın Azərbaycana məxsus olduğunu söyləmələri Azərbaycanın real faktlara, tarixi həqiqətlərə söykənərək imza atdığı tarixi Zəfərinin təqdimatıdır. Azərbaycan Qarabağın ədalət, milli qürur məsələsi olduğunu döyüş meydanında bir daha işğalçı Ermənistana və onun havadarlarına sübut etdi. Ermənilərin feyk xəbərləri tarixi Zəfərimizlə fiaskoya uğradı. Lakin postmünaqişə dövründə Ermənistanın və onu

dəstəkləyənlərin etdikləri cəhdlərin kökündə sülh müqaviləsinin imzalanması prosesini uzatmaq, müxtəlif bəhanələrlə bu vacib addımı atmaqdan yayınmaq durur. BMT Təhlükəsizlik Şurasına edilən müraciət və qurumun bu məsələ ətrafında apardığı müzakirələr də bu siyasətin tərkib hissəsidir. Müzakirələr Azərbaycanın diplomatik qələbəsi ilə sona çatsa da bu mühüm məqamı qeyd etməliyik ki, dünyada sülhün və təhlükəsizliyin təminatında əhəmiyyətli rola malik olan bir qurum sözsüz ki, belə müzakirələrdən əvvəl araşdırmalara, gündəmə gətirilən məsələnin nə dərəcədə reallığı özündə əks etdirməsinə xüsusi diqqət yetirməlidir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni təkbaşına icra edən Azərbaycan hər addımında ədalətə və beynəlxalq hüquqa söykəndiyini nümayiş etdirir.

Vüqar Rəhimzadə Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin iclasdakı çıxışına diqqəti yönəldərək bildirib ki, qeyd edildiyi kimi, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır. Hadisələrin gedişi bir daha sübut edir ki, Ermənistan məsələni həll etmək niyyətində deyil. Bunun əvəzində beynəlxalq səviyyədə manipulyasiya və çaşqınlıq səylərini davam etdirmək məqsədilə regionda gərginliyi süni şəkildə alovlandırmağa çalışır. Müzakirələrdə bir daha bu reallıq diqqətə çatdırıldı ki, “Laçın dəhlizi” adlanan yol Azərbaycanın suveren ərazisi daxilində nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib. Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etdikdən sonra da bu, olduğu kimi qalır. Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində yaradılıb. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın “Laçın” keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib. Belə bir əminlik də ifadə edildi ki, beynəlxalq ictimaiyyət və ilk növbədə, Təhlükəsizlik Şurası bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi yolu ilə hər iki ölkənin legitim maraqlarına uyğun olaraq, bərabər və qarşılıqlı hörmətə əsaslanan bu yanaşmanı dəstəkləyəcək. Beynəlxalq hüquq da, ədalət də Azərbaycanın tərəfindədir.

**AZƏRTAC**
**2023, 17 avqust**

**Rəşad Mahmudov: Ermənistan diplomatik masada növbəti dəfə şok yaşadı**

BMT Təhlükəsizlik Şurasının iclasında növbəti şou yaratmaq cəhdi uğursuzluqla nəticələnən Ermənistan bu dəfə də diplomatik masada şok yaşadı. Ermənistanın xarici işlər nazirinin ölkəmizə qarşı səsləndirdiyi həqiqətdən kənar, qərəzli fikirlər marionet ölkənin növbəti beynəlxalq fiaskosu ilə yadda qaldı.

Bu fikirləri Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Rəşad Mahmudov AZƏRTAC-a açıqlamasında deyib.

Deputat bildirib ki, Azərbaycana qarşı gülünc ittihamlarla dolu qarayaxma kampaniyası çərçivəsində Ararat Mirzoyan ölkəmizi “humanitar fəlakət” yaratmaqda və bunun fonunda Xankəndidə guya ərzaq böhranına görə ölüm hallarının qeydə alınması kimi həqiqətə uyğun olmayan ittihamları ermənisayağı yazıqlıq donuna bürünərək səsləndirdi. Əvvəla, Mirzoyanın çıxışı tam böhtan və yalan üzərində qurulmuşdu. İkincisi, “humanitar fəlakət” Xankəndidə yaşayan ermənilər üçün xarakterik deyil, əsl humanitar fəlakət Ermənistanın bütün ərazisində yaşanır. İşsizlik, əhalinin sosial durumunun acınacaqlı olması, ərzaq məhsullarının gündən-günə bahalaşması, inflyasiyanın artması fəlakət deyilmi? Statistika da vəziyyətin dəhşətli olduğunu göstərir, vətəndaşlar ölkədə hökm sürən bu ağır durumla əlaqədar Ermənistanı kütləvi şəkildə tərk edirlər və bu proses hazırda daha geniş miqyas alıb. Sual yaranır: Bunları da Azərbaycan yaradır? Qurumaqda olan gölə bənzəyən Ermənistanın siyasi rəhbərliyi bütün uğursuzluqlardan çıxış yolu kimi Azərbaycanı ittiham etməyə çalışır, xalqını və beynəlxalq ictimaiyyəti aldatmaqla özünə bəraət qazanmaq istəyir. Bu amil bölgədə davamlı sülhün əldə olunması istiqamətində ciddi səylərin göstərildiyi bir vaxtda Ermənistanın atdığı destruktiv addımlarda da açıq şəkildə görünür. Bu baxımdan Ermənistanın sülh gündəliyinə sadiq olmaması və beynəlxalq tribunalarda Azərbaycanı şantaj etməyə çalışması BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə daha qabarıq görünürdü. Azərbaycan tərəfinin tutarlı və dəqiq arqumentləri Ermənistanın “humanitar böhran”, “blokada” kimi növbəti siyasi manipulyasiya cəhdini iflasa uğratdı.

“BMT Təhlükəsizlik Şurasının iclasında Laçın-Xankəndi yolunun “bağlanması”ndan sonra yaranmış “humanitar böhran”la bağlı müzakirələrdə Ermənistan növbəti dəfə məğlub oldu və müzakirələr Azərbaycanın diplomatik qələbəsi ilə başa çatdı. Beləliklə, Vətən müharibəsində olduğu kimi, diplomatik masada da qalib Prezident İlham Əliyevin lideri olduğu Azərbaycandır. Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sistemində yürütdüyü mükəmməl siyasi kurs ölkəmizin diplomatik uğurunun təminatına çevrilib. Bu təminatla Azərbaycanın beynəlxalq aləmdə üstün mövqeyi ilə seçilir, ölkəmizin qlobal nüfuzu gündən-günə artır”, - deyə deputat bildirib.

**AZƏRTAC**
**2023, 17 avqust**

**Ermənilərin "humanitar böhran" ssenarisi Nyu-Yorkda iflasa uğradı - QHT sədri**

Ermənistan və onun havadarları BMT Təhlükəsizlik Şurasında (TŞ) müzakirələr açmaqla "humanitar böhran" kampaniyası apardılar. Ermənistanın Laçın istiqamətində "yardım karvanı" şousu BMT TŞ üçün hazırlanmış ssenarinin başlanğıcı idi. Əlbəttə, bu ssenaridə Ermənistanı əsas dəstəkləyən Fransa idi. Ermənistan saxta "humanitar böhran" müzakirəsini Təhlükəsizlik Şurasına daşıya bilsə də, heç bir nəticəyə nail olmadı. Birincisi, regionda humanitar böhran ilə bağlı deyilənlərin heç bir siyasi və real səbəbi yoxdur. Azərbaycan Qarabağdakı erməni əsilli vətəndaşlara humanitar yardım göstərməyi təklif edir. İkinci məqam isə ondan ibarədir ki, rəsmi Bakı humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunun açıq olduğunu bildirir.

Bu sözləri "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" ictimai birliyinin sədri Cəsarət Hüseynzadə AZƏRTAC-a açıqlamasında söyləyib.

QHT sədri bildirib ki, Qarabağda yaşayan erməni sakinlərin (bunların böyük bir qismi də qeyri-qanunu hərbi birləşmələrin nümayəndələridir) humanitar ehtiyacları varsa, niyə bu imkanlardan imtina edir və yolları bağlayırlar? Əlbəttə ki, bu həqiqətlər göz qabağındadır və ədalət Azərbaycanın tərəfindədir. Amma BMT Təhlükəsizlik Şurasının 15 üzvü ilə iş aparmaq da vacib idi: "Məhz BMT TŞ-nın son iclasında Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan diplomatiyasının növbəti qələbəsinin şahidi olduq. Bir çox dövlətlərin nümayəndələrinin çıxışında dəmir yollarının açılması, alternativ yolların vacibliyi xüsusi vurğulandı. Bu vacib tezislər son dövrlər regionla bağlı olan əsl reallıqları əks etdirir. Bu tezislərin Braziliya, Albaniya və digər ölkələr tərəfindən açıq şəkildə səsləndirilməsi Azərbaycan diplomatiyasının apardığı uğurlu siyasi fəaliyyətin nəticəsidir. BMT Təhlükəsizlik Şurasının iclasının əsas xəttinin ərazi bütövlüyü, suverenlik kimi çox vacib prinsiplər üzərində qurulması da, Azərbaycanın mövqeyinin müdafiəsi kimi qiymətləndirilməlidir", - deyə o vurğulayıb.

C.Hüseynzadə əlavə edib ki, Ermənistanın BMT TŞ-nin iclasında xarici işlər naziri səviyyəsində iştirakı əslində ermənilərin bu iclasdan böyük gözləntilərinin olduğunu göstərirdi. Onlar ən pis halda Təhlükəsizlik Şurasının Azərbaycana qarşı bəyanatını gözləyirdilər. Ermənistanın bu arzusu da puç oldu, onların "humanitar böhran" ssenarisi Nyu-Yorkda iflasa uğradı.

**AZƏRTAC**
**2023, 17 avqust**

**BMT TŞ-də Ermənistanın fiaskosu və Azərbaycanın əldə etdiyi 5 mühüm nəticə - Təhlil**

Bildiyimiz kimi, avqustun 16-da BMT Təhlükəsizlik Şurası (TŞ) İrəvanın təklifi ilə Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin guya “bağlanmasından” sonra yaranmış “humanitar böhranı”n müzakirəsi üçün təcili iclas keçirdi.

Ermənistanın xarici işlər naziri Ararat Mirozyan iclasda şəxsən iştirak edərək, bütün artistlik və böhtan atmaq bacarığını ortaya qoysa da bu ölkə nəinki gözlədiyini əldə edə bilmədi, əksinə, sözün əsl mənasında diplomatik fiaskoya uğradı. Ən vacibi isə “humanitar fəlakət”, ”soyqırımı” və ”etnik təmizləmə” kimi uydurduğu yalanlar dünyanın ən mötəbər qurumunda tam olaraq ifşa edildi.

Başqa sözlə desək, Ermənistan bu müzakirələrdən heç bir siyasi dividend qazana bilmədi. İclasda Ermənistan üçün ən təsəlliverici hal o oldu ki, bir sıra çıxışçılar Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 22 fevral Laçın yolu ilə bağlı verdiyi qərara əməl etməyin, yəni, Azərbaycanın əlində olan imkanlardan istifadə edərək yolun maneəsiz və təhlükəsiz şəkildə humanitar məqsədlərlə istifadə olunmasını təmin etməyinin vacibliyini bildirdilər. Bu da yeni bir məsələ deyil və Azərbaycan cari il aprelin 23-də Laçın yolunda quraşdırdığı sərhəd-buraxılış məntəqəsi ilə bu yoldan maneəsiz və təhlükəsiz keçidi təmin etmişdi (o başqa məsələ ki, Ermənistanın məlum hərbi təxribatı nəticəsində yolun iş rejimində müəyyən dəyişikliyin yaranması zərurəti meydana gəldi).

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Azay Quliyev söyləyib

Deputat sözlərinə görə, Azərbaycan həm daxildə, həm də BMT çərçivəsində çevik, uğurlu diplomatik və siyasi həmlələr edərək Təhlükəsizlik Şurasında Ermənistanın təşəbbüsü ilə keçirilən iclasın gedişini və nəticəsini öz xeyrinə dəyişə bildi. Belə ki, ölkəmizin postmünaqişə ilə bağlı gündəliyində olan aktual məsələlərin TŞ üzvləri tərəfindən səsləndirilməsi və bu işlərin BMT-nin iclasın yekununa dair yaydığı məlumata daxil edilməsi Azərbaycan diplomatiyasının çox ciddi uğuru və əldə etdiyi mühüm nəticədir.

Bu nəticələri 5 istiqamətdə qruplaşdırmaq olar:

Birinci nəticə - Qarabağda yaşayan ermənilərin gündəlik ehtiyaclarını qarşılamaq üçün humanitar yardımların Ağdam-Xankəndi marşrutu üzrə həyata keçirilməsi haqqında Azərbaycanın təklifi (Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin 2023-cü il iyulun 15-dəki müvafiq bəyanatından sonra) ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının üzvləri tərəfindən dəstəkləndi. Bu o deməkdir ki, Ermənistanın Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin "Qarabağ erməniləri üçün yeganə həyat və dünyaya çıxış yolu” olması ilə bağlı indiyə kimi təşkil etdiyi siyasi şou və böhtan kampaniyası iflasa uğradı. Əminəm ki, Ermənistanın bu mövzunu bundan sonra manipulyasiya etməsi o qədər də asan olmayacaq.

İkinci nəticə - “Humanitar yardımların siyasiləşdirilməsinin yolverilməz olduğu” haqqında TŞ üzvlərinin ümumi mövqeyini qeyd etmək lazımdır. Məlumdur ki, son iki ildə Azərbaycan Qarabağ ermənilərinə birbaşa humanitar yardımların daha tez və təhlükəsiz formada çatdırılması üçün ən münasib marşrutlar təklif edir. Bu təklifləri Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) və Rusiya sülhməramlıları dəstəkləsə də, Ermənistan və Qarabağ erməniləri bunu siyasi motivlərlə rədd etdilər. Bundan başqa, humanitar yardım məsələsini qəsdən siyasiləşdirən Ermənistan “soyqırımı”, “etnik təmizləmə” və “blokada” kimi yalanları uyduraraq bunlardan Azərbaycana qarşı siyasi məqsədlər üçün istifadə etməyə çalışır. Rəsmi İrəvanın Okampo kimi siyasi dələduzları “soyqırımı” oyununa alət edərək dünyanı aldatmaq cəhdi bunun ən yaxşı nümunələrindən biridir. Bu baxımdan, BMT TŞ-nin “humanitar yardımların siyasiləşdirilməsinə yol verilməməlidir” mesajının birbaşa ünvanı olan Ermənistan bundan sonra humanitar məsələlərə yönəlik siyasi möhtəkirliyə və manipulyasiyalara son qoymalıdır.

Üçüncü nəticə - Azərbaycanın Qarabağ ermənilərinin reinteqrasiya prosesini sürətləndirmək məqsədilə onlara birbaşa dialoq təklifi TŞ-nin iclasında bir sıra çıxışçılar tərəfindən qeyd olundu. Bilirik ki, Ermənistan Bakı ilə Xankəndi arasında birbaşa dialoqa qarşı çıxır və bu istiqamətdə beynəlxalq mexanizmin yaradılmasını təklif edir. Lakin Təhlükəsizlik Şurasının iclasında Ermənistanın bu absurd təklifi haqqında bir kəlmə də deyilmədi, əksinə Bakının Xankəndi ilə birbaşa dialoqunun vacibliyi qeyd edildi ki, bu da Azərbaycanın rəsmi mövqeyi ilə üst-üstə düşür.

Dördüncü nəticə Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyinə zəmanətin verilməsi məsələsi ilə bağlıdır. Azərbaycanın mövqeyi bu mövzuda da tam olaraq dəstəkləndi və bildirildi ki, bölgədə qalıcı sülhə və təhlükəsizliyə nail olmaq üçün Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyinin təminatı Azərbaycanın qanunları çərçivəsində olmalıdır. Belə bir prinsipial mövqeyin ilk dəfə olaraq BMT TŞ-də səsləndirilməsinin çox böyük siyasi əhəmiyyəti var və bu cür yanaşma Qarabağ ermənilərinin reinteqrasiya prosesini tezliklə başlamağa qərarlı olan rəsmi Bakının mövqeyini daha da gücləndirəcək.

Beşinci nəticə - Azərbaycanın irəli sürdüyü sülh gündəliyi dəstəkləndi. Belə ki, TŞ-nin əksər üzvləri Ermənistanla Azərbaycan arasında dövlətlərarası münasibətlərin ərazi bütövlüyü və suverenlik prinsipinə hörmət əsasında və tezliklə tənzimlənməsinin və sülh sazişinin imzalanmasının vacibliyini qeyd etdilər. Bir çox çıxışlarda sərhədlərin delimitasiya və demarkasiya olunmasını, kommunikasiya xətlərinin açılmasını sülh prosesinin ayrılmaz hissəsi kimi qiymətləndirdilər. Bütün bunların hamısı Azərbaycanın son iki ildə təşviq etdiyi, Ermənistanın isə hər vəchlə mane olduğu məsələlərdir. Heç şübhəsiz ki, bu çağırışlar sülh sazişinin imzalanmasını süni şəkildə yubadan Ermənistana ünvanlanmışdı.

Bu nəticələrdən göründüyü kimi, Ermənistanın dünyada ən mötəbər qurum hesab edilən BMT TŞ-ni öz siyasi məqsədləri üçün istifadə etmək cəhdi tam iflasa uğradı, ermənilərin “miatsum” və ya “bəlkə nəsə dəyişdi” illüziyaları bu dəfə BMT-də dəfn edildi.

**AZƏRTAC**
**2023, 18 avqust**

**Tahir Mirkişili: Diplomatik müharibədə Ermənistana növbəti zərbəni vurduq**

Ötən gün BMT Təhlükəsizlik Şurasında (TŞ) Ermənistanın təşəbbüsü ilə "Qarabağ ermənilərinin durumu"na dair aparılan müzakirələr Azərbaycanın diplomatiya tarixinə növbəti uğur kimi düşdü. Həm Azərbaycanın BMT-dəki nümayəndəliyinin, həm də ümumiyyətlə, xarici siyasəti həyata keçirən qurumların bu günə qədər apardıqları fəaliyyət, peşəkarlıq ötən gün öz nəticəsini verdi. Müzakirələr BMT TŞ-də təmsil olunan ölkələrin əksəriyyətinin Azərbaycanın suverenliyinə, müstəqilliyinə hörmətlə yanaşdıqlarını göstərdi. Həmin ölkələrin nümayəndələri öz çıxışları ilə təkcə Azərbaycana dəstək vermədilər, həm də ədaləti, haqqı, beynəlxalq hüququ müdafiə etdilər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili söyləyib.

Onun sözlərinə görə, Azərbaycan Prezidentinin apardığı uğurlu xarici siyasət dostlarımızın sayının artması ilə nəticələnir. Bu gün uğurlu xarici siyasətin əhəmiyyətini, bəhrəsini görürük. Təhlükəsizlik Şurasının iclası göstərdi ki, biz təkcə Ermənistanla deyil, onun himayədarları ilə də mübarizə aparırıq. Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında çıxışı zamanı BMT TŞ-dakı müzakirələri qələbə kimi ermənilərə təqdim etdi. Təbii ki, N.Paşinyanın yalan danışmaq, öz xalqını aldatmaq kimi qeyri-adi bacarıqları var. Sözdə ölkəmizin ərazi bütövlüyünü tanıyan Nikol Paşinyan əslində Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycana reinteqrasiya siyasətinə qarşı çıxır. Ermənistanın baş naziri və ətrafı tez-tez Azərbaycanı “etnik təmizləmə”də ittiham edir. Əlbəttə ki, bütün bu yalanlar beynəlxalq ictimaiyyəti çaşdırmaq, ölkəmizi gözdən salmaq məqsədi güdür. N.Paşinyan bölgədə sülhün və sabitliyin təmin olunmasını istəyirsə, BMT Təhlükəsizlik Şurasına, Avropa Ədalət Məhkəməsinə deyil, Azərbaycana müraciət etməli, rəsmi Bakının 5 bəndlik sülh təklifinə “hə” deməlidir. Azərbaycanla birbaşa konstruktiv danışıqlar aparmaqla sülh və sabitlik əldə etmək mümkündür.

Ermənistanın ardıcıl şəkildə məğlubiyyət yaşamasının günahının onların siyasi rəhbərliyində olduğunu diqqətə çatdıran T.Mirkişili deyib: “Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan Ermənistan BMT-nin qətnamələrini belə kağız parçası kimi kənara atdı, beynəlxalq çağırışlara qulaq asmadı, heç bir sözə, vədə əməl etmədi. Beynəlxalq ictimaiyyət onların bu ədalətsizliyinə illərlə göz yumdu. Dünyada müəyyən qüvvələr indi də ermənilərin hay-küylərini ciddiyə alır, onlara inanırlar. BMT Təhlükəsizlik Şurasında Qarabağdakı ermənilərlə bağlı iclasın çağırılmasının özü İrəvanın beynəlxalq müstəvidə Azərbaycana qarşı apardığı siyasi-şounun, qarayaxmanın nəticəsində mümkün oldu. Amma biz onların çirkin siyasi-diplomatik kampaniyalarını özlərinə qarşı çevirdik, beynəlxalq tribunada erməni yalanlarını ifşa etdik. Ermənistan üzərində hərbi qələbəmiz tamamlansa da, diplomatik müharibəmiz davam edir. Biz bu istiqamətdə də nəzərəçarpacaq qədər böyük qələbələr qazanırıq. Azərbaycan tərəfi Ermənistanın saxta iddialarına və anti-Azərbaycan qüvvələrinə tutarlı cavablar verdi. Bütün bunlar onu göstərir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibə meydanında olduğu kimi, diplomatiyada da qazanılacaq qələbə formulunu dəqiqliklə düşünüb. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi siyasi və diplomatik qələbələrimizdə mühüm rol oynadı”.

Qarabağın dağlıq hissəsində baş verənlərin Azərbaycanın daxili işi olduğunu vurğulayan deputat əlavə edib: “Qarabağdakı ermənilər bizim sakinlərdir. Biz onlara humanitar yardım göstərməyə hazırıq. Bərdə-Ağdam-Xankəndi yolu humanitar yüklərin daşınmasına tam hazırdır. Aclıqdan, ərzaq böhranından əziyyət çəkənlər Bakının göndərdiyi humanitar yardımları qəbul etməlidir. Qarabağda yaşayan ermənilərin də bir çıxış yolu var: Silahlı yerə qoymaq, Azərbaycanın qanunlarına tabe olmaq”.

**AZƏRTAC**
**2023, 18 avqust**

**BMT TŞ-nin Ermənistan və Fransanın ittihamlarını qəbul etməməsi Azərbaycan diplomatiyasının növbəti uğurudur**

Avqustun 16-da keçirilən BMT Təhlükəsizlik Şurasının (TŞ) təcili iclasında Ermənistanın və Fransanın Azərbaycana qarşı yönəlmiş növbəti cəhdi iflasa uğradı. Belə ki, Fransaya arxalanaraq Laçın yolu ilə bağlı məsələni təcili müzakirəyə çıxaran Ermənistanın Azərbaycanın suveren ərazilərinə müdaxilə etmək niyyətinə beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə başqa don geyindirmək cəhdi nəticəsiz qaldı. Bütün bunlar Ermənistanın hələ də 1988-ci ilin ab-havasından kənara çıxmadığını və öz havadarlarına söykənərək çirkin niyyətlərini davam etdirməyin mümkünlüyünə inandığını göstərir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

O qeyd edib ki, Ermənistan özü BMT TŞ-nin qətnamələrini 30 ildə ayaq altına ataraq heç vaxt məhəl qoymayıb. BMT TŞ bu il avqustun 2-nə kimi 2 min 694 qətnamə qəbul edib və onların böyük əksəriyyəti erməni silahlı birləşmələrinin tam, qeyd-şərtsiz və dərhal Azərbaycanın ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı məlum qətnamələri kimi icra edilməyib. Azərbaycan BMT TŞ-nin qətnamələrini döyüş meydanında təkbaşına icra etməklə beynəlxalq hüququn tələblərinə sadiqliyini bir daha sübut edib. Amma bu qətnamələrin biri, yəni Ermənistan silahlılarının Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması ilə bağlı məsələ təəssüf ki, hələ də icra edilməyərək qalmaqdadır. Belə ki, Ermənistanın 10 minə yaxın silahlısının bu gün də sülhməramlıların müvəqqəti dislokasiya olunduğu ərazilərimizdə qalması TŞ-nin qətnamələrinə hörmətsizlikdir. Ermənistanın BMT TŞ-nin qətnamələrinə 30 ildə əməl etmədiyi halda həmin təşkilata hansı üzlə müraciət etdiyi sual altındadır. Azərbaycan torpaqlarını işğal edib azərbaycanlılara qarşı soyqırımları törədərək öz doğma yurdlarından qovanda, yaşayış məntəqələrimizi, dini və mədəni abidələrimizi yerlə-yeksan edəndə, işğal etdikləri ərazilərimizdə ekoloji terrorlar törədəndə, yeraltı və yerüstü milli sərvətlərimiz talanıb aparılanda Ermənistan bu günün gələcəyini niyə düşünmədi? İşğaldan azad olunmuş ərazilərdə qazıntı işləri aparılan zaman aşkarlanan kütləvi məzarlıqlarda azərbaycanlıların insanlığa xas olmayan vəhşi işgəncələrlə qətlə yetirilərək basdırılması faktlarının şahidi oluruq. Onlar belə qəddar əməllər törədərkən bu günün gələcəyini bilmirdilərmi? O cümlədən Şuşada 17 azərbaycanlıya qarşı vəhşilik edərək tullantı sularının axıdıldığı quyuya atanda bir gün haqsızlıqların yerdə qalmayacağını və onların beynəlxalq təşkilatlardan imdad diləncəklərini bilmirdilərmi? Bütün bu faktlarla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən cinayət işləri açılıb. Mülki insanlara qarşı törədilmiş erməni cinayətləri ilə bağlı beynəlxalq təşkilatlar məlumatlandırılacaq. Qarabağda yaşayan 25-30 min erməninin humanitar böhranla qarşılaması ilə bağlı BMT səviyyəsində saxta ittihamlar qaldıran Ermənistan niyə 1990-cı illərdən itkin düşmüş və girovluqda hesab olunan 4 min azərbaycanlının taleyi ilə bağlı məlumat vermir? Ermənistan TŞ-də Laçın yolunun bağlanması ilə bağlı saxta ittihamı irəli sürəndə 33 il blokadada saxlanılan Naxçıvandakı 500 min azərbaycanlı haqqında heç düşündümü? Bəli, Ermənistana və onun böyük bacısı Fransaya suallarımız çoxdur. Lakin onlar bilməlidirlər ki, bugünkü Azərbaycan heç də 1990-cı illərin əvvəlindəki ölkə deyil. Bu gün Azərbaycan dövləti güclüdür, heç kimdən asılılığı yoxdur, öz suveren hüquqlarını beynəlxalq səviyyədə qoruya bilir, ərazi bütövlüyünü təmin edərək öz müstəqilliyini möhkəmləndirib. Bundan sonra heç kim iradəmizə qarşı gedə və bizi öz haqq yolumuzdan döndərə bilməz".

Azərbaycanın beynəlxalq hüquqa hörmətlə yanaşdığını və Qarabağda yaşayan erməniləri öz vətəndaşları hesab etdiyini deyən A.Badamov buna görə də dövlətimizin Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyası siyasətini həyata keçirdiyini diqqətə çatdırıb. Bildirilib ki, həmin sakinlərin Azərbaycan Konstitusiyasında və ölkəmizin imza atdığı müvafiq beynəlxalq insan hüquqları mexanizmlərində nəzərdə tutulmuş bütün hüquq və azadlıqlarına zəmanət verilir. O cümlədən Azərbaycan Qarabağda yaşayan ermənilərin humanitar məsələlərini özü həll etməyə hazır olduğunu dəfələrlə bəyan edib. Ermənistan isə Qarabağdakı separatçıların əli ilə özləri-özlərinin yollarını beton piltələr qoymaqla bloklayıb.

"Əgər Qarabağdakı ermənilər blokadaya alınıblarsa, bunu Azərbaycan deyil, özləri ediblər. Ermənistan Laçın yolunun bağlanması ilə bağlı saxta məlumatlarla beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir. Lakin BMT Təhlükəsizlik Şurası humanitar məsələləri siyasiləşdirməməyə və mümkün bütün yollardan istifadə olunmasına çağırış edib. Bəli, Azərbaycanın təklif etdiyi Ağdam–Xankəndi, Füzuli-Şuşa-Xankəndi və digər yollar vasitəsilə Qarabağ ermənilərinin təchizatı və təminatı davam etdirilə bilər. Bu gün ermənilərin Azərbaycanın təklif etdiyi yollardan istifadə etməməsi Xankəndidə heç bir qıtlığın olmadığını göstərir. Onların ehtiyaclarını ödəmək üçün yardıma və təminatlara ehtiyac yaranacağı təqdirdə

Azərbaycana müraciət edə bilərlər. BMT TŞ Azərbaycanın suveren hüquqlarını üstün tutaraq Ermənistan və Fransanın ittihamlarını qəbul etmədi. Bunu Azərbaycan diplomatiyasının növbəti uğuru, haqq işimizin qələbəsi hesab edirəm.

Qarabağda yaşayan ermənilərin reinteqrasiya olunmaqdan başqa çıxış yolu yoxdur. Azərbaycan Qarabağ ermənilərinə reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Bakıda və daha sonra Yevlaxda görüş təklif etdi. Qarabağdakı ermənilər əvvəl razılaşsalar da, sonradan Ermənistanın müdaxiləsi ilə görüş baş tutmadı. Amma onlar bilməlidirlər ki, Azərbaycan Xankəndidə Konstitusiya quruluşunun bərpasında israrlıdır. Bunu sülh yolu ilə etmək mümkün olmazsa, gücün tətbiq edilməsi qaçılmazdır", - deyən A.Badamov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 18 avqust**

**Keniya Milli Assambleyasının spikeri Ermənistanın sülh prosesinə törətdiyi maneələr barədə məlumatlandırılıb**

Azərbaycanın Keniya Respublikasındakı səfiri Sultan Hacıyev Keniyanın Milli Assambleyasının spikeri Moses Vetangulu ilə görüşüb.

AZƏRTAC səfirliyə istinadla xəbər verir ki, Keniyada fəaliyyətinə yeni başlamış ilk Azərbaycan səfiri ilə görüşdə spiker Moses Vetangulu ölkələrimiz arasında əməkdaşlıq üçün əlverişli olan sahələrdən danışıb, Keniyanın xarici işlər naziri olduğu zaman regionumuzla tanışlığını, habelə 1970-ci illərin sonunda Bakıya etdiyi səfərini məmnunluqla xatırlayıb.

Azərbaycanın müstəqilliyini bərqərar edəndən sonra Ermənistanın təcavüzkar siyasəti ucbatından minlərlə vətəndaşının qətlə yetirildiyini və itkin düşdüyünü, yüz minlərlə dinc sakininin doğma yurdlarından didərgin salındığını, şəhər və kəndlərinin yerlə-yeksan olunduğunu qeyd edən səfir 2020-ci ilin sentyabr müharibəsindən sonra torpaqlarımızın işğaldan azad edildiyi barədə məlumat verib.

Azərbaycanın minalarla ən çirklənmiş ölkələrdən biri olduğunu diqqətə çatdıran səfir həm minatəmizləmə, həm də bərpa və yenidənqurma işləri haqqında ətraflı məlumat verib.

Ermənistanın müxtəlif bəhanələrinin, o cümlədən süni şəkildə ortalığa atılmış Laçın yolu ətrafında dırnaqarası böhran haqqında iddialarının sülh prosesinə törətdiyi maneələr diqqətə çatdırılıb.

Spiker ölkəmizin Qoşulmama Hərəkatında sədrliyi müddətində əldə etdiyi nailiyyətlərini xüsusi olaraq qeyd edib. Hərəkatın müasir dünyada mühüm rolundan danışan qarşı tərəf parlament diplomatiyasının əhəmiyyəti və bu müstəvidə Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin xüsusi əhəmiyyətindən söhbət açıb.

Ölkələr arasında qarşılıqlı dostluq və səmərəli əməkdaşlığın daha da inkişaf etdirilməsi və bu prosesdə həm ikitərəfli, həm də regional və qlobal platformaların fəal istifadəsi istiqamətində addımlar müzakirə edilib.

**AZƏRTAC**
**2023, 18 avqust**

## Deputat: Ermənistan diplomatiyası tam iflası ilə diqqət mərkəzindədir

Dövlətimizin başçısı İlham Əliyev işğal dövründə ən yüksək tribunalardan, o cümlədən BMT Baş Assambleyasının iclaslarında, illik ümumi müzakirələrdə belə bir çağırış səsləndirdi: "BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var".

Dünyadan 27 il ədalət gözləyən Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində şanlı Qələbəsi ilə həm BMT qətnamələrini təkbaşına yerinə yetirərək həm tarixi ədaləti bərpa etdi, həm də yaratdığı yeni reallıqlarla regionda və dünya siyasətində yenilikləri şərtləndirdi. Üç ilə yaxındır ki, Azərbaycan Ermənistana təklif etdiyi sülh müqaviləsinin imzalanması istiqamətində səylərini artırır, üzərinə düşən öhdəlikləri yüksək səviyyədə yerinə yetirməyə çalışır. Hadisələrin gedişinə diqqət yetirdikdə işğalçı Ermənistanın isə tamamilə fərqli bir yanaşma nümayiş etdirdiyini görürük. Sülh müqaviləsinin imzalanması prosesinin uzadılması üçün cəhdlər göstərən işğalçı Ermənistan hər dəfə məğlubiyyətə uğrasa da yeni ssenarilər hazırlamaqda davam edir. Bu baxımdan bölgədə "humanitar vəziyyətin pisləşməsi" və "davam edən blokada" ilə bağlı əsassız iddialarla əlaqədar BMT Təhlükəsizlik Şurasına müraciəti və bu əsasda keçirilən müzakirələr də Ermənistanın həmin ssenarilərinin tərkib hissəsidir. Ermənistan diplomatiyası tam iflası ilə diqqət mərkəzindədir. Ermənistanın, erməni diasporunun, ermənipərəst dairələrin səyləri nəticəsiz qaldı. BMT Təhlükəsizlik Şurasının erməni yalanlarının ifadəsi olan müraciətə uyğun dərhal müzakirələr keçirməsi dünyada hələ də nəinki mövcud olan, daha da dərinləşən etimadsızlıq mühitinə diqqəti yönəltdi. Qurumun qəbul edəcəyi qərarın səbirsizliklə gözlənilməsi sözsüz ki, ədalət və beynəlxalq hüquq prinsiplərinə hazırkı dövrdə necə yanaşıldığını müəyyənləşdirmək məqsədi daşıdı. Aparılan müzakirələr bir daha təsdiqlədi ki, beynəlxalq hüquq, haqq-ədalət Azərbaycanın tərəfindədir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu daha da artıb, mövqeyi möhkəmlənib. Ermənistanın belə əsassız müraciətlərinə müzakirələrin keçirilməsi ilə dərhal münasibətin bildirilməsi dünyanın ikili standartlara əsaslanan siyasətindən hələ də yaxa qurtara bilmədiyini də nümayiş etdirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Əliabbas Salahzadə bildirib.

O qeyd edib ki, ötən il dekabrın 20-də də Ermənistan oxşar məsələ ilə BMT Təhlükəsizlik Şurasına müraciət etmişdir. Təhlükəsizlik Şurası ermənilərin təklifini müzakirə etsə də irəli sürdüyü iddiaların əsassız olduğu öz təsdiqini tapmışdır. Görünür, işğalçı dövlət bundan nəticə çıxarmadı, ən əsası dərs almadı. Yenidən BMT Təhlükəsizlik Şurasına müraciət etməklə "humanitar vəziyyət", "blokada" şousundan öz çirkin məqsədləri üçün bəhrələnmək cəhdini aydın şəkildə nümayiş etdirdi. Azərbaycan Xarici İşlər Nazirliyinin sözügedən müzakirələrlə bağlı bəyanatında qeyd edildiyi kimi, Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır.

Belə bir müzakirənin aparılacağının gözlənilən olduğunu deyən deputat əlavə edib: "BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil eksperti guya Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı barədə bəyanat qəbul etmişdi. Son dövrdə baş verən hadisələrə diqqət yetirsək görərik ki, Ermənistan sülh müqaviləsinin imzalanması prosesinin uzanması üçün nə dərəcədə cəhdlər edir, ssenarilər hazırlayır. BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrin nəticəsi Ermənistana növbəti dərs oldu. Azərbaycanın ərazi bütövlüyünə hörmət ifadə olundu, Ağdam yolunun açılmasının vacibliyi bildirildi. Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının iclasındakı çıxışında bir daha qeyd etdi ki, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı əslində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır. Məhz Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymadı. Bu

xüsusda, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümündən başqa bir şey deyil və onun Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir".

Ə.Salahzadə belə bir ümumiləşdirməni aparıb ki, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Azərbaycanın diplomatik uğurlarının davamlılığında real faktlara, tarixi həqiqətlərə əsaslanan təbliğatı əhəmiyyətli rol oynayır. Ermənistan illərdir yalanları ilə həqiqət üzərində qələbə çalacağına ümid etsə də daim fakt qarşısında acizdir.

**AZƏRTAC**
**2023, 18 avqust**

**Ermənipərəst dünyanın diplomatik kapitulyasiyası – Təhlil**

Ermənistan və ona havadarlıq edən Fransa kimi dövlətlər yenidən Azərbaycana qarşı BMT Təhlükəsizlik Şurası çərçivəsində qətnamənin qəbul edilməsi ilə bağlı uğursuz addım atdılar. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan təkcə Ermənistanla deyil, bu ölkəyə dəstək göstərən dövlətlərlə, ümumilikdə dünya erməniliyi ilə informasiya cəbhəsində, siyasi, diplomatik, həmçinin hüquqi müstəvidə mübarizə aparır. Haqq və ədalətin tərəfində olduğumuz və qanun çərçivəsində hərəkət etdiyimiz üçün bu istiqamətdə yalnız uğurlar əldə etmişik və uğurlarımız davam edəcək.

Bu fikirlər Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Xəyal Bəşirovun "Ermənipərəst dünyanın diplomatik kapitulyasiyası" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Ötən il oktyabrın 6-da Çexiyanın Praqa şəhərində keçirilən "Avropa siyasi birliyinin" ilk Zirvə toplantısında uğurlu diplomatik qələbə qazandıq. Bundan əlavə, Vətən müharibəsindən sonra, yəni, 2020-ci ilin dekabrında da Fransa Ermənistanla birləşərək BMT TŞ çərçivəsində Azərbaycana qarşı eyni təxribatı hazırlamış və qətnamənin qəbul edilməsinə çalışmışdı. Bu addımlar da uğursuzluqla nəticələndi. Daha sonra Frankofoniya təşkilatı çərçivəsi, Avropa Parlamenti və digər beynəlxalq platformalarda Azərbaycana qarşı sənədlərin qəbul edilməsinə cəhdlər edildi. Ermənilərin bütün cəhdlərdə əli boşa çıxıb və indiyədək əleyhimizə qaldırılan məsələlərdə bizə qarşı olan hər hansı bir sənədin qəbuluna nail olunmayıb. Ermənistanın "bacısı" Fransanın parlament səviyyəsində qəbul etdiyi bəzi sənədlərin isə heç bir hüquqi qüvvəsi yoxdur.

BMT TŞ çərçivəsində bu məsələdə Azərbaycana qarşı qətnamənin qəbulu, təbii ki, bizi narahat etmirdi, çünki onun qəbulunu mümkünsüz hesab edirdik. Hətta bu məsələnin müzakirəyə çıxarılmasını BMT kimi bir təşkilatın nüfuzuna xələl gətirən, onun zəifliyi və cılızlığını sübut edən bir addım hesab edirik. Bu isə dünyanın bütün dövlətlərini çətiri altında birləşdirən təşkilatın aparıcı qurumlarından birinin erməni diaspora və lobbi təşkilatlarının, dünya erməniliyinin və ona yaxından müttəfiqlik edən təxribatlarda hiyləgər və məkrli planlarda ermənilərin yanında yer alan Fransa kimi dövlətlərin alətinə çevrilməsi deməkdir.

Aydındır ki, BMT yarandığı gündən bu günə qədər TŞ çərçivəsində 5 daimi üzvün inhisarına, əsirinə çevrilib. Belə ki, onlar istədikləri şəkildə BMT-ni idarə edir və istədikləri istiqamətdə qətnamələrin qəbuluna nail olurlar. Bəzən isə daimi üzvlər veto hüququndan istifadə edərək istənilən qərarın qəbul edilməsinə maneçilik törədirlər. Təbii ki, bu isə əvvəldən BMT-nin ədalətsiz, eyni zamanda, qeyri-şəffaf idarəetmə mexanizminə sahib olmasından xəbər verir. Hər bir halda bu, köhnə mövzudur. Bu mövzu ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev də fikir bildirib. Dövlətimizin başçısı BMT TŞ-də digər təşkilatlara aid daimi üzvlərin olmasının vacibliyini vurğulayıb. Məsələn, Qoşulmama Hərəkatına aid daimi üzvlər, həmçinin hazırda dünyada böyük coğrafiya və insanların böyük bir kütləsini əhatə edən islam dünyasına aid dövlətlər olmalıdırlar. Bununla belə, təəssüf ki, BMT TŞ-də daimi üzvlər yalnız xristian dövlətlərdən ibarətdir. Bu isə qeyri-konstruktiv və ədalətsiz yanaşmanın ortaya qoyulmasıdır. BMT-nin bu mexanizm əsasında fəaliyyət göstərməsi ancaq təəssüf doğurur və bu qurumdan nüfuzundan asılı olmayaraq, ədalət gözləmək sadəcə "gülüncdür".

Düşünürəm ki, BMT TŞ çərçivəsində yenidən bir qətnamənin, yəni, Azərbaycanın Cənubi Qafqaz regionunda bütün istiqamətlərdə - sülhün və sabitliyin bərqərar edilməsi ilə bağlı müsbət təşəbbüslər ortaya qoymasından, bölgədə təhlükəsizlik və sabitlik qarantiyası rolunu öz üzərinə götürməsindən asılı olmayaraq, Azərbaycana qarşı əsassız iddialar irəli sürmək, Laçın yolunda blokada, o cümlədən Xankəndidə "humanitar böhran" yaratmaq kimi əsassız iddialar səsləndirmək Azərbaycana qarşı ikili standartlardan başqa bir şey deyil.

Əgər BMT nizamnaməsində vəzifələrinə uyğun olaraq humanitar böhranları aradan qaldırmaqla bağlı missiyasına hörmətlə yanaşırsa, İtaliyada milyonlarla uşaq, qadın və digər insanların aclıq, susuzluq və ölüm təhlükəsi ilə üz-üzə olması ilə maraqlana bilər. Belə ki, dünyanın ayrı-ayrı nöqtələrində çox ciddi humanitar böhranlar vardır. Bundan əlavə, BMT Rusiya-Ukrayna müharibəsi çərçivəsində TŞ-dəki veto hüququndan istifadə edən inhisarçı dövlətlərin olmasına görə hər hansı addım ata bilmir. Bu isə bir daha onu göstərir ki, BMT-nin mexanizmi qeyri-işləkdir. Daha əvvəl qeyd etdiyim kimi, Prezident İlham Əliyev bununla bağlı mövqe bildirərək fikirlərini əsaslandırıb. Əlavə olaraq, Türkiyə dövlətinin rəhbəri Rəcəb Tayyib Ərdoğan bildirib ki, "dünya beşdən böyükdür". Yəni, dünya sadəcə, BMT TŞ-də daimi üzv

statusuna malik beş dövlətdən ibarət deyil. Dünyada 190-dan artıq digər dövlətlər həmin o beş dövlətin iradəsinə tabe olmaq məcburiyyətində deyil. Hər birimiz belə düşünürük.

BMT bu gün özünün yaratdığı qeyri-işlək mexanizmin əsirinə çevrilib. Xankəndi, o cümlədən Laçın yolunda Azərbaycana qarşı səsləndirilən ittihamlara gəldikdə isə, bu ittihamlar tamamilə əsassız və absurddur. Bu, həmin o qurumdur ki, 1993-cü ildə eyni şəkildə müzakirələr apararaq Ermənistana qarşı qətnamələr qəbul edib. Həmin 4 qətnamədə elə Ermənistanın qanunsuz ünsürləri, silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması ilə bağlı konkret rayon və müddətlərin səsləndirilməsi yolu ilə qeyd-şərtsiz çıxarılmasına hesablanmış məqamlar öz əksini tapıb. Amma təəssüf ki, qətnamələr sona qədər icra edilmədi və Azərbaycan 2020-ci ildə reallaşdırılan İkinci Qarabağ müharibəsi ilə həmin o qətnamələrin icrasına nail oldu.

Düşünürəm ki, bu gün həmin o addımları atan BMT və bu günə qədər dünyanın ayrı-ayrı regionlarında baş verən nifaqlara, qarşıdurmalara, toqquşmalara, kataklizmlərə qarşı heç bir mövqe ortaya qoya bilməyən, onların tənzimləmə mexanizmini həyata keçirə bilməyən BMT bu gün Azərbaycana qarşı Cənubi Qafqazda absurd və əsassız reallıqdan kənar ittihamlara alət olur, bu məsələlərlə bağlı müzakirələrin keçirilməsi üçün bir platformaya çevrilir. Təbii ki, bu, artıq BMT-nin qeyri-işlək mexanizminin çürüməsindən xəbər verir. Əgər BMT və BMT-ni yaradan dövlətlər bu təşkilatın qarşısına qoyduğu hədəflərə nail olunması ilə bağlı səmimi və real maraq sahibidirlərsə, onda BMT-nin sələfi olan millətlər cəmiyyəti kimi fəaliyyətini dayandırması, yeni təşkilatın yaradılması istiqamətində addım atmalıdırlar. Yaxud BMT, sadəcə, qeyri-işlək olduğuna görə özü-özünü buraxmalıdır. Təbii ki, bütün bu məqamlar bizim üçün ona görə prioritetə çevrilir ki, bu gün Cənubi Qafqazda sülhün, təhlükəsizliyin əldə edilməsi istiqamətində bizim atdığımız addımlara nail olmağa BMT kimi təşkilatlar maneçilik törədir. Əslində, elə bu müzakirələrin edilməsi yolu ilə Azərbaycanın irəli sürdüyü səmərəli təşəbbüslərə maneçilik törədirlər.

Digər bir məqam da TŞ çərçivəsində dövlətlərin ortaya qoyduqları mövqe ilə bağlıdır. Əslində orada ədalətli yanaşma tərzi ortaya qoyan dövlətlər də oldu, amma çox təəssüf ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistan arasındakı münasibətlərin normallaşdırılmasına töhfə vermək istəyən bəzi dövlətlər daimi üzv kimi anti-Azərbaycan mövqeyi ortaya qoydular. Bir çoxları Azərbaycana Laçın yolunda “blokada”nı dayandırmağa, keçidi, gediş-gəlişi təmin etməyə və “böhran”ı aradan qaldırması ilə bağlı addımlar atmağa çağırışlar etdilər. Söhbətin hansı blokada, böhrandan getdiyini isə heç birimiz bilmirik. Baxmayaraq ki, Azərbaycan dəfələrlə həmin o təşkilatların, o cümlədən də daimi üzv statusuna malik olan dövlətlərin də diqqətinə çatdırıb ki, heç bir blokadadan söhbət getmir, humanitar məqsədlərlə o yol heç vaxt bağlı olmayıb. İnsanlar hər iki istiqamətdə o yoldan istifadə edirlər. Humanitar böhran şousu altında yük maşınlarını ora gətirmək istəyən dövlətlərə isə Azərbaycan tərəfindən çağırışlar edildi ki, əgər hansısa bir humanitar böhran realdırsa, Azərbaycan bunun qarşısını almaq üçün istənilən addımı atmağa, alternativ yol olaraq Ağdam-Xankəndi yolunu təklif etməyə və hətta humanitar yardım göstərməyə hazırdır. Amma bu təşəbbüslər rədd edildi, çünki əslində orada real humanitar böhrandan söhbət getmir. Məqsəd tamamilə fərqlidir.

Orada növbəti məkrli və hiyləgər plan həyata keçirilməkdədir. Təbii ki, buna da Azərbaycan bu günə qədər imkan vermədiyi kimi, bundan sonra da imkan verməyəcək. Hər bir halda BMT-nin bu müzakirələri bir daha Azərbaycanın siyasi və diplomatik qələbəsini təmin etdi. Eyni zamanda, anti-Azərbaycan siyasəti yürüdən ermənipərəst mövqeyi ilə seçilən dövlət və təşkilatların uğursuzluğa düçar olduqlarını bir daha sübut etdi. Həmçinin digər bir məqam isə onunla yadda qaldı ki, Azərbaycan Cənubi Qafqazda sülhün və təhlükəsizliyin tərəfdarı olan əsas dövlətdir. Bunu isə Ermənistan tərəfi istəmir və ona görə bu oyunları qurur. Digər bir məqam da az öncə qeyd etdiyim kimi, bir daha göstərdi ki, BMT kimi nüfuzlu və böyük təcrübəyə malik bir təşkilat bu gün hansısa qüvvələrin alətinə çevrilməkdə davam edir və hansısa maraq və mənafelərə xidmət edir.

**AZƏRTAC**
**2023, 18 avqust**

**BMT TŞ-də müzakirə edilən məsələ Azərbaycanın daxili işlərinə kobud şəkildə müdaxilədir - Politoloq**

BMT Təhlükəsizlik Şurasında (TŞ) Qarabağla bağlı dinləmələrdə Ermənistanın növbəti dəfə diplomatik məğlubiyyətə uğrayacağı gözlənilən idi. İclasda TŞ-yə üzv dövlətlərin tutduqları mövqelər, səsləndirdikləri fikirlər Azərbaycan üçün gözlənilməz olmadı. Xüsusilə də vaxtilə ATƏT-in Minsk qrupuna həmsədrlik etmiş Fransa, ABŞ və Rusiya nümayəndələrinin dilə gətirdikləri təkliflər, "narahatlıqlar" bizə olduqca tanışdır. Ötən 30 il müddətində biz bu "narahatlıqları", "təklifləri" çox eşitmişik. BMT TŞ-nin məlum 4 qətnaməsini icra etməyən Ermənistan və buna göz yumanların bu gün eyni kürsüdən Azərbaycana qarşı fikirlər səsləndirməsi tarixin ironiyasından başqa bir şey deyil.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ramiz Alıyev söyləyib.

O qeyd edib ki, Ermənistanın irəli sürdüyü tələblər beynəlxalq hüquqa, qonşuluq münasibətlərinə zidd olduğu üçün BMT TŞ üzvləri onları açıq müdafiə edə bilmədilər. İrəvanın qaldırdığı məsələlər Azərbaycanın daxili işlərinə kobud şəkildə müdaxilələrdən ibarət idi. Qarabağ iqtisadi rayonunda yaşayan erməni icmasının nümayəndələrinin humanitar fəlakətlə üzləşməsinə dair iddiaları da öz təsdiqini tapmadı. Azərbaycan tərəfi Qarabağda humanitar böhranın olmadığına dair ortaya faktlar qoydu. Eyni zamanda, yardım üçün Ağdam-Xankəndi yolunun hazır olduğunu bildirdi. İclasda Ermənistan və havadarları növbəti dəfə rəzil duruma düşdülər. Budəfəki dinləmələr Azərbaycan diplomatiyasının uğuru idi. Dövlətimiz öz suverenliyini və ərazi bütövlüyünü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qorumaqda əzimlidir.

BMT TŞ-nin əksər üzvlərinin Qarabağ məsələsində Azərbaycanı dəstəklədiyini diqqətə çatdıran politoloq deyib: "Çıxış edənlər problemin həllini Azərbaycanla Ermənistan arasında ikitərəfli müzakirələrdə gördülər. Təbii ki, Azərbaycan münasibətlərin normallaşması üçün lazımi səylərini göstərir. Biz Ermənistana 5 bəndlik sülh müqaviləsi təklif etmişik. Ermənistan bu günə qədər də Azərbaycanın təklifləri ilə bağlı sülh müqaviləsinə dair hər hansı bir addım atmayıb. Əksinə, ermənilər müxtəlif səpkili siyasi təxribatlar törədirlər, Azərbaycandan suveren hüquqlara zidd güzəştlər qoparmaq istəyirlər. Bu gün əminliklə demək olar ki, Qarabağda yaşayan ermənilərin hər hansı humanitar problemi yoxdur. 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan Laçın dəhlizi vasitəsilə yüklərin Qarabağ bölgəsində yaşayan mülki ermənilərə çatdırılması üçün lazımi şəraiti yaratdı. Amma Ermənistan və separatçı ermənilər yoldan hərbi məqsədlər üçün istifadə etdilər. Bu da regionda sabitliyə və təhlükəsizliyə ciddi təhdidlər yaradırdı. Laçın-Xankəndi yolunda Dövlət Sərhəd Xidmətinin sərhəd-buraxılış məntəqəsinin qurulması isə Azərbaycanın öz suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüquq çərçivəsində həyata keçirildi. Ermənistan hökuməti bir tərəfdən Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edir, digər tərəfdən isə daxili işlərimizə qarışır. Bu gün Ermənistan dövləti Azərbaycanla mübarizə apara biləcək gücdə deyil. Ermənistan dövlətinin xarici siyasi konsepsiyası erməni yalanları, xülyaları üzərində qurulub, reallığa uyğun deyil. İrəvan Azərbaycana qarşı mübarizəsini, radikallığını gücləndirdikcə daha da uçuruma yuvarlanır".

R.Alıyev qeyd edib ki, Ermənistan və Qarabağ ermənilərinin Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yoluna qarşı kampaniya aparmaları onların ikiüzlülüyündən, siyasi şou yaratmalarından xəbər verir. Onların məqsədi Qarabağda yaşayan sadə erməni sakinlərin problemlərini həll etmək deyil, Azərbaycandan güzəştlər qoparmaq, öz məkrli planlarını həyata keçirməkdir. Bu isə baş tutmayacaq. Azərbaycan BMT TŞ-də Ermənistanın növbəti siyasi şousunun qarşısını aldı, erməni yalanı beynəlxalq ictimaiyyət qarşısında ifşa edildi. Ermənistan BMT TŞ-dakı rüsvayçılıqdan dərs çıxarmalı və utanmalıdır.

**AZƏRTAC**
**2023, 18 avqust**

**Deputat: Qarabağdakı separatçılar törətdikləri cinayətlərə görə Azərbaycan qanunları ilə mühakimə olunacaq**

Ermənistan rəhbərliyinin Azərbaycana qarşı təxribat xarakterli hərəkətləri son vaxtlar daha da artıb. Ermənistanın baş naziri Nikol Paşinyan ikiüzlü, riyakar siyasət yürütməkdə davam edir. Paşinyan sözdə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıdığını, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu etiraf etsə də, əməldə tam əks mövqe nümayiş etdirir. Ermənistan tərəfindən Qarabağa Laçın yolu vasitəsilə orada yaşayan ermənilərin, guya, blokadada qalması səbəbindən humanitar yardım adı altında avtomobil karvanının göndərilməsi dünya ictimaiyyətində Azərbaycana qarşı mənfi fikirlərin formalaşdırılmasına xidmət edir.

Azərbaycan dəfələrlə Qarabağa humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif edib. Lakin ermənilər qəsdən bu yoldan imtina ediblər.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Kamilə Əliyeva deyib.

Deputat son günlər Qarabağdakı separatçı ünsürlərin Ordumuzun mövqelərini tez-tez atəşə tutmasından narahatlığını ifadə edib. O, sərhəddəki təxribatların Rusiya sülhməramlı qüvvələrinin gözü qarşısında və onların razılığı ilə həyata keçirildiyindən təəssüfləndiyini bildirib.

“Azərbaycanla sərhəddə yeni döyüş hazırlığı ilə məşğul olan Ermənistan rəhbərliyi bu azmış kimi Qarabağda yaşayan ermənilərin guya blokadada qalması və orada "humanitar fəlakət" yaranması barədə BMT Təhlükəsizlik Şurasına şikayət məktubu ünvanlamışdı. Ermənilərə dəstək verən bəzi Qərb dövlətləri, xüsusən Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa anlamır ki, belə şeylərlə Azərbaycana təzyiq göstərmək mümkün deyil. Çünki haqq da, ədalət də, hüquq da bizim tərəfimizdədir.

Ermənistan Fransa və Qərbdəki erməni lobbisinin əlində oyuncaq vasitəsinə çevrilib. Avqustun 16-da keçirilən BMT TŞ-nin iclasında da Ermənistan ağır məğlubiyyətə düçar oldu. Azərbaycan və onun lideri Prezident İlham Əliyev dünyanın ali orqanı olan BMT-də də Ermənistanla yanaşı, ona havadarlıq edən ölkələr, xüsusən Fransa üzərində tarixi qələbə əldə etdi”, - deyə K.Əliyeva vurğulayıb.

Deputat bildirib ki, BMT TŞ-dəki müzakirələrin nəticələri Qarabağdakı qeyri-qanuni hərbi birləşmələrin, separatçıların tərk-silah edilməsinin vacibliyini göstərdi və Azərbaycanın terror cəhdinin qarşısını almaq məqsədilə həyata keçirdiyi əməliyyatların legitimliyini təsdiqlədi. Ermənistan hökuməti ilə xaricdəki erməni lobbisi arasında ciddi narazılıq olduğunu və hər gün dərinləşməkdə olduğunu diqqətə çatdıran Kamilə Əliyeva deyib: “Beynəlxalq Ədalət Məhkəməsindən sonra BMT-nin Təhlükəsizlik Şurasında da məğlub olan Ermənistanın bir çıxış yolu qaldı. Azərbaycanın irəli sürdüyü şərtlər əsasında beynəlxalq prinsiplərə söykənən sülh müqaviləsinə imza atmaq. Qarabağdakı separatçılar da törətdikləri cinayətlərə görə Azərbaycan qanunları ilə mühakimə olunacaq.

Azərbaycan dövlətinin BMT Təhlükəsizlik Şurasındakı qələbəsi ölkəmizin nüfuzlu və qüdrətli dövlət, onun lideri Prezident İlham Əliyevin isə güclü siyasətçi olduğunu sübut etdi”.

**AZƏRTAC**
**2023, 19 avqust**

**Ermənistanın Qafan Hava Limanını istifadəyə vermək istəməsi siyasi şou xarakteri daşıyır - BAMF-in prezidenti**

Ermənistan bilməlidir ki, Qafan Hava Limanının açılması kimi təxribatçı addımlarını Azərbaycan tərəfi cavabsız qoymayacaq. Qafan Azərbaycan sərhədinə yaxın yerdə olduğu üçün hava məkanının pozulması ehtimalı var. Lakin dövlətimiz bu cür hallara imkan verməyib və bundan sonra da göz yuman deyil.

Bunu Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev Ermənistanın baş naziri Nikol Paşinyanın Qafan Hava Limanı haqqında açıqlamasını AZƏRTAC-a şərh edərkən səsləndirib.

Ermənistanın Qafanda hava limanı açmasına heç bir zərurətin olmadığını vurğulayan BAMF-in prezidenti deyib: "Ermənistanın bəhs edilən hava limanını açmağının bir niyyəti var. İşğaldan azad edilən ərazilərdə bizim istifadəyə verdiyimiz hava limanları onları rəncidə edib, narahatlıq yaradıb. Bu səbəbdən ermənilər düşünürlər ki, birini də onlar açsınlar. Lakin Qafan aeroportu bizim hava limanları ilə müqayisə oluna bilməz. Digər tərəfdən isə Zəngilan və Füzuli hava limanları, eləcə də tikilməkdə olan Laçın aeroportu da Ermənistan sərhədindən xeyli uzaq məsafədədir. Ermənistanın bu təşəbbüsü siyasi şou xarakteri daşıyır. Üstəlik, onu da qeyd edim ki, sərhədlərin delimitasiyası baş verməyib. Ona görə də Ermənistanın orada hava limanını istifadəyə verməsi qeyri-qanunidir, çünki Azərbaycan sərhədinə çox yaxındır”.

U.Mirzəyev hesab edir ki, Ermənistanın sülh müqaviləsi imzalamadığı bir dövlətlə sərhəddə hava limanı tikməsi absurddur. Bundan başqa, bu barədə Azərbaycanla heç bir razılıq əldə olunmayıb: “Fikrimcə, Qafan aeroportunun perspektiv fəaliyyəti əhalinin sıxlığı və digər regionlarla yaxınlığı baxımından da sual altındadır. Sovet dövründə Qafanda hava limanı fəaliyyət göstərirdi, çünki o zaman bütün respublikalar vahid məkanın tərkib hissəsi idi. Lakin sonradan hava limanının fəaliyyətini dayandırmasının əsas səbəbi Azərbaycan Respublikası sərhədinə yaxın ərazidə Qubadlı rayonu ilə sərhəddə, aktiv müharibə ocağının yaxınlığında yerləşməsi və tez-tez atəşə tutulması idi. Ermənistan yenidən bu limanı bərpa edib istifadəyə vermək istəyir. Düşünürəm ki, buna Azərbaycan adekvat cavab verəcək. Bundan başqa, “mülki” ad altında Ermənistanın bu hava limanından hərbi məqsədlər üçün istifadə edəcəyi barədə də ciddi fikirlər var. Biz Ermənistanın revanşist-təxribatçı siyasətlə məşğul olduğunun dəfələrlə şahidi olmuşuq".

**AZƏRTAC**
**2023, 19 avqust**

**BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Azərbaycanın möhkəmlənən mövqeyinin təqdimatıdır**

Ermənistanın bölgədə "humanitar vəziyyətin pisləşməsi" və "davam edən blokada" kimi əsassız iddialarla əlaqədar BMT Təhlükəsizlik Şurasına müraciəti ilə bağlı keçirilən müzakirələr daim ədalətin və beynəlxalq hüququn yanında olan Azərbaycanın artan nüfuzunun, möhkəmlənən mövqeyinin təqdimatı oldu. İşğalçı Ermənistan belə bir müzakirəyə nail olaraq BMT Təhlükəsizlik Şurasından hansı qərarın qəbulunu gözləyirdi? Azərbaycan 27 il BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qəbul etdiyi 4 qətnamənin icrasını gözlədi. Həmin sənədlərdə Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni silahlı birləşmələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması öz əksini tapmışdır. Azərbaycan dövləti daim ən yüksək tribunalardan bu çağırışı etdi ki, BMT qətnamələri bəzi dövlətlər üçün 1-2 saat ərzində icra edilir, amma Azərbaycana gəldikdə isə 27 il gözlədik. Dünyanın ikili standartlara əsaslanan siyasəti ilə hər zaman üz-üzə qalan ölkəmiz belə yanaşmalarla ruhdan düşmədi, əksinə tarixi həqiqətlərə, real faktlara əsaslanan siyasəti ilə təbliğatını daha da gücləndirdi, diplomatik qələbəmiz 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdə də öz sözünü dedi. Reallıq budur ki, dünya güclərinin 27 ildə edə bilmədiklərini Azərbaycan 44 gündə təkbaşına edərək BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail oldu. Ərazi bütövlüyümüz və tarixi ədalət bərpa olundu. Azərbaycan şanlı Zəfəri ilə bir daha dünyaya sübut etdi ki, ədalət və beynəlxalq hüquq var və onların icrası üçün vahid mexanizm müəyyənləşdirilməlidir. Ermənistanın yalanlarına əsaslanan müraciətinə BMT Təhlükəsizlik Şurasının dərhal münasibət bildirərək belə bir müzakirəni təşkil etməsi təbii ki, özlüyündə müxtəlif sualların yaranmasına səbəb olur. Amma Azərbaycan üçün real olan budur ki, yenə də bütün cəhdlərə baxmayaraq diplomatik uğuru ilə diqqətdə oldu. Bu, Fransa və Ermənistanın artıq ikinci iflasıdır. Ötən ilin dekabrında da məsələnin BMT Təhlükəsizlik Şurasında qaldırılması cəhdi olmuşdur. Hər iki hal Ermənistan diplomatiyasının məğlubiyyətidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Malik Həsənov söyləyib.

“Ermənistan belə müzakirələrin aparılmasına cəhdlər etməklə bundan sonra sülhdən necə danışa biləcək? Son üç ilə yaxın dövrün əsas çağırışı regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması üçün sülh müqaviləsinin imzalanmasıdır. Dünyanın aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar diqqəti məhz bu məsələnin həllinə yönəldib səylərini artırsalar daha yaxşı olar. Dünyada sülhün və təhlükəsizliyin təminatında mühüm rola malik olan BMT erməni yalanlarını, beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədi daşıyan təbliğatını özündə əks etdirən müraciətə dərhal münasibət bildirməklə ədalət sınağını yaşadı. Qəbul edəcəyi qərar onun nüfuzunun, ən əsası 27 ildən sonra postmünaqişə dövrünün reallıqları fonunda ədalət meyarını hansı şəkildə qoruduğunun təqdimatı olacaqdı. Müzakirələrdə hər bir dövlətin Azərbaycanın ərazi bütövlüyünə hörmət ifadə etməsi, Ağdam yolunun açılmasını vacib sayması, Azərbaycanın yerində vəziyyətə nəzarət etməsi faktını qəbul etməsi diplomatiyamızın gücünü, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının ədalət sınağından uğurla çıxmasını nümayiş etdirdi. Bir daha təsdiq edildi ki, belə müzakirələrə ehtiyac yox idi. Məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır”, - deyə deputat bildirib.

O, diqqəti Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə yönəldərək bildirib ki, işğalçı dövlət hər zaman məğlubiyyətini ört-basdır etmək üçün cəhdlər edir. Amma unudur ki, yalanlarla ədaləti, beynəlxalq hüququ inkar etmək mümkün deyil. Hər bir məsələdə aciz duruma düşən Ermənistan himayədarlarının dəstəyinə arxalandığını qabarıq şəkildə büruzə verir. Azərbaycan Xarici İşlər Nazirliyinin Nikol Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibətində də bu cəhd Ermənistanın növbəti dəfə BMT Təhlükəsizlik Şurasında düçar olduğu uğursuzluqla barışmaq istəmədiyi kimi şərh edilir. BMT Təhlükəsizlik Şurasının üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin “bölgədə humanitar vəziyyət”, “blokada” kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. O da bildirilir ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya ölkəmiz tərəfindən erməni sakinlərə qarşı atəş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi “etnik təmizləmədə” təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir. Ermənistan tərəfi bu reallığı qəbul

etməlidir ki, bölgədə sülhün və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması, hörmət əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar edilməsi üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir.

**AZƏRTAC**
**2023, 20 avqust**

**Politoloq: Ermənistan regionda qaranlıq qalan problemlərin həllinə bir az da kölgə salır**

Azərbaycanla sülhə yaxınlaşdıqca Ermənistan yenidən şərti sərhəddə və Qarabağ iqtisadi rayonu ərazisində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti məsuliyyət zonasında təxribatlara əl atır, prosesi dalana dirəyir. Hazırda hərbi təxribatlarını davam etdirdiyi, əsassız iddialarla “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi ətrafında “humanitar böhran” şousu yalanlarını tirajladığı bir zamanda Ermənistan hakimiyyətinin Qafanda yerləşən hava limanını istismara vermək istəməsi təsadüfi qərar sayıla bilməz. Bu, bölgədə sabitliyin pozulacağının anonsudur. Səsləndirdiyimiz fikirlər siyasi faktlara söykəndiyi üçün haradan qaynaqlandığını izah edə bilərik.

“Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi qurulmamışdan əvvəl ermənilər bu yoldan sui-istifadə hallarına yol verirdilər. Ermənistan dəhliz sözünü xaos və ya anarxiya ilə səhv salaraq tamam başqa niyyətlərlə məqsədli şəkildə destabilizasiya şəraiti yaratdı. Azərbaycan Laçında post qurduqdan dərhal sonra isə Ermənistan və arxasında dayanan havadarları dezinformasiyalar yaymaqla ermənilərin qanunazidd əməllərini ört-basdır etməyə cəhdlər göstərirlər. Buna Qafandakı hava limanın fəaliyyəti barədə qeyd etdiyimiz süni informasiya vakuumunun davamı kimi baxılmalıdır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Tural Əliyev söyləyib.

Onun sözlərinə görə, Qafan Hava Limanı uçuşlara başlamamış Ermənistan tərəfindən Azərbaycana qarşı ittihamlara start verildi: “Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın çətiri altında gizlənərək bir çox qanunları ayaqlar altına atan Ermənistanın Azərbaycanın hava məkanını bilərəkdən pozacağı heç kəsdə şübhə doğurmur. Dünyada sərhədə yaxın hava limanlarının mövcudluğu presedenti var, ancaq bunlar tək konvensiya ilə tənzimlənmir, dövlətlərarası, ikitərəfli razılaşmalar əsasında həll edilir. Qafan hava limanına təyyarələr eniş və uçuş edərkən avtomatik Azərbaycan hava sahəsini pozacaq, buna görə də rəsmi Bakı haqlı mövqedə dayanaraq beynəlxalq ictimaiyyəti indidən məlumatlandırır. Ermənistanın bütün sərhədyanı siyasi, hərbi addımlarının təhlili bir daha sübut edir ki, onlar əvvəlcədən hansısa planları həyata keçirmək üçün niyyətləniblər. Ermənistan daxil hansı ölkə təminat verə bilər ki, həmin hava limanı mülki don geyindirməklə hərbi məqsədlər üçün istifadə olunmayacaq? Prosesə iqtisadi cəhətdən də yanaşaq, aeroport rentabellik məqsədilə fəaliyyət göstərməyəcəksə, yuxarıda sadalanan faktların doğruluğu bir daha isbat olunur. Son dövrlər bəzi xarici ölkələrin Qafanda konsulluq açmaları, səfirlərin oraya səfərləri Ermənistanın təkbaşına qərar vermədiyi anlamına gəlir”.

Politoloq bildirib ki, Ermənistanın Zəngəzur dəhlizinin açılmasını ləngitməsi və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi səbəbindən münasibətlərin normallaşması prosesindən nəticə hasil olmur. Ermənistan Azərbaycanla yekun sülh müqaviləsini bağlamadığı üçün regionda qaranlıq qalan problemlərin həllinə bir az da kölgə salır. Ermənistan qonşu dövlətlə münasibətləri normallaşdırmaq əvəzinə tarixdə heç vaxt regiona aid olmayan ölkələrin şirin vədlərinə sadəlövhcəsinə inanmağı bir kənara qoyub, konstruktiv danışıqlara qayıtmalıdır. Eyni zamanda, avantürist Qafan Hava Limanı ideyasından vaz keçib, Azərbaycanın xəbərdarlıqlarına rasional yanaşmalıdır. Çünki indidən mümkün ola biləcək ssenariləri proqnozlaşdıra bilərik. Belə ki, zəif olduğunu anlayan Ermənistan mülki vətəndaş konsepsiyası arxasında gizlənərək Azərbaycanın hava məkanını pozub süni toqquşmalar yaratmağa cəhd edəcək.

Bu da Ermənistanın çirkin məqsədlərinə çatmaqdan ötrü beynəlxalq aləmin diqqətini absurd gündəm formalaşdırmaqla qurduğu oyunlardır. Son üç ildə Ermənistan tərəfi artıq anlamalı idi ki, Azərbaycan təhlükəsizliyinə təhdid yaradan istənilən xarici faktorları aradan qaldırmağa qadir dövlətdir. Ölkəmiz sərhəd məsələsində hava və quru fərq etməz, baş verəcək təxribatları yerindəcə zərərsizləşdirəcək. Azərbaycanın suveren sərhədlərini pozacaq hallar aşkarlanarsa, beynəlxalq qanunvericiliyə, normativlərə əsasən dərhal bütün lazımi addımlar atılacaq

**AZƏRTAC**
**2023, 20 avqust**

**MN: Qanunsuz erməni silahlılarının fortifikasiya qurğuları quraşdırmağa cəhdinin qarşısı alınıb**

Avqustun 20-si saat 15:15 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Ordumuzun Laçın rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

**AZƏRTAC**
**2023, 20 avqust**

**Azərbaycan diplomatiyasının növbəti uğuru və Ermənistanın siyasi məsuliyyətsizliyinin daha bir nümunəsi**

Məlum olduğu kimi, Ermənistan havadarlarının dəstəyi ilə regionda sülh və əməkdaşlıq prosesinə mane olmaq, gərginliyi artırmaq məqsədilə müxtəlif istiqamətlərdə təxribatlar törədir, yalan informasiyalarla istər mətbuatda, istərsə də sosial şəbəkələrdə beynəlxalq ictimai rəyi çaşdırmağa, Azərbaycan əleyhinə çevirməyə cəhdlər edir. Elə rəsmi İrəvanın “blokada” və ya “humanitar böhran” ilə bağlı ölkəmizə qarşı təbliğatı da əsassız və sübutu olmayan iddialar silsiləsindəndir. Lakin hadisələrin gedişatı onu sübut edir ki, Ermənistanın iddiaları əsassızdır və Azərbaycanın ədalətli, haqlı mövqeyini sabotaj edə bilməz. Elə BMT Təhlükəsizlik Şurasındakı iclas da bunu bir daha isbatladı.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

O bildirib ki, Ermənistan Azərbaycanın Laçın dəhlizini guya blokadaya alması və “Dağlıq Qarabağ” ermənilərini aclıqla soyqırımına məruz qoymasını BMT Təhlükəsizlik Şurasının növbədənkənar iclasında rəsmiləşdirərək Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsinə, Laçın dəhlizinin beynəlxalq gücdən istifadə edərək açılmasına çalışsa da, ciddi məğlubiyyətə uğrayıb. Faktiki olaraq heç bir dövlət Ermənistanın tezislərini dəstəkləmədi, Azərbaycanı qeyd edilən iddialarla bağlı ittiham etmədi. Bu, Azərbaycanın xarici siyasətinin, beynəlxalq təşkilatlarda məqsədyönlü siyasətinin bariz uğur nümunəsidir. Bu hadisə, eyni zamanda, rəsmi İrəvanın növbəti dəfə siyasi məsuliyyətsizliyini ortaya qoyub. Çünki Ermənistan 30 ilə yaxın müddətdə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və Təhlükəsizlik Şurası sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb, əvəzində isə indi qətnamələrini diqqətə almadığı beynəlxalq qurumdan yardım diləyir. Heç şübhəsiz ki, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümü, rəsmi İrəvanın Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsi idi. Lakin Prezident İlham Əliyevin düşünülmüş xarici siyasəti, qonşu dövlətlərlə balanslı münasibətlər qurması, Qoşulmama Hərəkatına üzv dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətləri inkişaf etdirməsi, beynəlxalq təşkilatlarda doğru istiqamətlərdə fəaliyyət göstərilməsi konsepsiyasını hazırlaması və tətbiq etməsi, tərəfdaş ölkələrlə qarşılıqlı maraqları eyni müstəviyə gətirməsi, strateji düşüncəni ön planda tutması BMT Təhlükəsizlik Şurasında Ermənistanın son ümidlərinin puça çıxması ilə nəticələnib. Beləliklə də, beynəlxalq aktorların, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərinin fəal iştirakı və obyektiv mövqeyi nəticəsində erməni hiyləsi və siyasi şousu alınmayıb.

“Dünya ictimaiyyəti bir daha gördü ki, rəsmi İrəvan humanitar məsələləri siyasi məqsədlər üçün istifadə edir. Humanitar təşkilatın ərazidə mövcudluğunu və fəaliyyətini siyasiləşdirməklə Ermənistan Qarabağda yaşayan etnik erməni sakinlərinin reinteqrasiyasına süni maneələr yaradır. Azərbaycan Hökuməti Qarabağda yaşayan sakinlərin zəruri mallara çıxışını təmin etmək, onlar üçün müvafiq yaşayış şəraiti yaratmaq əzmindədir və bunu bütün beynəlxalq tribunalardan dəfələrlə ən yüksək səviyyədə dilə gətirib. Elə bunun nəticəsidir ki, qondarma “Dağlıq Qarabağ” rejiminin və Ermənistanın gözləntilərinin əksinə BMT TŞ-də müzakirədə iştirak edən dövlətlərin heç biri xalqların öz müqəddəratını təyin etməsi prinsipindən, qondarma “Dağlıq Qarabağ” rejiminin tanınmasından, Qarabağda yaşayan ermənilərə qarşı aclıqla təhdid edilən soyqırımının törədilməsindən, ölümlə nəticələnən aclıq hallarının baş verməsindən bəhs etməyiblər. Ermənistanın təşəbbüsü ilə Azərbaycanın Laçın dəhlizini guya blokadaya alması və “Dağlıq Qarabağ” ermənilərini aclıqla soyqırımına məruz qoyması iddiasını BMT TŞ-nin gündəliyinə gətirməsi və nəticə almaması, onun bu məsələni bir daha hansısa beynəlxalq təşkilatın gündəminə gətirmə ehtimalını sıfıra endirib. BMT TŞ-də müzakirələrdə çıxış edən dövlətlərin əksəriyyətinin balanslı çıxışları Azərbaycanın mövqeyini daha da gücləndirib, ərazi bütövlüyünün təmin edilməsinin beynəlxalq hüquqa uyğun olduğunu bir daha təsdiqləyib. Ona görə də, Ermənistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən hərəkətlərinə son qoymalı və bölgədə davamlı sülh üçün tarixi fürsətin qaçırılmamasının həyati əhəmiyyət kəsb etdiyini anlamalıdır”, - deyən YAP Nizami rayon təşkilatının sədri fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 22 avqust**

**BMT TŞ-dəki müzakirələr Ermənistanın öz ampulasından kənarda siyasət yürüdə bilmədiyini təsdiqlədi**

Azərbaycan xarici siyasət sahəsində ciddi uğurlara imza ataraq dünyada söz sahibinə çevrilib. Beynəlxalq aləmdə etibarlı tərəfdaş olan ölkəmizin malik olduğu nüfuz təkcə regionla məhdudlaşmır, beynəlxalq miqyasda onun rolunu artırıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müxtəlif əməkdaşlıq layihələri ilə region və onun hüdudlarından kənarda sülh və sabitliyin sərhədlərinin genişləməsinə davamlı olaraq töhfələr verir. Regionumuzda baş verən proseslər, eləcə də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində görülən işlər milli maraqlarımızın qətiyyətlə qoruduğunun daha bir ifadəsidir. BMT Təhlükəsizlik Şurasındakı (TŞ) müzakirələr bir daha Azərbaycanın dünyada nüfuzunu, Ermənistan diplomatiyasının isə tam iflasa uğradığını göstərmiş oldu. BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı sənəd qəbul olunsun deyə Ermənistan yenidən bütün qüvvəsini səfərbər etsə də, həmişə olduğu kimi bu cəhdlər nəticəsiz oldu. Xatırlatmaq yerinə düşər kı, ötən il Fransa və Ermənistan tərəfindən Laçın yolu məsələsinin BMT TŞ-də qaldırılmasına cəhd edilsə də onların bu addımı da nəticə verməmiş və iflasa uğramışdı.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov deyib.

O qeyd edib ki, avqustun 16-da BMT Təhlükəsizlik Şurasının ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün təcili iclas keçirməsi erməni siyasətinin çirkin üzünü bir daha ortaya qoymuş oldu. Ermənistanın davamlı dezinformasiyasından, beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniya heç bir məntiqə, reallığa əsaslanmadığından onların bu oyunu erməni "siyasəti"nin üzü idi. Belə ki, Ermənistanın "blokada" və ya "humanitar böhran" ilə bağlı bütün əsassız və sübutu olmayan iddiaları əsaslı dəlillərlə rədd edilib. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli kampaniya artıq müstəqil ölkəmizin uğurlu sülhsevər siyasətinə kölgə sala bilməz. Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan qalib dövlət olaraq regionda yeni reallıqlar yaradıb. Hər kəs bu reallığı qəbul edib. Beynəlxalq hüquq Azərbaycanın haqli mövqeyini müdafiə edir.

Ölkəmizin İkinci Qarabağ müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində nüfuzunu və gücünü əhəmiyyətli dərəcədə artırdığını diqqətə çatdıran Azər Süleymanov bildirib: "Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənib. Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə uyğun olaraq münaqişəni artıq həll edib, münaqışə sona çatıb".

Azərbaycanın regionda sülhün təmin olunması istiqamətində təşəbbüsləri dəstəklədiyini deyən YAP Nəsimi rayon təşkilatının sədri əlavə edib: "BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr Ermənistanın öz ampulasından kənarda siyasət həyata keçirə bilmədiyini bir daha təsdiqlədi. İclasda Azərbaycanın həqiqətləri və mövqeyi tutarlı faklarla diqqətə çəkilib. Qeyd olunub ki, "Laçın dəhlizi" adlanan yol Azərbaycanın suveren ərazisi daxilində, heç bir ekstraterritorial statusu olmayan, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, ilk növbədə, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib. Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüquq çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib. BMT Təhlükəsizlik Şurasındakı müzakirələr bir daha ölkəmizin diplomatik gücünü göstərməklə yanaşı, beynəlxalq haqq və ədalətin də bizim tərəfimizdə olduğunu nümayiş etdirib".

**AZƏRTAC**
**2023, 22 avqust**

**Fəqət Şadlinskaya: BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının iflası oldu**

Avqustun 16-da BMT Təhlükəsizlik Şurası Ermənistanın təklifi ilə Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün təcili iclas keçirdi. Ermənistan bu müzakirələrdən heç bir siyasi divident qazana bilmədi. Müzakirələr Ermənistan diplomatiyasının tam iflası oldu. Bir daha təsdiq edildi ki, belə müzakirələrə ehtiyac yox idi.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya deyib.

O qeyd edib ki, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır. İclasda bir sıra çıxışçılar Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı verdiyi qərara əməl etməyin, yəni, Azərbaycanın əlində olan imkanlardan istifadə edərək yolun maneəsiz və təhlükəsiz şəkildə humanitar məqsədlərlə istifadə olunmasını təmin etməyinin vacibliyini bildirdilər. Reallıq budur ki, Azərbaycan aprelin 23-də Laçın yolunda quraşdırdığı sərhəd-buraxılış məntəqəsi ilə bu yoldan maneəsiz və təhlükəsiz keçidi təmin edib.

"Bu mühüm məqamı da qeyd etməliyik ki, BMT Təhlükəsizlik Şurası təsis olunduğu vaxtdan bu günə qədər dünyada sülhün və sabitliyin təmin olunması kimi böyük məsuliyyəti öz üzərinə götürüb. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmləndirmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək olan BMT-nin bu gün üzərinə düşən missiyanı hansı səviyyədə yerinə yetirdiyini geniş şərh etməyə ehtiyac yoxdur. BMT sisteminin təkmilləşdirilməsi, tərkibinin genişləndirilməsi məsələsinin gündəmə gətirilməsi özündə bütün məqamları ehtiva edir. Qurumun ermənilərin guya Qarabağda "humanitar böhran", aclıq, blokada və sair şəraitində yaşamasını əsas götürüb növbədənkənar iclas keçirməsi birmənalı qarşılana bilməz. İyirmi yeddi il Azərbaycan BMT qətnamələrinin icrasını gözlədi. Azərbaycanla bağlı qətnamələrin hazırlanmasında və qəbulunda iştirak edən dövlətlər bu sənədlərin icrası məsələsi gündəmə gətiriləndə işğalçının adı ilə çağırılmasının münaqişənin həllinə mane olacağını söyləməklə bununla üzərilərinə düşən məsuliyyəti kənara qoydular. Bu gün Ermənistanın yalanlarına dəstək olub BMT Təhlükəsizlik Şurasında müzakirələrin təşkili qurumun nüfuzuna xələl gətirməyə bilməz. Bununla BMT Təhlükəsizlik Şurası bir daha sübut etdi ki, vaxtilə erməni silahlı birləşmələrinin qeyd-şərtsiz və dərhal Azərbaycan ərazilərindən çıxarılması üçün qəbul etdiyi qətnamələrin hər biri sadəcə kağız parçası olub. Çünki bu qətnamələri Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində təkbaşına icra etdi", - deyə Fəqət Şadlinskaya bildirib.

Onun sözlərinə görə, müzakirələrdə bir daha təsdiqləndi ki, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması Azərbaycanın erməniləri blokadada saxladığı anlamına gəlmir. Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüquq çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb.

Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib.

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev iclasdakı çıxışında bu mühüm məqama xüsusi diqqət çəkdi ki, sərhəd-buraxılış məntəqəsinin yaradılması mülki əhalinin Laçın yolu ilə gediş-gəlişinə mane olmayıb, 2023-cü il iyunun 15-dək bu cür hərəkətlərin sayı faktiki olaraq nəzərəçarpacaq dərəcədə artıb. Həmin tarixdə Ermənistanın davam edən təxribatının növbəti nümunəsi Ermənistan silahlı qüvvələrinin Azərbaycan sərhədçiləri və onları müşayiət edən Rusiya sülhməramlı qüvvələrinə hücumu zamanı baş verib. Bu hücum Azərbaycan sərhədçisinin ağır yaralanması ilə nəticələnib və eyni zamanda, BQXK-nın əməkdaşları və məntəqədən keçən mülki şəxslər üçün birbaşa təhlükə yaradıb. Bununla yanaşı, Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu yol Azərbaycanın əsas nəqliyyat marşrutlarından birinə - "İpək Yolu" və ya M2 avtomobil yolu kimi tanınan və beynəlxalq bazarlara etibarlı əlaqəni təmin edən magistral yolu ilə bağlıdır.

“Müzakirələrdə bu məqam da diqqətə çatdırıldı ki, Ermənistan tərəfindən humanitar bəhanələrlə edilən manipulyasiyalar təxribat xarakterli hərbi fəaliyyətlə eyni vaxtda baş verir. Azərbaycanın suveren ərazisində qeyri-qanuni yerləşdirilmiş radioelektron döyüş texnikasından istifadə xüsusi narahatlıq doğurur. Son həftələr ərzində təkcə “Azərbaycan Hava Yolları”nın deyil, xarici ölkələrin mülki təyyarələri də onların təhlükəsizliyi üçün ciddi təhlükə yaradan radioelektron müdaxilələrə məruz qalıb. Ermənistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən hərəkətlərinə son qoymalıdır. Bölgədə davamlı sülh üçün tarixi fürsətin qaçırılmaması həyati əhəmiyyət kəsb edir”, - deyə YAP Bərdə rayon təşkilatının sədri vurğulayıb.

**AZƏRTAC**
**2023, 22 avqust**

**MN: Laçın rayonu istiqamətlərində mövqelərimiz müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub**

Avqustun 21-i saat 22:50-dən avqustun 22-si saat 02:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Birəli, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Qaraağac və Laçın rayonunun Minkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

Bundan başqa, avqustun 22-si saat 06:15-dən 07:20-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Tərtər, Xocalı və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

**AZƏRTAC**
**2023, 22 avqust**

**Jalə Əliyeva: BMT Təhlükəsizlik Şurasının qərarı Azərbaycanın üstün mövqeyinin daha bir təntənəsidir**

XX əsrin sonlarından etibarən Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdən Ermənistan ölkəmizin parlaq Qarabağ Zəfərindən sonra da bölgədəki gərginliyin və revanşizmin mənbəyi olmaqda qalmaqdadır. Azərbaycanın Qarabağda sülhün bərqərar edilməsi istiqamətində atdığı konstruktiv addımlara baxmayaraq, Ermənistan müxtəlif əsassız iddialarla beynəlxalq müstəvidə manipulyasiya kampaniyasını davam etdirməyə cəhdlər göstərir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva söyləyib.

Deputat qeyd edib ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Azərbaycan suveren ərazisi daxilində yerləşən və "Laçın dəhlizi" adlandırılan, heç bir eksterritorial statusu olmayan avtomobil yolunda bu günə qədər heç bir vəchlə hərəkətə mane olmayıb. Lakin Ermənistanın bu marşrutdan humanitar yardım adı altında mütəmadi olaraq qeyri-qanuni məqsədlər üçün istifadə etməsi bölgədə müvafiq nəzarətin təmin olunmasını zəruri etdi və bu səbəbdən Laçın yolunun başlanğıcında, Ermənistan-Azərbaycan sərhədində buraxılış məntəqəsi yaradıldı.

Ermənistan dövlət sərhədindən buraxılış məntəqəsinin guya yolda nəqliyyatın hərəkətinə mane olduğunu və bununla da humanitar vəziyyətin pisləşməsinə gətirib çıxardığını iddia edərək Beynəlxalq Ədalət Məhkəməsinə də müraciət ünvanladı, lakin Məhkəmənin 6 iyul tarixli qərarı ilə bu tələb rədd edildi.

Buna baxmayaraq, Ermənistan əsassız iddialarından və yersiz eyhamlarından əl çəkməyib, Laçın-Xankəndi yolunun guya "bağlanması"ndan sonra "humanitar böhran" yarandığı iddiası ilə BMT-yə müraciət edib. Avqustun 16-da BMT Təhlükəsizlik Şurası məsələnin müzakirəsi üçün təcili iclas keçirib.

Prezident İlham Əliyevin düşünülmüş xarici siyasəti, Azərbaycanın qonşu dövlətlərlə balanslı münasibətlər qurması, Qoşulmama Hərəkatına üzv dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirməsi, dövlətimizin başçısının rəhbərliyi ilə beynəlxalq təşkilatlarda doğru istiqamətlərdə fəaliyyət konsepsiyasının hazırlanması və tətbiqi, tərəfdaş ölkələrlə qarşılıqlı maraqların eyni müstəviyə gətirilməsi, strateji düşüncənin ön planda tutulması kimi amillər Təhlükəsizlik Şurasında Ermənistanın son ümidlərinin puça çıxmasına səbəb olub. Belə ki, qondarma Dağlıq Qarabağ rejiminin və Ermənistanın gözləntilərinin əksinə olaraq, BMT Təhlükəsizlik Şurasında təşkil olunan müzakirədə xalqların öz müqəddəratını təyinetmə prinsipindən, qondarma Dağlıq Qarabağ rejiminin tanınmasından, Qarabağda yaşayan ermənilərə qarşı guya aclıqla təhdid edilən "soyqırımı"nın törədilməsindən, ölümlə nəticələnən aclıq hallarının baş verməsindən bəhs olunmayıb. Hətta məruzəçi dövlətlər tərəfindən Laçın dəhlizinə paralel olaraq Ağdam-Xankəndi yolunun da istifadə edilməsinin mümkünlüyü bildirilib və Azərbaycanın terror cəhdinin qarşısını almaq məqsədilə həyata keçirdiyi əməliyyatların legitimliyi təsdiqlənib. Bu isə Ermənistanın bu məsələni bir daha hər hansı beynəlxalq təşkilatda gündəmə gətirməsi ehtimalını sıfıra endirir. BMT Təhlükəsizlik Şurasının bu qərarı bir daha Azərbaycanın üstün mövqeyinin təntənəsi, siyasi və diplomatik uğurunun növbəti təzahürüdür.

**AZƏRTAC**
**2023, 22 avqust**

**Amerikalı jurnalist erməni yalanlarına uyan dünya ictimaiyyətini Azərbaycan həqiqətlərini öyrənməyə çağırıb**

ABŞ-ın **NewsBlaze** xəbər portalında Kaliforniya ştatının Qlendeyl şəhərinin separatçı erməni təbliğatının mərkəzinə çevrilməsindən və Azərbaycan həqiqətlərindən bəhs edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə erməni mühacirlərin çox olduğu Qlendeyl şəhərinin mərkəzində tarixə qovuşmuş münaqişənin əks-sədasının hələ də gəlməkdə olduğu qeyd edilib. Vurğulanıb ki, çünki ermənilər Azərbaycanın Qarabağ bölgəsini “Artsax” adlandırmaqla qonşunu qonşuya, xristianları müsəlmanlara qarşı qoyublar. Bolşevik təcavüzü, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı və gərgin etnik xatirələri əsasında idarə olunan erməni əsilli amerikalılar münaqişə ilə bağlı beynəlxalq aləmdə qəbul edilmiş həqiqətə məhəl qoymadan “Artsax” davasının ifrat tərəfdarlarına çevriliblər. Onun fikrincə, Qlendeyl şəhərində ermənilərin avtomagistralı bağlamaqla aksiya keçirmələri sonsuz nifrət və inamsızlığı özündə ehtiva edən, gərgin, qütbləşən mübarizənin bariz nümunəsidir.

Ermənilərin apardıqları təbliğatı milyonlarla insanın ölümünə səbəb olan İosif Stalinin və Adolf Hitlerin təbliğatı ilə müqayisə edən müəllif xatırladıb ki, son 30 ildə Ermənistan və ABŞ-dakı erməni lobbisi məhz Azərbaycana qarşı belə nifrət təbliğatı aparmaqdadır.

Müəllif ermənilərin XX əsrin əvvəllərindən xalqımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları törətmələri, Birinci və İkinci Qarabağ savaşları, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnaməsi, Ermənistanın bu qətnamələrə məhəl qoymaması, Azərbaycan torpaqlarında tarixi, mədəni abidələrin, yaşayış məntəqələrinin məhv edilməsi, ölkəmizin yeni ərazilərin işğalına gətirəcək yeni müharibələrlə hədələnməsi kimi faktları yerli ictimaiyyətin diqqətinə çatdırıb.

Azərbaycanın əzəli torpaqlarını işğaldan azad etdikdən sonra Qarabağda yaşayan erməni vətəndaşları ilə əlaqələrin qurulması və Ermənistanla sülh müqaviləsinin imzalanması üçün ardıcıl addımlar atdığına diqqət cəlb edilib. Vurğulanıb ki, Azərbaycanın xoş məramlarına baxmayaraq, Ermənistan indiyədək sülh təşəbbüslərinə və regionda normallaşma prosesinin bərqərar olunmasına əngəllər törədir. Rəsmi İrəvanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmanın müddəalarına əməl etmədiyi, silahlı qüvvələrini indiyədək Azərbaycan ərazisindən çıxarmadığı, Laçın yolu ilə silah-sursat daşıyan qüvvələri maliyyələşdirdiyi, Azərbaycanın təbii resurslarını qeyri-qanuni olaraq istismar etdiyi diqqətə çatdırılıb.

Azərbaycanın müstəqil dövlət kimi öz Konstitusiyasına və beynəlxalq hüququn normalarına uyğun olaraq təhlükəsizliyini, sərhədləri üzərində suverenliyi təmin etmək, Ermənistanın qanunsuz, təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün Laçında dövlət sərhədindən buraxılış məntəqəsi yaratdığı bildirilib. Bu məntəqənin Azərbaycanın Qarabağdakı erməni əsilli vətəndaşlarının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) əməkdaşlarının, eləcə də Rusiya sülhməramlı kontingentinin keçidini asanlaşdırdığı qeyd edilib.

Ermənistanın isə Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə mütəmadi olaraq “regionda həyəcanlı və gərgin humanitar vəziyyət” barədə yalan məlumatlar yaydığı, təxribatlar törətməyə davam etdiyi bir daha xatırlanıb. Ermənistan tərəfinin iyulun 15-də Azərbaycan sərhədçilərini atəşə tutduğu, iyulun 26-da isə əraziyə qaçaqmal, o cümlədən yük avtomobilləri göndərməyə cəhd etdiyi kimi faktlar buna nümunə olaraq göstərilib.

Qarabağ bölgəsində yaşayan ermənilərin ehtiyaclarını ödəmək üçün Azərbaycanın Avropa İttifaqı və BQXK-nın vasitəsilə Ağdam-Xankəndi və digər alternativ yollar təklif etdiyi, Ermənistanın həmişə olduğu kimi, bütün təkliflərə qarşı çıxdığı və alternativ yollara beton sədlər çəkərək əraziyə girişi bağladığı bildirilib.

Müəllif qeyd edib ki, bu davranış ermənilərin humanitar vəziyyətlə bağlı bəyanatlarının şantaj və manipulyasiya niyyəti daşıyan siyasi hiylədən başqa bir şey olmadığını göstərir. Ermənistanın niyyəti regiona üçüncü tərəfləri cəlb etmək və sülh prosesinin iflasa uğramasına səbəb olacağı ümidi ilə coğrafi gərginliyi genişləndirməkdir.

Məqalədə erməni lobbisinin maraqlarına xidmət edən konqresmen Adam Şiffin fəaliyyəti də sərt tənqid edilib. Bildirilib ki, Konqresin üzvü qalmaq üçün erməni səslərinə çox ehtiyacı olan konqresmen Şiff ABŞ-ın etibarlı tərəfdaşı Azərbaycanla bağlı faktları təhrif edir və ictimaiyyətə qəsdən dezinformasiyalar ötürür. ABŞ Dövlət Departamenti və nüfuzlu kütləvi informasiya vasitələri isə konqresmenin bu yolverilməz davranışını ifşa etmir. Hökumət və iri KİV-lər sükan arxasında yatır...

Müəllif hesab edir ki, Ermənistanın hiylə və manipulyasiya orbitində olan, yalan bəyanatlar verməkdə davam edən, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətsizlik edən ölkələr və

beynəlxalq təşkilatlar həqiqəti eşitməlidir. Onların əsl faktları öyrənməsi Azərbaycanın daxili işlərinə qarışmaqdan əl çəkilməsi və ikili standartlar siyasətinə son qoyulması ilə nəticələnə bilər.

**AZƏRTAC**
**2023, 22 avqust**

## Reinteqrasiyanın alternativi yoxdur və bu proses tezliklə öz məntiqi sonluğuna çatacaq – RƏY

Bu günlərdə Qarabağda yaşayan bir qrup erməni sakini könüllü və öz iradələri çərçivəsində sərbəst hərəkət etmək (freedom of movement) hüququndan istifadə etməyə başlayıblar. Azərbaycan sərhədçiləri onların “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsindən təhlükəsiz, maneəsiz və sivil qaydada keçmələrini təmin edib. Biz Qarabağ ermənilərinin məsuliyyətli vətəndaş kimi Azərbaycanın qanunları ilə yaşamaq və yaxud başqa məskunlaşma yeri seçmək kimi alternativlərdən faydalanmaq hüququna hörmətlə yanaşırıq. Çünki dünyada hər bir şəxsin yaşamaq üçün yer seçməyi universal hüququdur. Bu hüquqa beynəlxalq və milli qanunvericilikdə tam təminat verilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Azay Quliyev söyləyib.

Onun sözlərinə görə, Azərbaycan Konstitusiyasının azadlıq hüququ adlı 28-ci maddəsinin III yarımbəndində deyilir: "Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər".

Bu gün bir qrup erməni sakininin bu hüquqdan istifadə etməsi ona açıq işarədir ki, rəsmi İrəvanın BMT Təhlükəsizlik Şurasında üzləşdiyi fiaskonu görən Qarabağ erməniləri Ermənistanın və onun Xankəndidə yaratdığı oyuncaq xunta rejiminin girovluğunda bundan sonra qalmaq və onların oynadıqları ucuz oyunun alətinə çevrilmək istəmirlər. Bu reallığı nəhayət dərk etmək Qarabağ erməniləri üçün irəliyə doğru atılmış müsbət addımdır.

“Digər bir müsbət addım isə o olardı ki, sağlam düşüncəli Qarabağ erməniləri özlərində cəsarət tapıb bir araya gəlsinlər və Azərbaycanın qanunları çərçivəsində reinteqrasiya prosesində fəal iştirak etməyə hazır olduqlarını bəyan etsinlər. Belə bir sağlam yanaşma yalnız ermənilərin maraqlarına, onların vaxt itirmədən normal və qanuni şəkildə Azərbaycanda yaşamalarına xidmət etmiş olardı. Reinteqrasiyanın alternativi yoxdur və bu proses tezliklə öz məntiqi sonluğuna çatacaq”, - deyə deputat əlavə edib.

**AZƏRTAC**
**2023, 24 avqust**

**Ceyhun Bayramov: Humanitar yükün gətirilməsi istiqamətində Ermənistan siyasi manipulyasiya xəttini tutub**

"Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin təsis olunmasını həzm edə bilməyən Ermənistan hərbi və siyasi təxribatlara əl atır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov avqustun 24-də Belçikanın xarici işlər naziri Hadija Labib ilə birgə keçirdiyi brifinq zamanı deyib.

Humanitar yükün gətirilməsi istiqamətində Ermənistanın siyasi manipulyasiya xəttini tutduğunu deyən nazir bildirib: "Humanitar yardımın siyasiləşdirilməsi yolverilməzdir. Əgər bir tərəf humanitar yardımı yalnız bir yolla qəbul edib, digər yoldan imtina edirsə, bu, humanitar yardımın siyasiləşdirilməsidir ki, Ermənistan tərəfi belə addım atır".

**AZƏRTAC**
**2023, 24 avqust**

**Azərbaycanın xarici işlər naziri: Yolların məqsədli şəkildə bloklanması qəbuledilməzdir**

Laçın yolundan Ermənistanın qanunsuz istifadə halları barədə belçikalı həmkarıma məlumat verdim. Bildirdim ki, Azərbaycan bunun qarşısını almaq üçün sərhəd-keçid məntəqəsi qurdu. Bundan sonrakı dönəmdə bunu həzm edə bilməyən Ermənistan təxribatlara əl atıb.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov avqustun 24-də Belçikanın xarici işlər naziri Hadija Labib ilə birgə keçirdiyi brifinq zamanı deyib.

Yolların məqsədli şəkildə bloklanması kimi addımların qəbuledilməz olduğunu deyən nazir qeyd edib: "Bu, beynəlxalq normalara uyğun deyil. Laçın yolu məsələsinin siyasiləşdirilməsi doğru addım deyil".

**AZƏRTAC**
**2023, 24 avqust**

**Türkiyə mediasında Laçın həqiqətlərindən bəhs edilib**

Türkiyənin https://www.manisameydangazetesi.com.tr xəbər portalında "Laçın, ay Laçın" sərlövləli məqalə yayımlanıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan Dərnəklər Dostluğu Federasiyasının Dil Tarixi bölməsinin rəhbəri, yazar Seyfettin Ayakyayın qələmə aldığı məqalədə Azərbaycanın Laçın yolu ilə bağlı Ermənistanın dünya ictimaiyyətini aldatmağa cəhd göstərməsindən bəhs edilib.

Türkiyə Xarici İşlər Nazirliyinin bu məsələ ətrafında yaradılmış süni hay-küylə bağlı Azərbaycanın mövqeyini tam dəstəklədiyi diqqətə çatdırılıb. Müəllif bildirib ki, həmin bəyanatda Laçın yolunda Azərbaycana qarşı tənqidlərin əsassız olduğu, Azərbaycan tərəfinin Laçın vasitəsilə tibbi təxliyənin təmin edilməsi və irrasional yüklərin daşınması üçün digər münasib marşrutların ayrılması üçün səy göstərdiyinin qeyd edildiyi vurğulanıb. Türkiyə XİN-in Ermənistanı təcavüzkar addımlardan çəkinməyə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımağa, Qarabağda yaşamaq istəyən erməni xalqının ehtiyaclarını ödəmək üçün həm Ağdam-Xankəndi, həm də digər alternativ yollardan istifadəyə, Azərbaycanın erməni əhalisi ilə reinteqrasiya səylərini dəstəkləməyə çağırdığı bildirilib.

Diqqətə çatdırılıb ki, Laçın yolu ilə bağlı Ermənistanın təxribatçı yalanına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyi rəsmi İrəvanı "BMT Təhlükəsizlik Şurasını manipulyasiya kampaniyası vasitəsinə çevirmək cəhdində" ittiham edib.

Müəllif bildirib ki, Azərbaycan əleyhdarlarının qərəzsizliyinə, ədalət hissinə artıq heç kim inanmır. O, həmin qüvvələrə Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətləri, o cümlədən Zori Balayanın azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə dəhşətli etirafını xatırladıb. "...bu gün Qarabağda azərbaycanlıların kütləvi qəbiristanlıqlarının üstü açılıb. Ermənilər hələ də narkotiklərin daşınması üçün ictimai yaşayış yerlərində gizli şəkildə minalar qoyurlar... Soruşmaq lazımdır: 30 il harada gizlənmisiniz?".

Laçının qədim Azərbaycan torpağı olduğunu vurğulayan müəllif 10 il sədri olduğu Manisa-Azərbaycan Mədəniyyət Dərnəyi tərəfindən illər öncə təşkil olunan konserti xatırladıb. O, 500 nəfərin qatıldığı həmin konsertdə Azərbaycanın məşhur opera ifaçısı Lütfiyar İmanovun "Ay Laçın" mahnısını oxuyarkən konsertin "ağlaşma yerinə" çevrildiyini qeyd edib: "Laçın ifası 1914–1920-ci illərdə vətənlərindən, İrəvandan, Gümrüdən gəlmiş ailələrin ah-naləsi ilə inildəyirdi...".

Məqalənin sonunda xəbər verilib ki, TADDEF-in təşkilatçılığı ilə Türkiyənin müxtəlif şəhərlərindən olan 41 jurnalist Azərbaycan jurnalistləri ilə birlikdə mətbuat konfransları keçirəcək və Qarabağ bölgəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdıracaq.

Məqaləni aşağıdakı linklərdən daha ətraflı oxumaq mümkündür:
https://www.manisameydangazetesi.com.tr/yazarlar/seyfettin-ayakyay/lacin-ay-lacin/1542/
https://egedenge.net/lacin-ay-lacin/
https://kulahaberleri.com/lacin-ay-lacin/
https://www.kanal45.com/lacin-ay-lacin-makale,1095.html .

**AZƏRTAC**
**2023, 24 avqust**

**Mərakeşin “l'Opinion” nəşrində erməni təxribatları haqqında məqalə dərc olunub**

Mərakeşin fransızdilli “l'Opinion” nəşrində "Azərbaycan-Ermənistan: Qarabağda erməni təxribatları fonunda münasibətlərin kövrək normallaşma prosesi” sərlövhəli məqalə yerləşdirilib.

Azərbaycanın Mərakeşdəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalənin müəllifi ölkəmizin Mərakeşdəki səfiri Nazim Səmədovdur.

Materialda deyilir ki, 44 günlük müharibədə qalib gəldikdən sonra Azərbaycan Ermənistana beynəlxalq hüquq prinsiplərinə, ərazi bütövlüyünə, suverenliyə və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmətə əsaslanan münasibətlərin normallaşdırılması prosesinə başlamağı təklif edib. Buna baxmayaraq, İrəvan Qarabağ rayonu ilə sərhəd bölgələrində gərginliyin davam etməsində israrlıdır və bununla da bütün regionun gələcəyini təhlükə altına qoyur.

Nazim Səmədov yazır: "Normallaşma prosesi üç mərhələdən ibarətdir: sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması. Azərbaycan bütün istiqamətlərdə irəliləyişin əldə edilməsinə sadiq qaldığı bir vaxtda, Ermənistan yalanlar yayaraq və təxribatlar törədərək, müxtəlif bəhanələrlə sülh prosesini pozmağa çalışır. Halbuki, bu ölkənin rəhbərliyi ölkələr arasında sülhün bərqərar olmasının açacağı inkişaf perspektivlərini çox gözəl dərk edir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sözdə tanıyaraq, eyni zamanda, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə hücumları davam etdirir, onun daxili işlərinə müdaxilə edir və bununla əməllərinin sözlərinə zidd olduğunu göstərir".

Məqalədə vurğulanır ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü bəndində təsbit edilmiş öhdəliyə zidd olaraq, Ermənistan indiyə qədər öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmayıb. İrəvan Azərbaycanın yerli erməni əhalisinin reinteqrasiya prosesinə mane olmağa çalışır. Ermənistanın əsas niyyəti münasibətlərin normallaşdırılması prosesini mümkün qədər uzun müddətə uzadaraq ləngitmək və bununla da Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş siyasi proqramının həyata keçirilməsi üçün vaxt qazanmaqdır.

"Azərbaycan Ermənistanın yaydığı "blokada" və ya "humanitar böhran" haqqında bütün əsassız iddiaları qəti şəkildə rədd edir. "Laçın” adlandırılan dəhlizə gəldikdə, bu, Azərbaycanın suveren ərazisində yerləşən yoldan başqa bir şey deyil. Qeyd etmək lazımdır ki, bu marşrut xarici statusa malik deyil. Azərbaycan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq, bu yolda hərəkəti qoruyub saxlayıb. Lakin Ermənistan yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş bu marşrutdan Azərbaycanın suveren ərazisindən çıxarmadığı 10 minə yaxın qanunsuz silahlı birləşmələri rotasiya etmək üçün istifadə edib", - deyə “l'Opinion” nəşrində bildirilir.

Oxucuların diqqətinə çatdırılır ki, 2023-cü il aprelin 23-də Azərbaycan öz suverenliyi və təhlükəsizliyini qorumaq üçün öz suveren hüququnu həyata keçirərək, Laçın yolunun əvvəlində - Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədində sərhəd nəzarət-buraxılış məntəqəsi yaradıb.

Məqalədə, həmçinin beynəlxalq ictimaiyyətə Ermənistanın sülh prosesini pozmaq cəhdlərinə qətiyyətlə qarşı çıxmağa çağırış edilir. Yazıda qeyd olunur ki, bəzi ölkələrin etdiyi kimi, birtərəfli və qeyri-obyektiv bəyanatlar və hərəkətlərlə İrəvanı ruhlandırmaq əvəzinə, beynəlxalq ictimaiyyət Ermənistanı danışıqlar masasına qaytararaq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətləri dayandırmağa məcbur etməlidir.

Məqalənin tam mətni ilə nəşrin saytında tanış olmaq olar.

**AZƏRTAC**
**2023, 24 avqust**

**Almaniyalı alim Mixael Raynhard Hess: Okamponun rəyi erməni maraqlarına onun güclü dəstəyini ifadə edir**

Almaniyalı tanınmış alim, Qafqaz regionunun tədqiqatçısı Mixael Raynhard Hess Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru Luis Moreno Okamponun qərəzli rəyi ilə bağlı müfəssəl və əsaslandırılmış açıq etiraz məktubu göndərib və onu özünün feysbuk səhifəsində paylaşıb.

AZƏRTAC həmin məktubu təqdim edir:

"Hörmətli Luis Moreno Okampo,

Aşağıdakı açıq məktubdur və mən onu həm sizə göndərirəm, həm də eyni vaxtda feysbuk səhifəmdə paylaşıram.

Mən "Dağlıq Qarabağ" məsələsi ilə bağlı bir sıra kitablar və məqalələr dərc etdirmiş tədqiqatçı kimi, mövzu ilə bağlı avqustun 7-də dərc etdiyiniz ekspert rəyinə bəzi şərhlər verməyə cəsarət edirəm.

Təəssüf ki, sizin erməni maraqlarına güclü dəstəyinizi ifadə edərkən irəli sürdüyünüz bəzi iddialar açıq-aşkar diqqət yayındırmasa da, ən azı birmənalı deyil. Sizin "Ermənilər tərəfindən "Artsax" kimi tanınan "Dağlıq Qarabağ"da əsasən etnik ermənilər yaşayıblar və XX əsrdən çox müddət ərzində orada yaşayıblar" (6-cı səhifə) fikriniz tarixi keçmişdən xəbəri olmayanlar tərəfindən "Artsax" adlandırılan bölgənin 20 əsrdən artıqdır ki, etnik ermənilərin məskunlaşdığı ərazi kimi şərh edilə bilər. Düzdür, sizin fikirləriniz qeyri-müəyyən olduğu üçün başqa cür şərh oluna da bilər. Məsələn, bu, ermənilərin 20 əsrdir orada yaşadığını söyləmək kimi başa düşülə bilər. Lakin bu, onların mütləq üstünlük təşkil etməsi anlamına gəlmir. Çox istərdim ki, bu cür qeyri-müəyyənlik aradan qaldırılsın. Dünyanın aparıcı hüquqşünaslarından biri kimi, çox mühüm məsələlərdə anlaşılmazlığın aradan qaldırmağın nə qədər vacib olduğunu bilirsiniz.

Faktiki mahiyyətə gəldikdə isə heç bir erməni etimologiyası olmayan "Artsax" sözünün mənasının sizin qeyd etdiyiniz xronoloji sıralamada həqiqətən təsdiqlənə biləcəyi şübhə doğurur. Strabonun (təqribən e.ə.63–e.23) qeyd etdiyi "Orçistena" toponiminin (Bax, Mamedovanın istinad etdiyi erməni müəllifi Vardqes Mikaeljanın əsərləri, 1995: 110) "Artsax" ilə eyniləşdirilməsinin mümkünlüyünə dair erməni iddiaları yalnız spekulyativ xarakter daşıyır. Məndə olan məlumata görə, erməni dilinə heç bir aidiyyəti olmayan "Artsax" toponimi bizim eranın V əsrinədək geniş yayılmamışdı. Əlbəttə, nə bizim eranın başlanğıcı, nə də V əsrdən sonrakı dövrlər daxil olmaqla sonrakı müasir dövrlər üçün bizdə dəqiq demoqrafik statistika yoxdur. Bu o deməkdir ki, sözügedən bölgədə "əsasən ermənilərin yaşadığı" barədə fikrinizin bir şərhi də sadəcə olaraq spekulyativ xarakter daşıyır.

Bununla əlaqədar onu da xatırlatmaq istərdim ki, "Dağlıq Qarabağ" termini 1918-ci ildən sonra yaranmışdır və "Artsax" termini ən azı 1045-ci ildən 1921-ci ilə qədər rəsmi siyasi və ya inzibati termin kimi istifadə edilməmişdir. "Dağlıq Qarabağ" termininin ilk istifadəsinə gəlincə isə bu, ilk dəfə çox güman ki, Qarabağ ermənilərinin iyulun 22-dən 26-dək Azərbaycanın Şuşa şəhərində keçirilmiş I qurultayında istifadə edilib (ətraflı məlumat üçün bax: Mikaeljan et al. 1992: 13).; Avakian 2021 [2005]: 5; müq.Vəliyev/ Şirinov 2016: 66). Sizin öz versiyanızda dediyiniz kimi, əsrlər boyu fasiləsiz olaraq bu günə qədər işləndiyi güman edilən bir termin kimi görünən "Artsax" termini ən azı 1921-ci ilə qədər hətta ermənilərin özləri tərəfindən geniş istifadə edilməmişdi. Bunu, məsələn, Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 12 iyun tarixli bəyannaməsi də sübut edir (rus dilində "Sovet narodnıx komissarov"). Bu bəyannamənin biri rus, biri erməni olmaqla iki versiyası mövcuddur. Erməni dilindəki versiyada rus dilindəki "Dağlıq Qarabağ" termini (rus dilində qeyd edilmiş) ermənicə "Լեռնային Ղարաբաղ" (Lēṙnayin Łarabał) "Mountainous Karabakh" (bax: Mikaeljan et al. 1992: 636) erməni ifadəsi ilə tərcümə edilmişdi və bu ifadə ermənicə "dağlıq" sözündən və həm tarixi, həm də etimoloji cəhətdən Azərbaycan toponimi olan "Qarabağ" sözünün erməni dilində transkripsiyasından ibarətdir. Lakin bu sənəddə "Artsax"dan əsər-əlamət yoxdur. Qarabağın ənənəvi azərbaycanca adının əvəzində "Artsax"dan istifadə yalnız sonradan həm Sovet İttifaqı daxilində, həm də xaricdə erməni separatçı, şovinist və anti-Azərbaycan təbliğatı nəticəsində yayılmağa başlayıb. Eyni zamanda, bölgənin ənənəvi adı olan "Qarabağ" əsrlər boyu müxtəlif inzibati və siyasi sənədlərdə istifadə olunub və bu günə qədər istifadə olunmaqdadır (mövzu ilə bağlı bax: Heß 2020). Əgər fikirləşdiyiniz kimi, "Artsax" belə mühüm inzibati-siyasi, hətta tarixi toponim idisə, nə üçün Ermənistan SSR-in aparıcı siyasi orqanlarından birinin üzvləri 1921-ci ildə Azərbaycan sözündən istifadə etməli idilər? 1045-ci ilə istinad etməyimə gəlincə isə, bu, həqiqətən də Antik və Orta əsrlər dövründə mövcud olan Artsax vilayətinin erməni dövlətinin bir hissəsi olduğunu söyləməyin mümkün olduğu son il idi (Kalpakian 1993: 112). O vaxta qədər bu əyalətin tabe olduğu Baqratid Krallığı 1045-ci ildə Bizans imperiyasının (Asenbauer 1993: 21; Krikorian 1993: 71, 74), 1064-cü ildə isə Səlcuqların hakimiyyəti altına keçdi

(Vryonis 1971: 89; Asenbauer: 391912; : 71, 74) və onun sovet Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) ilə qismən üst-üstə düşən ərazisi sonralar heç vaxt erməni siyasi idarəçiliyi altına keçməyib. Bu mövzuda sitat gətirdiyiniz yeganə (qeyri-ekspert, jurnalist) istinadda (Light və Fulconbridge) iddia edilir ki, "Xristian olan ermənilər bu ərazidə eramızdan bir neçə əsr əvvələ qədər uzanan uzun tarixi hökmranlıq etdikləri iddiasındadırlar. Bununla belə, ərazidə (Qarabağ) iddia edilən "hakimiyyət" 1045-ci ildən sonra sona çatdığı üçün onun "qədim tarixə" aid olduğunu söyləmək olmaz. Təəssüf ki, Qarabağın tarixini şərh etmək üçün əsas kimi görünən yeganə istinadınız açıq şəkildə təhrifə əsaslanır.

Bu məqamda, icazə verin, Layt və Faulkonbricin (Felix Light and Guy Faulconbridge) xülasəsindəki başqa bir yanlışlığı diqqətinizə çatdırım. Deyilir ki, "Əsrlər boyu anklav farsların, türklərin, rusların, osmanlıların və sovetlərin təsiri altına düşüb". Bu, uydurma bəyanatdır, çünki Qarabağın heç bir hissəsi, o cümlədən "Dağlıq Qarabağ" heç vaxt anklav olmayıb. Ümumiyyətlə, Layt və Faulkonbric nə etibarlı mənbə, nə də etibarlı tarixçilər hesab edilə bilməz. Onların son dərəcə qısa jurnalist işi Ermənistan-Azərbaycan münaqişəsinə dair informasiya ilə heç bir əlaqəsi olmayan cızma-qaradır. Bu, Qarabağ tarixinin imicini formalaşdırmaq üçün yeganə əsas kimi istifadə edilməməlidir.

"Artsax" antik termini arasındakı fərqi aradan qaldıraraq və onun XX əsrdə erməni millətçiləri tərəfindən müasir şəkildə yenidən təqdim edilməsi ilə bağlı olan bu işiniz, əslində, eramızın əvvəllərindən erməni toponimik, demoqrafik, siyasi və tarixi davamlılığını təklif etmək istəyən millətçi erməni diskursunu təbliğ edir. Lakin belə bir davamlılıq yoxdur.

Tarixi xülasənizin qalan hissəsində də bəzi faktoloji tarixi səhvlər var. Yarımfəslə 1988-ci il 20 fevral bəyanatı (a) ilə başlamaqla siz bu bəyannamənin 1987-ci ildə və hətta ondan əvvəl başlamış sistematik millətçi və qismən şovinist, təcavüzkar erməni separatçı hərəkatının nəticəsi olduğu faktını ört-basdır etmiş olursunuz. Sizin "Dağlıq Qarabağ"ın Ermənistana verilməsini tələb edən qətnamə qəbul etdiyi" iddianız da həm də qərarın mətni kimi (yalnız Vilayət Şurasının bəzi deputatları tərəfindən qəbul edilmişdir, onun azərbaycanlı üzvləri Şuranı tərk etmişdilər) qismən doğrudur. Qətnamə mətninin rusca orijinalını mənim aşağıdakı tərcüməmdə nəzərdən keçirək:

"Dağlıq Qarabağ Muxtar Vilayətinin əmək qabiliyyətli əhalisinin istəklərinə uyğun olaraq Azərbaycan SSR Ali Sovetindən və Ermənistan SSR Ali Sovetindən xahiş edirik ki, Dağlıq Qarabağın erməni əhalisinin gözləntilərini nəzərə alaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsini həll etsin. Eyni zamanda, bu iki qurum Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsinin müsbət həlli ilə bağlı SSRİ Ali Soveti ilə vasitəçilik etsin".

Sizin mütəxəssis rəyinizi oxuduqdan sonra məndə belə bir təəssürat yarandı ki, bu sənəd həm tarixi fonun, həm də real vəziyyətin birtərəfli ermənipərəst şərhinə əsaslanır. Azərbaycanın "soyqırımı" törətmək üzrə olduğu fikrini dəstəkləyərək Rusiya Federasiyasının verdiyi bəyanatdan sitat gətirirsiniz və həmin sənədin qəbul edilməsini "diqqətçəkən" hesab edirsiniz (səh.8). Bu bəyanatda deyilir ki, bölgədəki Rusiya sülhməramlıları "Dağlıq Qarabağın mülki əhalisinin kütləvi şəkildə həlak olmasının qarşısını almalıdırlar". Hörmətimizi bildirərək bunu da qeyd etməliyik ki, bu bəyanatı verən hökumət 1945-ci ildən bəri Avropanın ən dəhşətli müharibələrinə imza atmış, saysız-hesabsız qətllər və dəhşətli müharibə cinayətləri törətmiş, yalanlarla məşhur olan qurumlardan biridir. Ən önəmlisi isə ən azı 118 ildir ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə məsuliyyət daşıyan və Dağlıq Qarabağda ermənilər tərəfindən törədilən hərbi cinayətlərdə və insanlıq əleyhinə cinayətlərdə həm də hərbi yolla iştirak etmiş ən önəmli güc strukturlarından biridir. Bu bəyanatı necə legitim hesab etmək olar? Belə bir bəyanat terrorizmi qanuniləşdirərək, tənqidi kontekstdən kənardır. Yaxud tarixi və ya siyasi faktlarla nisbiləşdirmədən sitat gətirmək yalnız Rusiya və Ermənistan təbliğatının maraqlarına xidmət edir və reallığın faktiki imicini yaratmağa heç bir fayda vermir.

Sonda isə onu qeyd etmək istəyirəm ki, Qarabağda "aclıq soyqırımı"nın baş verməsi ilə bağlı arqumentlərinizi həqiqətə uyğun hesab etmirəm. Məqalənizin 13-cü səhifəsində siz Soyqırımı Konvensiyasının II (c) maddəsinin tərtibi ilə əlaqədar Fransa tərəfindən edilmiş soyqırımla bağlı qeydə istinad edirsiniz. Fransanın mətnində deyilir ki, "[i]hər hansı bir qrup [sic – M. R. H.] sadəcə, müəyyən bir millətə, irqə və ya dinə mənsub olduğu üçün yox olmasını qaçılmaz edəcək qədər qısa rasiona yerləşdirilsəydi, bu da gerçəkləşərdi. Soyqırımı cinayət kateqoriyasına daxildir".

Siz həqiqətən 120 min nəfərlik bir icmanın (bu, Ermənistanın iddia etdiyi rəqəmdir) Qarabağın geniş dağlıq rayonları kimi münbit bir bölgədə, təsərrüfatın və heyvandarlığın mümkün olduğu, sovet dövründə yüksək inkişaf etdiyi (Sovet İttifaqı zamanı təsərrüfatın əhəmiyyəti mövzusunda "Xlevnik 2018" sənədinə

istinad edirəm) və təbii su ehtiyatlarının kifayət qədər olduğu ərazidə yayın ortasında aclıqdan ölə biləcəyinə inanırsınız?! Məqalənizdən də məlum olduğu kimi, separatçı ərazilərdən ağır xəstələrin təxliyəsi üçün tədbirlər görülüb. Bu, həm də təhlükəli qida çatışmazlığından əziyyət çəkən insanların çıxarıla biləcəyi deməkdir. Məqalənizdə aclığın (sizin mətninizin 15-ci səhifəsində göstərildiyi kimi) həqiqətən baş verdiyinə və ya bir qrup olaraq Dağlıq Qarabağ ermənilərini təhdid edə biləcəyinə dair hər hansı müsbət sübut və ya işarə yoxdur.

Hüquqşünas olmadığım üçün Beynəlxalq Ədalət Məhkəməsinin ilkin qərarı (səh. 15) ilə yerdəki reallıq arasında uyğunluq dərəcəsini ölçə bilmirəm. Bununla belə, hüquqşünas olmayan biri kimi belə görürəm ki, hətta Beynəlxalq Ədalət Məhkəməsi Qarabağın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "soyqırımı"ndan fakt kimi deyil, sadəcə, "inandırıcı" yanaşmasından danışır (səh. 15). İddia olunan blokadaya gəldikdə isə Beynəlxalq Ədalət Məhkəməsi bildirir ki, bu, - 16-cı səhifədə qeyd olunduğu kimi, - çox əhəmiyyətli müəyyən hüquqlar üçün "düzəldilməz nəticələrə səbəb ola bilər" (vurğulayıram). Bu isə onu bildirə bilərdi ki, həmin nəticələr yalnız bir ehtimaldır, müəyyən edilmiş fakt deyil.

Mətninizin əsas diqqət mərkəzində olan sırf hüquqi baxımdan kənar - Laçın dəhlizində Azərbaycan sərhəd-keçid məntəqəsinin yaradılmasının soyqırımına hazırlıq vasitəsi kimi şərh oluna biləcəyi ilə bağlı iddianıza inanmıram. Bir çox ölkələrin, o cümlədən ABŞ və Avropa İttifaqının xarici sərhədləri olan ölkələrinin insan və malların qaçaqmalçılığının qarşısını almaq məqsədilə oxşar sərhəd-keçid məntəqələri var, lakin onlar soyqırımı hazırlamaqda ittiham olunmur.

Prezident İlham Əliyevin qeyd etdiyi qaçaqmalçılıq hadisəsi ilə bağlı təhlilinizdə başqa bir ziddiyyətli məqam görürəm (səh. 20). Siz bir tərəfdən yazırsınız ki: "Beynəlxalq Qırmızı Xaç Komitəsi hadisəyə aydınlıq gətirib". Digər tərəfdən, eyni səhifədə yazırsınız ki: "Qaçaqmalçılıq halları düzgün araşdırılmalıdır...". Bir hadisəyə aydınlıq gətirilib, amma, eyni zamanda, "araşdırılmalıdır" deməyiniz tutarlı görünmür, ən azı mənim gözümdə. Əgər araşdırmalar hələ də aparılmalıdırsa, bu o deməkdir ki, hər şey aydınlaşdırılmayıb.

Bir daha qeyd edirəm ki, mən nə hüquqşünas, nə də soyqırımı üzrə mütəxəssis deyiləm. Bir şəxsi və ya bir dövləti soyqırımı törətməkdə ittiham etmək mənə mümkün olan ən sərt ittihamlardan biri kimi görünür. Nəticə etibarilə belə bir ittiham yalnız onun etibarlılığına dair bütün şübhələr tamamilə aradan qaldırıldıqda verilməlidir. Açığını deyim ki, mətninizə daxil etməyi seçdiyiniz tarixi məqalədəki qüsurlar və qeyri-dəqiqliklər, eləcə də burada aydın görünən ziddiyyətlər, mənim fikrimcə, hökmün tələb olunduğu qədər etibarlı və aydın ola bilməyəcəyini göstərir.

Hörmətlə,
Dr. Mixael Raynhard Hess".

**AZƏRTAC**
**2023, 24 avqust**

## BMT-dəki daimi nümayəndəliyimiz Ermənistan nümayəndəliyinin təşkilatın mənzil-qərargahında keçirdiyi gizli iclası pisləyib

Ermənistanın BMT yanındakı Daimi Nümayəndəliyi Təşkilatın mənzil-qərargahında üzv ölkələrin əksəriyyətindən gizlincə iclas keçirib. Azərbaycanın BMT yanındakı Daimi Nümayəndəliyi erməni diplomatların bu davranışını pisləyərək, onları dünya təşkilatının platformasından “sui-istifadə etməkdə” suçlayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın BMT yanındakı Daimi Nümayəndəliyinin avqustun 24-də yaydığı press-relizində bildirilib.

Məlumatda deyilir: “Avqustun 23-də Ermənistanın BMT yanındakı Daimi Nümayəndəliyi Laçın yolu ilə bağlı BMT-nin mənzil-qərargahında ədat üzrə dezinformasiya yaymaq və vəziyyəti təhrif etmək məqsədi daşıyan növbəti təxribat xarakterli tədbir keçirib. Birləşmiş Millətlər Təşkilatının formalaşmış ənənələrini kobud şəkildə pozaraq Ermənistanın daimi nümayəndəliyi BMT üzvlərinin böyük əksəriyyətindən gizlincə yalnız kiçik bir qrup ölkələri və qərəzli ekspertləri dəvət edərək bütün digər BMT üzvlərinə qapıları bağlayaraq, hətta sadəcə olaraq nəyin bahasına olursa-olsun vicdanlı müzakirələrdən qaçınmaq və qaçılmaz ifşadan özünü qorumaq üçün iclas otağının qarşısında mühafizə yerləşdirərək qapalı iclas təşkil edib. Məlum olduğu kimi, BMT-nin divarları daxilində ictimai müzakirələr, həqiqətən də, qərəzsiz və vicdanlı fikir mübadiləsinə yönəldiyi hallarda, açıq formatda, üzv dövlətləri tədbirin vaxtı və yeri barədə öncədən bilgiləndirməklə və qatılmağa dəvət etməklə keçirilir. Beləliklə, erməni diplomatların seçdiyi format bu platformadan mütəmadi olaraq yalan xəbərlər yaymaq üçün sui-istifadə edən Ermənistanın halında olduğu kimi getdikcə adətə çevrilməsəydi, BMT üçün misilsiz adlandırıla bilərdi. Bu kontekstdə Ermənistanın Daimi Nümayəndəliyinin bütün BMT üzvlərinin müzakirəyə qatılmaq üçün elementar hüququndan nəinki imtina etdiyi, hətta onları polislə hədələdiyi bir neçə ölkənin diplomatlarının çaşqınlığını və hiddətini başa düşmək asandır. Xarakterikdir ki, bir neçə gün öncə BMT Təhlükəsizlik Şurasının iclasında olduğu kimi, Ermənistan həqiqətən də açıq və substantiv müzakirələr zamanı layiqli və faktiki dəqiq cavab aldıqdan sonra bu cür meyllər daha da güclənir. Təəccübləndirmir ki, açıq debatlarda Azərbaycana növbəti dəfə böhtan atmaq cəhdlərinin nəticəsizliyi ilə üzləşən Ermənistanın Daimi Nümayəndəliyinin bunu gizli, bağlı qapılar arxasında etməkdən başqa çarəsi yoxdur. Aydındır ki, bu cür yanaşma BMT Nizamnaməsinin ruhu və hərfi, Təşkilatın məqsədləri ilə bir araya sığmır. Beləliklə, təsadüfi deyildi ki, BMT Katibliyi konfrans zalının məlumat ekranında bu tədbirin sponsor ölkəsi olan Ermənistanın təşəbbüsü və yalnız məsuliyyəti ilə keçirildiyi barədə xüsusi qeyddə bunun BMT tərəfindən təsdiqlənmədiyi və çoxtərəfli prosesin bir hissəsi olmadığını bildirib. Azərbaycanın Daimi Nümayəndəliyi bu qəbildən olan təxribat xarakterli hərəkətləri, o cümlədən münasibətlərin normallaşdırılması və regionda davamlı sülh və sabitliyin bərqərar edilməsi səylərinə xələl gətirən yanlış interpretasiyaların formalaşdırılması və təşviq edilməsi üçün BMT platformasından sui-istifadəni pisləyir”, - deyə məlumatda qeyd olunur.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Prezident İlham Əliyev: İlin sonuna qədər Laçında bir neçə min sakin yaşayacaq**

Mayın 28-dən Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Bu ilin sonuna qədər bir neçə min həm şəhər sakininin, həm kənd sakininin Laçında yaşayacağını bildirən dövlətimizin başçısı bunun böyük xoşbəxtlik olduğunu deyib: "Bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir. Fürsətdən istifadə edərək bütün şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edir, onlara Allahdan rəhmət diləyirik. Onların qanı-canı bahasına, qəhrəman övladlarımızın şücaəti hesabına bu gün biz buradayıq, bu gün biz doğma torpağımızda bayram şənlikləri keçiririk. Bundan böyük xoşbəxtlik ola bilməz", - deyə Prezident qeyd edib.

**AZƏRTAC**
**2023, 26 avqust**

**Azərbaycan Prezidenti: Laçının işğalı böyük bir fəlakət idi**

Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı səsləndirib.

Dövlətimizin başçısı deyib: "Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. May ayı müstəqil Azərbaycanın tarixində bu iki faciəvi günlə əlaqəli idi. Yəni, bizim müstəqil həyatımızda may ayı faciəli bir ay idi - çünki 8 mayda Şuşa, 18 mayda Laçın işğal edildi. İşğal bizi içəridən sarsıdırdı və bu işğal digər torpaqlarımızın işğal altına düşməsinin başlanğıcı idi. Çünki birinci Şuşa, ondan sonra Laçın işğal olunmuşdur".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident: Biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik**

Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı bildirib.

"Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Torpaqlarımıza qayıtmaq üçün müharibənin yeganə çıxış yolu olduğunu söyləyən Prezident qeyd edib: "Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident İlham Əliyev ermənilərin Laçında törətdikləri hərbi cinayətlərdən danışıb**

İndi biz Laçını qurub-yaradırıq. Laçına keçən ilin sentyabrında gələndə şəhərin mənzərəsi çox acınacaqlı idi, şəhər demək olar ki, dağılmış vəziyyətdə idi. Köhnədən qalan, işğaldan əvvəlki dövrə aid olan bir neçə yöndəmsiz bina mövcud idi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı deyib.

Ermənistan dövlətinin hərbi cinayət törədərək vaxtilə Laçında qanunsuz məskunlaşma apardığını xatırladan dövlətimizin başçısı bildirib: "Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri buraya dəvət edib onları bizim, azərbaycanlıların evlərində yerləşdirmişdilər. Bir daha demək istəyirəm ki, bu hərbi cinayətdir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, Ermənistanın havadarları buna göz yumurdular. Bu, onlar üçün məqbul idi. Çünki Ermənistan dövləti kimi, Ermənistanın xaricdəki havadarları da hesab edirdilər ki, bu torpaqlar əbədi işğal altında qalmalıdır. Bizim iradəmiz, bizim gücümüz, bizim yumruğumuz onların da başına dəydi. Çünki bizim torpağımızda ikinci Ermənistan, ikinci erməni dövlətinin yaradılması təkcə Ermənistan rəhbərliyinin məhsulu deyildi".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident: 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir**

Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı bildirib.

Bununla əlaqədar ölkəmizə qarşı təzyiqlərin, hədə-qorxuların olduğunu, bunun bu gün də davam etdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. "Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq", - deyə Azərbaycan Prezidenti əlavə edib.

**AZƏRTAC**
**2023, 26 avqust**

**Azərbaycan Prezidenti: Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük**

Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və demişdim ki, torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Əlli yaşını Ağcabədidə, 60 yaşını Şuşada, Cıdır düzündə qeyd etdiyini xatırladan dövlətimizin başçısı bildirib: "Bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident İlham Əliyev: Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz**

Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Bizə qarşı aparılan kampaniyanın, çirkin təbliğatın iradəmizə təsir edə, bizi yolumuzdan döndərə bilməyəcəyini xatırladan dövlətimizin başçısı vurğulayıb: "Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".

Azərbaycan xalqının qurub-yaradan xalq olduğunu söyləyən Prezident İlham Əliyev deyib: "Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Adil Əliyev: "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması ölkəmizin legitim hüququ və onun gücünün təcəssümüdür**

Avqustun 26-sı "Laçın Şəhəri Günü"dür və bu təqvim ölkəmiz üçün olduqca əlamətdardır. Şanlı Azərbaycan Ordusu məhz bu tarixdə 30 ilə yaxın müddət ərzində işğal altında qalmış Laçın şəhərinə, Zabux və Sus kəndlərinə daxil olaraq, onları tam nəzarətə götürdü. Böyük Qayıdış Proqramı çərçivəsində artıq Laçına ilk köç başlayıb və Laçın yenidən qurulur. Uzun illər dədə-baba yurd-yuvasından, evlərindən məcburi köçkün düşmüş həmvətənlərimiz öz doğma yurdlarına geri qayıdırlar. Məhz bu gün şahidlik etdiyimiz tarixi anlar dövlət başçısının iradəsi və rəşadətli Ordumuzun əzmi sayəsində mümkün oldu.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

44 günlük Vətən müharibəsinin gücümüzü dünyaya nümayiş etdirdiyini, beynəlxalq müstəvidə tanınmış ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edildiyini xatırladan A.Əliyev bildirib: "Bu gün şanlı Azərbaycan Bayrağının işğaldan azad edilmiş ərazilərdə dalğalanması Qələbəmizin ən böyük sübutudur.

Tarixi Zəfərimizdən sonra ən böyük hadisələrdən biri də məhz dövlət sərhədimizin yaradılması oldu. Sərhədin toxunulmazlığı dövlətin qüdrətini təcəssüm etdirir. Bu məqsədlə də bu ilin 23 aprel tarixində Laçın rayonunda Həkəri çayının üzərində "Laçın" sərhəd-buraxılış məntəqəsi fəaliyyətə başladı. Azərbaycan-Ermənistan sərhədi təsis edilməklə ölkələr arasında keçidin, hərəkətin təhlükəsizliyi təmin edildi. "Laçın" sərhəd-buraxılış məntəqəsi erməniəsilli Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etməklə bərabər, həm də işğal altındakı ərazilərimizdə vaxtilə yerləşdirilmiş qeyri-qanuni birləşmələrin rotasiyasının qarşısını alır. Terrorçu dəstələr vaxtilə sərhədin olmamasından istifadə edərək, rahat şəkildə hərəkət etmiş, eləcə də bu yoldan silah, sursat və başqa avadanlıqlar daşınmışdır.

Azərbaycanın legitim hüququ əsasında təsis edilmiş "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi terrorçuların silahlanmasının qarşısını almaqla bərabər, ölkəmizə məxsus olan sərvətlərin talanaraq aparılmasına imkan vermir. Sərhəd rejimi qısa müddət ərzində öz uğurlu nəticəsini verməkdədir. Uzun illər həmvətənlərimizə qarşı kütləvi soyqırımı cinayəti törətmiş Vaqif Xaçaturyan məhz "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində saxlanılmışdır. Bu gün Ermənistanın sərhəd buraxılış məntəqəsi ilə bağlı narahatlığının yeganə səbəbi də məhz terrorçuları himayə etməsi ilə bağlıdır".

Məğlubiyyətlə barışmaq istəməyən Ermənistanın havadarlarından güc alaraq siyasi manipulyasiyalara cəhd göstərdiyini vurğulayan Milli Məclis sədrinin müavini qeyd edib: "İlk növbədə, bunu dəqiqləşdirmək lazımdır ki, bu gün əsassız olaraq humanitar böhranın olmasını qeyd edən bəzi dairələr nəyə görə BMT-nin Ermənistanın Azərbaycana təcavüzünü pisləyən 4 qətnaməsi olmasına baxmayaraq, Ermənistandan işğala son qoymasını tələb etməmişlər. 30 il ərzində torpaqlarımızı təcavüz altında saxlayan Ermənistana törətdiyi cinayətlərə görə bir dəfə də olsun münasibət bildirməyiblər. Ermənistanın hər addımda haqsız mövqeyini dəstəkləyən "himayədarları"nın bugünkü bəyanatları kimə lazımdır?!

Azərbaycan dövlətinin humanistliyi hər kəsə məlumdur. Məhz Ermənistan kapitulyasiya aktına qol çəkəndən sonra ölkəmizin hərbi əməliyyatları dayandırması, erməniəsilli Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etməsi bunun sübutudur".

Deputat diqqətə çatdırıb ki, bu gün Azərbaycan humanitar yüklərin daşınmasına etiraz etmir. Bunun üçün hətta keçid də təklif edib ki, yüklər Ağdam-Xankəndi yolu ilə çatdırılsın. Əgər məqsəd yüklərin daşınmasıdırsa, bununla bağlı alternativ var, yox, Ermənistan hansısa havadarına güvənib qeyd edirsə ki, məhz yükləri "Laçın" sərhəd-buraxılış məntəqəsindən keçirməlidir, onda bu, mümkün olmayacaqdır.

"Biz Zəfər qazanmış dövlətik, heç kəs bizimlə şərtlə və ya hədə ilə danışa bilməz. Təəssüf ki, Ermənistan hələ də məkrli siyasətindən əl çəkmir. Hər kəsə məlumdur ki, Xankəndində yaşayan ermənilərin onlar üçün heç bir əhəmiyyəti yoxdur. Məqsədləri onlara yardım etmək deyil, hətta onların taleyi belə, onlar üçün maraqlı deyil. Belə olmasa idi, Xankəndində yaşayanların adlarından istifadə edərək təxribat törətməz, özlərini isə informasiya blokadasında saxlamazdılar", - deyə A.Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 26 avqust**

## "Laçın" buraxılış məntəqəsini həzm edə bilməyən Ermənistan dezinformasiya yaymaqla məşğuldur

Azərbaycan-Ermənistan sərhədində "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onu himayə edən qüvvələr dezinformasiya yaymaqla məşğuldurlar.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım deyib.

Deputat bildirib ki, onların iddialarına görə, guya biz Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirir və Qarabağ bölgəsində humanitar böhran yaradırıq. Rəsmi İrəvan bu cür cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirilən təcavüzkar siyasətlərinə fərqli don geyindirməyə çalışır.

F.Yıldırım "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasını ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addım olduğunu qeyd edib: "Laçın Azərbaycanın ərazisi olduğundan burada həyata keçirilən tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir. Sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir. Dövlət təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur".

Deputatın sözlərinə görə, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsi strateji əhəmiyyətə malikdir. Bu məntəqənin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərksilah olunması baxımından böyük önəm daşıyır. "Təsadüfi deyil ki, Prezident İlham Əliyevin cari ilin may ayında ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı bildirdi ki, "Azərbaycan-Ermənistan sərhədində "Laçın" dövlət buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib. Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir. Dövlətimizin başçısı Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağını da ABŞ rəsmisinin diqqətinə çatdırdı", - deyə Fatma Yıldırım qeyd edib.

Onun sözlərinə görə, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin qurulması böyük Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi Qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Deputat bu məntəqənin yaradılması və fəaliyyəti ilə bağlı heç bir qüvvənin dövlətimizin iradəsinə təsir edə bilməyəcəyini də vurğulayıb.

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezidentin "Laçın Şəhəri Günü"ndə verdiyi mesajlar anti-Azərbaycan kampaniyasına yekun zərbə oldu**

Prezident İlham Əliyevin Laçın şəhərində "Laçın Şəhəri Günü" bayram tədbirində iştirakı, Həkəri çayının sahilindən verdiyi mesajlar bu ilin aprelindən start verilmiş anti-Azərbaycan kampaniyasına yekun zərbə oldu.

İlk növbədə, 30 illik işğal periodunda daşı daş üstündə qoyulmayan, əksinə urbisid, ekosid və kulturasidə məruz qalan Laçında cəmi 8 aya şəhər salınması, 1000-ə yaxın Laçın sakininin doğma şəhərinə qayıdışının təmin olunması, il sonunadək isə daha 900 ailənin məskunlaşacağının bəyan olunması ilə Prezident İlham Əliyev dünyaya rəsmən göstərdi ki, geriyə yol yoxdur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov söyləyib.

Deputat bildirib ki, Laçın şəhəri, Zabux və Sus kəndləri hərbi Qələbəmizə əsaslanan siyasi məcburetmə formasında düşməndən azad edilib. Qanunsuz məskunlaşmış ermənilər aparılan işlər nəticəsində avqustun 25-də oradan çıxarılmışdır. Kapitulyasiya aktına müvafiq olaraq Azərbaycanın çevik tədbirləri nəticəsində vaxtından iki dəfə tez, ötən il avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Elə o zaman Prezident İlham Əliyev Laçın şəhərinə səfər edərək şəhərin mərkəzində Azərbaycan Bayrağını qaldıraraq "artıq bu doğma diyarımızda əbədi yaşayacağımızı" bəyan etdi.

Rusiya sülhməramlılarının himayəsində çoxsaylı alternativ kommunikasiya imkanları olan, eləcə də Laçın-Xankəndi yolunda yaradılmış şəraitdən sürətlə silahlanmaq və növbəti təcavüz aktına hazırlaşmaq üçün istifadə edən Ermənistan, özünün havadarlarının hərbi-siyasi dəstəyi ilə bu status-kvonu dəyişməkdə ümidli idi. Lakin Prezident İlham Əliyev iradə nümayiş etdirib suveren hüququmuz olan Laçın sərhəd-buraxılış məntəqəsini təsis etməklə həm bu bölgənin özünün, həm də regiondakı son sözün sahibinin kim olduğunu göstərdi. Artıq 4 aydır davam edən çirkab kampaniyasına gəlincə, "Laçın Şəhəri Günü"ndə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının ifadə etdiyi kimi, heç bir çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Baş verənlər əslində Ermənistanı məhvə doğru aparır. "Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".

Həkəri sahilindən verilən bu bəyanat əslində Ermənistan rəhbərliyi üçün bir siqnal olmalıdır. Paşinyan Fransa timsalında üçüncü ölkələrdən onlara təlqin edilənlərlə regionda İlham Əliyevin yaratdığı reallıq arasında dərin uçurumu görməli, Bakının iradəsinə heç kimin təsir edə bilməyəcəyini, nəhayət ki, anlamalıdır. Ən azı Laçın ətrafında son bir ildə müşahidə olunan proseslər İrəvan üçün artıq dərs olmalıdır.

Bəhruz Məhərrəmov vurğulayıb ki, Prezident İlham Əliyevin Laçın səfərində diqqət çəkən digər məqam dövlət başçısının daha bir vədini yerinə yetirməsi vurğu oldu: "Prezidentin özünün ifadə etdiyi kimi, O, 50 yaşı tamam olanda Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində laçınlılara azad Laçında daha gözəl şərait vəd etmişdi. Etiraf edək ki, işğal altındakı rayonlarımız arasında azad edilməsi ən müşkül bölgə Laçın idi. Təbii-coğrafi mürəkkəblikdən əlavə Laçın Ermənistan və havadarları üçün siyasi rıçaq idi və azad olunması üçün yalnız güclü ordu kifayət etmirdi. Lakin güclü ordusu, kəskin diplomatik zəkası, mübahisəsiz üstün liderlik qabiliyyəti, ən əsası isə xalqın istisnasız inamı, sevgisi və dəstəyi ilə Prezident İlham Əliyev bütün vədləri kimi, bu vədinə də sadiq qaldı. Mehriban xanım Əliyevanın dünən sosial media hesabında Şərqi Zəngəzurdan paylaşımında ifadə etdiyi kimi, "Kəlbəcər və Laçında! Allaha min şükür!"

Möhtərəm Prezident bu dəfə isə elə Laçının özündən vəd verdi. "Xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır".

Laçın şəhərində "Laçın Şəhəri Günü"ndə verilən bu vəd isə əslində yalnız Azərbaycana yox, bütövlükdə regiona idi. Biz Azərbaycan xalqı olaraq Prezidentimizi gözəl tanıyır, vədinə, sözünə özümüz qədər inanırıq, indi yaxşı olar ki, regionun digər sakinləri, xüsusən ermənilər, o cümlədən regionda marağı olanlar, ələlxüsus Ermənistanın havadarları regionun yeganə qalib liderinin sözünə qulaq versin".

**AZƏRTAC**
**2023, 26 avqust**

**Rumıniya qəzetində Laçın şəhəri haqqında geniş məqalə dərc olunub**

Rumıniyanın nüfuzlu “Ultima Ora” qəzeti Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun “26 avqust – Laçın günü” sərlövhəli məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın üçrəngli bayrağını Laçın şəhərində qaldırdığı qeyd edilir. Bildirilib ki, son 30 ildə ermənilər Laçında qanunsuz məskunlaşmalar aparsalar da, məqsədlərinə nail ola bilməyiblər.

Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında qələbə çalan Azərbaycan əsgəri indi Laçının keşiyində dayanır. 44 günlük vətən müharibəsinin tarixi və nəticələri, Laçının qaytarılması, əlavə yolun çəkilməsi kimi məlumatlar məqalədə yer alıb.

Dövlətimizin başçısının Laçına səfəri, burada quruculuq işləri ilə tanış olması, inşa olunan evlərin açarlarını sakinlərə təqdim etməsi məqalədə xüsusi vurğulanıb. Bildirilib ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT, qurumun Təhlükəsizlik Şurası, ATƏT bu günə kimi Ermənistana qarşı apardığı təcavüzkar siyasətinə görə hələ də heç bir sanksiya tətbiq etməyib.

***İqbal Hacıyev***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Buxarest***

**AZƏRTAC**
**2023, 27 avqust**

**Litvadakı Azərbaycan icması BMT-nin Cenevrədəki mənzil-qərargahına müraciət ünvanlayıb**

Litvada fəaliyyət göstərən azərbaycanlıların "Günəş" Assosiasiyası beynəlxalq ictimaiyyətə müraciət edərək Azərbaycanın sülh səylərini dəstəkləməyə çağırıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Assosiasiyanın adından BMT-nin Cenevrədəki mənzil-qərargahına ünvanlanan müraciətdə Azərbaycan mənşəli litvalıların erməni diasporunun və Ermənistandakı revanşist qüvvələrin yolverilməz hərəkətləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış hazırkı şəraitlə bağlı dərin narahatlıq hissi keçirdikləri bildirilir.

Müraciətdə qeyd edilir ki, Ermənistanın 30 il davam edən işğalçı siyasəti nəticəsində Azərbaycanın Qarabağ bölgəsi xarabalığa çevrilib və 2020-ci ilin müharibəsindən sonra qalan problemlər hələ də öz həllini tapmayıb.

Bəyanatda vurğulanır ki, erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərində basdırdığı minaların partlaması nəticəsində bugünədək 300-dən çox azərbaycanlı hərbi qulluqçu və mülki şəxs həlak olub və yaralanıb. Eyni zamanda, Ermənistanın minalanmış sahələrin dəqiq xəritəsini Bakıya verməkdən imtina etməsi qanunların kobud şəkildə pozulmasıdır. Müraciətdə, həmçinin bildirilir ki, qonşu Gürcüstanın timsalında özünün regional əməkdaşlığa sadiqliyini sübut edən Azərbaycan, həmçinin beynəlxalq hüquq əsasında öz ərazisi, o cümlədən nəqliyyat-kommunikasiya yolları üzərində suverenliyini qoruyub saxlamağa çalışır. İcmanın müraciətində o da qeyd olunur ki, Xankəndi-Laçın yolu açıqdır.

Azərbaycanlıların "Günəş" Assosiasiyası beynəlxalq təşkilatları bu gərgin və mühüm mərhələdə ermənilərin uydurmalarına inanmamağa, Azərbaycanın sülhsevər siyasətini əməldə dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqa dəstək verməyə çağırıb.

**AZƏRTAC**
**2023, 27 avqust**

**Prezident İlham Əliyevin Laçına səfəri Azərbaycanın siyasi və hərbi qüdrətinin növbəti nümayişi kimi yadda qaldı**

Zaman 2011-ci il, dekabrın 24-ü, məkan Ağcabədi. 50 yaşı tamam olan Prezident İlham Əliyev doğum gününü dəbdəbəli şəkildə deyil, insanların içində, sevgi, ehtiramla yanaşdığı xalqı ilə - Taxtakörpü qəsəbəsində məskunlaşmış Laçından olan məcburi köçkün ailələrlə qeyd edir, yubileyində doğum gününün sevincini onlarla bölüşür. Prezident İlham Əliyev Ağcabədinin Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsinin açılışında bəyan edir ki,

bu, müvəqqəti yaşayış məntəqəsidir. Ölkəmizin başçısı daha sonra qətiyyətlə vurğulayır ki, torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikiləcək.

Ərazi bütövlüyümüzün bərpa olunacağının anonsunu verən Prezident İlham Əliyev fikrində qətidir və buna şübhə etmir. Həmin vaxtdan 9 il keçdi və Prezident xalqa verdiyi sözü gerçəyə çevirdi. 30 il həsrətində qaldığımız, yalnız xəyallarımızda yer alan vətən torpaqları işğaldan azad edildi, ruhumuzun və mədəniyyətimizin paytaxtı olan Şuşada üç rəngli bayrağımız ucaldıldı. Dünya Azərbaycan ordusunun gücünə şahid oldu.

Bu fikirləri AZƏRTACA açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Rəşad Mahmudov deyib.

Deputat bildirib ki, bu güclə yanaşı, Prezident İlham Əliyevin 44 günlük savaş dövründə və ondan sonra yürütdüyü mükəmməl xarici siyasət qalib ordunun uğurlarına möhtəşəm möhür vurmuş oldu.

Məhz Prezidenti İlham Əliyevin diplomatik zəfərinin nəticəsində Kəlbəcər, Laçın və Ağdam kimi strateji əhəmiyyətə malik rayonlarımız bir güllə atılmadan azad edildi. Bu gün bütün təqvimimizə işğal günlərini zəfər günləri əvəzləyib və tarixi ərazilərimizin azad olunması günü təmtəraqla qeyd edirik.

“Düşmənin təslimçilik şərtləri altında azad olunmuş Laçın şəhərində Həkəri çayının sahilində keçirilən “Laçın Şəhəri Günü” bayram şənliyi bu tədbirlərin başlanğıcı idi. Bir zamanlar Taxtakörpüdə doğum günündə məcburi köçkünlərlə görüşən Prezident İlham Əliyev bu gün Müzəffər Ali Baş Komandan kimi Laçın şəhərində öz evlərində məskunlaşmış laçınlılar qarşısında çıxış edir, hər birimiz qürurlu anlar yaşayırıq. Ölkəmizin başçısı yenidən azad olunmuş ərazilərimizdə, xalqın önündədir.

Prezidentin bütün səfərlərində olduğu kimi, Laçına son səfəri zamanı da bir çox mühüm obyektlərin açılışı və təməlqoyma mərasimi bu torpaqların əzəli sakinlərinə bayram ovqatı yaşadır. İşğal dövründə düşmənin xarabalığa çevrirdiyi Laçın və bütövlükdə Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri aparılır. Bu bölgədə artıq minlərlə ailələr yaşayır və doğma yurdlarında yeni evlərə köçürülmüş vətəndaşlarımız bu böyük xoşbəxtliyi yaşayır. Prezidentin Laçına səfəri zamanı sakinlər qarşısında çıxışında verdiyi siyasi mesajlar da bir çox baxımdan mühüm əhəmiyyət kəsb etdi. Ölkəmizin başçısı müharibədən sonra Azərbaycanın güclənən mövqeyini ifadə edərək bildirdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz”, - deyə deputat söyləyib.

O qeyd edib ki, bunu 44 gün ərzində qələbə qazanan ordumuzun qüdrəti, daha sonra həqiqətlərimizi dünyaya qəbul etdirən diplomatiyamız və nəhayət, regionun lider dövləti kimi iqtisadiyyatımızın gücü ilə sübut etmişik. Prezident ölkəmizə qarşı bəzi qüvvələr tərəfindən aparılan kampaniya, çirkin təbliğatın iradəmizə təsir edə, ölkəmizi yolundan döndərə bilməyəcəyini qətiyyətlə bildirdi.

Çünki dünya Azərbaycan həqiqətlərini qəbul etmək məcburiyyətindədir, bu həqiqətlər beynəlxalq hüquqa söykənir və ölkəmiz həm döyüş meydanında, həm siyasi müstəvidə bunu diktə edərək gücünü göstərib. Ermənistan və onu məhvə sürükləmək istəyən havadarları bu gerçəyi anlamalıdırlar.

Deputat sonda əlavə edib ki, Prezident İlham Əliyevin Laçına səfəri Azərbaycanın həm siyasi, həm iqtisadi, həm də hərbi qüdrətinin növbəti nümayişi kimi yadda qaldı. Səfər zamanı sakinlərlə səmimi ünsiyyət və xalq sevgisi Azərbaycan liderinin dövlətimizin yüksəlişinin yenilməz təminatçısı olduğunu bir daha sübut etdi.

**AZƏRTAC**
**2023, 27 avqust**

**Laçın şəhərinə həyatın qayıtması tariximizin ən qürurlu səhifələrindən biridir**

1992-ci ildə Laçının işğal edilməsi Azərbaycan xalqının düşmən təcavüzü qarşısında müqavimətini əhəmiyyətli dərəcədə sarsıtmışdı. İşğalçı Ermənistanla Qarabağ separatçıları arasında son dərəcədə strateji əhəmiyyətli mövqeyə malik olan Laçın rayonunun itirilməsi savaşların nəticəsinə xeyli dərəcədə təsir göstərdi. Lakin belə böyük bir itki də xalqımızı sarsıtmadı, onun qələbə əzmini qıra bilmədi. Bütün işğal dövründə hər bir Laçınlı öz doğma torpaqlarına qayıtmaq inamı ilə yaşadı və qayıtdı. 31 illik işğaldan sonra Ordumuzun şücaəti və dövlət başçımızın mahir diplomatiyası sayəsində döyüşsüz təhvil alınan Laçın şəhəri viran edilmiş vəziyyətdə idi. Gecə-gündüz dayanmadan aparılan abadlıq-quruculuq işlərinin nəticəsində Laçın öz füsunkar simasını bərpa etməkdədir. Böyük Qayıdışın növbəti mərhələsi olan Laçına qayıdış artıq başlanıb. Mayın 28-dən başlayan qayıdış prosesində artıq 234 ailədən ibarət olan 1000-ə yaxın sakin öz doğma evlərinə qovuşmağın sevincini yaşayır. Bu ilin sonuna qədər daha 900 ailə üçün yeni evlərin tikintisinin başa çatdırılması nəzərdə tutulub. Prezident İlham Əliyevin Sərəncamı ilə 26 avqust “Laçın Şəhəri Günü” elan edilib. 3 il öncə dekabrın 1-də işğaldan azad olunan Laçın şəhəri bu gün bayram əhval-ruhiyyəsindədir. İlk “Laçın Şəhər Günü” Qarabağın Fatehi, ölkə başçısı İlham Əliyevin iştirakı ilə keçirildi. Şəhər gününə həsr olunmuş tədbirdə çıxış edən dövlət başçısı hər bir Laçınlının bu günü böyük qürur hissi ilə yaşadığını qeyd edərək dedi: “Xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük.”

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Cavanşir Feyziyev söyləyib.

Deputat qeyd edib ki, bu ilin 23 aprel tarixində Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulduğunu vurğulayan Prezident bildirdi ki, “...23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir.” Vətən Müharibəsi rəsmən 2020-ci ilin 9 noyabrında başa çatsa da Azərbaycanın öz suverenliyini tam bərpa etməsi məhz bu ilin 23 aprel tarixində Ermənistanla Azərbaycan arasında ilk sərhəd-buraxılış məntəqəsinin bərpa edilməsi ilə təmin olundu. Bu Azərbaycan dövlətinin gücünü, cəsarətini və xalqımızın dəmir iradəsini nümayiş etdirən əlamətdar bir hadisə idi.

“Böyük strateji əhəmiyyətə malik Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal nəticəsində rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. İşğal nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən məhv edilmişdi. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdı. Artıq Laçın yenidən sülh və əmin-amanlıq dövrünə qayıdıb. Laçında aparılan geniş miqyaslı abadlıq-quruculuq işləri onun sakinləri üçün ən müasir standartlara uyğun həyat şəraiti təmin edir. Tikintisi qələbədən az sonra 2021-ci ildə başlanmış generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası artıq işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılmış 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” Su Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tamamilə yenidən qurulub. Hazırda “Ağbulaq” Su Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyaları 2023-cü il avqustun 25-də işə salınıb. Bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib. Hazırda 4 stansiyanın yenidən qurulması üzrə işlər davam etdirilir. Gələn ilin birinci rübündə artıq Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su elektrik stansiyası fəaliyyət göstərəcək”, -deyə deputat söyləyib.

C.Feyziyev qeyd edib ki, rayonun yol-nəqliyyat infrastrukturu yenidən və ən müasir standartlar üzrə qurulur. Prezident İlham Əliyevin sərəncamına əsasən, uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu tikilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpünün də inşa edilməsi nəzərdə tutulur.

Təməli 2021-ci ildə qoyulmuş Laçın Beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Hava limanı dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilir və postsovet məkanında

ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının inkişafına da imkan verəcək;

Bütün bununla yanaşı, tezliklə Laçın şəhərində xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də inşa ediləcək. Laçın şəhərində yaradılan Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisə fəaliyyət göstərməsi planlaşdırılıb.

Deputat əlavə edib ki, bu ilin 28 may tarixindən başlayan Laçına qayıdış laçınlıların doğma yurd həsrətinə son qoyub. Laçın və laçınlılar gələcəyə böyük inamla və ümidlərlə baxırlar. Laçın şəhərinə həyatın qayıtması tariximizin ən qürurlu səhifələrindən biridir.

Azərbaycan xalqı bu zəfəri qazananları və bu möhtəşəm tarixi yaradanları heç vaxt unutmayacaq.

**AZƏRTAC**
**2023, 27 avqust**

**Səttar Möhbalıyev: Prezident İlham Əliyevin Laçında verdiyi mesajlardan Ermənistan nəticə çıxarmalıdır**

Uzun illər işğal altında olmuş Laçın rayonu hazırda dirçəliş dövrünü yaşayır, burada sürətli abadlıq-quruculuq işləri aparılır. Görülən işlərin nəticəsi olaraq artıq 1000-ə qədər sakin öz yurduna dönüb və bu proses uğurla davam edir. Bütün bu işləri dövlətimiz qısa vaxt ərzində həyata keçirib. Digər işğal altında olan rayonlarımız kimi, ermənilər burada da vandal əməlləri ilə məşğul olub, rayonun təbii resurslarını talan ediblər. Onlar Laçında yaşayış məntəqələrinin coğrafi adlarını dəyişdirməkdən tutmuş, qanunsuz məskunlaşmaya qədər hər cür çirkinliklərə əl atıblar. Bu gün isə mənzərə başqadır, işğalın bütün fəsadları aradan qaldırılır, rayonun əvvəlki görkəmi özünə qaytarılır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

"Ümumiyyətlə, Şərqi Zəngəzurda və Qarabağda aparılan tikinti işlərinə dövlətimizin başçısı bilavasitə nəzarət edir. Birinci xanım Mehriban Əliyeva ilə birlikdə bölgəyə mütəmadi səfərlər edərək, görülən işlərlə yerində tanış olur, tapşırıq və tövsiyələrini verir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına sonuncu səfəri də bu baxımdan əlamətdar oldu, bir sıra obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdilər, Laçında yerli sakinlərlə görüşüb söhbətləşdilər. Təbii ki, öz yurdlarına dönən laçınlıların üzlərindəki sevinc hissləri hər birimizi fərəhləndirdi, onlar ən böyük arzularına qovuşublar və buna görə də Prezidentə təşəkkürlərini bildirirdilər. Dövlətimizin başçısı, həmçinin Laçın şəhərində "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak etdi. O, tədbirdəki çıxışında bir daha bəyan etdi ki, bizim iradəmizə heç kim təsir edə bilməz. Məlumdur ki, təcavüzkar planları alt-üst olan, işğalçı ordusu məhv edilən Ermənistan tərəfi çirkin və yalan anti-Azərbaycan təbliğatı aparır, Laçın sərhəd-buraxılış məntəqəsinin qurulmasına etiraz edərək ölkəmizin daxili işlərinə qarışmağa cəhd göstərir. Hətta bu yolda saman çöpünə belə əl atmağa çalışır, elə güman edir ki, havadarlarının köməyi ilə guya nəyəsə nail ola bilər. Amma unudur ki, Fransanın və digər işğalı dəstəkləyən "dostlarının" əli nə qədər uzun olsa da, bizim torpaqlara gəlib çatmaz, çünki Azərbaycan güclü dövlətdir, buna heç vaxt yol verməz. Sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüququdur, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Prezidentimiz bu barədə son sözü dedi. Odur ki, Ermənistan sadəcə vaxt itirir və bununla düşdüyü vəziyyəti daha da ağırlaşdırır. Bir sözlə, status-kvo dəyişməzdir", - deyə Milli Məclisin deputatı söyləyib.

Deputat əlavə edib ki, Prezident İlham Əliyev xalqına nə vəd veribsə, onun hamısını yerinə yetirib, əməli ilə sözünü hər zaman təsdiqləyib: "Çıxışında dövlətimizin başçısı ad günündə - 50 yaşım tamam olanda Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində laçınlılarla verdiyi vədi xatırlatdı. Artıq nəticə ortadadır. Öz yurduna qayıdan laçınlılar daha rahat, müasir mənzillərlə təmin edilirlər. Onların Laçında firavan yaşaması üçün hər cür şərait yaradılır. Bütün bu nailiyyətlərin önündə dövlətimizin başçısı cənab İlham Əliyevin müdrik idarəçiliyi dayanır".

**AZƏRTAC**
**2023, 27 avqust**

**Prezident İlham Əliyevin "Laçın Şəhəri Günü" münasibətilə bayram tədbirində iştirakı Gürcüstan mətbuatının diqqətində**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirakı və dövlətimizin başçısının tədbirdəki çıxışı Gürcüstan KİV-lərinin diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Gürcüstan mətbuatında Prezident İlham Əliyevin Zabud sakinləri ilə görüşdəki çıxışından silsilə materiallar yerləşdirilib.

Geniş oxucu kütləsinə malik olan 24News.ge xəbər portalı dövlət başçısı İlham Əliyevin çıxışına istinadla yazır: "Bu gün həm Şuşada, həm Laçında toy-bayramdır, həm də sakinlər öz doğma torpaqlarına qayıdırlar. İşğaldan azad olunan bütün əzəli Azərbaycan torpaqları dirçələcək və qaçqın düşmüş şəxslər öz ata-baba torpaqlarına qayıdacaqlar".

İnterpress.ge portalında Prezident İlham Əliyevə istinadla yazır: "İndi də Ermənistanın bəzi xarici havadarları bunu görmək istəmirlər. Sanki bu işğal olmayıb, sanki bu vəhşilik, düşmənçilik olmayıb. Otuz il ağzına su alıb susanlar, yaxud da ki, erməni işğalına bəraət qazandıranlar, indi gəlib bizə qarşı iddia qaldırırlar, irad tuturlar, ittiham edirlər".

Materialda deyilir: "Biz qurub-yaradan xalqıq. Erməninin otuz il dağıtdığını biz iki ilə artıq qururuq, qurmuşuq, insanlar qayıdıblar. Biz öz torpağımızdayıq. Bura da əzəli Azərbaycan torpağı olub. İşğal dövründə hansı eybəcər ad verirsən-ver, onun əhəmiyyəti yoxdur. O ad da onların başına dəydi, elə onlarla da cəhənnəmə getdi", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

QafqazTürk.com portalı da Prezident İlham Əliyevin çıxışından xəbərlər yayıb. Azərbaycan dövlətinin başçısına istinadla yayılan materialda deyilir: "Bu gün Laçın Şəhəri Günüdür. Çünki 26 avqust – keçən ilin bu günündə ordumuz Laçın şəhərinə daxil oldu. Beləliklə, 26 avqust bundan sonra Laçın Şəhəri Günü kimi qeyd olunacaq. Azad edilmiş bütün şəhərlərimizin şəhər günləri təsis edildi. Mənim Fərmanımla növbəti bayram tədbirləri oktyabrın 17-də Füzuli şəhərində olacaq".

Aktual.ge portalı da dövlətimizin başçısının çıxışında yazıb: "Biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik. Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıblar, həyat qayıdıb. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq".

Portal həmçinin yazır: "İşğal altında olmuş Azərbaycan torpaqlarını qaytarmağın yeganə yolunun müharibə olduğunu qeyd edən İlham Əliyev deyib: "Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik".

***Xətayi Əzizov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tbilisi***

**AZƏRTAC**
**2023, 27 avqust**

**Ermənistanın havadarlarının çirkin kampaniyaları heç bir nəticə verməyəcək – ŞƏRH**

Avqustun 26-da Laçında Şəhər Günü böyük coşqu ilə qeyd olundu. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bayram tədbirində iştirak etməsi xüsusilə əlamətdardır. Bayram tədbirində dövlətimizin başçısı çıxış edərək "Laçın Şəhəri Günü" münasibətilə xalqımızı, laçınlıları təbrik etdi, eləcə də regiondakı vəziyyətlə bağlı ciddi mesajlar verdi.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

O xatırladıb ki, ötən il avqustun 26-da şanlı Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi ilə bağlı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müjdəsini bütün xalqımız böyük sevinc, qürur hissi ilə qarşıladı. Respublikamızın hər bir guşəsində insanlar bu hadisəni bayram əhval-ruhiyyəsi ilə qeyd etdilər. Bununla da, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin əhalisinin torpaq, yurd həsrətinə son qoyuldu.

"Prezident İlham Əliyevin bayram tədbirində çıxışı zamanı dediyi kimi, cəmi 8 ay ərzində Laçın şəhərinə əhalinin qayıdışı təmin olundu. Belə ki, 28 May - Müstəqillik Günündə Laçına ilk köçənlərə evlərin açarları təqdim edildi. Bu ilin sonuna qədər isə 900 ailə üçün evlər hazır olacaq. Artıq Zabux kəndinə də əhalinin qayıdışına start verilib. Laçına səfər çərçivəsində avqustun 26-da dövlətimizin başçısı və birinci xanım Zabux sakinləri ilə görüşüb yaradılan şəraitlə tanış oldular", - deyə S.Fətəliyeva bildirib.

Deputat diqqətə çatdırıb ki, tarixi Qələbə günlərinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sözügedən Sərəncama əsasən avqustun 26-sı da "Laçın Şəhəri Günü" kimi müəyyən olunub.

Dövlətimizin başçısının Laçından verdiyi mesajların əhəmiyyətinə toxunan S.Fətəliyeva Ermənistan və onun havadarlarının bu mesajlardan nəticə çıxarmalı olduqlarını qeyd edib: "Aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində yaradılmış "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi ilə əlaqədar müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar qərəzli mövqe nümayiş etdirdilər. Amma onlar unudurlar ki, Azərbaycan beynəlxalq hüquq və öz suveren hüquqları çərçivəsində bu addımı atıb. Ona görə də, Prezident İlham Əliyevin dediyi kimi, heç kim dövlətimizin iradəsinə təsir edə bilməz, bizi haqq yolumuzdan döndərə bilməz. Bu baxımdan, əminliklə demək olar ki, bundan sonra da Ermənistanın havadarlarının çirkin kampaniyaları heç bir nəticə verməyəcək".

**AZƏRTAC**
**2023, 27 avqust**

**Laçında qanunsuz məskunlaşma aparan Ermənistan buranın azad olunacağını təsəvvürünə belə gətirmirdi – ŞƏRH**

Laçının işğalı böyük faciə idi. Çünki Laçın rayonun işğalından sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında fiziki bağlantı yarandı. Bu da digər ərazilərimizin işğalı üçün Ermənistana imkanlar qazandırdı. Azərbaycan öz torpaqlarını 44 günlük Vətən müharibəsində işğaldan azad etsə də, Laçın şəhəri, Zabux və Sus kəndləri 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən təxminən iki il sonra 2022-ci ilin avqustun 26-da nəzarətimizə keçdi. Ermənistan Laçında hərbi cinayətlər törədərək burada Qarabağla əlaqəsi olmayan Yaxın Şərqdən olan ermənilərin məskunlaşmasını aparmışdı. Amma dövlətimizin başçısının qətiyyəti və siyasi iradəsi sayəsində Laçın şəhəri, Zabux və Sus kəndləri Ermənistanın məskunlaşdırdığı ermənilərdən azad edildi. Laçın şəhəri, Zabux və Sus kəndləri bir il müddətində sürətlə inkişaf edib. İndiyədək Laçın rayonunda 254 ailənin, yəni, 992 nəfərin daimi məskunlaşması təmin edilib. Cəmi 8 ay ərzində Laçın şəhəri, Zabux və Sus kəndləri yenidən qurulub bərpa etdirilərək müasir libasa bürünüb, burada laçınlıların xoşbəxt gələcəyi üçün bütün şərait yaradılıb. İlin sonuna qədər isə minlərlə laçınlı öz doğma yurdlarına qayıdacaq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Onun sözlərinə görə, müharibənin başa çatdığı 3 ilə yaxın bir dövrdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın dəfələrlə Laçına səfər etmələri bu rayonun sürətlə və keyfiyyətlə yenidən qurulmasına yol açıb. Dövlətimizin başçısının hər bir səfəri rayonun həyatına canlanma gətirib, təməli qoyulan və açılışları olunan çoxsaylı layihələrlə zəngin olub. Bu gün artıq Laçının 258 hektar ərazisində müasir standartlara cavab verən evlər yenidən inşa olunub. Şəhər infrastrukturu isə laçınlıların rahat yaşamasına və buraya gələcək qonaqların dincəlməsinə imkan verəcək. Öz doğma yurdlarına qayıdacaq insanlar üçün iş yerlərinin qabaqcadan açılması 31 il məcburi köçkünlük həyatına son qoyulmuş hər bir laçınlının firavan gələcəyinin təminatı deməkdir. Laçında yaradılan Aqro və Sənaye Parkında fəaliyyət göstərəcək 46 müəssisə laçınlıların işsizlik məsələsini həll etməklə yanaşı, rayonun iqtisadiyyatının yenidən sıçrayışlı inkişafına yol açacaq. Tikilən müasir yollar, Beynəlxalq Hava Limanı və şəhər infrastrukturu Laçın şəhəri, Zabux və Sus kəndlərini ən müasir səviyyəyə gətirir və buraya səfər edən hər kəsi valeh edir.

“Prezident İlham Əliyev cari ilin mayın 28-də Laçına növbəti səfəri zamanı aparılan quruculuq işlərindən bəhs edərək demişdi: “Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun”. Bəli, Prezident İlham Əliyevin rəhbərliyi və tapşırıqları ilə Laçın cənnətə çevrilib. Burada insanların firavan yaşaması üçün hər şey yüksək səviyyədə tikilir. Bu, həm də yenidən qurulan və bərpa olunan işğaldan azad edilmiş ərazilərimizin əyani təzahürüdür. Ermənistan və onun dayaqları işğaldan azad olunmuş ərazilərin yeni libas geyinməsini və sevinclə öz sakinlərini qarşıladığını görəndə mənəvi əzab çəkirlər.

Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən işğaldan azad edilmiş ərazilərdə şəhər günləri təsis edilib. Laçın şəhəri avqustun 26-da ermənilərdən azad olunduğundan bu tarix “Laçın Şəhəri Günü” kimi təsdiq olunub. Avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə laçınlıların yüksək əhvali-ruhiyyəsi ilə “Laçının Şəhər Günü”nün bayram keçirilməsi tarixi hadisədir. 31 il əvvəl gözü yaşlı öz doğma yurdlarını tərk edən laçınlılar artıq sevinclə öz doğma yurdlarına qayıdırlar və bayramlar keçirilər. Laçında musiqi sədaları ucalır və atəşfəşanlıq səsləri eşidilir. Laçınlılar bu günü həsrətlə gözləyirdilər. Laçında qeyri-qanuni məskunlaşma aparan Ermənistan buranın və digər ərazilərimizin azad olunacağını heç təsəvvürünə belə gətirə bilməzdi.

Ağcabədi rayonunun Taxtakörpü ərazisində laçınlı məcburi köçkünlər ilə özünün 50 illik yubileyini qeyd edən Prezident İlham Əliyev Laçını azad edəcəyini və növbəti yubileyinin azad edilmiş ərazilərdə qeyd olunacağı bildirmişdi. Dövlətimizin başçısı öz sözünə əməl etdi və 60 illik yubileyini Şuşada keçirdi. Bu gün laçınlılar öz doğma yurdlarında şəhər gününü bayram edirlər. Bu, bir daha Azərbaycan Prezidentinin öz vədinə sadiqliyinin, həm də dövlətimizin gücünün göstəricisidir”, - deyə A.Badamov vurğulayıb.

“Prezident İlham Əliyevin rəhbərliyi ilə günü-gündən güclənən Azərbaycan dövləti öz haqq işini davam etdirir, bütün arzu və istəklərini reallaşdırır. Qarşımıza çoxlu maneələr çıxır və düşmənlərimiz bizə

təzyiq göstərərək haqq işimizin qarşısını almağa çalışırlar. Ona görə də bizi danışıqlar yolu ilə torpaqlarımızın işğaldan azad olunacağına inandırmağa çalışaraq erməni işğalını əbədiləşdirmək istəyirdilər. Amma Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və rəşadətli Ordumuzun gücü sayəsində 30 il işğal altında saxlanılan torpaqlar 44 gündə döyüş meydanında azad olundu. O cümlədən cari ilin aprelin 23-də Həkəri çayı üzərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi yaratmaqla Azərbaycan öz gücünü bir daha nümayiş etdirdi. Bu gün artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. Bütün sərhəd boyu nəzarət-keçid məntəqələri yaratmaqla ölkəmizə giriş və çıxışlar icazəmizlə həyata keçirilir. Azərbaycan xalqının iradəsini heç kim sarsıda bilməz.

Dövlətimiz qurub-yaradır. İşğaldan azad olunmuş bütün ərazilər tikinti meydançasına çevrilib. Qarabağa və Şərqi Zəngəzura səfər edən hər kəsdə dağıdılıb talan olunan yaşayış məntəqələrimizi görəndə ermənilərin vəhşilikləri barəsində təsəvvür formalaşır. Amma ucalan yeni şəhər və kəndlərimizi, öz doğma yurdlarına qayıdan sakinləri, çəkilən müasir yolları, beynəlxalq hava limanlarını və ərsəyə gələn yeni-yeni müəssisələri görəndə Azərbaycan xalqının yaradıcı və qurucu olduğunu öz gözləri ilə görürlər", - deyə deputat bildirib.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Prezident İlham Əliyevin Laçın səfəri - siyasi və iqtisadi gücümüzün daha bir nümayişi – ŞƏRH**

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Laçın və Kəlbəcər rayonlarına səfərləri maraqlı məqamlarla yadda qaldı. Bizə dost və düşmən münasibət bəsləyən qüvvələr azad olunmuş ərazilərimizdən verilən mesajlardan xəbərdar oldular, özlərinə pay götürdülər. Təbii ki, bu səfərlərin ən böyük təsiri Böyük Qayıdış prosesinədir. Biz artıq görürük ki, insanlarımız necə böyük həvəslə, sevinclə öz dədə-baba torpaqlarına qayıtmaq istəyirlər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili söyləyib.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərlərinin bir neçə mühüm əhəmiyyəti olduğunu bildirən T.Mirkişili deyib: "Bu səfərlər zamanı Qarabağda və Şərqi Zəngəzurda yeni müəssisələrin təməli qoyulur, açılışlar edilir. Deməli, həmin rayonların sosial-iqtisadi inkişafı üçün ciddi bazalar, infrastruktur yaradılır. Prezidentin Sərəncamına əsasən, Laçın və Kəlbəcər rayonları yenidən qurulur, orada böyük sənaye müəssisələri, turizm və kənd təsərrüfatı obyektləri, hotel və mehmanxanalar, məktəb və xəstəxanalar inşa edilir. Bu, bütövlükdə dövlətimizin iqtisadi gücünün göstəricisidir. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilən ərazilərin yenidən qurulması Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilir. Rayonlarımızın yenidən qurulması, keçmiş köçkünlərin oraya yerləşdirilməsi planlı şəkildə həyata keçirilir. Qırx dörd günlük Vətən müharibəsindən sonra özlərini siyasətçi, ekspert adlandıran bəziləri deyirdilər ki, buraxın insanları gedib dədə-baba yurdlarında özlərinə istədikləri kimi ev tiksinlər, orada yaşasınlar. Müharibədən sonra həmin ərazilərdə partlayan, zərərsizləşdirilən minalar bu çıxışların nə qədər məsuliyyətsiz yanaşma olduğunu göstərir. Ona görə də Böyük Qayıdış prosesi düşünülmüş şəkildə, planla həyata keçirilir".

T.Mirkişili qeyd edib ki, Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə həyatın və soydaşlarımızın qayıtması üçün sürətli işlərin aparılacağını bildirmişdi. İndi orada fasiləsiz şəkildə tikinti-quruculuq işləri aparılır. O ərazilər böyük bir tikinti meydançasını xatırladır. Hər kəs böyük həvəs və məsuliyyətlə iş görür. İnsanlarımızın əlverişli şəraitdə yaşaması üçün bütün lazımlı addımlar atılır. Xatırlayırsınızsa, dövlətimizin başçısı 2011-ci ilin dekabrın 24-də özünün 50 illik yubileyində Ağcabədi rayonunda məskunlaşmış məcburi köçkünlərlə görüşdü. Öz ad gününü Taxtakörpü qəsəbəsində məskunlaşmış Laçından olan məcburi köçkün ailələrlə qeyd edən Azərbaycan Prezidenti Laçın rayonundan olan məcburi köçkün ailələri üçün salınan yeni yaşayış qəsəbəsinin açılışını etdi və orada bildirdi ki, torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün öz dədə-baba yurdlarında gözəl evlər tikiləcək. Doqquz il sonra Prezident İlham Əliyev xalqa verdiyi sözü reallığa çevirdi. Mədəniyyətimizin paytaxtı olan Şuşada bu gün Azərbaycan bayrağı dalğalanır.

"İki gün öncə Laçında təşkil olunan bayram tədbiri, atəşfəşanlıq möhtəşəm idi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın insanlarla səmimi söhbəti uzun müddət yaddaşlardan silinməyəcək. Bir zamanlar Taxtakörpüdə doğum günündə məcburi köçkünlərlə görüşən dövlətimizin başçısının bu gün Müzəffər Ali Baş Komandan kimi Laçın şəhərində öz evlərində məskunlaşmış laçınlılar qarşısında çıxış etməsi heyrətamiz idi. Prezidentin Laçına son səfəri zamanı sakinlər qarşısında çıxışı, verdiyi siyasi mesajlar mühüm əhəmiyyət kəsb etdi. Dövlətimizin başçısı müharibədən sonra Azərbaycanın güclənən mövqeyini bir daha ifadə etdi. Açıq şəkildə bəyan etdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Ölkəmizə qarşı bəzi qüvvələr tərəfindən aparılan kampaniya, çirkin təbliğat bizi haqq yolumuzdan döndərə bilməz. Bu gün dünya Azərbaycan həqiqətlərini qəbul etmək məcburiyyətindədir. İşğaldan azad olunan ərazilərdə aparılan quruculuq işləri, müşahidə olunan canlanma, oraların gülüstana çevrilməsi dünya dövlətlərini, beynəlxalq təşkilatları bir daha düşündürməlidir. Biz xarabalığa çevrilmiş ərazilərə həyat bəxş edirik, orada yaşıllıq salırıq, gözəllik yaradırıq. Bəs ermənilər nə etmişdilər? Pis niyyətli insanlar, qüvvələr təkcə Laçının və digər rayonlarımızın müharibədən öncəki və indiki fotolarını yanaşı qoyub müqayisə aparsınlar. Əgər ədalətləri, vicdanları varsa həqiqəti etiraf etsinlər. Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa söykənir və ölkəmiz həm döyüş meydanında, həm siyasi müstəvidə bunu diktə edərək gücünü göstərib", - deyə komitə sədri vurğulayıb.

O, sonda əlavə edib ki, Prezident İlham Əliyevin Laçına səfəri Azərbaycanın siyasi, iqtisadi və hərbi qüdrətinin növbəti nümayişi kimi də yadda qaldı. Eyni zamanda, biz ora qayıdış edən sakinlərin üzlərində

olan sevinci, dövlətimizin başçısına və birinci xanıma olan sevgini bir daha görmüş olduq. İnsanlarda gələcəyə inam və öz liderinə güvən var idi.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Ayxan Hacızadə: Fransa Prezidentinin qərəzli fikirləri sülh prosesinə xələl gətirir**

Avqustun 28-də Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi bölgə üzrə mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl gətirir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti E.Makronun səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb.

Ayxan Hacızadənin sözlərinə görə, Fransa Prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir.

"Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində bir milyona yaxın qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa tərəfinin indi Azərbaycanın BMT nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən 2020-ci il 44 günlük Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyətlə bağlı iddialara çıxışında xüsusi vurğu etməsi anlaşılan deyil", - deyə Xarici İşlər Nazirliyinin rəsmisi vurğulayıb.

O qeyd edib ki, Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir.

"Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün Ağdam-Xankəndi və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə çıxış zamanı yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir.

Praqada Avropa İttifaqı missiyasının və 1991-ci il Alma-Ata bəyannaməsi çərçivəsində sərhədlərin tanınması təşəbbüsünün müəllifliyinin Fransa tərəfinin olduğunu bildirən Fransa tərəfinin, nəyə görə Azərbaycan əraziləri işğal altında olan 30 ilə yaxın bir dövrdə bu kimi təşəbbüslərlə çıxış etmədiyi sualına da cavab verməsi daha faydalı olardı.

Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq", - deyə Ayxan Hacızadə əlavə edib.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Fransa Prezidenti Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik edir**

Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb.

"Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün Ağdam-Xankəndi və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə çıxış zamanı yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir", - deyə Azərbaycan XİN-in rəsmisi vurğulayıb.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Deputat: İşğaldan azad edilmiş ərazilərə ölkə Prezidentinin mütəmadi səfərlərinin hər biri bir çağırışdır**

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər və Laçın rayonlarına səfər etdilər. İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Laçın rayonunda da bərpa-quruculuq işlərinin miqyası olduqca genişdir. Dövlətimizin başçısı İlham Əliyev bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində Böyük Qayıdış proqramının uğurlu icrasından bəhs edərkən bu hədəfi açıqladı ki, 2023-cü ildə laçınlılar Laçın şəhərinə qayıdacaq. Görülən işlərin sistemli xarakter alması bir daha belə bir reallığı təsdiqləyir ki, bütün planlar zamanında və yüksək səviyyədə həyata keçirilir. Laçın şəhərinə soydaşlarımızın qayıdışının ilk mərhələsi 28 May - Müstəqillik Günündə reallaşdı. Qısa zamanda görülən işlər, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı dövlətimizin qətiyyətinin, böyük səylərinin, iqtisadi və maliyyə imkanlarının göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Əliabbas Salahzadə bildirib.

O, Qarabağın və Şərqi Zəngəzurun hazırda yenidən qurulmasından böyük qürur hissi ilə bəhs edərək dövlətimizin başçısının və birinci xanımın Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimində iştirak etdikləri sosial obyektlərin say tərkibinə diqqəti yönəldib: “Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyasının açılışında, Kəlbəcər rayonunun Zar kəndinin təməlqoyma mərasimində iştirak etdilər, Kəlbəcər rayonunda “İstisu” mineral sudoldurma zavodunun tikintisi və “İstisu” Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanış oldular. Prezident İlham Əliyev Kəlbəcər rayonunda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Çıraq-1” və “Çıraq-2”, Laçın rayonunda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak etdi, Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonuna səfəri zamanı Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə də maraqlandılar. Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin, “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, “Həkəri

Balıq Təsərrüfatı”nın, 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak etdilər. O da məlumdur ki, avqustun 25-də 20 ailə Zabux kəndinə qayıtdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış oldular və burada kənd sakinləri ilə görüşdülər. Dövlətimizin başçısı və birinci xanım, həmçinin avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən “Laçın Şəhəri Günü” bayram şənliklərində iştirak etdilər. Bir səfər çərçivəsində atılan addımlar ümumilikdə görülən işlərin miqyası barədə aydın təsəvvür yaradır. Laçın rayonunun timsalında dirçələn Azərbaycan reallıqlarını görürük. Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur gücümüzü göstərir. Bu, onun təsdiqidir ki, istədiyimizə hər zaman nail oluruq”.

Deputat onu da əlavə edib ki, ölkəmizə qarşı çoxsaylı təzyiqlər oldu. Bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar Azərbaycana qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. Laçında dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir.

Hər zaman ədalətin və beynəlxalq hüququn yanında olan Azərbaycanın bütün addımlarında bu prinsiplərə söykəndiyini söyləyən Ə.Salahzadə qeyd edib ki, Azərbaycanın bütün uğurlarının əsasında məhz bu prinsiplərə söykənərək həyata keçirdiyi müstəqil siyasət dayanır. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə hər bir səfəri bu məkanlardan Ermənistana və ona havadarlıq edən dövlətlərə mesajları ilə zəngindir. Prezident İlham Əliyev Laçından bir daha bəyan etdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz.

Deputat vurğulayıb ki, bu torpaqlarda görülən işlər, soydaşlarımızın qayıdışı, ən əsası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mütəmadi səfərlərinin hər biri bir çağırışdır. Bu torpaqların sahibi bizik, qurub yaradırıq. İşğaldan azad edilmiş Füzulidə, Zəngilanda, o cümlədən Laçında beynəlxalq statusa malik hava limanlarının inşası, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının istifadəyə verilməsi ilə Qarabağın və Şərqi Zəngəzurun hava qapılarının dünyaya açılması ölkəmizin həyatında mühüm tarixi hadisələr, bu torpaqların gələcəkdə böyük turizm məkanı kimi mövqeyinin

möhkəmlənməsinə xidmət edən mühüm addımlardır. Laçın Beynəlxalq Hava Limanının 2024-cü ilin sonu 2025-ci ilin əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur. Böyük turizm potensialına malik olan Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm günlər gözləyir.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Laçın Şəhəri Günü bayram tədbirinin təşkili Laçına həyatın qayıtmasını əks etdirir**

Azad olunmuş digər ərazilərimiz kimi, bu gün Laçın da dirçəliş dövrünü yaşayır, burada sürətli abadlıq-quruculuq işləri aparılır. Artıq 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında məskunlaşacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib.

O qeyd edib ki, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, Azərbaycan xalqı sübut etdi ki, bizim heç kimin torpağında gözümüz yoxdur, öz torpağımızı da biz heç kimə verən deyilik. Azad olunmuş ərazilərdə aparılan sürətli quruculuq işləri Azərbaycan xalqının qurub-yaradan olmasının göstəricisidir. Avqustun 26-da Laçın Şəhəri Günü münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın da iştirakı ilə keçirilən bayram tədbiri də böyük maraq doğurdu. Laçın şəhərinə həyatın qayıtmasını əks etdirən bu tədbir tariximizin ən qürurlu səhifələrindən biridir", - deyə deputat əlavə edib.

Böyük strateji əhəmiyyətə malik Laçının işğalının vaxtilə digər ərazilərimizin işğalına da zəmin hazırladığını qeyd edən S.Mikayılova işğal nəticəsində rayonun əhalisinin etnik təmizləməyə məruz qaldığını, 300-dən artıq hərbi və mülki şəxsin həlak olduğunu və itkin düşdüyünü bildirib. Diqqətə çatdırıb ki, işğal nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən məhv edilib, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb.

"Laçın yenidən sülh və əmin-amanlıq dövrünə qayıdıb. Cari il mayın 28-dən başlayaraq laçınlıların doğma yurda qayıdışına start verilib. Artıq Laçın şəhəri 234 ailəyə qucaq açıb və 904 laçınlının yurd həsrəti bitib. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaq. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük", - deyən Sevil Mikayılova fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Deputat: Doqquz aya Laçının bərpası Azərbaycan dövlətinin prinsipiallığından xəbər verir**

Son illər Prezident İlham Əliyevin həm daxili, həm xarici səfərləri intensivləşib. Bu da dövlətimizin başçısının xarici və daxili siyasətinin güclənməsindən xəbər verir. Bu gün nəinki Qarabağ, hətta bütün regionlar birbaşa dövlətimizin başçısının nəzarəti altındadır. Artıq 3 il olacaq ki, müharibə bitib və bəlkə də dünya tarixində görünməyən sürətlə vəhşi qonşularımızın xarabalığa çevirdiyi Qarabağ nəinki bərpa olunub, hətta sahiblərinə təhvil verilib. Prezidentin adət halını almış bu səfərləri Qarabağa həyat bəxş edir. Cəmi 9 aya Laçın bərpa olundu. Bu da Azərbaycan dövlətinin prinsipiallığından xəbər verir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib.

Hazırda Qarabağın sosial-iqtisadi inkişafı üçün ciddi bazanın, infrastrukturun yaradıldığını deyən deputat bildirib: “Azərbaycan postmüharibə dövründə təkcə abadlıq-quruculuq işləri ilə məşğul olmadı. Bu qısa müddətdə həm erməni separatçılığı ilə mübarizə aparılıb, həm beynəlxalq aləmin təzyiqləri qarşısında tab gətirilib, həm də diplomatik cəbhədə böyük uğurlar qazanılıb. Həqiqətən Azərbaycan hakimiyyətinin uzaqgörənliyi Ermənistan rəhbərliyinin Qarabağla bağlı bütün planlarını alt-üst etdiyi kimi artıq ümidlərini də məhv edib. Bu Qayıdışlar təkcə zəfərin, qalibiyyətin təntənəsi deyil, həm də Azərbaycan xalqının gələcəkdəki hüquqlarının da qorunmasıdır”.

Müşfiq Cəfərovun sözlərinə görə, iki gün əvvəl Laçında təşkil olunan bayram tədbiri, atəşfəşanlıq, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın insanlarla səmimi söhbəti uzun müddət yaddaşlardan silinməyəcək. Keçmiş məcburi köçkünlərlə görüşdə dövlətimizin başçısının Müzəffər Ali Baş Komandan kimi Laçın şəhərində öz evlərində məskunlaşmış laçınlılar qarşısında çıxış etməsi Azərbaycan dövlətinin tarixinin ən böyük qürur salnamələrindəndir. Prezidentin Laçına səfəri zamanı sakinlər qarşısında çıxışında, verdiyi siyasi mesajlarda müharibədən sonra Azərbaycanın güclənən mövqeyini bir daha ifadə etdi. Açıq şəkildə bəyan etdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bu gün dünya Azərbaycan həqiqətlərini qəbul edir. İşğaldan azad olunan ərazilərdə aparılan quruculuq işləri, müşahidə olunan canlanma dünya dövlətlərinin, beynəlxalq təşkilatların da diqqətindən yayınmır.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Laçının Azərbaycanın nəzarətinə keçməsi erməni separatizminə vurulan ən böyük zərbədir - Politoloq**

Ermənistan Laçın rayonunu 28 il işğalda saxlayaraq talan edib. Laçın strateji mövqeyinə görə çox önəmli yerdir və Qarabağ iqtisadi rayonunu Ermənistanla birbaşa birləşdirir. 1992-ci ildə Laçının itirilməsi digər rayonların da işğal edilməsini sürətləndirdi. İşğal müddətində aparılan sülh danışıqlarında və təklif olunan həll planlarında Ermənistan Laçını qaytarmayacağını bildirirdi. İkinci Qarabağ müharibəsində əldə etdiyimiz Qələbə ilə digər rayonlar kimi Laçınının da uzunmüddətli işğalına son qoyuldu. Ermənistanın imzaladığı kapitulyasiya aktı ilə Laçın rayonu 2020-ci il dekabrın 1-də bizə geri qaytarıldı. 2022-ci ilin avqust ayının 26-da isə Laçın şəhərində və digər yaşayış məntəqələrində suverenliyimiz təmin olundu. Bu gün Laçın şəhəri, dəhlizi, yolu və sərhəd-buraxılış məntəqəsi Azərbaycanın tam nəzarətindədir. Bu da erməni separatizminə vurulan ən böyük zərbədir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyası sədrinin müavini, politoloq Yalçın Hacızadə söyləyib.

Politoloq qeyd edib ki, işğaldan azad edilmiş digər ərazilərimiz kimi Laçın rayonunda da sürətlə böyük quruculuq və abadlıq işləri aparılır. Dövlətimizin başçısı bu müddətdə Laçın rayonuna çoxsaylı səfərlər edib. Böyük Qayıdış proqramı çərçivəsində Laçın rayonunun sakinləri də uzun müddətdən sonra öz torpaqlarına qayıdaraq yaşamağa başlayıblar.

“İşğaldan azad edilmiş ərazilər üzrə Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamı ilə şəhər günləri təsis edilərək rayonlar üzrə qələbə tarixləri rəsmiləşdirildi. Avqustun 26-sı da Laçın Şəhəri Günü olaraq təntənəli şəkildə keçirildi. Dövlətimizin başçısının və birinci xanımın iştirakı tədbirə olan diqqəti və əhəmiyyəti daha da artırdı. Tədbir çərçivəsində laçınlılarla görüşü, uşaqlarla və böyüklərlə səmimi söhbətləri Prezident İlham Əliyevə olan inamı, sevgini təcəssüm etdirir və xalq–dövlət–rəhbər birliyini göstərir. Müasir standartlara uyğun aparılan yenidənqurma və böyük quruculuq işləri, sakinlərin öz dədə-baba torpaqlarına sevinclə dönüşü, təbiətin bərpası məqsədilə görülən tədbirlər torpaqların kimə məxsusluğunu da sübut edir.

Azərbaycan Prezidenti həm ictimaiyyətlə görüş zamanı, həm də tədbir çərçivəsində çıxışında regionda sülhün əldə olunmasının qarşısını almağa çalışan, yeni reallıqları qəbul etməyərək təxribatlarını davam etdirən qüvvələrə bir daha Azərbaycan dövlətinin məqsədini, siyasi iradəsini çatdırdı. “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsini qurmaqla öz sərhədlərinin təhlükəsizliyini təmin edən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan, beynəlxalq ictimaiyyəti aldatmağa çalışaraq Azərbaycana qarşı qərarların çıxarılmasına çalışan Fransaya, Nikol Paşinyandan daha çox erməni olmağı özünə məqsəd seçən Emmanuel Makrona bildirildi ki, “Azərbaycanı heç kim və heç nə öz yolundan döndərə bilməz”, - deyə Y.Hacızadə vurğulayıb.

O əlavə edib ki, bu gün ölkəmiz regionda siyasi, iqtisadi, hərbi və hüquqi üstünlüyə malikdir. Beynəlxalq hüquq ərazilərimizi qorumaq, suverenliyimizi təminetmə təminatı verir. Laçında və işğaldan azad olunmuş digər ərazilərdə aparılan işlər də bu üstünlüklərin verdiyi imkanlardır. Eyni zamanda, Azərbaycanın, onun rəhbərinin siyasi gücünü, dövlətimizin və xalqımızın öz məqsədlərindən geri çəkilməyəcəyini bildirir.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Prezident İlham Əliyevin “Laçın Şəhəri Günü” tədbirində iştirakı 30 illik neqativ sindromu məhv etdi - ŞƏRH**

Ermənistan tərəfindən 30 il müddətində davam etdirilmiş işğal siyasəti Azərbaycan xalqı üçün təkcə torpaq itkisi ilə nəticələnməmişdi. Bu proses həm də neqativ yüklü mənəvi-psixoloji təsirlər yaradırdı. Biz bir xalq olaraq, az qala ilin hər bir ayında hansısa rayonun, şəhərin işğal gününü yad edirdik. Torpaqlarımızın geri qaytarılması yönündə mübarizə əzmimizin yaşaması naminə işğal tarixlərini xatırlayırdıq. Fevraldan başlayaraq sentyabra qədər hər bir ayda xatırlanan bu təqvimlər öz növbəsində xalqda, xüsusilə uşaqlarda və gənclərdə ruh düşkünlüyü, bədbinlik, ağır ovqat yaradırdı. İşğal tarixləri neqativ sindroma, kabusa çevrilərək bizi il boyu təqib edirdi. Xalqımız Prezident İlham Əliyevin komandanlığı ilə 2020-ci ildə bu problemi böyük mənada həll etdi. Vətən müharibəsinin nəticəsi olaraq, ərazi bütövlüyümüz bərpa edildi. Laçın rayonu da daxil olmaqla, işğala məruz qalmış ərazilərimiz geri qaytarıldı. İndi həmin ərazilərdə rayon və şəhərlərimizin geri alınması şərəfinə təsis edilmiş Şəhər Günləri qeyd edilir. Bu mənada “Şəhər Günü” tədbirlərinin keçirilməsi 30 il ərzində formalaşmış neqativ yüklü sindromu məhv etdi.

Bu sözləri Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli AZƏRTAC-a açıqlamasında söyləyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərin hər birində şəhər günlərinin keçirilməsi haqqında Sərəncam verib. Buna uyğun olaraq, şəhər günləri təsis edilib. Laçında Şəhər Günü də bu Sərəncam çərçivəsində tarixdə ilk dəfə qeyd edilir. Avqustun 26-sı Laçın şəhərinin işğaldan azad edilməsi günüdür. Düzdür, İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq, Laçın rayonu 2020-ci il dekabrın 1-də işğaldan azad edildi. Amma Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri Azərbaycanın nəzarətində deyildi. Ötən ilin avqustun 26-da Zabux və Sus kəndlərində Azərbaycanın nəzarətinin bərpa edilməsi ilə Laçın şəhəri işğal elementlərindən tamamilə təmizləndi. 2023-cü il mayın 28-dən etibarən isə laçınlılar öz doğma yurdlarına qayıdırlar.

“Avqustun 26-da Laçın Şəhəri Günü böyük təntənə ilə qeyd edildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın həmin tədbirlərdə iştirak etmələri xüsusi coşqu yaratdı. Biz bu tədbiri izləyərkən orada iştirak edən uşaqların, gənclərin necə yüksək ovqatda olduqlarını, Prezident İlham Əliyevlə görüşərkən necə fərəh duyduqlarını gördük. Bu cür tədbirlər insanlarımız arasında qalib-qəhrəman xalq obrazını formalaşdırır. Gənc nəsildə, uşaqlarda ruh yüksəkliyi yaradır. Eyni zamanda, düşüncələrimizi neqativ sindromlardan xilas edir”, - deyən media eksperti fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Deputat: Azərbaycan regionda yeni reallıqların mövcud olduğunu açıq-aşkar nümayiş etdirir**

2020-ci il – yeniləşən, rəqəmsallaşan, innovasiyaların artdığı bu dünyada Azərbaycanın öz yeni tarixini yazmağa başladığı ildir. Məhz 2020-ci ildə Azərbaycanın müzəffər Ordusu, qəhrəman övladları Ali Baş Komandan İlham Əliyevin əmrini rəşadətlə yerinə yetirərək hər bir azərbaycanlıya canı qədər doğma olan Qarabağımızı işğaldan azad etdilər.

Azərbaycan Respublikasının əsas hədəfi Cənubi Qafqazda sülhün qorunub saxlanılması, Azərbaycanın suverenliyinin tam bərpa olunması, beynəlxalq təşkilatların qəbul etdiyi universal və ümumbəşəri sənədlərin icra olunması və əmin-amanlığı uzunmüddətli prosesə çevirməkdir. Bu proses öz növbəsində ölkəmizlə yanaşı, regionun sosial-iqtisadi rifahına, sülhə və təhlükəsizliyə birbaşa təsir edəcək.

Təsadüfi deyil ki, keçdiyimiz üç ilə yaxın bir müddətdə işğaldan azad olunmuş ərazilərdə ölkəmiz tərəfindən sürətlə aparılan və bütün dünyaya nümayiş etdirilən yenidənqurma, bərpa, abadlaşdırma işləri bilavasitə Prezident İlham Əliyevin nəzarəti ilə həyata keçirilir. Yeni infrastrukturun yaradılması ilə yanaşı, bir çox dövlətlər üçün nümunəvi hesab olunan müasir idarəçilik modelinin tətbiqi işğaldan azad olunan ərazilərimizi ümumən regionun yeni inkişaf mərkəzinə çevirməkdədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məzahir Əfəndiyev deyib

Onun sözlərinə görə, Prezident İlham Əliyev son üç ildə söz verdiyi kimi, doğma Qarabağımızın cənnətə çevrilməsi istiqamətində çox böyük əməli işlər görür. İcra olunan meqa layihələr çərçivəsində hər il bir şəhərin Baş planının təsdiq olunması, həmin Baş plana uyğun olaraq bütün zəruri işlərin görülməsi, iaşə müəssisələrinin, məktəblərin, sosial obyektlərin istifadəyə verilməsi və ya onların təməlqoyma mərasimlərinin təşkili həm yüksək zövq və keyfiyyətlə, eyni zamanda, sürətlə həyata keçirilir.

Bu gün Azərbaycan xalqının artıq böyük qürur və fəxarət hissi ilə öz doğma torpaqlarına qayıtdığını diqqətə çatdıran deputat deyib: "Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağ və Şərqi Zəngəzura mütəmadi səfərləri işğaldan azad olunmuş torpaqlarımızda yenidənqurma, tikinti işlərinin diqqət mərkəzində olduğunun, həmçinin Azərbaycanın regionda sülhün, əmin-amanlığın təmin olunmasında qətiyyətinin göstəricisidir.

Prezident İlham Əliyevin son üç ildə Laçına çoxsaylı səfərləri, sakinlərlə görüşləri, Laçın Şəhəri Günü ilə bağlı keçirilən tədbirdə çıxışı, bir sıra infrastruktur layihələrinin açılışlarında iştirakı 8 ay müddətində görülmüş möcüzəvi işləri nəinki Laçınlıların, eyni zamanda, bütün dünyanın diqqətinə təqdim etdi, Azərbaycan xalqının əzmini nümayiş etdirdi. Dövlət başçısının qeyd etdiyi kimi, "Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik". Çıxışı zamanı Prezident İlham Əliyev bir daha Azərbaycan xalqına, eləcə də bütün dünyaya səslənərək bildirdi ki, xalqımız artıq bu əraziləri bütün mənfur qüvvələrdən təmizləyib və bu torpaqlarda əbədi olaraq yaşayacaqdır".

Məzahir Əfəndiyev qeyd edib ki, qısa müddətdə aparılan yenidənqurma işləri çərçivəsində bütövlükdə Laçında 700 bina inşa olunub. Artıq 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşıb və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq.

Azərbaycan xalqı necə ki, 44 günlük İkinci Qarabağ - Vətən müharibəsində əzmkarlıqla öz torpaqlarını qorudu və işğaldan azad etdi, bundan sonra da Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, öz torpaqlarının cənnətə çevrilməsi istiqamətində aparılan işləri dayandırmayacaq. Bu, bir tərəfdən Azərbaycan xalqının birliyini ifadə edən yanaşmadır, digər bir tərəfdən isə bu gün dünyada baş verən siyasi katoklizmlərin, mövcud olan münaqişələrin həlli istiqamətində ölkəmizin sülhməramlı qüvvə olaraq çıxış etməsinin, bölgədə sülhün təmin olunması üçün təkbaşına bütün işləri gördüyünün əyani sübutudur.

Bölgədəki son hadisələr Azərbaycanın qalib olduğunu və regionda artıq yeni reallıqların mövcud olduğunu bir daha açıq-aşkar göstərir. Ermənistan indi Azərbaycanın hüquqi və qanuni iddialarını əks etdirən yeni reallıqları yerində qəbul etməlidir. Beləliklə, sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu böyük sülh sazişinin imzalanmasından və region dövlətlərinin qarşılıqlı əməkdaşlığının daha da güclənməsindən keçir.

**AZƏRTAC**
**2023, 28 avqust**

**Ayxan Hacızadə Ermənistan XİN tərəfindən Azərbaycana qarşı səsləndirilmiş əsassız iddialara cavab verib**

Ermənistan tərəfi öz məkrli siyasətlərini davam etdirmək məqsədilə, növbəti dəfə bölgədə vəziyyətə dair məlumatları təhrif edərək saxta və yalan dolu bəyanatlar yaymaqdadır. Ermənistanın Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycanın suveren ərazisində təsis etdiyi Laçın sərhəd buraxılış məntəqəsini qanunsuz adlandırmaqla yetinməyib, Azərbaycan qanunvericiliyinə əsasən etnik və irqi zəmində düşmənçiliyin təbliğ olunmasına, eləcə də Azərbaycanın Dövlət bayrağına qarşı təhqiredici hərəkətlər etdiklərinə görə barələrində cinayət işi açılan və 28 avqust tarixində saxlanılan üç nəfər Ermənistan vətəndaşının qaçırıldığı iddiası yayması bu ölkənin beynəlxalq öhdəliklərinə hörmət etmədiyini göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın Xarici İşlər Nazirliyinin 28 avqust tarixli bəyanatına dair şərhində yer alıb.

XİN-in rəsmisinin şərhində deyilir: "Bununla, guya Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını pozduğunu iddia edən Ermənistan tərəfinə xatırlatmaq istərdik ki, məhz etnik və irqi zəmində nifrət əməllərinin qarşısının alınması istiqamətində məhkəmə qərarı mövcuddur və Ermənistan bu hərəkətlərin qarşısını almaq əvəzinə onlarla mübarizə aparan Azərbaycana qarşı bəyanatlar səsləndirir. Qeyd edilən üç şəxsin yaşı, törətdikləri əməli səmimi etiraf etməklə peşman olmaları nəzərə alınaraq və humanizm prinsipindən çıxış edərək Azərbaycanın onlara qarşı cinayət təqibinə xitam verməsinə baxmayaraq, Ermənistan tərəfinin törədilən cinayətləri ört-basdır etməyə çalışması və Azərbaycanı etnik təmizləmədə təqsirləndirməsi bu ölkənin əsl niyyətindən xəbər verir. Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, həm bu ərazilərdən, həm də indiki Ermənistan ərazisindən azərbaycanlıları qovan və etnik təmizləmə həyata keçirən, hal-hazırda da bütün öhdəliklərinə zidd olaraq Azərbaycan ərazisində silahlı qüvvələrini tam olaraq çıxarmayan, separatçılığı təşviq edən Ermənistanın Azərbaycanı təcavüzdə təqsirləndirməsindən daha absurd bir fikrə rast gəlmək qeyri-mümkündür. Ermənistan tərəfinə bir daha xatırlatmaq istərdik ki, onun tərəfindən bölgədə irəlilədilən təcavüz siyasətinin heç bir əməli nəticəsi olmayacaq və Azərbaycanın sülhün bərqərar olması təşəbbüslərinə dəstək verilməsi Ermənistan üçün daha faydalı olardı".

**AZƏRTAC**
**2023, 29 avqust**

**Qarabağda və Şərqi Zəngəzurda qısa müddət ərzində görülən işlər heyrətamizdir - Politoloq**

Prezident İlham Əliyevin istər Qarabağ iqtisadi zonasına, istərsə də Şərqi Zəngəzura səfərləri mühüm mesajları ilə yadda qalır. Bu mesajlar həm ölkə ictimaiyyətinə yönəlib, həm də xaricdə Azərbaycanın uğurlarına sevinən və sevinməyən qüvvələrə istiqamətlənib. Dövlətimizin başçısının həm Kəlbəcərə, həm də Laçına səfərləri Böyük Qayıdış strategiyasının uğurla həyata keçirildiyini göstərir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ramiz Alıyev söyləyib.

Qarabağ və Şərqi Zəngəzurda qısa müddət ərzində görülən işlərin heyrətamiz olduğunu vurğulayan politoloq deyib: “Uzun illər işğal altında olmuş Laçın və digər rayonlarımızda sürətli tikinti-quruculuq işləri aparılır. Görülən işlərin nəticəsi olaraq artıq 1000-ə yaxın sakin öz tarixi torpaqlarına qayıdıb. Hazır evlər, mükəmməl infrastruktur, hamar yollar, yaşıl parklar, müasir məktəb və xəstəxanalar göz oxşayır. İndi hər kəs arzulayır ki, tezliklə öz doğma el-obasına qayıtsın. Təbii ki, o cür təbii gözəlliyi olan, dövlət tərəfindən daha da gülüstana çevrilən yerlərdə yaşamağı hər kəs arzu edir. İnsanlarımız o torpaqlara sevinə-sevinə dönürlər. Müharibədən əvvəl və az sonra bəziləri deyirdilər ki, məcburi köçkünlər ermənilər tərəfindən viran, xaraba günə qoyulmuş ərazilərə qayıtmayacaqlar. Bəziləri iddia edirdilər ki, Qarabağın bərpasına 10 illiklər lazımdır. Amma Azərbaycan Prezidentinin qətiyyəti və səyi nəticəsində bu gün xəyallar, arzular reallığa çevrilir. Planlı şəkildə atılan addımlar nəticəsində insanlar Böyük Qayıdış proqramında fəal iştirak edirlər. Dövlətimizin başçısının Kəlbəcərdə açılışını etdiyi müxtəlif layihələr, su elektrik stansiyaları, zavodlar burada yaşayacaq insanların sosial təminatının gücləndirilməsinə hesablanıb. Bilirsiniz ki, Kəlbəcər mineral suları ilə zəngindir. Bura turizm mərkəzi kimi böyük potensiala malikdir. Burada dağların yamacında salınan yollar, tunellər bir çoxları üçün möcüzəvi iş təsiri bağışlayır. Mümkün olmayanı mümkün edən, xəyalları gerçək edən dövlətimizin Laçının Qorçu kəndində inşasına start verdiyi hava limanı turistlərin bu bölgəyə rahat şəkildə gəlmələrini təmin edəcək. Mineral tərkibli İstisudakı sular müalicəvi əhəmiyyətə malikdir. Həm ölkə vətəndaşları, həm də xaricdən gələn turistlər bu mineral suların müalicəsindən yararlanmaq imkanı əldə edəcəklər”.

Ramiz Alıyevin sözlərinə görə, avqustun 26-da Laçının azad olunmasının şərəfinə keçirilən “Laçın Şəhəri Günü” tədbiri çox möhtəşəm oldu. Otuz ilə yaxın idi ki, biz Laçın haqqında ancaq nisgilli danışırdıq, oranı kədərlə xatırlayırdıq. Ermənilər Laçının və oradakı bütün yaşayış məntəqələrinin coğrafi adlarını dəyişdirmişdi. Qanunsuz məskunlaşma işləri aparırdı. Bu gün isə biz Laçındayıq, oranı gözəlləşdiririk. Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə bölgəyə mütəmadi səfərlər edir, görülən işlərlə yerində tanış olur, tapşırıq və tövsiyələrini verir. Dövlətimizin başçısı və xanımı Kəlbəcər və Laçında bir sıra obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdilər, yerli sakinlərlə görüşüb söhbətləşdilər. İnsanların üzlərindəki sevinc, fərəh hisslərini görməmək mümkün deyildi. Ali Baş Komandan və xanımının azad olunan ərazilərə səfərləri orada yaşayan, çalışan insanlara təhlükəsizlik, güvən hissi bağışlayır, onlara güc, yaşam həvəsi verir.

“Prezident İlham Əliyev tədbirdəki çıxışında bildirdi ki, 50 illik yubileyində Ağcabədinin Taxtakörpü ərazisində Laçından olan məcburi köçkünlərlə görüşündə onlara dədə-baba yurdlarına qayıdacaqlarına söz verib. Laçında Şəhər Gününün qeyd olunması məhz Azərbaycan Prezidentinin laçınlılara verdiyi vədin yerinə yetirilməsi kimi də qəbul etmək olar. Bu tədbir dövlətimizin başçısının laçınlılara ən böyük hədiyyələrindən biri idi. Dünyada çox az sayda siyasətçi, dövlət başçısı var ki, onun sözünün imzası qədər çəkisi, təsiri olsun. Prezident İlham Əliyev Laçın Şəhəri Günü çıxışında bir daha bəyan etdi ki, bizim iradəmizə heç kim təsir edə bilməz. Ermənistan və onun havadarlarının anti-Azərbaycan təbliğatı, “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin qurulmasına etirazları heç bir nəticə verməyəcək. Məntəqənin qurulması Azərbaycanın suveren hüququdur. Beynəlxalq hüquq da bizim tərəfimizdədir. Azərbaycan Prezidenti Laçındakı çıxışında bu məsələyə nöqtə qoydu”, - deyə politoloq vurğulayıb.

**AZƏRTAC**
**2023, 29 avqust**

**Politoloq: Laçın işğal dövründə ən çox "erməniləşdirilmiş" məntəqələrdən biri idi**

Dövlətimizin başçısının Laçın rayonuna növbəti səfəri bir çox məqamlarına görə iqtisadi, siyasi və sosial xarakter daşıyırdı. Birincisi, onu qeyd etmək lazımdır ki, Laçın rayonu Qarabağ iqtisadi rayonunda strateji əhəmiyyətə malik olan bir məntəqədir. Bu rayonun işğaldan azad olunması Azərbaycan diplomatiyasının böyük qələbələrindən biri kimi qəbul oluna bilər. Heç təsadüfi deyil ki, müharibədən əvvəl keçirilən görüşlərdə Ermənistan Laçının Azərbaycana qaytarılmasının əleyhinə olub. Lakin Azərbaycanın siyasi iradəsi, iqtisadi gücü və hərbi potensialı ermənilərin bu istəklərini arzu olaraq gözlərində qoydu.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

Onun sözlərinə görə, işğaldan sonra Laçının yenidən qurulması və inkişafı istiqamətində vacib layihələrin reallaşması əsas prioritetlərdən biri idi. Yeni hava limanının tikintisi, əhalinin geri qayıtması və enerji təminatı məsələləri bu layihələrin ən vacib bəndləri kimi qəbul edilə bilər. Dövlətimizin başçısının budəfəki səfəri məhz bu istiqamətlər üzrə aparılmış işlərlə tanışlıq və eləcə də əhalinin məskunlaşmasını yaxından izləmək məqsədi daşıyırdı.

Bu səfər, eyni zamanda, ilk dəfə idi ki, Laçın Şəhər Günü ilə üst-üstə düşürdü. İkinci Qarabağ müharibəsində işğaldan azad edilmiş ərazilərin adları Prezident İlham Əliyev tərəfindən əbədiləşdirilərək şəhər günləri kimi təqvimə həkk olundu. Belə ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzaladı. Beləliklə, Laçın şəhəri erməni işğalından avqustun 26-da azad olunduğu üçün bu tarix Laçın Şəhəri Günü kimi təsdiq olundu.

"Yeni infrastruktur layihələrinin açılışı, Zabux kəndində görülmüş işlərlə tanış olması və enerji mənbələrinin istifadəyə verilməsi Prezident İlham Əliyevin budəfəki səfər zamanı diqqət çəkən məqamlar oldu. Laçının 30 illik dağıntı və talandan sonra yeni görkəm almasının şahidi oluruq. Bu, eyni zamanda, hazırda bölgədə yaşayan erməni icmasına da bir mesaj kimi qəbul olunmalıdır. Otuz il ərzində ərazidə heç bir bərpa işi aparılmadığı halda, son 9 ay ərzində Laçının görkəmi tamamilə dəyişib. Bu, Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və qurub-yaratmaq gücünün bariz nümunəsidir.

Azərbaycanlı əhalinin Laçına geri qayıtması bizim üçün olduqca vacib məqam idi. Çünki işğal altında olanda Laçın rayonu Ermənistan tərəfindən ən çox "erməniləşdirilmiş" məntəqələrdən biri idi. Suriya, Livan və digər ölkələrdən olan ermənilər məhz Laçın, Zabux və Sus kəndlərinə köçürülmüşdü. Buna cavab olaraq artıq laçınlılar öz evlərinə, torpaqlarına qayıdıblar. Ermənistan dövlətindən fərqli olaraq, bu proses zorakı məskunlaşma yox, öz dədə-baba torpaqlarına geri qayıdışdır", - deyə A.Əliyev söyləyib.

Politoloq əlavə edib ki, Laçına səfəri zamanı rayon əhalisi qarşısında çıxış edən Prezident İlham Əliyev bir sıra siyasi məqamlara da toxundu. Belə ki, aprelin 23-də Laçında dövlət sərhədindən buraxılış məntəqəsinin qurulmasının vacib siyasi gediş olduğunu, bunun sərhəd-mühafizə işini gücləndirdiyini, həmçinin bu addımın Azərbaycanın legitim hüququna əsaslandığını bildirdi. Bu addıma qarşı çıxan erməni milliyyətçiləri və onlara havadarlıq edən xarici qüvvələrin təzyiqi fonunda Azərbaycan heç bir zaman bu məsələdə geri addım atmayıb və bundan sonra da eyni siyasi xətti davam etdirəcək. Ölkəmiz sülhün və bölgədə təhlükəsizliyin təmin olunmasının tərəfdarıdır. Bu, Azərbaycan dövlətinin prioritet siyasətidir.

Qarşıdan digər rayonların və məntəqələrin də adının əbədiləşdirildiyi tarixi günlər gəlir. Dövlətimizin başçısının həmin rayonlara səfərləri zamanı daha da vacib bəyanatların veriləcəyini indidən ehtimal etmək olar. Bu da Ermənistana və onu himayə edənlərə xəbərdarlıq xarakterli mesajlar olmalıdır.

**AZƏRTAC**
**2023, 29 avqust**

**Laçın rayonunda “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyaları istifadəyə verilib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Laçın rayonunda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” Su Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tam yenidən qurulub. Hazırda “Ağbulaq” Su Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarında isə işlər başa çatdırılıb.

Qeyd olundu ki, “Mişni” Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 7,2 kilometr uzunluğunda derivasiya boru xətti və maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün 25 meqavoltamper gücündə 110/10 kV-luq yarımstansiya tikilib, 18 kilometr uzunluğunda 110 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Bu yarımstansiya “Mişni” stansiyası ilə yanaşı, “Alxaslı” stansiyasında istehsal edilən elektrik enerjisinin ölkə enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş “Mişni” Kiçik Su Elektrik Stansiyasında il ərzində 23 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Bildirildi ki, “Alxaslı” Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 4,3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün “Mişni” Su Elektrik Stansiyasında tikilmiş 110/10 kV-luq yarımstansiyaya 8 kilometr uzunluğunda 10 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş “Alxaslı” Su Elektrik Stansiyasında il ərzində 17 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısı “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, “Ağbulaq”, “Alxaslı” və “Mişni” stansiyaları ilə yanaşı, bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib. Hazırda 4 stansiyanın yenidən qurulması üzrə işlər davam etdirilir. Gələn ilin birinci rübündə artıq Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su elektrik stansiyası fəaliyyət göstərəcək.

Bildirildi ki, su elektrik stansiyalarında ekoloji normalar tam qorunur. Bütün layihələr icra edilərkən çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması məqsədilə xüsusi balıqkeçirici qurğular tikilib. Avropanın yaşıl sertifikatlı avadanlıqlarından istifadə etməklə çay ekosistemi, o cümlədən flora və fauna tam qorunur, çayların məcralarında ekoloji axımdan iki dəfə artıq miqdarda su saxlanılmaqla, aşağı axım zonasının su təminatı, eyni zamanda, məcraaltı su ehtiyatının formalaşması təmin edilib. Bununla yanaşı, bu işlər görülərkən meşələrin qırılmasına, qayaların dağıdılmasına yol verilməyib, çay məcralarında hidromorfoloji dəyişikliklər edilməyib. Derivasiya boru xətləri çəkilən zaman beynəlxalq təcrübəyə uyğun xüsusi konstruksiyalardan istifadə edilməklə ətraf mühitə təsirlər minimallaşdırılıb. Su elektrik stansiyalarının karbon emissiyasının azaldılmasında rolunu təsdiqləmək üçün beynəlxalq sertifikat əldə edilməsi istiqamətində iş aparılır.

Bu layihələrin sosial-iqtisadi əhəmiyyəti barədə məlumat verilərkən qeyd olundu ki, işğaldan azad edilən ərazilərdə 2021-2023-cü illərdə “AzərEnerji” ASC-nin icra etdiyi layihələr üzrə 3965 işçinin 2570-i yerli sakinlər olub. Daimi iş yerləri ilə təmin edilmiş 197 nəfərin 170-ni Qarabağ və Şərqi Zəngəzur regionundan olan əhali təşkil edir. “AzərEnerji” ASC yerli sakinlərin işlə təminatı üçün tikinti-quraşdırma işlərinə paralel olaraq peşə hazırlığı kursları da təşkil edir. Bu təşəbbüs regionda yeni energetika obyektlərinin tikintisi və istismarında yerli sakinlərin məşğulluğu üçün gələcəkdə də davam etdiriləcək.

Bütün elektroenergetika obyektlərində çalışan işçilərin məişət şəraitinin yaxşılaşdırılması üçün mühəndis-yataqxana kompleksləri yaradılıb.

**AZƏRTAC**
**2023, 25 avqust**

## Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlətimizin başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2025-ci ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr olacaq. Hava limanı Qorçu kəndi yaxınlığında dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilir və postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin hamarlanması işləri davam etdirilir. Hazırda uçuş-enmə zolağının, yönəldici yolların, perronun tikiləcəyi ərazilərdə genişmiqyaslı torpaq işləri həyata keçirilir. Aeroportun beynəlxalq standartlara uyğun layihələndirilən terminal binasının sahəsi 5 min kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Terminal binasında bünövrənin beton işləri tam başa çatdırılıb, metal konstruksiyaların yığılması üzrə işlərin 95 faizi yerinə yetirilib. Terminalın dam örtüyü işlərinə başlanılıb. Hava limanının aeronaviqasiya qülləsi və köməkçi binalarında təməlqoyma işləri görülür.

Qeyd edildi ki, Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının inkişafına da imkan verəcək.

Qeyd edək ki, Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanışlıq**

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına aparılan işlər barədə məlumat verdi.

Bildirildi ki, inşası sürətlə davam etdirilən 75,8 kilometr uzunluğunda yeni yol mövcud yoldan 32 kilometr qısa olacaq. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Yeni yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpü də inşa edilir.

Dövlətimizin başçısına yol üzərində inşa olunacaq T-9 tuneli barədə də məlumat verildi. Qeyd edildi ki, tunelin uzunluğu 224 metrdir. İkizolaqlı tunelin eni 10,6 metrdir.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Laçında mehmanxana kompleksinin təməli qoyulub**

Avqustun 25-də Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Laçının bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Ən müasir səviyyədə inşa olunacaq mehmanxanada rayona səfərə gələnlərin rahatlığı üçün hər cür şərait yaradılacaq. Mehmanxana kompleksi 100 otaqlı hotel binasından və 10 kottecdən, eləcə də kafe və restoranlardan, əyləncə və istirahət mərkəzlərindən ibarət olacaq. Hotel binasında 500 yerlik çoxfunksiyalı tədbir və iclas zalları da qonaqların istifadəsinə veriləcək.

Eyni zamanda, mehmanxanada açıq və qapalı hovuz, SPA mərkəzi, boulinq və əyləncə, uşaq əyləncə zonası, qapalı idman zalı, yoqa otağı və açıq havada çoxfunksiyalı meydançalar yaradılacaq. Bir sözlə, yüksək xidmətlərin göstəriləcəyi mehmanxana kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Prezident və birinci xanım Laçının sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, bir sıra müəssisələrdə yaradılan şəraitlə tanış olublar**

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bərpa və quruculuq işləri istehsal müəssisələrinin yaradılması ilə paralel şəkildə davam etdirilir. Bu işlərdən biri də Laçın rayonunun sənaye zonasında yaradılan mebel fabrikidir. Müəssisədə yataq və qonaq otaqları dəstlərinin, qapıların və digər mebel məhsullarının istehsalı nəzərdə tutulub. Fabrikin illik istehsal gücü 3 min kubmetrdir. Burada Avropa ölkələrinin, Türkiyə və Çinin istehsalı olan avadanlıqlardan, Türkiyə və Rusiyadan alınan xammaldan istifadə olunacaq. İstehsal sahələrində ümumilikdə 100 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Prezident İlham Əliyev mebel fabrikini işə saldı.

Prefabrik modul evlərin istehsalı müəssisəsi ilə tanışlıq zamanı məlumat verildi ki, burada ildə 200 ev hazırlanacaq. Prefabrik evlərə qonaq, mətbəx, yataq otaqları və sanitar qovşaq daxildir. Bu evlərin daş evlərdən üstünlüyü ondan ibarətdir ki, onlar zəlzələyə davamlı və yüksək dayanıqlılıqla yanaşı, ekoloji cəhətdən təmizdir. Həmçinin uzunömürlü və yanğına davamlı olan bu evlərin digər bir üstünlüyü isə qiymətinin daha sərfəli olmasıdır. Bu müəssisədə də 100 nəfər daimi işlə təmin olunub.

Xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinə baxış zamanı qeyd olundu ki, burada qoyun kəsimi üçün beş, inək kəsimi üçün üç modul tipli avadanlıq quraşdırılıb. Müəssisənin illik istehsal gücü 17 min baş heyvan kəsiminə imkan verir. İstehsal sahəsində kəsim, içalat təmizləmə, soyutma otağı, kiçik hissələrə ayırma, paketləmə konteynerləri yerləşdirilib. Bu müəssisədə 30 nəfər işlə təmin olunacaq.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Laçın rayonunda “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub**

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma pavilyonda yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan “Hoçazfilm” studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək. Studiya çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarına bölgənin zəngin təbiəti, imkanları ilə bağlı bələdçilik və lokasiya xidmətləri göstərəcək, onları müvafiq avadanlıqla təmin edəcək. Studiya, həmçinin yerli və xarici media, dövlət təşkilatları, dövlət və özəl kinostudiyalar ilə əməkdaşlıq əsasında regiondan audiovizual kontent təqdim edəcək.

Diqqətə çatdırıldı ki, çoxşaxəli yaradıcılıq məkanı olan “Hoçazfilm”in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Studiyanın tərkibində “Hochaz Hotel” və “Hochaz Kafe” də fəaliyyət göstərəcək.

Məlumat verildi ki, pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur. Kino sənayesində ən çox tələbat duyulan dekorların hər biri xüsusi olaraq “Hoçazfilm”in sifarişi əsasında hazırlanmış əl işidir. Bütün bunlar kino və digər kommersial çəkilişlər üçün müxtəlif agentliklər və studiyalarla qarşılıqlı faydalı əməkdaşlığın yaradılması baxımından çox əhəmiyyətlidir. Pavilyonda ilkin mərhələdə nadir dekorasiyalar - təyyarə, helikopter, həbsxana, elmi laboratoriya və üçtərəfli yaşıl ekran quraşdırılıb. Kinopavilyonun tələbata uyğun olaraq mütəmadi qaydada yeni dekorlarla zənginləşdirilməsi nəzərdə tutulub.

Həmçinin bildirildi ki, “Hoçazfilm” yaradıcılıq studiyasının ilk layihəsi Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, əslən laçınlı Xosrov bəy Sultanovun həyat və fəaliyyətindən bəhs edən “Qarabağ qubernatoru” bədii-sənədli filmidir. Layihənin məqsədi tarixi paralellər aparmaqla Qarabağ və Zəngəzur ətrafında erməni daşnaklarının və Qafqazda maraqları olan böyük siyasi güclərin həyata keçirdikləri işğalçılıq siyasəti, törətdikləri cinayətlər barədə həqiqətləri dünyaya çatdırmaq, 44 günlük Vətən müharibəsində Zəfər qazanmış Azərbaycan xalqının, dövlətçiliyinin əzəmətini, qüdrətini tərənnüm və təbliğ etməkdir.

**Birinci xanım Mehriban Əliyeva:** Kino müharibədən sonra Azərbaycan üçün çox vacibdir.

**Prezident İlham Əliyev:** Xüsusilə indi Qarabağ müharibəsi ilə bağlı, ümumiyyətlə, mövzular çox ola bilər. Müharibənin özü, həm müxtəlif epizodlar, müxtəlif əməliyyatlar.

**Birinci xanım Mehriban Əliyeva:** Əlbəttə.

**Studiyanın əməkdaşı:** Silsilə sənədli filmlərimiz var. Sizin uğurlu siyasətiniz sayəsində 44 günlük müharibə ilə böyük uğur əldə etmişik. Bundan artıq heç nə ola bilməz. İnşallah, yaxşı olacaq.

**Birinci xanım Mehriban Əliyeva:** Amin.

**Prezident İlham Əliyev:** İndi laçınlılar gəlib öz dədə-baba torpağında yaşayırlar. Uğurlar.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun.

**Studiyanın əməkdaşı:** Sağ olun.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Laçın rayon 2 nömrəli tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əvvəlcə Laçından olan sakinlərlə görüşüb qısa söhbət etdilər.

**Kişi sakin:** Anam 46 il burada müəllim işləyib. Biz anam tərəfdən böyük nəsil-kökük.

**Mehriban xanım Əliyeva:** Bura cənnətdir. Nə qəşəng qızdır.

**Balaca qız:** Gedək bizim evimizdə bir çay içək.

**Prezident İlham Əliyev:** Sağ ol, bala, çox sağ ol. Hələ çox gələcəyik. Sağ olun. Sizə cansağlığı və uğurlar.

**Qadın sakin:** Sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

Elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edildi ki, Laçın şəhər 2 nömrəli tam orta məktəbin binasının layihələndirilməsi və əsaslı təmiri məqsədilə Azərbaycan Prezidenti 2022-ci il sentyabrın 22-də Sərəncam imzalayıb. Sərəncama əsasən, ötən ilin dekabrında məktəb binasında bərpa-gücləndirmə və əsaslı təmir işlərinə başlanılıb. Ümumilikdə 510 şagird yerlik məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir. Binada 24 yerlik doqquz, 18 yerlik beş və 12 yerlik dörd sinif otağı, 1 informatika, 1 texnologiya kabineti, 3 laboratoriya, 18 yerlik məktəbəhazırlıq otağı və 24 yerlik hərbi hazırlıq kabineti var.

Həmçinin məlumat verildi ki, Azərbaycan Prezidentinin qeyd olunan Sərəncamı ilə Laçın rayonunun 176 şagird yerlik Zabux kənd tam orta məktəbi binasının layihələndirilməsi, əsaslı təmiri və bərpasına başlanılıb. Həmin məktəb binasının ümumi sahəsi 1245 kvadratmetrdir. Binada 11 sinif otağı, kimya, fizika laboratoriya otaqları, informatika kabineti, yeməkxana, tibb otağı, akt və gimnastika zalları, hərbi hazırlıq kabineti, kitabxananın yaradılması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışı olub**

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ zonasında ilk nərəyetişdirmə təsərrüfatı olan bu müəssisədə il ərzində 35 ton Kür nərəsi, 1,5 ton çökə və 5 ton forel yetişdiriləcək. Bunun üçün müəssisədə hər birinin uzunluğu 40, eni 3 metr olan açıq tipli 36 beton kanal yaradılıb.

Dövlətimizin başçısına və birinci xanıma nərə balığının yetişdirilməsi və kürünün əldə edilməsi prosesi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, ana balıq kürünün formalaşmasından sonra cinslər üzrə məhsul əldə edilməsi üçün mövsümə uyğun olaraq martdan mayadək nohurlarda, bütün ilboyu isə şirin suyu olan qapalı su təchizatı qurğusunda saxlanılır. Balıqların cinsi təyin edildikdən sonra isə damazlıq sürü müəyyənləşdirilir. Sonrakı mərhələdə balıqların genetik pasportlaşdırılması və çipləşdirilməsi həyata keçirilir. Daha sonra balıq məhsullarının hazırlanması və emalı üçün erkək balıqların ayrılması, dişi balıqlardan kürü istehsalına başlanması prosesi aparılır. Sonda isə körpə balıqların buraxılması, kürü və balıq məhsullarının əldə edilməsi prosesi həyata keçirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsi planlaşdırılır. Belə ki, nərə əti istehsalının ildə 70 tona, kürünün 3 tona, forel ətinin isə 10 tona çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 25 avqust**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçının Zabux kəndində görülmüş işlərlə tanış olublar və sakinlərlə görüşüblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olublar və burada kənd sakinləri ilə görüşüblər.
AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.
Bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Eyni zamanda, kənd sakinlərinin rahatlığı və məşğulluğu nəzərə alınaraq bir sıra infrastruktur binalarının da inşası həyata keçirilib. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi də inşa edilib. Zabuxda evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilir. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetirilib.
Qeyd edək ki, artıq avqustun 25-də 20 ailə - 88 nəfər doğma yurdlarına - Zabux kəndinə qayıdıb.
Dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə görüşüb söhbət etdilər.
**Prezident İlham Əliyev:** Salaməleyküm.
**Sakinlər**: Salam. Xoş gəlmisiniz, cənab Ali Baş Komandan. Xoş gördük.
**Sakin (Mehriban xanıma):** Təbrik edirik.
**Mehriban xanım Əliyeva:** Sağ olun.
**Sakinlər:** Yaratdığınız bu cənnətə xoş gəlmisiniz.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Qadın sakin (Mehriban xanıma):** Sizi təbrik edirəm. 100 yaşayın, Allah Sizə cansağlığı versin.
**Mehriban xanım Əliyeva:** Çox sağ olun. Hər kəsə Allah cansağlığı versin.
**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm, Vətəninizə xoş gəlmisiniz.
**Sakinlər:** Sağ olun, Allah Sizi var eləsin. Bura Sizin yaratdığınız cənnətdir, biz gəlmişik.
**Prezident İlham Əliyev**: 31 ildən sonra.
**Sakin:** Bəli, Allah köməyiniz olsun. 31 il 102 gündür ki, mən bura gəlməmişəm. Bu gün buradayam.
**Prezident İlham Əliyev**: Hansı tarixdə Zabuxdan çıxmısınız?
**Sakin:** 1992-ci il mayın 16-da çıxmışam.
**Prezident İlham Əliyev:** Hələ Laçın şəhəri işğal olunmamışdı. Buranı işğal etdilər, ondan sonra.
**Sakin:** Bəli. Allah Sizə ömür versin.
**Prezident İlham Əliyev:** Bu illər ərzində harada yaşayırdınız?
**Sakin:** Bu illər ərzində Sarıqayada yaşamışam, sonra Sumqayıtda yataqxanada yaşamışam. İndi də Quba yolunun üstündə fərdi evim var, orada yaşamışam.
**Prezident İlham Əliyev:** Artıq vətəndəsiniz. Bundan böyük xoşbəxtlik ola bilməz. Zabux kəndi də tamamilə yeni görkəm alır.
**Sakin:** Çox sağ olun, Allah köməyiniz olsun. Cənnət yaratmısınız. Allah razı olsun.
**Prezident İlham Əliyev:** Siz dünən gəlmisiniz, birinci köçənlərdənsiniz. 31 ildən sonra artıq vətəndaşlarımız öz dədə-baba torpaqlarına qayıdırlar. Bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, siz də hər zaman inanırdınız ki, bu gün gələcək.
**Sakin:** Gəldi, Sizin sayənizdə. Allah Sizə ömür versin. 44 günlük müharibədə kütləvi informasiya vasitələrində Sizin gördüyünüz iş böyük bir jurnalist ordusunun, böyük bir müxbir ordusunun işi idi. Hamını öz yerində oturtdunuz. Bu gün bizim üçün həm də gözəl günlərdən biridir ki, Mehriban xanımın ad günüdür. Biz hamımız Mehriban xanıma uzun ömür, cansağlığı arzulayırıq. Allah ömür versin. Əskik olmasın.
**Prezident İlham Əliyev:** Bu gün Laçın Şəhəri Günüdür. Çünki 26 avqust - keçən ilin bu günündə ordumuz Laçın şəhərinə daxil oldu. Beləliklə, 26 avqust bundan sonra Laçın Şəhəri Günü kimi qeyd olunacaq. Azad edilmiş bütün şəhərlərimizin şəhər günləri təsis edildi. Mənim Fərmanımla növbəti bayram tədbirləri oktyabrın 17-də Füzuli şəhərində olacaq.
**Sakin:** İnşallah. Zəfərlərimiz bol, bayrağımız uca olsun.
**Yaşlı qadın:** Xoş gəlmisiniz.
**Prezident İlham Əliyev:** Sən də xoş gəlmisən.
**Yaşlı qadın:** Allah canınızı sağ eləsin. Sizdən bircə xahişim var. Mənim oğlum rəhmətə gedib, mənim olduğum otağı verirəm ölən oğlumun yoldaşına, təşkil edəsiniz.

**Prezident İlham Əliyev:** Mehriban xanım nə lazımdırsa, onu həll edər.
**Qadın sakin**: Oğlu rəhmətə gedib. İstəyir ki, onun oğlu, uşağı, ailəsi buna yaxın olsun.
**Prezident İlham Əliyev:** Gəlsinlər buraya?
**Sakin:** Hə, gəlsinlər buraya yaxın olsun.
**Prezident İlham Əliyev:** Gəlsinlər, əlbəttə.
**Mehriban xanım Əliyeva:** Onlar indi haradadırlar?
**Sakin:** Xırdalanda.
**Prezident İlham Əliyev:** Onlar, əlbəttə, gələcəklər. Yəni, bütün zabuxlular gələcək. Eviniz necədir, rahatdır?
**Sakinlər:** Rahatdır. Hər şey yaxşıdır.
**Prezident İlham Əliyev:** Nənənin yaxın qohumları da gələcək yəqin ki, bir müddətdən sonra. Xahişi odur ki, onların da yeri ona yaxın olsun. Onu təşkil edərsiniz.
**Rövşən Rzayev:** Baş üstə.
**Prezident İlham Əliyev:** Bütün zabuxlular qayıdacaq. Yəni, mən şübhə etmirəm. Çünki biz bu inşa işlərinə start verəndə mən dedim ki, keçmiş köçkünlər arasında sorğu keçirilsin. Mənə verilən məlumata görə, bütün əksər köçkünlər, onların mütləq əksəriyyəti qayıtmağa qərar vermişdir. Ona görə zabuxlular da qayıdacaqlar. Çünki bəzi evlərdə hələ ki, tamamlama işləri gedir.
**Yaşlı qadın:** Allah o gözəl atana rəhmət eləsin. Amin.
**Prezident İlham Əliyev:** Allah bütün ölənlərimizə, şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində, Ordumuzun sayəsində biz bu gün buradayıq. Siz bu divarı çəkmisiniz?
**Rövşən Rzayev:** Bəli, istinad divarları çəkilib.
**Prezident İlham Əliyev:** İstinad divarı, amma çaya da giriş olmalıdır.
**Rövşən Rzayev**: Çaya bu bulaqdan ayrıca giriş gedir, bu bulaq tərəfdən, onun arxasından.
**Prezident İlham Əliyev**: Yox, çaya yaxınlaşmaq üçün. Mən baxıram, siz divarı belə bütöv çəkmisiniz, insanlar çaya yaxınlaşa bilmirlər, siz girişlər edin. Siz müxtəlif yerlərdə açın bu divarları ki, belə pilləkən düzəldin, yaxud da belə geniş olsun ki, insanlar çaya yaxınlaşa bilsinlər.
**Rövşən Rzayev:** Baş üstə.
**Məsim Məmmədov:** Bu çay da bizim Həkəri kimi genişləndirilib, dərindən çıxarılıb ki, bir az geniş olsun.
**Prezident İlham Əliyev:** Əlbəttə, siz elə yaxın zamanlarda açın ki, giriş olsun.
**Məsim Məmmədov:** Baş üstə.
**Prezident İlham Əliyev:** Uşaqlar, yaşlı insanlar buraya - çayın qırağına rahat gəlsinlər, burada sərinləsinlər, balıq tutsunlar.
**Sakin:** Allah ömür versin, maşallah, Sizin sayənizdə Zabux kəndini bütün BMT-dən belə tanıyırlar. Bütün dünyada artıq Zabux kəndi məşhur kənddir. Allah Sizə ömür versin. Çox sağ olun.
**Prezident İlham Əliyev:** Ermənilər gəlib burada qanunsuz yerləşmişdilər, özü də deyirdilər ki, buradan çıxmırıq. Yəqin ki, o kadrları görmüsünüz.
**Sakinlər:** Hamısını görmüşük, izləmişik. Allah Sizə ömür versin.
**Prezident İlham Əliyev:** Bir eybəcər də ad vermişdilər. Gəlin, şəkil çəkdirək.
**x x x**
Xatirə şəkilləri çəkdirilir.
**x x x**
**Sakinlər:** Yaddaşlarda qalan xatirədir, gözəl xatirədir. Bütün evlərdə, hamıda olacaq, inşallah.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakinlər:** Allah köməyiniz olsun.
**Prezident İlham Əliyev:** Yəqin ki, yaxın bir neçə aya bütün zabuxlular gələcəklər.
**Sakin:** İnşallah, gələcəklər.
**Sakinlər:** Ad gününüz mübarək. Sizin sayənizdə gözəl bayram yaşayırıq.
**Prezident İlham Əliyev:** Salamat qalın, bütün şəhər də hazırdır, yəqin ki, gedib görəcəksiniz, ora da gözəl şəhər olubdur.
**Sakinlər:** İnşallah, gedib görəcəyik. Bu gün çox böyük bir sevinc, qürur hissi keçiririk.
**Prezident İlham Əliyev:** Laçın şəhərinə mən keçən ilin sentyabr ayında gələndə dağılmış vəziyyətdə idi.
**Sakin:** İndi, şükür Allaha. Ulu Öndərimiz həmişə hər çıxışında belə cümlələr işlədirdi ki, vaxt olacaq, zaman gələcək, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıdacaqlar. O gün məhz elə bu gündür ki, biz buradayıq.

**Prezident İlham Əliyev:** Bəli, həmin gündür.
**Sakin:** Sevincdən kövrəlirik. Çox şükür, bunu da Siz davam etdirdiniz. Çox sağ olun.
**Prezident İlham Əliyev:** Buranı ermənilər zəbt etmişdilər, burada qanunsuz məskunlaşma aparmışdılar, xaricdən erməniləri gətirmişdilər və burada özləri üçün evlər tikmişdilər. Onların heç biri də qalmayıb. Mən dedim, buraya gələn zabuxlular Azərbaycan dövləti tərəfindən tikilən evlərdə qalmalıdırlar.
**Sakin:** Çox sağ olun, minnətdaram.
**Prezident İlham Əliyev:** O evlər artıq tarixin qara səhifəsində qaldı. Laçın şəhəri də tamamilə dağılmış vəziyyətdə idi. İndi yəqin ki, gedib görərsiniz, necə gözəl şəhər olub, dünya miqyasında.
**Sakin:** Düzdür, müəyyən qüvvələr var idi, xarici qüvvələr, ancaq buna baxmayaraq, Siz bunların hamısının qabağını tək-tənha aldınız, layiqincə cavablandırdınız. Hamısını oturtdunuz yerinə. Yəni, bu, əsas bir tarixi gündür.
**Sakin:** 44 günlük müharibədə Qələbə tarixi gündür.
**Prezident İlham Əliyev:** Düzdür, ermənilər heç bir rayonu qaytarmaq fikrində deyildi. Amma danışıqlarda deyirdilər ki, bəli, beş rayonu biz qaytarmağa hazırıq, amma Laçın və Kəlbəcər bizim nəzarətimizdə qalmalıdır. Çünki bunların strateji yerləşməsi təhlükəsizlik nöqteyi-nəzərindən önəmlidir. Laçın, Kəlbəcər rayonlarının strateji əhəmiyyəti çox böyükdür.
**Sakin:** Sizin bir sözünüz var idi, möhtərəm Prezident, deyirdiniz, elə bil buradan vəhşi qəbilə keçib.
**Prezident İlham Əliyev:** Bəli.
**Sakin:** Doğrudan da biz rayona gələndə gördük ki, vəhşi qəbilə də yalan imiş onların yanında, elə bil daşları da yeyiblər.
**Prezident İlham Əliyev:** Bəli, siz gördünüz, bütün evlər darmadağın idi, hər yeri viran qoyub gediblər - Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını. Siz indi o yolla – Qubadlıdan gəlmisiniz, görmüsünüz, bir dənə də salamat bina yoxdur, nə şəhərdə, nə kəndlərdə.
**Sakinlər:** Bəli, o yerlərdə heç nə yoxdur. Amma bütün dünyanın görmədiyini, etmədiyini Siz təkbaşına etdiniz, hamısı ilə döyüşə-döyüşə. Hamısı Zabux kimi belə düzələcək.
**Prezident İlham Əliyev:** İndi də Ermənistanın bəzi xarici havadarları bunu görmək istəmirlər. Sanki bu işğal olmayıb, sanki bu vəhşilik, düşmənçilik olmayıb. Otuz il ağzına su alıb susanlar, yaxud da ki, erməni işğalına bəraət qazandıranlar, indi gəlib bizə qarşı iddia qaldırırlar, irad tuturlar, ittiham edirlər. Biz qurub-yaradan xalqıq. Erməninin otuz il dağıtdığını biz iki ilə artıq qururuq, qurmuşuq, insanlar qayıdıblar. Biz öz torpağımızdayıq. Bura da əzəli Azərbaycan torpağı olub. İşğal dövründə hansı eybəcər ad verirsən-ver, onun əhəmiyyəti yoxdur. O ad da onların başına dəydi, elə onlarla da cəhənnəmə getdi.
**Sakin:** Onları iti qovan kimi qovdunuz.
**Prezident İlham Əliyev:** Sağ olun. Salamat qalın, xoşbəxt yaşayın.
**Sakinlər:** Sağ olun, Allah razı olsun.
**Sakin:** Bu, kəndimizin ağsaqqalıdır.
**Prezident İlham Əliyev:** Salaməleyküm.
**Sakin:** Əleykůməssalam. Sizi xoş gördük. Allah Sizin yolunuzu hər zaman açıq etsin, başınız uca olsun.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Həmişə dediyiniz kimi, nəyi nə vaxt, harada etməyi Siz bilirsiniz. Sağ olun.
**Prezident İlham Əliyev:** Sağ ol. İndi Vətənə qayıtmısınız. Təbrik edirəm.
**Sakin:** Bəli, böyük gündür. Çox sağ olun, minnətdaram.
**Prezident İlham Əliyev:** Təbrik edirəm. Sağ ol.
**Sakin:** Bütün xalqımıza qismət olsun əmin-amanlıq, Sizin sayənizdə öz yerimizə-yurdumuza qayıtmışıq, çox sağ olun.
**Prezident İlham Əliyev:** Sağ olun. Küçə boyunca evlər hazırdır?
**Sakin:** Bəli. İlk köçmə mərhələdə.
**Prezident İlham Əliyev:** Salaməleyküm.
**Digər sakin:** Xoş gəlmisiniz, cənab Prezident.
**Prezident İlham Əliyev:** Sağ ol, xoş gördük, salaməleyküm.
**Sakin:** Allah Sizə uzun ömür, cansağlığı versin, bu xoşbəxtliyi bizə qismət etdiyinizə görə, sağ olun.
**Prezident İlham Əliyev:** Sağ olun. Necə hiss edirsiniz özünüzü doğma torpaqda?
**Sakin:** Çox əla, bəli, doğma torpaqda. Allah Sizə uzun ömür, cansağlığı versin.
**Prezident İlham Əliyev:** Sağ olun. Gəl şəkil çəkdirək. Dünən gəlmisiniz?
**Sakin:** Bəli, dünən gəlmişik.

**Prezident İlham Əliyev:** Harada yaşayırdınız bu vaxta qədər?
**Sakin:** Sumqayıt şəhərində.
**Prezident İlham Əliyev:** Şəraitiniz necə idi?
**Sakin:** Orada yataqxanada yaşayırdıq.
**Prezident İlham Əliyev:** Bura necədir, yaxşıdır?
**Sakin:** Çox əladır. Allah Sizə ömür versin.
**Mehriban xanım Əliyeva:** Salam, təbrik edirəm.
**Sakin:** Mehriban xanım, bu gün Sizin ad gününüzdür. Sizi də təbrik edirik. Allah Sizə uzun ömür, cansağlığı versin.
**Mehriban xanım Əliyeva:** Sağ olun.
**Sakin**: Bütün Azərbaycan qadınları adından təbrik edirik.
**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.
**Prezident İlham Əliyev:** Siz harada yaşayırdınız?
**Sakin:** Abşeronda, cənab Prezident.
**Prezident İlham Əliyev:** Biz gəlmişik sizinlə görüşə.
**Sakinlər:** Salam. Xoş gəlmisiniz. Allah Sizə ömür versin, Allah Sizi saxlasın. Çox şadıq.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Sizinlə görüşməyi çox istəmişəm. Mən həmişə Sizinlə fəxr etmişəm, başımızın tacısınız.
**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.
**Sakin:** Bu gün 30 illik arzumuza axır ki, son qoyduran Sizsiniz. Allah atanıza da rəhmət eləsin, həmişə başımızın üstündə ucalarda olasınız.
**Prezident İlham Əliyev:** Sağ olun. Hamımız xoşbəxt günlər yaşayırıq.
**Sakinlər:** Biz Sizin sayənizdə çox xoşbəxtik. Allah Sizə ömür versin. Ömrünüz uzun olsun. Həmişə var olasınız.
**Prezident İlham Əliyev:** Sağ olun, bura necədir?
**Sakinlər:** Çox yaxşı, əla.
**Prezident İlham Əliyev:** Dünən gəlmisiniz, hələ ki, yerləşirsiniz. Doğma torpaqda yaşamaq, əlbəttə, böyük xoşbəxtlikdir.
**Sakin**: Bəli. Mehriban xanımı da təbrik edirik, ad günü münasibətilə.
**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.
**Prezident İlham Əliyev:** Harada yaşayırdınız?
**Sakin:** Bakıda, Pirşağıda yataqxanada.
**Prezident İlham Əliyev:** İndi artıq doğma torpağında və bu gözəl evdə, gözəl kənddə.
**Sakin:** Gül kimi yerimiz, bəli, bəli.
**Prezident İlham Əliyev:** Laçın şəhəri də indi çox gözəl şəhərə çevrilib.
**Sakin:** Allah Sizə ömür versin.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Bu gecə öz ana torpağımızda, öz yerimizdə çox rahat olmuşuq.
**Digər sakin:** Nəvəmdir.
**Prezident İlham Əliyev:** Sən necə gəldin? Həvəslə gəlmisən buraya? Uşaqlar görəcəklər Zabux torpağının havasının ləzzətini.
**Sakin:** 37 il burada yaşamışam, indi 68 yaşım var, təqaüddəyəm. Allah Sizə ömür versin, Sizin sayənizdə hər şey yaxşıdır.
**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın.
**Sakin:** Çox sağ olun.
**Digər sakin:** Cənab Prezident, şəkil çəkdirmək olar Sizinlə?
**Prezident İlham Əliyev:** Gəl çəkdirək. Salaməleyküm, xoş gördük.
**Kişi sakin:** Xoş gördük.
**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz.
**Salam.** Təbrik edirəm.
**Sakin:** Salam, xoş gəlmisiniz. Çox sağ olun. Allah Sizi qorusun. Bu sevinci bizə bəxş etdiyiniz üçün təşəkkür edirik.
**Prezident İlham Əliyev:** Sağ olun, xoşbəxt yaşayın.
**Sakinlər:** Sağ olun, çox sağ olun, Allah köməyiniz olsun. Minnətdarıq, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Salam.
**Sakin: Xoş gəlmisiniz.** Allah Sizə dəyməsin.
**Prezident İlham Əliyev:** Sağ olun. Siz də xoş gəlmisiniz.
**Sakin:** Uzun illərin həsrətinə son qoydunuz, bizə sevinc yaşatdınız. Çox sağ olun, Allah-taala Sizə uzun ömür versin.
**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun. Sizə də uzun ömür, xoşbəxtlik, doğma diyarında xoşbəxt həyat arzulayıram.
**Sakinlər:** Çox sağ olun, çox razıyıq. Allah uzun ömür versin Sizə.
**Prezident İlham Əliyev:** Harada yaşayırdınız işğal dövründə?
**Sakin:** Sumqayıtda.
**Prezident İlham Əliyev:** Sumqayıtda, hansı şəraitdə? Dövlət tərəfindən verilmiş evdə, yoxsa?
**Sakin:** Yataqxanada yaşayırdıq.
**Prezident İlham Əliyev:** Yəni, bütün işğal dövründə yataqxanada? Siz buradan çıxanda birbaşa oraya getmişdiniz?
**Sakin:** Xeyr, bir neçə yerdə olduq, axırda orada.
**Prezident İlham Əliyev:** Sumqayıtda.
**Sakin:** İndi çox şükür ki, öz Vətənimizdə, öz evimizdə, öz obamızdayıq. Çox şükür, lap razıyıq, ailəliklə minnətdarıq Sizə, çox sağ olun.
**Prezident İlham Əliyev:** Laçın rayonu da indi inkişaf edir, Laçın şəhəri də gözəl şəhərlərimizdən biridir. İndi yəqin gedib görəcəksiniz.
**Sakin:** Hər şey mükəmməldir, əla, dünən gördük. Çox sağ olun.
**Prezident İlham Əliyev:** Hə, getdiniz baxdınız?
**Sakin:** Çox yaxşı qarşıladılar. Çox hörmət etdilər. Çox sağ olsunlar, sağ olun.
**Prezident İlham Əliyev:** İndi yerləşirsiniz burada.
**Sakin:** Sağ olun, Allah Sizə dəyməsin.
**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı arzulayıram. Salaməleyküm.
**Sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.
**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.
**Sakin:** Gəlişinizlə bizə şərəf verdiniz. Bizə bu gözəl günü yaşatdığınız üçün Allah sizləri var eləsin.
**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.
**Sakin**: Çox sağ olun. Allah Sizi var eləsin.
**Prezident İlham Əliyev:** Necədir?
**Sakin:** Şükür, min şükür, çox əla.
**Prezident İlham Əliyev:** Doğma kənddə.
**Sakin:** Bəli.
**Prezident İlham Əliyev:** 31 ildən sonra.
**Sakin:** Bizə həyatı yaşatdınız yenidən, çox sağ olun, var olasınız.
**Prezident İlham Əliyev:** Allaha şükür, kənd də gözəldir.
**Sakin:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Sizlərə də cansağlığı.
**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin. Sizə cansağlığı, xoşbəxt yaşayın, qurun, yaradın.
**Sakin**: Çox sağ olun. Xanımın da ad günüdür, təbrik edirik.
**Prezident İlham Əliyev:** Uşaqlar da ilk
dəfə görürlər də yəqin ki, Laçını, Zabux kəndini. Necədir? Cavanlar həvəslə gəliblər?
**Sakin:** Bəli, bəli. Çox razı qaldıq. Allah sizləri var eləsin.
**Prezident İlham Əliyev:** Yəqin ki, şəhərdə yaşamısınız? Bakıda?
**Sakin:** Sumqayıtda.
**Prezident İlham Əliyev:** Əminəm ki, burada görəcəksiniz ki, bax bu şərait nə qədər gözəldir. Əsas odur ki, insan öz doğma torpağında yaşayır, azad edilmiş torpaqda yaşayır və qürurla yaşayır.
**Sakin:** Biz də şəkil çəkdirək?
**Prezident İlham Əliyev:** Bəli, gəlin şəkil çəkdirək.
**Sakin:** Xanımı da təbrik edirik.
**Mehriban xanım Əliyeva:** Salam, mən də sizi təbrik edirəm, çox sağ olun.
**x x x**
Şəkil çəkdirirlər.

**x x x**

**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Xoş gördük, cənab Prezident, xoş gəlmisiniz.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakinlər:** Təbrik edirik, sağ olun.
**Mehriban xanım Əliyeva:** Çox sağ olun.
**Prezident İlham Əliyev:** Salam, təbrik edirəm.
**Sakin**: Salam, çox sağ olun.
**Prezident İlham Əliyev:** Salam, bala.
**Sakin:** Sağ ol, denən "sağ ol baba". Sağ olun, Allah canınızı sağ eləsin.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Başımızın üstündən əskik olmayasınız.
**Prezident İlham Əliyev:** Salam, təbrik edirəm.
**Sakin:** Təbrik edirik, çox sağ olun. Minnətdarıq.
**Prezident İlham Əliyev:** Gəlin şəkil çəkdirək.
**Sakin:** Baba ilə şəkil çəkdir.
**Prezident İlham Əliyev:** Sənin yaxşı kurtkan var idi, çıxardın onu? Azərbaycan yazılmışdı.
**Sakin:** Sağ olun, Allah canınızı sağ eləsin.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Gəlin bəri, gəlin bəri.
**Prezident İlham Əliyev:** Salam, xoş gördük. Xoş gəlmisiniz.
**Sakin:** Salam, xoş gəlmisiniz, xoş gördük.
**Prezident İlham Əliyev:** Salaməleyküm.
**Sakin**: Xoş gördük, xoş gördük. Həmişə Siz gələsiniz bizim kəndimizə.
**Prezident İlham Əliyev:** Salaməleyküm, salam, salam.
**Sakin**: Gəl buraya, gəl İlham babanın yanında dur.
**Prezident İlham Əliyev**: Biz artıq şəkil çəkdirmişik onunla.
**Sakin:** Gəl bura, burada dur.
**Prezident İlham Əliyev:** Harada yaşayırdınız bu vaxta qədər?
**Sakin:** Şirvanda. Dədə-baba yurdumuzdur, gəlmişəm. Neçə aydır, 32 ildir buradan getmişdim, bu axşam heç yatmamışam. Allah köməyiniz olsun. Sizin sayənizdə hamısı olub.
**Prezident İlham Əliyev:** Xoşbəxt günlər yaşayın.
**Sakin:** Bizdən çox siz əziyyət çəkmisiniz.
**Prezident İlham Əliyev:** Bütün xalqımız sizin sevincinizə şərikdir.
**Sakin:** Cənab Prezident, xoş gəlmisiniz.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Bu gün qürurlu, başıucayıq ki, bəli, bu torpaqlar artıq bizdədir. Var olun, cənab Prezident!
**Prezident İlham Əliyev:** Sağ olun.
**Sakin:** Mənim nəvəmin də sözü var.
**Prezident İlham Əliyev:** Hə, buyur.
**Uşaq:** Hörmətli cənab Prezident, Ali Baş Komandan, hörmətli Birinci vitse-prezident Mehriban xanım, sizləri doğma kəndimiz Zabuxda gördüyümüzə görə çox şadıq. Cənab Prezident, biz şagirdlərə belə gözəl məktəb tikdirdiyiniz üçün Sizə təşəkkür edirik.
**Prezident İlham Əliyev:** Sağ ol, çox sağ ol.
**Sakin:** Allah canınızı sağ eləsin.
**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi. Xoş gəlmisiniz vətəninizə.
**Sakin:** Belə gözəl yerdə belə gözəl kənd salmısınız.
**Digər sakin:** Cənab Prezident, laçınlılar da Sizi çox istəyirlər. Elə bir neçə il öncə Siz ad gününüzü Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmisiniz. Bu gün də Mehriban xanımın ad günüdür. Fürsətdən istifadə edib bütün kənd sakinləri adından ad gününü təbrik edirik.
**Prezident İlham Əliyev:** Bəli, düz deyirsiniz. O vaxt demişdim ki, gün gələcək və siz doğma torpağınıza qayıdacaqsınız. Bax, o gün gəldi.
**Sakinlər:** O gün elə bu gündür. Sağ olun. Allah canınızı sağ eləsin.
**Prezident İlham Əliyev:** Təbrik edirəm, sağ olun.

**Sakin:** Mən də istəyirəm Sizinlə şəkil çəkdirəm.
**Prezident İlham Əliyev:** Gəlin şəkil çəkdirək.
**Sakin:** Biz hamımız Sizi çox istəyirik, Sizə inanırıq, Sizə güvənirik.
**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın. Sağ olun, cansağlığı, uzun ömür.
**Mehriban xanım Əliyeva**: Yenə qonaq gələcəyəm.
**Sakin:** Allah canınızı sağ eləsin.
**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı.
**Mehriban xanım Əliyeva:** Sağ olun.

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak ediblər**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, şəhərin Mənzərəli terrasında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı və teatrın nəzdində fəaliyyət göstərən "Oyuq" studiyası müxtəlif tamaşalar nümayiş etdirib. Burada, eyni zamanda, xalq tətbiqi sənəti üzrə ustad dərsləri təşkil olunub, şəbəkə, həsir sənəti, dulusçuluq, misgərlik, xalçaçılıq, tikmə, papaqçılıq və digər sənət növlərinin də daxil olduğu incəsənət sərgisi və "Laçın mənzərələri" adlı rəsm sərgisi açılıb. Laçının mənzərəli məkanlarından birində qurulmuş "I love Lachin" bölməsində isə qonaqlar şəhərin füsunkar təbiətini seyr edə, bu gözəlliyi öz telefonlarının və fotoaparatlarının yaddaşına köçürə biləcəklər. İncəsənət düşərgəsində isə rəsm əsərlərinin çəkilməsi və ceyran maketlərinin boyanmasını izləmək mümkün olacaq.

Bayraq Meydanının qarşısında isə gün ərzində "Sarı Aşıq və Yaxşı" dastan-tamaşası nümayiş olunub, Laçın çay ənənələrinin təqdimatı məqsədilə "Çay dəstgahı", müxtəlif sənətkarlıq nümunələri, suvenirlər, zərgərlik, keramika və sair məmulatların satışı üçün "Laçın bazarı" qurulub, milli geyimdə olan aktyorların ifasında immersiv oyunlar, milli personajlardan hazırlanan maskotların gəzintisi təşkil edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Laçın Şəhəri Günü" bayram şənliklərində təşkil olunan sərgilərlə tanış olub, sənətkarlıq nümunələrinə baxıb, tamaşalar izləyib, tədbir iştirakçıları ilə söhbət ediblər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar.

**Uşaqlar:** Salam, necəsiniz?

**Prezident İlham Əliyev:** Gəlin, şəkil çəkdirək.

**Reza Deqati:** Bunların şəkilləridir. Bunların 100 şəklini çəkmişəm.

**Müəllim:** Bunlar hamısı laçınlıdır. Hamısı köçüb gəlib yaşayırlar.

**Prezident İlham Əliyev:** Hamısı köçüb gəlib, çox gözəl.

**x x x**

Uşaqlarla xatirə şəkli çəkdirildi.

**x x x**

**Prezident İlham Əliyev:** Məktəb 15 sentyabrda açılacaq. Biz dünən gördük, məktəb də gözəldir, 2 nömrəli məktəb, məktəb avtobusu var. Yəqin ki, gələn ilə çatdıracağıq, çalışacağıq 1 nömrəli məktəb də inşa edilsin. Ona görə uşaqlar da sentyabrın 15-dən məktəbə getməyə hazır olsunlar. Siz Bakıda yaşamısınız, Sumqayıtda yaşamısınız yəqin ki, elə deyilmi? Yəni, böyük şəhərlərdə yaşamısınız. Amma indi gəlmisiniz nisbətən kiçik olan belə şəhərə. Özünüzü yaxşı hiss edirsiniz?

**Uşaqlar:** Kiçik olsa da, çox gözəldir. Çoxlu gəzirik.

**Uşaq:** Allah Sizi qorusun ki, Siz bu cənnəti almısınız.

**Prezident İlham Əliyev:** Doğrudan da cənnətdir.

**Müəllim:** Bəli, uşaqların sevinci bəsdir.

**Mehriban xanım Əliyeva:** Cənnətdir.

**Prezident İlham Əliyev:** Laçın şəhəri indi gündən-günə daha da gözəlləşir. Azad edilmiş bu ərazilərdə şəhərlər elə olacaq ki, heç paytaxt şəhərlərdən də fərqlənməyəcək.

**Balaca oğlan:** Cənab Prezidentimiz, izn verirsinizsə, Sizə Türk marşının, yəni, "İstiqlal marşı"nın iki kupletini deyim.

**Prezident İlham Əliyev:** Hə, de.

**x x x**

Uşaq Türkiyənin Dövlət Himnindən iki bəndi söylədi.

**x x x**

**Mehriban xanım Əliyeva:** Sağ olun.

**x x x**

Dövlətimizin başçısı və birinci xanım "Laçın mənzərələri" adlı rəsm sərgisi ilə tanış oldular.

**x x x**

**Prezident İlham Əliyev:** Biz Kəlbəcərdən gəlmişik. Orada da çox gözəl mənzərəli yerlər var.

**Rəssam:** Şərait yaransın, orada da çəkərik, çox gözəldir.

**Mehriban xanım Əliyeva:** İnşallah.

**Prezident İlham Əliyev:** Siz buraya biz təzə gələndə də gəlmişdiniz, ermənilərin qoyduqlarını görmüşdünüz nə gündəydi. Bir il, heç bir il keçməyib, oktyabrda başlamışıq bərpa işlərinə, siz burada olmusunuz.

**Rəssam:** Bilirəm, üç dəfə olmuşam.

**Digər rəssam:** Bu, "Qasımuşağı" - Laçının ənənəvi xalçasıdır. "Çələbi" Qarabağın simvolu olduğu kimi, "Qasımuşağı" da Laçının ənənəvi xalçasıdır. O nəsil yaşayırdı, Zülfi əmi var idi, rəhmətə getdi.

**Prezident İlham Əliyev:** Kimsə var o nəsildən?

**Sakin:** Var o nəsildən var, Qasımuşağı.

**x x x**

Rəssamlarla xatirə şəkli çəkdirildi.

**x x x**

**Rəssam:** Bizə çox xoşdur ki, Siz ad gününüzü Laçının bayram günü ilə bir yerdə qeyd edirsiniz.

**Mehriban xanım Əliyeva:** Sağ olun. Mənim üçün də ən gözəl ad günlərimdən biridir ki, buradayam.

**Sakin:** Çox sağ olun, minnətdarıq Sizə.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun

**AZƏRTAC**
**2023, 26 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər**
**Dövlətimizin başçısı tədbirdə çıxış edib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər.

Qeyd edək ki, Həkəri çayının sahilində, Bulvar ərazisində Uşaq İncəsənət Festivalının yay düşərgəsində finala çıxmış şagirdlərin rəssamlıq, dekorativ-tətbiqi sənət və digər istiqamətlər üzrə əsərlərinin təqdimatları olub. Burada, həmçinin Laçın mətbəxindən nümunələr təqdim edilib, "Hünər meydanı"nda zorxana, pəhləvanlar və kəndirbazların çıxışları olub, qiraətçilər laçınlı şairlərin şeirlərini səsləndiriblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Əziz laçınlılar, əziz dostlar.

İlk növbədə, laçınlıları Şəhər Günü münasibətilə ürəkdən təbrik edirəm. İlk dəfədir ki, Laçında Şəhər Günü keçirilir, böyük təntənə ilə, böyük coşqu ilə keçirilir. Bildiyiniz kimi, azad edilmiş ərazilərdə bir müddət bundan əvvəl mənim Sərəncamımla şəhər günlərinin keçirilməsi haqqında qərar qəbul olunmuşdur, Şəhər günləri təsis edilmişdir. Şəhər günləri şəhərlərimizin azad edilməsi günləridir. Laçın şəhəri isə 26 avqust tarixində tamamilə azad edilmişdir.

İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir. Fürsətdən istifadə edərək bütün şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edir, onlara Allahdan rəhmət diləyirik. Onların qanı-canı bahasına, qəhrəman övladlarımızın şücaəti hesabına bu gün biz buradayıq, bu gün biz doğma torpağımızda bayram şənlikləri keçiririk. Bundan böyük xoşbəxtlik ola bilməz.

Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. May ayı müstəqil Azərbaycanın tarixində bu iki faciəvi günlə əlaqəli idi. Yəni, bizim müstəqil həyatımızda may ayı faciəli bir ay idi - çünki 8 mayda Şuşa, 18 mayda Laçın işğal edildi. İşğal bizi içəridən sarsıdırdı və bu işğal digər torpaqlarımızın işğal altına düşməsinin başlanğıcı idi. Çünki birinci Şuşa, ondan sonra Laçın işğal olunmuşdur.

Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Danışıqlar yolu ilə bunu etmək mümkün deyildi və müharibə yeganə çıxış yolu idi. Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik. Bu məsələ ilə bağlı hələ işğal dövründə dəfələrlə mən

Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu.

İndi isə biz Laçını qurub-yaradırıq. Laçına keçən ilin sentyabr ayında gələndə şəhərin mənzərəsi çox acınacaqlı idi, şəhər demək olar ki, dağılmış vəziyyətdə idi. Köhnədən qalan, işğaldan əvvəlki dövrə aid olan bir neçə yöndəmsiz bina mövcud idi. Bildiyiniz kimi, burada Ermənistan dövləti hərbi cinayət törədərək qanunsuz məskunlaşma aparırdı. Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri buraya dəvət edib onları bizim, azərbaycanlıların evlərində yerləşdirmişdi. Bu, bir daha demək istəyirəm ki, hərbi cinayətdir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, Ermənistanın havadarları buna göz yumurdular. Bu, onlar üçün məqbul idi. Çünki Ermənistan dövləti kimi, Ermənistanın xaricdəki havadarları da hesab edirdilər ki, bu torpaqlar əbədi işğal altında qalmalıdır. Bizim iradəmiz, bizim gücümüz, bizim yumruğumuz onların da başına dəydi. Çünki bizim torpağımızda ikinci Ermənistan, ikinci erməni dövlətinin yaradılması təkcə Ermənistan rəhbərliyinin məhsulu deyildi.

Bu gün isə biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki biz qurub-yaradan xalqıq. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik. Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb. Azad edilmiş ərazilərə hər gələn insan öz gözləri ilə erməni vəhşiliyinin təzahürlərini görür. Əgər bu torpaq onlara məxsus idisə, nə üçün şəhərlər, kəndlər viran qoyulub, nə üçün bütün tarixi abidələr dağıdılıb? Onlar da bilirdilər ki, gec-tez biz gələcəyik, biz də bilirdik ki, gec-tez biz gələcəyik. İşğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərdə mən deyirdim ki, gün gələcək biz öz bayrağımızı Laçında, Şuşada, o vaxt işğal olunan digər şəhərlərdə qaldıracağıq.

Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və onlara demişdim ki, - yeni köçkün şəhərciyi açılırdı, - dövlət sizi daha yaxşı şəraitlə təmin edir, ancaq torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu. Əlli yaşımı Ağcabədidə laçınlılarla qeyd etmişəm, 60 yaşımı Şuşada qeyd etmişəm, Cıdır düzündə, bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük.

Bir məsələyə də toxunmaq istərdim. Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq.

Ona görə Laçın rayonu ilə bağlı bir çox önəmli tarixi hadisələr baş vermişdir. Bu gün Laçın şəhəri görün, necə də gözəldir cəmi 8-9 ay ərzində, heç bir il keçməyib. Biz bərpa işlərinə keçən ilin oktyabr ayında başlamışdıq, artıq bu gün biz Laçında qonaqları qəbul edirik. Azərbaycanın müxtəlif yerlərindən qonaqlar gəlib, xarici ölkələri təmsil edən diplomatlar gəlib. Bu, bir daha göstərir ki, xalqımız öz doğma torpağında qurub-yaradan xalqdır.

Əziz laçınlılar, mən sizi bir daha ürəkdən salamlayıram, Şəhər Günü münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq.

Bir daha sizi təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!

**x x x**

Tədbir konsert proqramı ilə davam edib.

**x x x**

Konsertdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbir iştirakçıları ilə söhbət etdilər.

**AZƏRTAC**
**2023, 26 avqust**

## Azərbaycan ombudsmanı Avropa Şurasının insan hüquqları üzrə komissarının bəyanatına cavab verib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Avropa Şurasının insan hüquqları üzrə komissarının bəyanatına cavab verib.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının mətbuat xidmətindən məlumat verilib.

"Hesab edirik ki, Avropa Şurasının insan hüquqları üzrə komissarının Laçın yolu ilə əlaqədar son bəyanatı Ermənistanın siyasi manipulyasiyası əsasında Azərbaycanın Xankəndi şəhərində humanitar vəziyyətlə bağlı formalaşmış yanlış iddialara dəstək prosesinin davamıdır.

Biz Avropa Şurasının komissarından belə həssas məsələ ilə bağlı daha dərin araşdırma aparmaqla, vəziyyətin normallaşmasına xidmət edə biləcək, hazırda çox vacib əhəmiyyət daşıyan sülh prosesinə əhəmiyyətli töhfə verə biləcək daha qərəzsiz bəyanat gözləyirdik.

Ağdam-Xankəndi yolunun açıq olmasına və humanitar yardım məqsədilə bütün yüklərin daşınması üçün təklif edilməsinə baxmayaraq, Ermənistanın və onun havadarlarının təxribat xarakterli bəyanatları regionda vəziyyətin normallaşmasına və sülh prosesinə ciddi maneələr yaradır.

Biz Avropa Şurasının insan hüquqları üzrə komissarını dövlətlərin ərazi bütövlüyü prinsipinə hörmət etməyə, regiondakı mövcud vəziyyəti dərindən öyrənməyə, siyasi manipulyasiyalara xidmət edən və sülh quruculuğu prosesinə xələl gətirən maneələrlə mübarizə aparmağa, beynəlxalq hüququn ümumtanınmış prinsiplərini dəstəkləməyə dəvət edirik", - deyə Səbinə Əliyevanın cavabında vurğulanıb.

**AZƏRTAC**
**2023, 29 avqust**

**Fransa-Ermənistan cütlüyünün suverenliyimizə qarşı atacağı istənilən addıma ən sərt şəkildə cavab veriləcək – ŞƏRH**

Avqustun 26-də Laçın Şəhəri Günü Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Laçında təntənəli şəkildə qeyd edildi. Artıq Azərbaycan xalqı şəhərlərinin işğalı gününü böyük ağrı və hüznlə, məruz qaldığı ədalətsizliyi və haqsızlığı dilə gətirməklə qeyd etmir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, qəhrəman şəhid və qazilərimizin şücaəti və qanı bahasına bu faciəvi günlər tarixin qara səhifələrindən birdəfəlik silindi. İndi biz işğaldan azad edilmiş şəhərlərimizin yeni “doğum günü”nü, dirçəlişini və intibahını qeyd edirik.

Bir millət və xalq üçün bundan böyük xoşbəxtlik və milli qürur mənbəyi ola bilməz. Dövlətimizin başçısının laçınlılarla görüşündə bu xoşbəxtlik açıq-aydın hiss olunurdu. Hər bir laçınlı 31 il ağır məhrumiyyətdən sonra öz doğma torpaqlarına qayıtmağın sevincini və qürurunu yaşayır və tarixi ədaləti “dəmir yumruğ”u ilə bərqərar etdiyinə görə Ali Baş Komandana minnətdarlıqlarını bildirirdilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Azay Quliyev söyləyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev təntənəli mərasimdə etdiyi çıxış zamanı Laçında qısa müddət ərzində həyata keçirilən böyük həcmli bərpa və quruculuq işlərinə toxundu, Azərbaycana qarşı fitnə və təxribatlarını davam etdirən Fransa kimi ölkələrə bir daha açıq və net mesajlarını çatdırdı. Kifayət qədər qətiyyətli, özgüvənli və cəsarətli mesajın ünvanı son günlər yenə də azğınlaşan Fransa idi. Rəsmi Paris həm 2020-ci ilin oktyabrında, həm də 2022-ci ilin dekabrın 20-21-də və 2023-cü ilin avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə qəbul etdirə bilməməsinin hələ də “şoku”nu yaşayır, məruz qaldığı rüsvayçı məğlubiyyətini həzm edə və acısını unuda bilmir.

“Bu baxımdan, qarşıdakı günlərdə Fransanın ölkəmizə qarşı yeni təxribatlar planlaşdırması haqqında yayılan xəbərlərə də təəccüblənməməliyik. Belə ki, üç gün öncə “Le Figaro” qəzeti yazdı ki, Fransa həm BMT Təhlükəsizlik Şurasına Azərbaycanın əleyhinə qətnamə layihəsi təqdim etməyə, həm də Paris və Fransanın böyük regionları Qarabağ ermənilərinə 10 tırdan ibarət “humanitar yardım” göndərməyə hazırlaşır. Hətta avqustun 30-da Laçına doğru hərəkət edəcək “humanitar karvan”ı Paris meri Anne Hidalgonun müşayiət edəcəyi bildirilir. Yəni, Nikol Paşinyanın “tır tamaşasının” “2-ci pərdəsi”nin nümayişinə hazırlıq gedir.

Bu məlumatlar bir daha onu göstərir ki, Fransa özünün siyasi riyakarlığı, ikiüzlülüyü və beynəlxalq hüquqa hörmətsizliyi ilə artıq bacısı Ermənistanı da geridə qoyub. Fransanın Azərbaycandakı səfirinin Avropa İttifaqına üzv olan ölkələrin Bakıdakı səfirliklərinə avqustun 26-da şəhər günü münasibətilə Laçında təşkil olunan tədbirdə iştirak etməmələri üçün təzyiqlər etməsini də bu rəzilliyə əlavə etsək (təqdirə layiq haldır ki, Fransanın bu məsuliyyətsiz çağırışına əksər ölkələr qoşulmayıb), görərik ki, Fransa ölkəmizə qarşı açıq düşmənçilik mövqeyi tutub və indiyə kimi düçar olduğu uğursuzluqdan heç bir dərs çıxarmayıb. Düşünürəm ki, Fransanın Bakıdakı səfirinin ölkəmiz əleyhinə bu cür təxribatçı fəaliyyəti davam edərsə, onun “persona non qrata” elan olunması məsələsinə baxılması qaçılmaz olacaq”, - deyə Azay Quliyev vurğulayıb.

O deyib: “Prezident İlham Əliyevin Laçında “biz heç nədən qorxmuruq və heç bir şey bizi yolumuzdan döndərə bilməz” mesajı isə o deməkdir ki, Fransa və Ermənistan cütlüyünün ölkəmizin suverenliyinə və bütövlüyünə qarşı atacağı istənilən addımına bundan sonra da ən sərt şəkildə cavab veriləcək, dünyada “nüfuz böhranı” yaşayan Emmanuel Makron Fransasının Azərbaycana elan etdiyi “səlib yürüşü”nün və planlaşdırdığı təxribatlarının qarşısı qətiyyətlə alınacaq.

Ona görə də şübhə etmirəm ki, əgər, Fransa “Le Figaro”nun yazdığı kimi, bu günlərdə ölkəmizin əleyhinə hər hansı bir qətnamə layihəsini BMT Təhlükəsizlik Şurasına təqdim edərsə və ya “humanitar yardım” şousu adı altında Azərbaycana təzyiq göstərərsə, bununla rəsmi Paris yenə də özünü dünyada rüsvay edəcək və heç bir konkret nəticəyə nail ola bilməyəcək”.

**AZƏRTAC**
**2023, 29 avqust**

**Qənirə Paşayeva: Laçın sevincimizdən hər kəsə pay düşdü, kədərli tariximizi isə təkrarlanmaması üçün unutmuruq**

Avqustun 26-da Laçın şəhərində - Həkəri çayının sahilində ilk dəfə "Laçın Şəhəri Günü" qeyd olunub. Prezident İlham Əliyev bayram tədbirində çıxış edərək laçınlılara, bütövlükdə xalqımıza təbriklərini çatdırıb. Şəhidlərimizin dərin ehtiramla yad edildiyi, qazilərimizin, şanlı Ordumuzun qəhrəmanlığının bir daha və məhəbbətlə vurğulandığı bayram, qədirşünaslıq, vəfadarlıq və yeni uğurlara inamın təntənəsi oldu. Əlbəttə, hər bir kəndimizin işğalı faciə, hər kəndimizin qurtuluşu uğurdur. Lakin dövlətimizin başçısının vurğuladığı kimi, Laçının işğalı da, qurtuluşu da müstəsna hadisə idi. İşğal nəticəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinin Ermənistanla böyük coğrafi bağı yaranmışdı. Bu bağ sonrakı işğalların qaçınılmazlığını da şərtləndirirdi. Laçının qurtuluşu da anti-Azərbaycan qüvvələrin Qarabağla əlaqədar çirkin planlarının suya düşürülməsi, sıfırlanması anlamını daşıyır. Vətən müharibəsində Laçının xeyli kəndlərini döyüşərək azad edən şanlı Ordumuz, nəhayət Şuşada bayraq qaldırmaqla düşmənin belini qırdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib.

O bildirib ki, Ermənistan öz üzərinə öhdəliklər götürüb və 2020-ci il dekabrın 1-də Laçın ərazilərini qismən boşaldıb, yəni, Laçın şəhəri, Zabux və Sus kəndləri keçmiş Laçın dəhlizi boyunca yerləşdiyi üçün orada qanunsuz məskunlaşdırılmış ermənilər daha bir müddət köçürülmədi. Azərbaycan dövləti 44 günlük Vətən müharibəsindəki iradəsini bu dəfə yol tikintisində və diplomatik cəbhədə nümayiş etdirib və mümkün sayılmayan işi mümkün qılıb, alternativ yolun tikintisini başa çatdırıb. Bəhanəsi tükənən ermənilərin və havadarlarının yeni bəhanələr axtarışı qarşılığında isə "Dəmir yumruğ"un yerində olduğunu xatırlatmaq bəs edib. Beləliklə, avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndlərində də bayrağımız qaldırıldı. Laçına əbədi qayıtdıq. Qayıtdıq ki, quraq-yaradaq, torpağın əsl yiyələri ilə yadellilərin arasındakı kəskin fərqi bir daha dünyaya göstərək. Son bir ilin içində qurucu, yaradıcı Azərbaycan Laçını şəhərə çevirdi.

"Laçın Şəhəri Günü böyük coşqu, qürur və yeni üfüqlərə qanadlanmalarla bayram edildi. Müzəffər Ali Baş Komandan 50 illik yubileyini Ağcabədidə - Taxtakörpüdə məskunlaşmış laçınlılarla keçirdiyini və onlara verdiyi sözü xatırlatdı. Duyğulu anlar idi. Bir daha təsdiq olundu ki, bizim sözümüz imzamız qədər keçərlidir. Laçınlılar 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar mayın 28-dən etibarən artıq buradadırlar. Artıq 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Yalnız laçınlılar deyil, ayrı-ayrı bölgələrimizi, vətəndaş cəmiyyəti institutlarımızı, dövlət orqanlarımızı və yaradıcılıq qurumlarımızı, eləcə də ölkəmizdəki diplomatik korpusu təmsil edənlər "Laçın Şəhəri Günü" ilə bağlı təşkil olunan bayram tədbirində idilər. Kədər bölüşdükcə azalır, sevinc bölüşdükcə çoxalır. Laçın sevincimizdən sevinə bilən hər kəsə pay düşdü, kədərli tariximizi isə bir daha təkrar olunmaması üçün unutmuruq. Prezidentin bayram çıxışında dediyi kimi, biz öz doğma torpağımızda qürurla yaşayırıq. Artıq biz həm Şuşada, həm də Laçında toy-bayram edirik. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Bu qüruru bizə bəxş edən ən önəmli səbəblərdən biri, bizim məhz ədalətli müharibə aparmağımızdır, ədaləti özümüzün öz gücümüz hesabına bərpa etməyimizdir", - deyə Q.Paşayeva vurğulayıb.

**AZƏRTAC**
**2023, 29 avqust**

**“Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini təmin edir – ŞƏRH**

“Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addımdır. Laçın ölkəmizin ərazisində olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir. Ermənistanın və onun havadarlarının bu məsələ ilə bağlı apardığı çirkin kampaniyanın məqsədi bölgədə vəziyyəti gərginləşdirməkdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva söyləyib.

Deputat bildirib ki, sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir. Dövlət təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq tam qanuni addımdır. “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərk-silah olunması baxımından böyük önəm daşıyır. Bu məntəqə Azərbaycanın suverenliyini və təhlükəsizliyini təmin edir.

“Sərhəd-buraxılış məntəqəsi Qarabağ separatçılarına silah, sursat, mina və xarici terrorçuların daşınmasının qarşısını alır. Eləcə də, bu post sayəsində ərazidən təbii sərvətlərimizin qanunsuz çıxarılmasının qarşısı alınır. "Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin beynəlxalq legitimliyi öz təsdiqliyini tapır. Belə ki, Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın iddialarını qəti şəkildə təkzib edib”, - deyə S.Fətəliyeva vurğulayıb.

Deputatın sözlərinə görə, digər tərəfdən, Azərbaycan humanitar məqsədlər üçün Ağdam-Xankəndi yolunu təklif edir. Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu fakt onu göstərir ki, “humanitar” bəhanələrlə edilən manipulyasiyalar vasitəsilə Ermənistan hərbi təxribatlar üçün süni səbəblər yaradır. Hadisələrin gedişatı və erməni siyasətinin xisləti onu aşkar edir ki, Xankəndidə vəziyyətin pisləşməsi rəsmi İrəvanın və Fransa kimi ölkələrin marağındadır. Amma kimin nə deməsindən asılı olmayaraq, Azərbaycan öz prinsipial mövqeyində haqlıdır və heç bir qüvvə dövlətimizin iradəsinə təsir edə bilməz.

**AZƏRTAC**
**2023, 29 avqust**

**Ombudsman Ermənistan seqmentindəki bəzi saytlarda yayımlanmış əsassız iddialara cavab verib**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan seqmentində olan bəzi saytlarda yayımlanmış əsassız iddialara cavab verib.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının mətbuat xidmətindən bildirilib.

Məlumat verildiyi kimi, ombudsman "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində saxlanılan və 10 gün müddətinə inzibati qaydada həbs olunan Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanı konfidensial qəbul edərkən həmin şəxslərin beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmini vəziyyətini öyrənib və müraciətlərini dinləyib. Eyni zamanda, onların saxlanıldığı kameraya və gəzinti yerinə baxış keçirilib, saxlanma şəraitinin standartlara uyğun olduğu müəyyən edilib.

Qəbul edilmiş şəxslər saxlanma şəraitindən, onlarla rəftardan, qidalanmadan, habelə tibbi-psixoloji yardımdan razılıqlarını bildiriblər. Başçəkmənin gedişində həmin şəxslərin ailə üzvləri ilə telefon danışığı da təmin edilib. Bütün bunlar Azərbaycan dövlətinin həyata keçirdiyi humanist siyasətin bariz nümunəsidir.

"Ermənistan seqmentində olan saytlar həyata keçirilmiş başçəkmə zamanı qəbul edilmiş A.Sarqsyanın qolunda olan və onun özünün də bildirdiyi kimi, bu ilin fevral ayında atası ilə şəxsi ailə təsərrüfatında işlədiyi zaman aldığı xəsarəti əsas götürərək Azərbaycanın göstərdiyi humanist siyasətə qarşı istifadə edirlər.

Onun qolunda olan həmin izin uzun müddət əvvələ təsadüf etməsi fotodan daha aydın görünür.

Bu baxımdan saxlanılan şəxslərlə bağlı məlumatların aydın şəkildə paylaşılması fəaliyyətin şəffaflığını bir daha təsdiq edir.

Təəssüflər olsun ki, Ermənistan hər zaman olduğu kimi, yenə də məqsədli şəkildə Azərbaycanofobiya siyasətini davam etdirir, yalan məlumatları tirajlayaraq dözümsüzlük mühiti yaratmaqda davam edir.

Regionda sülhün bərqərar olunması naminə Ermənistan tərəfi azərbaycanlılara qarşı nifrətin təşviqinə yol açan siyasətindən əl çəkməli, aidiyyəti beynəlxalq təşkilatlar isə insan hüquqlarının təməl prinsiplərinə zidd olan bu siyasətin qarşısının alınması istiqamətində zəruri tədbirləri görməlidirlər", - deyə Səbinə Əliyeva vurğulayıb.

**AZƏRTAC**
**2023, 30 avqust**

**Laçında ölkəmizin xarici və beynəlxalq təxribatlar qarşısında dönməz mövqeyi ifadə edildi – ŞƏRH**

İkinci Qarabağ müharibəsində məğlub edilib, kapitulyasiya aktı imzalamağa məcbur edilən Ermənistan dövləti 2020-ci il dekabrın 1-də Laçın rayonunu tərk etdi. Buna baxmayaraq, Ermənistanı Xankəndi ilə birləşdirən Laçın yolu şəhərin mərkəzindən keçdiyi üçün Laçın şəhəri və iki kənd - Zabux və Sus kəndləri Rusiya sülhməramlılarının nəzarət zonasında qalmışdı. Prezident, şanlı Ordumuzun Müzəffər Ali Baş komandanı İlham Əliyevin israrlı mövqeyi nəticəsində Laçın yoluna alternativ avtomobil yolu 1 il 8 ay ərzində inşa edilib başa çatdırıldı. Bundan sonra, 2022-ci il avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu.

Prezidentin Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edildi. Beləliklə, avqustun 26-sı Laçın Şəhəri Günü kimi təsdiqləndi.

Bu barədə AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə deyib.

Avqustun 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Laçın rayonuna səfər etdiklərini xatırladan Ş.Cəlilzadə bildirib: "Onlar Laçın Şəhəri Günü münasibətilə təşkil olunmuş bayram şənliyində iştirak edib, Laçına Böyük Qayıdışın ilkin nümayəndələri ilə görüşüb, həmçinin burada ötən bir il ərzində görülən çoxsaylı quruculuq işləri ilə tanış olublar. O cümlədən Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin, "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 saylı tam orta məktəbin, "Həkəri Balıq Təsərrüfatı"nın, "Mişni" və "Alxaslı" kiçik SES-lərin açılışı mərasimlərində iştirak ediblər.

Xüsusilə "Laçın Şəhəri Günü" münasibətilə təşkil olunmuş tədbirdə ölkəmizin müxtəlif yerlərindən gələn qonaqlarla yanaşı, xarici ölkələri təmsil edən diplomatların da iştirak etməsi dövlətimizin uğurlarının beynəlxalq aləmdə tanınması, bilinməsi və təqdir edilməsi baxımından əlamətdardır. Tədbirə qatılan Ukraynanın ölkəmizdəki səfirinin "Arzu edirəm ki, biz də öz torpaqlarımızı azad etdikdən sonra Laçındakı kimi sürətli quruculuq işlərini həyata keçirə bilək" deməsi Azərbaycanın dünya üçün müsbət bir nümunə yaratdığını göstərir. Uğurlu Vətən savaşı aparıb qalib gəlmək və torpaq həsrətinə son qoymaq hər xalqa nəsib olmur. Azərbaycan 44 günlük Vətən müharibəsinin hər bir günü ilə, 30 ildən sonra torpaqlarını işğaldan azad edib bölgədə apardığı yenidənqurma işləri, xüsusilə Böyük Qayıdışı uğurla həyata keçirməklə dünyaya dərslər verir".

STM-in baş məsləhətçisi əlavə edib ki, Prezident İlham Əliyevin hər dəfə Laçında olarkən dünyaya və ermənilərə xəbərdarlığı və ötürdüyü mesajlar da diqqətçəkəndir. Laçında səsləndirilən mesajlarda Prezident İlham Əliyev xarici və beynəlxalq təxribatlar qarşısında dönməz mövqeyini ifadə etdi. Odur ki, hazırda bir sıra ölkələr, xüsusilə Fransanın təsiri ilə Laçın yoluna dair nə qədər anti-Azərbaycan mövqeli fikirlər səsləndirsələr və bəyanatlar qəbul etsələr də, Azərbaycan tamamilə beynəlxalq hüquqa uyğun olaraq öz sərhədinin təhlükəsizliyini təmin edir və bu mövqeyindən dönməyəcək. Təsadüfi deyil ki, Fransa bir sıra dövlətlərin ölkəmizdəki nümayəndələrini Laçın Şəhəri Günü münasibətilə keçirilən tədbirə qatılmamağa səsləsə də, bu mənfur çağırışlar cavabsız qaldı. Bundan sonra da Zəfər ildönümlərimiz daim ən yüksək ovqatda qeyd ediləcək.

**AZƏRTAC**
**2023, 30 avqust**

**Laçın Şəhəri Günü - ədalətin və zəfərin təcəssümü**

Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri bizim nəzarətimizə keçdi. Laçın strateji əhəmiyyətə malikdir. Laçın Şəhəri Günü bayram tədbirində çıxışı zamanı bu məsələyə toxunan Prezident İlham Əliyevin dediyi kimi: "Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi". Uzun və nəticəsiz qalan danışıqlar zamanı "5+2" formatını irəli sürən, Qarabağdakı azsaylı erməni üçün israrla status tələb edən Ermənistan və havadarlarının planları darmadağın oldu. İndi Qarabağ, Şərqi Zəngəzurun kənd və şəhərlərində, o cümlədən Laçında Azərbaycan bayrağı dalğalanır. Laçın şəhərində, Sus və Zabuxda, eləcə də digər kənd və şəhərlərimizdə həyat yenidən canlanır. Ermənistan-Azərbaycan şərti dövlət sərhədində "Laçın" postumuz fəaliyyət göstərir. Artıq Azərbaycan işğaldan azad edilmiş şəhərlərdə bayramlar keçirir. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən Sərəncama əsasən 26 avqust Laçın Şəhəri Günüdür.

Bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova AZƏRTAC-a açıqlamasında bildirib.

O qeyd edib ki, Vətən müharibəsi bitəndən sonra qısa bir zamanda işğaldan azad edilmiş ərazilərimiz sürətlə dirçəlməyə başladı. Qarabağda, Şərqi Zəngəzurda həyat yenidən canlanır, quruculuq işləri aparılır. Bu əraziləri ziyarət edən hər bir şəxs istər öz vətəndaşlarımız, istərsə də xarici diplomat, siyasətçi, jurnalist erməni vandalizmini, eyni zamanda, azərbaycanlıların quruculuğunu əyani şəkildə görür. Heyrətlənməmək olmur, gözlərimizin önündə çox sürətlə, kəndlər, şəhərlər yenidən yaradılır.

Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin siyasətinin, diplomatik məharətinin unikallığı da bundadır. O, regionun ən güclü Ordusunu, Cənubi Qafqazın ən güclü iqtisadiyyatını, ərazi bütövlüyümüzün qorunması və suveren hüquqlarımızın bərpa edilməsi üçün mühakiməsiz hüquqi bazanı yaratdı və bununla da Ermənistanın tarixi müttəfiqləri tərəfindən müharibənin gedişinə müdaxilədən, təzyiqdən Azərbaycanı qoruyaraq hərbi və diplomatik Qələbəyə nail ola bildi. Heç kim bizi yolumuzdan döndərə, iradəmizə təsir edə bilməz.

"Azərbaycan bu tarixi Zəfərlə yeni reallıqlar yaratdı və ölkəmizin dünyada nüfuzu və əhəmiyyəti dəfələrlə artdı. Ata vəsiyyətini həyata keçirən, azərbaycanlıların başını ucaldan Prezident İlham Əliyevin və ölkəmizin həqiqətlərini, tarixini, mədəniyyətini dünyada təbliğ edən respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tarixi missiyası hələ davam edir. Onlar müasir tariximizin yeni səhifəsini açır, işğaldan azad edilmiş əraziləri yenidən canlandırırlar. Laçında müəssisələrin təməli qoyulur, açılışlar edilir, ora həyat qayıdır. İşğal edilmiş bütün ərazilər kimi, Laçın da Azərbaycan Prezidentinin və birinci xanımın heyrətamiz zəhməti, Vətənə böyük məhəbbəti sayəsində yenidən qurulur. Bunu bütün dünyada, Ermənistanda da görürlər. Bir çox erməni jurnalistləri, blogerləri, siyasətçiləri, sadə insanlar əsrin dörddə birində işğal altında olan, indi isə xalqımızın qəhrəmanlığı və zəhməti, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vətənimizin hər qarış məhəbbəti sayəsində gündən-günə çiçəklənən Qarabağın, Şərqi Zəngəzurun necə sürətlə canlandığını, dirçəldiyini görürlər", - deyə H.Hüseynova bildirib.

Deputat vurğulayıb ki, Azərbaycan tarixi ədaləti bərpa edərək, tarixi torpaqlarını işğaldan azad edib. Ləyaqətlə vuruşaraq, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq suveren hüquqlarını müdafiə edib. Hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətlə böyük quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlər öz tarixi və əbədi evlərinə qayıdırlar. Burada hər yaşdan, hər nəsildən olan insanlar var. Bu tarixi reallıqdır və hər kəs bunu qəbul etməli, nəzərə almalıdır.

**AZƏRTAC**
**2023, 30 avqust**

**Otuz ilə yaxın işğal altında qalan Laçın hazırda dirçəliş dövrünü yaşayır – ŞƏRH**

Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqətdədir. Dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza hər səfəri Böyük Qayıdışı daha da sürətləndirir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 25-də Kəlbəcər və Laçın rayonlarına səfəri, səfər çərçivəsində açılışında və təməlqoyma mərasimində iştirak etdiyi sosial obyektlərin say tərkibi ümumilikdə işğaldan azad edilmiş ərazilərdə görülən işlər barədə aydın təsəvvür yaradır. Bu səfər Azərbaycanın iqtisadi və siyasi gücünün bir daha təqdimatı oldu. Təbii ki, görülən işlərin miqyası Azərbaycanın hansı iqtisadi və maliyyə imkanlarına malik olduğunu nümayiş etdirir. Nəzərə alsaq ki, dövlətimizin başçısının və birinci xanımın bu səfəri Laçın Şəhəri Gününə təsadüf etmişdir, keçilən yolun təhlili fonunda bu ərazilərin qısa zamanda necə dirçəldiyini aydın şəkildə görmək mümkündür. Laçın şəhərinin işğaldan azad edilməsindən bir il ötdü. 2022-ci il avqustun 26-da Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımıza belə bir müjdəni xəbər verdi: "Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!". Otuz ilə yaxın işğal altında qalan Laçın hazırda dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin Laçın Şəhəri Günü bayram tədbirində qeyd etdiyi kimi, bu gün artıq dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur gücümüzü və istədiyimizə hər zaman nail olduğumuzu göstərir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Malik Həsənov bildirib.

O, diqqəti Laçının və Şuşanın işğalına yönəldərək xatırladıb ki, bununla Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradıldı və sonrakı itkilərimizin başlanğıcı məhz bu ərazilərimizin itirilməsi ilə başladı. Müstəqil Azərbaycanın tarixində may ayı faciəli bir ay idi. Mayın 8-də Şuşa, 18-də Laçın işğal edildi. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız erməni vəhşiliklərinin şahididir. Bütün ərazilərimiz tamamilə dağıdıldı, Azərbaycan xalqının izlərinin itirilməsi üçün tarixi və dini abidələrimiz yerlə-yeksan edildi. Ermənilər belə xəyallar qurdular ki, bu torpaqlar onlara məxsusdur, sonadək işğal altında saxlayacaqlar. Azərbaycan dövləti ən yüksək tribunalardan bəyan edirdi ki, heç vaxt işğalla barışmayacaq, bir qarış torpağımızı belə düşmənə verməyəcəyik. Torpaqlarımızın azad ediləcəyinə böyük inam var idi. İkinci Qarabağ müharibəsi ermənilərin illərdir yaratdıqları mifləri dağıtdı. Dünya gördü ki, ən güclü ordu Azərbaycan Ordusudur, ən yenilməz, məğrur xalq Azərbaycan xalqıdır. Bu gün Şuşada, Laçında toy-bayram edirik. Genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, soydaşlarımız doğma yurd-yuvalarına qayıdırlar. Dövlətimizin başçısı cari ilin hədəflərini açıqlayarkən laçınlıların bu il Laçın şəhərinə qayıdacaqlarını bildirmişdir. İlk mərhələnin 28 May - Müstəqillik Günündə reallaşması bir daha sübut etdi ki, qarşıya qoyduğumuz hədəflərə, planlara vaxtından əvvəl nail oluruq. Avqustun 25-də 20 ailə Zabux kəndinə qayıtdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış oldular və burada kənd sakinləri ilə görüşdülər.

Deputat onu da bildirib ki, dövlətimizin başçısı İlham Əliyev bayram tədbirindəki çıxışında 50 illik yubileyini laçınlılarla Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində qeyd edərkən verdiyi vədi xatırlatdı: "Dövlət sizi daha yaxşı şəraitlə təmin edir, ancaq torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq". Bu gün laçınlılar bu xoşbəxtliyi yaşayırlar. Ölkə Prezidentinin vurğuladığı kimi, 60 yaşını Qarabağın tacı, türk dünyasının mədəniyyət paytaxtı Şuşada qeyd etdi. Avqustun 26-da isə Laçın Şəhəri Günü münasibətilə təşkil edilən bayram tədbirində laçınlılarla bir yerdə oldu. Prezident İlham Əliyev hər bir vədini reallıqda təsdiqləyir. Laçın rayonunda görülən işlərin fonunda dirçələn Azərbaycan reallıqlarını görürük. İşğaldan azad edilmiş ərazilərimizdə tikilən 3 beynəlxalq hava limanından birinin Laçın şəhərində olması bu torpağın strateji əhəmiyyətinə işıq salır. Artıq Füzuli və Zəngilan Beynəlxalq Hava limanları istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanı 2024-cü ilin sonu 2025-ci ilin əvvəlində istifadəyə veriləcək. Bu torpaqlarımızın malik olduğu imkanlardan səmərəli istifadə etmək üçün hər cür şərait yaradılır.

Malik Həsənov bu mühüm məqamı da xüsusi qeyd edib ki, dövlətimizin başçısının işğaldan azad edilən torpaqlara hər bir səfəri buradan Ermənistana ünvanlanan mesajlarla zəngin olur. Bu baxımdan Laçından ünvanlanan mesajlarda da Azərbaycanın atdığı hər bir addımında ədalətə və beynəlxalq hüquqa əsaslandığı, eyni zamanda, müstəqil siyasət yürütdüyü bir daha özünün aydın ifadəsini tapdı. Prezident İlham Əliyev bildirdi ki, aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində buraxılış məntəqəsinin qoyulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Bu mühüm addım beynəlxalq

hüquqa əsaslanır. "Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar", - söyləyən Prezident İlham Əliyev bəyan etdi ki, heç bir şey bizi yolumuzdan döndərə bilməz.

Deputat belə bir ümumiləşdirməni aparıb ki, dövlətimizin başçısının və birinci xanımın Laçın rayonuna səfəri mühüm məqamları, ölkə Prezidentinin bu məkandan mesajları ilə tarixə yazıldı. Laçın Şəhəri Günü bir daha Ermənistana və havadarlarına mesaj oldu - Bu torpaqların sahibi bizik, daim burada olacaq, qurub-yaradacağıq. Müzəffər Ali Baş Komandan belə bir mesajı da çatdırdı: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

**AZƏRTAC**
**2023, 30 avqust**

## Natamamlıq kompleksi

Ölkəmizin hər bir vətəndaşı istisnasız olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağda yaşayan erməniəsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Bakıdan göndərdiyi humanitar yükün aqibətini izləyir. Onu da bilirik ki, humanitar yük artıq Ağdam-Xankəndi yolundadır. Rəsmi mətbuatda qeyd olunur ki, humanitar yük karvanında ilkin mərhələdə 40 ton un məmulatları var.

Əslində, Azərbaycan ictimaiyyətini təəccübləndirə biləcək heç nə baş verməyib. Dövlətimiz müasir beynəlxalq münasibətlər sistemində hər zaman humanitar missiyası ilə seçilib. Burada müxtəlif təyinatlı misilsiz humanitar yardımlar, ümumbəşəri əhəmiyyət daşıyan tarixi və mədəni abidələrin restavrasiyası, dünya ölkələrini inteqrasiyaya dəvət edən və dözümlülüyü təşviq edən multikulturalizm dəyərlərinin təbliği, COVID-19 pandemiyası dövründə ölkəmiz tərəfindən görülmüş işlər və ayrılmış yardımlar, habelə bu kimi yüzlərlə təşəbbüsü qeyd etmək olar. Otuz il ərzində işğaldan əziyyət çəkən və bir milyona yaxın qaçqın və məcburi köçkünü olan ölkənin dünyada multikulturalizm prinsip və dəyərlərini təbliğ etməsi faktı artıq özlüyündə humanizm nümunəsidir. Burada Azərbaycan xalqının tarixini də yada salsaq, ümumiyyətlə aydın olacaqdır ki, tolerantlıq məfhumu milli kimliyimizin ayrılmaz keyfiyyət və meyarıdır. Odur ki, Azərbaycanı hər hansı bir "humanitar şou"da ittiham etmək qərəzlikdən başqa bir şey deyil.

Bu fikirlər politoloq A.Adilin "Natamamlıq kompleksi" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Məni yaranmış vəziyyətə kiçik bir köşə yazısında şəxsi münasibətimi bildirməyə vadar edən Qarabağda yaşayan erməniəsilli bir qadının növbəti sözləridir: "Acından ölərik, türk çörəyi yemərik". Əlbəttə, bu cür sözlərin səsləndirilməsi və rəsmi İrəvanın "dəstəyi" ilə tirajlanması təsadüfi deyil. Baş vermiş insident Azərbaycana qarşı aparılan informasiya müharibəsinin, sadəcə, bir fraqmanıdır. Sözügedən epizod dolayısı ilə münaqişənin kökündə duran sosial-psixoloji amillərə işarə edir. Bəli, bilirik ki, Ermənistanda tarixən azərbaycanofobiya tüğyan edir. Hətta ola bilsin ki, "türkə nifrət" hissi erməni mentallığının fundamental xarakteristikasıdır. Nəzərə alsaq ki, erməni kilsəsi Ermənistanda siyasi institut kimi fəaliyyət göstərir, o zaman qeyd olunan təsbitin ehtimalı da kifayət qədər böyükdür. Təəssüf ki, bu cür sosial-psixoloji anomaliyalarla iş bitmir. Böyük ehtimalla erməniəsilli qadının həmin sözləri bilavasitə ermənilərin natamamlıq kompleksinin təzahürüdür.

Bildiyiniz kimi, natamamlıq kompleksi insanın tez-tez başqalarından aşağı olduğunu düşünməsi ilə bağlı yaranan emosional və psixi halların məcmusudur. İndi bir anlıq təsəvvür edin, natamamlıq kompleksi ümummilli psixoz səviyyəsinə çatanda həmin xalq nə kimi faciələrə məhkum olur. Bəli, rəsmi İrəvan ermənilərin əsrlər boyu təbliğ etdikləri "məzlum millət" obrazı üzərindən siyasi dividendlər qazana bilib. Ancaq natamamlıq kompleksi onların milli faciəsidir. Məhz inteqrasiya və Azərbaycan həqiqətlərinin qəbul edilməsi onları xalq olaraq bu cür faciələrdən xilas edə bilər.

Bilavasitə siyasi müstəviyə qayıdarkən bir neçə məsələni xüsusi qeyd etməliyik. Qondarma rejimin sözçüsü Davit Babayan Azərbaycanın bu addımına qarşı çıxaraq humanitar yükləri daşıyan avtomobillərin nömrələrinin 44 rəqəmi ilə başlamasına diqqət çəkib: "44 müharibənin simvoludur. Biz bu yükü qəbul etmək istəmirik". Qondarma "Dağlıq Qarabağ respublikası"nın "rəhbərinin mətbuat katibi" Lusine Avanesyan isə bildirib ki, Azərbaycanın bu addımı mövcud problemləri dərinləşdirməyə yönəlib, onların həllinə yox.

Əlbəttə, Ermənistanın bu cür addımları yalnız ona hesablanıb ki, beynəlxalq ictimaiyyətin siyasi şüurunda iki qonşu xalqın birgəyaşayışının mümkünsüzlüyünə dair sosial-siyasi stereotiplər formalaşdırılsın. İstisna olunmur ki, bu cür təxribatlar, eyni zamanda, Azərbaycan tərəfindən sərt emosional reaksiyalara da hesablanıb. Tərəfimizdən verilə biləcək sərt reaksiyalar daha sonra beynəlxalq təşkilatlar müstəvisində Azərbaycana təzyiq göstərmək üçün istifadə oluna bilər. Odur ki, ötən illərin təcrübəsinə əsasən, biz hətta bu cür mənəviyyatsız təxribatlarda da təmkinli mövqe nümayiş etdirməliyik.

Ermənilərin humanitar yükdən imtina etmələri Xankəndidə ərzaq çatışmazlığına dair iddiaları alt-üst edir. "Humanitar böhran" mövzusu, sadəcə, informasiya müharibəni alovlandırmaq üçün bir bəhanədir. "Humanitar böhran" rəsmi İrəvanın "erməni soyqırımı" nağılının növbəti cildidir. Odur ki, təmkinli mövqe nümayiş etdirməklə yanaşı, bizim məsələ ilə bağlı dəqiq hesablanmış informasiya strategiyamız olmalıdır. Həmin şərti strategiyada mütləq olaraq hökumətlə yanaşı, elm ictimaiyyətinə və cəmiyyətə də rol ayrılmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" ifadəsi bu gün ölkəmizdə aparılan islahatların əsas şüarlarından biridir.

**AZƏRTAC**
**2023, 30 avqust**

**Fransanın humanitar məsələlər adı altında təxribat kolonu – ŞƏRH**

Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma, bərpa-quruculuq işləri dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılması artıq Xankəndidə yaşayan ermənilər tərəfindən də qəbul edilir. Çünki bu ərazidə yaşayan erməniəsilli vətəndaşlar həmin keçid məntəqəsindən heç bir problem olmadan keçdiklərini bəyan edirlər. İşğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaradacaq. Ağdam-Xankəndi yolu hələ sovet dönəmində sülh, həyat yolu idi. Daim regionda münaqişə yaratmaq istəyən qüvvələrin, həmçinin qondarma rejimin təmsilçilərinin bu yoldan istifadədən imtina etmələri ara qarışdırmaqdan başqa bir şey deyil. Təəssüf ki, bir sıra ermənipərəst dövlətlər, xüsusilə Fransa Azərbaycanın öz ərazisində keçirdiyi yenidənqurma işlərindən ciddi narahatlıq keçirir, bu ölkənin dövlət rəsmiləri özlərini "zavallı ermənilərə canıyanan" kimi göstərir, müxtəlif vasitələrlə ölkəmizin daxili işlərinə qarışmağa cəhd edirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Əliqismət Bədəlov bildirib.

O deyib ki, bu yaxınlarda Fransa humanitar yardım adı ilə yenidən ölkəmizin daxili işlərinə qarışıb. Humanitar yardım kampaniyasını siyasi alverə çevirən Fransa, guya Xankəndidə yaşayan erməniəsilli vətəndaşların "aclıqdan" xilas edilməsinə canıyananlıq edib və Azərbaycanın razılığı olmadan ermənilərə maddi yardım aparıb. Halbuki, buna qədər artıq Qızıl Aypara Cəmiyyəti Ağdam-Xankəndi yolu ilə humanitar yük göndərib. Deməli, Xankəndidə yaşayan ermənilər üçün heç bir humanitar böhrandan söhbət gedə bilməz. Bəs onda Fransanın humanitar yardım adı ilə təşkil etdiyi siyasi şouda məqsəd nədir? Təbii ki, bu yolla "zavallı ermənilərin ağır həyat tərzi"ni dünya ictimaiyyətinə çatdırmaqdır. Digər məqsəd Azərbaycana təzyiq göstərmək, beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəltməkdir.

Ə.Bədəlovun sözlərinə görə, Fransanın humanitar yardım təxribat kolonuna Paris şəhərinin meri Ann Hidalqonun və Strasburq meri Janna Barseqyanın başçılıq etmələri bir daha təsdiqləyir ki, bu ölkənin dövlət rəsmləri sanki öz vəzifələrinin nədən ibarət olduğunu unudub və "zavallı ermənilərin" həyat tərzi ilə məşğul olurlar. Mer vəzifəsi, yerli özünüidarəetmə orqanının rəhbəridir və heç bir halda dövlətin xarici siyasəti ilə məşğul ola bilməz. Ancaq merlər isə beynəlxalq hüququn normalarını kobud şəkildə pozur, müstəqil dövlətin ərazi bütövlüyünə hörmət etmir və bölgədə separatçılığı qızışdırırlar. Azərbaycanın razılığı olmadan atılan bu addımın uğursuzluqla nəticələnəcəyi əvvəldən məlum idi. Çünki ermənipərəst merlərin bu əməllərinin təxribatdan başqa bir şey olmadığı hər kəsə məlumdur. Onlar unutmamalıdırlar ki, Ermənistandan Azərbaycan ərazisinə daxil olan şəxslər və ya yük avtomobilləri beynəlxalq hüquq çərçivəsində tənzimlənməlidir.

Siyasi şərhçi Fransanın "öz gözündə tiri qoyub, başqasının gözündə tük axtarması"na da münasibət bildirib: "Bu yaxınlarda Fransada baş vermiş aksiyalar zamanı ölkəyə 1 milyard avrodan çox ziyan dəydiyi, 200 mağazanın talan edildiyi, 300 bank dilerinin tamamilə məhv edildiyi, tütün məhsulu satan 250 mağazaya ciddi ziyan dəydiyi bildirilir. Fransa sanki bütün bunları görməzliyə vuraraq başqa dövlətlərin daxili işlərinə qarışmağa adət edib. Elə buna görə də bu yaxınlarda Qərbi Afrika dövləti olan Nigerin səlahiyyətli orqanları Fransanın bu ölkədəki səfiri Silvan İttenin lisenziyasını ləğv etmək və ondan 48 saat ərzində ölkəni tərk etmək qərarına gəliblər. Bir neçə il əvvəl Fransanın Belarusdakı səfiri Nikolas De Lakoste də Minsk rəhbərliyinin tələbi ilə Belarusdan çıxarılmışdı. Üstəlik, Makronun öz ölkəsinin vətəndaşları tərəfindən şillələnməsi, "yumurta atəşinə" tutulması Fransanın dövlət başçısının hansı hörmətə malik olmasından xəbər verir".

Ə.Bədəlov bildirib ki, Fransanın humanitar yardım kampaniyasını siyasi alverə çevirməsi beynəlxalq aləmdə birmənalı qarşılanmayıb. Hətta bu "kampaniya"ya etiraz edənlər də olub. Məsələn, amerikalı jurnalist, milli təhlükəsizlik üzrə analitik, hüquqşünas İrina Zukerman yazır ki, Fransa Qarabağa humanitar yardım göndərəcəyini bəyan etməklə buradakı prosesə daxil olmaq və Qərbi Afrikadakı son biabırçı uğursuzluqları fonunda diplomatik gücünü təkmilləşdirmək istəyir. Fransanın Qarabağla bağlı niyyəti şəxsi maraq və bədxahlıqdır. Fransa İrəvanla münasibətlərindən Azərbaycanın ərazi bütövlüyünü pozacaq şəkildə sui-istifadə edərək sülh prosesini pozmaq riski altında qoyub.

"Fransa hazırda Qarabağın erməni sakinlərinə humanitar yardım göndərməklə, əslində, Azərbaycanın dünya birliyində getdikcə artan nüfuzuna kölgə salmağa çalışır. Bu ölkə ermənilərin uydurduğu Azərbaycanın yolu bağlaması və Qarabağ ermənilərinin əziyyət çəkməsi yalanını siyasi alverə çevirmək niyyətindədir. Bu da baş tutan sövdə deyil. Çünki Azərbaycanın öz haqq işi uğrunda mübarizədə beynəlxalq hüquq normalarına riayət etməsi artıq dünya birliyinə də bəllidir", - deyə Ə.Bədəlov bildirib.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

# Almaniyanın “TV Berlin” kanalı Laçın yolu ətrafında baş verən hadisələrə dair reportaj yayımlayıb

Almaniyanın tanınmış “TV Berlin” kanalı Laçın yolu ətrafında baş verən son hadisələrə dair reportaj yayımlayıb. Reportajda Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev ilə müsahibə də yer alıb.

AZƏRTAC xəbər verir ki, N.Ağayev müsahibəsində bəzi Almaniya KİV-lərinin Laçın yolunda guya "blokadanın davam etməsi", eləcə də Qarabağın erməni əhalisi yaşayan hissəsində "humanitar vəziyyətin pisləşməsi" ilə bağlı əsassız iddialarına cavab verib. Qeyd edib ki, “Laçın dəhlizi” kimi təqdim olunan nəqliyyat yolu əslində 44 günlük müharibədən sonra Azərbaycanın özü tərəfindən, xoş məram nümayişi olaraq Qarabağın erməni əhalisinin istifadəsi üçün tikilib və istifadəyə verilib. Ermənistan isə bu yoldan Qarabağın erməni əhalisi yaşayan hissəsinə əsgərlər, silah-sursat və minaların daşınması üçün sui-istifadə edib. Nəticədə Azərbaycan həmin yol üzərində sərhəd-buraxılış məntəqəsi təsis edib. Bundan sonra ermənilər bu yoldan sərbəst şəkildə istifadə ediblər. Ancaq iyunun 15-də Ermənistan Azərbaycana qarşı təxribata əl ataraq sərhəd-buraxılış məntəqəsinə hücum təşkil edib və bu səbəbdən həmin yoldan istifadə bir müddət məhdudlaşdırılıb.

Səfir vurğulayıb ki, Azərbaycan Ağdam-Xankəndi yolunun açılmasını və bu yol vasitəsilə Qarabağın erməni əhalisinin qida təchizatının həyata keçirilməsini təklif edib. Erməni tərəfi isə sözügedən yolun açılmasından israrla imtina edərək, həmin yolda beton maneələr quraşdırıb.

N.Ağayev müsahibəsində, həmçinin bildirib ki, Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycan ərazisinin 20 faizini işğal edib, azərbaycanlılara qarşı etnik təmizləmə və əsl soyqırımı törədib, nəticədə bir milyondan artıq azərbaycanlı öz yurd-yuvasından didərgin salınıb, 7 şəhər və 900 kənd yerlə-yeksan edilib, orada 1 milyondan çox mina basdırılıb. Səfir işğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz şəhər və kəndlərinə geri dönməyə başladıqlarını qeyd edib.

O, Azərbaycanın xalqlar arasında sülhün bərqərar olunması naminə Ermənistanla münasibətlərdə yeni səhifənin açılmasına hazır olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, bunun üçün Ermənistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən hərəkətlərinə son qoymalı, qanunsuz silahlı birləşmələrini tam şəkildə Azərbaycanın suveren ərazisindən çıxarmalı, Qarabağın erməni əhalisinin reinteqrasiya prosesinə mane olmamalı və Azərbaycanla sülh danışıqlarında fəal iştirak etməlidir.

***Vüqar Seyidov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Berlin***

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**Fransa Ermənistanı geosiyasi maraqlarının girovuna çevirərək regionda sülhə təhdid yaradır – ŞƏRH**

Azərbaycan öz suveren torpaqlarında cari ilin aprel ayının 23-də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsini yaratmaqla beynəlxalq ictimaiyyətə ərazi bütövlüyü məsələsində heç bir güzəştin olmayacağını bəyan etdi. Başda Fransa olmaqla bəzi qüvvələr Azərbaycana təzyiq yolu ilə Laçın yolunun ümumilikdə istisnasız açılmasına çalışdılar, ancaq niyyətlərinin baş tutmadığını görüb "humanitar" şou təşkil etdilər. Fransa Ermənistanı geosiyasi maraqlarının girovuna çevirərək daxildə erməni lobbisinin təsiri altında emosional reaksiyalarla regionda sülhə təhdid yaradır. Bu addım isə daha çox Ermənistanın özünə ziyandır. Biz bunun Vətən müharibəsində şahidi olduq. Belə ki, Ermənistanın acı məğlubiyyətlərini unudub yenidən hansısa xülyalar dünyasında yaşaması reallıqdan kənardır. Ermənistanın siyasi rəhbərliyi qaydalara riayət etmək əvəzinə kimlərinsə maraqlarının daşıyıcısı roluna girmək istəyirsə, nəticə ilə hesablaşmaq məcburiyyətində qalacaq. Düşünülməmiş siyasi addımlar bir çox hallarda dövlətin nəinki maraqlarına zərbə vurur, hətta suverenliyini təhlükə altına salır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Tural Əliyev söyləyib.

O qeyd edib ki, Fransa vaxtilə həyata keçirdiyi müstəmləkəçilik siyasətinin əks təsirlərini görməkdədir. Afrika qitəsində nüfuzunu itirən, resurslarını sovurmaqla var–dövlətini artıran Fransanın dünyadakı dayaqları zəifləməyə doğru gedir. Fransa Prezidenti Emmanuel Makron hakimiyyətə gələndən sonra ölkədə tətillərin sayı artıb, dəfələrlə hökumətin islahatlarına qarşı amansız mitinqlər baş tutub. Bütün aksiyalar isə kütləvi iğtişaşlarla yekunlaşıb. Daxili problemləri həll etmək əvəzinə, Fransa hakimiyyəti müxtəlif şəhərlərin merlərini tarixdə onlara heç vaxt aid olmayan Qafqaz regionuna müdaxilə üçün həvəsləndirir. Separatizmi dəstəkləyən bəyanatlar, öz səlahiyyətlərinə aid olmayan vədlər, Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən Birinci Qarabağ müharibəsi zamanı dinc əhaliyə divan tutan terrorçunun ailəsinə tezliklə onun azad olunacağı ilə bağlı şirnikləndirici sözlər vermək bir daha Fransanın beynəlxalq qanunların tərəfində olduğunu deyil, hüquqazidd əməlləri dəstəkləyən bir ölkəyə çevrildiyini isbatlayır.

"Prezident İlham Əliyev fransalı həmkarı ilə telefon danışığında qarşı tərəfə suveren sərhədlərlə bağlı xatırlatma edərək Azərbaycanın haqlı hədəflərindən bir addım belə geri atmayacağını açıq şəkildə ifadə etdi.

Fransa bütün parametrlər üzrə regional maraqların təmin olunmasında uduzur. Görünən odur ki, Ermənistan da öz siyasi məqsədləri naminə itirilmiş nüfuzunu bərpa edəcəyini düşünür. Bu gün Azərbaycanın təklif etdiyi sülh platformasına səs verməklə, bölgəyə barış gələcəyi halda bütün tərəflər siyasi, iqtisadi dividendlər qazanacaq. Fransa daha çox separatizm üçün deyil, reinteqrasiya prosesinin sürətlənməsinə çalışmalıdır. Azərbaycan istənilən halda milli maraqlarından vaz keçməyəcək, bunu nə qədər tez dərk etsələr, bəzi qüvvələr üçün bir o qədər xeyirli olar", - deyə T.Əliyev bildirib.

O əlavə edib ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) humanitar məqsədlərə xidmət üçün yaradılmasına baxmayaraq, qurum öz öhdəliklərini doğru yerinə yetirmir. Adından da göründüyü kimi, bu təşkilat hansısa dövlətlərin siyasi ruporu olmamalıdır. Təəssüflər olsun ki, bəzi hallarda BQXK öz fəaliyyətindən kənara çıxmaqla, statusuna yaraşmayan birtərəfli bəyanatlar səsləndirir. Birinci Qarabağ müharibəsi zaman 4000-ə yaxın azərbaycanlının itkin düşməsi barədə bu günə qədər Beynəlxalq Qırmızı Xaç Komitəsi Ermənistandan heç bir izahat tələb etməyib. Əksinə istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində erməni təəssübkeşliyini önə çıxararaq, humanitar sözünü siyasətlə əvəzləyib, bununla da bütövlükdə öz fəaliyyətinə kölgə salıb. Məramnaməsindən irəli gələrək BQXK üçün insan faktoru önəmli olmalıdır, yardıma ehtiyac duyan, faciələrlə üzləşən insanların yanında yer almalıdır. Komitə ədalətin təntənəsinə çalışmalıdır, başqa niyyət və şəxsi maraqlara xidmət quruma başucalığı gətirmir, etibarlılıq nöqteyi-nəzərdən isə fəaliyyətinə şübhə toxumu səpir.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**Azərbaycan Fransanın ölkəmizə qarşı neokolonialist siyasət aparmasına imkan verməyəcək Politoloq**

Fransa 1997-ci ildən ATƏT-in Minsk qrupunun həmsədri idi. Azərbaycan bu həmsədrliyə icazə verməklə Fransanın "ermənipərəst" siyasətini zərərsizləşdirməyə nail olmuşdu. Çünki həmsədrlər bitərəf davranmağa məcbur idilər. Minsk qrupuna üzv olan Fransa Azərbaycan–Ermənistan münaqişəsinin sülh yolu ilə həlində heç bir rol oynaya bilmədi. Azərbaycan öz torpaqlarını 2020-ci ildə işğaldan azad etməsi ilə Minsk qrupundan da imtina etdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyası sədrinin müavini, politoloq Yalçın Hacızadə söyləyib.

Onun sözlərinə görə, Azərbaycan tərəfindən Cənubi Qafqazdan qovulmuş Fransa müxtəlif təxribatlar törədərək geri dönmək istəyir. Rusiyanın onlara xəyanət etdiklərini düşünən və ondan revanş üçün istədikləri dəstəyi ala bilmədiklərinə görə küsən separatçılara himayədarlıq edir. Əslində isə Fransanın erməni "sövdası" da saxtadır. Yəni, Fransanın Ermənistanı dəstəkləmək görüntüsü ilə Cənubi Qafqazda yerləşmək istəməsinin arxasında başqa niyyətləri var.

Fransanın əsas məqsədi inkişaf edən, geniş iqtisadi imkanlara malik, karbohidrogen və bioenerji ilə zəngin olan, mühüm coğrafi mövqedə yerləşən, beynəlxalq nəqliyyat və kommunikasiya yollarına sahib ölkəmizə qarşı təzyiq etmək üçün müəyyən vasitələr əldə etməkdir.

Onun digər məqsədi Ukrayna müharibəsi ilə regionumuzda zəifləyən Rusiyanın yerini doldurmaq, həmçinin Türkiyənin Cənubi Qafqazda və Orta Asiyada güclənən nüfuzuna mane olmaq, türk və islamofob hərəkətlərini davam etdirməkdir.

"Azərbaycanın Laçın yolunda sərhəd-buraxılış məntəqəsi qurmasını ermənilərə qarşı "blokada" kimi qiymətləndirən və Avropa İttifaqında və BMT-dəki imkan və statusundan istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyası apararaq beynəlxalq ictimaiyyəti aldadır. Ərazimizdə yaşayan ermənəsilli şəxslərin "humanitar böhran" ilə üzləşdiyi yalanına əsaslanaraq, onlara yardım etmək adı ilə kampaniya başlaması, bununla bağlı dövlətimizə təzyiqlər göstərməsi beynəlxalq hüquqda və BMT Nizamnaməsində qeyd olunan "dövlətlərin ərazi bütövlüyü" və "ölkələrin daxili işlərinə müdaxilənin yol verilməzliyi" prinsiplərinin pozulmasıdır. Dünyada sülhün və təhlükəsizliyin təminatçısı olan BMT-nin Təhlükəsizlik Şurasının üzvü olan bir ölkənin belə hərəkətləri beynəlxalq səviyyədə müzakirələrə çıxarılmalı və qınanmalıdır", - deyə Yalçın Hacızadə vurğulayıb.

Politoloq əlavə edib ki, heç bir vizyonu, strategiyası olmayan və ən əsası subyektiv liderlik keyfiyyətlərinin defisitindən əziyyət çəkən, Fransanın ən uğursuz prezidentlərindən biri olan Emmanuel Makron uğursuz siyasəti nəticəsində Avropa İttifaqında və Afrikada üzləşdiyi məğlubiyyətini, nüfuz itkisini separatizmə dəstək verməklə Cənubi Qafqazda bərpa etmək istəyir.

Azərbaycan rəsmi Parisin hər təxribatına, ərazi bütövlüyünə zidd, separatizmi dəstəkləyən bəyanatına və hərəkətinə daha tutarlı cavablar verməklə, diplomatik müstəvidə onu mat edə bilir. Azərbaycan dövləti Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə yaşayan və guya "humanitar böhranla" üzbəüz qalan ermənəsilli şəxslərə yardım məqsədilə göndərdiyi 40 ton humanitar yardım separatçılar tərəfindən qəbul olunmayıb. Eyni zamanda, ərazidə yaşayan ermənilər sosial şəbəkələr vasitəsilə yayımlar edərək "biz türk unu yemirik" tipli bəyanatlar paylaşırlar. Görünən odur ki, Azərbaycan tərəfi addım atan kimi "blokadadayıq", "aclıqdan ölürük" kimi əsassız ittihamlar irəli sürən separatçılar və onların dəstəkçilərinin yalanları ifşa olunur. "Biz türk unu yemirik" kimi fikirləri ilə nə qədər faşist ruhlu və nifrət dolu olduqlarını da göstərirlər.

"Sərhəddə kimin hansı şounu göstərməsindən asılı olmayaraq, Azərbaycan öz şərtlərini açıqlayıb. Yəni, Fransanın regionda yeni reallıqları qəbul etmədən, münaqişəni alovlandırmağa çalışması Cənubi Qafqazda sülhün əldə olunmasına mane olsa da, bütün bunlardan itirən tərəf Ermənistan olacaq. Bundan əlavə, Azərbaycan dövləti separatizmin yenidən baş qaldırmasına və Fransanın ölkəmizə qarşı neokolonialist siyasəti aparmasına imkan verməyəcək", - deyən Yalçın Hacızadə fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**Azərbaycan XİN Şarl Mişelin mətbuat katibinin bəyanatına cavab verib**

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin mətbuat katibinin bölgədəki vəziyyətlə bağlı sentyabrın 1-də yaydığı bəyanata münasibət bildirib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Avropa İttifaqı tərəfindən bildirildiyi kimi, 2023-cü il iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilmiş üçtərəfli görüşdəki müzakirələrin nəticəsi olaraq aparılmış danışıqlardan sonra Azərbaycanın Qarabağ bölgəsinə yüklərin müxtəlif marşrutlarla çatdırılması, habelə Ağdam-Xankəndi yolunun açılmasına paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi məsələləri razılaşdırılmışdı.

Buna baxmayaraq, Ermənistanın qondarma rejimi vasitəsilə qeyri-qanuni şərtlər və müxtəlif bəhanələr irəli sürməsi ilə əldə olunmuş razılıqdan boyun qaçırması sözügedən razılığın icrasına maneə törətdi.

“Həmçinin xatırlatmaq istərdik ki, cari ilin avqust ayının əvvəlində Azərbaycanın xüsusi nümayəndəsi ilə yerli erməni sakinlərinin nümayəndələri arasında görüşün təşkili ilə bağlı razılıq əldə edilməsinə baxmayaraq, son anda erməni tərəfi bu görüşdən imtina etdi.

Təəssüflər olsun ki, iyulun 15-dən bu günədək Ermənistan və onun qondarma rejimi sözügedən üçtərəfli görüş çərçivəsində razılaşdırılmış bu gündəliyin icrasına və irəli aparılmasına mane olmaqda davam edərək, bu istiqamətdə Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşların səylərini heçə endirir. Azərbaycan Ermənistana iki ölkə tərəfindən bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında sülh təklif edib. Digər istiqamətdə isə Azərbaycan Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyasında qərarlıdır. Azərbaycan bütün bu istiqamətlərə sadiqliyini nümayiş etdirməklə yanaşı, Ermənistan tərəfinin davam edən hərbi-siyasi təxribatları kontekstində, öz suverenliyini və ərazi bütövlüyünü BMT Nizamnaməsi və beynəlxalq hüququn digər universal sənədləri ilə təmin edilmiş bütün qanuni vasitələrlə müdafiə etmək hüququnu da özündə saxlayır”, - deyə XİN-in şərhində vurğulanıb.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**Ermənistan İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətinə rəğmən, təxribatlarını davam etdirir – ŞƏRH**

Bölgədə vəziyyət yenə gərgindir. Azərbaycanın bölgədə sülh və sabitlik istəməsinə baxmayaraq, Ermənistan hakimiyyəti və Qarabağ separatçıları, o cümlədən onların dünyadakı havadarları gərginliyi artırmaq üçün əllərindən gələni edirlər. Ermənistan İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətinə rəğmən, təxribatlarını davam etdirir.

Ermənistanın baş naziri Nikol Paşinyan odla oynayır, bir tərəfdən Qarabağ daxil Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib, o biri tərəfdən dediyinin sənəddə əks olunmasını ləngidir. Azərbaycan Prezidenti İlham Əliyev Nikol Paşinyanın sülh sazişinə imza atmasının vacibliyini bir neçə dəfə söyləyib. Bütün problemlərin kökündə məhz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan yayınması dayanır. Bu olmazsa, sərhədlərin müəyyənləşməsi də uzanacaq. Əslində qonşu dövlətlə münasibətlərin normallaşmaması daha çox Ermənistanı narahat etməlidir. Prezident İlham Əliyev açıq deyib: “Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımasa, Azərbaycan da Ermənistanın ərazi bütövlüyünü tanımayacaq və bunu rəsmi şəkildə bəyan edəcək”. Sən Qarabağı Azərbaycan ərazisi kimi tanımırsansa, mən Qərbi Zəngəzuru niyə Ermənistan ərazisi kimi tanımalıyam? Bu, beynəlxalq aləmə və ermənipərəst mərkəzlərə də mesajımızdır ki, bölgədə həqiqətən sülh və sabitlik istəyirsinizsə, Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa vadar edin! Təəssüf ki, beynəlxalq aləmdə bəziləri hələ də ermənilərin “kaprizlərini” səsləndirməyə üstünlük verir. Bu, o mərkəzlərdir ki, Azərbaycan torpaqlarının 30 il müddətində işğalına göz yumdular, həqiqəti söyləməkdən çəkindilər, susmağa üstünlük verdilər, ancaq elə ki, işğala son qoyuldu və Azərbaycan Qarabağı ram etməyə başladı, onlar “fəallaşdılar” və anti-Azərbaycan siyasətlərini gizlədə bilmədilər. Bunun da məşhur adı var: İkili standartlar!

Bu fikirlər Milli Məclis sədrinin müavini Adil Əliyevin “Gücümüz birlikdədir!” sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Fransanın siyasəti göz qarşısındadır. Bu dövlət keçmiş illərdə də işğalçı Ermənistana rəğbətini gizlətmirdi, ancaq heç olmazsa, müəyyən qədər balans görüntüsü yaratmağa çalışırdı. Emmanuel Makronun prezident seçilməsi ilə “balansı” tamamən unutdular, Fransa İkinci Qarabağ müharibəsində və ondan sonrakı dönəmdə tamamən Ermənistanın tərəfinə keçdi. Makronun birtərəfli açıqlamaları, bir qrup Fransa şəhərinin merinin Laçın yolunun başlanğıcına gələrək təxribatçı açıqlamalar verməsi Azərbaycanda separatizmi təşviq edən addımlardır. Özü də bunu o ölkə edir ki, tarixi qara səhifələrlə doludur, bu günlərdə Afrika ölkələrində ard-arda baş verən çevrilişlər Parisə verilən dərsdir.

Belələri ABŞ Konqresində də var. Bir qrup ermənipərəst konqresmen də son zamanlar “fəallaşıb”, Azərbaycan əleyhinə açıqlamalar verir, Ermənistana nümayəndələrini göndərirlər. Ancaq Fransadan fərqli olaraq ABŞ-ın rəsmi dairələri Azərbaycanın bölgədəki rolunu və əhəmiyyətini anladıqlarından hər iki tərəflə bərabər məsafəni qorumağa çalışırlar. Bu, səbəbsiz deyil. Birincisi, Vaşinqton Azərbaycanla təhlükəsizlik və enerji əməkdaşlığına əhəmiyyət verir. Azərbaycan son illər Avropanın enerji təchizatında əhəmiyyətli mövqeyə sahibdir. Bu, Rusiya-Ukrayna müharibəsi fonunda həm Avropa İttifaqının, həm də ABŞ-ın maraqlarına cavab verir. Digər tərəfdən, Vaşinqton Azərbaycanın Ukraynaya humanitar yardımını da görür və qiymətləndirir. Halbuki, həmin ermənipərəst konqresmenlər bir sualımıza cavab versinlər: Sizin də müdafiə etdiyiniz Ukrayna üçün Azərbaycanın etdiklərinin hansı birini Ermənistan Ukrayna üçün edib?

Buna baxmayaraq, Ermənistan və erməni lobbisi beynəlxalq aləmdə Azərbaycana qarşı təzyiq alətlərini işə salmaq üçün bütün imkanlarını səfərbər ediblər. Bu təzyiqin nəticəsiz qaldığı BMT Təhlükəsizlik Şurasının müzakirələrində bir daha ortaya çıxdı. Dünyada Azərbaycanın da dostları artıb. Ermənistan rəsmiləri və onların dünyadakı havadarları Qarabağdakı ermənilərin “ərzaq problemlərindən” danışdıqları halda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Ağdam-Xankəndi yolu ilə bölgədə yaşayan ermənilər üçün nəzərdə tutulan 40 ton un məmulatının qəbuluna mane olurlar. Məntiqlə un məhsullarına ehtiyacınız varsa, həmin unu qəbul etməlisiniz. Ancaq Ermənistan hakimiyyəti və separatçılar tutduqlarını buraxmır və məhz Laçın yolunun açılmasını tələb edirlər. Bu, mümkün deyil. İşğal dövründə Laçın yolundan bildikləri kimi istifadə etdilər, silah daşıdılar, yollara minalar döşədilər. Azərbaycan Ordusu buna son qoydu və Laçın yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi quruldu. Hazırda Qarabağ erməniləri həmin yoldan istifadə edir və sərhəd-keçid məntəqəsində Azərbaycan sərhədçilərinin yoxlamasından keçməyə alışırlar. Bu, yalnız separatçıların maraqlarına cavab vermir. Çünki əli qana batanlar sərhəd-keçid məntəqəsindən istifadə edib Azərbaycanı tərk edə bilməyəcəklər, necə ki, indi bəziləri Ermənistana keçmək istəyərkən sərhəddə yaxalanırlar. Başqa cür olması da mümkün deyil. Mülki insanları öldürən, qətliamlarda

iştirak edən erməni canilərin həbsi və ədalət məhkəməsi qarşısında cavab vermələri qaçılmazdır. O ki, qaldı Laçın yolunun açılmasına, bu haqda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin tutarlı açıqlaması var: “Ağdam-Xankəndi yolu açıldıqdan 24 saat sonra Laçın yolu açılacaq”.

Qarabağ erməniləri seçim etməlidirlər. Onlar ya Azərbaycan qanunları ilə yaşamağı qəbul etməli, ya da Azərbaycanı tərk etməlidirlər. Bunu “etnik təmizləmə” kimi qələmə verənlər yanılırlar. Ermənipərəst Fransada və ya başqa ölkədə kimsə desə ki, “mən bu ölkənin qanunları ilə yaşamaq və pasportunu daşımaq istəmirəm”, həmin anda onu ölkədən deportasiya edərlər. Eyni hüquqa Azərbaycan da malikdir.

Qarabağın işğaldan azad olunmayan hissəsində xaos hökm sürür. Separatçıların lideri istefa verib, onun yerinə bir başqası “təyin olunub”. Bu, onları xilas etməyəcək. Onların yeganə alternativləri tərk-silah olunmaq və Azərbaycanın şərtlərini qəbul etməkdir. Qarabağın erməni icması Bakı ilə dialoqdan və Ağdam-Xankəndi yolunu açmaqdan imtina edərsə, Azərbaycan Ordusunun bölgədə qayda-qanun yaratması aktuallaşacaq. Ermənistan hakimiyyətinin azca məntiqi qalıbsa, Qarabağ separatçılarına bunu məsləhət görməlidirlər. Ancaq görünən odur ki, Ermənistan hakimiyyəti sərhəddə təxribatlara üstünlük verməklə gərginliyi daha da artırmaq yolunu tutub. Yəqin Ermənistanda hesab edirlər ki, sərhəddə təxribatlar vasitəsilə Azərbaycanı Qarabağda qayda-qanun yaratmaqdan yayındıra biləcəklər. Bu “hiylə” də keçməyəcək. Azərbaycan Ordusunun gücü həm sərhəddə üstünlüyümüzü davam etdirməyə, həm də Qarabağda separatizmin kökünü kəsməyə yetərlidir. Qarabağın kommunikasiya xətləri Azərbaycan Ordusunun nəzarətindədir. Bunu da unutmasınlar. Həmin kommunikasiya xətləri işğal dövründə qanunsuz çəkilib. İşğal altındakı Sərsəng su anbarı da diqqətimizdədir. Erməni separatçıları işğal dövründə ümumi su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarında ekoloji fəlakət yaradıblar. Avropa Şurası Parlament Assambleyasının Sərsəng su anbarı ilə bağlı müvafiq qətnaməsi də Azərbaycanın Sərsəng su anbarının idarəetməsini nəzarətə götürmək üçün zəmin yaradır.

Güc birlikdədir! Prezident İlham Əliyevin xarici və daxili siyasəti sayəsində Azərbaycan böyük gücə sahibdir, birliyimizi də qoruyuruq. Bu, bizə istədiyimiz və hədəflədiyimiz vəzifəni yerinə yetirmək üçün kifayətdir.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**Elçin Əmirbəyov: Ermənilər vaxtı uzadırlar və status-kvonu möhkəmləndirməyə çalışırlar**

Fransanın "L'Opinion" qəzetində Laçın yolu ətrafındakı vəziyyət barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Jan-Dominik Merşe Ermənistan rəhbərliyinin danışıqlar prosesini süni şəkildə ləngitdiyini və bundan əvvəl üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən qəsdən yayındığını bildirən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovdan sitat gətirir. Belə ki, Elçin Əmirbəyovun sözlərinə görə, erməni tərəfinin məqsədi "mümkün qədər vaxt qazanmaq və mövcud status-kvonu möhkəmləndirməkdir".

Merşe göstərir ki, erməni separatçıları Azərbaycan hakimiyyəti tərəfindən göndərilən humanitar yükü daşıyan avtomobil karvanının Qarabağın ermənilərin məskunlaşdığı ərazilərinə keçməsinin qarşısını almaq üçün bu həftə Ağdamdan keçən yolu bağlayıblar. Nəşrdə deyilir ki, onlar bu davranışı həmin ərazilər üzərində Azərbaycanın suverenliyini tanımaq istəmədikləri ilə izah edirlər.

Məqalədə qeyd edilir ki, Bakı, öz növbəsində, bu humanitar məsələnin siyasiləşdirilməsini qəbuledilməz hesab edir və erməni əhalisini ərzaq və digər zəruri mallarla təmin etmək üçün müxtəlif marşrutlarla bağlı hər cür ayrı-seçkiliyi rədd edir. Müəllif vurğulayır ki, Azərbaycan Ağdam yolu açılandan sonra Laçın yolunun tam açılmasını təmin etməyə hazır olduğunu bildirib.

Nəşrdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin fikrindən bir daha sitat gətirilir. E.Əmirbəyovun "Sülh sazişi üzrə danışıqlarda konkret irəliləyişin mövcud olmadığı şəraitdə hərbi qarşıdurma riski artır" sözləri oxucuların diqqətinə çatdırılıb.

**AZƏRTAC**
**2023, 1 sentyabr**

**İşğaldan azad olunmuş ərazilərimizdə sakinlər üçün hər cür şərait yaradılır – ŞƏRH**

Dağlar qoynunda yerləşən, əsrarəngiz təbiəti olan Laçın rayonu 30 ilə yaxın erməni işğalı altında qalıb. Erməni vandalları Laçını viran qoyublar, təbiətini məhv ediblər, talayıblar. Lakin Laçın heç vaxt öz əzəmətini qırmayıb. Laçınlılar öz doğma ocaqlarına qayıdacaqlarına olan inamlarını itirməyiblər. Laçının coğrafi cəhətdən yerləşdiyi ərazi onun əhəmiyyətini artırıb. Prezident İlham Əliyevin müdrik, uzaqgörən və qətiyyətli siyasəti nəticəsində Qarabağdan Ermənistana gedən başqa yol inşa edilib, Laçın şəhəri Zabux və Sus kəndləri də daxil olmaqla Azərbaycanın nəzarətinə keçib. Bu ilin may ayının 28-dən başlayaraq laçınlılar öz doğma yurd yerlərinə qayıtmağa başlayıblar.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Kamilə Əliyeva deyib.

O bildirib ki, Prezident İlham Əliyev avqustun 26-da Laçın şəhərində Həkəri çayının sahilində keçirilən “Laçın Şəhəri Günü” bayram tədbirində iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib və doğma yurdlarına köçürülən sakinlərlə səmimi söhbət aparıb. Otuz il işğal altında qalan torpaqlarımız Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilib, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Hər zaman olduğu kimi, bu gün də xalq öz Prezidentinin, liderinin ətrafında birləşərək işğaldan azad olunmuş bütün ərazilərimizi yenidən qurur, bərpa edir. Sakinlər üçün hər cür şərait yaradılıb. Burada inşa edilən məktəblər, xəstəxanalar, sosial obyektlər, müasir, dünya standartlarına uyğun tikilib.

“Azərbaycan xalqı qurub yaradan zəhmətkeş xalqdır. Bu gün biz Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq. Əslində Fransa Prezidenti Emmanuel Makron və digərləri bütün bunları görür və anlayırlar. Sadəcə onlar öz neokolonializm siyasətlərindən əl çəkə bilmirlər. Onlar bu regionda liderlik etmək niyyətindədirlər. Bu “siyasətçilərin” arzuları heç vaxt reallaşmayacaq, üzü qara geri dönəcəklər. Çünki Cənubi Qafqazda İlham Əliyev kimi lider, şəxsiyyət var”, - deyə K.Əliyeva vurğulayıb.

**AZƏRTAC**
**2023, 2 sentyabr**

**Laçında buraxılış məntəqəsinin yaradılması – Azərbaycanın suveren hüquqları çərçivəsində legitim addım**

Azərbaycan 44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində hərbi-siyasi Qələbə qazandı. Tarixi ərazilərimiz erməni işğalından azad olunaraq, suveren hüquqlarını bərpa etdi. Ötən müddət ərzində 30 ilə yaxın davam edən erməni vandalizmi nəticəsində talan edilən, xarabaya çevrilən, hər addımda minalarla zəhərlənən torpaqlarda nəhəng quruculuq işləri görülür, beynəlxalq hava limanları, körpülər, evlər, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir, infrastruktur qurulur, yollar çəkilir, kəndlər, şəhərlər salınır. Artıq keçmiş məcburi köçkünlər öz dədə-baba yurdlarına qayıdırlar. Bir sözlə Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Çox təəssüflər olsun ki, qazanılmış hərbi-siyasi Qələbə nəticəsində regionda yaranmış yeni reallıqlarla barışmayan Ermənistan və onu himayə edənlər hələ də müəyyən illüziyalara qapılaraq ölkəmizə qarşı ərazi iddialarından əl çəkmir, yeni revanşist iddialarla çıxış edirlər. Ermənistan imzaladığı üçtərəfli Bəyanatdan (faktiki olaraq Kapitulyasiya aktı) irəli gələn öhdəliklərini yerinə yetirmir, icra etməli olduğu müddəaları kobud şəkildə pozmağa davam edir. Bunlardan ən başlıcası isə razılaşdırılmış və qəbul olunmuş öhdəliklərdən sui-istifadə edərək humanitar məqsədli “Laçın” dəhlizindən öz çirkin hərbi-siyasi niyyətləri üçün istifadə etdilər. Beləliklə, bütün bu qanunsuz əməllər və biganə münasibət Azərbaycan tərəfinin haqlı olaraq daha ciddi tədbirlər görməsini zəruri etdi. Azərbaycan qətiyyətli addım ataraq, peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı. Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması ilə Azərbaycan sərhədlərinin bütövlüyü təmin olundu. Bu, Azərbaycanın 44 günlük müharibədən sonra əldə etdiyi növbəti tarixi nailiyyətdir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova bildirib.

O qeyd edib ki, 2020-ci ilin sentyabrından başlayaraq Azərbaycan və onun lideri qarşıya qoyulan hədəflərə doğru addım-addım irəliləyir. Azərbaycan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini hamıya göstərdi, bunu bir daha təsdiqlədi. Azərbaycan öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsi yaratdı, dövlət sərhədində bayrağını ucaltdı.

“Azərbaycan-Ermənistan sərhədində “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onu himayə edən qüvvələr, ölkəmizi guya Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Rəsmi İrəvan bu cür cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirilən təcavüzkar siyasətlərinə fərqli don geyindirməyə çalışır. Lakin bir daha xatırlatmaq yerinə düşər ki, üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən cari il aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu”, - deyə H.Hüseynova bildirib.

Komitə sədri vurğulayıb ki, dövlət təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq tam qanuni addımdır. Sərhəd-buraxılış məntəqəsi Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyasının, habelə silah, sursat, mina və xarici terrorçuların daşınmasının, ərazidən təbii sərvətlərin qanunsuz çıxarılmasının qarşısının alınmasında müstəsna əhəmiyyətə malikdir. Eyni zamanda, “Laçın” məntəqəsinin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərk-silah olunması baxımından böyük önəm daşıyır. Ermənistan, separatçı qüvvələr, Ermənistanı himayə edən dairələr “Laçın” məntəqəsinin qanunsuz olması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edir, dünya ictimaiyyətini çaşdıran məlumatlar yayırlar. Əsasız olaraq rəsmi Bakının Qarabağda yaşayan erməniləri “humanitar böhran” vəziyyətinə saldığını, Xankəndidə və ətraf ərazilərdəki ermənilərin “acından öldükləri" ilə bağlı informasiyaları tirajlamaqla beynəlxalq təşkilatları Azərbaycana təzyiq göstərməyə çağırırlar. Amma bu cəhdlər də bir fayda vermədi.

Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarını xatırladan deputat qeyd edib ki, Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın "Laçın" keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib etməsi bir daha göstərir ki, Azərbaycanın bu addımı beynəlxalq hüququn tələblərinə uyğundur. Avqustun 16-da BMT Təhlükəsizlik Şurası ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhranı"n müzakirəsi üçün keçirilən təcili iclasda da Ermənistan və ona dəstək verənlər məqsədlərinə çatmadılar. Lakin nə Ermənistan, nə də onun ən böyük himayədarı Fransa siyasi təxribatlardan əl çəkmir, sülh və normallaşma prosesinə maneələr yaradırlar. Fransanın "humanitar yardım" adı ilə həyata keçirdiyi növbəti təxribat baş tutmadı. Azərbaycan Fransadan göndərilən "humanitar yükü" Qarabağa buraxmadı. Fransadan göndərilən 10 avtomobil iyulun 26-da sərhəddə gözləyən "Spayka" avtomobillərinin ardınca düzülmüş vəziyyətdə qaldı. Əgər həqiqətən də Qarabağda yaşayan erməniəsilli şəxslər "humanitar böhran" vəziyyətindədirlərsə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən onların ehtiyaclarını qarşılamaq məqsədilə göndərilən humanitar yardımı almaq üçün adekvat addım atar və Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdilər. Burada aydın görünür ki, Ermənistan, Xankəndidə olan cinayətkar rejim, separatçılar, o cümlədən onların havadarları Azərbaycanın bu hissəsinin ölkənin əsas hissəsinə inteqrasiyasında maraqlı olmadığı kimi, Ağdam-Xankəndi yolunun açılmasında da maraqlı deyillər. "Humanitar" bəhanələrlə edilən manipulyasiyalar vasitəsilə Ermənistan hərbi təxribatlar üçün süni səbəblər yaradır.

Azərbaycan hər zaman olduğu kimi, ədalətin tərəfdarı olmaqla bundan sonra da qətiyyətli şəkildə öz haqlı mübarizəsini davam etdirəcək.

**AZƏRTAC**
**2023, 2 sentyabr**

## Deputat: Fransa Ermənistanın işğalçı olduğunu bilavasitə təsdiq edib

Fransa dövləti uzun illərdir Azərbaycana qarşı fitnəkarlıq mövqeyindədir və bu hallar gündən-günə genişlənməkdə, güclənməkdədir. Ölkənin prezidenti Emmanuel Makron başda olmaqla Fransa parlamentinin əksər deputatları, siyasi dairələri, merləri açıq-aşkar dövlətimizə qarşı düşmənçilik siyasəti yürüdür və bunu demokratiya, humanizm pərdəsi ilə ört-basdır etməyə çalışırlar. Təcavüzkar, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, bir milyondan çox insanın bəlalarına səbəb olan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən erməniləri, Ermənistanın hakim dairələrini yazıq, əzilən, ac-yalavac, hüquqları pozulan millət kimi dünyaya təqdim etmək, onların tərəfində durmaq Fransanın dövlət siyasətinə, ən ali məqsədinə çevrilib. Bu gün ermənilərin taleyinə bu ölkələrin rəhbərlərindən daha çox E.Makron və onun tərəfdarları ağlayırlar.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev söyləyib.

Deputat bildirib ki, Fransa prezidentinin, bu ölkənin xarici işlər nazirinin, bir çox merlərin müsahibələri, Azərbaycanın suverenliyinə, dövlət quruluşuna, müstəqilliyinə zidd olan fikirləri heç bir beynəlxalq normaya sığışmır. Bu, əslində demokratiya, humanizm deyil, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, müharibəni alovlandırmaq, Cənubi Qafqazda təhlükəsizliyi sarsıtmaqdır. Paris şəhərinin meri Ann İdalqonun müşayiəti ilə Fransada yaşayan ermənilərin Qarabağa göndərmək istədikləri 10 maşından ibarət “humanitar yük” karvanının Laçın yolu ilə Xankəndiyə gətirilməsi cəhdi Fransanın ölkəmizə qarşı yönəldilmiş fitnəkarlığının, düşmənçiliyinin bariz nümunəsidir. Bu yüklərin gətirilməsini, haradan keçməsini əvvəlcədən Azərbaycanla razılaşdırmadan, viza rejiminə əməl etmədən, özü də Paris, Marsel və Strasburq merlərinin müşayiəti ilə sərhəddən keçmək cəhdi hegemonluğun ifadəsi olmaqla dövlətimizin suverenliyinə təcavüzdür.

“Beynəlxalq hüquqdan anlayışı olanların, Azərbaycanın ərazi bütövlüyünü tanıyanların bu hərəkətləri heç bir normaya, demokratik dəyərlərə uyğun gəlmir və bilavasitə ölkəmizə təzyiq etmək, güc göstərmək yoludur. Qarabağda yaşayan ermənilərin blokadada olması, aclıq keçirməsi, çörəyə, suya möhtac qalması barədə söylənilənlər reallığı əks etdirmir. Bunu BMT Təhlükəsizlik Şurasının iclası, Beynəlxalq Ədalət Məhkəməsi bir daha təsdiq etdi. Digər tərəfdən Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır və acdırlarsa onlara yardım göstərmək, kömək əli uzatmaq dövlətimizin haqqı və borcudur. Onlar əgər Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bölgəyə göndərdiyi yardımdan, Azərbaycan vətəndaşlığından və qanunlarından imtina edirlərsə, o zaman ölkəmizin ərazisini tərk edib Fransaya köçə bilərlər və bu dövlətin yardımını da qəbul edərlər. Əks təqdirdə, Azərbaycanın razılığı və icazəsi olmadan heç bir dövlət Qarabağ ermənilərinə kömək və yardım edə bilməz. E.Makron və tərəfdarları yaxşı bilirlər ki, Fransanın özünün üzv olduğu BMT Təhlükəsizlik Şurası Ermənistanın işğalçı olduğunu qəbul edilmiş dörd qətnamə ilə təsdiq edib. Azərbaycanın öz torpaqlarını düşməndən azad etməsi və “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsini yaratması onun beynəlxalq normalara əsaslanan haqqıdır. Çünki Laçın yolu ilə uzun illər separatçılara silah-sursat daşınıb, bu yoldan diversiya qrupları keçib və ərazilərimiz minalanıb”, - deyə o bildirib.

T.Rzayevin sözlərinə görə, E.Makron yaxşı anlayır ki, Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və onun təsir göstərə biləcəyi dövlət deyil. Belə olan halda Fransa humanitar yardım məsələsini ortaya atmaqla, yeni bir oyun oynayır, Ağdam - Xankəndi yolunu seçməməklə, Laçın yoluna üstünlük verməklə təcavüzkarları qızışdırmağa, Cənubi Qafqazda söz sahibi olmasını, Ermənistanın yanında olduğunu sübut etməyə çalışır. Ancaq bütün bunlar əhəmiyyətsiz gedişlər, beynəlxalq aləmi çaşdırmaq üçün vasitədir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, heç bir təzyiq və təsir bizi tutduğumuz haqq yolumuzdan döndərə bilməz və döndərməyəcək. Ermənistandan çox fransızlar, E.Makron bunu daha yaxşı dərk edir. Ancaq nəslinin kökündə və öz qanında təcavüzkarlıq, zülm, ədalətsizlik olduğu üçün təcavüzkarların yanındadır, işğalçını, zalımı dəstəkləməkdədir. Gen yaddaşı möhkəm olan fransızlardan demokratiya, haqq-ədalət gözləmək əbəsdir. Biz bundan sonra da Emmanuel Makronun və tərəfdarlarının çirkin əməllərinin şahidi olacağıq, ancaq Azərbaycan onların bütün cəhdlərinin qarşısını alacaq.

**AZƏRTAC**
**2023, 2 sentyabr**

**"Əl-Cəzirə" qəzetində Azərbaycan səfirinin ölkəmizin sülh səyləri barədə məqaləsi dərc edilib**

Ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin "Azərbaycanın regionda sülhün və sabitliyin əldə edilməsində rolu" adlı məqaləsi Krallığın "Əl-Cəzirə" qəzetində dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində tarixi Qələbə çaldığı, torpaqlarımızın işğalına son qoyulduğu, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunduğu diqqətə çatdırılıb.

Müəllif yazıb ki, Azərbaycan öz tarixi Zəfərindən qısa müddət sonra Ermənistan tərəfinə hər iki ölkənin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınmasını, habelə münasibətlərin normallaşdırılması üçün əsas prinsipləri və sülh müqaviləsinin imzalanmasını təklif edib. Lakin Ermənistan tərəfi uzun müddətdir ki, Azərbaycanın sülh təşəbbüslərinə cavab vermir və müxtəlif bəhanələrlə prosesi ləngidir.

Məqalədə bu gün Azərbaycanın dünyada mina və partlayıcı qalıqları ilə ən çox çirklənmiş ölkələrdən birinə çevrilməsi, ilkin məlumatlara görə minaların minimum sayının təxminən 1,5 milyon olması, minaların partlaması nəticəsində 300-dən çox azərbaycanlı hərbçi və mülki şəxsin həlak olması və ya ağır yaralanması barədə məlumat verilib. Müəllif qeyd edib ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ ərazisindən çıxarılması və bütün hərbi fəaliyyətlərin dayandırılması ilə bağlı aydın bəndin olmasına baxmayaraq, bu ərazilərdə hələ də qeyri-qanuni erməni qüvvələri var və onlar region üçün böyük təhdid təşkil edir. Yazıda diqqətə çatdırılıb ki, hazırda Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bağlı erməni nümayəndələri açıq və həqiqi dialoqa dəvət olunur, Azərbaycan Konstitusiyasında bütün xalqların hüquq və təhlükəsizliyinə təminat verilir.

Yazıda, həmçinin Azərbaycanın öz sərhədlərinə nəzarəti gücləndirmək və Ermənistanın qanunsuz fəaliyyətinin qarşısını almaq üçün suveren ərazisindəki Laçın şəhərində sərhəd-keçid məntəqəsi yaratması, eyni zamanda, Laçın yoluna alternativ olaraq daha qısa və geniş Ağdam-Xankəndi marşrutu ilə regionu ərzaq və dərmanla təmin etməyi təklif etməsi və bu marşrutdan istifadənin mümkünlüyünün həm Avropa İttifaqı, həm də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən tanınması faktları da yer alıb. Məqalədə 2023-cü il avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin qida ehtiyaclarını ödəmək üçün ərzaq daşınmasını təşkil etməsi, lakin ermənilərin bu ərzaq mallarını Azərbaycan tərəfdən göndərildiyini bəhanə gətirərək almaqdan imtina etməsi, bu cür təxribatlarla, süni humanitar böhranlar nümayiş etdirməklə, Azərbaycana qarşı təzyiq göstərməyə çalışdıqları ilə bağlı məlumatlar da öz əksini tapıb.

Səfir vurğulayıb ki, Qarabağdakı erməni azlığının yeganə yolu Azərbaycan dövlətinin Konstitusiyası və Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində, dinc yanaşı yaşamaq prinsipi əsasında Azərbaycan cəmiyyətinə inteqrasiya etmək və Azərbaycan vətəndaşlığını qəbul etməkdir. Məqalədə bildirilib ki, Ermənistan siyasi kampaniyalara və manipulyasiyalara əl atmaq əvəzinə, öz üzərinə Azərbaycanla sülh danışıqlarının başa çatdırılması və münasibətlərin normallaşdırılması öhdəliyini götürməlidir.

**AZƏRTAC**
**2023, 4 sentyabr**

**Bəhreynin nüfuzlu qəzeti Azərbaycanın sülhsevər siyasətindən yazıb**

Bəhreyn Krallığının ingilis dilində nəşr olunan “The Daily Tribune - News of Bahrain” qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin müəllifi olduğu “Qarabağda erməni təxribatları qarşısında münasibətlərin normallaşmasının kövrək prosesi” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə 44 günlük müharibədə qalib gələn Azərbaycanın Ermənistana beynəlxalq hüququn prinsipləri, o cümlədən ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət prinsipləri əsasında sülh təklif etdiyi qeyd olunub. Müəllif diqqətə çatdırıb ki, Azərbaycan regionda davamlı sülh və sabitliyin bərqərar olmasının tərəfdarıdır və Ermənistanla münasibətlərin normallaşması prosesinə hazırdır. Müharibədən sonra danışıqlar prosesində nikbinliyə baxmayaraq, Ermənistanın təsiri ilə bu mərhələnin dalana dirənmə ehtimalından bəhs edən səfir vurğulayıb ki, hazırda Ermənistan-Azərbaycan sülh danışıqları davam edir. Sülh müqaviləsi üzrə razılaşma yolunda maneələrdən biri də İrəvanın Azərbaycanın ərazi bütövlüyünü açıq və yazılı şəkildə tanımaq istəməməsidir (baxmayaraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu barədə bir neçə dəfə şifahi bəyanatlar verib).

Müəllif yazıda sülh prosesinə mane olan digər səbəblərin aradan qaldırılmasının zəruriliyini də qeyd edib. Buraya Ermənistanın konstitusiya dəyişiklikləri etməsi, etnik-erməni separatçı quruma birtərəfli maliyyə dəstəyini dayandırması, erməni əsgərlərinin İkinci Qarabağ müharibəsinə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtləri ilə müəyyən edilmiş Rusiya sülhməramlı kontingentinin yerləşmə zonasına daxil olan ərazidən çıxarılması da daxildir. Yazıda Ermənistanın beynəlxalq ictimaiyyətə regiondakı mövcud vəziyyətlə bağlı təhrif olunmuş məlumatlar təqdim etdiyi, bununla da İrəvanın münasibətlərin normallaşması prosesini mümkün qədər uzadaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş siyasi proqramını həyata keçirmək üçün vaxt qazanmaq və bu məqsədlə yeni böhranlı vəziyyət yaratmaq istədiyi qeyd edilib.

Səfir Ermənistan tərəfindən təbliğ edilən “blokadanın” və ya “humanitar böhranın” mövcudluğu ilə bağlı bütün əsassız iddiaları qəti şəkildə rədd edib. Məqalədə Ermənistanın istifadə etdiyi “blokada” və “humanitar böhran” ifadələrinin İrəvanın Azərbaycana qarşı apardığı geniş təbliğat və nüfuzdan salma kampaniyasının təzahürü olduğu diqqətə çatdırılıb. Müəllif 2023-cü il aprelin 23-də Azərbaycanın öz suverenliyini və təhlükəsizliyini qorumaq hüququndan istifadə edərək Ermənistanla Azərbaycan arasında dövlət sərhədində - Laçın yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi yaratdığı, bu addımın beynəlxalq hüquq normalarına və ölkəmizin suveren hüququndan irəli gələn mövcud beynəlxalq təcrübəyə uyğun olaraq həyata keçirildiyi vurğulanıb. Yazıda erməni tərəfinin yuxarıda adı çəkilən sərhəd-keçid məntəqəsinin “qanunsuzluğu” və ya onun transsərhəd keçidinin qarşısını alması ilə bağlı iddiaları təkzib edilib və Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) 6 iyul 2023-cü il tarixli qərarı diqqətə çatdırılıb.

Məqalədə Azərbaycan tərəfinin Ermənistanın iddialarının əksinə olaraq, Laçın sərhəd-keçid məntəqəsindən vətəndaşların, malların və nəqliyyat vasitələrinin qanuni, tənzimlənən və şəffaf keçidini təşkil etdiyi və həmin məntəqədən istifadə edən mülki əhalinin sayının xeyli artdığı bildirilib. Müəllif Azərbaycan tərəfinin dəfələrlə Ermənistanı sərhəd və gömrük institutları vasitəsilə insanların, malların və xidmətlərin şəffaf və təhlükəsiz transsərhəd keçidini təşviq edən əməkdaşlığa çağırdığını və bu müraciətlərin cavabsız qalmasının təəssüf doğurduğunu qeyd edib. Eyni zamanda, Azərbaycan Respublikasının humanitar və digər yüklərin Qarabağ bölgəsinə daşınması üçün Ağdam üzərindən Xankəndinə gedən şimal marşrutu kimi alternativ və daha qısa marşrutlara üstünlük verdiyi bildirilib. Bu kontekstdə Avropa Şurasının Prezidenti Şarl Mişelin Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüşün yekunlarına dair bəyanatında Ağdam- Xankəndi yolunun Qarabağ sakinlərinin həyati tələbatlarının adekvat şəkildə ödənilməsini təmin etmək üçün vacib bir marşrut olduğunu vurğuladığı diqqətə çatdırılıb.

Müəllif Ermənistan tərəfinin Ağdam-Xankəndi, Füzuli-Şuşa-Xankəndi yollarına siyasi motivlərlə qarşı çıxdığını, Azərbaycan ərazisində yaratdığı qeyri-qanuni tabeçilik rejimi vasitəsilə malların və xidmətlərin çatdırılmasının qarşısını almaq üçün qondarma ictimai etiraz aksiyaları təşkil etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, bu düşmən davranış etnik nifrətin artmasına şərait yaradır. Ermənistan qeyri-konstruktiv davranışı ilə Azərbaycanın Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyası səylərini sarsıtmağa çalışır. Bununla yanaşı, İrəvan Qarabağ bölgəsinin sadə erməni sakinlərindən öz çirkin məqsədləri - Azərbaycana qarşı etnik və milli zəmində nifrət və ayrı-seçkilik siyasətinin aləti kimi istifadə edir.

Yazıda Azərbaycan Respublikasının öz Konstitusiyasında, həmçinin tərəfdar çıxdığı beynəlxalq mexanizmlərdə təsbit olunmuş bütün müvafiq hüquq və azadlıqlara zəmanət verdiyi, öz sərhədləri daxilində yaşayan etnik ermənilərin rifahı üçün də təminat verməyə hazır olduğu qeyd edilib.

**AZƏRTAC**
**2023, 5 sentyabr**

**Ermənistan "Laçın" dövlət sərhədində buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilmir – ŞƏRH**

Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə tarixə yazıldı. Müstəqillik tariximizin ən parlaq səhifəsinə çevrilən böyük Qələbə nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, dünya ictimaiyyəti xalqımızı mübariz, müzəffər xalq kimi tanıdı.

Bunu AZƏRTAC-a açıqlamasında YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov deyib.

O qeyd edib ki, bu gün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, xalqımızı daha güclü, bayrağımızı daha uca etməyə hədəflənib. Dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimiz yenidən qurulur, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımız evlərinə qayıdırlar. Bu qayıdış soydaşlarımızın təkcə Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə edəcək.

Cari il aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində sərhəd-buraxılış məntəqəsinin qurulması, burada dövlət bayrağımızın dalğalandırılması ölkəmizin sərhədlərinin toxunulmazlığının vacibliyini bir daha dünyaya bəyan etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasətinin şah əsəri 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbə, torpaqlarımızın düşmən işğalından azad edilməsi nəticəsində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addımdır. Məntəqənin qurulması bir daha bütün dünyaya "Biz Azərbaycan dövləti olaraq sərhədlərimizin bütövlüyünü təmin etmək iqtidarındayıq. Bizim torpaqlarımızda olan buraxılış məntəqəsindən ancaq bizim icazəmiz olan, qanunlarımızın icazə verdiyi, imkan yaratdığı, Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edən yüklər keçə bilər" mesajını verdi. Azərbaycan-Ermənistan sərhədində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onu himayə edən qüvvələr, ölkəmizi guya Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Erməni vandalları və onların havadarları bu cür cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirilən təcavüzkar siyasətlərinə fərqli don geyindirməyə çalışırlar. Onlar unudurlar ki, sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir və ölkəmizin daxili işidir.

"Strateji əhəmiyyətə malik "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması 30 il əvvəl azərbaycanlılara qarşı XX əsrin faciəsini törətmiş şəxsin saxlanılmasına səbəb oldu. Eyni zamanda, bu məntəqə yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin, həmçinin separatçıların tərk-silah olunmasında öz sözünü deyəcək və düşmənin növbəti təxribatlarının qarşısını alacaq. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı rəsmi İrəvanın, Fransanın rahatlığını hələ çox pozacaq" – deyə YAP Gəncə şəhər təşkilatının sədri qeyd edib.

**AZƏRTAC**
**2023, 5 sentyabr**

**Mariya Zaxarova: Rusiya humanitar yardımın Ağdam marşrutu ilə maneəsiz çatdırılmasının tərəfdarıdır**

Rusiya regiona humanitar yardımın həm Laçın, həm də Ağdam marşrutları ilə maneəsiz çatdırılmasının tərəfdarıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

Məsələnin lazımsız yerə siyasiləşdirilməməsi barədə çağırış edən M.Zaxarova qeyd edib ki, Avropa İttifaqı bu halda çəkinmədən Rusiya tərəfinin təşəbbüsünü özününkü kimi qələmə verir. Bununla belə Avropa İttifaqının hərəkətlərinin nəticələri ümumilikdə vəziyyətin normallaşmasına gətirmir.

M.Zaxarova, həmçinin qeyd edib ki, İrəvanın bu məsələ ilə bağlı siyasi bəyanatları və ritorikası qəbuledilməzdir.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

**AZƏRTAC**
**2023, 5 sentyabr**

## Qanunsuz erməni silahlıları Ordumuzun Laçın rayonu istiqamətində yeni səngər yolları qazmağa cəhd göstəriblər

Sentyabrın 6-sı saat 12:10 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

**AZƏRTAC**
**2023, 6 sentyabr**

## Orxan Amaşov: Ərzaq məsələsini Ermənistan və Xankəndidəki separatçı rejim siyasiləşdirir

Beynəlxalq hüquq üzrə ekspert, "Temple Garden Chambers" hüquq firmasının məsləhətçisi Rodni Dikson və "Caliber.az" informasiya-analitik portalının siyasi şərhçisi Orxan Amaşov BBC-nin aparıcısı Kristian Freyzerin Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalinin guya "blokada"da qalması barədə təxribatçı suallarını cavablandırıblar.

AZƏRTAC xəbər verir ki, R.Dikson Azərbaycan hökumətinin ona Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru Luis Moreno Okamponun Azərbaycan əleyhinə hazırladığı qərəzli hesabatı və orada Azərbaycana qarşı irəli sürülən ittihamları nəzərdən keçirməyi tapşırdığını vurğulayıb. Bu işi qanunvericiliyə əsasən və ictimaiyyətə açıq bütün faktlar əsasında araşdırdığını deyən hüquqşünas bildirib ki, Okamponun guya Qarabağın erməni əhalisinə qarşı "soyqırımı" törədilməsi ilə bağlı ittihamları əsassızdır və bununla bağlı heç bir sübut yoxdur. Bunu soyqırımı ilə eyniləşdirmək olmaz, çünki Okampo buna dair heç bir sübut təqdim etməyib.

Hüquqşünas söyləyib edib ki, Azərbaycan hökuməti Qarabağın ermənəsilli əhalisinə Ağdam yolu vasitəsilə ərzaq göndərilməsini təklif edir, bu marşrutu Beynəlxalq Qırmızı Xaç Komitəsi və Avropa İttifaqı da dəstəkləyir. "Hesab edirəm ki, özünü ciddi hüquqşünas hesab edən şəxs mülki əhalinin fiziki məhv edilməsi ilə bağlı niyyətin olmasına dair ittiham irəli sürməmişdən əvvəl bu vacib faktları nəzərə almalıdır. Bu, çox ciddi ittihamdır və ərzaq məhsullarının çatdırılması üçün yollar mövcud olduğu halda bunu irəli sürmək olmaz, çünki bunlar bir-birinə zidd olan məsələlərdir", - deyə hüquqşünas bildirib.

O.Amaşov vurğulayıb ki, Azərbaycan hökuməti Ağdam-Xankəndi yolu ilə Qarabağın erməni əhalisinə ərzaq yardımı təklif edib. Beynəlxalq Qırmızı Xaç Komitəsi və Avropa İttifaqı da bu marşrutdan istifadənin mümkünlüyünü qeyd edib. Ərzaq məhsulları Beynəlxalq Qırmızı Xaç Komitəsi kimi müstəqil təşkilatlar tərəfindən bu yolla təmin edilir.

Bildirilib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməni əhaliyə humanitar yük göndərib. Lakin Qarabağın erməni əhalisi bu yardımın qəbul edilməsinə mane olur. Bu yoldan beynəlxalq təşkilatlar istifadə edə bilər. Bu, bir hüquqşünasın mülki əhalinin fiziki məhvi ilə bağlı iddia irəli sürməzdən əvvəl nəzərə almalı olduğu vacib sübutdur. Bu, çox ciddi bir ittihamdır. Ərzaq təminatı üçün yolların mövcud olduğu halda belə bir ittiham irəli sürmək ziddiyyətli fikirdir.

"Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan ermənilərə 40 ton un çatdırmağa çalışır. Lakin bu yük hələ də yolda qalıb və Rusiya sülhməramlı kontingentinin nəzarətində olan əraziyə giriş üçün gözləyir. Sosial şəbəkələrdə yayılan foto və videolardan aydın olur ki, Qarabağda həyatdan zövq alan və heç bir çətinlik çəkmədən yaşayan ermənilər var. Amma təbii ki, ən yaxşı şəraitdə yaşamayanlar da var. Bu problemin həlli üçün Azərbaycan dəfələrlə Ağdam-Xankəndi yolundan istifadə olunmasını təklif edib", - deyə O.Amaşov qeyd edib.

Ərzaq məsələsini Ermənistanın və Xankəndidəki separatçı rejimin siyasiləşdirdiyini vurğulayan siyasi şərhçi bildirib ki, Laçın yolu açıqdır, tibbi yardıma ehtiyacı olanlar və dərman preparatlarının çatdırılması üçün məhdud rejimdə işləyir: "Laçın yolunun böyük yüklərin daşınması üçün niyə uyğun olmaması məsələsi başa düşülməlidir. Çünki bu məsələ ilə bağlı ciddi təhlükəsizlik riski var".

O.Amaşov Azərbaycan tərəfindən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması məsələsinə də toxunub. Bildirib ki, bu məntəqənin yaradılmasının əsas səbəbi Laçın yolundan qanunsuz istifadə olub. Həmin dövrə qədər Laçın yolu ermənilər tərəfindən silah-sursatın daşınması üçün istifadə olunurdu.

Həmçinin qeyd edilib ki, iyunun 15-də Azərbaycan hərbçilərinin atəşə tutulması ilə bağlı insident baş verib, iyulun əvvəlində isə Qarabağ erməniləri Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərdən Qarabağa icazəsiz yük daşımaq üçün istifadə etməyə cəhd ediblər. İyulun 15-də razılıq əldə olunmuşdu ki, həm Laçın yolu, həm də Ağdam-Xankəndi yolu bir-birini tamamlama prinsipinə uyğun işləsin. Daha sonra Ermənistan tərəfi bundan imtina edib.

**AZƏRTAC**
**2023, 6 sentyabr**

**BBC beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirməyə çalışır – ŞƏRH**

Azərbaycanda BBC-nin ofisi 1994-cü ildən fəaliyyət göstərsə də heç vaxt reallığı işıqlandırmayıb və həmişə Ermənistanın separatist siyasətini təbliğ etməklə məşğul olub. Azərbaycan torpaqları 30 il işğal altında olduğu dövrdə BBC heç vaxt öz doğma yurdlarından qaçqın və məcburi köçkün salınmış azərbaycanlılara həsr edilmiş verilişlər hazırlayaraq efirə verməyib. Ermənistanın dağıdaraq viran qoyduğu yaşayış məntəqələrimizlə bağlı real vəziyyəti işıqlandırmaq əvəzinə erməni separatçılığının təbliği qəbulolunan deyil və bu, heç də beynəlxalq media qurumunun nizamnaməsinə uyğun gəlmir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Vətən müharibəsi zamanı Prezident İlham Əliyevdən müsahibə almağa gələn BBC jurnalistinin qərəzini xatırladan deputat fikirlərinə belə davam edib: “Jurnalist dövlətimizin başçısına Şuşadakı kilsənin vurulması ilə bağlı eyni sualı iki dəfə ünvanlasa da ermənilərin dağıdaraq təhqir etdiyi 67 məscidimiz barədə məsələyə heç toxunmadı. Sanki BBC-nin müxbiri Azərbaycan Prezidentini ittiham etməyə gəlmişdi. Lakin Prezident İlham Əliyev çox təmkinlə davranaraq suallara verdiyi əsaslı cavablarla diplomatikcəsinə müxbiri yerində oturtmuşdu. İndi də BBC Qarabağdakı saxta qurumun ildönümü ərəfəsində separatçılara efir vaxtı verir. Mağazanın boş rəfləri qarşısında separatçı Beqlaryandan müsahibə alaraq beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirməyə çalışır. Hətta beynəlxalq platformalarda keçirilən görüşlərdə heç vaxt Dağlıq Qarabağ ifadəsi işlətmədiyi halda BBC bu ifadəni yenidən gündəmə gətirməyə cəhd edir. BBC-nin Azərbaycan ofisinin müxbiri Ağdam yolunda humanitar yardım aparmaq üçün gözləyən Qızıl Aypara Cəmiyyətinin əməkdaşlarından müsahibə alanda qərəzli suallar verir. Sanki bu müsahibə yox, prokurorun apardığı istintaq prosesidir. Sonra da separatçılarla əlaqə saxlanılır və onların saxta yazıq sifətləri dünya auditoriyasına çatdırılır. BBC-nin hazırladığı verilişləri, reportajları izləyənlərdə Azərbaycanın Laçın yolunu bağlanması nəticəsində Qarabağda yaşayan separatçıların aclıqdan ölümlə üz-üzə qaldığı təsəvvürü formalaşır. Britaniyanın dövlət büdcəsindən maliyyələşən BBC kimi beynəlxalq media orqanında separatçılığın təbliği yolverilməzdir. Çünki separatçılıq meylləri bir çox ölkədə, o cümlədən Avropanın özündə də mövcuddur. BBC kimi media orqanlarının ikili standartlardan məsələlərə yanaşması və separatçılığın təbliği dünyanın yeni problemlərlə üzləşməsinə yol açır”.

A.Badamovun sözlərinə görə, Azərbaycana qarşı qərəzli yanaşması BBC-nin ofisinin ölkəmizdə fəaliyyətini davam etdirib-etdirməməsi ilə bağlı məsələni gündəmə gətirir. BBC-yə ölkəmizdəki ofisinin fəaliyyətinin milli maraqlarımıza qarşı olduğu sərt şəkildə bildirilməlidir. Həmçinin Azərbaycana qarşı ikili yanaşmasını dəyişdirməsi, bu günlərdə efirə verilmiş separatçılığı təbliğ edən verilişə görə üzür istəməsi və obyektivliyə əsaslanan fəaliyyət göstərməsi tələb edilməlidir. Ən əsası BBC-yə Azərbaycana qarşı yanaşmasında dəyişiklik etməzsə, onun ölkəmizdəki ofisinin akkreditasiyasının ləğv olunacağı ilə bağlı xəbərdarlıq edilməlidir.

**AZƏRTAC**
**2023, 7 sentyabr**

**Elçin Əmirbəyov: Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır**

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün proses gedir və Avropa İttifaqı, xüsusilə də Prezident Şarl Mişel bu prosesə dəstək göstərir. Lakin Ermənistan bütün dünyada Azərbaycanı günahlandırmaq taktikasını seçərək, sülh prosesində iştirak görüntüsü yaratmağa, status-kvonu saxlamağa və danışıqlarda tərəqqi əldə olunmadığı halda bütün günahı Azərbaycan tərəfinin üzərinə qoymağa çalışır. Lakin Azərbaycan tərəfi sülh prosesinə sadiqdir, Ermənistana sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların yenidən açılmasını təklif edib. Hansısa güzəştə heç bir vəchlə razı olmayan və Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır. Onlar Azərbaycan və digər təşkilatların əraziyə humanitar yardım çatdırmasının qarşısını alan da məhz həmin separatçılardır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyovun Almaniyanın "Deutsche Welle" telekanalı üçün müsahibəsində yer alıb. Azərbaycanın Qarabağ regionunda humanitar vəziyyət və guya Laçın yolunun bağlanması ilə əhalinin ac qalması barədə suala aydınlıq gətirən Azərbaycan rəsmisi bildirib ki, ilk növbədə, Ermənistanın Azərbaycanın 20 faiz ərazisini 30 il ərzində işğalda saxladığını nəzərə almaq lazımdır. Həmçinin Laçın yolunun blokadada olması da doğru fikir deyil, çünki hər iki istiqamətdə Qırmızı Xaç Komitəsinin vasitəsilə insanların hərəkəti, dərman və s. daşınması təmin olunursa, bu zaman blokadadan danışmaq mümkün deyil. Buna baxmayaraq Qarabağda yaşayan insanlar bir qrup separatçının girovuna çevrilib.

Azərbaycan Qarabağdakı əhali ilə ünsiyyət və onların Azərbaycan cəmiyyətinə inteqrasiyasına hazırdır. Laçında məhdud keçid var, Azərbaycan bu vəziyyətə yenidən baxa bilər, eyni zamanda separatçılar əraziyə yüklərin çatdırılması üçün başqa yollardan istifadəyə qarşı çıxmamalıdırlar. Onların Ağdam yolundan imtinasına dair fikri ilə heç də hamı razı deyil.

E.Əmirbəyov qeyd edib ki, Azərbaycan ABŞ, Rusiya və digər ölkələrlə həll yollarının tapılması üzərində işləyir. Əsas iş sülh razılaşmasını əldə etmək, sərhədlərin delimitasiyasına nail olmaqdır. Lakin, təəssüf ki, bütün proses Ermənistanın atdığı addımların əsirinə çevrilir. Aydın olmalıdır ki, yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir.

Guya Qarabağdakı erməni əhalinin genosidə məruz qalmasına dair suala cavab verən E.Əmirbəyov qeyd edib ki, məsələyə beynəlxalq hüquq aspektindən baxılmalıdır və ərazidə baş verənlər bu tip sözlərin əsassız şəkildə istifadə edildiyini göstərir. Sülhün əldə olunması üçün yeganə yol hər iki tərəfin öhdəliklərini yerinə yetirməsindən keçir və Azərbaycan bu prosesi bütün istiqamətlər üzrə aparır. Lakin Ermənistan üçtərəfli Bəyanatın bəzi maddələrini hələ də icra etmir, on min hərbçi və ağır hərbi texnikasını Azərbaycan ərazisində çıxarmır, eləcə də Azərbaycan ərazilərini minalayır. Müharibə cinayətlərində günahkar olan Ermənistan sözdə deyil, əməldə iş görməli, Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.

Müsahibədə, həmçinin bildirilib ki, nə qədər separatçılar Ermənistan ordusu Qarabağda qalır, Azərbaycan üçün təhlükə davam edəcəkdir və dünyanı qondarma humanitar böhranla aldatmaq lazım deyil. Aİ öz fəaliyyətini gücləndirməlidir, çünki əslində, bu il sülh müqaviləsi üzərində işi bitirmək lazım idi, lakin indi əsas fəaliyyət erməni yalanlarını neytrallaşdırmaq və həqiqətin nədən ibarət olduğunu göstərməkdən ibarətdir.

E.Əmirbəyov qeyd edib ki, erməni tərəfi, istər Ermənistan ərazisindən, istərsə də Qarabağda tez-tez atəşkəsi pozur, sərhəddə təxribatlar törədilir. Azərbaycan regionda müharibə istəmir və dünyanın diqqəti sülh prosesinə yönəlməlidir. Ermənistanın saxta təbliğatı, manipulyasiyası və beynəlxalq təşkilatlardan alət kimi istifadəsinə son qoyulmalıdır.

***Elgün Niftəli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vyana***

**AZƏRTAC**
**2023, 7 sentyabr**

**Britaniyanın "Economist" jurnalı Azərbaycan səfirinin cavab məktubunu dərc edib**

Son zamanlar ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasına və əsassız iddialara cavab olaraq Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanovun "Economist" jurnalına ünvanladığı məktub dərc edilib.

Azərbaycanın Britaniyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, cavab məktubunda, əslində, Laçın yolu ətrafında baş verən proseslərin ermənilərin daxili siyasi qarşıdurmasının nəticəsi olduğu qeyd edilir. Radikal və separatçı ermənilər Azərbaycanın Qarabağ bölgəsində erməni əhalini girov tutaraq süni şəkildə yaratdıqları humanitar "fəlakətdən" istifadə etməklə və məsələni siyasiləşdirməklə Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqlarına mane olmağa çalışırlar. Separatçılar tərəfindən Ağdam yolunun bağlanması və Azərbaycanın göndərdiyi humanitar yardımdan imtina edilməsi buna əyani sübutdur.

Eyni zamanda bildirilir ki, separatçıların bu siyasi şousu Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində baş verir.

Həmçinin vurğulanır ki, çoxmillətli ölkə olaraq Azərbaycan digər vətəndaşları kimi yerli ermənilərə bərabər hüquqlu inteqrasiya təklif edir. Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsinin regionda sabitliyin və rifahın yeganə çıxış yolu olduğu vurğulanır.

Əks təqdirdə erməniləri yalnız qeyri-sabitlik və tənəzzül gözləyir.

**AZƏRTAC**
**2023, 7 sentyabr**

**Almaniyanın xarici işlər naziri Ermənistanın davam edən hərbi təxribatları barədə məlumatlandırılıb**

Sentyabrın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Beerbok ilə telefon danışığı aparıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Ermənistan tərəfindən yayılan "gərgin humanitar vəziyyət" və "blokada" iddialarının əsassız olduğunu, bunun Ermənistanın siyasi manipulyasiyasının tərkib hissəsini təşkil etdiyini diqqətə çatdırıb.

Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Ağdam-Xankəndi yolundan və Laçın yolundan yüklərin daşınması üçün sinxronlaşdırılmış istifadənin təşkil edilməsi barədə təkliflərin Ermənistan və yaradılmış qondarma rejim tərəfindən rədd edilməsinin humanitar vəziyyət barədə iddiaların saxta olduğunu sübut etdiyi vurğulanıb.

Postmünaqişə dövründə bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səylərə mane olan Ermənistanın təxribatçı addımlarının, o cümlədən Azərbaycan ərazilərində yaradılmış qondarma rejimi dəstəkləyən bəyanatlarının, Azərbaycan ərazilərindən silahlı qüvvələrinin çıxarılmamasının təhdid mənbəyi olduğu qeyd edilib.

Telefon danışığı zamanı Ermənistanın davam edən hərbi təxribatları, mina təhdidləri barədə qarşı tərəfə müfəssəl məlumat verilib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 8 sentyabr**

**“Veçerni Bişkek” qəzeti Ermənistanın siyasi manipulyasiyaları haqqında məqalə dərc edib**

Qırğızıstanın “Veçerni Bişkek” qəzeti Laçın yolu ətrafında vəziyyət və Ermənistanın siyasi manipulyasiyaları haqqında məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makron ilə telefon danışığı əsnasında Ağdam-Xankəndi yolunun açılmasından sonra Laçın-Xankəndi marşrutunun gömrük və sərhəd rejiminə əməl olunmaqla istifadə ediləcəyi barədə fikirləri yer alıb.

Sonra Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilova istinadla yaranmış vəziyyətin təfərrüatları diqqətə çatdırılıb. Məqalədə vurğulanır ki, Ermənistan Azərbaycan ərazisindən tam şəkildə çıxarmadığı hərbi birləşmələrinin təchizatı və saxlanması imkanlarından məhrum olması, həmçinin təbii ehtiyatların qeyri-qanuni hasilatını həyata keçirməyin mümkün olmadığı reallığı ilə barışa bilmir, bu səbəbdən beynəlxalq ictimaiyyətə yanlış məlumatlar verir. Bu ölkə gərginliyi süni şəkildə artırır, etnik nifrəti təbliğ edərək faktları təhrif edərək, “blokadalar” və “humanitar böhranlar” haqqında yalanlar yaymaqda davam edir. Hadisələrin inkişafı göstərir ki, İrəvan münaqişəyə xarici gücləri cəlb etməyə çalışır və normallaşma prosesini, habelə sülh sazişinin imzalanmasını sonsuzadək uzatmağa cəhd edir.

Azərbaycan diplomatı vurğulayır: “Bu, həmişə gündəmdə olan bir sualdır: Ermənistan niyə vəziyyəti gərginləşdirir, Azərbaycanın sülh təşəbbüslərinə məhəl qoymur? Səbəb ondan ibarətdir ki, Ermənistanın əvvəlki məqsədləri azacıq da dəyişməyib. İrəvan, sadəcə olaraq, daha əlverişli məqamı gözləyir, bunun üçün 30 il ərzində danışıqlar prosesini uzatdığı kimi, indi də məsələni beynəlmiləlləşdirir, imkan yaranarsa, sözdə status məsələsini yenidən gündəmə gətirmək istəyir. Amma bu, heç vaxt baş tutmayacaq”.

Məqalədə qeyd edilir: “Azərbaycan Prezidenti İlham Əliyevin erməni əhalisinin ölkəmizin tamhüquqlu vətəndaşları olması barədə bəyanatına rəğmən Ermənistan bütün dünyaya car çəkir ki, guya Azərbaycan Qarabağın erməniəsilli sakinlərini blokadada saxlayır və orada əsl humanitar böhran mövcuddur. Məhz belə olan vəziyyətdə Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Qarabağın erməniəsilli əhalisinə 40 ton un göndərib. Lakin həmin yük bir həftədən artıqdır ki, Ağdam-Xankəndi yolunda qalıb. Trası bağlayan erməni separatçıları bildirirlər ki, “heç bir vəchlə, hətta acından ölsələr belə”, bu yükü buraxmayacaqlar. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tamamilə düzgün qeyd edib ki, Laçın yolu ətrafında vəziyyət humanitar deyil, siyasi xarakter daşıyır”.

Qırğız nəşrinin məqaləsində deyilir: “Əslində, əgər Xankəndidəki ermənilərin çörəyi yoxdursa, onda cəmi 20 kilometrlik məsafədə gözləyən onlarla ton unu niyə buraxmırlar? Yəni, “Qarabağ ermənilərinin aclıq təhlükəsi ilə üzləşməsi” haqqında saxta erməni təbliğatı tipik siyasi möhtəkirlikdir, onun məqsədi isə Azərbaycana öz əraziləri üzərində tam suverenliyini bərpa etməyə əngəl törətməkdir”.

Lətif Qəndilov qeyd edir: “Beynəlxalq humanitar normalara əsasən, bu və ya digər ölkəyə göndərilən hər hansı humanitar yardım gömrük rüsumlarından azad edilir. Amma Azərbaycan müvəqqəti olaraq Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında yerləşən öz ərazilərində humanitar fəlakətin olduğunu bəyan etməyib. Müvafiq olaraq, Bakı xaricdən humanitar yardımın göstərilməsinə çağırmayıb. Xankəndidə olan separatçı rejimin nümayəndələrinin sözdə “humanitar böhran” haqqında bəyanatlarına gəldikdə, onların heç bir əsası yoxdur, çünki Azərbaycan Ağdam-Xankəndi yolu ilə tədarükləri həyata keçirməklə, Qarabağ ermənilərini fasiləsiz olaraq zəruri olan hər şeylə təmin etməyə hazırdır”.

Onun sözlərinə görə, Bakının tələbləri aşağıdakılardan ibarətdir: Qarabağın erməniəsilli sakinlərinin Azərbaycanın hüquqi məkanına reinteqrasiyası prosesini başlamaq zəruridir, bu, Xankəndidəki separatçı rejimin, həmçinin Ermənistanın birbaşa maliyyələşdirdiyi qeyri-qanuni hərbi birləşmələrin ləğv edilməsi ilə müşayiət olunmalıdır.

Səfir sonda deyib: “Daha bir mühüm, hətta çox vacib məqam ondan ibarətdir Laçın yolu haqqında danışanda, Naxçıvana yolun açılması məsələsini ümumiyyətlə unutmağa çalışırlar. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulub: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir”.

**AZƏRTAC**
**2023, 8 sentyabr**

**Regionda sabitliyin pozulması məsələsində Ermənistan tək deyil – ŞƏRH**

Ermənistanın ötən ilin sentyabr ayında törətdiyi genişmiqyaslı təxribatları fonunda son günlər mütəmadi şəkildə atəşkəsi pozması faktiki olaraq danışıqları dalana dirəyib. Paralel olaraq Ermənistanın təxribatları siyasi müstəvidə də pik həddə çatıb. Baxmayaraq ki, ABŞ-ın və Avropa İttifaqının (Aİ) görüş təşəbbüsləri və mövcud razılaşmaları Ermənistan tərəfindən hər zaman sabotaj olunub. Ancaq ümumi bir tendensiya belə idi ki, hərbi təxribatlar daha öncə iki ölkə başçılarının və ya XİN rəhbərlərinin görüşləri öncəsi və müzakirələri nəzərdə tutulan günlər həyata keçirilirdi. Son həftələr isə Ermənistan aktiv tərzdə, demək olar ki, hər gün hərbi təxribata əl atır. Buna paralel olaraq isə erməni lobbisi bütün dünyada ölkəmiz əleyhinə informasiya müharibəsini genişləndirib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Gənc Demokratlar İnstitutu İctimai Birliyinin sədri, politoloq Yeganə Hacıyeva söyləyib.

Politoloqun sözlərinə görə, “Xankəndidə çətin humanitar vəziyyət”, “blokada”, yalançı soyqırımı kimi informasiya təxribatları, dezinformasiyalar erməni lobbisi və havadarları tərəfindən ABŞ-ın və Avropanın qlobal yayım təsisatlarından bütün dünyaya tirajlanır. Bu gün Qərb media təsisatları Ermənistanın yalançı blokada və soyqırımı tezisləri ilə medianın geniş alətlərindən və ictimai institutların imkanlarından istifadə edərək iki ölkə arasında düşmənçiliyin qızışdırılmasında iştirak edirlər. Artıq bir neçə aydır davam edən bu qlobal yalan təbliğatı sovetlər dövründə soyuq müharibənin bütün elementlərini özündə cəmləyərək hərbi məqsədlərə xidmət edən xüsusiyyətlərə malikdir. İstər rəsmi İrəvanın, istərsə də erməni lobbisinin və havadarlarının Qərb mediasında məqsədyönlü formada yalan məlumatlar yayması mərkəzləşdirilmiş şəkildə həyata keçirilən informasiya təxribatıdır.

“Diplomatik təzyiqlər haqqında danışırıqsa, Azərbaycan “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsini yaratmaqla öz sərhədlərinə nəzarəti gücləndirdi və erməni təxribatlarının qarşısını aldı. Ölkəmizin bu fəaliyyətini əhəmiyyətsiz göstərmək üçün Ermənistan və havadarları “humanitar yük” adı ilə Azərbaycanın suveren ərazisinə TIR karvanları göndərərək öz məqsədlərinə çatmaq istəyirlər. Bundan əlavə, Ermənistan rəsmiləri və onların Fransa kimi havadarları belə diplomatik təxribatlarla prosesi erməni maraqları naminə dəyişilə biləcəyi mesajlarını səsləndirirlər. Bunu ona görə diplomatik təxribat adlandırırıq ki, diplomatiya başqa ölkədəki həmkara istiqamətlənmiş və proseslərin həllinə hədəflənmiş rabitədir. Lakin nümunə üçün Fransanın addımları prosesin həllinə töhfə verəcək addımlar deyil, erməni ictimaiyyətinin ideoloji ruhlanmasına ünvanlanan monoloqlardır.

Azərbaycanın cavab reaksiyasına hesablanan bu hərbi təxribatlar isə qısamüddətli və uzunmüddətli məqsədlərə hesablanıb. Bu cür təxribatlarla göstərməyə çalışılır ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Orta Dəhlizlə bağlı təklifləri aktual deyil və regionda təhlükə mövcuddur. Şimal-Cənub nəqliyyat dəhlizi isə Rusiya-Ukrayna müharibəsi, eyni zamanda, İranın nüvə ambisiyaları və son dövrlər qonşularına münasibətində təcavüz siyasətinin nəticəsi olaraq arzuolunmazdır. Bu halda isə Cənubi Qafqazdan keçən və Azərbaycanın regionun stabilliyi üçün formalaşdırdığı Orta Dəhliz təklifi xüsusilə diqqəti çəkir. Bütün bunların fonunda artıq Cənubi Qafqazda sabitlik sadəcə regionun yox, bütövlükdə Avrasiyanın təhlükəsizliyinin vacib elementi kimi qəbul edilə bilər”, - deyə Y.Hacıyeva vurğulayıb.

O əlavə edib ki, regionda sabitliyin pozulması məsələsində Ermənistan tək deyil, proseslərin gözlə görünən və görünməyən oyunçuları var. Bütün bunları nəzərə alan Azərbaycan daxildə və sərhəd bölgəsində təhlükəsizliyi təmin etmək üçün lazımi addımları atır. Bu da ölkəmizin beynəlxalq hüquqla təsbit olunmuş legitim haqqıdır. Ona görə də Ermənistanın istənilən hərbi təxribatlarının, törətdiyi eskalasiyalarının cavabı adekvat şəkildə verilir və veriləcək.

**AZƏRTAC**
**2023, 8 sentyabr**

## Xarici İşlər Nazirliyi: Ermənistan Laçın yolundan qanunsuz hərbi məqsədlər üçün istifadə edib

Ermənistan Laçın yolundan təxminən iki il yarım ərzində qanunsuz hərbi və digər məqsədlər üçün istifadə edib. Bu istiqamətdə bizim heç bir çağırışımıza məhəl qoyulmayıb və Azərbaycanın legitim və faktlara əsaslanan narahatlığını aradan qaldırmaq üçün heç bir tədbir görülməyib. 2023-cü il aprelin 23-də Azərbaycan bu yoldan sui-istifadə hallarının qarşısının alınması, eyni zamanda, sərhəddən hüquqi, şəffaf və tənzimlənən keçidin təmin edilməsi məqsədilə dövlət sərhədində sərhəd-buraxılış məntəqəsi təsis edib. Bütün ittihamlara baxmayaraq, sərhəd-buraxılış məntəqəsi çox həssas şəraitdə nümunəvi şəkildə fəaliyyət göstərib.

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 8-də xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun iştirakı ilə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün keçirilən brifinqdə məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan sərhəddən maneəsiz keçidin təmin edilməsi üçün müvafiq dövlət qurumları, o cümlədən gömrük və sərhəd xidmətləri arasında işçi təmasların yaradılması ilə bağlı Ermənistan tərəfinə dəfələrlə müraciətlər ünvanlayıb. Lakin bu müraciətlərə münasibətdə heç bir qarşılıq nümayiş olunmayıb.

“Ermənistan isə Azərbaycanın öz sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etmək hüququna etirazlarına davam edib, bu istiqamətdə Beynəlxalq Ədalət Məhkəməsi və digər instansiyalardan sui-istifadə etməyə çalışıb. Yerli erməni sakinlər tərəfindən sərhəd-buraxılış məntəqəsindən istifadənin intensivləşməsi fonunda bütün bu cəhdlərində uğursuzluğa düçar olmuş Ermənistan iyunun 15-də açıq hərbi təxribat törədib. Bu təxribatla, sərhəd-buraxılış məntəqəsindən keçən sakinləri və əvvəlcədən planlaşdırılan tibbi evakuasiya əməliyyatı üçün yaxınlıqda olan BQXK əməkdaşlarını riskə atıb. Bu təxribatdan sonra BQXK-nın avtomobillərindən qaçaqmalçılıq məqsədilə istifadəyə cəhd göstərilib. Bu fakt BQXK tərəfindən də təsdiqlənib”, - deyə brifinqdə vurğulanıb.

**AZƏRTAC**
**2023, 8 sentyabr**

**Ceyhun Bayramov: Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri bölgədə əsas təhdid mənbəyidir**

Sentyabrın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borel ilə telefon danışığı aparıb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıq perspektivləri, bölgədə cari vəziyyət və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov regiondakı son vəziyyət barədə Azərbaycanın mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Ermənistanın davam edən hərbi-siyasi təxribatlarının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı bəyanatlarının bölgədə sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb. Ermənistanın bu təxribatlarının qarşısının alınmasının vacib olduğunu qeyd edib.

Ermənistanın Laçın yolundan təxminən iki il yarım ərzində qanunsuz hərbi və digər məqsədlər üçün sui-istifadəni davam etdirməsi barədə ətraflı məlumat verilərək, hazırda heç bir əsas olmadan “bölgədə humanitar vəziyyət” barədə yaydığı iddiaların siyasi manipulyasiya olduğu bildirilib. Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından, eyni zamanda, yüklərin daşınması barədə əldə edilmiş razılığa baxmayaraq, bu razılıqların pozulmasının və daşınmalara qarşı törədilən maneçiliyin bunu bir daha sübut etdiyi diqqətə çatdırılıb.

Azərbaycan ərazilərindən hələ də çıxarılmayan və Ermənistan tərəfindən birbaşa dəstəklənən erməni silahlı qüvvələrinin bölgədə əsas təhdid mənbəyi olduğu vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 8 sentyabr**

## Deputat: Cənubi Qafqazda sülhün təmini prosesi qlobal miqyasda diqqət mərkəzindədir

Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlıdır. Lakin Ermənistanın və onun havadarlarının davranışları dayanıqlı sülhün əldə olunmasına imkan vermir. Son zamanlar isə guya Laçın-Xankəndi yolunun bağlı olması və Qarabağ ermənilərinin "blokada şəraitində" qalması barədə iddialar səsləndirilir. ABŞ Dövlət katibi Antoni Blinkenin sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngində də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

O qeyd edib ki, Prezident İlham Əliyev telefon söhbəti zamanı prinsipial mövqeyini bir daha ABŞ rəsmisinin diqqətinə çatdırıb. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yoldan yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Artıq hamıya məlumdur ki, ermənilərin davranışları siyasi manipulyasiyadan başqa bir şey deyil. Əgər həqiqətən "humanitar böhran" varsa, yardımların onlar üçün hansı yolla çatdırılmasının fərqi olmamalıdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yükləri çatdırılsa da 10 gündür ki, qanunsuz separatçı rejim bundan imtina edir, humanitar yardımların dinc əhaliyə çatdırılmasına imkan vermir. Prezident İlham Əliyevin dediyi kimi, dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır. Digər tərəfdən, Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər.

Sevinc Fətəliyevanın sözlərinə görə, Ermənistan tərəfindən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısına Azərbaycanla razılaşdırmadan humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Prezident İlham Əliyev bu məqamı da Antoni Blinkenin diqqətinə çatdırıb. Dövlətimizin başçısı Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət edilməsinə baxmayaraq, onların bundan imtina etdiklərini xatırladıb.

"Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən proses qlobal miqyasda diqqət mərkəzindədir. ABŞ da bölgədə sülhün təmin olunması üçün maraqlı görünür. Bu dövlətin Azərbaycanla Ermənistan arasında münasibətin normallaşdırılması prosesində fəal vasitəçiliyi də bunu təsdiqləyir. Təsadüfi deyil ki, sülh sazişi üzrə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin indiyədək keçirdiyi altı görüşdən üçü məhz ABŞ-da baş tutub. Telefon söhbəti zamanı Antoni Blinken sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb. ABŞ-ın bu mövqeyi təqdirəlayiqdir. Lakin ABŞ Ermənistana qeyri-konstruktiv mövqeyindən əl çəkməsi üçün təzyiq göstərməlidir. Vaşinqtonun bunun üçün kifayət qədər imkanları var", - deyə Sevinc Fətəliyeva diqqətə çatdırıb.

**AZƏRTAC**
**2023, 9 sentyabr**

**Ermənistanın təxribatçı hərəkətlərinə onların anladığı dildə cavab veriləcək – ŞƏRH**

Ermənistanın, eyni zamanda, Qarabağdakı separatçı qüvvələrin son dövrlərdə təxribatlarının daha da intensivləşdirdiyini və miqyasını genişləndirdiyini müşahidə edirik. Bu da ondan xəbər verir ki, Ermənistanın sülhlə bağlı hər hansı niyyəti yoxdur. İkinci Qarabağ müharibəsindən ötən üç ildə müəyyən platformalarda sülhlə bağlı imitasiya xarakterli çıxışlar edilsə də, reallıqda bunun tamamilə əksinə hərəkətlərin şahidi oluruq. Ötən müddətdə Ermənistan manipulyasiya edərək ehtiyatda olan hərbçiləri qısamüddətli təlim adı ilə orduya cəlb edib. Uzunmüddətli təlimlər üçün minlərlə şəxsi heyət orduya çağırılıb. Onların yenidən hərbi təlimlərə cəlb edilərək hazırlaşdırılması Ermənistanın daha çox revanşa hazırlaşdığını göstərir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında hərbi ekspert Azər Bayramov söyləyib.

A.Bayramov bildirib ki, Ermənistanın məramını aydın şəkildə görmək üçün sərhəddə baş verənlərə nəzər salmaq kifayətdir. Belə ki, Ermənistanın beş ordu korpusuna yaxın hərbi qüvvəsinin dördü Azərbaycanla şərti həmsərhəd bölgəyə cəmlənib, eyni zamanda, həmin o korpusların ehtiyat qüvvələri də sərhədimizə doğru irəliləyir və yerləşdirilir.

"Bir neçə ay bundan əvvəl də Laçın rayonu istiqamətində Ermənistanın hərbi baza yerləşdirdiyini videomaterallardan görmüşdük. Bu da ondan xəbər verir ki, Ermənistan prosesə uzun müddətdir hazırlaşır. Nəzərə almalıyıq ki, bununla da paralel olaraq hücum təyinatlı silahların sərhədlərimizə doğru yaxınlaşdığını müşahidə edirik. Bura isə uzaq məsafəni vura bilən haubitsalar, "Smerç" yaylım atəşli reaktiv sistemləri daxildir. Bunun hər biri bizim üçün ciddi şəkildə təhdid törədir. Laçın rayonu istiqamətində ötən gün ərzində yaxınlaşma səngərlərinin qazılması Ermənistanın daha ciddi təxribatlara hazırlaşdığının xəbərçisidir. Həmin səngərlərin qazılması əsasən hücum zamanı həyata keçirilir. Buradan da açıq-aydın şəkildə Ermənistanın, eyni zamanda, separatçı rejimin niyyəti məlum olur. Əlbəttə, Ermənistan bu məsələdə tək deyil. Havadarlarının da bu işdə onlara dırnaqarası verdiyi dəstək, eyni zamanda, ümidlər, mütləq şəkildə Ermənistanı belə genişmiqyaslı təxribat törətməyə həvəsləndirir və ümidləndirir. Əlbəttə ki, bir çox məsələdə Ermənistan və onun havadarları yanılırlar. Çünki regionda yeni geosiyasi vəziyyət formalaşıb və bunu da Azərbaycan və Türkiyə birliyi yaradıb. Bizə qarşı istənilən təxribatın qarşısı mütləq şəkildə alınacaq və bunun Ermənistan üçün çox ağır nəticələri olacaq. Baş verən vəziyyətdən də və onun nəticəsindən də yalnız Ermənistan və separatçı rejimin rəhbərliyi, onlara bu işdə havadarlıq edənlər cavabdehlik daşıyırlar.

Əlbəttə ki, Ermənistanın İkinci Qarabağ müharibəsindən sonra hər hansı nəticə çıxarmadığını açıq-aydın şəkildə görürük. Elə hesab edirəm ki, Azərbaycan daim bu problemin həllini humanist mövqedən həll etməyə çalışsa da Ermənistan bizim yanaşmamıza qarşı riyakarlıqla cavab verir. Təcavüzkar ölkənin təxribatçı hərəkətlərinə qarşılıq olaraq onların anladığı dildə adekvat cavab tədbirləri görüləcək", - deyə hərbi ekspert fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 9 sentyabr**

**Ermənistan törətdiyi hərbi təxribatları Azərbaycanın adına yazmağa çalışır – ŞƏRH**

Son aylar ərzində zəncirvari formada baş verən təxribatların müqayisəli təhlili deməyə əsas yaradır ki, Ermənistan xarici havadarlarının dəstəyinə söykənərək, 44 günlük Vətən müharibəsində itirdiklərinə görə qisas almaq niyyətinə düşüb. İşğalçı dövlət bu istəklərini reallaşdırmaq üçün böyük bir təxribat planı hazırlayıb. Həmçinin Ermənistan real döyüş meydanında Azərbaycanla qarşılaşmaqdan qorxduğu üçün öz istəklərini təxribatlar formasında realizə etməyə çalışır. Ermənistan Silahlı Qüvvələrinin qoşun hissələrinin Azərbaycanla delimitasiya olunmamış dövlət sərhədində, Qarabağ bölgəsinə yaxın ərazilərdə, həmçinin Naxçıvan Muxtar Respublikası istiqamətində cəmləşdirilməsi də bu ölkənin hərbi təxribatlara əsaslanan planının tərkib hissəsidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli söyləyib.

“Nəzərə almaq lazımdır ki, müasir müharibələr hibrid və ya asimmetrik modeldə həyata keçirilir. Yəni, müharibələr döyüş meydanları ilə yanaşı, həm də diplomatiya və informasiya savaşı formasında reallaşdırılır. Ermənistanın diplomatik platformalarda və informasiya savaşı müstəvisində Azərbaycana qarşı həyata keçirdiyi destruktiv siyasətini onun sərhəd xəttində törətdiyi hərbi təxribatları ilə uzlaşdırsaq görərik ki, hazırda bu dövlət Azərbaycana qarşı tammiqyaslı asimmetrik müharibə aparır. Belə ki, bu prosesdə Ermənistanın hiyləgər, riyakar davranışlarının elementləri görünür. Onlar öz təxribatları ilə Azərbaycanı hərbi əməliyyatlara sövq edir. Yəni, Azərbaycanı öz sərhədlərini qorumaq üçün hansısa cavab addımları atmaq məcburiyyətində qoyur, yekunda isə Ermənistan sərhəddə yaşanan təxribatları dövlətimizin adına yazmağa çalışır. Eyni zamanda, təsir dairələrində olan transmilli KİV-lərdən faydalanaraq, mövzu üzrə yalançı, uydurma informasiyalar yayırlar. Beynəlxalq ictimaiyyəti inandırmaq istəyirlər ki, yeni müharibə təşəbbüsü Azərbaycandan qaynaqlanır.

“Erməni şəbəkəsi”nin Laçın-Xankəndi yolu üzərində qurduqları oyunlar da bu planın tərkib hissəsidir. Onlar Laçın yoluna dəhliz statusu verilməsini, Ermənistanın bu yolda sərbəst hərəkət imkanları qazanmasını, bölgədəki separatçılarla vasitəsiz kommunikasiya qurulmasını istəyirlər. Bunun üçün ermənilər cari ilin iyul-avqust ayları ərzində təkidli tələblərlə çıxış etdilər. Öz hərəkətlərinə bəraət qazandırmaq üçün Qarabağ regionunda “humanitar böhran” yaşanması barədə yalançı iddialar irəli sürərək qlobal kampaniya həyata keçirdilər. Beynəlxalq ictimaiyyətin diqqətini bu mövzuya yönəltmək üçün iyulun 27-də “Qarabağa humanitar yük daşımaq” adı altında 19 maşınından ibarət karvanı “Laçın” dövlət sərhəd-buraxılış məntəqəsinə göndərdilər. Avqustun 16-da isə “Laçın dəhlizi” mövzusunu BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxardılar, Azərbaycana qarşı sanksiyalar tətbiq etdirməyə çalışdılar. Buna baxmayaraq, Azərbaycan faktlarla sübut etdi ki, Qarabağ regionunda hər hansı humanitar böhran yaşanmır. Laçında süni yaradılmış gərginlik isə bu məntəqənin 2023-cü il iyunun 15-də Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması, Azərbaycan əsgərinin yaralanması ilə bağlı olub. Yəni, məsələnin kökündə Ermənistanın təxribatçı və təhrikçi hərəkətləri dayanır”, - deyə ekspert qeyd edib.

O bildirib ki, Ermənistanın hiyləgərlik və riyakarlıq üzərində qurulmuş “qisas planı”nın daha bir elementini ölkənin baş naziri Nikol Paşinyan üzə çıxardı. Belə ki, sentyabrın 2-də Ermənistanda qondarma “Artsax Respublikasının müstəqilliyinin 32 illiyi”nin qeyd edilməsinə təşəbbüs göstərildi. Qondarma “Artsax Respublikası”na “Müstəqillik günü təbriki” göndərənlər sırasında Ermənistanın baş naziri Nikol Paşinyan da var idi. Hansı ki, iyulun 25-də açıqlama verib Azərbaycanın 86,6 min kvadrat kilometrlik ərazisi daxilində Qarabağ regionunu da tanıdığını deyən Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 2-də qondarma “DQR xalqını” müstəqillik günü münasibətilə təbrik etməsi onların paradoksal davranışlarını ifşa etmiş oldu. O, bu davranışla guya sülh danışıqları prosesinə töhfə verdiyini göstərməyə çalışmışdı. Nəticə olaraq bu qənaət yaranır ki, Ermənistan təmsilçiləri beynəlxalq ictimaiyyətə sülhlə bağlı bir söz deyirlər, gerçəklikdə isə fərqli davranırlar.

Bu faktlara əsaslanıb demək olar ki, son aylar ərzində Ermənistanla Azərbaycan arasında gərginliyin və sərhəddə təxribatçı əməllərin artmasının, sülh danışıqlarının pozulmasının səbəbkarı Ermənistandır. Onlar 44 günlük Vətən müharibəsində itirdiklərinə görə qisas almaq məqsədilə təxribatlar törədirlər. Amma məsuliyyəti Azərbaycanın üzərinə atmaqla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Azərbaycan isə öz məntiqli hərəkətləri ilə həm düşmənin təxribatçı əməllərinə layiqli cavab verir, həm də ermənilərin hiyləgər simasını ifşa edir.

**AZƏRTAC**

**2023, 9 sentyabr**

## Bəzi xarici qüvvələrin "fəaliyyəti" Rusiyadan gələn humanitar yük avtomobilinin Bərdədə gözləməsinə səbəb olur – Politoloq

Sentyabrın 9-da Rusiya Qızıl Xaç Cəmiyyətinin avtomobili (RQXC) Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədilə daşıdığı yükü Ağdam-Əsgəran yolu vasitəsilə Xankəndi şəhərinə çatdırmaq üçün yola çıxmışdı. Humanitar yükün bu gün Ağdamdan Ağdərə istiqamətinə keçidi nəzərdə tutulmuşdu. Hazırda yük avtomobili Bərdədə dayanıb və giriş üçün icazə gözləyir. Gözləmənin və gecikmənin səbəbi kimi separatçıların bəzi tələbləri, eyni zamanda, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) müəyyən təzyiqləri ola bilər. Bu da hazırda regionda gedən geosiyasi mübarizənin daha bir təzahürüdür.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Dövlət İdarəçilik Akademiyasının müşaviri Zaur Məmmədov söyləyib.

Onun sözlərinə görə, Azərbaycan ilk gündən Qarabağ regionuna gediş-gəlişin ərazimiz vasitəsilə olmasını təklif etmişdi. Lakin Fransa təxribat törədərək humanitar avtomobilləri məhz Ermənistan vasitəsilə göndərdi.

BQXK da Bakının tələblərinə məhəl qoymayaraq Xankəndi ofisini İrəvan ofisinə uyğunlaşdırdı. Dünən Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borelin xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığında "Laçın yolu dərhal açılmalıdır" kimi çağırışı da ölkəmizə qarşı eyni ritorikanın davamıdır.

Yuxarıda sadalanan faktlar fonunda Rusiya Qızıl Xaç Cəmiyyəti Samur-Bakı, Bakı-Bərdə, Ağdam və Əsgəran vasitəsilə yükün Qarabağa daxil olması ilə bağlı Azərbaycanla razılığa gəlmişdi. Separatçıların yeni liderinin Rusiyaya yaxın olmasını nəzərə alsaq, humanitar yükün daxil olması üçün Ağdərə beton şitlərindən və bir qrup insandan təmizlənməli idi. Lakin separatçıların istəkləri və bəzi xarici qüvvələrin "fəaliyyəti" Rusiyadan gələn humanitar yük avtomobilinin Bərdədə gözləməsinə səbəb olur.

"Qarabağ ermənilərinin istəyi Laçın yolunun açılmasıdır və bunun RQXC-nin göndərdiyi humanitar yüklə heç bir əlaqəsi yoxdur. Çünki bunun üçün əvvəlcə Laçında ölkəmizin tələbləri yerinə yetirilməli və Xankəndinin Azərbaycana reinteqrasiyasına start verilməlidir. Mümkün mülahizələr ondan ibarətdir ki, Ağdam-Xankəndi yolunun açılması tələblərdən, sadəcə, biridir. Bu yolun real açılışı bir yük avtomobilinin keçidi ilə baş tutmuş sayıla bilməz. Laçın yolunun açılması üçün Ağdam-Xankəndi yolu tamamilə funksional olmalı, Laçına giriş Azərbaycan qanunvericiliyinə uyğun aparılmalıdır. Qarabağda erməni sakinlər vətəndaşlıq almalı və ya müvəqqəti qeydiyyata düşməlidirlər. Həmçinin Qarabağa giriş-çıxış miqrasiya və vətəndaşlıq qanunvericiliyi əsasında aparılmalıdır. Oradakı erməni sakinlər sahibkarlıq fəaliyyəti üçün ədliyyə və vergi reyestrlərindən keçməlidirlər", - deyə Z. Məmmədov bildirib.

**AZƏRTAC**
**2023, 10 sentyabr**

## Beynəlxalq Qırmızı Xaç Komitəsi Qərbin əlində siyasi manipulyasiyalar üçün alətə çevrilib – RƏY

Prezident İlham Əliyevin mövqeyi dəyişməzdir və dediyi hər bir söz həmişə reallığa çevrilib. Ermənistan torpaqlarımızı 30 il işğal altında saxladığı dövrdə dövlətimizin başçısı bütün beynəlxalq tədbirlərdə suveren ərazilərimizin bütövlüyü ilə bağlı məsələnin müzakirə mövzusu olmadığını və xalqımızın heç vaxt torpaqlarımızın işğalı ilə barışmayacağını bildirirdi. Amma beynəlxalq ictimaiyyət münaqişənin müharibə yolu ilə həllinin olmadığını bildirərək torpaqlarımızın Ermənistan tərəfindən işğalını əbədiləşdirməyə çalışırdı. Üç il əvvəl isə Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz 44 gündə döyüş meydanında torpaqlarını işğaldan azad etməklə Ermənistan-Azərbaycan münaqişəsinin hərbi-siyasi yolla həll oluna biləcəyini sübuta yetirdi. O cümlədən Qələbədən sonra müharibənin bitdiyini elan etməyimiz digər məsələlərin siyasi yollarla həlli üçün yaratdığımız imkandır. Amma Ermənistan müharibənin başa çatdığı ilk dövrdə razılaşmalara əməl etdiyini nümayiş etdirsə də, sonradan bununla, əslində, vaxt qazanmaq üçün çalışdığını göstərdi. Belə ki, Ermənistan silahlı qüvvələri şərti sərhəddə, qanunsuz dəstələr isə Qarabağ iqtisadi rayonunda gərginliyi artırdı, mütəmadi olaraq mövqelərimizi atəşə tutdu.

Eyni zamanda, aprelin 15-də “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsində ermənilər tərəfindən hərbçilərimizə atəş açılmasından sonra Laçın yolu Ermənistandan daşımalar üçün bağlandı.

Dövlətimiz isə yenə də humanistlik göstərərək Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) vasitəsilə “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsindən xəstələrin və həyat üçün vacib olan vasitələrin daşınmasına icazə verdi. Ermənistan isə Laçın yolunun qarşısında Azərbaycanın icazəsi olmadan Fransanın avtomobil karvanını yığaraq saxta humanitar şou yaratmaqla beynəlxalq ictimaiyyəti regiona cəlb etməyə çalışdı, bununla da əvvəllər əldə olunmuş razılaşmalara kölgə saldı. Azərbaycan isə bəyan etdi ki, Laçın yolu ancaq Ağdam –Xankəndi yolunun tam açılışından sonra fəaliyyət göstərə bilər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat qeyd edib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) təşkilatçılığı ilə ilkin olaraq 40 ton undan ibarət humanitar yardım Xankəndiyə çatdırılması üçün Ağdam yolu ilə göndərildi. Artıq 13 gündür ki, separatçılar Ağdam-Əsgəran yolu vasitəsilə yardımı qəbul etməyəklərini bildirərək, Laçın yolunun açılmasını istəyirlər. Bununla əlaqədar Fransa Prezidenti Emmanuel Makron və ABŞ dövlət katibi Antoni Blinken də Prezident İlham Əliyevlə telefon əlaqəsi saxladı və Laçın yolu ilə bağlı məsələ müzakirə olundu. Prezident İlham Əliyev A.Blinkenə və E.Makrona Azərbaycanın dəyişməz mövqeyini bir daha izah etdi, Laçın yolunun ancaq Ağdam-Xankəndi yolu açılandan sonra ölkəmizin qanunlarına uyğun fəaliyyət göstərə biləcəyini bildirdi.

"Sentyabrın 9-da Rusiya Qızıl Xaç Cəmiyyəti (RQXC) və Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) arasındakı razılaşmaya uyğun olaraq bir yük avtomobili Xankəndiyə göndərilmək üçün Samur sərhəd-keçid məntəqəsindən keçərək Ağdam-Əsgəran yoluna istiqamətləndi. Bu yüklər Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndiyə çatdırılmalı idi. Amma Rusiya QXC-nin yükü də Ağdam yolunda gözləyir və buraxılmır. Bu o deməkdir ki, yüklərin daşınması üçün hansı ölkələrə aid olması əsas şərtdir. İlk baxışda humanitar təşkilatların eyni Konvensiya altında fəaliyyət göstərdiyi görünsə də, reallıqda selektiv yanaşmalar mövcuddur və Xankəndiyə humanitar yükü göndərdiyinə görə Rusiya QXC-yə təzyiqlər göstərilir. Bu, bir daha Beynəlxalq Qırmızı Xaç Komitəsinin əsl məramını üzə çıxarır. Biz bunu 44 günlük Vətən müharibəsi zamanı da müşahidə etmişdik. O vaxt BQXK erməni silahlılarını Füzulidən çıxarmağa cəhd göstərmiş və kəşfiyyat məlumatları toplayaraq düşmənə ötürmüşdü. Müharibə başa çatandan sonra da BQXK Ermənistandan Xankəndiyə intensiv şəkildə daşımalar həyata keçirirdi. Amma bu yüklər yoxlanılmadığından avtomobillərdə nələrin daşındığı suallar doğurur.

İndi də BQXK Xankəndiyə “ancaq Ermənistandan humanitar yüklərin daşına bilər” kimi fikir ortaya qoyur. Bu, humanitar yardımlarla bağlı neytral fəaliyyətlə məşğul olmalı olan beynəlxalq təşkilatın siyasi məsələlərdə alətə çevrildiyinin sübutudur. Əgər BQXK-nın məramı ehtiyacı olan insanlara humanitar yardımın göstərilməsindən ibarətdirsə, onun hansı istiqamətdən gətirilməsinin nə əhəmiyyəti var? Amma hadisələrin inkişafı bir daha sübut edir ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi Qərbin əlində siyasi manipulyasiyalar üçün alətə çevrilib. BQXK-nın ofisi birmənalı şəkildə bilməlidir ki, hətta Ağdam-Xankəndi yolu açıldığı təqdirdə belə onlar öz emblemi altında əvvəllər olduğu kimi çirkin niyyətlərini davam etdirə bilməyəcəklər",- deyə A.Badamov vurğulayıb.

O əlavə edib ki, Ağdam–Xankəndi yolunun açılması heç də bizi torpaqlarımızda separatçı rejimin mövcudluğunun qarşısını almaq fikrindən daşındırmır. Sentyabrın 9-da qondarma qurumda "seçkilər"in keçirilməsi Azərbaycan Konstitusiyasına ziddir. Həmçinin dünya ictimaiyyəti də "seçkilər"in legitim xarakter daşımadığını bəyan etdi. Xankəndi Azərbaycanın suveren ərazisidir və bu gün orada fəaliyyət göstərən qondarma qurumlar buraxılmalıdır. O cümlədən Qarabağda Ermənistanın maliyyələşdirdiyi qeyri-qanuni hərbi birləşmələr tərksilah olunaraq ərazilərimizi tərk etməlidir. Azərbaycanın mövqeyi dəyişməzdir və yaxın zamanlarda Bakı ilə Xankəndi arasında dialoq vasitəsilə normallaşma prosesi baş tutmazsa, anti-separatizm əməliyyatı başlana bilər. Azərbaycan normallaşma prosesini həmişə olduğu kimi dialoq və danışıqlar yolu ilə təmin etməyə üstünlük verir. Əgər bu mümkün olmasa, "Dəmir yumruq" işə düşəcək və məsələlərin güc yolu ilə həlli qaçılmaz olacaq.

**AZƏRTAC**
**2023, 10 sentyabr**

**Ağdam-Xankəndi yolunun açılmamasının təşkilatçısı məhz BQXK-dır – ŞƏRH**

Qarabağda fəaliyyət göstərən qondarma qurumun rəhbərliyi dəyişdi və hətta bu gün təntənəli şəkildə “andiçmə mərasimi” təşkil olundu. Elə təəssürat yarandı ki, Araik Arutunyandan fərqli olaraq Samvel Şahramanyan baş verən proseslərə məntiqli yanaşacaq və reinteqrasiya proseslərini başlamağa cəhd edəcək. Lakin erməni xisləti S.Şahramanyanda da təcəlli edərək Azərbaycana qarşı bəyanatların səslənməsi və bu gün “inauqurasiya” keçirilməsi ilə müsbət nəticələrə olan ümidləri birdəfəlik yox etdi. Yerli ermənilər və onlara dəstək verən Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) ofisi humanitar fəlakət şousunun təkcə Azərbaycana deyil, həmçinin Rusiya Federasiyasına qarşı olduğunu bir daha öz əməlləri ilə sübut etdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

Onun sözlərinə görə, Rusiyadan Qarabağda yaşayan ermənilər üçün məhz Azərbaycanın təklif etdiyi yol ilə gələn humanitar yardım maşını artıq 2 gündür Bərdədə gözləyir. Ərazidə təhlükəsizliyi təmin edən Rusiya sülhməramlı qüvvələri mövcud olduğu təqdirdə belə bir hadisənin baş verməsi anlaşılmır, həm də qəbuledilməzdir. Qeyd olunanlar fonunda Qərbin direktivlərini canla-başla yerinə yetirən BQXK-nın canfəşanlığı ortaya çıxır. Ümumiyyətlə, bu təşkilatın fəaliyyətinin istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində çox şübhəli və ermənipərəst olması artıq heç kimdə şübhə yaratmır. Bu, açıq-aşkar Qarabağda casusluq və kəşfiyyat-pozuculuq fəaliyyəti kimi qiymətləndirilə bilər.

"Əslində 4000 nəfərə yaxın itkin düşmüş azərbaycanlının taleyi ilə maraqlanmayan, humanitar yardım işini bərbad hala salan, əsirlərin dəyişdirilməsini biznesə çevirən və sonda Laçın yolu ilə əraziyə kontrabanda keçirən BQXK-dan bu addım gözlənilən idi. Qərbin bir sıra siyasi dairələrindən maliyyə yardımları alan bu təşkilat bölgədə sülhün əldə olunmasını tamamilə əngəlləməyə və reallığa uyğun olmayan aclıq şousunu yaratmağa çalışır. Həmçinin reinteqrasiya prosesinə maneə olmağa xidmət edir. Ağdam- Xankəndi yolunun açılmaması və bölgədəki uydurulmuş "blokada şousu"nun təşkilatçısı məhz BQXK-dır. İkinci Qarabağ müharibəsində ermənilərə kəşfiyyat və əməliyyat məlumatlarını ötürən belə bir təşkilatın məramı təbii ki, humanistlik yox, ziddiyyət yaratmaq, konfrantasiyanı pik həddə çatdırmaq və ərazidə yaşayan erməniləri özlərinin çirkin oyunlarının alətinə çevirməkdir.

Əgər Azərbaycandan gələn humanitar yükün əraziyə buraxılmamasının kökündə iki xalq arasında illərlə formalaşan əks münasibətlər durursa, Rusiyadan gələn yardımın əraziyə daxil ola bilməməsində isə Qərb imperializminin siyasi ambisiyaları və Rusiyanın ərazidən çıxarılması iddiası dayanır. Yüklərin əraziyə buraxılması bütövlükdə bölgədə "blokada", "humanitar fəlakət" və "aclıq" kimi terminləri özündə cəmləşdirən şounun tamamilə oyun olmasını ortaya qoyacaq. Eyni zamanda, ermənilərin onsuz da itirilmiş etibarı bir daha darmadağın olacaq. Məhz ona görə BQXK və ona təlimat verənlər bunun baş verməməsimə çalışırlar", - deyə A.Əliyev bildirib.

O əlavə edib ki, Azərbaycanın bu istiqamətdə mövqeyi daha aydın və demokratikdir. Ərazidəki qondarma qurum özünü buraxmalı, silahlı ermənilər ərazini tərk etməli, yüklər ancaq Azərbaycan tərəfindən təmin edilməli və reinteqrasiya prosesi başlamalıdır. Bunları yerinə yetirilməsi isə birbaşa Ermənistan siyasi hakimiyyətinin üzərinə düşən funksiyadır. Bu gün separatçıları hər cür dəstəkləyən Ermənistan siyasi hakimiyyəti bununla bir daha sülhə hazır olmadığını bəyan edir. Belə olan halda isə Azərbaycan dövləti yenidən "Ermənistanı sülhə məcburetmə mexanizm"indən istifadə edəcək. Əgər Ermənistan eyni ritorikanı davam etdirərsə, bu proses olduqca yaxındır. Bunu ermənilər nə qədər tez başa düşsələr, bir o qədər faydalarına olar.

**AZƏRTAC**
**2023, 10 sentyabr**

**Ermənilər Ağdam-Xankəndi yolundan humanitar yüklərin buraxılmasına niyə mane olurlar?**

Artıq bir neçə aydır ki, Laçın yolu ətrafında Azərbaycana qarşı Ermənistan və onun havadarları tərəfindən təşkil edilmiş geniş beynəlxalq qarayaxma və təzyiq kampaniyası davam etməkdədir. Bu proseslərin davamı olaraq avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan ermənilərə göndərilən ərzaq tırları 14 gündür ki, Qarabağa daxil ola bilmir. Dünən isə Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi yardım tırı da Qarabağa orada kök salmış cinayətkar ünsürlər tərəfindən buraxılmır. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi, Qarabağdakı cinayətkar ünsürlər Ağdam yolunun açılmasına tək bir səbəbə görə müqavimət göstərirlər. Onlar Ağdam yolunun açılması ilə qarşısı alınmaz reinteqrasiya prosesinin başlanacağını anlayırlar. Bu isə onların gələcək üçün bütün məkrli planlarının bir dəfəlik dəfn edilməsi deməkdir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini, politoloq Fuad Çıraqov söyləyib

Onun sözlərinə görə, Azərbaycan bütün “humanitar böhran şousu” dövründə istifadə üçün təkidlə Ağdam yolunu göstərirdi. Ermənistan tərəfi isə bunu qətiyyətlə rədd edirdi. Onun havadarları da Qarabağa getmək üçün Ağdam və digər yolların mövcudluğu faktını riyakarcasına görməzlikdən gəlirlər. Qarabağ sanki tək bir limanı olan adadır. Gözləmək olardı ki, Rusiya Qırmızı Xaç Cəmiyyətindən sonra Ağdam yolundan istifadə növbəsi ABŞ, Fransa və humanitar vəziyyətdən digər "narahat" ölkələrə gələcək. Onlar da öz yardımlarını “əzabkeş” və “məzlum” donuna bürünmüşlərə göndərəcəklər və bununla da məsələ bağlanaraq, yenidən sülh gündəliyindəki fundamental məsələlər müzakirə olunacaq. Sual yaranır axı nə üçün digərləri də eyni qayda ilə Ağdam yolundan istifadə edərək humanitar yardım göndərə bilmirlər? Nə mane olur onlara? Nə üçün həmin ölkələr bu qədər enerjilərini Azərbaycanla münasibətlərini pisləşdirmək üçün sərf edirlər? Fransa və Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borel nə deyirdi? Ağdam Laçına alternativ olmamalıdır. Niyə? Nə üçün hansısa dövlət hər ikisi Azərbaycanın tam suveren ərazisi olan Ağdam və ya Laçın yolunun istifadəsi ilə bağlı ölkəmizə diktə etməlidir? Kim və nə onlara bu hüququ verib? Elə dünən C.Borell amiranə formada tvitində "Laçın yolu açılmalıdır" deyə yazmışdı.

"Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi tır alternativ yolun olduğunu hər kəsə göstərdi. Artıq həmin yardımın qəbul edilib- edilməməsi heç nəyi dəyişmir. Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi tır bütün əsassız təbliğatı alt-üst və ifşa etdi. Məhz buna görə də bəzi ölkələr narahat olaraq hər vəchlə indi Ağdam yolunda olan tırlara mane olmaq üçün əllərindən gələni edirlər. Onlar yaxşı anlayırlar ki, bundan sonra artıq Qarabağdakı Qırmızı Xaç Cəmiyyətinin fəaliyyəti birbaşa Bakı ofisinə tabe edilməli olacaq. Bu isə həmin təşkilat vasitəsi ilə bölgədə əvvəllər həyata keçirilən bütün qeyri-qanuni fəaliyyətə son qoyulması demək olacaq",- deyə F. Çıraqov söyləyib.

**AZƏRTAC**
**2023, 11 sentyabr**

**Deputat: Beynəlxalq Qırmızı Xaç Komitəsi Ermənistanla vahid mövqedən çıxış edir**

Rusiyanın Qızıl Xaç Cəmiyyətinin yük maşınının Azərbaycanın ermənilər yaşayan bölgəsinə buraxılmaması və sülhməramlı kontingentin buna vecsiz yanaşması təəssüf doğurur. Hesab edirəm ki, Azərbaycan dövləti bu xoşagəlməz halın aradan qaldırılması üçün sərt tədbirlər görməlidir. Haqlı olaraq bizdə belə bir fikir formalaşır ki, Ermənistan və qondarma rejimin qalıqları Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əlbir olaraq Azərbaycana qarşı hansısa çirkin oyunlar həyata keçirirlər. Bundan sonra baş verənlərə görə məsuliyyəti revanşist erməni qüvvələri və BQXK daşıyır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili söyləyib.

Onun sözlərinə görə, Ağdam-Xankəndi yolu Azərbaycanın sülh və humanist siyasətinə uyğun olaraq hazır vəziyyətə gətirilib: “Qarabağ bölgəsində yaşayan erməni sakinləri Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin sülh naminə müsbət mesajlarını düzgün qiymətləndirməlidirlər. Həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi Qarabağdakı qondarma rejimin diktəsi ilə hərəkət etməməlidir. Komitə Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiya prosesinə dəstək verməlidir. BQXK-nın susqunluğu Ağdam-Xankəndi yolunun qeyri-işlək vəziyyətə gətirilməsinə səbəb olur. Qurum sanki Fransanın dövlət siyasətinə dəstək olaraq Qarabağ ermənilərinə siyasi divident verir. BQXK-nın Qarabağ bölgəsində fəaliyyətində aşkar olunan pozuntular təşkilatın nüfuzuna ciddi xələl gətirir. Buna görə də Komitənin nümayəndələrinin öz səlahiyyətlərindən sui-istifadə edərək qaçaqmalçılıq fəaliyyəti ilə məşğul olması tam araşdırılmalı, bunun qarşısının alınması üçün uyğun tədbirlər görülməlidir”.

T.Mirkişiliyə bildirib ki, BQXK Cənubi Qafqazda gərginliyin qalmasında maraqlı olan qurum təsiri bağışlayır: “Onlar Rusiyanın Qızıl Xaç Cəmiyyətinə təzyiqlər göstərirlər ki, yükləri Xankəndiyə Ağdam yolu ilə çatdırmasınlar. Qərb dairələri tərəfindən də Ağdam-Xankəndi yolu ilə yüklərin keçirilməsinə maneçilik törədilir. Bu məqsədlə onlar Qızıl Xaç Komitəsindən istifadə edirlər. Öz missiyasını və öhdəliklərini yerinə yetirməli olduğu halda komitə müəyyən dairələrin anti-Azərbaycan, anti-sülh sifarişlərini həyata keçirir. Görünən odur ki, Qızıl Xaç geosiyasi oyunlarda siyasi alətə çevrilib. İstisna deyil ki, BQXK kəşfiyyatçılıq fəaliyyəti həyata keçirir, informasiya toplayıb müəyyən mərkəzlərə ötürür. Hətta Laçın postundan Ermənistana yüklər və sərnişinlər daşıyarkən BQXK-nın maşınlarından qaçaqmalçılıq üçün istifadə olunduğu faktlarla sübut olundu. Bu məsələ isə ictimailəşdirildi. Bütün bunlar məqsədyönlü fəaliyyətdir və BQXK özü buna rəvac verib. Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərən BQXK ötən 31 ildə ölkəmizə münasibətdə heç bir səmərəli fəaliyyət göstərməyib. Əksinə bir sıra hallarda Ermənistanla vahid mövqedən çıxış edib. Azərbaycanda saxlanılan erməni cinayətkarlara tez-tez baş çəkən, onların hər cür nazı ilə oynayan Komitə eyni münasibəti Ermənistanda saxlanılan azərbaycanlılara göstərməyib. Həmçinin BQXK Qarabağda yaşayan erməni sakinlərin humanitar ehtiyaclarından “fəlakət şousu” düzəldərək bütün dünyanın diqqətini bölgəyə yönəltməyə çalışır. Bu qurum Azərbaycanla imzaladığı 1996-cı il Sazişinin 9-cu maddəsinin 13-cü bəndi ilə borcludur ki, Azərbaycan Respublikasının qanun və qərarlarına dövlətin ərazisində qüvvəyə mindiyi vaxtdan hörmət etsin. Təəssüflər olsun ki, biz bunun əksini görürük. Azərbaycanın tam haqqı var ki, bu qurumla əməkdaşlığa son qoysun. Mən deyərdim ki, BQXK-nın regionda fəaliyyətinə ehtiyac yoxdur. 1997-ci il Sevilya Razılaşmasına əsasən, humanitar yardımları milli cəmiyyətlər həyata keçirə bilər. Bu, o deməkdir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti də humanitar yükləri Xankəndiyə çatdıra bilər”.

Deputata əlavə edib ki, Azərbaycan BQXK ilə əməkdaşlığa yenidən baxa və humanitar yükləri dövlət olaraq özü Xankəndiyə çatdıra bilər.

**AZƏRTAC**
**2023, 11 sentyabr**

**Beynəlxalq Qırmızı Xaç Komitəsi Qarabağda xaçpərəst siyasət yürüdür**

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) sərgilədiyi son davranışları ilə Qarabağdakı erməni separatizmini dəstəkləmiş oldu. Rusiya Qızıl Xaç Cəmiyyətinin yük maşınlarının hələ də Xankəndiyə buraxılmaması məhz BQXK-nin ermənilərlə birgə fəaliyyətinin nəticəsində mümkün olub. Məlumatlara görə, Komitə Rusiya QXC-nə təzyiq göstərir ki, yükləri Ağdam yolu ilə Xankəndiyə aparmasın. Məqsədləri aydındır. Beynəlxalq miqyasda Azərbaycana qarşı aparılan kampaniyaya qoşularaq Qarabağda separatizmi körükləmək. Azərbaycan dövləti isə buna biganə qalmayacaq və müvafiq qərarlar qəbul edəcək.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ramiz Alıyev bildirib.

Onun sözlərinə görə, BQXK ermənilərə dost dövlətlərin sifarişlərini yerinə yetirir: “Komitə Qarabağ məsələsində, Azərbaycana münasibətdə əsl xaçpərəstlik edir desək yanılmarıq. BQXK həm birinci Qarabağ müharibəsində, həm də 44 günlük Vətən müharibəsində azərbaycanlı əsir və girovlara lazımi dəstəyi verməyib. Bunun əksinə olaraq ermənilərə isə hər zaman isti münasibət bəsləyib. Onlar hər zaman bir qayda olaraq ermənilərin yanında olublar və bu “sadiqlik” bu gün də davam edir. BQXK Birinci Qarabağ müharibəsindən sonra tez bir zamanda Xankəndidə özünə ofis açdı və aktiv fəaliyyətə başladı. BQXK-nın Qarabağda fəaliyyət göstərən nümayəndələri arasında Azərbaycana dost olmayan ölkələrin də vətəndaşları var. Onların Qarabağdakı separatçılarla işbirliyində olduğunu düşünməyə haqqımız var. 44 günlük Vətən müharibəsində BQXK Azərbaycana qarşı qərəzli mövqe tutmuşdu və bu təşkilatın nümayəndələri yalnız Ermənistanı müdafiə edirdilər. Onlar qaynar nöqtələrə daxil olaraq hərbi məlumatlar toplayaraq düşmən tərəfə ötürürdülər. BQXK-ya məxsus yük və tibb maşınları ilə ermənilərə qaçaqmal, silah-sursat daşındığına dair çoxsaylı məlumatlar var. Bütün bunlar Azərbaycan Respublikasının qanunlarının kobud şəkildə pozulması faktıdır. Bu, həm də ölkəmizin beynəlxalq humanitar təşkilata olan etimadından sui-istifadədir”.

Politoloq bildirib ki, Azərbaycanın Laçın dövlət sərhədindən buraxılış məntəqəsindən nəqliyyat vasitələrinin keçidini müvəqqəti dayandırması bir çox beynəlxalq dairələrin, o cümlədən BQXK-nın planlarını pozdu: “Azərbaycan BQXK-nın qanunsuz fəaliyyətinə göz yuma bilməz. Qurumun adındakı "qızıl" sözü qızıl suyuna çəkilmiş hansısa metal kimi saxtadır. Dünyanın müxtəlif ölkələrində humanitar fəaliyyət həyata keçirən qurum Azərbaycana münasibətdə sanki "casus missiyası"ndadır.

BQXK-ya humanitar yüklərin haradan danışmasın nə fərqi var? Heç kəs Azərbaycan ərazisində dövlətin iradəsindən kənar marşrutlar müəyyənləşdirə bilməz. Yoxsa, Komitə Xankəndini Azərbaycan ərazisi hesab etmir? İtkin düşmüş azərbaycanlıların, həmçinin girovluqda olanların taleyi ilə ciddi maraqlanmayan BQXK bu gün beynəlxalq aləmdə humanitar şou yaratmaqla məşğuldur. Yaxşı olardı ki, qurum hazırda Bərdədə yuxarıdan “əmr” gözləyən Rusiya Qızıl Xaç Cəmiyyətinin ərzaq maşınlarının Ağdam-Xankəndi yolu ilə Xankəndinə hərəkət etməsinə razılıq versin. Ermənistan və BQXK ərzaqların daşınmasına mane olmağa çalışır. Bu isə BQXK-nın sözlərinin səmimiliyini ciddi şübhə altına salır. Qarabağdakı separatçılar BQXK-dan güc alırlar. Ağdam-Əsgəran yolunu bağlayan ermənilər heç bir halda yükləri qəbul etməyəcəklərini bildirirlər. Maraqlıdır ki, bəs Rusiya sülhməramlı kontingenti hara baxır? Separatçılar nə böyük qüvvədir ki, Rusiyanın humanitar yük maşınlarının qarşısını kəssin və rusiyalı hərbçilər onlarla bacara bilməsinlər? Deməli, ortada Azərbaycana qarşı bir plan, çirkin oyun var. Hesab edirəm ki, Qərb dairələri tərəfindən də Ağdam-Xankəndi yolu ilə bu yükün keçirilməsinə məqsədli şəkildə maneə törədilir. Onlar BQXK-dan siyasi alət kimi istifadə edirlər”.

**AZƏRTAC**
**2023, 11 sentyabr**

**XİN: Rusiyanın göndərdiyi yükün Ağdam-Xankəndi yolundan keçməsini mühüm irəliləyiş kimi qiymətləndiririk**

Məlum olduğu kimi, bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin (RQXC) yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olunub. Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə RQXC tərəfindən göndərilən yükün Ağdam-Xankəndi yolu ilə keçidi, habelə Ağdam-Xankəndi və Laçın yollarının eyni zamanda açılması məsələsi ilə bağlı yerli medianın suallarına cavabında deyib.

"Ağdam-Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsinə gəldikdə isə Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksək səviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan tərəf Ermənistan tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejimdir.

Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır", - deyə Ayxan Hacızadə vurğulayıb.

**AZƏRTAC**
**2023, 12 sentyabr**

**“The National Interest” jurnalında Ermənistanın Laçın yolu ətrafında süni böhran yaratmaq cəhdlərindən bəhs olunub**

ABŞ-ın nüfuzlu “The National Interest” jurnalında Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini Fuad Çıraqovun “Laçın yolu ətrafında Ermənistanın beynəlxalq miqyasda təşkil etdiyi süni böhran”a həsr olunmuş məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Laçın ətrafında yaratdığı süni böhranla bir müddət əvvəl kövrək ümidlər vəd edən danışıqlar prosesinə ciddi şəkildə zərbə vurduğu qeyd olunur. Laçın yolundan əvvəllər minaların, silahların daşınması və qaçaqmalçılıq məqsədilə istifadə olunduğu xatırladılıb. Müəllif Laçın yolu ətrafında yaradılan süni böhrandan Ermənistanın alət kimi istifadə edərək məsələni BMT Təhlükəsizlik Şurasının (TŞ) iclası səviyyəsinə qədər gətirdiyini diqqətə çatdırıb. Bildirilib ki, Təhlükəsizlik Şurasının iclasında bəzi ölkələrin çıxışlarında humanitar məsələlərdən siyasi məqsədlər üçün istifadə etməmək çağırışı təsadüfi deyil. Ermənistanın apardığı kampaniya ilə Azərbaycana, beynəlxalq ictimai rəyə və BMT-nin Təhlükəsizlik Şurasının üzvü olan ölkələrə qarşı psixoloji və mənəvi təzyiq etməyə çalışdığı göstərilib.

Ermənistanın bu kampaniya vasitəsilə beynəlxalq ictimai rəydə guya “Qarabağ erməniləri Azərbaycanın tərkibində yaşaya bilməz” qənaətini yaratmağa çalışdığı diqqətə çatdırılıb. Bununla da, əslində, Ermənistanın danışıqlar prosesində əvvəlcədən səmimi olmadığı oxucuların diqqətinə çatdırılıb. Bu həqiqəti oxuculara izah etmək üçün 2021-ci ildə Ermənistanda parlament seçkilərindən sonra yeni hökumətin Qarabağ ermənilərinin Azərbaycandan xilas naminə ayrılmasına (remedial seccession) nail olması ilə bağlı öhdəlik götürməsi xatırladılıb. Ona görə də Laçın yolu ətrafında yaradılan süni böhranın da əsl məqsədinin buna xidmət etdiyi göstərilib. Məqalədə, eləcə də Qarabağdakı ermənilərin yaranmış vəziyyətin girovuna çevrildiyi qeyd edilib. Nəticədə isə digər dövlətlərə xatırladılıb ki, əgər onlar həqiqətən də Qarabağdakı ermənilərin “humanitar böhran”la üzləşdiklərinə inanırlarsa, o zaman bilməlidirlər ki, humanitar yüklərin çatdırılması üçün Ağdam yolu açıqdır.

**AZƏRTAC**
**2023, 12 sentyabr**

## RF XİN Ağdam-Xankəndi yolu ilə Rusiyanın yükünün çatdırılmasını şərh edib

Rusiya hesab edir ki, yaxın vaxtlarda Ağdam marşrutu ilə paralel olaraq, Laçın yolu da fəaliyyətə başlayacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə RF XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın Rusiya Qırmızı Xaç Cəmiyyətinin humanitar yardımının Qarabağın ermənıəsilli əhalisinə çatdırılması ilə bağlı şərhində bildirilib.

Şərhdə qeyd olunub ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun irəli sürdüyü təşəbbüsə əsasən, iyulun 25-də Moskvada Azərbaycan və Ermənistanın xarici siyasət idarələri rəhbərlərinin iştirakı ilə üçtərəfli görüş əsnasında bütün maraqlı tərəflər ilə qarşılıqlı fəaliyyət əsasında Laçın və Ağdam marşrutlarının paralel şəkildə fəaliyyət göstərməsi sxemi hazırlanıb. Mövqelərin xeyli dərəcədə fərqli olması, yüksək səviyyədə etimadsızlıq səbəbindən bu iş heç də asan olmayıb. Birinci addım kimi, bu il sentyabrın 12-də regiona ümumrusiya ictimai təşkilatı - “Rusiya Qırmızı Xaçı”nın xətti ilə humanitar yardım partiyası göndərilib”.

M.Zaxarova ümidvar olduğunu bildirib ki, əvvəllər əldə olunmuş anlaşmaya uyğun olaraq, yaxın vaxtlarda yüklər mütəmadi şəkildə hər iki istiqamət üzrə maneəsiz daxil olacaq ki, bu da, öz növbəsində, Bakı ilə Qarabağın erməni əhalisi arasında dialoqun başlanmasına və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üzrə 2020-2022-ci illərdə yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların bütün kompleksinin reallaşmasına dair ritmik prosesin bərpa olunmasına şərait yaradacaq.

***Fərİdə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

**AZƏRTAC**
**2023, 12 sentyabr**

**Aclıqdan əziyyət çəkən insanlar üçün ərzağın haradan gəlməsinin heç bir əhəmiyyəti yoxdur və olmamalıdır – Gürcü politoloq**

Biz bu gün regionda Ermənistanın yenidən vəziyyəti gərginləşdirmək cəhdlərinin şahidi oluruq. Bu dəfə Ermənistan Ağdam-Xənkəndi yolunu bəhanə gətirərək qarşıdurma yaratmağa cəhd edir. Düşünürəm ki, bu, Ermənistan rəhbərliyinin öz xalqına qarşı, eləcə də regionda sabitliyin pozulmasına yönəlmiş növbəti ağılasığmaz addımıdır.

Bu sözləri gürcü politoloq Tengiz Txilava ermənilərin Ağdam-Xankəndi yolunda yaratmağa çalışdığı gərginliyi AZƏRTAC-a şərh edərkən söyləyib.

Onun sözlərinə görə, Azərbaycanın Qarabağ bölgəsində, xüsusən də Xankəndidə yaşayan ermənilərin onlar üçün nəzərdə tutulmuş humanitar yüklərin yeni açılmış Ağdam-Xankəndi yolu ilə deyil, Laçın dəhlizi vasitəsi ilə çatdırılmasını tələb etmələri absurd bir iddiadır. Azərbaycan ermənilərə humanitar yük göndərir, eləcə də Rusiyadan gələn yüklər Azərbaycan ərazisindən keçməklə Xankəndiyə göndərilir. Lakin, ermənilər bu yükləri qəbul etmək istəmirlər. Bu isə o deməkdir ki, ermənilər aclıqdan əziyyət çəkmirlər. Aclıqdan əziyyət çəkən insanlar üçün ərzağın haradan gəlməsinin heç bir əhəmiyyəti yoxdur və olmamalıdır. Sadəcə olaraq ermənilər bəzi qüvvələrə arxayın olaraq regionda vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışırlar.

Politoloq hesab edir ki, bu da çox yanlış fikirdir. İlk növbədə onlar düşünməlidirlər ki, bu gün baş verənlər Azərbaycan ərazisində baş verir və rəsmi Bakı məsələnin öz yuridiksiyası çərçivəsində həll edəcəkdir. Burada nə Rusiya, nə Amerika, nə Fransa, nə də başqa bir ölkə Azərbaycanın daxili işinə qarışa bilməz. Hamı, eləcə də Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul edib və bunu öz bəyanatlarında da təsdiq edib. Ermənilər bunu başa düşməlidirlər. Əks halda onları 2020-ci ildəki 44 günlük müharibənin daha acı nəticələr gözləyə bilər.

"Düzdür, Azərbaycan məsələni sülh və danışıqlar yolu ilə həll etmək niyyətindədir. Lakin, hər şeyin bir sonu olmalıdır. Azərbaycanın regionda sülh çağırışları hamı üçün məqbuldur. Ermənilərin də sülh şəraitində yaşamaqdan başqa yolu yoxdur və onlar buna məcburdurlar", – deyə Txilava vurğulayıb.

***Xətayi Əzizov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tbilisi***

**AZƏRTAC**
**2023, 13 sentyabr**

## Azərbaycanın xarici işlər naziri ölkəmizin sülh təşəbbüsləri barədə xarici jurnalistləri məlumatlandırıb

Sentyabrın 13-də xarici işlər naziri Ceyhun Bayramovun İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində BMT-də Akkreditə Olunmuş Müxbirlər Assosiasiyasında (ACANU) aparıcı media qurumları üçün brifinqi təşkil olunub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, brifinqdə çıxış edən nazir Ceyhun Bayramov Azərbaycan Respublikasının xarici siyasət gündəliyində duran aktual məsələlər, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə iştirakçıları ətraflı məlumatlandırıb, jurnalistlərin çoxsaylı suallarını cavablandırıb.

Nazir 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqların fonunda ölkəmizin hazırkı Azərbaycan-Ermənistan normallaşma və sülh gündəliyinin təşəbbüskarı və irəli aparılmasında maraqlı tərəf olduğunu qeyd edib.

Dövlətlərarası istiqamətə paralel olaraq, ölkəmiz daxilində işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərinin sürətlə davam etdirildiyi, habelə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası ilə bağlı təşəbbüslərin həyata keçirilməsi istiqamətində fəaliyyət aparıldığı bildirilib.

Ermənistanın ərazilərimizin işğalı nəticə yaratdığı qondarma rejimin sentyabrın 9-da "seçki" adı altında təxribatlarının erməni sakinlərin nümayəndəsi ilə dialoq səylərinə qarşı növbəti zərbə olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin konstruktiv mövqeyi və addımlarının qarşılığında Ermənistan tərəfinin davamlı hərbi-siyasi təxribatlar törətməsinin, öhdəliklərinə zidd olaraq suverenliyimiz və ərazi bütövlüyümüzə qarşı davranış sərgiləməsinin, mina təhdidini davam etdirməsinin, əsassız iddialarla ölkəmizə qarşı qarayaxma kampaniyası aparılmasının müşahidə olunduğunu qeyd edib.

Ermənistanın Azərbaycan ərazilərindən hələ də çıxarmadığı erməni silahlı qüvvələrinin bölgədə sülhə və təhlükəsizliyə təhdid olduğu vurğulanıb.

Ağdam-Xankəndi və Laçın-Xankəndi yolundan yüklərin daşınması üçün paralel istifadə barədə razılıqlara baxmayaraq Ermənistan tərəfinin qondarma rejim vasitəsilə bu razılıqları yerinə yetirmədiyi xarici media nümayəndələrinin diqqətinə çatdırılıb.

Ermənistanın baş nazirinin qondarma rejimi sentyabrın 2-də təbrik etməsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların sübutu olduğu vurğulanıb.

Münaqişənin başa çatmasının ilk günlərindən etibarən Azərbaycanın mövqeyinin və niyyətinin aydınlığına baxmayaraq bir sıra beynəlxalq aktorların, habelə media orqanlarının Ermənistanın manipulyasiyalarına, o cümlədən Laçın yolu ətrafında vəziyyətlə bağlı "gərgin humanitar vəziyyət", "blokada" iddialarına aldanıb ölkəmizə qarşı aparılan kampaniyanın alətinə çevrilməsinin təəssüf doğurduğu bildirilib.

Nazir Ceyhun Bayramov bölgədəki vəziyyət və reallıqların düzgün, qərəzsiz şəkildə çatıdırılmasında beynəlxalq media qurumlarının və nümayəndələrinin məsuliyyətinin böyük olduğunu diqqətə çatdırıb.

**AZƏRTAC**
**2023, 13 sentyabr**

**Meksika mətbuatında ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası ifşa olunub**

Meksikanın nüfuzlu "Milenio" qəzetində "Qarabağda uydurulmuş humanitar böhran mifini ifşa edərək" sərlövhəli məqalə dərc olunub. Məqalədə Ermənistanın Qarabağda böhran adı altında həyata keçirdiyi manipulyasiya və qarayaxma fəaliyyəti pislənilir, Ermənistanın təxribatçı və riyakar siyasətinə, eləcə də ölkəmizin üzləşdiyi ikili standartlara diqqət çəkilir.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən bildirilib.

Yazıda son vaxtlar Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı əsassız və qərəzli ittihamların, hətta "soyqırımı" uydurmasının səsləndirildiyi qeyd olunur, ərazidə "humanitar böhran" yaşanması ilə bağlı həqiqətdən uzaq erməni propaqandasının uğursuzluğa düçar olduğu bildirilir.

Məqalədə beynəlxalq hüquq üzrə tanınmış ekspert Rodni Diksonun hesabatında Azərbaycanın Qarabağ bölgəsində soyqırımının baş verməsi ilə bağlı Luis Okamponun iddialarının əsassız və qüsurlu kimi qiymətləndirildiyi qeyd olunur. Həmçinin yəhudi ravvinlərin Ermənistanı Holokostdan və "soyqırımı" terminindən təbliğat kimi istifadəni dayandırmağa çağırdığı vurğulanır.

Qeyd olunur ki, bölgənin erməni əhalisinin alternativ yollar vasitəsilə qida əldə etmək imkanı olduğu halda, guya Laçın yolunun bağlanması nəticəsində aclıq şəraitində yaşamaları ilə bağlı xəbərlər yalnız təəccüb doğurur. Bunun Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə barışa bilməyən erməni diasporu və onun havadarlarının propaqanda siyasətinin bir hissəsi olduğu bildirilir.

Eyni zamanda, bir sıra dünya ölkələrinin humanitar məsələni siyasiləşdirmək əvəzinə Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolundan istifadəyə çağırışlarının ermənilər tərəfindən müsbət qarşılanmadığı, beynəlxalq aktorların vasitəçiliyi ilə hər iki marşrutun açılması ilə bağlı əldə olunmuş razılıqdan isə Ermənistanın son anda imtina etdiyi bildirilir.

Sonda "sivil dünyanın" ekspertlərinin, KİV nümayəndələrinin Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhə və normallaşma prosesinə zərbə vuran hazırkı ssenarinin həqiqətlərindən bəhs etməmələrinin narahatlıq doğurduğu və bu gün süni şəkildə yaradılmış "qida böhranı"ndan ürək ağrısı keçirənlərin otuz il ərzində yurd-yuvasından didərgin salınmış yüz minlərlə azərbaycanlının çəkdiyi əzabları nəzərə almalı olduqları vurğulanır.

**AZƏRTAC**
**2023, 15 sentyabr**

**Adil Əliyev: Ermənipərəst mövqeyini davam etdirsə, Fransa kimi, ABŞ da vasitəçi statusunu itirəcək**

Azərbaycan müxtəlif dövlətlərlə əlaqələrini bərabərhüquqlu tərəfdaşlıq əsasında formalaşdırır. Önəmli olan daxili işlərə qarışmamaq və ikili standartlardan uzaq olmaqdır. Təəssüf ki, Amerika Birləşmiş Ştatları bu prinsipi yenə pozmaqla məşğuldur. Amerikalı rəsmilər bir tərəfdən Azərbaycanla strateji əməkdaşlığın əhəmiyyətindən danışır, digər tərəfdən son günlər ermənipərəst konqresmenlərlə səs-səsə verərək Azərbaycan əleyhinə açıqlamalar yayırlar. Konqresdə Qarabağla bağlı dinləmələrdə səslənən absurd fikirlər buna sübutdur. Birincisi, sizə kim ixtiyar verib ki, Azərbaycanın tərkib hissəsi ilə bağlı dinləmələr keçirirsiniz? İkincisi, bu nə dinləmələrdir ki, ancaq bir tərəfin mövqeyi dinlənilir və əsassız şəkildə dəstəklənir? Dinləmələrdə bir konqresmen və bir ABŞ rəsmisi demədi ki, Qarabağ ermənilərinin Azərbaycan qanunları ilə yaşamaları vacibdir, məsələlərin həlli yolu bundan keçir. ABŞ-da yaşayan kimsə və ya hansısa etnik qrup bəyan etsə ki, onlar yerli qanunlarla yaşamaq istəmirlər, orada yaşamağa davam edə bilərlərmi? Bizim də tələbimizi eynidir: Azərbaycan ərazisində yaşayan hər kəs Azərbaycan qanunları ilə yaşamalı və Azərbaycan pasportuna malik olmalıdır. Vəssalam! Amerika Birləşmiş Ştatlarının rəsmiləri və konqresmenləri 30 ildə Azərbaycan torpaqlarının işğalı ilə bağlı dinləmələr bir yana, bircə kəlmə də demədilər, Xocalı soyqırımına, şəhər, kənd və qəsəbələrimizin, məscidlərin dağıdılmasına seyrçi qaldılar. İndi də tutublar ki, “Azərbaycan Qarabağda qayda-qanun yaratmamalıdır”. Maraqlıdır, amerikalı konqresmenlər və rəsmilər eyni sözləri Ukrayna, Moldova və Gürcüstan üçün niyə demirlər? Halbuki Azərbaycanın tərəfdaşı olan bu ölkələrdə də separatçı bölgələr mövcuddur və Vaşinqton bu ölkələrin ərazi bütövlüklərini birmənalı şəkildə dəstəkləyir və bu ölkələrdə separatizmi birmənalı şəkildə pisləyir. ABŞ Konqresində Donbas, Abxaziya, Cənubi Osetiya və Dnestr bölgələri ilə bağlı dinləmələr keçirmək heç kimin ağlına gəlməz. Ancaq bizə gəldikdə, Qarabağla bağlı “dinləmələr” keçirməyi özlərinə borc bilirlər. Qarabağ separatizminin bu ölkələrdəki separatizmdən nə fərqi var?

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev səsləndirib.

O qeyd edib ki, separatizm ümumi bəladır və bu bəlaya münasibət eyni olmalıdır. Buna baxmayaraq, Vaşinqton erməni separatizminə sevgisini gizlədə bilmir və bu, ikili standartların bariz nümunəsidir. Necə olur ki, başda Ukrayna olmaqla, ABŞ Rusiya ilə bütün məsələlərdə əks-fikirdədir, ancaq Qarabağ məsələsində sanki Rusiyanın erməni separatizmini daha çox dəstəkləməsini və bəsləməsini istəyir. Vaşinqtonda onu da unudurlar ki, onların dəstək göstərdiyi Ukrayna Cənubi Qafqazda Azərbaycanla tərəfdaşlığa üstünlük verir. Ukrayna və Azərbaycan bir-birilərinin ərazi bütövlüklərini dəstəkləyir. Azərbaycan Ukraynaya humanitar yardımlar göndərir, mülki məqsədlər üçün bu ölkəyə yanacağını əsirgəmir, valideynlərini itirmiş ukraynalı uşaqlar mütəmadi olaraq ölkəmizdə dincəlir və psixoloji reabilitasiyadan keçirlər. Ermənistan Ukrayna üçün bunların heç birini etmədiyi halda Vaşinqton yenə rəsmi İrəvana və Qarabağ separatçılarına simpatiyasını gizlətmir. ABŞ Konqresi Ermənistanla birgə dəfələrlə Qarabağ separatçılarına da maliyyə dəstəyi ayırıb. Erməni separatçıların təmsilçiləri əvvəlki illərdə ABŞ-da müxtəlif tədbirlərə dəvət olunub, okeanın o tayında “Qarabağa yardım” kampaniyaları təşkil ediblər, separatçıların “bayrağı” Vaşinqton və Los-Anceles şəhərlərində dalğalanıb.

“ABŞ özünü dünyada demokratiyanın beşiyi kimi qələmə verir. Ancaq yaxın tarixdə ABŞ silahlı qüvvələrinin İraqa, Suriyaya və Liviyaya müdaxilələrinin demokratiya ilə yaxından-uzaqdan əlaqəsi olmayıb. Bu bölgələrdə yüz minlərlə insan həlak olub, ölkələr viran qalıb, demokratiya əvəzinə, anarxiya və terror tüğyan edib. ABŞ Əfqanıstanda guya “Taliban”la savaşırdı, lakin sonda ölkəni və paytaxt Kabili həmin “Taliban”a təhvil verib tələsik bu ölkəni tərk etdi. Belə misalların sayı çoxdur. ABŞ bir çox qitədə, o cümlədən Cənubi Amerika, Afrika və Avrasiyada öz dar maraqları uğrunda mübarizə aparır. ABŞ keçmiş sovet məkanında da maraqlarını təmin etmək uğrunda “döyüşür”, Soros kimi fırıldaqçıları “qeyri-hökumət təşkilatlarına dəstək” adı altında yeni inqilablara təşviq edirdi. Bu oyunlar Azərbaycanda baş tutmadı, çünki Ümummilli Liderimiz Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev kənar müdaxilələrə imkan vermədilər, ölkəmiz bölgədə sabitlik adasına çevrildi. Ancaq sakitləşmək olmaz. LGBT, “NO WAR”çılar, kimi qeyri-milli qüvvələr yenidən meydana çıxarmağa çalışırlar, USAID təşkilatı da əl atından həmin qruplara maliyyə ayırmaqla məşğuldur”, - deyə A.Əliyev vurğulayıb.

Vurğulanıb ki, Azərbaycan İkinci Qarabağ müharibəsində Qələbə qazandıqdan sonra Ermənistana barış əli uzatdı, ərazi bütövlüklərinin qarşılıqlı tanınması ilə sülh sazişinin imzalanmasını təklif etdi. Ermənistan sülhdən boyun qaçırır. Vaşinqton bölgədə həqiqi sülh və əməkdaşlıq istəyirsə, Ermənistana sülh sazişi ilə bağlı təsirini artırmalıdır. Ancaq ABŞ-dakı dairələr bunun əvəzinə Azərbaycanı hədələmək

yolunu tutublar. ABŞ Dövlət katibi Antoni Blinken Ağdam-Xankəndi yolu ilə Laçın yolunun paralel açılmasını əvvəlcə dəstəklədi, ancaq sonra nə baş verdisə, ancaq Laçın yolunun açılması “vacibliyi”ni səsləndirməyə başladılar. İndi ABŞ Dövlət Departamentinin təmsilçisi Lui Bononu bölgəyə göndəriblər. Ancaq Dövlət Departamentində onun rəhbəri Yuri Kim Konqresdə Azərbaycanı hədələyən çıxış edibsə, Lui Bononun səfərindən də müsbət nəticə gözləməyə dəyməz.

“Bu siyasətlə ABŞ-ın Fransadan fərqi qalmayacaq. Fransa İkinci Qarabağ müharibəsi dövründə və ondan sonra ermənipərəst mövqeyi ilə vasitəçi statusunu itirib. ABŞ da eyni yolu getməyə davam edəcəksə, Vaşinqton da vasitəçi statusunu itirmək təhlükəsi ilə üzləşəcək. Bu isə onun Cənubi Qafqazdakı maraqlarının zəifləməsinə yol açacaq. Çünki Cənubi Qafqazın açar dövləti Azərbaycandır və əgər hansısa böyük güc Azərbaycan əleyhinə siyasət yürüdürsə, daxili işlərimizə qarışırsa, həmin dövlətin regionumuzda möhkəmlənmək şansı yoxdur”, - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

**AZƏRTAC**
**2023, 16 sentyabr**

**Meksikanın "El Universal" qəzeti ölkəmizə qarşı qarayaxma kampaniyası barədə: Riyakarlıq və manipulyasiya sülhə maneə törədir**

Meksikanın geniş oxuyucu kütləsinə malik "El Universal" qəzetində "Riyakarlıq və manipulyasiya sülhə maneə törədir" sərlövhəli məqalə dərc edilib.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən bildirilib.

Məqalədə Ermənistanın "blokada" və "humanitar böhran" kimi yalanlarının, ölkəmizə qarşı apardığı qarayaxma və spekulyasiyanın, nümayiş etdirdiyi ikiüzlülük siyasətinin sülh prosesinə ciddi zərbə vurduğuna diqqət çəkilir.

Qeyd olunur ki, Praqa, Soçi və Brüssel danışıqlarından sonra hər iki ölkənin bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini tanıdığını, hətta Ermənistan baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etdiyini bəyan etməsinə baxmayaraq, sözləri ilə əməlləri üst-üstə düşməyən Ermənistan rəhbərliyinin sonrakı məsuliyyətsiz hərəkətləri və Azərbaycana qarşı başlatdıqları geniş qarayaxma kampaniyası bölgədə dayanıqlı sülhün əldə olunmasını çətinləşdirir.

Məqalədə Ermənistan və onun havadarlarının "soyqırımı" terminindən sui-istifadə hallarının yalnız narazılıq doğurduğu və yəhudi icmalarının ravvinlərinin bu məqsədlə Ermənistan rəhbərliyinə etiraz məktubu ünvanlayaraq Holokostu çirkin siyasi təbliğat vasitəsinə çevirməməyə və onun qurbanlarına hörmətlə yanaşmağa çağırdığı bildirilir.

Eyni zamanda, beynəlxalq ekspert Rodni Diksonun "Okampo hesabatını" iflasa uğratdığına diqqət çəkilir, Fransa, ABŞ kimi ölkələrin siyasətçilərinin Azərbaycan xalqının uzun illər məruz qaldığı misli görülməmiş erməni vəhşiliyinə və etnik təmizləməyə, şəhər və kəndlərimizin xarabalığa çevrilməsinə göz yummalarının riyakarlıqdan başqa bir şey olmadığı vurğulanır.

Xatırladılır ki, Rusiyanın hərbi müttəfiqi olan Ermənistanın ölkəmizin ərazisində həyata keçirdiyi mina terrorunun ağır nəticələri hələ də davam edir və post-münaqişə dövründə də ermənilər məhz Laçın yolundan ölkəmizin ərazisinə mina və hərbi sursatlar daşımaq üçün sui-istifadə etmişlər. Guya "aclıqdan əziyyət çəkən" ermənilərin daha qısa və asan Ağdam yolu vasitəsilə yüklərin qəbulundan imtina etmələri isə Ermənistanın bu məsələni siyasiləşdirmək məqsədi daşımasının bariz nümunəsidir.

Həmçinin, regionda sabitliyin əldə olunması üçün bütün səylərin səfərbər edilməsinin, ölkələrin bir-birilərinin ərazi bütövlüyü və suverenliyini qarşılıqlı olaraq tanımasının və Rusiya sülhməramlılarnın nəzarəti altında olan ərazilərdən Ermənistan silahlı qüvvələrinin qalıqlarının çıxarılmasının vacibliyi vurğulanır.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**Sevinc Fətəliyeva: ABŞ öz cəsarətsizliyinə görə günahı Azərbaycanın üzərinə atmağa çalışır**

Vaşinqtonda son görüşdə əldə olunmuş razılığa əsasən, sentyabrın 1-də bölgədə yollar açılmalı və Ağdam-Xankəndi marşrutu işə düşməli idi. Antoni Blinken Azərbaycan rəhbərliyi ilə danışıqlar zamanı həm Laçın, həm də Ağdam yolunun açılmasını xahiş etsə də, ABŞ razılaşmaya müqavimət göstərən Ermənistan rəhbərliyi və Qarabağdakı separatçılara təzyiq etmək əvəzinə, öz mövqeyindən geri çəkildi və bu gün istər Dövlət Departamenti, istərsə də Konqresdə yalnız Laçın yolunun açılmasının zəruriliyindən danışılır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, bir qrup separatçını razı salmağı bacarmayan və ya istəməyən ABŞ bu gün öz cəsarətsizliyinə və riyakarlığına görə günahı Azərbaycanın üzərinə atmağa cəhd göstərir.

Qarabağda keçirilmiş "seçkilər"ə münasibətdə də ABŞ-ın riyakarlığının şahidi olduq. Sentyabrın 9-da "keçirilmiş seçkilər"dən sonra aparıcı dövlətlər və təşkilatlar qanunsuz rejimi və onun "seçkiləri"ni tanımadığını bəyan etdiyi halda, Vaşinqton susmağa üstünlük verdi. Yalnız Azərbaycanın təzyiqlərindən sonra ABŞ Dövlət Departamenti sıravi təmsilçisi səviyyəsində şifahi şəkildə "seçki"ni tanımadığını bildirmək məcburiyyətində qaldı.

S.Fətəliyevanın sözlərinə görə, ABŞ Dövlət Departamentinin təmsilçisi Lui Bononun regiona səfəri bölgədə problemlərin həllinə heç bir töhfə vermədi və nəticəsiz qaldı. Çünki ABŞ öz niyyətində səmimi deyil – onu sülh maraqlandırmır. Əks təqdirdə, ABŞ Dövlət Departamentinin nümayəndəsi Yuri Kim Konqresdəki çıxışında mövcud olmayan "Dağlıq Qarabağ xalqının hüquqları"ndan danışmazdı. ABŞ bugünkü reallıqları görməzdən gəlir və ciddi cəhdlə Qarabağdakı hərbi xuntanı leqallaşdırmağa çalışır.

"Faktiki olaraq bu gün ABŞ Fransa ilə birlikdə Qarabağ ermənilərinin reinteqrasiya prosesinə imkan verməyən və Ermənistandakı revanşist qüvvələri stimullaşdıran tərəf qismində çıxış edir. Fransanın belə açıq ermənipərəst siyasəti nəticəsində bu gün Paris regional proseslərdən tam təcrid olunub və vasitəçilik ümidlərini itirib. Belə getsə, eyni aqibət özünü bölgədə xristian missioner kimi aparan ABŞ-ı da gözləyir", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**ABŞ "humanitar fəlakət" adlı şou ilə bölgədə erməni məsələsini aktuallaşdırmaq istəyir – TƏHLİL**

Ötən il Azərbaycanda bir çoxları Vaşinqtonda keçirilən görüşlərə ümidlər bəsləyərək Demokratlar partiyasının tarixində ilk dəfə olaraq birinin - məhz Antoni Blinkenin məsələyə obyektiv yanaşacağını düşünürdü. Ədalət naminə qeyd edək ki, Vaşinqtonda bu il baş tutan Azərbaycan və Ermənistan XİN rəhbərlərinin (A.Blinkenin də iştirakı ilə) görüşlərində çox yaxşı ab-hava yarandı. ABŞ Dövlət Departamentinin rəhbəri 30 illik tarixdə öz sələflərindən fərqli olaraq daha rasional yanaşma orta qoyaraq ölkəmizin tezislərinin əksəriyyətini nəinki qəbul etdi, hətta həyata keçirilməsi üçün əməli addımlar atdı. Lakin görünən odur ki, son zamanlar okeanın o tayındakı müəyyən qüvvələrin təzyiqi və "səyləri" nəticəsində A.Blinken geri çəkilmək qərarı verdi.

Çox güman kı, dünən Lui Bononun Bakıda bağlı qapılar arxasında dedikləri Vaşinqton ilə Bakı arasında Senatda bir neçə gün əvvəl baş tutan çıxışdakı qərəz ab-havasını yumşaltmadı, əksinə, daha da qəlizləşdirdi. Hazırda Azərbaycanın ABŞ, Avropa İttifaqı (Aİ) və Rusiyadan eşitmək istədiyi ilk prinsip ölkənin suverenliyinin və ərazi bütövlüyünün prioritetliyi, digər məsələlərə isə məhz bu aspektdən yanaşılmasıdır. Təəssüf olsun ki, son zamanlar Qərbin məsələlərə yanaşmasında ərazi bütövlüyü və suverenlik prinsipləri "unudulur".

AZƏRTAC xəbər verir ki, bu sözləri Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov qeyd edib.

"Prinsip etibarilə iki gün əvvəl ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimin "Dağlıq Qarabağ xalqının hüquqları" terminindən istifadə etməsi onun həmkarlarının hansı düşüncədə olmasının göstəricisi idi. Senatdakı həmin çıxışlar zamanı amerikalı siyasətçilərin Qarabağdakı erməni sakinlərin hüquq və təhlükəsizliyi ilə bağlı Azərbaycan hökumətini az qala soyqırımıda günahlandırmaları, onların Prezident İlham Əliyevin apardığı Qarabağ siyasəti ilə bağlı səsləndirdikləri fikirlər cəmiyyətimiz tərəfindən kəskin narazılıqla qarşılandı. Həmin çıxış və ondan sonra Vaşinqtonun məsələlərə yanaşması bu ölkənin Azərbaycana münasibətdə beynəlxalq hüququ "kənara qoyduğu"nun göstəricisidir.

Senatdakı dinləmələr zamanı Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı ifadəsini bir nəfər belə səsləndirmədi. Əvəzində separatçı quldur dəstəsini müdafiə edən ifadələr yer aldı. Halbuki hamıya məlumdur ki, Ermənistanın əsas məqsədi Azərbaycan torpağında "xilas naminə azadlıq" şüarını beynəlxalq səviyyədə təbliğ edərək Kosovoda olduğu kimi, Qarabağın da Azərbaycandan ayrılmasına nail olmaqdır.

Senatda Laçın yolunun guya bağlandığı, Qarabağda ermənilərin ac olduğunu bildirən amerikalı senatorlar və hökumət nümayəndələri növbəti şouları ilə Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında öz imiclərini sual altına qoymuş oldular. Çünki nəinki Azərbaycan ictimaiyyəti, o cümlədən separatçılıqdan əziyyət çəkən digər dövlətlərin hakimiyyətləri də Senatdakı bu çıxış fonunda okeanın o tayı ilə münasibətləri haqqında düşünməli oldular. Fikir verin, iclas zamanı az qala cib dəsmalı ilə "ac erməni"lərin halına kövrələn siyasətbazlar nədənsə Ağdam yolu ilə bağlı susmağa üstünlük verdilər. O zaman sual yaranır, humanitar yardım etmək istəyirsən və 30 min insana görə pərişansansa, o zaman niyə Bakıya ərzaq göndərərək Ağdam vasitəsilə Xankəndiyə yardım etmirsən? Əlbəttə, cavab bəllidir. Fransa və ABŞ humanitar fəlakət adlı şou ilə bölgədə erməni məsələsini aktuallaşdırmaq və öz oyunlarını oynamaq istəyirlər. Halbuki A. Blinken yaxşı bilir ki, əldə edilmiş razılıqlara əsasən, sentyabrın 1-dən Ağdam-Xankəndi yolu açılmalı idi", - deyə politoloq vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycan hazırda bütün vasitəçi ölkələrin sülh danışıqlarındakı davranışlarını diqqətlə izləyir. Dnestryanı, Abxaziya və Osetiya, Krım, Luqansk, Donetskdəki mübahisələrə eyni, Qarabağa isə fərqli yanaşmanın olduğu aydın şəkildə görünməkdədir. Bu münaqişələrlə bağlı Vaşinqtonun eyni davranışı da qeyd edilməlidir - adları çəkilən bütün bölgələr tərkibində olduğu dövlətdən ayrıldılar və onların geri qaytarılması üçün Gürcüstana, Moldovaya real dəstək yoxdur. Ukraynada isə hazırkı proseslər ərazi bütövlüyünün təmin ediləcəyi ilə bağlı ümidləri sual altına qoyur.

Vurğulanıb ki, yuxarıda sadalanan münaqişələr və separatçı ocaqlar arasında ilk dəfə olaraq məhz Azərbaycan öz məsələsini heç kimin "şirin" vədinə güvənməyərək təkbaşına həll etməyi bacardı. Rəsmi Bakının 3 il əvvəl atdığı addım ətrafda münaqişələrdən və separatizmdən əziyyət çəkən bütün dövlətləri ruhlandırdı. Təbii ki, bu vəziyyət bəzi dairələri narahat etməyə bilməzdi. Onlar təkcə qalib gələn Azərbaycan dövlətinin hakimiyyətinə deyil, eyni zamanda, vətəndaş cəmiyyəti, ayrı-ayrı sosial qruplar ilə

bağlı əvvəllər digər dövlətlərdə sınaqdan keçirilmiş metodlardan istifadə etdilər. Əgər əvvəllər müxalifət partiyalarındakı bəzi şəxslərin beyinlərinin yuyulması üçün işlər aparılırdısa, son 3 ildə QHT sektoru, ictimai birliklər, tələbə qrupları vasitəsilə öz məqsədlərini həyata keçirmək üçün cəhd göstərdilər. Milli dəyərlərin, adət-ənənələrin, vətənpərvərlik hisslərinin yox edilməsi, LGTB-yə dəstək, "No War" kimi hərəkatların yaradılması əlbəttə ki, məqsədli xarakter daşıyır. Ermənipərəst mövqeyi ilə seçilən və Azərbaycanla sülhsevərlər münasibət yaratmayan Samanta Pauerin başçılıq etdiyi ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ancaq Bakıda ermənilərlə sülhün zəruriliyi haqqında danışan insanlar axtarışındadır. Xarici ölkələrdə sülh platformaları çərçivəsində Qarabağdakı erməni sakinlər haqqında danışan iclaslarda nədənsə Xocalıdan, Ağdərədən, Şuşanın kəndlərindən, Xocavənddən, Xankəndidən məcburi köçkün düşmüş şəxslərin hüquqları müzakirə edilmir.

Politoloq təəssüflə qeyd edib ki, regionda sülh və sabitlik erasına başlama şansımız olduğu bir vaxtda Fransanın və ABŞ-dakı ermənipərəst qüvvələrin atdığı addımlar separatçıların arxayınlaşması ilə nəticələnə bilər. Azərbaycan onsuz da bu və ya digər şəkildə öz məqsədlərinə çatacaq. Kimin nə deməsindən asılı olmayaraq, biz haqq yolumuzdan dönməyəcəyik. Üç il əvvəl olduğu kimi, bu dəfə də Zəfərdə yanımızda kimlərin olmasına baxacağıq. Regionda geosiyasi məqsədləri olan qüvvələr o halda maraqlarını qoruyacaqlar ki, proseslərdə obyektivlik nümayiş etsinlər.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**XİN: Azərbaycan tərəfi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır**

Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə edilməsi təklifi uzun müddətdir ki, Azərbaycan tərəfindən irəlilədilir və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni zamanda istifadə ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib.

“Bu gün BQXK Azərbaycan tərəfinə müraciət edərək qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə ilkin məlumat verib. Yaxın zamanlarda BQXQ tərəfindən Azərbaycan tərəfinə bu barədə rəsmi nota təqdim edilməsi gözlənilir. Əvvəllər də qeyd edildiyi kimi, Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır”, - deyə Ayxan Hacızadə qeyd edib.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti: Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə yüklərin çatdırılması barədə razılığı alqışlayırıq**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin maşınları ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizə yüklərin Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə çatdırılması barədə razılığın əldə edilməsini alqışlayır.

Bu barədə AZƏRTAC-a Azərbaycan Qızıl Aypara Cəmiyyətindən bildirilib.

"Təəssüf edirik ki, hər iki yolun eyni anda açılması ilə bağlı hələ bu il sentyabrın 1-də razılıq əldə edilməsinə baxmayaraq, bunun reallaşdırılması yalnız sentyabrın 18-də baş verəcək.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hesab edir ki, yüklərin aparılmasının siyasiləşdirilməsi, onun qarşısının alınması yolverilməzdir. Zərurət olduğu təqdirdə, müstəqil, bitərəf təşkilat olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu prosesə istənilən dəstəyi verməyə hazırdır", - deyə məlumatda qeyd edilib.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

## BQXK-ya məxsus iki minik və bir yük avtomobilinin Laçından Xankəndiyə keçidi təmin edilib

Laçın, 18 sentyabr, Aydın Yavərzadə, AZƏRTAC

Laçın dövlət sərhədindən buraxılış məntəqəsindən Xankəndi istiqamətinə BQXK-ya məxsus iki minik və humanitar yardım aparan bir yük avtomobilinin keçidi təmin olunub.

AZƏRTAC-ın Laçına ezam olunan müxbiri xəbər verir ki, keçid səhər saatlarında gerçəkləşib. İki minik avtomobili və bir humanitar yüklü TIR maşını prosedurlara uyğun olaraq yoxlanıldıqdan sonra Xankəndi istiqamətində yola davam edib.

Qeyd edək ki, Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə olunması uzun müddətdir Azərbaycan tərəfindən təklif edilirdi və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.

Ötən gün BQXK Azərbaycan tərəfinə müraciət edərək, qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə məlumat verib. Beləliklə, Azərbaycan tərəfinin təklif etdiyi kimi, ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadə təşkil olunub.

**AZƏRTAC**
**2023, 18 sentyabr**

## Şarl Mişel: Laçın və Ağdam yollarından Xankəndiyə yüklərin eyni vaxtda keçməsini alqışlayırıq

Laçın və Ağdam yollarından Xankəndiyə humanitar yüklərin eyni vaxtda keçməsini alqışlayırıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "X" platformasında paylaşımında bildirib.

Ş.Mişel, həmçinin qeyd edib: "Artıq bu proses qaydaya salınmalıdır. Həmçinin Bakı və Qarabağın erməni sakinləri arasında hüquq və təhlükəsizlik məsələləri üzrə danışıqlara başlamaq vacibdir. Avropa İttifaqı bunu dəstəkləməyə hazırdır".

**AZƏRTAC**
**2023, 18 sentyabr**

**Rusiya XİN Xankəndiyə humanitar yardımın çatdırılmasını şərh edib**

Moskva hesab edir ki, Qarabağa humanitar yardımların daşınması üçün Laçın və Ağdam marşrutlarının paralel olaraq açılması Bakı və Qarabağın erməniəsilli sakinləri ilə dialoqun başlanmasına, habelə üçtərəfli razılaşmaların bütün kompleksinin həyata keçirilməsi üzrə ritmik işin bərpasına şərait yaradacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Xankəndiyə humanitar yardımın çatdırılmasını şərh edən Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

O xatırladıb ki, sentyabrın 18-də Rusiya sülhməramlı kontingentinin və RF XİN-in iştirakı ilə və Beynəlxalq Qırmızı Xaç Komitəsinin səyləri sayəsində Laçın və Ağdam marşrutları üzrə regiona ərzaq və dərman preparatları çatdırılıb.

M.Zaxarova qeyd edib: "Dinc əhalinin maraqlarına uyğun olaraq, humanitar yüklərin maneəsiz və müntəzəm tədarükünün davam etməsini gözləyirik". Onun sözlərinə görə, Moskva hesab edir ki, Qarabağda humanitar vəziyyətin yaxşılaşması Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dair 2020-2022-ci illərdə liderlər tərəfindən yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların bütün kompleksinin həyata keçirilməsi üzrə işlərin yenidən başlanmasına şərait yaradacaq.

RF XİN-in rəsmi nümayəndəsi əlavə edib ki, Moskva "bütövlükdə Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsində maraqlıdır".

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

**AZƏRTAC**
**2023, 18 sentyabr**

**Blinken: ABŞ humanitar yüklərin Ağdam və Laçın yolları ilə Qarabağa daşınmasını alqışlayır**

Birləşmiş Ştatlar bu gün həm Laçın, həm də Ağdam yolları ilə Qarabağa mühüm humanitar yüklərin daşınmasını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ-ın Dövlət katibi Antoni Blinken özünün X sosial şəbəkə hesabında bildirib.

**AZƏRTAC**
**2023, 19 sentyabr**

**Agentlik: Laçın şəhərində yolların bərpası yaxın müddətdə yekunlaşacaq**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Laçın şəhərinin daxili yollarının bərpası layihəsini sürətlə və keyfiyyətlə icra edir.

Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, uzunluğu təqribən 70 km təşkil edən Laçın şəhərinin daxili yollarının yenidən qurulması mərkəzi küçələrin və məhəllədaxili yolların bərpasından ibarətdir. Küçə və məhəllədaxili yolların eni 4-11 metrarası dəyişir.

Layihə çərçivəsində yararsız örtük sökülür, zəruri olan yerlərsə yararsız qrunt qazılaraq çıxarılır, ardınca yararlı materiallardan istifadə olunmaqla əks-dolğu işləri icra olunur, yeni yol yatağı və yol əsası inşa edilir. Yol əsası hazır olan hissələrə isə lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənir. Artıq bir çox küçə və yollarda sadalanan işlər yekunlaşıb.

Tikinti-bərpa işləri "İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.

Yenidənqurma işlərinin yaxın müddət ərzində yekunlaşdırılması planlaşdırılır. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

Laçın şəhərinin daxili yollarının bərpası ilə şəhər ərazisində müasir yol infrastrukturu qurulur ki, bu da burada yaşayan əhalinin və bura gələn qonaqların rahat gediş-gəlişini təmin edir.

**AZƏRTAC**
**2023, 5 oktyabr**

**Böyük Qayıdış: Daha 26 ailə Laçına yola salındı**

Oktyabrın 16-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçına daha 26 ailə (96 nəfər) köçürülüb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bunu nla da Laçın şəhərində 272 ailə, yəni 1052 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Laçında məskunlaşan daha 26 ailəyə evlərinin açarları təqdim olunub**

Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Oktyabrın 16-da Laçına növbəti köç prosesi gerçəkləşib. Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan və Laçına çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu gün 26 ailəyə qucaq açıb və daha 96 laçınlının yurd həsrəti bitib.

Laçına qədəm qoyan ailələrə evlərinin açarlarının təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Natiq Hüseynov, Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və "Bakı Abadlıq Xidməti" MMC-nin nümayəndələri də iştirak ediblər.

Ailələr evlərinin açarlarını böyük sevinc hissi ilə təhvil alıblar.

Bununla da Laçın şəhərində 272 ailə, yəni 1052 nəfərin daimi məskunlaşması təmin edilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə dövlət torpaq kadastr uçotu işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, yerquruluşu işləri çərçivəsində indiyədək 718.406,5 hektar ərazidə çöl ölçmə işləri aparılıb. Zəngilan (70.860 hektar), Qubadlı (79.876 hektar), Kəlbəcər (195.406 hektar), Cəbrayıl (104.936,5 hektar) və Laçın (177.417 hektar) rayonları üzrə işlər yekunlaşdırılaraq müvafiq kadastr sisteminə miqrasiya olunub, Füzuli (45.636 hektar) və Ağdam (44.275 hektar) rayonları üzrə isə işlər aparılır.

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**Laçın şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib**

Laçın şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, İdarələrarası Mərkəzin və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Publik Hüquqi Şəxsin nümayəndələri iştirak edib.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumlar tərəfindən Laçın şəhərində aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, Qarabağda kəhrizlərin bərpası və su ehtiyatlarının idarə olunmasında onlardan istifadə perspektivləri, işğaldan azad edilmiş ərazilərdə aparılan kosmik tədqiqatlar, tikinti-söküntü tullantılarından təkrar xammal materialı kimi istifadə perspektivləri, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə minimum təsirə nail olunması, Laçın şəhərində yaşıllıqların mühafizəsi və bərpası perspektivləri, yol tikintisi işlərində tələb olunan xammal təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən tikinti-quruculuq işləri ilə bağlı daxil olan müraciətlər, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, müasir texnologiyalardan istifadə olunması, işğaldan azad edilmiş ərazilərin, o cümlədən Laçın rayonunun çayları və onların hidroenerji potensialından istifadəsi, eləcə də istismara verilmiş və icrası davam edən kiçik su elektrik stansiyaları barədə məlumat verilib və Laçın şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

İclasdan sonra iştirakçılar Zerti Aqro-sənaye Parkının işi ilə tanış olublar.

**AZƏRTAC**
**2023, 23 oktyabr**

**Böyük Qayıdış: Daha 70 sakin Laçına qayıdır**

Oktyabrın 30-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə Bakı və Sumqayıtda məskunlaşmış 16 ailə, yəni 59 nəfər yola düşüb. Bu gün, həmçinin Beyləqan və Şamaxı rayonlarında məskunlaşmış daha 4 ailə (11 nəfər) isə yaşadıqları ərazidən yola salınacaq. Onlar Horadiz şəhərində köç karvanına qoşularaq bir yerdə hərəkət edəcəklər.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb.

Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi dərin ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərində 315 ailənin (1205 nəfər) daimi məskunlaşması təmin ediləcək.

**AZƏRTAC**
**2023, 30 oktyabr**

**Bu gün Laçına dünyanın iyirmi altı ölkəsindən əlli səyyah gəlib**

İşğaldan azad olunan ərazilərimizdə erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılması bu gün də davam edir. Bu həqiqətlərin bütün dünya əhalisinə tanıdılmasının bir üsulu da səyyahların işğaldan azad olunan ərazilərimizə səyahətlərinin təşkilidir. Mehrac Mahmudov da artıq bir müddətdir ki, dünya səyyahlarının Qarabağın müxtəlif ərazilərinə səyahətlərini təşkil edir. Belə səyahətlərdən biri də bu gün Laçına təşkil olunub.

Mehrac Mahmudov AZƏRTAC-a müsahibəsində deyib ki, bu artıq səyyahların işğaldan azad edilmiş ərazilərimizə doqquzuncu səfəridir. Belə ki, bu gün Laçına dünyanın iyirmi altı ölkəsindən əlli səyyah gəlib.

Təşkilatçının sözlərinə görə, bu səyahətlərin təşkil edilməsində əsas məqsəd ermənilərin bu ərazilərdə törətdiyi dağıntıları və bu dağıntılardan sonra Azərbaycanın burada apardığı bərpa və quruculuq işlərini səyyahlara göstərməkdi: "Səyyahlar burada gördüklərini videolentə alır və öz səhifələrində paylaşırlar. Onlar tanınmış səyyahlar olduğu üçün səhifələrində paylaşdlıqları videonu təmsil etdikləri ölkələrdə yaşayan insanlar görür və bununla da biz bu həqiqətləri dünyaya çatdırmış oluruq. Eyni zamanda o səyyahlar bu ərazilərin turizm potensialına malik olduğunu da görürlər".

Qeyd edək ki, indiyədək işğaldan azad olunan ərazilərə Mehrac Mahmudovun təşkilatçılığı ilə 300-dən çox səyyah gəlib.

**AZƏRTAC**
**2023, 5 noyabr**

**Laçında “Bayraq yürüşü” keçirilib**

Noyabrın 6-da Elm və Təhsil Nazirliyi və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Laçında “Bayraq yürüşü” keçirilib. 2014-cü ildən etibarən keçirilən “Bayraq yürüşü” bu il ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərimizdə təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Laçın şəhəri 2 nömrəli tam orta məktəbdə 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar tədbir keçirilib. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Müdafiə Nazirliyinin nümayəndəsi, Elm və Təhsil Nazirliyinin əməkdaşları, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin rəhbərliyi və əməkdaşları, Milli Qəhrəman Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova, şəhid Əlihüseyn Məmmədovun anası Arzu Məmmədova və digərləri tədbirdə iştirak ediblər.

Dövlət Himni səsləndirilib, şəhidlərin ruhu bir dəqiqəlik sükutla anılıb. Çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən söhbət açıb, azad olunan torpaqlarımızda sürətli tikinti-quruculuq işlərinin görüldüyünü vurğulayıblar.

Sonra muğam ifaçıları Ehtiram Hüseynov və Firuz Səxavətin ifaları dinlənilib.

Daha sonra yürüşə start verilib. Əsgərlər Dövlət Bayrağını 3 kilometrdən artıq yol qət edərək seyrangah adlanan əraziyə gətiriblər. Yürüş zamanı hərbi orkestrin ifasında vətənpərvərlik mahnıları səsləndirilib. Yürüşdə, ümumilikdə, 200-dən çox insan iştirak edib. Yürüş laçınlılar tərəfindən maraqla qarşılanıb.

Yürüşün keçirilməsində məqsəd Vətən müharibəsində qazanılmış Şanlı Qələbəni və bayrağımızın daşıdığı milli-mənəvi dəyərləri təbliğ etmək, şəhid və qazilərimizin tarixi Zəfər yolunu uca tutmaqdır.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi Müdafiə Nazirliyi ilə birgə 2014-cü ildən etibarən milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hisslərinin aşılanması məqsədilə 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş ənənəvi “Bayraq yürüşü” təşkil edir. Yürüşlər 2014-2016-cı illərdə Bakı şəhərində, 2017-ci ildə Tərtər rayonunda, 2018-ci ildə Füzuli rayonunun Horadiz şəhərində və 2019-cu ildə Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilib.

**14:26**

Elm və Təhsil Nazirliyi və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Laçında “Bayraq yürüşü” keçirilir. 2014-cü ildən etibarən keçirilən “Bayraq yürüşü” bu il ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərimizdə təşkil edilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar Laçında keçirilən yürüşdə Elm və Təhsil Nazirliyinin, Müdafiə Nazirliyinin, Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin rəhbər şəxsləri, hərbçilər, şəhid ailələri, qazilər, 44 günlük Vətən müharibəsində döyüşən müəllimlər, eləcə də şagirdlər, ictimaiyyət nümayəndələri iştirak edirlər.

Yürüşün keçirilməsində əsas məqsəd Vətən müharibəsində qazanılmış Şanlı Qələbəni və bayrağımızın daşıdığı milli-mənəvi dəyərləri təbliğ etmək, şəhid və qazilərimizin tarixi Zəfər yolunu uca tutmaqdır.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi Müdafiə Nazirliyi ilə birgə 2014-cü ildən etibarən milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hisslərinin aşılanması məqsədilə 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş ənənəvi “Bayraq yürüşü” təşkil edir. Yürüşlər 2014-2016-cı illərdə Bakı şəhərində, 2017-ci ildə Tərtər rayonunda, 2018-ci ildə Füzuli rayonunun Horadiz şəhərində və 2019-cu ildə Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 6 noyabr**

**Laçının göz oxşayan işıqlı gecələri**

Dağlar qoynunda yerləşən füsunkar təbiəti, gözəl mənzərələri olan Laçın, digər gözəlliyini də şəhərdə aparılan abadlıq işlərindən alır. Laçının gündüzləri qədər gecələr də diqqət çəkir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərində aparılan tikinti-quruculuq və abadlıq işləri sayəsində şəhər qısa müddətdə simasını dəyişib. Şəhərdə yaşayan əhalinin sayı artdıqca evlərdən eyvana düşən işıqların da sayı artır. Bir sözlə nura boyanan gecələri ilə Laçın şəhəri diqqəti cəlb edir.

Laçının gecə görüntülərini təqdim edirik.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 12 noyabr**

**Laçında ictimai nəqliyyat fəaliyyətə başlayacaq**

"Laçında əhalinin sosial rifahi və rahat yaşayışı üçün bir sıra işlər görülüb. Prioritet məsələ sakinlərin iş yerləri ilə təmin edilməsi və bu istiqamətdə lazımı addımların atılmasıdır. Yaxın günlərdə isə əhalinin gediş gəlişini yaxşılaşdırmaq üçün ictimai nəqliyyat fəaliyyətə başlayacaq".

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Bakı Abadlıq Xidməti MMC-nin memarı Elnur Abdullayev bildirib.

O, Laçın şəhərində yaradılan şərait barədə danışarkən qeyd edib ki, hazırda şəhərdə 1204 nəfər əhali yaşayır və prioritet məsələ həm də əhalinin işlə təmin olunmasıdır:

"Laçın şəhərinin mərkəzində ilkin olaraq 712 obyektdə tikinti işləri aparılıb və hazırda işlər davam etdirilir. İşlər görülən obyektlərin 75-i qeyri yaşayış, 628-i fərdi evlər və 144 mənzildən ibarət olan 9 ədəd ümumi yaşayış evləridir. Prezident İlham Əliyevin may ayının 28-də Laçına köçən 20 ailəyə evlərin açarları təqdim etməsindən bu günə kimi Laçına şəhərinə 1204 nəfər olmaqla 315 ailə, Zabux kəndinə isə 94 nəfər olmaqla 21 ailə köçürülüb. Bu ayda da Laçına 75 ailənin köçürülməsi nəzərdə tutulub. Laçın şəhərində köçlə yanaşı prioritet məsələ burada yaşayan sakinlərin işlə təmin edilməsidir. Hazırda Laçın şəhərində fəaliyyət göstərən müəssisələrdə 430-dan artıq sakin işlə təmin olunub. Əhalinin rahat yaşayışının təmin edilməsi üçün görülən işlər çərçivəsində şəhərin kommunikasiya xətləri çəkilib yekunlaşıb, Laçın şəhəri və Zabux kəndinə mavi yanacağın verilişi təmin olunub və 150 evdə birləşmə işləri görülür, yaxın günlərdə isə digər evlərə mavi yanacağın verilişi təmin olunacaq".

E.Abdullayev bildirib ki, Laçın şəhərinin içməli su ilə təminatı üçün işlər başa çatıb və 9 su anbarı, 3 yağış sularının toplanması üçün depo, 1 ədəd isə çirkab suların təmizlənməsi üçün qurğu istifadəyə verilib: "Alternativ olaraq Laçın şəhərinin su təminatı üçün dəniz səviyyəsindən 1800 metr hündürlükdə olan Xırmanlar kəndi ərazisindəki bulaqdan uzunluğu 8900 metr olan su xətti çəkilib və tamamən təbii bulaq suyunun şəhərə verilməsi məhz bu xətt ilə gerçəkləşir. Yağış sularının axıdılması üçün və kanalizasiya xətləri də tamamlanaraq istifadədədir.

Bütün kommunikasiya xətləri şəhərin estetik gözəlliyinin pozulmaması üçün məhz yeraltı olaraq çəkilib. Həmçinin Laçın şəhərində 1974-ci ildə tikilən kinoteatr binası artıq yenidən əsaslı təmir olunaraq istifadəyə verilib. May ayının 1-dən Laçın şəhərində modul tipli xəstəxana, aptek, məktəb, marketlər əhali üçün xidmətini yüksək səviyyədə davam etdirir. Bundan başqa, Laçın şəhəri ərazisində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə birlikdə hazırlanan ictimai nəqliyyatın təşkili ilə bağlı layihə üzrə marşrut xətləri xəritə üzərində tərtib olunub və yaxın günlərdə Laçında ictimai nəqliyyatın fəaliyyəti gerçəkləşəcək".

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 13 noyabr**

**Laçının daha 40 sakini doğma yurda qayıdır**

Noyabrın 14-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 10 ailə (40 nəfər) köçürülüb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Qeyd edək ki, bununla da Laçın şəhərində 325 ailənin (1245 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2023, 14 noyabr**

**Laçının Zabux kəndinə ikinci köç - 25 ailə doğma yurduna qayıdır**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın rayonunun Zabux kəndinə növbəti köçü reallaşıb.

AZƏRTAC xəbər verir ki, paytaxtda və Abşeronda məskunlaşan 20 ailə (71 nəfər) noyabrın 16-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola düşüblər.

Tərtər, Bərdə, Qax və Lənkəran rayonlarında məskunlaşan 5 ailə (23 nəfər) isə məskunlaşdıqları ərazidən yola salınacaq və onlar Horadiz şəhərində köç karvanına qoşulacaqlar. Həmin rayonlardan köç karvanına qoşulacaq ailələrin sayı isə belədir: Tərtər rayonundan 2 ailə (10 nəfər), Bərdə rayonundan 1 ailə (5 nəfər), Qax rayonundan 1 ailə (4 nəfər), Lənkərandan 1 ailə (4 nəfər).

Ümumilikdə bu dəfə kəndə 25 ailə - 94 nəfər köçürülür.

Köç karvanları Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və "Bakı Abadlıq Xidməti" MMC-nin nümayəndələri tərəfindən qarşılanacaq və onların yaşayış sahələrində yerləşdirilməsi ilə bağlı zəruri tədbirlər görüləcək.

Qeyd edək ki, Zabux kəndinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondudur.

Beləliklə, bununla da Laçın rayonunun Zabux kəndinə köçürülən ailələrin sayı ümumilikdə 46-ya (188 nəfər) çatıb.

Xatırladaq ki, Zabuxa ilk köç bu il avqustun 25-də baş tutub.

**Xəyalə Cəfərova**

**AZƏRTAC**
**2023, 16 noyabr**

**Böyük Qayıdış: Daha 91 nəfər Zabuxa yola salındı**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçına keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, noyabrın 20-də rayonun Zabux kəndinə növbəti 25 ailə (91 nəfər) yola düşüb.

Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da indiyədək Zabux kəndində 96 ailənin, yəni, 382 nəfərin daimi məskunlaşması təmin edilib.

Xatırladaq ki, kəndə ilk köç bu il avqustun 25-də baş tutub.

**AZƏRTAC**
**2023, 20 noyabr**

**Laçın rayonuna infotur təşkil edilib**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində Laçın rayonuna növbəti infotur təşkil edib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, infotur iştirakçılarına I Dövlət Proqramında təsbit olunmuş tədbirlərin icrası və Prezident İlham Əliyevin verdiyi tapşırıqların yerinə yetirilməsi ilə bağlı görülən işlər barədə məlumat verilib. Ziyarətçilərə bildirilib ki, Laçın şəhərində və eləcə də Laçın rayonunun Zabux kəndində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən sonra keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Laçın şəhərində geri qayıdan əhalinin yaşayış şəraiti ilə yaxından tanış olan infotur iştirakçıları buradakı yaradılan yeni iş yerləri və digər infrastruktur obyektlərinə baş çəkib, sakinlərlə söhbətləşiblər.

Ziyarətçilər Laçın rayonunda bu ilin avqust ayında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə açılışı keçirilən "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunda da olublar. Pavilyonda nadir dekorasiyalar - təyyarə, helikopter, həbsxana, elmi laboratoriya və üçtərəfli yaşıl ekran quraşdırılıb. Bu da infotur iştirakçılarının daha çox diqqətini cəlb edib.

İnfotur iştirakçıları daha sonra Laçın rayonunda yaradılmış iş yerləri - mebel fabriki və heyvandarlıq təsərrüfatının işi ilə yaxından tanış olublar. Ziyarətçilərə bildirilib ki, iş yerlərində çalışlanların mütləq əksəriyyəti Laçın rayon sakinləridir.

Daha sonra infotur iştirakçıları Laçın rayonunun Zabux kəndinə gediblər, doğma yurda qayıtmış sakinlərin qonağı olublar. Sakinlər kənddə yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər. İnfotur iştirakçıları Zabux kəndində çəkilişlər aparıblar. Onları maraqlandıran suallar cavablandırılıb.

İnfotura müxtəlif özəl yaradıcılıq subyektlərinin rəhbərləri və əməkdaşları, o cümlədən məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri ilə bağlı Dövlət Komitəsinin tərəfdaşı olan şirkətlərin nümayəndələri qatılıblar.

Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində işğaldan azad edilmiş ərazilərə infoturlar davam etdiriləcək.

**AZƏRTAC**
**2023, 21 noyabr**

**Daha 21 laçınlı ailə doğma yurda yola salınıb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, noyabrın 22-də növbəti köç karvanı Bakının Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

Bu mərhələdə Laçın şəhərinə daha 21 ailə - 81 nəfər köçürülür.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərinə köçürülənlərin sayı 1326 (346 ailə) nəfərə çatıb.

**AZƏRTAC**
**2023, 22 noyabr**

**Laçında peyk internet platforması quraşdırılıb**

“Azərkosmos” Laçında “Azconnexus” platforması üzərindən internet xidmətlərini təmin etmək məqsədilə ilk KA diapazonlu anten quraşdırıb.

AZƏRTAC Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, məqsəd dağlıq relyefə malik olan Laçın rayonu ərazisində “Azconnexus” peyk interneti sayəsində müasir rəqəmsal xidmətlərə əlçatanlığı təmin etmək və telekommunikasiya sahəsini inkişaf etdirməkdir.

“Ənənəvi peyk tezlik diapazonlarından daha yüksək ötürmə qabiliyyətinə malik olan KA diapazonu çox kiçik ölçülü antenlər üçün əlverişli əhatə dairəsi yaradır. Bu da internet xidməti provayderləri və telekommunikasiya operatorlarına ucqar və dağlıq ərazilərdə öz şəbəkələrini genişləndirməyə imkan verəcək”, - deyə məlumatda bildirilir.

**AZƏRTAC**
**2023, 22 noyabr**

**Böyük Qayıdış: Zabuxa növbəti 25 ailə yola salınıb**

Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Laçın rayonunun yenidən salınan Zabux kəndinə noyabrın 23-də daha 25 ailə - 93 nəfər köçürülüb.

AZƏRTAC xəbər verir ki, Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bunun la da, Zabux kəndində 121 ailənin, yəni, 475 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2023, 23 noyabr**

**Laçında ilk dəfə keçirilən əmək yarmarkasına 16 müəssisə üzrə 200-dək vakansiya çıxarılıb**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Laçında ilk dəfə olaraq əmək yarmarkası təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərindəki 2 saylı tam orta məktəbdə keçirilən yarmarkada təqdim olunan vakansiyalar şəhərə köçürülən sakinlərin işlə təmin edilməsinə əlavə dəstək məqsədi daşıyır.

Yarmarkada əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.

Qonaqlar yarmarkada təqdim olunan vakansiyalarla tanış olub, işəgötürənlərlə söhbət ediblər.

Əmək yarmarkasında müxtəlif sektorlardan olan və Laçında fəaliyyət göstərən 16 müəssisə üzrə 200-ə yaxın vakansiya təqdim edilib. Laçın sakinləri işğaldan azad olunan ərazilərdəki vakansiyalar haqqında məlumatlar əldə edib, uyğun iş yerləri üzrə müraciət etmək imkanı qazanıblar. Həmçinin iştirakçılara Agentliyin aktiv məşğulluq tədbirləri ilə bağlı məlumat verilib.

Yarmarkanın keçirilməsində əsas məqsəd işğaldan azad olunan ərazilərə köçürülən şəxslərin məşğulluğunu təmin etmək, işsiz və iş axtaran şəxslərlə işəgötürənlər arasında əlaqə yaratmaq və işəgötürənlərin ixtisaslı kadr tapmalarına dəstək olmaqdır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 24 noyabr**

**Laçının daha 63 sakini doğma yurda yola salındı**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, noyabrın 29-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 17 ailə - 63 nəfər köçürülüb.

Bununla da Laçın şəhərində 363 ailənin (1389 nəfər) daimi məskunlaşması təmin edilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

**AZƏRTAC**
**2023, 29 noyabr**

**Laçında tikilən yeni məscid işğaldan azad edilən ərazilərdə ən böyük məscidlərdən biri olacaq**

İşğaldan azad olunan ərazilərdə aparılan tikinti-quruculuq işləri çərçivəsində məscid və məbədlərin, dini inanc yerlərinin bərpası və tikintisi də xüsusi nəzarətdə saxlanılır. Hazırda Laçın şəhərində inşa edilən məscid binası azad olunan ərazilərdə ən böyük məscidlərdən biri olacaq.

Erməni vandalizmi Laçındakı ibadət ocaqları, məscid və digər abidələrdən də yan keçməyib. Erməni işğalı zamanı daş-divarlarındakı yaddaş tarixləri silinərək erməniləşdirilməyə və dünyaya erməni xalqının yazılı abidələri kimi təqdim edilməyə cəhd olunub. Torpaqlarımız azad olunduqdan sonra isə yaşayış yerləri və digər infrastruktur işləri ilə paralel, sözügedən dini abidələrin, məscidlərin, məbədlərin bərpası və yenidən inşası da xüsusi diqqətdə saxlanılır. Hazırda Laçın şəhərində yeni məscid inşa olunur.

“Laçın Abadlıq Xidməti” ASC-nin direktor müavini Elnur Abdullayev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib ki, Laçın rayonu ərazisində çoxlu sayda məscid, məbəd inanc yerləri olub, lakin işğal zamanı sözügedən tikililər ermənilər tərəfindən dağıdılıb. Hazırda işğaldan azad olunan ərazilərdə ən böyük məscidlərdən biri məhz Laçında inşa olunur. Məscid kompleksinin ərazisi 1 hektara yaxın sahəni əhatə edəcək.

“Relyefə uyğun inşa edilən məscid iki mərtəbədən ibarət olacaq, birinci mərtəbədə texniki otaqlar yer alacaq. İkinci mərtəbə isə birbaşa məscidin qarşısındakı eyvana açılacaq ki, bu da əhalinin rahat ibadəti üçün məscidə girişi təmin edəcək. Məsciddə qadınlar və kişilər üçün ayrıca ibadət zalları, dəstəmaz otaqları olacaq. 600 kvadratmetrə yaxın sahəsi olacaq məscid binası 16 metr hündürlükdə bir günbəz və hər biri 24 metr hündürlükdə iki minarə ilə layihələndirilib. Məscid şəhərin hər yerindən görünəcək və azan səsinin şəhər ərazisinə daha rahat yayılmasına imkan yaranacaq. Məscid şəhərin qərb hissəsində girişdə magistral yolun kənarında yerləşir ki, bu da şəhərə gələn turist və qonaqların burada rahat ibadət etməsi üçün nəzərdə tutulub”, - deyə Elnur Abdullayev əlavə edib.

Laçında inşa edilən məscidin tikintisində iştirak edənlər də elə laçınlılardır. Söhbət etdiyimiz Zöhrab Hüseynov 31 il Laçına həsrət qalsa da, artıq doğma yurduna qovuşub: “Ailəmlə birlikdə Laçından məcburi köçkün düşəndə 16 yaşım var idi. İllərlə həsrətində olduğumuz Laçına məhz Ali Baş Komandan İlham Əliyevin və güclü ordumuzun sayəsində qayıda bildik. Hazırda Laçının abadlaşmasında, yenidən qurulmasında iştirak etdiyim üçün qürurluyam. Həm də məscidin inşa olunmasında çalışmaq özü də bir fəxrdir. Burada həmyerlilərimlə birlikdə çalışırıq”.

İlkin Mirzəzadə də əslən Laçındandır. O, 2000-ci ildə dünyaya göz açıb, Laçın haqqında yalnız valideynlərindən və böyüklərdən məlumat alıb. “Şəhərimiz, dağlarımız gözəldir. Laçına ilk dəfə gəldiyimdə sanki yuxuda idim. Laçın, sözün əsl mənasında, gözəlliyi ilə göz oxşayır. Şəhərdə bütün şərait yaradılıb, evlər bərpa olunur, yeni evlər tikilir, yollar abadlaşdırılır, iş yerləri açılır”, - deyə o əlavə edib.

Məscidin inşasında çalışan işçilərdən biri də Şakir İsmayılovdur. Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edən Şakir indi Laçının abadlaşması üçün çalışır: "Bizlər Laçınımıza qovuşacağımız günü səbirsizliklə gözləyirdik. Laçın uğrunda döyüşlərdə iştirak etdiyimiz zaman hətta 14 gün mühasirədə qaldıq, qeyri-bərabər qüvvə ilə şəhəri qorumağa çalışırdıq, lakin təəssüf olsun ki, həmin vaxt Laçını itirdik. İndi Laçınımıza qovuşmuşuq, bu xoşbəxt günlərə görə Prezident İlham Əliyevə, Ordumuza minnətdarıq. Laçında yaşamaq və burada çalışmaq bizlər üçün həyatımızın ən gözəl günlərinin yenidən başlanması deməkdir".

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 30 noyabr**

## Ay Laçın, can Laçın - strateji mövqedə yerləşən rayonun azad edilməsinin ildönümüdür

*Laçınlılar 30 il həsrətində olduqları doğma yurda qayıdışın sevincini yaşayırlar*

Azərbaycanın dilbər guşələrindən biri olan, strateji mövqedə yerləşən Laçının işğaldan azad edilməsindən üç il ötür. Qırx dörd günlük Vətən müharibəsinin gedişində ordusu tamamilə darmadağın edilən Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və üç rayonumuzdan, o cümlədən Laçından öz qoşunlarını çıxardı. 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycan Silahlı Qüvvələrinə təhvil verildi və bununla da otuz ilə yaxın davam edən işğala son qoyuldu.




AZƏRTAC Laçının işğaldan azad edilməsi prosesinə, hadisələrin sonrakı gedişinə, son üç ildə rayonda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə bir daha nəzər salır.

**Laçın öz azadlığına necə qovuşdu?**

Ümumilikdə 127 yaşayış məntəqəsindən ibarət olan Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan əvvəl rayonda 65 min nəfər əhali yaşayırdı. Birinci Qarabağ müharibəsində 264 nəfər laçınlı şəhid olub, 65 nəfər girov götürülüb, 103 nəfər sağlamlığını itirib.

İşğal illərində digər ərazilər kimi, Laçın rayonu da erməni vandalizminə məruz qalıb. Rayondakı 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, beş musiqi məktəbi, bir internat məktəbi, bir orta texniki peşə məktəbi, iki avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edilib. Eyni zamanda 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidəyə böyük ziyan vurulub.



Son statistikaya görə Laçının əhalisi artaraq 80 min nəfəri ötüb, laçınlılar respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb.

Prezident İlham Əliyev xalqa müraciətində Laçının işğaldan azad olunmasının əhəmiyyətini vurğulayaraq deyib: "Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər – 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı... Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə".



2022-ci ilin avqustun 26-da isə Ordumuz Laçın şəhərini, Zabux və Sus kəndlərini nəzarətə götürdü. Nəhayət, sentyabrın 21-də Laçın şəhərində Müzəffər Ali Baş Komandan tərəfindən Azərbaycanın Dövlət Bayrağı ucaldıldı.



Çox keçmədən daha bir mühüm addım atıldı. Üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə bu il aprelin 23-də Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da proseslər öz məntiqi sonluğuna çatdı.

**Laçın bərpa edilir, yenidən qurulur**

İşğaldan azad olunmuş ərazilərdə üç ilə yaxındır ki, möhtəşəm bərpa-quruculuq işləri həyata keçirilir. Sıfırdan yeni şəhərlər və kəndlər inşa edilir. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpası nəzərdə tutulur.



Laçın rayonuna da həyat yenidən qayıdır. Prezident İlham Əliyev rayona ilk səfəri zamanı Güləbird Su Elektrik Stansiyası işə salındı. Həmin stansiya təxminən 7 min nəfər əhalini, həmçinin Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidəki digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.



Hazırda uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi gedir. Yol üzərində üç tunel tikilir. 2020-ci il iyunun 26-da təməli qoyulan Laçın Beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Dövlətimizin başçısı Laçına səfərləri zamanı Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsinin, Şəlvə və Güləbird kəndlərinin, Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub.



**Doğma yurda qayıdışın sevinci**

Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonunadək azad olunan ərazilərdə 34 min 500 evin tikilməsi, 140 min keçmiş məcburi köçkünün öz doğma evlərinə köçürülməsi planlaşdırılır.



**Bu il Laçın şəhərinə 700 ailənin köçürülməsi nəzərdə tutulur**

Bu il mayın 28-dən başlayaraq laçınlıların da doğma yurda qayıdışına start verilib. Artıq Laçın şəhəri 346 ailəyə qucaq açıb, 1326 laçınlının yurd həsrəti bitib. Zabux kəndinə isə 121 ailə, ümumilikdə 476 nəfər köçürülüb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar. Ümumiyyətlə Böyük Qayıdış Proqramına əsasən, 2023-cü ildə Laçın şəhərinə 700 ailənin, rayonun Zabux və Sus kəndlərinə isə 800-dən çox sakinin köçürülməsi nəzərdə tutulur.

Laçına növbəti səfəri zamanı Prezidenti İlham Əliyev şəhərə qayıdan insanlarla görüşüb, onlara evlərin açarlarını təqdim edib.



**Laçının bu günü və yaxın perspektivləri**

Laçında bərpa-quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş “15 dəqiqəlik şəhər” prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı

sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkəti təmin ediləcək.




Digər tərədən Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Həmçinin istehsalat, xidmət və tədris müəssisələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır.

Bu il avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar. Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməli qoyulub. Rayonda "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyaları, rayon 2 nömrəli tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib, "Həkəri Balıq Təsərrüfatı"nın, "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub.



Avqustun 26-da "Laçın Şəhəri Günü" bayram tədbirindəki çıxışında rayonun yaxın perspektivi ilə bağlı bəzi məqamları açıqlayıb: "İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol

çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşıb və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir".





Göründüyü kimi, azad olunmuş ərazilərə Böyük Qayıdış proqramı uğurla reallaşır, doğma yurda qayıdanların sevinci yerə-göyə sığmır. Bu tükənməz sevincdən minlərlə laçınlıya da pay düşür.

**AZƏRTAC**
**2023, 1 dekabr**

**Laçın dünyanın ən gözəl rayonlarından birinə çevrilir – RƏY**

Laçın rayonunun Azərbaycanın nəzarətinə keçməsinin üçüncü ildönümüdür. Hərbi ekspert Ədalət Verdiyev AZƏRTAC-a deyib ki, Laçının işğaldan azad olunması Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət daşıyan hadisələrdəndir: "Çünki Laçın rayonunun yerləşdiyi coğrafi ərazi Şuşa və Kəlbəcərlə yanaşı, ölkəmiz üçün böyük əhəmiyyət daşıyırdı. Belə ki, Ermənistanı Qarabağla birləşdirən yol məhz Laçın rayonunun ərazisindən keçirdi. Bu yolun Azərbaycanın nəzarətində olması Ermənistanla Qarabağın əlaqəsini tam məhdudlaşdırdı".



O xatırladıb ki, Laçının azad edilməsinə qədər Azərbaycan 44 günlük müharibə ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərini, Hadrut qəsəbəsini və bir çox digər əraziləri hərbi yolla işğaldan azad etmişdi: "Bu ərazilərdə Azərbaycan Silahlı Qüvvələrinə qarşı müqavimət göstərməyə cəhd göstərən düşmənin əsas qüvvələri darmadağın edilmişdi. Bu da Ermənistanda dərin hərbi-siyasi böhranın baş verməsinə gətirib çıxarmışdı. Laçın azad olunanədək düşmən bir neçə milyard dollarlıq silah-sursat və texnikasını artıq itirmişdi. Digər tərəfdən, həmin silah-sursat və texnikaların böyük hissəsi Azərbaycan tərəfindən qənimət götürülmüşdü.

Nəticə etibarilə Laçının düşmənin kapitulyasiya aktından sonra azad edilməsi Ermənistanın hərbi potensialının müqavimət immunitetini itirməsi ilə birbaşa əlaqəlidir. Vətən müharibəsində kifayət qədər böyük itkilərə məruz qalan Ermənistan Azərbaycan qarşısında məğlubiyyətini üçtərəfli birgə bəyanatı imzalamaqla təsdiqlədi. Təcavüzkar ölkə Ağdam, Kəlbəcər və Laçın rayonlarından öz xoşu ilə çıxmadı, bu rayonlardan çıxmağa məcbur oldu. Çünki İkinci Qarabağ müharibəsinin davam etməsi Ermənistan üçün daha ağır və fəlakətli nəticələr vəd edirdi".

**Ötən ilin sonundan başlayan ekofəalların aksiyası bu il Laçın nəzarət-buraxılış məntəqəsinin quraşdırılması ilə yekunlaşdı**



Hərbi ekspertin sözlərinə görə, sonrakı iki il ərzində erməni hərbi birləşmələri Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindən istifadə edərək Laçın yolu ilə intensiv hərbi daşımalara fasilə vermədi: “Onlar bu yoldan hərbçilərini Azərbaycandan çıxarmaq əvəzinə ölkəmizin ərazilərinə təkrar silah-sursat, yeni istehsal olunmuş minalar, şəxsi heyət daşımaqla məşğul oldular. Eyni zamanda da Azərbaycanın təbii sərvətlərini Ermənistana məhz Laçın yolu vasitəsilə daşınmasına üstünlük verdilər. Düşmən ölkənin bu davranışları Azərbaycanı qane edə bilməzdi. Ötən ilin son günlərindən başlayan ekofəalların aksiyası bu il aprelin 23-də Laçın nəzarət-buraxılış məntəqəsinin quraşdırılması ilə başa çatdı. Həmin proses birmənalı olaraq Azərbaycanın sərhəd bütövlüyünün tamamilə bərpası ilə nəticələndi.

Bundan başqa, Azərbaycan tərəfi ilk dəfə olaraq müstəqillik tariximizdə Ermənistanla şərti sərhəddəki Zabux və Cağazur kəndləri arasındakı hakim yüksəkliklərə nəzarəti, iki ölkə arasındakı şərti sərhədlərini tamamilə bərpa etdi. Lakin bir çox Qərb dairələri bəzən açıq, bəzən isə üstüörtülü şəkildə Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı nəticələrlə məhdudlaşmağı istəyərək Laçın sərhəd-keçid məntəqəsinin yaradılmasına qarşı çıxdılar. Onlar təcavüzkar ölkənin mövqeyini dəstəkləyərək Laçın rayonunu Ermənistanın Qarabağla əlaqəsi üçün istifadə edilməsinə tərəf çıxırdılar. Fransa kimi bəzi dairələr isə ümumiyyətlə Laçın rayonunun Ermənistan tərəfinin nəzarətində qalmasını istəyirdilər”.

**Silahlı Qüvvələrimizin Laçın və Kəlbəcərdəki birlik və birləşmələri xidməti vəzifələrini şərəflə yerinə yetirirlər**



Ə.Verdiyev bildirib ki, Azərbaycan çox qısa müddətdə Şərqi Zəngəzurun, o cümlədən Laçının təhlükəsizlik və müdafiəsi istiqamətində böyük işlər görüb: “Bunların arasında ilk növbədə Laçının yüksək dağlıq ərazisində həm rayonun, həm də ətraf ərazilərin hava hücumundan müdafiəsi üçün zəruri infrastrukturun yaradılması da daxildir. Laçın sərhəd-nəzarət buraxılış məntəqəsinə qədərki ərazilərin, İran və Ermənistanla sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün Qubadlıda sərhəd diviziyası yerləşdirilib. Laçın və Kəlbəcər ərazisindəki Ermənistanla şərti sərhədin müdafiəsində isə Silahlı Qüvvələrimizin birlik və birləşmələri xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Bundan başqa, Şərqi Zəngəzurda bir neçə komanda hərbi hissələri yaradılıb və onların təminat-təchizatı məsələləri müasir standartlar səviyyəsində təşkil olunub.



Hazırda digər azad olunan ərazilərə olduğu kimi, Laçına da əhalinin köçürülməsi intensiv şəkildə davam edir, Laçına həyat yenidən qayıdıb. Laçın şəhər mərkəzi demək olar ki, Avropa standartları səviyyəsində bərpa olunub, əhalimizin rahat yaşayışı və fəaliyyəti üçün bütün infrastruktur yaradılıb. Laçın hazırda nəinki Azərbaycanın, dünyanın ən gözəl rayonlarından birinə çevrilir.

Bir sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və qəhrəman Silahlı Qüvvələrimizin sayəsində Azərbaycanın işğal altında qalmış bütün əraziləri hazırda düşməndən təmizlənib və onların təhlükəsizliyi tamamilə təmin edilib”.

**AZƏRTAC**
**2023, 1 dekabr**

**Polkovnik: Laçın sürətli inkişafı ilə heyrətləndirir**

Laçının hərbi əməliyyatlarsız erməni işğalından azad edilməsi Azərbaycan dövlətinin, onun diplomatiyasının və bilavasitə Prezident İlham Əliyevin tarixi uğurudur.

AZƏRTAC xəbər verir ki, bunu Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov bildirib.

Hərbi-siyasi ekspert qeyd edib ki, üç il əvvəl Laçının bir güllə belə atılmadan azad edilməsi yüzlərlə hərbçimizin həyatını xilas edib: "2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanata uyğun olaraq Laçının erməni işğalından azad edilməsi böyük diplomatik qələbə olmaqla yanaşı, yüzlərlə hərbçimizin həyatını xilas etdi.

Məlum olduğu kimi, Laçının mürəkkəb relyefə malik olması onun hərbi əməliyyatlar yolu ilə azad edilməsini ikiqat çətinləşdirirdi. Şübhəsiz ki, noyabrın 10-da imzalanan Bəyanat olmasaydı da, Azərbaycan Ordusu dağlıq və yüksək dağlıq relyefdə yerləşən bir çox yaşayış məntəqəsi kimi, Laçını da hərbi əməliyyatlar yolu ilə azad edəcəkdi. Lakin bunun itkilərsiz həyata keçirilməsi mümkün olmayacaqdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərdiyi səylər nəticəsində Laçının siyasi-diplomatik yolla azad edilməsi bu itkilərdən sığortalamış oldu. Laçının döyüşsüz azad edilməsi göstərdi ki, Azərbaycan hərbi müstəvidəki uğurlarını diplomatik müstəvidə də davam etdirir və bütün platformalarda həlledici söz sahibidir".

Hazırda Laçında geniş quruculuq işlərinin həyata keçirildiyi barədə bəhs edən polkovnik Cəlil Xəlilov daha sonra deyib: "İşğaldan azad ediləndən dərhal sonra Laçının minalardan, müxtəlif döyüş sursatlarından təmizlənməsi prosesinə start verildi. Həmin prosesə paralel olaraq erməni işğalı dönəmində dağıdılan, viran edilən rayonun yenidən inşasına başladıldı. Qısa zaman ərzində Laçın şəhərində, eləcə də Laçının bir neçə kəndində fundamental quruculuq işləri həyata keçirildi. Artıq görülən işlər öz məntiqi nəticəsini verir. Bu gün Laçına göstərilən diqqət və dövlət qayğısı sayəsində şəhər öz müasir tikililəri, infrastrukturu, park və kommunikasiyaları ilə Avropanın qabaqcıl yaşayış məntəqələri səviyyəsinə yüksəlməkdədir. Təbiətin qoynunda yerləşən Laçında ekoloji təmiz enerji mənbələrindən istifadə edilməsi, quruculuq işlərinin təbiətlə harmoniya şəklində təşkili ölkəmizin füsunkar və dilbər guşəsinin daha da çiçəklənməsi, tərəqqi etməsi və öz ilkin gözəlliyini qorumasına xidmət edir.

Dövlət başçısı son üç il ərzində dəfələrlə Laçına səfərlər etmiş, bölgədə həyata keçirilən quruculuq prosesi ilə maraqlanmış və prosesi diqqət mərkəzində saxlamışdır. Məhz bu diqqət və qayğı sayəsində bu gün Laçında bir sıra müəssisələr fəaliyyət göstərir ki, bu da doğma yurda qayıdan keçmiş məcburi köçkünlərin məşğulluğunun yüksək səviyyədə həlli baxımından mühüm əhəmiyyətə malikdir".

"Laçının simasının sürətlə dəyişməsi bütün dünyada böyük maraqla izlənilir. Prezident İlham Əliyev həyata keçirdiyi quruculuq siyasəti ilə bu torpaqların əsl sahibinin kim olduğunu bir daha isbat etdi. Dağlar qoynunda yerləşən bu diyarın əsl sahibi azərbaycanlılardır və onlar əbədiyyətə qədər bu torpağın gerçək sahibləri olaraq qalacaqlar".

**AZƏRTAC**
**1 dekabr, 2023**

**Hərbi şərhçi: Ötən bir il ərzində Laçında hərbi infrastruktur daha da gücləndirilib**

Laçın rayonu Qarabağ münaqişəsinin başladığı ilk illərdən strateji əhəmiyyəti ilə digər rayon və şəhərlərimizdən fərqlənib. Ermənistan ordusu Laçını işğal edərək Qarabağla, separatçılarla Ermənistan ərazisindən bağlılıq yaratmaq niyyətində idi. Hər zaman Laçın və buradan keçən dəhliz uğrunda gərgin döyüşlər gedib, nəhayət, Ermənistan bu şəhəri işğal edib. Bundan sonra gedən proseslər artıq bizə məlumdur.

Bunu AZƏRTAC-a açıqlamasında Xəzər Müdafiə Tədqiqatları Mərkəzinin rəhbəri, hərbi şərhçi Ramil Məmmədli deyib.

Onun sözlərinə görə, sonrakı mərhələlərdə digər rayonların da işğal olunduğunu qeyd edən Ramil Məmmədli bildirib ki, 2020-ci ildəki 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin bir-birinin ardınca qazandığı Zəfər, uğurlu hərbi əməliyyatlar nəticəsində ordumuz Qubadlıdan sonra Laçın rayonuna daxil oldu.

Güləbird və Səfiyan kəndlərini işğaldan azad edən Ordumuz artıq Laçın şəhəri istiqamətində hərəkət etməyə başladı. Azərbaycan Ordusunun bu istiqamətdə əldə etdiyi üstünlüklər sayəsində o, artıq Laçını işğaldan azad etməyə yaxın idi. Lakin Ermənistanın baş naziri 2020-ci il 10 noyabr təslimçilik Bəyanatını imzaladıqdan sonra Ermənistan Laçını təhvil vermək məcburiyyətində qaldı.

Ötən bir il ərzində Laçın rayonu ilə bağlı bir sıra sürətli proseslər baş verdiyini xatırladan Mərkəzin rəhbəri deyib: “Ötən ilin payız aylarında Qarabağdakı separatçı erməni hərbi birləşmələrinin silahlanmasının qarşısının alınması üçün atılacaq addımlar müzakirə olundu və bununla bağlı cəmiyyətdə müəyyən fikirlər səsləndirildi. Azərbaycan dövləti ötən bir il ərzində Laçında hərbi infrastrukturu daha da gücləndirdi. Biz Həkəri çayı üzərindəki sərhəd-keçid məntəqəsinin yaradılmasını hərbi infrastrukturun pik zirvəsi adlandıra bilərik. Beləliklə, proseslər fərqli formada davam etməyə başladı və əslində erməni separatizmi məhz bundan sonra tam məğlub olduğunu dərk etməyə başladı”.

R.Məmmədli söyləyib ki, ötən bir il ərzində Laçında həm Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının böyük infrastruktura malik olan hərbi birləşməsi formalaşdırıldı, həm də Daxili İşlər Nazirliyinin Quru Qoşunlarının hərbi hissələri yaradıldı. Həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin strukturlarının sayı artırıldı. Nəhayət, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri nəticəsində Qarabağdakı erməni hərbi birləşmələri sonrakı mərhələdə özləri ərazini tərk etdilər və onların hərbi infrastrukturları darmadağın edildi. Bütün bunlar birdən-birə olmayıb, dövlətimiz və Prezident, Ali Baş Komandan İlham Əliyev müvafiq istiqamətdə mərhələli addımlar atıb. Hazırda Laçın Azərbaycanın inkişaf etməkdə olan ən sabit bölgələrindən birinə çevrilməkdədir.

**AZƏRTAC**
**1 dekabr, 2023**

**Yazıçı Şərif Ağayar: Laçın hər kəsin qürur yeri olacaqdır...**

Prezident, Ali Baş Komandan İlham Əliyevin Laçına səfəri zamanı Həkəri çayının sahilində salınmış bulvarda keçirilən bayram şöləni zamanı yeni yaradılan "Hoçazfilm"i ziyarət etdi. Laçındakı "Hoçazfilm" studiyasında elə bir şərait yaradılıb ki, təkcə bölgə rayonlarından deyil, bütün respublikadan, hətta Bakıdan bura çəkiliş üçün gələcəklər. Studiyada dekorativ vertolyot, təyyarə salonu və həbsxana yaradılıb. Üstəlik modern avadanlıqları ilə təchiz olunmuş xüsusi laboratoriya var.

Studiyada Laçının igid oğlu Xosrov bəy Sultanovdan bəhs edən "Qubernator" filmi çəkilir. Xosrov bəy qısa vaxt ərzində Zəngəzur və Qarabağda baş qaldıran erməni separatçılarını məğlub edərək Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini bərpa etmiş, Ağdamdan Şuşaya hərbi parad keçirmişdi. Ondan yüz il sonra eyni Zəfər paradı Xankəndində keçirildi.

Artıq çəkilişləri yekunlaşmaq üzrə olan "Qubernator" filmin ssenarisi, yazıçı Şərif Ağayara məxsusdur. İstedadlı yazıçı bu yaxınlarda bir qrup həmkarı ilə birlikdə doğma rayonu ziyarətdən qayıdıb.

O, AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: "Laçın rayonu dörd tərəfdən dağlarla əhatə olunub. Şimalda Dəlidağ, cənubda Kirs, şərqdə Qırxqız, qərbdə İşıqlı silsilələri... Bu əfsanəvi genişlik içərisində yaşıl bir okean dalğalanır. Kəndlər bu yaşıl çəmənlərin və meşələrin arasındadır.

Dərdin də, sevincin də işıqlısı olurmuş. Qələbə içimizin rəngini tamam dəyişmişdi və bunu Laçında daha aydın hiss edirdim. Laçın son abadlıq və köçürmə işlərindən sonra əməlli-başlı şəhərə çevrilib. Küçəni keçəndə maşınların sırasının seyrəlməyini gözləməli olursan".

Yazıçı səfər təəssüratı barədə danışarkən deyib: "Əvvəlcə laçınlıları çox doğma olan "Abidə"ni ziyarət etdik. Bura Laçının "Dağüstü parkı" da demək olar. Şəhərin mərkəzində ən hündür yerdir. O vaxt burada 1941-1945-ci il müharibəsində həlak olanların xatirəsinə abidə qoymuşdular. Ermənilər abidə-kompleksi dağıtmasalar da, onun hər tərəfini cızıb-yazıb erməniləşdirməyə çalışıblar. Ona görə bizimkilər tamamilə söküb yenidən tikmək qərarına gəldilər.

"Abidə"dən nəinki Laçın şəhərini, hətta rayonun əksər hissəsini seyr etmək mümkündür. Eyni zamanda, Ermənistanın sərhəd kəndləri, Qərbi Zəngəzur dağları, bəlkə də Ordubad dağları da görünür. Eyni zamanda, buradan həm Zabux yolunu, həm də Ermənistan tərəfdən indiki sərhəd keçid məntəqəsinə enən yolu asanlıqla müşahidə etmək mümkündür.

"Abidə"dən haradasa 40 kilometr şimali-qərbdə yerləşən "Böyük İşıqlı" da aydın havada görünür. Hoçaz qayasının sol tərəfindən görünən qar başqa hansı zirvədə ola bilər?

Tat dərəsi və Həkəri çayının üstündə yaradılmış sərhəd-keçid məntəqəsi... Onlardan biri Andronikin darmadağın edildiyi, o biri separatçı rejimin quldurlarından olan Vaqif Xaçaturyanın tutulub Bakıya gətirildiyi yerdir. Artıq eyni çayın üstündə yerləşən Tat dərəsi kimi keçid məntəqəsi də öz qəhrəmanlıq tarixçəsi ilə yaddaşlara həkk olunub.

Laçının bir çox kəndləri xalqımızın möhtəşəm Zəfəri ilə başa çatan Vətən müharibəsindən sonra noyabrın 10-da imzalanan sülh sazişi ilə azad edilsə də, Qarabağ ermənilərinə Ermənistanla əlaqə saxlamaq üçün şəhərdən müvəqqəti yol verilməsi barədə razılıq əldə olunmuşdu. Ancaq tez bir zamanda Laçını alternativ yolun çəkilişi ilə rus sülhməramlılarının nəzarətindən çıxarmaq planlaşdırılırdı. Ermənistan müştərək çəkilən yolla bağlı işi nə qədər yubatmağa çalışsa da, Azərbaycan hökumətinin qətiyyəti ilə plan baş tutdu. Beləliklə, Laçın şəhəri qondarma dəhliz statusundan xilas oldu. Şəhərdən bir neçə kilometr aşağıda Həkəri çayının üstündə salınmış körpü ermənilərin istismarına verildi. Yerli əhali isə körpünün altından gedib-gəlirdi.

Gün gəldi ki, Azərbaycan hökuməti daha bir tarixi addım atdı: körpüdə gömrük postu yaradıldı. Bu, Şuşanın işğaldan azad edilməsindən sonra ən böyük qələbəmiz idi. Lakin ölkəmizə gedib-gələnlərə və yüklərə nəzarət etmədikcə problemi həll oluna bilməzdi. Laçın post-məntəqəsində göstərilən qətiyyət Xankəndinə bayrağımızın sancılması ilə nəticələndi. Bu da növbəti ağlagəlməz bir qələbə, böyük zəfər idi.

Zabux kəndindən eyni əhəmiyyətli strateji nöqtə kimi danışmalıyıq. Bura ermənilərin ən çox məskunlaşıb yaşadığı kənd idi. Onlar oradan-buradan əllərinə keçən ailələri köçürüb yerləşdirmiş, ayrıca bir qəsəbə salmışdılar. İndi tam əksinə iş gedib. Zabuxu bizimkilər daha böyük və daha abad bir qəsəbəyə çevirib və çoxlu ailələr köçürülüb. Ağalıdan sonra Zabux işğaldan azad olunmuş ərazilərdə əhali

məskunlaşan ikinci yaşayış məntəqəsi kimi tarixə düşdü. Bugünkü Laçın abad, yaraşıqlı bir yaşayış məntəqəsi kimi ölkəmizin sosial xəritəsinə daxil olur. Heç şübhəsiz ki, bu şəhər hər birimizin qürur yerinə çevriləcək".

Yazıçı fikrini belə yekunlaşdırıb: "Biz doğrudan da nağıl kimi tarixi günlər yaşamaqdayıq. Qarabağın separatçılardan tamam azad edilməsi ilə tariximizin yeni mərhələsinə qədəm qoymuşuq. Qüdrətli, suveren, inkişaf etmiş Azərbaycan dövləti hər birimizin taleyinə işıq saçmaqdadır. İşğaldan azad edilmiş ərazilərdə aparılan nəhəng bərpa və quruculuq işləri, dövlətimizin uğurlu böyük qayıdış layihəsi parlaq və səadət dolu gələcəkdən soraq verir".

**AZƏRTAC**
**1 dekabr, 2023**

**Laçınlı şair: Bugünkü şəhərin özgə hüsnü var**

Ən çox ona sevinirəm ki, "məcburi köçkün" sözü üstümüzdən götürüldü. Öz vətənində, öz evində köçkün adlandırılmaq çox ağır bir dərddir. Bəlkə də bunu yaşamayan bilməz, amma otuz ilə yaxın bu ağırlığa dözmək məcburiyyətində qalmışıq.

Bu sözləri 1992-ci il mayın 17-də Laçını ən sonuncu tərk edənlərdən biri, şair İlham Qəhrəman AZƏRTAC-ın müxbirinə deyib.

Müsahibimiz doğma şəhəri kövrək hisslərlə xatırlayıb: "Ovaxtkı Laçını yaddaşıma həkk etmişəm, hamısı bir-bir gözümün qabağına gəlir. Cərgə ilə düzülmüş dükanlar, bazar, Poladın mebel dükanı, dəlləkxana, rabitə, redaksiya, Xanoğlanın çayxanası, poçt, "Soyuzpeçat", kitabxana, məişət evi, məhkəmə, əczaxana, xəstəxana, 8 illik məktəb, Əmanət bankı, Laçın bankı, Mədəniyyət evi, 1 nömrəli məktəb, N.Nərimanovun büstü... Həmin lövhələr indən belə ancaq onu görənlərin xatirəsində və şəkillərdə yaşayacaq.

Hündürdə yerləşən "Abidə" adlanan ərazidən ətraf - Ağanus, Zabux, Sus, Qızılca, Hoçaz, Qarıkaha əl içi kimi görünür... Şəhidlərimizi xatırlayıram. Ana vətənin boyunu sevən şəhidlərimizə qəni-qəni rəhmət eyləsin, qazilərimizə cansağlığı versin! Onların sayəsində millətimiz böyük nüfuz qazandı, xalqımıza qarşı sevgi bərpa edildi, öz torpağında "köçkün" adlanmağın töhmətindən qurtulduq.

Xəyalıma Ağa Laçınlı, Hüseyn Kürdoğlu, Malik Fərrux, Məhəbbət Kazımov və laçın həsrəti ilə əbədiyyətə qovuşan digər eloğlularım gəlir... Deyirəm, kaş sağ olub bugünkü Laçını görəydilər..."

Şair doğulduğu rayonun müasir mənzərəsi barədə deyib: "Bu gün Laçının özgə hüsnü var. Hər tərəfdə köhnə yola paralel təzə yollar çəkilir. Ha tərəfə baxırsan texnikadır. Rayonun hər yerində iş qaynayır. Texnikanın əlindən tərpənmək olmur. Şəhərdə böyük maşınların tıxacına düşürsən. SOCAR-ın Şuşa yolundakı yanacaqdoldurma məntəqəsində saatdan çox növbə gözləyirsən. Şəhərdə ancaq kişilər gözə dəyir. Zərif cinsin nümayəndələrini ofislərdə, çay yolunda və çay qırağı abadlıq işlərində görmək olar. Azərbaycanın hər yerindən gələnlər şəhərdəki quruculuq işlərində yaxından iştirak edirlər.

Laçının bərpası illər aparacaq. Görülən işlərin miqyası çox genişdir - yollar salınır, işıq çəkilir, kanalizasiya quraşdırılır, evlər bir yandan bərpa edilir, bir yandan yenisi tikilir. Aparılan quruculuq işləri göstərir ki, gələcəkdə Laçın Azərbaycanın ən gözəl turizm məkanlarından birinə çevriləcək. Vaxt gələcək, yayda burada adam əlindən iynə atsan, yerə düşməyəcək. Dövlətimizin Laçına diqqəti, təəssübkeşliyi, qeyrəti aydın hiss olunur. Şəhər günbəgün böyüyür, inkişaf edir, gözəlləşir. Ümid edirəm ki, Laçın ən yaxın vaxtlarda abad və gözəl yaşayış məkanlarından, ölkəmizin ən gözəl turizm məkanlarından birinə çevriləcək. Tezliklə laçınlıların səsi yenə dağlar qoynundakı ev-eşiklərindən gələcək, rayonun bütün kəndləri öz sakinlərinə qovuşacaq".

**AZƏRTAC**
**1 dekabr, 2023**

**Laçın rayonunun işğaldan azad olunması və yaranan hərbi infrastruktur – AÇIQLAMA**

*İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dayanmadan hərbi sahədə quruculuq işləri davam etdirilir*

Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Laçın rayonu 1992-ci il mayın 18 də Şuşa şəhəri və Ermənistan ilə həmsərhəd istiqamətdən hücuma keçən mənfur erməni quldurları tərəfindən işğal olunub. 1924-cü ildə təsis edilən Laçın rayonunun ərazisi 1,84 min kvadratmetrdir. İşğaldan əvvəl 65,430 nəfər əhalisi olan laçınlılar 28 il ərzində Azərbaycanın müxtəlif bölgələrdə çox çətin şəraitdə yaşayıblar. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi zamanı rəşadətli Ordumuzun ermənilərə qarşı əks-hücum əməliyyatı zamanı Ermənistanın illər ərzində qurduğu mühəndis istehkam sistemləri dağıdıldı. Beləliklə, məğlubedilməzlik miflərini cəsarətlə yarıb keçən əsgər və zabitlərimizin qəhrəmanlığı, şəhidlərimizin qanı və canı bahasına torpaqlarımız işğaldan azad edildi.

Bu barədə ehtiyatda olan polkovnik Ələsgər Ağayev AZƏRTAC-a açıqlamasında deyib.

Azərbaycan Respublikası dekabrın 1-də Ermənistanın işğalı altındakı Laçın rayonunu öz yurisdiksiyasına qaytardı. Azərbaycan Ermənistan qoşunlarını və qanunsuz məskunlaşan erməniləri rayondan çıxarmaqla Qarabağ ətrafında işğala məruz qalmış bütün ərazilərinin azad edilməsini başa çatdırdı. Beləliklə, Azərbaycan sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi. Azərbaycan Vətən müharibəsində 4 rayonumuzu - Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlını, həmçinin Şuşa şəhəri, Hadrut qəsəbəsi və bir çox torpaqlarımızı hərbi yolla işğaldan azad etdi. Azərbaycan Ordusunun məhv etdiyi və ya qənimət götürdüyü hərbi texnikanın qiyməti bir neçə milyard dollar idi.

2020-ci il dekabrın 1-də erməni işğalı altında olan son rayonumuz Laçın Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə Bəyanata uyğun olaraq, dinc yolla öz əsl sahibinə qaytarıldı. Qürur hissi ilə demək olar ki, 28 illik erməni işğalından azad olunan Laçın rayonunda Azərbaycan bayrağının dalğalanması bizə şərəf verdi.

“İşğalçı Ermənistan silahlı qüvvələrinin Laçını tərk etməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi liderliyi, sərkərdəlik qabiliyyəti və Azərbaycan Ordusunun Vətən müharibəsindəki uğurlu hərbi əməliyyatları nəticəsində mümkün olub. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhədəki təxribatının qarşısını alan Azərbaycan Ordusu əks-hücumla bir neçə rayonu, yüzlərlə kənd və qəsəbəni, strateji yüksəkliyi düşməndən azad edib. Beləliklə Vətən müharibəsi Azərbaycan Ordusunun Qələbəsi ilə yekunlaşdı. İşğalçı erməni silahlı birləşmələri Ordumuzun dəfedilməz hücumu qarşısında tab gətirə bilməyərək xeyli itki ilə geri çəkildi. Bununla yanaşı, düşmənin minlərlə canlı qüvvəsi, hərbi texnikası məhv edildi. Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusu qarşısında müqavimət göstərməyin faydasız olduğunu anlayaraq kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Bununla da 28 il işğal altında olan Laçın rayonu qəsbkarlardan azad edildi. 2020-ci ilin dekabrın 1-də Azərbaycan Ordusunun bölmələri rayona daxil oldu və orada bayrağımız ucaldıldı.

Laçının şəhid vermədən azad olunması ölkəmizin ictimai-siyasi həyatında parlaq tarixi hadisə idi

Azərbaycanın ərazi cəhətdən ən böyük rayonlarından biri olan Laçının şəhid vermədən erməni işğalından azad olunması ölkəmizin ictimai-siyasi həyatında möhtəşəm və parlaq tarixi hadisə idi. Ali Baş Komandan İlham Əliyev iqtisadi, hərbi diplomatik baxımdan güclənərək Vətən müharibəsi modelini seçməyi üstün tutdu. Bu model özünü doğrultdu. Bununla da Azərbaycan dövləti yeni hərbi siyasi reallıq yaratdı. Ermənistan tərəfi Laçın rayonunu onlara dəhliz kimi verilməli olduğu mövqedən çıxış edirdi. Lakin dövlətimizin başçısı dəfələrlə bildirirdi ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qaytarılmasa heç bir razılaşma ola bilməz. Əslində biz hər birimiz tam əmin idik ki, siyasi yolla olmasa da hərbi yolla Azərbaycan Ordusu torpaqlarımızı mütləq düşmən tapdağından azad edəcək. Biz hərbçilərin isə buna heç bir şübhəsi yox idi. Ancaq uzun müddət Murovdağ silsiləsi - Kəlbəcər istiqamətində xidmət etmiş bir zabit olaraq, bu ərazilərin çətin relyefinə çox yaxşı bələd idim. Düşmənin bu istiqamətlərdə, strateji yüksəkliklərdə çoxpilləli və uzunmüddətli atəş mövqeləri qurması Vətən müharibəsində də özünü göstərdi”, - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

Ələsgər Ağayev bildirib ki, sadəcə Ağdam, Füzuli, Cəbrayıl istiqamətlərində düşmən beş müdafiə xətti qurmuşdu. Bu sədlərin açılması üçün biz müəyyən itkilər verdik. Düzdür biz bir güllə belə atmadan Laçını qaytardıq. Nəyinki Laçını, eləcədə Ağdam və Kəlbəcərin də danışıqlar yolu ilə geri qaytarılması Azərbaycanın böyük və möhtəşəm siyasi Qələbəsidir. Düşmən buna öz xoşu ilə razı olmadı. Bu birbaşa Azərbaycan Ordusunun cəbhədə qazandığı qeyri-şərtsiz Qələbənin məntiqi davam idi. Laçın rayonu ölkənin ən böyük rayonlarından biridir. Strateji cəhətdən əhəmiyyətli olduğu qədər də iqtisadi və regional inkişaf baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu rayon iqtisadi baxımdan geniş təbii sərvətlərə və iqtisadi imkanlara malikdir. Əlbəttə Laçın rayonunun bizə qaytarılması tarixi məsələdir. Düzdür biz düşməni məcbur etdik, artıq o uçurum kənarında idi. “Dəmir yumruq” artıq onun başının üstündə idi. Onun başqa yolu yox idi. Əks təqdirdə tamamilə məhv olacaqdır. Biz buna nail olduq.

Bu ilin aprelində Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində 2023-cü il aprelin 23-də Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması bizim üçün mühüm tarixi hadisə oldu. Üçrəngli dövlət bayrağımızın sərhəddə dalğalanması bizim üçün müqəddəs gündür. Artıq Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addımdır. Hər kəs bilməlidir ki, sərhədlərimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı qanunun aliliyinin də tələbidir.

“Laçın rayonuna əhali qayıdırsa demək orda sakit, rahat ömrünü yaşamalıdır. Bunu beynəlxalq hüquq da, Azərbaycanın qanunları da tələb edir. Azərbaycan dövləti əhalisinin tam təhlükəsiz yaşaması üçün erməni terrorçularından qorumaq üçün bütün sərhədboyu strateji yüksəkliklərdə dayaq məntəqələri yaradıb. Digər qoşun növləri ilə qarşılıqlı əlaqədə hazırda işlər davam etdirilir. Düşmənlə dövlət sərhədi boyunca müdafiə və mühafizə tədbirləri davam etdirilir. Yeni hərbi hissələr və birləşmələr yaradılır. Döyüş postlarına yollar çəkilir. Bu yaxın günlərdə müdafiə naziri tərəfindən yeni istifadəyə verilən Hərbi Hospital və yeni Hərbi Hissənin açılışı oldu.

İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dayanmadan hərbi sahədə quruculuq işləri davam etdirilir. Sərhədboyu tikilən taqım, bölük dayaq məntəqələrinə yollar çəkilir, işıqlandırma xətləri çəkilib, mövqelərdə qısa hazırlıq tam başa çatdırılıb. Şəxsi heyətin məişət şəraiti yaxşılaşdırılıb. Sığınacaqlarda istilik sobaları quraşdırılıb. Bir sözlə şəxsi heyətin döyüş növbətçiliyini aparması üçün bütün infrastruktur yaradılıb. Qışa hazırlıq bütün yay boyu aparılıb. Ön xətdə xidmət edən zabit və gizirlərin normal xidmət aparması üçün bütün infrastruktur yaradılıb. Zabit gizirlərin peşəkarlıq səviyyəsinin artırılması üçün onları Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kurslarına göndərilirlər. Vətən müharibəsindən sonra Ordu quruculuğunda yeni islahatlar həyata keçirilir. Belə ki, Orduya yeni müasir silah və sursat, PUA-lar, son modernləşmiş hərbi texnika alınır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur sıfırdan qurulur. Bu ərazilər minalardan təmizləndikdən sonra tikinti şirkətlərinə təhvil verilir. Genişmiqyaslı bərpa və yenidənqurma işləri davam etdirilir. Yeni tikilən evlərə Böyük Qayıdış Proqramına əsasən məcburi köçkünlər köçürülür”, - deyə Ələsgər Ağayev əlavə edib.

**AZƏRTAC**
**2 dekabr, 2023**

**“Hazırda fabrikdə 54 nəfər çalışır ki, onların da 42-si yerli sakindir” – Laçındakı mebel fabrikindən reportaj - VİDEO**

İşğaldan azad olunan ərazilərə köçürülən əhalinin sosial rifahı və məşğulluğu xüsusi diqqətdə saxlanılır. Laçın şəhərində də bu istiqamətdə lazımi tədbirlər görülür. Ötən günlərdə Laçında ilk dəfə əmək yarmarkası keçirilmiş, burada məskunlaşan laçınlılara müxtəlif sektorlardan olan və şəhərdə fəaliyyət göstərən 16 müəssisə üzrə 200-ə yaxın vakansiya təklif edilmişdir.

Bununla yanaşı, Laçında fəaliyyət göstərən müəssisələrdə də xeyli yerli sakin işləyir. Belə müəssisələrdən biri də şəhərdən 8 kilometr məsafədə, Zerti kəndində yerləşən aqro və sənaye parkıdır. Burada qısa müddətdə bir sıra müəssisələr, o cümlədən mebel fabriki fəaliyyətə başlayıb.

“Laçın Abadlıq” ASC-nin direktor müavini Elnur Abdullayev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib ki, mebel fabriki iki hissədən ibarətdir və hər biri 2400 kvadratmetr olan binalarda istehsalat üçün bütün şərait mövcuddur. Burada quraşdırılan və ən müasir standartlara cavab verən Türkiyə istehsalı olan avadanlıqlarla müxtəlif növ mebellər yığılır. “Hazırda fabrikdə 54 nəfər çalışır ki, onların da 42-si Laçın sakinidir. İş həcminə görə gələcəkdə işçilərin sayının artırılması nəzərdə tutulur. Həmçinin dizayner və digər istiqamətlər üzrə kadr hazırlığı məqsədilə daxili resurslar hesabına kursların təşkili nəzərdə tutulur. Fabrik sifarişdən asılı olaraq mebelləri istehsal etməklə yanaşı, həm də interyer-dekor işlərini də yerinə yetirmək imkanına malikdir".

Malik Qəhrəmanov da hazırda mebel fabrikində çalışan Laçın sakinlərindəndir. O, Laçında doğulub boya-başa çatıb, 1-ci Qarabağ müharibəsində şəhərin müdafiəsində iştirak edib. Deyir ki, uzun illər həsrətində olduğumuz Laçına qovuşmaqla bərabər, burada çalışmaq da qürurverici hissdir: “Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və müzəffər Ordumuzun, şəhidlərimizin, qazilərimizin sayəsində Laçınımıza qovuşmuşuq. Əvəzolunmaz hisslərdir, bizlər üçün fəxrdir ki, Laçındayıq, burada çalışırıq. İşçi yoldaşlarım da laçınlılardır, hətta döyüşdə bir yerdə olduğumuz yoldaşlardan da burada işləyənlər var. Laçın həqiqətən laçın çağlarına qayıdır. İnanırıq ki, gələcək nəsillər burada daha firavan yaşayacaq, çünki Laçınımızın xoşbəxt günləri hələ qabaqdadır”.

Müəssisənin digər işçisi ilə söhbət edirik. Adı Bəhluldur. O da Laçın sakinidir. Uzun illər yurd həsrəti ilə yaşayıb, amma indi özünün ən böyük arzusuna çatıb. "31 ildən sonra Vətənə qovuşduq, bu, bizə ən böyük hədiyyədir. Laçına qayıdanda hiss etdim ki, bir vaxtlar burada yarım qalan xatirələrimiz, xoşbəxt günlərimiz yenidən başlayır. Prezidentimizə, ordumuza təşəkkür edirik ki, bu xoşbəxt günləri bizlərə bəxş etdilər. Şəhidlərimizin ruhu qarşısında baş əyirəm” , - deyən Bəhlul Cəfərov mebel fabrikində bir neçə aydır işləyir. Deyir ki, qısa müddətdə çoxlu mebel istehsal ediblər.

“Burada işçilər üçün bütün şərait yaradılıb, işimizi sevərək yerinə yetiririk. Çünki illərdir həsrətində olduğumuz Laçın üçün çalışırıq və inanırıq ki, bu, bizim gözəl günlərimizin başlanğıcıdır”, - deyə o əlavə edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**4 dekabr, 2023**

https://video.azertag.az/site/video/194041

**Laçında silah-sursat tapılıb**
**VİDEO**

Laçın Rayon Polis Şöbəsinin əməkdaşları işğaldan azad edilmiş ərazilərdə silahların tapılaraq yığılması istiqamətində tədbirləri davam etdirirlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri tədbirlər zamanı 4 avtomat, 5 tapança, 1 karabin və digər sursatlar aşkar olunaraq götürülüb.

**AZƏRTAC**
**4 dekabr, 2023**

https://video.azertag.az/site/video/194049

**Şuşa–Laçın avtomobil yolunun yenidən qurulmasına 6 milyon manat ayrılıb – SƏRƏNCAM**

Prezident İlham Əliyev "Şuşa–Laçın avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, qırx bir kilometr uzunluğu olan Şuşa–Laçın avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

**AZƏRTAC**
**5 dekabr, 2023**

**Azər Əliyev: Laçınımız bizləri təsvir etdiyimizdən də gözəl qarşıladı, xoşbəxt günlərimiz yenidən başlayıb**

31 illik yurd həsrətinə son qoyulan laçınlılardan olan Əliyevlər ailəsi üçün həyat yenidən başlayıb. Laçına qayıtdıqdan sonra öz evlərinə köçən ailə həm də işlə təmin olunub.

AZƏRTAC-ın bölgə müxbiri sözügedən ailənin qonağı olub, onların Laçınla bağlı təəssüratlarını qələmə alıb.

Yolumuz Laçınadır, dağların qoynunda gözəlliyi ilə diqqət çəkən Laçın sözün əsl mənasında laçın çağlarına qayıdıb. Qısa müddətdə bərpa olunan evlər və yeni tikililər, abadlaşan yollar Laçının simasını çox dəyişib. Səfərimiz zamanı Laçında yaşayan Əliyevlər ailəsinin qonağı olduq. Uzun illər Vətəndən ayrı düşən ailə indi doğma yurda qovuşmağın sevincini yaşayır. Ailəlikcə öz evlərinin eyvanında əyləşib Laçının büllur sularından hazırlanan samovar çayı ilə Laçının gözəlliyini seyr edirlər. Qonağı olduğumuz ailənin başçısı Əliyev Azər Elmar oğlu 1978-ci ildə Laçın şəhərində anadan olub. Azər hələ 14 yaşı olanda ata və anası 2 bacı və bir qardaşı ilə doğma yurdundan didərgin düşüb. Bu ağrılı- acılı 31 il artıq Azər üçün də tarixə qovuşub, çünki o illər əvvəl uşaqkən tərk etdiyi Laçına öz ailəsi və övladları ilə qayıdıb. Azər deyir ki, Laçın sakinlərini təsvir etdiklərindən də gözəl qarşılayıb.

“Mənin 14 yaşım olanda, atam, anam və qardaş bacılarımla məcburi köçkün düşəndə bizlər üçün çox çətin oldu. Ən ağrılı isə doğma elimizdən ayrı düşmək idi. Lakin ömrümüzün 31 il niskil içərisində keçən anlarını Laçına qayıtdıqdan sonra unutduq. 2023-cü il mayın 28-də ailəm və üç övladımla Laçına geri döndük. 46 yaşımda qayıtsam da özümü 14 yaşlı Azər olaraq hiss etdim. Mənim uşaqlıq illərində yarımçıq qalan xatirələrimi indi burada övladlarım hiss edir. Laçına geri döndükdən sonra burada işləməyə başladım, həmçinin həyat yoldaşım da tekstil fabrikində çalışır, övladlarım məktəblidir, dərs günlərində xidməti avtobusla məktəbə gedirlər və tam müasir şəkildə təhsil almaqları üçün lazımi şərait yaradılıb. Həmçinin şəhərdə əhalinin asudə vaxtları üçün yerlər, istirahət parkı da var. Bura gələrkən təsvir etdiyimizdən də gözəl Laçınla qarşılaşdıq. Təkcə bizim ailə üçün deyil, həm də Laçına qayıdan digər ailələr üçün də lazımi şərait yaradılıb. Biz Laçına qayıtdığımız gündən 4 otaqlı və tam müasir standartlara uyğun bərpa edilən evimizdə məskunlaşdıq. Asudə vaxtlarımda həyətimdə olan arıçılıqla məşğul oluram. Hazırda 3 arı ailəm var və bu mövsüm bal azuqəmizi də toplaya bildik. Biz inanırıq ki, hələ firavan günlərimiz qarşıdadır”, - deyə Azər Əliyev vurğulayıb.

Cəmalə Əliyeva isə 6 yaşında tərk etməli olduğu Laçını ötən 31 ildə yuxu kimi xatırladığını deyir: "Mən ailəmlə birlikdə məcburi köçkün düşəndə azyaşlı idim. Ötən bu illərdə Laçını yuxu kimi xatırlayırdım. Köçkün düşdüyümüz vaxt çətin anlarımız çox olub, amma indi həsrət də bitib, həmin çətin günlər də. 3 övladım və həyat yoldaşımla birlikdə Laçına qayıtmışıq. Özüm də burada çalışıram. İşdən qayıtdıqdan sonra həyətdə gül-çiçəklərə qulluq etmək isə insana zövq verir. Laçın şəhərində həyat öz axarına qayıdıb, hər səhər işə gedəndə şəhərdə olan canlamanı görürəm. Hər kəs öz işinin ardıyca tələsir. İş saatı bitdikdən sonra isə sakinlərin istirahəti üçün lazımi şərait yaradılıb. Bizlər bu yerlərə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ordumuzun gücü sayəsində qayıtmışıq. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin. Bayraq günü Laçında əsgərlərin yürüşünü izlədik. Bu, bizlər üçün qürurverici an olaraq yaddaşlarımıza həkk olundu və həmin an bir daha hiss etdim ki, Laçınımızın firavan günləri yenidən başlayıb".

Qeyd edək ki, Laçın şəhərində 363 ailə, yəni 1389 nəfərin daimi məskunlaşması təmin edilib. Ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Həmçinin əhalinin işlə təmin edilməsi də xüsusi diqqətdə saxlanılır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**6 dekabr, 2023**

**Laçınlı xanımların və uşaqların düzəltdiyi əl işləri Yeni il yarmarkasına çıxarılacaq**
**VİDEO**

Laçın şəhərində məskunlaşan əhalinin məşğulluğu, işlə təmin olunması prioritet məsələ olaraq diqqətdə saxlanılır, eyni zamanda Laçında yaşayan xanımların və uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi, onların peşə qabiliyyətlərinin inkişaf etdirilməsi istiqamətində lazımi işlər görülür. Bu məqsədlə "Bakı Abadlıq Xidməti" MMC-nin təşəbbüsü və dəstəyi ilə Laçında ustad dərslərinin keçirilməsinə start verilib. İlk olaraq dərslərdə xanımlar və uşaqlar iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Sariban peşə İnkişaf Mərkəzinin ustadları və uşaq yazıçısı Mürşüd İsmayılzadənin iştirakı ilə Laçında uşaqlar və xanımlarla görüş təşkil edilib. İlk görüş Laçın şəhərində məktəbdə gerçəkləşib. Uşaq yazıçısı Mürşüd İsmayılzadə məktəblilərlə faydalı məlumatlar həmçinin kitablar haqqında biliklərini paylaşıb. Eyni zamanda məktəblilər üçün maraqlı sayılan kitabların təqdimatı keçirilib. Həmçinin məktəblilər arasında viktorina təşkil edilib. Hədiyyə olaraq uşaqlara kitablar verilib.

Uşaq yazıçısı bildirib ki, Laçında belə tədbirlərin keçirilməsi təqdirəlayiqdir: "Görüş zamanı hiss olundu ki, burada təhsil alan uşaqlar savadı ilə bərabər, həm də istedadı ilə seçilirlər. Onlarla kitablar haqqında maraqlı müzakirələrimiz oldu, çox sevindirici haldır azad Laçınımızda savadlı yeni nəsil yetişir. Hətta biz onlarla viktorina təşkil etdik. Uşaqlarımızın hədiyyələri isə onlar üçün faydalı sayılacaq kitablardan ibarət oldu.

İnanırıq ki, belə istedadlı laçınlı uşaqlar Azərbaycanımızın inkişafında mühüm rol oynayacaqlar".

Bundan başqa Laçında xanımların və uşaqların peşə bacarıqlarının aşkar edilməsi və inkişaf etdirilməsi üçün ustad dərslərə başlanılıb. Peşəkar təlimçilər tərəfindən şam və bilərzik hazırlanmasının asan yolları tədris edilib. Təlimlər əsasında xanımlar və uşaqlar tərəfindən maraqlı əl işləri ərsəyə gətirilib. Hansı ki, düzəldilən əl işləri yeni il ərəfəsində Laçında keçiriləcək yarmarkaya çıxarılacaq. Bu isə onların kiçik biznes qurmasına imkan verəcək. Ustad dərslərin bundan sonra da mütəmadi olaraq təşkil edilməsi nəzərdə tutulub.

Sairban Peşə İnkişaf mərkəzinin direktoru İntizar Rzayeva deyib ki, Laçına gəlmək, bu yerlərə qovuşmaq hər birimizin arzusu olub. İndi isə artıq arzularımız reallığa çevirilib. Bu gün Laçında həmyerlilərimizlə səmərəli ustad dərslərində görüşmək qürurverici bir hisdir. Görüşlər zamanı bir sıra təlimlər gerçəkləşdi. Peşəkar təlimçilərimiz tərəfindən bir sıra əl işlərinin ərsəyə gətirilməsi həm xanımlarımıza, həm də uşaqlara tədris olundu. Bu həmdə laçınlı həmyerlilərimiz üçün onların kiçik bizneslərini qurmağa imkan yaradacaq. Elə burada hazırlanan əl işləri Laçında Yeni il ərəfəsində təşkil ediləcək yarmarkaya çıxarılacaq.

Laçınlı xanımlar da təşkil edilən belə görüşləri müsbət qiymətləndirir. Əminə Şahverdiyeva deyib ki, Laçına qayıtdğımız andan hər keçən günümüz daha maraqlı olur . "Bu gün yenidən Laçınımızda daha xoş bir gün keçirdik. Öz övladlarımızla birlikdə ustad dərslərə qoşulduq. Peşəkar sənətkarların sayəsində bir sıra əl işləri ərsəyə gətirdik. Həm də bu ustad dərslərin sayəsində uşaqlarımızın peşə bacarıqlarının istedadını kəşf etdik. Rəngarəng şamların hazırlanması, təbii daşlardan bilərziklərin düzəldiməsinin asan yollarını öyrənməklə yanaşı, həm də bu işləri öz uşaqlarımıza öyrətmiş olduq. Bu həmdə bizlərin məşğuliyyət və qazanc əldə etməsi üçün faydalı bir ideyadır".

Zəhra Mirzəyeva Laçında böyüyən balaca fidanlardandır hazırda üçüncü sinif şagirdidir. İndi Laçında yeni sinif yoldaşları və dostları var. Zəhra özünü ata-baba yurduna qayıtdığı üçün xoşbəxt his edir. Təlimlərdə iştirak etdiyi üçün çox sevindiyini deyir. "Biz bu gün bir çox biliklər əldə etdik, bu şamı öz əllərimlə düzəltməyi öyrəndim. Şamlara bəzək vurmaq üçün güllərdən və zərlərdən necə istifadə etməyi öyrəndim. Yoldaşlarımla birlikdə bir sıra əl işlər ərsəyə gətirdik. Belə təlimlər, ustad dərsləri bizi çox sevindirir. Bu əl işlərini düzəltməklə həm bacarıqlarımız təkmilləşdiririk, həm də yeni biliklər əldə edirik. Bizim əl işlərimizin Laçında Yeni il yarmarkasında sərgilənəcəyi çox sevindirir"

**Aydın Yavərzadə**

**AZƏRTAC**

**9 dekabr,2023**

https://video.azertag.az/site/video/194365

**Laçında AZƏRTAC-ın "Heydər Əliyev Azərbaycandır!" sənədli filmi nümayiş olunub VİDEO**

Laçın şəhərində yerləşən "Lacinema" Kino Mərkəzində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən hazırlanan və Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ikihissəli "Heydər Əliyev Azərbaycandır!" sənədli filmi nümayiş etdirilib. Filmin yayım hüququ İctimai Televiziyaya məxsusdur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, filmin nümayişindən əvvəl Dövlət Himni səsləndirilib, Ulu Öndərin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra doğma yurd-yuvalarına qayıtmış laçınlılar böyük siyasətçinin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açıblar. Ölkənin ən çətin günlərində, məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalmış laçınlılarla görüşdə Heydər Əliyevin söylədiyi ümidverici, nikbin fikirlərin artıq reallığa çevrildiyi bildirilib.

Daha sonra Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, "Laçın Abadlıq" Xidmətinin rəhbərlikləri, yerli sakinlər və hərbçilər "Heydər Əliyev Azərbaycandır!" adlı filmi izləyiblər.

Baş prodüseri AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, quruluşçu rejissorları Seyran Mahmudoğlu və Fariz Əhmədov, ssenari müəllifi Yunis Orucov olan filmin hazırlanması üçün Azərbaycanın bir sıra regionlarında çəkilişlər aparılıb, böyük həcmdə tarixi məlumatlar toplanıb.

**AZƏRTAC**
**12 dekabr,2023**

**https://video.azertag.az/site/video/194621**

**Böyük Qayıdış: Laçın şəhərinə növbəti köç karvanı yola düşüb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 14-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 20 ailə (86 nəfər) köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Laçın şəhərində 383 ailənin (1475 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**14 dekabr,2023**

## Laçın sakini: Ağlayaraq tərk etdiyimiz torpaqlara bu gün gülərək və sevinərək qayıdırıq

Laçınlılar ölkəmizin bir çox rayonlarında məskunlaşıb. Biz ağlayaraq tərk etdiyimiz torpaqlara bu gün gülərək və sevinərək qayıdırıq.

Bunu dekabrın 14-də Bakının Qaradağ rayonundan doğma yurduna yola salınan keçmiş məcburi köçkün, Laçın şəhər sakini Hümbət Vəliyev AZƏRTAC-a açıqlamasında deyib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşməni məğlub edərək torpaqlarımızı işğaldan azad etdiyini xatırladan keçmiş məcburi köçkün doğma elinə-obasına qayıtdığı üçün sevincinin hədsiz olduğunu diqqətə çatdırıb. Vətən uğurunda canını və qanını əsirgəməyən qazilərimizə şəfa, şəhidlərimizə rəhmət diləyən H.Vəliyev Laçının yenidən inkişafı üçün çalışacağını deyib

**AZƏRTAC**
**14 dekabr,2023**

**Növbəti köç karvanı: Laçında daha 20 ailə öz yurduna qovuşdu**

Dekabrın 14-də Böyük Qayıdış proqramı çərçivəsində Laçına növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu dəfə daha 20 ailəyə, 86 nəfərə qucaq açıb. Onlar şəhərdə Seyrəngah adlı ərazidə böyük coşqu ilə qarşılanıblar. Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Bununla da Laçın şəhərində 383 ailə, yəni 1475 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**AZƏRTAC**
**14 dekabr,2023**

**Laçında daha 20 ailəyə evlərin açarları təqdim olunub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Laçına çatan 20 ailəyə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bununla əlaqədar keçirilən mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, “Laçın Abadlıq Xidməti” ASC-nin, “Bakı Abadlıq Xidməti” MMC-nin əməkdaşları və digər şəxslər iştirak ediblər. Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.

Bununla da Laçın şəhərində 383 ailə, yəni 1475 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**AZƏRTAC**
**14 dekabr,2023**

**Zabuxa köçən sakin: Laçının mənzərəli yerləri, bulaqları üçün darıxmışam**

Keşməkeşli günlərimizin bir daha qayıtmamasını arzu edirik. Bu gün isə hamımız doğma yurdumuza qayıtdığımız üçün sevincliyik. Torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna minnətdarlığımı bildirirəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 15-də doğma yurduna qayıdan Zabux kəndi sakini Gilə Vəliyeva söyləyib.

O, Laçının mənzərəli yerləri, bulaqları üçün darıxdığını vurğulayaraq deyib: "Biz doğulub boya-başa çatdığımız yerlərdə həyatımızı yenidən quracağıq".

Gilə Vəliyeva məcbur köçkün kimi Abşeron rayonunda məskunlaşdıqlarını qeyd edib.

**AZƏRTAC**
**15 dekabr,2023**

**Laçın ağ örpəyə bürünüb – VİDEO**

İlin hər fəslində gözəlliyi ilə göz oxşayan Laçın indi də ağ örpəyə bürünüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçına mövsümün ilk qarı yağıb. Gecədən yağmağa başlayan qar qısa müddətdə şəhəri bəmbəyaz edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**18 dekabr 2023**

**https://video.azertag.az/site/video/195067**

**Laçında “Araz” supermarket fəaliyyətə başladı**

İşğaldan azad olunan doğma torpaqlarımıza qayıdışın ardından həmin ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, quruculuq-bərpa işləri aparılır.

“Araz” supermarketlər şəbəkəsi də işğaldan azad olunan ərazilərdə yaşayan əhalini keyfiyyətli məhsullarla fasiləsiz təmin etmək məqsədilə vətənimizin döyünən ürəyi - Qarabağda əhatə dairəsini genişləndirməyə davam edir. Şəbəkəyə məxsus növbəti mağaza işğaldan azad olunan Laçın şəhərində fəaliyyətə başlayıb. Mağazada yüksək keyfiyyətli qida və qeyri-qida məhsulları sərfəli qiymətlərlə müştərilərə təqdim olunur.

Qeyd edək ki, Laçında fəaliyyətə başlayan mağaza “Araz”ın Qarabağda açılan sayca ikinci filialıdır. Supermarketlər şəbəkəsinin Qarabağda ilk filialı isə Şuşa şəhərində fəaliyyətə başlayıb.

**AZƏRTAC**
**20 dekabr 2023**

**Laçında Qarabağda ilk texnoloji təqdimat və gənclər arasında oyun festivalı keçirilib**

İşğaldan azad olunan ərazilərdə hazırda sürətlə bərpa-quruculuq işləri gedir və həyat axarına qayıdır. Kompüter avadanlıqlarının böyük idxalçılarından olan "Aztech" şirkəti dekabrın 19-da Laçında "LaCinema" kino mərkəzində "LEGİON GO" portativ oyun konsolunun ilk təqdimatını və gənclər arasında əyləncəli "Gaming Festival" keçirib. Bu, "Aztech" şirkətinin Laçına artıq ikinci səfəri idi. Bundan öncə Laçın rayonu 2 saylı tam orta məktəbə şirkət tərəfindən 30 noutbuk hədiyyə edilmişdir. Dünya təqdimatı cəmi bir neçə həftə əvvəl keçirilmiş yeni portativ oyun konsolu "Lenovo Legion Go" Laçındakı bu təqdimatdan sonra Azərbaycanda rəsmi satışa çıxarıldı.

Təqdimatdan sonra məktəblilər və gənclər arasında maarifləndirici və əyləncəli "Gaming Festival" təşkil olundu. Gənc nəslin maarifləndirilməsi, yeni texnoloji məhsullarla tanışlığı, asudə vaxtlarını daha faydalı necə keçirə biləcəkləri barədə maraqlı diskussiyalar aparıldı. Laçınlı gənclər və məktəblilər üçün əsl bayram ab-havasında keçən və Qarabağda ilk dəfə təşkil olunan bu tədbirə maraq böyük idi.

Şirkətin marketinq meneceri Gülnar İsmayılova müsahibəsində deyib: "Aztech" şirkəti olaraq işğaldan azad olunmuş torpaqlarımızda belə bir tədbiri keçirmək bizim üçün böyük qürurdur! Tövsiyə edirik ki, bundan sonra digər texnoloji şirkətlər də önəmli təqdimatlarını və tədbirlərini məhz doğma Qarabağımızda keçirsinlər. Əminik ki, bu torpaqlarda həyat tez bir zamanda əvvəlki məcrasına qayıdacaq".

"Aztech" 1998-ci ildən fəaliyyət göstərir və bu gün ölkədə aparıcı kompüter idxalçılarından biri olaraq, ASUS, LENOVO və MSİ brendlərinin topdan, korporativ və pərakəndə satışını həyata keçirir.

**AZƏRTAC**
**20 dekabr 2023**

**Türk şirkəti Kəlbəcər və Laçında 5 KSES-in yenidən qurulmasını həyata keçirəcək**

Gələn həftə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ilə Türkiyənin "Dəmirörən" Holdinqi Kəlbəcər və Laçında 5 kiçik su elektrik stansiyasının yenidən qurulmasına dair saziş imzalayacaqlar.

AZƏRTAC xəbər verir ki, bu barədə AİŞ-in icraçı direktoru Ülvi Mansurov dekabrın 21-də Bakıda keçirilən Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumu çərçivəsində baş tutan "Azərbaycan Respublikasında investisiya qoyuluşu imkanları" panelində çıxışı zamanı bildirib.

O bildirib ki, hazırda AİŞ türk şirkətləri ilə daha üç layihə hazırlayır.

**AZƏRTAC**
**21 dekabr 2023**

**Laçına növbəti köç karvanı yola salınıb**

Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Laçın rayonunun yenidən salınan Zabux kəndinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 22-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Zabux kəndinə daha 30 ailə - 121 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Zabux kəndində 176 ailənin, yəni 688 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**22 dekabr 2023**

**Laçında "Böyük Qayıdış: Heydər Əliyev dühası" adlı tədbir təşkil edilib**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Abadlıq xidmətinin birgə təşkilatçılığı ilə Laçın şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş növbəti - "Böyük Qayıdış: Heydər Əliyev dühası" adlı tədbir təşkil edilib.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçıları əvvəlcə "Laçın" kinoteatrının foyesində Ulu Öndərin məcburi köçkünlərlə görüşlərindən, həmçinin onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülmüş işlərdən bəhs edən fotosərgiyə baxıblar.

Rəsmi hissə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canını qurban verən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Sonra Dövlət Himni səsləndirilib.

Müstəqil respublikamıza rəhbərlik etdiyi dövrdə Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad edilməsi üçün fədakarlıqla çalışan Ulu Öndər Heydər Əliyevin bununla bağlı arzularının artıq gerçəkləşdiyini qeyd edən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov işğaldan azad edilmiş bütün ərazilərdə, o cümlədən Laçında hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.

Milli Məclisin deputatı Mahir Abbaszadə Ümummilli Liderin müstəqil dövlətçilik xəttinin, o cümlədən qaçqınlar və məcburi köçkünlərlə bağlı siyasətinin nəinki ölkəmiz üçün önəmli, eyni zamanda, bütün dünya üçün örnək olduğunu vurğulayıb.

Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov doğma yurdundan didərgin düşən həmvətənlərimizlə iş sahəsində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müdrik və düşünülmüş siyasətin uğurlu nəticələrindən danışıb, Dövlət Proqramının icrası çərçivəsində məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi, məşğulluğunun artırılması istiqamətində məqsədyönlü, təsirli tədbirlər həyata keçirdiyini bildirib.

"Bakı Abadlıq Xidməti"nin direktor müavini Nəsimi Əsədov Ulu Öndərin xalqımıza bəxş etdiyi nailiyyətlər barədə fikir bildirib, Prezident İlham Əliyevin tapşırığı ilə Laçın şəhərində aparılan bərpa-quruculuq işləri barədə ətraflı məlumat verib.

Tədbir iştirakçılarına "Böyük Qayıdış: Heydər Əliyev dühası" filmi təqdim olunub. Filmdə Ulu Öndər Heydər Əliyevin məcburi köçkünlərlə keçirdiyi görüşlər, onların yaşayış şəraitinin və maddi rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər öz əksini tapıb. Film böyük maraqla qarşılanıb.

Daha sonra işğaldan azad edilmiş Laçın rayonu, Laçın şəhərinə köçürülən məcburi köçkünlər Elbrus Təhməzov, Sevinc Cabbarova və Qəzənfər Hüseynov Ulu Öndərin "Əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar" sözlərinin Prezident İlham Əliyevin uğurlu dövlət siyasəti nəticəsində reallaşdığını və keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qayıtmaqda davam etdiyini böyük məmnunluqla qeyd ediblər.

Məcburi köçkünlər doğma torpaqlarında sevincli günlər yaşadıqlarını, onlar üçün yaradılan şəraitdən razı qaldıqlarını bildiriblər.

Tədbirin sonunda Heydər Əliyevin 100 illiyinə həsr olunan flaşmobun təqdimatı keçirilib, Dövlət Proqramının icrası çərçivəsində təbliğat işlərindən bəhs edən videoçarxlar nümayiş etdirilib.

Daha sonra Laçın şəhərinə qayıtmış 30 ailəyə daimi yaşayış üçün verilən evlərin açarları təqdim edilib.

Tədbirin bədii hissəsində iştirakçılara muğam ifaçıları Ehtiram Hüseynov, Səbinə Ərəbil, Kamilə Nəbiyeva və Səbuhi İbayevin ifalarından ibarət konsert proqramı təqdim olunub.

Qeyd edək ki, tədbirdə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavini Fuad Hüseynov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Milli Məclisin deputatı Mahir Abbaszadə, Bakı Abadlıq Xidmətinin direktor müavini Nəsimi Əsədov, Laçın Abadlıq Xidmətinin əməkdaşları, Dövlət Komitəsinin və komitə yanında İctimai Şuranın üzvləri, o cümlədən Laçın şəhər sakinləri iştirak ediblər.

**AZƏRTAC**
**25 dekabr 2023**

**Laçındakı Həkəri Balıqçılıq Təsərrüfatının məhsulları gələn ildən bazarlara çıxarılacaq – EKSKLÜZİV**

Otuz ildən sonra yenidən dirçələn Laçında artıq bir sıra istehsal sahələri yaradılıb. Yeni müəssisələr Laçına qayıdan keçmiş məcburi köçkünlərin işlə təmin olunmasında da mühüm rol oynayır. Belə sahələrdən biri də Həkəri Balıqçılıq Təsərrüfadır. Burada 30-dan çox işçi çalışır və onların da əksəriyyəti laçınlıdır.

Həkəri Balıqçılıq Təsərrüfatının əməkdaşı Nurlan Ağayev AZƏRTAC-ın bölgə müxbirinə eksklüziv müsahibəsində bildirib ki, ümumi sahəsi 6 hektardan çox olan təsərrüfatda 36 hovuz var. Təsərrüfatda balıqların saxlanılması və yetişdirilməsi bütün imkanlar mövcuddur. Hazırda burada 3 növ balıq - əlvan forel, Kür nərəsi və cökə balıqları saxlanılır. Gələn ildən məhsulların Azərbaycan bazarına çıxarılması nəzərdə tutulur. İlk növbədə, aprel-may aylarında forel balıqları, payızda isə nərə balıqları satışa çıxarılacaq.

Onun sözlərinə görə, burada işçilərin fəaliyyəti və istirahəti üçün də lazımi şərait yaradılıb: “Laçınlı olub laçında işləmək çox gözəl hissdir. 30 ildən sonra həsrətində olduğumuz yerlərə gəlmək həqiqətən şərəflidir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Burada 37 nəfər çalışır, hamısı da laçınlıdır”.

Təsərrüfatın işçisi Səbuhi Məmmədov da Laçın sakinidir. Deyir ki, Laçından çıxanda 2 yaşı olub. Laçını xatırlamasa da, hər zaman doğma yurduna qovuşacağı günü səbrsizliklə gözləyib.

“Ötən illlər ərzində ən böyük arzularımdan biri idi ki, doğulduğum torpaqlara qayıdım. Çox şükür olsun ki, xəyallarımız gerçək, arzularımız çin oldu. Bu günləri bizə yaşadan şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə şəfa versin. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə də öz minnətdarlığımı bildirirəm ki, bizə bu sevincli günləri yaşatdı. Laçında işləmək qürurvericidir, rayonumuzda abadlıq işləri də sürətlə davam edir” , -deyə S.Məmmədov bildirib.

Gələcəkdə təsərrüfatda çalışanların sayının 60 nəfərə çatdırılması planlaşdırılır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**26 dekabr 2023**

**Kəlbəcər və Laçında 5 KSES-in bərpası üçün Türkiyənin iki şirkəti ilə müqavilə imzalanıb**

İşğaldan azad edilmiş ərazilərimizdə “yaşıl” enerji zonasının yaradılması istiqamətində növbəti layihə olan Kəlbəcər və Laçın rayonlarında 5 kiçik su elektrik stansiyasının bərpası və istismarı məqsədilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Türkiyənin "Demirören Yatırım Holding A.Ş." Şirkətlər Qrupu və "Arges Enerji Team" MMC arasında Birgə İştirak Müqaviləsi imzalanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihə yeni iş yerləri yaratmaqla bərabər, əhalinin Böyük Qayıdışının sürətləndirilməsinə, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı iqtisadi inkişafa və bərpa olunan enerji sahəsində yeni təcrübə və bacarıqların ötürülməsinə töhfələr verəcək.

**AZƏRTAC**
**27 dekabr 2023**

**Laçın şəhərinə növbəti köç karvanı yola düşüb**

Dekabrın 28-də Laçın şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 25 ailə (80 nəfər) köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, indiyədək Laçın şəhərində 408 ailənin (1555 nəfər) daimi məskunlaşması təmin olunub.

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçın sakini: Otuz bir il sonra doğma yurduma qayıdıram**

Laçından 16 yaşımda məcburi köçmüşdüm. Çox sevinirəm ki, 31 il sonra olsa da, doğma yurduma qayıdıram.

AZƏRTAC xəbər verir ki, bunu dekabrın 28-də Laçın şəhərinə yola salınan keçmiş məcburi köçkün Fuad Ağalarbəyli deyib.

Məcburi köçkünlük zamanı Sumqayıt şəhərində məskunlaşdığını deyən müsahib qeyd edib ki, 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında olan doğma torpaqlarımız şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına düşmən tapdağından xilas olub: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz şanlı Qələbə qazandı. Allah şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı versin".

Qeyd edək ki, bu mərhələdə Laçın şəhərinə daha 25 ailə (80 nəfər) köçürülüb.

İndiyədək Laçın şəhərində 408 ailənin (1555 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçın sakini: Yurdumuz daha gözəlləşəcək, inkişaf edəcək**

Mən anamı yola salıram. 31 ildən sonra nəhayət ki, o da dədə-baba yurdunu görəcək.

AZƏRTAC xəbər verir ki, bunu Laçın şəhər sakini Solmaz Topaq deyib.

O qeyd edib ki, Laçın daha da inkişaf edəcək, gözəlləşəcək: “Özüm də son zamanlarda Laçına səfər etmişdim. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz Zəfər qazandı. Hər şey daha yaxşı olacaq”.

Qeyd edək ki, bu mərhələdə Laçın şəhərinə daha 25 ailə (80 nəfər) köçürülüb.

İndiyədək Laçın şəhərində 408 ailənin (1555 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçın sakini: 31 ildən sonra gözəl yurduma qayıdıram**

Laçından çıxanda gənc oğlan idim. 31 ildən sonra gözəl yurduma qayıdıram. Sevincimin həddi-hüdudu yoxdur.

AZƏRTAC xəbər verir ki, bunu dekabrın 28-də Laçın şəhərinə yola salınan keçmiş məcburi köçkün Seyidkazım Cabbarov deyib.

O bildirib ki, Laçına nə vaxtsa qayıdacağına ümid edirdi. Növbəti ilin ölkəmizə düşərli olacağına inandığını qeyd edən müsahib bu sevinci yaşadan Ali Baş Komandan İlham Əliyevin siyasəti, cəsur, mərd oğlanlarımızın igidliyi nəticəsində suverenliyimizin bərpa olunduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, bu mərhələdə Laçın şəhərinə daha 25 ailə (80 nəfər) köçürülüb.

İndiyədək Laçın şəhərində 408 ailənin (1555 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**28 dekabr 2023**

**Doğma yurda yola düşən laçınlı: İlk olaraq əzizlərimin məzarlarını ziyarət edəcəyəm**

Dədə-baba yurduma qayıtdığım üçün çox sevinirəm. İlk olaraq qohumlarımın, əzizlərimin məzarlarını ziyarət edəcəyəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 28-də Laçın şəhərinə yola salınan keçmiş məcburi köçkün Kifayət İsmayılqızı deyib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşməni məğlub edərək torpaqlarımızı işğaldan azad etdiyini xatırladan keçmiş məcburi köçkün doğma el-obasına qayıtdığı üçün sevincinin hədsiz olduğunu bildirib. Vətən uğurunda canını və qanını əsirgəməyən qazilərimizə şəfa, şəhidlərimizə rəhmət diləyən K.İsmayılqızı Laçın şəhərinin yenidən inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçında "İslimi" Xalçaçılıq mərkəzi fəaliyyətə başlayıb – FOTO**

Laçın şəhərində "İslimi" Xalçaçılıq mərkəzi açılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu mərkəz Laçının hələ qədimdən məhşur xalçalarının olduğu nəzərə alınaraq yaradılıb. Burada Laçın çeşnilərini özündə əks erdirən xalçaların ərsəyə gətirilməsi ilə yanaşı, həm də sakinlərin məşğulluğu təmin olunacaq.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC-nin, "Laçın Abadlıq Xidməti" ASC-nin və digər qurumların əməkdaşları iştirak ediblər.

Mərasim iştirakçıları mərkəzdə yaradılan şəraitlə tanışlıq olublar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçında "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzi açılıb - FOTO**

Laçın şəhərində "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzinin açılışı olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hələ qədimdən Laçın sənətkarlarının əl işləri ilə də tanınırdı. Məhz bu amil nəzərə alınaraq, Laçında belə bir mərkəz yaradılıb.

Mərkəzdə bir vaxtlar Laçında hazırlanan müxtəlif əl işləri yenidən ərsəyə gətiriləcək, həm də sakinlər iş yerləri ilə təmin olunacaqlar.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC-nin, "Laçın Abadlıq Xidməti" ASC-nin və digər qurumların əməkdaşları iştirak ediblər.

Mərasim iştirakçıları mərkəzdə yaradılan şəraitlə tanış olublar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**“İslimi” Xalçaçılıq mərkəzinin rəhbəri: Gələcəkdə Laçın xalçalarını bütün dünyada təmsil edəcəyik**

Laçında açılan “İslimi” Xalçaçılıq mərkəzində Qarabağ xalçaçılıq məktəbinə aid "Qasımuşağı" xalçaları toxunacaq. Biz gələcəkdə Laçın xalçalarını bütün dünyada təmsil edəcəyik.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında bu gün Laçında fəaliyyətə başlayan “İslimi” Xalçaçılıq mərkəzinin rəhbəri Bəhmən Hacıyev söyləyib.

Məqsədlərinin gənc nəsillərə qədim-adət ənənələri öyrətmək olduğunu vurğulayan B.Hacıyev deyib: “Biz burada ancaq Laçın çeşniləri əsasında "Qasımuşağı" xalçaları toxuyacağıq. Mərkəzdə işə əsasən laçınlılar cəlb olunub. Bir müddət sonra emalatxanaya kiçikölçülü hanalar da gətiriləcək. Emalatxananın ərazisi 120 kvadratmetrdir. Burada 4 dəzgah var. Hər dəzgahda 2-3 nəfər işləyə bilir. Ümumilikdə, emalatxanada 16 nəfər çalışır”.

**A.Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçında aparılan tikinti-quruculuq işlərində fərqlənən dövlət qurumları və şirkətlərin mükafatlandırma mərasimi keçirilib - YENİLƏNİB**

Azərbaycanın dilbər guşələrindən olan Laçın şəhəri işğalçılardan azad edildikdən sonra burada çox qısa zamanda böyük tikinti-quruculuq işləri həyata keçirildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun gücü sayəsində azadlığına qovuşan Laçın indi laçın çağlarını yaşayır desək, yanılmarıq. Qısa zamanda yenidən qurulan Laçın şəhəri indi göz oxşayır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçında aparılan tikinti-quruculuq işlərində xidmətləri olan dövlət qurumları və şirkətlərin təntənəli mükafatlandırma mərasimi olub.

“Lacınema” Kino Mərkəzində keçirilən mərasimdə Prezidentin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC, "Laçın Abadlıq Xidməti" ASC, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İB, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və bir çox şirkətlərin rəsmiləri iştirak ediblər.

Prezidentin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov çıxış edərək, iştirakçılara və laçınlılara bayram təbriklərini çatdırıb.

Çıxışlardan sonra Laçının yenidən qurulmasındakı fəaliyyətlərinə görə “Azərenerji” ASC, “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və “Azəriinşaat” şirkəti mükafatlandırılıb.

Həmçinin şəhərin yenidən qurulmasında, abadlaşdırılmasında və məşğulluğun təmin olunmasında xidmətlərinə görə “Laçın Abadlıq Xidməti” ASC, “Dam Plus”, “Komiforest”, “Nakhish”, "EL-EL", “ARTE” şirkətləri, mədəni-kütləvi tədbirlərin təşkilində əvəzsiz xidmətlərə görə “Bakı Abadlıq Xidməti” MMC, yenidənqurma işlərinin və tədbirlərin işıqlandırılmasında göstərilən dəstəyə və xidmətlərə görə “Absheron Group Production” təltif edilib.

Tanınmış fotoqraf Reza Deqati Azərbaycan, o cümlədən Laçın həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətlərinə görə, Əməkdar mədəniyyət işçisi, rəssam Elçin Orucov isə Laçın şəhərində mədəni həyatın dirçəlməsindəki xidmətlərinə görə mükafata layiq görülüb.

Mükafatçılara müəllifi Tural Rzaquliyev olan “Laçın qartalı” heykəli təqdim edilib.

Mərasim zamanı tanınmış müğənnilərin ifasında mahnılar səsləndirilib.

**A.Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçında daha 25 ailəyə evlərinin açarları təqdim olunub - YENİLƏNİB**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Laçına çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərinə köçən daha 25 ailə mənzillərinin açarlarını təhvil alıb.

Açarların təqdim edilməsi mərasimində Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, "Laçın Abadlıq Xidməti" ASC-nin, "Bakı Abadlıq Xidməti" MMC-nin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskublaşıblar.

Dekabrın 28-də Böyük Qayıdış proqramı çərçivəsində Laçına növbəti köç prosessi gerçəkləşib. Səhər saatlarında paytaxtın Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu dəfə 25 ailəyə qucaq açıb və daha 80 nəfərin yurd həsrəti bitib.

Keçmiş məcburi köçkünlər şəhərdə Seyrəngah adlı ərazidə böyük coşqu ilə qarşılanıblar və Laçın şəhərinin gözəl mənzərəsini seyr ediblər.

Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Bununla da Laçın şəhərində 408 ailə, yəni 1555 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**Laçında "Can Laçın" adlı bayram yarmarkası başlayıb – VİDEO**

Böyük Qayıdışın ünvanlarından olan Laçın şəhərində "Can Laçın" yarmarkasına start verilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçında Həkəri çayının kənarında təşkil olunan "Can Laçın" yarmarkası həm də bayram ab-havası ilə laçınlılara xoş təəssürat bəxş edib. Yarmarkada Laçında istehsal olunan kənd təsərrüfatı məhsulları, müxtəlif əl işləri yer alıb. Bayram ab-havası ilə müşayiət olunan yarmarkanın açılış mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Bakı Abadlıq Xidməti MMC-nin, Laçın Abadlıq Xidməti ASC-nin əməkdaşları və Laçın sakinləri iştirak ediblər.

Xüsusi nümayəndə Məsim Məmmədov çıxış edərək bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qüdrətli Azərbaycan Ordusunun gücü sayəsində Laçın öz azadlığına qovuşub. Laçında görülən quruculuq işləri nəticəsində qısa müddətdə şəhərdə həyat öz axarına qayıdıb. Həmçinin 1500-dən çox sakinin yaşadığı Laçında əhalinin məşğulluğu üçün yaradılan iş yerlərindən danışılıb. Vurğulanıb ki, yarmarkanın adı təsadüfi deyil. Belə ki, Laçın torpağında yetişən, hər bir məhsula can dərmanı deyildiyi üçün indi həmin Laçın məhsulları Laçın yarmarkasında yer alır. "Can Laçın" yarmarkasının gələcəkdə Laçının bir brendinə çevriləcəyi bildirilib. Yarmarkada laçınlı xanımların və uşaqların hazırladığı əl işləri, arıçılıq məhsulları, kənd təsərrüfatı məhsulları yer alıb. Yarmarkaya baxış keçirilib, sərgilənən məhsullar haqqında ətraflı məlumat verilib. Daha sonra konsert proqramı təşkil edilib. Bayram tədbirində maskotların çıxışı uşaqlar üçün əsl bayram ovqatı yaradıb.

Yarmarka iki gün davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 dekabr 2023**

**https://video.azertag.az/site/video/196306**

**“Hər Obada Bayramdır” – Laçında bir gün**

“OBA” marketlər şəbəkəsi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 2024-cü ilin gəlişi münasibətilə Laçın şəhərində Yeni il şənliyi keçirib.

Güvən Xeyriyyə İctimai Birliyinin dəstəyi ilə həyata keçirilən “Hər Obada Bayramdır” layihəsi çərçivəsində Laçın şəhərində yerləşən 2 nömrəli tam orta məktəbdə şagirdlərlə görüş təşkil olunub.

Görüş zamanı uşaqlar və müəllimlər arasında bir-birindən fərqli yarışmalar keçirilib, uşaqların əyləncəsi üçün müxtəlif animasiyalar sərgilənib.

Daha sonra “OBA”nın şaxta babası məktəbə daxil olub və şirkət tərəfindən uşaqlar üçün hazırlanmış “OBA” xurcunlarını onlara təqdim edib.

“OBA” marketlər şəbəkəsindən bildirilib ki, layihənin məqsədi Laçın şəhərinə yeni köçmüş uşaqlarla ilk bayram sevincini bölüşmək olub.

**AZƏRTAC**
**29 dekabr 2023**

**Laçında ilk dəfə olaraq "Laçın hekayəsi" adlı klassik musiqi axşamı təşkil edilib**

Laçında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə bir-birindən maraqlı konsert proqramları və bayram tədbirləri təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Lacinema" Kino Mərkəzi musiqili və bədii tədbirlərin qeyd edildiyi məkana çevrilib. Bayram günləri ərəfəsində mərkəzdə təşkil edilən mədəni tədbirlər laçınlılar tərəfindən maraqla qarşılanıb.

Tədbirlərdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC-nin, "Laçın Abadlıq Xidməti" ASC-nin əməkdaşları və Laçın sakinləri iştirak ediblər. "Lacinema" Kino Mərkəzində "Həmrəylik günü" filmi nümayiş olunub. Həmçinin "Laçın hekayəsi" adlı klassik musiqi axşamı keçirilib. Beynəlxalq müsabiqələr laureatı, prezident təqaüdçüsü, pianoçu Nazxanım Dadaşovanın təqdim etdiyi layihədə dahi Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən qurulmuş kompozisiya 31 ilik işğal dövrünün ağrı-acısını və Zəfər təntənəsini özündə əks etdirən hekayə üzərində qurulub. Q.Vişnevskaya adına opera mərkəzinin solisti Nigar Cəfərovanın, beynəlxalq müsabiqələr laureatı Gülsüm Xəlilovanın ifalarında səslənən ariyalar maraqla qarşılanıb. Konsertdən sonra çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov gənc ifaçılara təşəkkür edərək, yüksək musiqi zövqü formalaşdıran belə gecələrin Laçında mütəmadi olaraq keçiriləcəyini bildirib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**30 dekabr 2023**

**Laçında sakinlər Yeni ili atəşfəşanlıqla qarşılayıblar – VİDEO**

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı Laçının əsl sahibləri – doğma yurdlarına qayıtmış sakinlər tərəfindən qeyd edilib. Otuz bir illik yurd həsrətindən sonra doğma torpaqlarına qayıdan laçınlıların bayram sevinci şəhərdə atəşfəşanlıqla müşahidə olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri 2024-cü ili 1555 nəfər doğma sakini ilə birlikdə qarşılayıb. Bayram ərəfəsində təşkil edilən konsert proqramı, yarmarka və bir-birindən maraqlı tədbirlər sakinlər üçün əsl əyləncəyə çevrilib. Yeni ilin gəlişi münasibətilə Laçın səmasında müşahidə edilən atəşfəşanlıq daha yaddaqalan olub.

Qeyd edək ki, hazırda Laçında 408 ailə yaşayır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**31 dekabr 2023**

**https://video.azertag.az/site/video/196522**

**Laçına qayıtmış dərzi: Dövlət Bayrağı günü hərbçilərimiz mənim tikdiyim bayraqla yürüş etdilər**

Laçın şəhərində 408 ailə, yəni 1555 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Laçında yaşayan, artıq yurd həsrəti bitmiş ailələrdən biri də Məmmədovlardır. AZƏRTAC-ın bölgə müxbiri həmin ailənin qonağı olub, onların laçınlı günləri haqda fikirlərini qələmə alıb.

Leyla Məmmədova Laçında dünyaya göz açıb, 1992-ci ildə hələ gənc yaşlarında doğma yurdundan məcburi köçkün düşüb. 30 il Laçından ayrı yaşasa da, ümidini itirməyib və arzuları gerçək olub: “Avqustun 29-da Laçına qayıdanda bir anlıq elə hiss etdim ki, sanki yatmışdım, yuxudan ayıldım. Doğrudur, Laçın hər zaman öz mənzərəsinin gözəlliyi ilə insanı valeh edib, amma bu dəfə Laçınımı tamam başqa cür gördüm. Həm illərin həsrəti bitdi, həm də çətin günlərimiz tarixə qovuşdu. Doğma şəhərimizin görkəmi xatirimdə qalmışdı, bura qayıtdıqda isə abad məhəllələr, işıqlı küçələr, gözəl evlər gördüm. Sanki özümü başqa bir ölkədə hiss etdim. Məcburi köçkün olduğumuz vaxtlarda ağır günlərimiz oldu, bir neçə yerdə yaşamalı olduq, nəhayət yataqxana binasında məskunlaşdıq. Düzdür, dövlət bizi hər zaman diqqətdə saxladı. Amma doğma yurdumuzdan ayrı yaşamaq çox çətin idi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və güclü ordumuzun qüdrəti sayəsində bizlər Zəfərin şahidi olduq, qaçqınçılıq həyatımız bitdi, qalib xalqa çevrilərək öz elimizə qovuşduq. İndi Laçında öz evimiz yenidən bərpa olunaraq tam müasir standartlara vəziyyətdə istifadəmizə verilib”.

L.Məmmədova deyir ailədə altı nəfərdirlər: “Yaşadığımız yer də çox geniş deyildi. Bizə xəbər verdilər ki, Laçına köç başlayıb. Oğlum Bakıda yeni iş tapmışdı, amma Laçına qayıdacağımızı eşidən an ərizəsini yazıb işdən çıxdı. Hamımız birlikdə doğma yurdumuza qayıtdıq. Gəldikdən sonra oğlum və yoldaşım işlə təmin olundu, özüm də evdə sənətim üzrə dərzi çalışıram, hər bir şəraitimiz var. Biz həm də Laçında tarixi günlərin şahidi olduq. Mən çox sevindim ki, Laçında Dövlət Bayrağı günü hərbçilərimiz mənim tikdiyim bayraqla yürüş etdilər. Həmin bayrağı Vətən müharibəsi başlayan zaman Bakıda olarkən tikmişdim. İnanırdım ki, qələbə bizimlədir və həmin bayraq Laçında dalğalanacaq. Belə də oldu. Laçında balalarımızın ilk dərs gününü, Zəfər Gününü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını qeyd etdik. İnanırıq ki, bu bizlərin firavan əminaman günlərimizin başlanğıcıdır”.

Laçın xəyalları ilə yaşayan Tunar Elxanlı indi bu yerlərin yeniyetmə sakinidir, təhsilini ata-baba yurdunda davam etdirir. Tunar deyir ki, Laçın onları təsəvvür etdiyindən də gözəl qarşılayıb: “Laçınla bağlı olan xəyallarım bura gələndə gerçəkləşdi. Hər zaman valideynlərim danışanda Laçın barəsində bu yerlərin necə gözəl olduğunu təsəvvürümdə canlandırırdım. 7-ci sinfə Laçında başladım. Burada təhsil aldığım məktəbdə yeni müəllimlər, yeni dostlar qazanmışam, tam müasir standartlara uyğun məktəbdə təhsil alıram. Hər səhər servis avtobusu bizi evimizin qarşısından götürür və dərs bitdikdən sonra yenidən avtobusla evə qayıdırıq. Laçında ata-baba yurdumuzda yaşamaq bizlər üçün fəxrdir. Biz qəhrəmanlar haqqında, Vətəni uğrunda canını verən oğullar barədə dərsliklərdə oxuyurduq. Amma Vətən müharibəsində tarix yazan igidlərimizi gördük, şəhidlərimiz bizlər üçün əsl örnəyə çevrildi. Onların bizə əmanət etdiyi bu doğma torpaqlarda yaşamağımızla qürur duyuruq”.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**4 yanvar 2024**

**Laçında iki hərbçi yol qəzası nəticəsində həlak olub**

Yanvarın 4-də Laçın rayonunda çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları İsmayılov Həsən Ümid oğlu və Axundov Səxavət Fərasət oğlu həlak olub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Məlumatda bildirilib ki, faktla bağlı araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi bədbəxt hadisə nəticəsində həlak olanların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

**AZƏRTAC**
**4 yanvar 2024**

**Laçında yol qəzasında həlak olmuş hərbçilərə şəhid statusu veriləcək**

Laçın rayonunda hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində həlak olmuş hərbçilərə şəhid statusu veriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və beynəlxalq münasibətlər şöbəsinin rəisi Pərviz Sədrəddinov bildirib.

O deyib ki, bu gün Laçında həlak olan hərbi qulluqçular - Həsən İsmayılov və Səxavət Axundova şəhid statusu qanuna uyğun olaraq hərbi hissə tərəfindən təqdim edilən bildiriş əsasında veriləcək.

Allah şəhidlərimizə rəhmət eləsin!

**AZƏRTAC**
**4 yanvar 2024**

**“Azercell” artıq Laçındadır!**

Lider mobil operator Qarabağda sayca üçüncü rəsmi mağazasını Laçında abunəçilərin istifadəsinə verdi

“Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədinə uyğun olaraq “Azercell” Qarabağda üçüncü mağazasını açdı. Laçın şəhərinin mərkəzində - Xosrov bəy Sultanov küçəsində açılmış rəsmi diler mağazası ən müasir avadanlıqlarla təmin olunub. Abunəçilər burada digər müştəri xidmətləri mərkəzlərində həyata keçirilən əksər əməliyyatları həyata keçirə bilərlər. Həmçinin abunəçilər yeni açılmış mağazada gündəlik istifadə üçün bir sıra yeni cihazlar (MiFi, USB modem və s.), müxtəlif aksesuarlar əldə edə, mobil telefonları kredit və nağd şəkildə satın ala bilərlər.

Xatırladaq ki, “Azercell”in Laçınla yanaşı, Qarabağda daha iki rəsmi məntəqəsi - Şuşa şəhərində satış və xidmət, Zəngilanın Ağalı kəndində isə diler mağazası fəaliyyət göstərir.

“Azercell” Qarabağda bərpa və yenidənqurma işlərinin fəal dəstəkçisidir. İşğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturu quran “Azercell”in hazırda Qarabağda LTE texnologiya əsaslı 147 baza stansiyası fəaliyyət göstərir. Şirkət “yaşıl” texnologiyaların da tətbiqinə başlayaraq Qubadlı və Cəbrayılda günəş enerjisinə əsaslanan baza stansiyalarını işə salıb. Hazırda digər ərazilərdə də “yaşıl” stansiyaların tətbiq edilməsi və saylarının 35-ə çatdırılması nəzərdə tutulur.

“Azercell”, həmçinin Qarabağda müştəri xidmətləri mərkəzi və rəsmi diler mağazasını istifadəyə verən ilk mobil operatordur.

**AZƏRTAC**
**9 yanvar 2024**

**“Azərişıq” Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir**

“Azərişıq” ASC işğaldan azad edilən bütün ərazilərimizdə, o cümlədən coğrafi quruluşuna görə ən çətin relyefə malik Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir.

ASC-dən AZƏRTAC-a bildirilib ki, Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin, İstisu ərazisində 110/35 kV-luq yarımstansiyanın inşası, eləcə də 35 kV-luq xətlərin çəkilişi sürətlə aparılır. Ağqaya, Qamışlı və Mərcimək istiqamətində yenidənqurma işləri gedir. Qeyd edilən kəndlərdə yeni dayaqlar basdırılır və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir. Rayonun şəhər ərazisindəki Qospitalda, həmçinin Cermux, Yellicə, Zəylik, İstisu, Zod, Zar, Yanşaq, Keşdək kəndlərində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri tam yekunlaşıb. Kəlbəcər rayonunda 2024-cü il ərzində yeni 110/35 kV-luq 2x25 MVA gücündə “Şəhər” yarımstansiyasının tikintisi və mövcud 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi, 110/35/10 kV-luq “Qamışlı” yarımstansiyasından çıxan 110 kV-luq mövcud hava xəttinin Kəlbəcər şəhəri ərazisindən İstisuya qədər olan hissəsinin 110 kV-luq iki dövrəli hava xətti ilə yenidən qurulması və Şəhərsalma planına əsasən rayonun Zallar, Yanşaq, Zar kəndlərinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur.

Laçında rayonunda da böyük ölçüdə işlər görülüb. Hazırda Qorçu və Tiğik istiqamətində elektrik şəbəkələri yenilənir. Laçın şəhəri daxilində yeraltı xətlərin çəkilişi davam edir. Rayonun Şəlvə, Malıbəyli, Qaragöl, Cağazur və Minkənd kəndlərində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri tam yekunlaşıb. Hazırda Tiğik kəndinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq hava xəttinin çəkilişi davam edir. Laçın rayonunda 2024-cü il ərzində şəhər ərazisində yeni 35 kV-luq, Minkənd ərazisində 1 ədəd 35 kV-luq yarımstansiyaların tikintisi, bu yarımstansiyalar istiqamətində 35 kV-luq ÖİN xəttinin çəkilməsi və Şəhərsalma Planına əsasən rayonun Güləbird, Şəlvə, Qorçu qəsəbəsinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur.

Ümumilikdə, görülən işlərin yekununda Kəlbəcərlə Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

**AZƏRTAC**
**10 yanvar 2024**

**Prezident: Yeni Laçın-Xankəndi yolunun çəkilməsi 23 aprel hadisələrinin təməlini qoymuşdu – VİDEO**

İkinci Qarabağ müharibəsi başa çatandan bir müddətdən sonra yerli ermənilərin bəziləri bizim nümayəndələrimizə çıxaraq təmaslar haqqında təkliflər vermişdilər və biz də imtina etmədik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.

Məqsədimizin ölkəmizin suverenliyini tam bərpa etmək və burada yaşayan əhalini vahid Azərbaycan dövləti çərçivəsində rahat və təhlükəsiz yaşaya biləcəyinə inandırmaq olduğunu xatırladan dövlətimizin başçısı bildirib: "Bizim niyyətimiz çox açıq, aydın idi və o təmaslar əsnasında bəzi müsbət addımlar da atılmışdır. Yəni ki, yeni Laçın-Xankəndi yolu marşrutunun müəyyən edilməsi, çəkilməsi çox önəmli hadisə idi və 23 aprel hadisələrinin elə bil ki, təməlini qoymuşdu. Çünki biz artıq yeni yol çəkərək Laçın şəhərini özümüzə qaytardıq".

**AZƏRTAC**
**10 yanvar 2024**

**https://video.azertag.az/site/video/197167**

**Laçın yenidən ağ örpəyə bürünür**

Laçında yanvar ayının ikinci qarı yağır. Dağlar qoynunda yerləşən şəhər yenidən ağ örpəyə bürünür.

AZƏRTAC-ın Laçına ezam olunan müxbiri xəbər verir ki, səhər saatlarında başlayan sulu qar saat 9 radələrində qara çevrilərək qısa müddətdə hər tərəfi ağ örpəyə bürüyüb. Həmçinin silsilə dağlar arasında yaranan bulud qatı şəhərin gözəlliyini daha da artırıb.

Qeyd edək ki, Laçına mövsümün ilk qarı 2023-cü il dekabrın 19-da yağıb. Yeni ilin yanvar ayında isə artıq ikinci dəfədir ki, Laçın ağ örpəyə bürünür. Laçından olan ən son kadrları təqdim edirik.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**13 yanvar 2024**

**Laçında polis əməkdaşları qarlı hava şəraitində xidməti fəaliyyətlərini davam etdirirlər**

Laçında polis əməkdaşları qarlı hava şəraitində xidməti fəaliyyətlərini davam etdirirlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki , bütün zəruri tədbirlər yerinə yetirilir, vətəndaşlarla iş aparılır, yollarda hərəkətin təhlükəsizliyi təmin olunur.

**AZƏRTAC**
**14 yanvar 2024**

**Laçın sakini: Fevralın 7-si bizim üçün yaddaşlara əbədi həkk olacaq təqvimə çevriləcək**

Qalib ölkənin qalib vətəndaşlarıyıq. Yurd həsrətimiz bitib, Laçınımıza qovuşmuşuq, tarixi günlərə şahidlik edirik. İndi qarşıdan prezident seçkiləri gəlir, fevralın 7-si bizim üçün yaddaşlara əbədi həkk olacaq bir təqvimə çevriləcək.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Laçın sakini Rövşən Əliyev söyləyib.

O deyib: "30 il Laçın həsrəti ilə yaşasaq da, ümidimiz itmədi, doğma yurdumuza qayıdacağımız günü gözlədik. İndi dədə-baba yurdumuzda məskunlaşmışıq. Bu torpaqlar həm də and yerimizdir, hər qarışı şəhid qanı ilə yuyulub. Laçınımız yenidən laçın çağlarına qayıdır. Bura qayıdandan sonra bir çox bayramlarımızı, o cümlədən Laçın Şəhəri Gününü də qeyd etmişik. Prezident seçkilərini də elə bayram əhval-ruhiyyəsində keçirəcəyik. Laçın sakini kimi doğma yurdumda səsvermədə iştirak edəcəyim üçün çox sevincliyəm. Ailədə 7 nəfərik, hər birimiz də səsvermədə iştirak edəcəyik. İlk dəfə səsvermədə iştirak edəcək nəvəmlə birlikdə Laçında ən layiqli namizədə səs verəcəyəm".

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**17 yanvar 2024**

**Bu il Şuşada, növbəti illərdə isə Ağdam, Cəbrayıl və Laçında “ASAN xidmət” mərkəzləri fəaliyyət göstərəcək**

Bu il Şuşa şəhərində “ASAN xidmət” mərkəzinin fəaliyyətə başlayacağı gözlənilir.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

“Növbəti illərdə Ağdam, Cəbrayıl və Laçın şəhərlərində regional “ASAN xidmət” mərkəzləri fəaliyyət göstərəcək”, - deyə Ü.Mehdiyev bildirib.

**AZƏRTAC**
**2024, 20 yanvar**

**Laçında 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb – VİDEO**

Respublikamızın hər yerində olduğu kimi Laçın şəhərində də 20 Yanvar şəhidlərinin xatirəsi dərin ehtiramla silsilə tədbirlərlə anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərində Bayraq meydanından başlayan anım günü toplantısında Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, Laçın Abadlıq Xidməti ASC-nin rəhbəri Nəsimi Əsədov, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə və təşkilat nümayəndələri, Laçın şəhər sakinləri iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib və şəhidlərin xatirəsi sükutla anılıb.

Çıxışçılar müstəqilliyimiz uğrunda ayağa qalxan xalqımızın qəhrəmanlığından söhbət açıblar. Qeyd olunub ki, həmin gün xalq ağır texnikaların silahlı qüvvələrin qarşısına qorxmadan əli silahsız çıxaraq müstəqillik uğrunda mübarizəyə qoşulub. Bununla yanaşı, həmin gecə dinc sakinlərə qarşı törədilən vəhşiliklərdən söhbət açılıb. Öz qanı-canı ilə vətəninin müdafiəsinə qalxan qüdrətli Azərbaycan xalqının xatirəsi dərin ehtiramla xatırlanıb.

Bildirilib ki, 34 il ötməsinə baxmayaraq 20 Yanvar tarixi unudulmayıb və unudulmayacaq. Daha sonra Laçın şəhərinin mərkəzi küçələri boyunca rəsmi şəxslər, polis əməkdaşları və sakinlərin iştirakı ilə yürüş keçirilib. Saat 12:00-da isə şəhərdə hərəkət dayandırılaraq səs siqnalları verilib. Daha sonra şəhidlərin əziz xatirəsinə həsr edilən "Öz şəhərimizi özümüz abadlaşdıraq" adlı iməcilik təşkil edilib.

Silsilə tədbirlərin sonunda Laçın şəhərindəki Laçın kinoteatrının binasında "20 Yanvarda doğulanlar" filminin nümayişi olub. Ekran əsərində 20 Yanvar hadisələrini dünyaya “sos” siqnalları ilə çatdıran qəhrəman dənizçilərin şücaəti öz əksini tapıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**20 yanvar 2024**

**https://video.azertag.az/site/video/198175**

**121 saylı Laçın seçki dairəsi üzrə 5 məntəqə azad edilmiş ərazilərdə yerləşir**

121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlər davam edir.

Dairə Seçki Komissiyasının sədri Hüseyn Səfərov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, treninqlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kurslarında iştirak etmiş trenerlər tərəfindən aparılır. On gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir. İştirakçılara slaydların köməyi ilə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir. Treninq zamanı müzakirələr aparılır, iştirakçıları maraqlandıran suallar cavablandırılır. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur. Treninqlər yanvarın 29-da başa çatacaq.

121 saylı Laçın seçki dairəsində fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkisi 109 məntəqədə keçiriləcək. Laçın rayonundan olan seçicilər respublikanın müxtəlif şəhər və rayonlarında səs verəcəklər. Məntəqələrin beşi işğaldan azad edilmiş ərazilərdə yerləşir. Dairə üzrə 59 min 563 seçici qeydə alınıb ki, onlardan 5278 nəfəri ilk dəfə olaraq seçki hüququndan istifadə edəcək gənclərdir. Seçicilərin 1461 nəfəri 80-100 yaş arasında, 2 seçicinin yaşı isə 100-dən yuxarıdır.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**20 yanvar 2024**

**Şuşa, Laçın və Xocavənddə "Azərpoçt"un xidmətlərinin təşkili istiqamətində işlər aparılır**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, Qarabağ və Şərqi Zəngəzurda bəzi şəhərlərdə poçt filialının yaradılması ilə bağlı işlər gedir.

AZƏRTAC xəbər verir ki, "Azərpoçt" MMC-nin İdarə heyətinin sədrinin vəzifələrini müvəqqəti icra edən İsi Mustafayev "2023-Hesabat" adlı tədbirdə bildirib.

"2020-ci ildə Hadrutda, daha sonra Cocuq Mərcanlıda poçt şöbəsi yaradılıb. 2022-ci ildə isə Zəngilan rayonunun Ağalı kəndində poçt xidmətlərinin təşkili təmin olunub. Hazırda Xankəndi Poçt Filialı yaradılır. Eyni zamanda, Şuşa, Laçın və Xocavənd, Əsgəran şəhərlərində poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən edilməsi istiqamətində işlər aparılır", - deyə İsi Mustafayev qeyd edib.

**AZƏRTAC**
**2024, 25 yanvar**

**Otuz ildən sonra gerçəyə çevrilən arzu... Laçından reportaj**

Ötən 30 ildə hər dəfə qar yağanda kədərlənirdim, yadıma doğma Laçından köçkün düşdüyümüz qış mövsümündə ermənilərin törətdiyi cinayət hadisələri düşürdü. Laçın həsrəti ilə yaşamaq bizə mənəvi əzab verirdi. Amma indi doğma yurdumuzdayıq, torpaqlarımız azaddır, şəhidlərimizin ruhu şaddır. Çünki ərazi bütövlüyümüz bərpa olunub, qalib ölkənin qalib vətəndaşı kimi doğma elimizdə məskunlaşmışıq.

Bu fikirlər Laçın sakini İlham Mirzəyevə məxsusdur. AZƏRTAC-ın bölgə müxbirinin Laçın səfərinə dair qeydlərini təqdim edirik.

Səfərimiz ölkəmizin cənub qərbində, dağlar qoynunda yerləşən Laçın şəhərinədir. Zəfər yolu, sonra Şuşa-Laçın yolu ilə irəliləyirik. Enişli-yoxuşlu və aşırımlı yollarla Laçın şəhərinə çatırıq. Dəniz səviyyəsindən 1164 metr hündürlükdə yerləşən şəhər ağ örpəyi ilə diqqət çəkir. Erməni işğalı zamanı dağıdılan Laçın azad edildikdən sonra yenidən öz laçın çağlarına qayıdır.

Böyük Qayıdış nəticəsində şəhərdə artıq 408 ailə olmaqla, 1555 nəfər yaşayır. Əhalinin məşğulluğu da diqqətdə saxlanılır.

Şəhərdə yaşayan ailələrdən birinin qonağı oluruq. Çöldə havanın qarlı-şaxtalı olmasına baxmayaraq, laçınlı ailə bizi öz isti ocağında və səmimi qonapərvərliklə qarşılayır.

Ailə başçısı İlham Mirzəyev 1957-ci ildə Laçın şəhərində dünyaya göz açıb. Uşaqlıq və gənclik illəri burada keçib. 1992-ci ilədək ailəsi ilə birlikdə firavan yaşayıblar, ta ki Laçın işğal olunana qədər...

Otuz il köçkünlük həyatı onlar üçün ağır keçsə də, yenidən doğma yurda qovuşublar. Ataların bir misalı var: "Köhnə yurdun qədrini təzə yurda köçəndə bilərlər", - deyən İlham dayı ötən illərin yurd həsrətindən danışır. Danışdıqca həm kövrəlir, həm də sevinir. Deyir ki, Laçına qayıdanda qarışıq hisslər yaşayıb və bu, indi də davam edir. Sanki bu günlər onun üçün bir xəyal idi. İndi bu xəyal, bu arzu gerçəkləşib...

Qarın yağmasına baxmayaraq, hər hansı çətinlik yaşamadıqlarını söyləyən İlham dayı deyir ki, 30 il öncə, Laçından köçkün düşməmişdən qabaq burada mavi yanacaq, asfalt yollar olmayıb: "Amma indi Laçın şəhəri çox müasirləşib. Qışın soyuğunu hiss etmirik. Əskinə, yağan qarın hər kəsdə yaratdığı sevinc hisslərini görürük. Evimizə istilik sistemi çəkilib, su xətləri var, elektrik enerjisi fasiləsiz verilir. Hər küçəyə də asfalt döşənib", - deyə o söyləyir.

Ailənin ən kiçik nümayəndəsi Yusif Cəbrayılov da Laçına - baba yurduna qayıtdığı üçün çox sevinir. O, Bakıda yaşayanda böyüklərindən Laçın haqqında tez-tez soruşar, onlar danışdıqca baba yurdunu gözləri önündə canlandırardı. Hətta görmədiyi Laçının rəsmlərini çəkərdi. "Laçına qayıdacağımız günü biləndə çox sevindim. İndi ata-baba yurdumdayam. Bir vaxtlar təsvir etdiyim Laçını indi öz gözlərimlə görür və əl işlərimdə əks edirirəm", - deyən Yusif Laçın şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alır. İstedadı ilə fərqlənən balaca Yusif Laçın haqqında təxəyyülünü daşlar üzərinə də köçürür. Belə əl işlərindən birini göstərərək deyir: "Bu əl işimdə dağlar arasından axan Həkəri çayını və göy üzündə günəşi təsvir etmişəm. Digər əl işimdə isə Laçında dalğalanan bayrağımız var. Laçınımızı gəzdikcə, gördükcə bir çox əl işi yaratmağı düşünürəm. Çünki Laçın gözəlliklər diyarıdır".

Laçın şəhərinə bu qış mövsümündə beşinci dəfədir qar yağır. Buna baxmayaraq, şəhərdə həyat öz axarı ilə davam edir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**25 yanvar 2024**

**Laçın sakinlərindən 7 tüfəng götürülüb**

Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri profilaktiki tədbirlər nəticəsində vətəndaşlar tərəfindən odlu silahların könüllü şəkildə təhvil verilməsi təmin edilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, tədbirlər zamanı polis əməkdaşları müxtəlif kalibrli 7 tüfəngi təhvil götürüblər.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

**AZƏRTAC**
**25 yanvar 2024**

**Xudafərin-Qubadlı- Laçın yolu 2024-cü ilin sonuna kimi tamamlanacaq**

Xudafərin-Qubadlı-Laçın yolunun artıq yarısı tamamlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə yanvarın 26-da Qarabağ və Şərqi Zəngəzur bölgəsində üç mühüm avtomobil yolunun: Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, həmçinin Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yollarının tikinti layihələri üzrə tərtib olunmuş ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərinin (ƏMTQ) müzakirəsi ilə bağlı ictimai dinləmədə məlumat verilib.

Qeyd olunub ki, yolun tikintisinə 2021-ci ildə başlanılıb və 2024-cü ilin sonuna kimi tamamlanacaq.

İctimai dinləmədə sifarişçilər, layihə icraçıları, dövlət qurumları, ekoloqlar, QHT və KİV nümayəndələri, həmçinin digər maraqlı tərəflər iştirak edirlər.

**AZƏRTAC**
**26 yanvar 2024**

**Xudafərin-Qubadlı-Laçın yoluna düşən bir neçə məzarlıqlar və ziyarətgah köçürülüb**

Xudafərin-Qubadlı-Laçın yolu layihələndirilən zaman bir sıra məzarlıqlar və ziyarətgahın köçürülməsi prosesi baş tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə yanvarın 26-da Qarabağ və Şərqi Zəngəzur bölgəsində üç mühüm avtomobil yolunun: Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, həmçinin Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yollarının tikinti layihələri üzrə tərtib olunmuş ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərinin (ƏMTQ) müzakirəsi ilə bağlı ictimai dinləmədə məlumat verilib.

Bildirilib ki, yolun layihələndirilməsi zamanı bir çox məzarlıq tikintinin altına düşdüyündən köçürülmə prosesi olub. Müvafiq qurumların nümayəndələri ilə birlikdə müəyyən sənədləşmə işləri aparılıb, beləliklə, 61 məzar, XVII əsrə aid olan ziyarətgah köçürülüb.

Qeyd olunub ki, məzarlıqların və ümumiyyətlə, tarixi yerlərin köçürülməsi zamanı ətraf mühitin qiymətləndirilməsi prosesi çox vacibdir. Bu, inkişaf layihələrinin cəmiyyət üçün daha sürətli və ən effektiv şəkildə nəticələnməsini təmin etməyə yardımçı olur.

**AZƏRTAC**
**26 yanvar 2024**

**Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var**

Kəlbəcər, Laçın və Qubadlı rayonlarında kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var. Düşünürük ki, yaxın gələcəkdə bu işləri həyata keçirmək üçün imkanlar yaranacaq.

Bunu AZƏRTAC-a açıqlamasında Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyev deyib.

Onun sözlərinə görə, Arazboyu ərazilərdə bostançılıq, xüsusilə qarpız, yemiş əkinləri həyata keçirmək olar. Digər soyuq dağətəyi və dağlıq ərazilərdə isə tərəvəz bitkiləri - kələm, çuğundur və bu qəbilədən olan bitkilər əkmək məsləhətdir.

**AZƏRTAC**
**29 yanvar 2024**

**Laçın şəhərinə növbəti köç karvanı yola salınıb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yanvarın 30-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 72 nəfər köçürülüb.

Doğma yurda qayıdan Laçın sakinləri torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Laçın şəhərinə 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**30 yanvar 2024**

**Laçın sakini: Gözəl, firavan günlərimiz bundan sonra daha çox olacaq**

Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı, doğma yurd həsrətimiz sona çatdı. Laçına qayıtmaq məndə böyük qürur hissi yaradıb.

Bunu AZƏRTAC-a açıqlamasında Laçından olan keçmiş məcburi köçkün İsmət Abbasov deyib.

Bildirib ki, torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna təşəkkür edirəm, onlarla qürur duyuram. Ümid edirəm ki, gözəl, firavan günlərimiz bundan sonra daha çox olacaq.

**AZƏRTAC**
**30 yanvar 2024**

**Laçına qayıdan keçmiş məcburi köçkün: Biz illərdir bu günü gözləyirdik**

Sevincimin həddi-hüdudu yoxdur. Laçına qayıdırıq və hisslərimi sözlərlə ifadə etmək mümkün deyil. Biz illərdir bu günü gözləyirdik.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Laçın şəhərinə qayıdan keçmiş məcburi köçkün Qərib Səlimov söyləyib.

Böyük Qayıdışın Laçın salnaməsi davam etməkdədir. Keçmiş məcburi köçkünlərimizin sevinc, qürur, fəxr hissi ilə öz doğma yurdlarına, el-obalarına qayıtdığını bildirən sakin, bu günü bizə yaşadan Azərbaycan Ordusuna təşəkkürünü bildirib, şəhidlərimizə Allahdan rəhmət, qazilərə cansağlığı diləyib.

**AZƏRTAC**
**30 yanvar 2024**

**Laçına ilin ilk köç prosesi reallaşıb**

Böyük Qayıdış proqramı üzrə Laçın rayonuna cari ilin ilk köç prosesi həyata keçirilib. Bu gün səhər saatlarında paytaxtın Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu dəfə 23 ailəyə qucaq açıb, daha 72 laçınlının yurd həsrəti bitib. Onlar şəhərdə Seyrəngah adlı ərazidə böyük coşqu ilə qarşılanıblar və Laçın şəhərinin gözəl mənzərəsini seyr ediblər.

Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da Laçın şəhərində 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin olunub.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimiz tərəfindən bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**30 yanvar 2024**

**Laçında daha 23 ailəyə evlərinin açarları təqdim olunub – VİDEO**

Bu gün növbəti köç karvanı ilə Laçına qayıdan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu gün 23 ailəyə qucaq açıb və daha 72 laçınlının yurd həsrəti bitib. Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, "Laçın Abadlıq Xidməti" ASC-nin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alıb, öz evlərində məskunlaşıblar.

**16:52**

Böyük Qayıdış proqramı üzrə Laçın rayonuna cari ilin ilk köç prosesi həyata keçirilib. Bu gün səhər saatlarında paytaxtın Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu dəfə 23 ailəyə qucaq açıb, daha 72 laçınlının yurd həsrəti bitib. Onlar şəhərdə Seyrəngah adlı ərazidə böyük coşqu ilə qarşılanıblar və Laçın şəhərinin gözəl mənzərəsini seyr ediblər.

Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da Laçın şəhərində 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin olunub.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimiz tərəfindən bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**30 yanvar 2024**

**https://video.azertag.az/site/video/199045**

**Laçın sakini: Doğma yurdumuzda səs verəcəyim üçün qürurluyam**

Doğma elimizdən məcburi köçkün düşmək bizləri sarsıtdı. 30 il erməni əsarətində qalan yurd yerlərimizin işğal tarixlərini hüznlə xatırlayırdıq. Amma güclü ordumuzun sayəsində indi ərazi bütövlüyümüz bərpa olunub, biz də Laçınımıza qovuşmuşuq. Laçın sakini olaraq doğma yurdumuzda da təşkil ediləcək seçkidə səs verəcəyim üçün qürurluyam.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə Laçın sakini Leyla Məmmədova söyləyib.

İşğaldan azad olunan Laçında 1600-dən çox keçmiş məcburi köçkün məskunlaşıb. Onlardan səsvermə hüququ olanlar bu il ilk dəfə Laçında səs verəcəklər. Bunun üçün şəhərdə 2 seçki məntəqəsi yaradılıb. Səsverməyə yüksək əhvali-ruhiyyədə hazırlaşan sakinlərdən biri də Leyla Məmmədovadır. Seçki gününə hazırlıqla bağlı bildiriş kağızı alanda çox sevindiyini bildirən Leyla Məmmədova deyib: "Laçınımız bizi gözəl qarşıladı. Yenidən bərpa olunan, hər bir şərait yaradılan evlərimiz, abad küçələrimiz, uşaqların təhsili üçün inşa edilən məktəb, göz oxşayan şəhərimiz bizim üçün yeni həyatın başlanğıcıdır. Laçında bir çox ilklər yaşadıq və həmin günlər unudulmayacaq tarixə çevrilib. Bir neçə gün öncə səsvermə ilə bağlı bildiriş kağızı alanda da qürur hissi keçirdim və sevinc göz yaşlarımı saxlaya bilmədim. Bu tarixi anları bizləri qalib ölkənin qalib vətəndaşına çevirən ordumuzun sayəsində yaşayırıq. Torpaqlarımızı düşmən əsarətindən azad edən şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm".

Qeyd edək, ki Laçın şəhərində 431 ailə, yəni 1627 nəfərin daimi məskunlaşması təmin olunub. Böyük Qayıdış prosesi davam edir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**31 yanvar 2024**

**Laçın şəhərində müasir kitabxana istifadəyə verilib – VİDEO**

Bu gün Laçın şəhərində "LaCinema" kinoteatrının nəzdində yeni, müasir kitabxananın açılışı olub. "Simurq" adı verilmiş kitabxananın əsas özəlliyi funksionallığındadır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, "Laçın Abadlıq Xidməti"nin rəhbəri Nəsimi Əsədov, şəhərin ziyalıları, ictimaiyyət nümayəndələri, sakinlər iştirak ediblər. Tədbirə şəhərdə və Zabux kəndində fəaliyyət göstərən məktəblərin müəllim və şagird heyəti də qatılıb.

"Simurğ"u elə bura gələn ziyalıların, jurnalistlərin oxuyub təsirindən çıxa bilmədiyi kitablar zənginləşdirəcək. İlk olaraq bu addımı Məsim Məmmmədov atıb. O, ən sevimli, dəyərli kitabını kitabxanaya hədiyyə edib.

"Simurğ"un adının hekayəsi də maraqlıdır. Belə ki, ad elə orada yaşayanların təklifi ilə, vaxtilə Laçın şəhərinin əsasını qoymuş Tağı Şahbazi Simurğun şərəfinə verilib. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası da işə öz töhfəsini verib və "Simurğ"a 185 kitab göndərib.

Açılış mərasimində Azərbaycanın ən böyük mobil kitab tətbiqi "Audiokitab"ın kitablar və onların müəllifləri ilə bağlı keçirdiyi oyun-müsabiqədə məktəblilər fəal iştirak ediblər. Burada hər həftə kitab təqdimatları, uşaqlar üçün bu gün start verilən "Audiokitab" müsabiqələri keçiriləcək.

Açılış, həmçinin "Mən səni araram" adlı konsert ilə də yadda qalıb. Konsertdə bəstəkar, pianoçu Sevda Rəhimova, tarzən Zəfər Əhmədli, pianoçu Şahin Yahyazadə, caz pianoçu İsa Bağırov, zərb alətləri ifaçısı Məhəmməd İbrahimli çıxış ediblər.

Böyük kitabxanaların, qalereyaların açılacağı şəhərdə səyyar kitabxanalar da olacaq. Əhalinin kitaba, mütailəyə olan ehtiyacı nəzərə alınaraq, müxtəlif nəqliyyat vasitələri ilə hərbi hissələrə, köç həyata keçirilmiş yaşayış yerlərinə kitablar göndəriləcək.

Kinoteatr, kinopavilyondan sonra bu kitabxananın da şəhərin mədəniyyət mərkəzlərindən birinə çevriləcəyi gözlənilir. Şəhərdə qurulacaq böyük kitab mərkəzləri hazır olana qədər sözügedən kitabxana sakinlərin ehtiyaclarını qarşılayacaq.

**A Yavərzadə**

**AZƏRTAC**
**4 fevral 2024**

**https://video.azertag.az/site/video/199429**

**Laçında 100 il davamlılığı olan dam örtükləri istehsal edilir - FOTO**

Laçında Zerti Aqro-Sənaye Parkında yeni müəssisələr fəaliyyətə başlayıb. İstehsal sahələrinin açılması nəticəsində yerli sakinlərdən daha 60 nəfər işlə təmin olunub. Bununla da parkda çalışan laçınlıların sayı 500-ə çatıb.

"Laçın Abadlıq Xidməti" ASC-nin direktoru Nəsimi Əsədovun AZƏRTAC-ın bölgə müxbirinə verdiyi məlumata görə, yanvar ayından etibarən Laçında yüksəkkeyfiyyətli dam örtüklərinin istehsalına başlanılıb. 15-20 ilə korroziyaya uğrayan dəmir dam örtüklərindən fərqli olaraq, Laçında müasir italyan avadanlıqları ilə örtüklər istehsal edilir ki, onların da 100 ildən artıq davamlılığı var: “Bakı Abadlıq Xidməti" MMC tərəfindən yenidən qurulan Laçında bütün tikinti materialları, o cümlədən dam örtükləri ən yüksək standartlara cavab verir. Yerli müəssisənin işə düşməsi nəticəsində nəqliyyat və çatdırılma xərcləri də xeyli azalacaq. Laçındakı dam örtükləri müəssisəsi işğaldan azad olunmuş Qarabağda quruculuq işlərinə cəlb edilmiş tikinti şirkətlərinin ehtiyaclarını da qismən qarşılamağa qadirdir”.

Ümumiyyətlə, Laçındakı Zerti Aqro-Sənaye Parkında fəaliyyət göstərən bütün müəssisələr dünyanın ən yeni texnologiyaları ilə təchiz olunub. Laçınlılar xaricdən dəvət edilmiş mütəxəssislərdən dərs alaraq həm işlə təmin olunur, həm də peşəkar vərdişlərə yiyələnirlər. Bu mənada, Aqro-Sənaye Parkında fəaliyyət göstərən hər bir müəssisə, həm də tədris-təlim mərkəzi sayıla bilər. Aqro-Sənaye Parkında təşkil olunan kurslarda xaricdən dəvət almış mütəxəssislər bir neçə ay ərzində innovativ texnologiyalarla düzgün rəftar, istehsal gücünün artırılması üsulları ilə bağlı dərslər keçirlər.

"Bakı Abadlıq Xidməti" MMC-nin mühəndisi Fuad Məmmədovun sözlərinə görə, daha bir yenilik dünyada plastik qapı-pəncərə istehsalında brend sayılan “Schuco” məktəbinin Laçında fəaliyyətə başlaması olacaq. Əvvəlcə bu istiqamətdə təcrübə qazanılacaq, daha sonra Laçında da məşhur brendin məhsulları istehsal ediləcək.

Artıq istehsal sahəsinin yaradılması üçün Almaniyadan son texnoloji avadanlıqlar alınıb. Birinci mərhələdə alman mütəxəssislər cəlb olunaraq işçilərə təlimlər keçiriləcək və ilkin istehsal məhz mütəxəssislərin nəzarətində aparılacaq.

Qeyd edək ki, qısa müddət ərzində bir çox müəssisələrin, o cümlədən heyvandarlığın inkişafı üçün seleksiya mərkəzinin, orqanik istixanaların, “Aydınoğlu” mebel fabrikinin, ət kəsimi sexinin fəaliyyət göstərdiyi Zerti Aqro-Sənaye Parkı yeni fəaliyyətə başlayan sahələr - ayaqqabı fabriki, "Philips" lampaları ilə çalışan bralar (divarüstü işıq) və ekoodun istehsal edən böyük sexlər hesabına sürətlə genişlənməkdədir. Hazırda laçınlıların çalışdığı parkın gələcəkdə, bütün müəssisələrin işə düşməsi ilə 1200 iş yerinin açılması potensialı var.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**6 fevral 2024**

**Laçında ekoodun müəssisəsi fəaliyyətə başlayıb – FOTO**

Laçında ekoodun müəssisəsi fəaliyyətə başlayıb.

"Bakı Abadlıq Xidməti" MMC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Lalə Əliyevanın AZƏRTAC-ın bölgə müxbirinə verdiyi məlumata görə, ekoloji təmiz məhsul sayılan ekoodun digər müəssisələrdəki istehsalat qalıqlarından, məsələn, mebel qırıqlarından, kəsinti və tullantılardan hazırlanır. Həmin qalıqlar yüksək hərarətli peçlərdə preslənir və ekoodun əldə olunur. Bu prosesi həyata keçirmək üçün İtaliyadan xüsusi avadanlıq gətirilib. "Bakı Abadlıq Xidməti" öz ənənəsinə uyğun olaraq, bu dəfə də işə yeni müəssisədə təlimlər keçməklə başlayıb. Müasir avadanlığın quraşdırılması, işə salınması, yeni texnologiya ilə işləyən laçınlılara xüsusi kursların keçirilməsi italiyalı mütəxəssislər tərəfindən icra olunub. Artıq təlim prosesi başa çatıb, müəssisə istehsalata başlayıb. Hazırda Laçındakı ekoodun müəssisəsində 12 yerli sakin çalışır. Bu məhsula tələb artdıqca təklif də çoxalacaq və istehsalat genişlənəcək.

Ekoloji odun adi odundan daha uzun müddət yanması ilə fərqlənir. Bu prosesin ekoloji cəhətdən də böyük üstünlükləri var. Ekoodun əldə olunanda ağac məhv edilmir, yalnız əvvəlki istehsalat zamanı qalan qalıqlardan hazırlanır. Bu da itkisiz istehsalat deməkdir. Bir müəssisənin məhsullarının qalıq və qırıntıları hesabına ikinci müəssisənin fəaliyyəti təmin edilir. Ekoodundan hər növ soba və kaminlərdə istifadə etmək olur. Qida sənayesində, kafe və restoranlarda, təbiət qoynundakı pikniklərdə, samovar və manqallarda da bu odun işə çox yarayır. Həmçinin istehsal zamanı heç bir kimyəvi qatqıdan istifadə edilmir. Bu məhsulun ən vacib cəhəti ekoloji təmiz məhsul olmasıdır.

Qeyd edək ki, belə bir müəssisə "Bakı Abadlıq Xidməti" MMC-nin təşəbbüsü ilə Bakıda xeyli vaxtdır qurulub.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**6 fevral 2024**

**İşğaldan azad olunan Laçında 5 seçki məntəqəsi fəaliyyət göstərir – VİDEO**

İşğaldan azad olunmuş Laçın şəhərindəki 105 saylı seçki məntəqəsində seçici fəallığı müşahidə olunur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhərində, ümumilikdə 5 seçki məntəqəsi fəaliyyət göstərir. Bunlardan 3-ü şəhərin mərkəzində, digər 2 məntəqə isə Zabux və Qorçu kəndlərindədir. 105 saylı seçki məntəqəsi üzrə 1493 seçici var. Həmçinin məntəqə üzrə 2 nəfər ilk dəfə səs verəcək. Seçki prosesini 12 müşahidəçi izləyir.

Qeyd edək ki, budəfəki seçkilər ilk dəfə Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün ərazilərində keçirilir.

Ölkə üzrə səsvermə hüququ olan 6 milyon 478 min 623 seçici qeydə alınıb. Seçicilər 6537 məntəqədə səs verəcəklər. İşğaldan azad edilmiş ərazilərdə 26 məntəqə fəaliyyət göstərir. Həmçinin 37 ölkədə 23 minə yaxın seçici 49 məntəqədə səs verə biləcək.

Seçkiləri izləmək üçün 90 mindən artıq müşahidəçi qeydə alınıb. Bunun 790 nəfəri beynəlxalq müşahidəçidir. Müşahidəçilərin 50 mindən çoxu isə 19 siyasi partiyanın nümayəndəsidir. Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən 83 qeyri-hökumət təşkilatı da müşahidələr aparır. Həmçinin seçkiləri 109 beynəlxalq media qurumunun 216 nümayəndəsi izləyir.

**AZƏRTAC**
**7 fevral 2024**

**https://video.azertag.az/site/video/199672**

**Laçında avtomobil karvanı mərkəzi küçələr boyunca yürüş keçirib – FOTO**

Növbədənkənar prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi Laçın sakinlərinin də sevincinə səbəb olub. Şəhərin mərkəzi küçələrinə çıxan laçınlılar avtomobillərlə yürüş keçiriblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səhər saatlarından səsvermədə mütəşəkkil iştirak edən sakinlər günün sonunda bayram ab-havası ilə şəhərə çıxıblar. Laçının mərkəzi küçələrində milli musiqi sədaları altında avtomobillərin yürüşü keçirilib. Həmçinin şəhər sakinləri sevinc və qürur hisslərini bir-biriləri ilə bölüşüblər.

Qeyd edək ki, ABŞ-ın "Oracle Advisory Group" təşkilatı, "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzi Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində apardıqları "exit-poll"arın nəticələrini açıqlayıblar. "Oracle Advisory Group" təşkilatı İlham Əliyevin seçicilərin 93,9 faizinin, "Rəy" Monitorinq Mərkəzi 92,60 faizinin, Sosioloji Tədqiqatlar Mərkəzi isə 92,4 faizinin səsini qazandığını bildiriblər.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 fevral 2024**

**Laçında onlarla abidə erməniləşdirilməyə məruz qalıb ARAŞDIRMA**

Qırx dörd günlük müharibə erməni işğalından azad olunandan sonra bərpa-quruculuq dövrünə qədəm qoyan Laçın rayonunun bu gün hər kəs ecazkar gözəlliyindən danışır. Lakin son 30 ildə Laçın ərazilərinin tarixinin və mədəniyyətinin sərhəd tanımayan erməni vandalizmi nəticəsində dağıdılmasından və mənimsənilmə cəhdlərindən çox az adamın xəbəri var. Laçın şəhərini "Berdzor", yəni, "qala dərəsi" adlandıran ermənilər bu ərazinin "qədim" erməni torpaqları olması barədə heç bir dəlili olmayan əsassız iddialarla çıxışlar edir, onlara yad olan Alban mədəniyyətini mənimsəməyə çalışırdılar. Təqribən minillik tarixi olan Alban dövlətinin mövcudluğu dövründə Şimali Azərbaycanın bütün bölgələrində, eləcə də Laçın rayonunda xristianlıq dövrünə qədər bazilikalar, sovmələr, digər tikili və qurğular, xristianlıq dövründə isə alban-xristian dininə aid məbədlər, kilsələr və monastırlar meydana gəlməyə başlamışdı. Öz dövrü üçün xarakterik olan bu cür memarlıq üslubunun, yəni, divar yazılarının, ornamental oymaların, bədii memarlıq elementlərinin, xaç simvollarının ermənilərə heç bir aidiyyətinin olmadığını sübut edir. Bunu Alban tarixini öyrənən müxtəlif xarici ölkələrin tarixçiləri də təsdiqləyirlər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında AMEA A.A.Bakıxanov adına Tarix və Etimologiya İnstitutunun əməkdaşı Faiq İsmayılov deyib.

O bildirib ki, Laçın rayonu ərazisində Qafqaz albanları dövrünə aid onlarca memarlıq abidəsinin böyük əksəriyyəti dağıdılsa da, bəziləri indiyə qədər qalmaqdadır. Coğrafi baxımdan çətin dağ şəraitində alban memarlığının bu cür hərtərəfli inkişafı onu deməyə əsas verir ki, burada həmin məbədlərin tikintisində və onların qorunub saxlanmasında din xadimləri ilə yanaşı, yerli əhali də yaxından iştirak edib. Laçın ərazisində xristianlıq dövrü memarlıq sənətinin meydana gəlməsində və inkişafında bölgənin yeganə işçi qüvvəsi sayılan yerli türk əhalinin xüsusi xidmətləri olub. Tarixçilər göstərirlər ki, türk tayfalarının Alban dövlətinin idarə olunmasında, onun mədəniyyətinin və memarlığının inkişafında danılmaz rolu var. Bunu bina və qurğuların, hətta xaç rəmzləri üzərindəki çoxsaylı oğuz-türk elementlərinin mövcudluğu sübut edir. Məhz bu səbəbdən ermənilər işğal dövründə bu abidələrin üzərindəki yazıların, bədii daş nümunələrinin silinməsini, xaç simvollarının, bina və qurğuların xarici görünüşünün dəyişdirilməsini, bunu bacarmadıqda isə uçurub məhv edilməsini həyata keçiriblər.

Qeyd olunub ki, Alban dövlətinin əsasını yerli türk tayfaları təşkil edib. Məhz bu səbəbdən Azərbaycanda Alban dövrü mədəniyyətinin də meydana gəlməsində və inkişafında türk tayfalarının önəmli rolu olub. Azərbaycanda müxtəlif dövrlərdə dövlət quruluşlarının dəyişməsi yerli mədəniyyətinə, eyni zamanda, bölgələrdə tikilməkdə olan memarlıq abidələrinin forma və quruluşlarına da təsir göstərib. Bu da bölgədə abidələrin müxtəlifliyinə səbəb olub. Bu baxımdan Laçın ərazilərindəki Qafqaz Albaniyası dövrü abidələri xüsusi maraq doğurur. Bu cür abidələrə rayonun əsasən Şəlvə, Qorçu, Piçənis, Ərikli, Aşağı Fərəcan, Hoçaz, Əhmədli, Mirik, Sadınlar, Qarakeşdi, Qatos və digər kəndlərində rast gəlinir.

F.İsmayılov diqqətə çatdırıb ki, Laçın rayonu ərazisində Alban memarlığının ən kütləvi forması olan sovmələr daha geniş yayılıb. Sovmələr karvan yolları kənarında insanların təbiət təsirlərindən (qar, çovğun, külək və s.) qorunması üçün istifadə olunsa da, onlar, əslində, memorial tikililərdir. Bu abidələrin siyahısına "Sadınlar dərəsi" və "Mirik dərəsi" deyilən ərazilərdəki sovmələri, eyni zamanda, Quşçu kəndi yaxınlığında "Dəmiovlu pir" adlanan sovməni misal göstərmək olar. Alban dövrünün ən mürəkkəb tikililəri isə bazilikalar və monastırlar hesab olunur. Monastır tipli abidələrə Laçın rayonunun Kosalar kəndindəki Ağoğlan məbədini aid etmək olar. Bir çox tədqiqatçılar hesab edirlər ki, bu üslub Cənubi Qafqazda yalnız Alban dövrü memarlıq abidələrinə məxsusdur. Çünki Alban dövrü memarlıq abidələrinin daş və divarları üzərindəki elementləri yalnız Alban dövrü abidələrinin özünəməxsus xüsusiyyətləri kimi dəyərləndirilir.

"Nəinki Laçın ərazisində, eləcə də Azərbaycanın işğal altında qalmış bütün digər ərazilərindəki Alban dövrü abidələri üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini bu bölgədə yaşayan erməni millətindən olanlar mənimsəməyə, yəni, erməniləşdirməyə çalışırlar. Bu da Alban dövrü abidələrinin ilkin görkəminin kütləvi şəkildə itirilməsinə və Alban mədəniyyətinin tədricən məhv edilməsinə səbəb olur. Cənubi Qafqazın bütün bölgələrində, xüsusilə də ermənilər tərəfindən 30 il işğal altında saxlanılan Azərbaycan torpaqlarında, o cümlədən Laçın rayonu ərazilərində alban dövrü abidələrinin erməniləşdirilməsini çox sürətlə həyata keçirirdilər. Ermənilər Alban dövrü memarlıq

abidələrinin üzərindəki bəzəklərin, müxtəlif növ süjetlərin ornamental quruluşlarında forma və məzmun dəyişiklikləri edərək, onları erməni mədəniyyətinin memarlıq nümunələri kimi dünyaya çıxarmağa çalışıblar.

Bu yolla da onlar nəinki Laçın rayonunda, ümumiyyətlə, bütün bölgədə qədim Alban memarlığının nümunələrini erməniləşdirərək Alban mədəniyyətinə böyük ziyan vurublar", - deyən tarixçi diqqətə çatdırıb ki, Qafqazda köklü tarixləri olmayan ermənilər burada süni şəkildə öz "tarixlərinin izləri"ni yaratmağa və dünyanı Cənubi Qafqazda tarixən var olmuş erməni dövlətinin mövcudluğuna inandırmağa cəhd göstəriblər. Ermənilər məqsədli şəkildə Alban abidələrini mənimsəmək, Alban memarlığının milli mənsubiyyətini dəyişmək yolunu tutublar və bu istiqamətdə "yorulmadan" "mübarizə" aparırlar. Burada ermənilər Alban dövrü abidələri üzərindəki xristian dininin rəmzlərini, eləcə də daş və divar rəsm nümunələrini əsas götürərək bunları qriqoryan dininə məxsus elementlər kimi təqdim edirlər. Bu da öz növbəsində tarixin saxtalaşdırılmasına gətirib çıxarır. Azərbaycanın xristianlıq dövrü abidələrinin ermənilər tərəfindən mənimsənilməsi faktlarını gürcü tarixçisi A. Çavçavadze "Ermənilər və qan ağlayan daşlar" əsərində dolğun şəkildə əks etdirib. O yazırdı: "... Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" adlandırırlar". Lakin tədqiqatlar göstərir ki, hətta xristianlıq dövrü abidələri belə nə erməni dininə (qriqoryanlıq), nə də erməni mədəniyyətinə və mənşəyinə uyğun gəlir.

Qeyd edilib ki, işğal dövründə erməni vandalizminə uğrayan və ümumi görünüşü dəyişdirilən abidələrdən biri Hoçaz kəndindəki birnefli bazilikadır. Hoçaz kəndi Laçın rayonunun ən qədim yaşayış mərkəzlərindən biridir. Bu ərazi tarixi baxımdan hələ tam öyrənilmədiyindən oranın tarixi barədə tam və qəti fikir söyləmək mümkün deyil. 2016-cı ildə Hoçaz kəndinin mərkəzində yerləşən tarixi əhəmiyyətli bu birnefli bazilikanın forması ermənilər tərəfindən dəyişdirilib. Kəndin mərkəzində yerləşən, inşa tarixi XII-XIII əsr hesab edilən Qafqaz Albaniyası dövrünə aid ikinefli məbədin uzunluğu 13,4 metr, eni 8,15 metr, divarlarının qalınlığı isə 105-110 santimetrdir. Abidənin cənub fasadının üzərindəki yazılı daş 1995-ci ildə ermənilər tərəfindən yararsız hala salınıb. Sovet dövründə abidədən çörək sexi kimi istifadə edilib. Abidə 1992-ci ildə işğaldan sonra ermənilər tərəfindən təmir olunub və əzəli görkəmindən məhrum edilib. Belə ki, binanın çardağı hündürləşdirilib, üzəri metal təbəqə ilə örtülüb.

**AZƏRTAC**
**10 fevral 2024**

**Laçında akvaponika üsulu ilə həm balıq yetişdirilir, həm də bitki becərilir - FOTO EKSKLÜZİV**

Kənd təsərrüfatında və istehsalatda texnologiya böyük sürətlə inkişaf edir, yeni becərmə üsulları yaranır. Hidroponik və akvaponika üsulları da bu baxımdan maraq doğurur. Hidroponik becərmədə bitkilərin inkişafında çox miqdarda həll olunmuş qida maddəsi olan sudan istifadə edilir. Akvaponika isə su məhsullarında istifadə edilən ənənəvi balıq yetişdirmə üsulunun xüsusiyyətlərini hidroponik əkinçiliklə birləşdirən bir sistemdir. İşğaldan azad olunan Laçında fəaliyyətə başlayan istehsal sahələrindən biri də elə akvaponika sistemi ilə çalışır. Burada həm balıq yetişdirilir, həm də bitki becərilir.

Akvaponika istehsalat müəssisəsinin nəzarətçisi Səməd Səmədzadə AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, bu sistemlə balıqlar bitkilərin, bitkilər də balıqların yetişməsinə kömək edir. “Laçın şəhərində yaradılmış, 600 kvadratmetr ərazini əhatə edən akvaponikada sistem belədir ki, balıqların qida qalıqları - xüsusilə, ammonyak maddəsi, fosforitlər, həmçinin bitkilərin inkişafında böyük rol oynayan zəngin bakteriyalar suda sirkulyasiya olunaraq bitkilərə qədər gedib çatır. Beləliklə, balıqlar üçün zəhərli sayılan su bitkilərə dərman olur. Burada sazan, karp balıqlarından ibarət 12 hovuzda bitkilərin inkişafı üçün zəngin tərkibli su toplanır. Proses bununla bitmir. Xüsusi cihazlarla filtrasiya olunan su yenidən hovuzlara qayıdır. Sistemin ən böyük özəlliklərindən biri də odur ki, heç bir israfa yol verilmir. Sərfiyyat o qədər aşağı olur ki, təmizləndikdən sonra akvariumlara qayıdan miqdarın üzərinə yalnız 10 faiz su əlavə edilir".

Akvaponika Azərbaycanda nisbətən yeni sahədir. Laçında hidroponika, yəni torpağa basdırılmadan, qidalı maddələrlə zəngin məhlulda bitki köklərinin yetişdirilməsi üsuluna da üstünlük verilir. Laçında qurulmuş bu sistem təkcə qənaətliyinə görə deyil, həm də orqanikliyinə görə dünyada ən yaxşı metod sayılır.

Hazırda müəssisədə çalışanların böyük əksəriyyəti laçınlılardır və təsərrüfat genişləndikcə, işçi sayı da ilbəil artacaq.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**10 fevral 2024**

**Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda 1 qəsəbənin (Qorçu) və Kəlbəcər rayonunda 2 kəndin (Çaykənd, Qamışlı) yenidənqurma layihəsi üzrə müqavilələr imzalanıb.

Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə məlumat verilib.

Bildirilib ki, "Azərdövlətsənaye" Dövlət Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti arasında Kəlbəcər rayonunun Çaykənd və Qamışlı kəndlərinin yenidən qurulması işlərində layihələndirmə işinin hazırlanmasının satınalmasına dair müqavilələr bağlanıb. Həmçinin "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti arasında Laçın rayonunun Qorçu qəsəbəsinin tikintisi layihəsinin hazırlanması dair satınalma müqaviləsi bağlanılıb.

Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru vəzifəsini icra edən Fəxrəddin Verdiyevin sözlərinə görə, müqavilələr qeyd olunan yaşayış məntəqələrində minə yaxın fərdi evin, tam orta məktəblərin, uşaq bağçalarının və digər ictimai obyektlərin layihələndirmə işlərinin satınalınmasını əhatə edir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**13 fevral 2024**

**BDU Laçındakı "Simurq" kitabxanasına kitablar hədiyyə edib**

Bakı Dövlət Universitetinin (BDU) Elmi Kitabxanasının, İnformasiya və sənəd menecmenti fakültəsinin dəstəyi, "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Laçın şəhərindəki "LaCinema" kinoteatrının nəzdində fəaliyyət göstərən "Simurq" kitabxanasına 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə 412 nüsxə kitab hədiyyə edilib.

Bu barədə AZƏRTAC-a BDU-dan məlumat verilib.

Hədiyyə olunan ədəbiyyatların içərisində Vətən müharibəsi dövründə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsahibələri, universitetin professor-müəllim heyətinin fəaliyyətini əks etdirən nəşrlər, həmçinin müəllifi olduqları dərslik və dərs vəsaitləri, bədii əsərlər yer alıb.

Xatırladaq ki, fevralın 4-də açılan kitabxana Laçına yeni köçmüş sakinlərin təşəbbüsü ilə görkəmli maarifçi, yazıçı Tağı Şahbazi Simurğun şərəfinə "Simurq" adlandırılıb.

**AZƏRTAC**
**14 fevral 2024**

**“Dəyirmanın su dərdi” və “Laçın lətifələri” kitabları çap olunub**

Müasir Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən olan İlham Qəhrəmanın iki kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş bu kitablar şairin folklor seriyasından sayca yeddinci nəşridir.

“Dəyirmanın su dərdi” kitabında onun son illərdə qələmə aldığı cinas qafiyəli 275 müəllif bayatısı toplanıb. Bayatıların mövzusu əsasən sevgidən, ömür yolundan və Qarabağ müharibəsindən bəhs edir.

“Laçın lətifələri” kitabında 30 ilə yaxın müddətdə köçkün həyatı yaşamış laçın camaatından müəllifin topladığı orijinal lətifələrlə yanaşı, Mola Nəsrəddin kimi xalq arasında məşhur gülüş qəhrəmanı ilə bağlı indiyədək heç bir yerdə çap olunmamış lətifələr də yer alıb.

İlham Qəhrəman “Laçın lətifələri”nin yeni nəşrini Laçın şəhərinin salınmasının 100 illiyinə həsr edib.

**AZƏRTAC**
**15 fevral 2024**

**“AzərEnerji”: 2024-cü ildə Laçında daha 5 SES istismara veriləcək**

Bu günədək istismara verilən 4 SES-də 77 milyon kVts yaşıl enerji istehsal edilib.

“AzərEnerji” ASC-dən AZƏRTAC-a bildirilib ki, alternativ və bərpa olunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, atmosferə atılan karbon qazının miqdarının azaldılması və digər mütərəqqi prinsipləri özünə prioritet seçən və 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan edərək COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcək Azərbaycanda yaşıl enerjinin əhatəsi sürətlə genişləndirilir. Xüsusən də, işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı ölkə başçısının tapşırığına uyğun olaraq ardıcıl şəkildə su elektrik stansiyaları yaradılır. Belə ərazilərdən biri də Laçın rayonudur və burada “AzərEnerji” tərəfindən silsiləli işlər görülür.

Qeyd edək ki, yaşıl enerji strategiyasına uyğun olaraq Laçın rayonunda 9 yerdə su elektrik stansiyaları yaradılıb və yaradılmaqdadır. Belə ki, bu günə kimi Laçın rayonunda 8,25 meqavat gücündə “Mişni”, 8 meqavat gücündə “Güləbird”, 6 meqavat gücündə “Alxaslı” su elektrik stansiyaları yenidən qurularaq istismara verilib, 4 meqavat gücündə “Sus” Su Elektrik Stansiyası bərpa edilib. Nəticədə bu günə kimi “AzərEnerji” tərəfindən Laçın rayonunda istismara verilən su elektrik stansiyalarında 77 milyon kilovat saatdan artıq ekoloji cəhətdən təmiz yaşıl enerji istehsal edilib.

77 milyon kilovat saat yaşıl enerjinin istehsal edilməsi ilə 18 milyon kubmetr qaza və milyonlarla manat vəsaitə qənaət edilib və 32 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Ən əsası ekosistemin qorunması üçün zəruri tədbirlər görülüb, stansiyalarda Avropa istehsalı olan eko-turbinlər quraşdırılıb.

Hazırda Laçın rayonunda ümumi gücü 40 meqavatdan artıq olan daha 5 su elektrik stansiyasının tikintisi davam edir.

“Daha doğrusu artıq 14,25 meqavat gücündə “Ağbulaq” SES-də işlər tamamilə yekunlaşıb. 14,7 meqavat gücündə “Ağbulaq-2”, 4 meqavat gücündə “Qaraqışlaq”, 3,5 meqavat gücündə “Mirik” və 2,8 meqavat gücündə “Zabux” su elektrik stansiyalarında tikinti işləri başa çatıb və hazırda quraşdırma və sazlama işləri həyata keçirilir. 2024-cü ildə, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində bu 5 su elektrik stansiyasının da istismara verilməsi planlaşdırılır.

**AZƏRTAC**
**15 fevral 2024**

## Laçında “Zerti” brendi ilə istehsal olunacaq ayaqqabılar Avropaya da ixrac ediləcək – FOTO

Laçında “Zerti” Aqrosənaye Parkında fəaliyyətə başlayacaq istehsal sahələrindən biri də ayaqqabı fabrikidir. Hazırda son tamamlanma işlərinin görüldüyü fabrikin fəaliyyətə başlaması mart ayının sonuna planlaşdırılır. “PİRSHAGHİ” brendinin yeni Laçın xətti “ZERTİ” adı altında fəaliyyət göstərəcək.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, fabrik Asiya, Avropa və Türkiyə istehsalı olan ən müasir avadanlıqlarla təchiz edilib. Sözügedən fabrik üçün xammal əsasən Türkiyədən gətiriləcək. Bundan başqa, xidmət sektorunda peşəkarlığı artırmaq məqsədilə müəssisəyə qardaş ölkədən və Bakıdakı “PİRSHAGHİ” brendindən təlimçilərin cəlb olunması nəzərdə tutulub. Fabrikin işə başlaması həm də yeni iş yerləri deməkdir. Burada birinci mərhələdə 40-45, ikinci mərhələdə isə 50-55 işçinin çalışacağı gözlənilir. Onların 70-80 faizi Laçın sakinləri olacaq.

Yerli istehsal ayaqqabılarını Azərbaycanın müxtəlif şəhərlərində açılması nəzərdə tutulan “ZERTİ” mağazalarından almaq mümkün olacaq.

Müəssisədə birinci mərhələdə aylıq 700-750, ikinci mərhələdə 1250-1375, növbəti mərhələdə isə 2500-3000 cüt ayaqqabı istehsalı planlaşdırılır.

İstehsal ediləcək ayaqqabıların gələcəkdə Azərbaycan brendi kimi Avropa ölkələrinə ixracı da planlaşdırılır. Yeni brendin özəlliyi kişi, qadın və uşaq ayaqqabılarının istehsalında istifadə olunan materialların müxtəlif çeşiddə və növdə olmasıdır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**15 fevral 2024**

**Laçında ilk dəfə "Şampinyon" və "İstiridye" göbələk sortları becərilir - FOTO**

Laçında, Zerti aqro-sənaye parkında fəaliyyətə başlayan müəssisələrdən biri də göbələk təsərrüfatı üzrə ixtisaslaşıb. Laçında ilk sayılan təsərrüfatda "Şampinyon" və "İstiridye" göbələkləri becərilir. Bu günə qədər burada 6 tondan çox məhsul istehsal olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin təşəbbüsü ilə Laçında yaradılan göbələk təsərrüfatı iki ədəd çadır tipli istixanadan ibarətdir və ümumi sahəsi 230 kvadratmetrə bərabərdir.

Təsərrüfat noyabr ayından fəaliyyət göstərir. İstixanaların illik gücü, ümumilikdə, 50-60 tona bərabərdir. Məhsulun satışı əsasən Laçında həyata keçirilir. Təsərrüfatda çalışanlar da elə Laçın sakinləridir.

Konteyner tipli istixanalardan fərqli olaraq, çadırların sökülüb köçürülməsi daha asandır. İstixanalarda göbələyin yetişməsi üçün zəruri olan havalandırma və nəmləndirmə sistemi qurulub. Beləcə, Laçında yeni "Fungi Fresh" göbələk brendi təqdim olunur.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**21 fevral 2024**

**Müvəqqəti yaşayış yerlərindən daimi məskunlaşmaya: Zabuxun 797 sakini doğma yurdda yaşayır**

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda qayıdırlar. Bu günədək işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yenidən qurulan beş yaşayış məntəqəsi üzrə 1360 məcburi köçkün ailəsinin (5354 nəfər) daimi məskunlaşması təmin edilib. Laçın rayonunun Zabux kəndi də onlardan biridir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Zabuxda bütün zəruri texniki-sosial infrastruktur qurulub, sakinlərin rahat yaşayışı üçün işlər görülüb. Zabuxun 797 sakini (207 ailə) doğma yurdda yaşayır, onun dirçəlməsinə və gələcək inkişafına töhfə verirlər.

Dövlət Komitəsi tərəfindən məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri çərçivəsində Zabux sakinlərinin iştirakı ilə növbəti videoçarx hazırlanıb. 30 il həsrətində olduqları doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

**AZƏRTAC**
**22 fevral 2024**

**Laçında yeni təsərrüfat sahələri yaradılıb - FOTO**

Laçında Zerti Aqro-Sənaye Parkında yem istehsalı, həmçinin göyərti və pomidor becərilməsi üçün konteyner tipli təsərrüfatlar yaradılıb. Bu təsərrüfatlarda 10 nəfər Laçın sakini çalışır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin təşəbbüsü ilə sözügedən təsərrüfatların fəaliyyəti üçün 16 ədəd konteyner quraşdırılıb. Bunlardan 7-si göyərti və tərəvəzlərin becərilib saxlanılması üçündür. Belə ki, 4 konteynerdə cəfəri, nanə, reyhan, kahı və digər göyərtilər yetişdirilir. Həmçinin 1 konteynerdə pomidor bitkisi becərilir və il ərzində 50-60 ton məhsul əldə etmək mümkündür. Ərazidə olan daha iki konteyner isə məhsulların saxlanılması üçün soyuq anbar rolunu oynayır.

Laçında heyvandarlığın inkişafı üçün sağlam yem istehsalı müəssisəsi də yaradılıb. Burada 9 konteyner var. Konteynerlərdə suda arpa və buğda bitkisi saxlanılır, 2-3 həftə ərzində cücərdikdən sonra ondan yem əldə olunur. Bu təsərüffat hesabına ildə 500 ton sağlam yem istehsal etmək mümkündür. Bu cür yem heyvandarlıqda süd, toyuq təsərrüffatında isə yumurta verimliliyinə müsbət təsir göstərir.

Qeyd edək ki, təkcə Zerti Aqro-Sənaye parkında 10-a yaxın müəssisə fəaliyyət göstərir. Həmin müəssisələrdə 250-yə yaxın işçi çalışır ki, onlar da laçınlılardır. Aqro-Sənaye Parkında gələcəkdə bütün müəssisələrin fəaliyyətə başlaması ilə 1200 iş yerinin açılması gözlənilir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**22 fevral 2024**

**Laçında Xocalı faciəsi qurbanlarının xatirəsi anılıb**

Fevralın 26-da saat 17:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Laçın rayonunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, şəhərin küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb, kənd və qəsəbələrdə Azərbaycanın Dövlət bayraqları endirilib.

Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbirində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri, Şərqi Zəngəzur 2 saylı Bərpa, Tikinti-İdarəetmə Xidmətinin, “Laçın Abadlıq Xidməti” ASC-nin rəhbərliyi, Laçın şəhər 2 nömrəli tam orta məktəbin, eləcə də şəhid Ədalət Məmmədov adına Zabux kənd tam orta məktəbin kollektivi, yerli sakinlər, hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

Anım tədbirində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev çıxış edib. Bildirib ki, xalqımız tarixən bir çox soyqırımına məruz qalıb, bunlardan biri də Xocalı soyqırımıdır: “32 il əvvəl ermənilərin Xocalı şəhərində dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər heç vaxt unudulmayacaq. Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, dünya tarixinə də ən faciəli səhifələrdən biri kimi daxil olub. Amma ermənilərin törətdiyi vəhşiliklər xalqımızın mübarizə əzmini qıra bilməyib. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində şanlı Zəfər qazanmaqla Xocalı soyqırımı qurbanlarının qisasını alıb”.

Tədbirin rəsmi hissəsindən sonra “Lacinema” kino mərkəzində “Yarımçıq xatirələr” adlı film nümayiş etdirilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**26 fevral 2024**

**Laçınlılar 32 ildən sonra ilk dəfə Su çərşənbəsini öz doğma evlərində qeyd edirlər**

Dağlar qoynunda yerləşən Laçın torpaqları 32 ildən sonra yenidən çərşənbə bayramına ev sahibliyi edir. Doğma sakinləri ilə birlikdə Laçında adət-ənənələrimiz yenidən çiçəklənir, Su çərşənbəsi böyük coşqu ilə qeyd edilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçında Su çərşənbəsi münasibətilə bayram şənliyi təşkil olunub. Bayram toplantısında Azərbaycan Respublikası Prezidentinin Laçın üzrə xüsusi nümayəndəliyinin, "Bakı Abadlıq Xidməti" MMC-nin, "Laçın Abadlıq Xidməti" ASC-nin rəsmiləri, Laçın sakinləri iştirak ediblər.

“Gilabi Ceramics” Yaradıcılıq Mərkəzində keçirilən bayram şənliyində çərşənbənin rəmzi olan tonqal qalanıb, ətrafında yallı rəqsi oynanılıb. Laçınlılar öz evlərində hazırladığı şirniyyatlarla süfrələri bəzəyib, milli adət-ənənələrə uyğun olaraq gənc qızlar bayatılar söyləyib. Su aydınlıq, saflıq rəmzi olduğu üçün qızlar bulaqdan su götürərək çiçəklərə, ağaclara və ətraf ərazilərə səpiblər. Bayram iştirakçıları əvvəlki illərdə Laçında keçirdikləri çərşənbə günlərini xatırlayaraq xoş təəssüratlarını bölüşüblər. Həmçinin mərkəzdə uşaqlar üçün ustad dərsləri təşkil olunub, onlar yumurta bəzəyib və gildən əl işlərinin hazırlamasına dair sirləri öyrəniblər. Su çərşənbəsinin “Gilabi Ceramics” Yaradıcılıq Mərkəzində təşkil edilməsi də təsadüfi olmayıb. Suyun yaradılış rəmzi olduğu və burada ərsəyə gələn əl işlərinin məhz gil ilə suyun qarışığından düzəldilməsi haqda uşaqlara ətraflı məlumat verilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 fevral 2024**

**Laçın şəhərinə növbəti köç karvanı yola düşüb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı fevralın 28-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 24 ailə - 89 nəfər köçürülür.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Laçın şəhərinə 672 ailənin, yəni 2513 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**28 fevral 2024**

**Sakin: Laçını yenidən əvvəlkindən daha gözəl vəziyyətə gətirəcəyik**

"Bu gün bizim üçün çox sevindirici, ən gözəl gündür. Laçından gənc yaşımda çıxmışam. İndi doğma yurduma qayıtmağın sevincini yaşayıram".

Bu sözləri AZƏRTAC-a erməni işğalından azad edilən Laçına geri qayıdan Solmaz Kərimova deyib.

Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Laçın sakini doğma yurduna qayıtdığına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə də minnətdarlığını bildirib.

Bu gün doğma obasına qayıdarkən burada öz həmvətənlilərini gördükcə sevinc hissi yaşadığını söyləyən K.Solmaz deyib ki, onlar Laçında birlikdə qurub-yaradacaqlar. “Doğma yurdumuzda hər bir işi görməyə hazırıq. Uzun illərin həsrəti bitir. Laçını yenidən əvvəlkindən daha gözəl vəziyyətə gətirəcəyik”, - deyə o qeyd edib.

**AZƏRTAC**
**28 fevral 2024**

**Laçın sakini: Doğma yurduma qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur**

"Laçına qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur. Oradan gənc yaşlarımda ayrılmışam. Çox ağrılı-acılı günlər yaşamışıq. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı".

AZƏRTAC xəbər verir ki, bu sözləri Laçına qayıdan keçmiş məcburi köçkün Musayev Cavanşir söyləyib.

Ailəsi ilə birlikdə Sumqayıt şəhərində məskunlaşdıqlarını bildirən keçmiş məcburi köçkün deyib ki, Laçındakı xatirələrini unutmayıb, doğma el-obalarını görmək üçün səbirsizlənir.

"Bu gözəl günləri bizə yaşadan Prezidentimizə öz minnətdarlığımı bildirirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm", - deyə o vurğulayıb.

**AZƏRTAC**
**28 fevral 2024**

**Növbəti köç karvanı Laçına çatıb**

Böyük Qayıdış üzrə Laçına növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın rayonu bu dəfə 24 ailəyə qucaq açıb, daha 89 laçınlının yurd həsrəti bitib. Onlardan 20 ailə olmaqla, 78 nəfər Laçın şəhərinə, 4 ailə olmaqla, 11 nəfər Zabux kəndinə köçüb.

Uzun illər sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşub. Onlar böyük coşqu ilə qarşılanıblar və Laçının gözəl mənzərəsini seyr ediblər.

Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da Laçın şəhərində 451 ailənin, yəni 1705 nəfərin, Zabux kəndində isə 211 ailə olmaqla, 808 nəfərin daimi məskunlaşması təmin edilib.

Köçürülən ailələrin Laçın şəhərində və Zabux kəndində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 fevral 2024**

**Laçında daha 24 ailəyə evlərinin açarları təqdim olunub - FOTO**

Bu gün növbəti köç karvanı ilə Laçın şəhərinə və Zabux kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın bu gün 24 ailəyə qucaq açıb. Ailələr Laçında qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər verməlləri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, "Laçın Abadlıq Xidməti" ASC-nin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alıb və evlərində məskunlaşıblar.

Beləliklə bu gün 20 ailə olmaqla, 78 nəfər Laçın şəhərinə, 4 ailə olmaqla, 11 nəfər Zabux kəndinə köçüb.

Bununla da Laçın şəhərində 451 ailənin, yəni 1705 nəfərin, Zabux kəndində isə 211 ailə olmaqla, 808 nəfərin daimi məskunlaşması təmin edilib.

**16:19**

Böyük Qayıdış üzrə Laçına növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın rayonu bu dəfə 24 ailəyə qucaq açıb, daha 89 laçınlının yurd həsrəti bitib. Onlardan 20 ailə olmaqla, 78 nəfər Laçın şəhərinə, 4 ailə olmaqla, 11 nəfər Zabux kəndinə köçüb.

Uzun illər sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşub. Onlar böyük coşqu ilə qarşılanıblar və Laçının gözəl mənzərəsini seyr ediblər.

Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da Laçın şəhərində 451 ailənin, yəni 1705 nəfərin, Zabux kəndində isə 211 ailə olmaqla, 808 nəfərin daimi məskunlaşması təmin edilib.

Köçürülən ailələrin Laçın şəhərində və Zabux kəndində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 fevral 2024**

**Laçındakı kəsimxanada 20 laçınlı işlə təmin olunub**

Laçında yeni müəssisələrin yaradılmasında innovativ texnologiyaların və avtomatlaşdırılmış istehsalat sahələrinin tətbiq olunması diqqətdə saxlanılır. Müasir texnoloji avadanlıqlarla təchiz olunan müəssisələrdən biri də kəsimxana istehsal sahəsidir. Ötən ilin oktyabr ayından fəaliyyət göstərən kəsimxanada bu günə qədər 2 tondan çox ət satışı gerçəkləşib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Zerti Aqro-Sənaye kompleksində yaradılan fəaliyyət növlərindən biri də əhalinin ətlə təminatına xidmət edir.

Müəssisədə Türkiyənin qabaqcıl "Cantek" şirkətində istehsal olunan avadanlıqlar quraşdırılıb. Müasir texnoloji avadanlıqla işləyən kəsimxananın maksimum istehsal gücü illik 12 min baş xırdabuynuzlu heyvanı əhatə edir. İslam dövlətlərində belə kəsimxanalar, xüsusilə qurban bayramlarında adamların çox toplaşdığı yerlərdə qurulur.

Kəsimxanada gün ərzində 100-150-yə qədər heyvan kəsmək olur. Ümumilikdə 5 konteynerdən ibarət olan müəssisənin sahəsi 200 kvadratmetrdən çoxdur. Konteynerlərdən 3-də kəsim işləri yerinə yetirilir, digər 2 ədəd konteyner isə saxlama kamerasından ibarətdir. Kəsilən heyvanlar bazarlardan və Laçında olan fermalardan alınır.

Müəssisənin heyvan təminatını həyata keçirmək üçün ferma qurulması da planlaşdırılır. Kəsimxanada sanitariya və gigiyena qaydalarına ciddi riayət olunur. Hazırda müəssisədə 22 nəfər çalışır ki, onların 20 nəfəri Laçın sakinləridir.

**AZƏRTAC**
**1 mart 2024**

**Qaçqınkom tərəfindən Zabuxda ağacəkmə aksiyası keçirilib - VİDEO**

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması çərçivəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu ilə birgə Laçın rayonunun yenidən tikilmiş Zabux kəndində yerli sakinlərin iştirakı ilə ağacəkmə aksiyası təşkil edib.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aksiya işğalçı Ermənistanın ekoterrora məruz qoyduğu, regional ekoloji fəlakət zonasına çevirdiyi Azərbaycan ərazilərində ekovəziyyətin sağlamlaşdırılmasına, yaşıllıqların çoxaldılmasına, ətraf mühitin qorunmasına, təbiətə qayğının təbliğinə töhfə vermək məqsədi daşıyıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Qarabağda və Şərqi Zəngəzurda sürətlə aparılan bərpa-quruculuq işləri ilə yanaşı, ərazinin flora və faunasının dirçəldilməsinə, təbii ehtiyatlarının mühafizəsinə və onlardan səmərəli istifadə edilməsinə də xüsusi diqqət yetirilir. Dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva işğaldan azad olunmuş ərazilərə səfərləri zamanı ekosistemin bərpası məqsədilə həyata keçirilən tədbirlərdə iştirak edirlər.

Zabux kəndində keçirilən aksiya zamanı sakinlərə məxsus həyətyanı sahələrdə, yol kənarlarında və istirahət məkanlarında 7000 ədəd meyvə və dekorativ ağac əkilib. Ağacəkmə aksiyasında ilk ting 1992-ci ildə Laçın rayonunun Hoçaz yüksəkliyi uğrunda döyüşdə şəhid olmuş Ədalət Məmmədovun oğlu Ziyadxan Məmmədovun həyətində əkilib.

Bu cür aksiyaların tez-tez təşkil olunacağı, doğma yurda qayıdan keçmiş məcburi köçkünlərin Qarabağda və Şərqi Zəngəzurda bərpa edilən və yenidən salınan yaşayış məntəqələrində ekosidin nəticələrinin aradan qaldırılmasında iştirakına daim dəstək göstəriləcəyi diqqətə çatdırılıb.

**AZƏRTAC**
**5 mart 2024**

https://video.azertag.az/site/video/202369

**Laçında qanunsuz saxlanılan odlu silahlar təhvil götürülüb**

Laçın Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən odlu silahlar təhvil götürülüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildirilib ki, polis əməkdaşlarının keçirdikləri profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan odlu silahların könüllü şəkildə təhvil verilməsi təmin edilib.

Qeyd olunan tədbirlər zamanı polis əməkdaşları tərəfindən daha 3 müxtəlif kalibrli odlu silah təhvil götürülüb.

Bu istiqamətdə tədbirlər mütəmadi olaraq davam etdirilir.

**AZƏRTAC**
**7 mart 2024**

**DİM ilk dəfə Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanları keçirəcək**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı keçiriləcək. DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəb, Zabux kənd tam orta məktəbi və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirəcək.

Xatırladaq ki, martın 10-da respublikanın 33 şəhər və rayonunda təşkil olunacaq imtahanda 53 min 102 şagirdin iştirakı nəzərdə tutulur.

**AZƏRTAC**
**7 mart, 2024**

**Laçında 32 ildən sonra ilk toy sədası eşidilib – VİDEO**

Laçının toylu-büsatlı günləri başlayıb. Bu gün – martın 8-də Laçın rayonunun Zabux kəndində 32 ildən sonra ilk dəfə olaraq toy sədası ətrafa yayılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iki gəncin ən xoş günü el adəti ilə, yəni, kənddə toy mağarı qurularaq təşkil edilib. Hər bir zabuxlu ailənin bu sevincli gününə pənah gətirib. Toy məclisində gənclərin ailə üzvləri, qohum-əqrəbaları, kənd sakinləri ilə bərabər, Azərbaycan Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov və digər rəsmi şəxslər də iştirak ediblər.

Gəlinlə bəy "Vağzalı" sədaları altında toy mağarına daxil olduqdan sonra Azərbaycanın Dövlət Himni səsləndirilib, Vətən uğurunda şəhid olan qəhrəmanlarımızın xatirəsi ehtiram əlaməti olaraq sükutla anılıb. Sonra çıxış edənlər hər iki gəncə xeyr-dua veriblər və toy şənliyi başlayıb.

Qeyd edək ki, Zabux kəndində 211 ailə olmaqla 808 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələrin Zabux kəndində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**AZƏRTAC**
**8 mart, 2024**

**https://video.azertag.az/site/video/202539**

**DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) Laçın, Füzuli və Zəngilan rayonlarında buraxılış imtahanı keçirir. DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirir.

Bu barədə AZƏRTAC-a DİM-dən məlumat verilib.

Xatırladaq ki, bu gün DİM respublikanın 33 şəhər və rayonunda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirir və bu imtahanlarda 53 min 102 şagirdin iştirakı nəzərdə tutulur.

**AZƏRTAC**
**10 mart, 2024**

**Laçın rayonunda ilk dəfə buraxılış imtahanı keçirilib - VİDEO**

Martın 10-da Dövlət İmtahan Mərkəzinin Laçın şəhər 2 nömrəli və Zabux kənd tam orta məktəblərində buraxılış imtahanı keçirib. Bu, işğaldan azad olunmuş Laçın rayonunda təşkil edilən ilk imtahandır.

AZƏRTAC-ın bölgə müxbiri Laçın şəhərindəki 2 nömrəli tam orta məktəbdə keçirilən buraxılış imtahanının gedişi ilə tanış olub. Məktəbdə şagirdlərin rahat şəkildə imtahan vermələri üçün zəruri şərait yaradılıb. İmtahan rəhbəri Elçin Süleymanov bildirib ki, 4 şagirdin iştirak etdiyi imtahan hər yerdə olduğu kimi, saat 11.00-da başlayıb və 3 saat davam edib. İmtahanlar mövcud təlimata uyğun keçirilib və hər hansı qanun pozuntusuna yol verilmədən vaxtında başa çatıb.

Təhlükəsizliyin təminatı məqsədilə imtahan keçirilən binalara polis və Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları, tibb işçiləri cəlb olunub.

Lamiyə Nəcəfli Laçında təşkil edilən ilk buraxılış imtahanında iştirak etdiyi üçün fəxr etdiyini bildirib: “Bu gün ilk dəfə olaraq doğma yurdumuzda imtahan keçirildi. Bizim üçün fəxrvericidir ki, öz torpaqlarımızda imtahan verdik. İmtahan yaxşı keçdi. Həyəcanlanmadım, çox rahat oldu”.

Buraxılış imtahanı Zabux kənd tam orta məktəbində də uğurla başa çatıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**10 mart, 2024**

**https://video.azertag.az/site/video/202639**

**Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) işğaldan azad olunan ərazilərdə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

Dövlət İmtahan Mərkəzinin Bərdə regional bölməsindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, buraxılış imtahanı Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Laçın rayonu 2 nömrəli tam orta məktəb, Laçın rayonu Zabux kənd tam orta məktəbi və Zəngilan rayonu Ağalı kənd tam orta məktəblərində təşkil edilib. İmtahanın idarə olunmasına 4 ümumi rəhbər, 4 imtahan rəhbəri, 4 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunub. İşğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada keçirilən imtahanlarda 18 şagird iştirak edib. İmtahan bütün binalarda eyni vaxtda başlanıb və 3 saat davam edib.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, imtahanın keçirildiyi binalarla müntəzəm əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, şagirdlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Martın 11-dən etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalı aparılacaq.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**10 mart, 2024**

**Laçının qarlı dağlarında görünən ağquyruq cüyürlərin gözəlliyi diqqəti cəlb edir - VİDEO**

Əsrarəngiz təbiətə malik olan Laçının zəngin flora və faunası hər fəsildə göz oxşayır. Bu dəfə isə qarlı dağlarda gəzən bir cüt ağquyruq cüyür gözəlliyi ilə diqqət çəkib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, maraqlı görüntü Laçında çalışan işçilər tərəfindən rayonun Mişni kəndi ərazisində qeydə alınıb. Ağ örpəyə bürünən dağlarda gəzən cüyürlər bir müddət göründükdən sonra gözdən itib. Həmin kadrları təqdim edirik.

Qeyd edək ki, Laçın faunası zənginliyi ilə seçilir.

Burada bir sıra heyvanların da məskunlaşması üçün əlverişli şərait var. Laçın təbiətində bezoar keçisi, cüyür, çöl donuzu, dovşan, canavar, porsuq, dələ, ayı kimi məməlilərə, kəklik, tetra quşu, bildirçin, alabaxta və sair kimi quşlara rast gəlinir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**10 mart 2024**

**https://video.azertag.az/site/video/202631**

**Agentlik sədri: Bu il Zabux kəndində su anbarının istifadəyə verilməsi gözlənilir**

Azərbaycanda 20-yə yaxın kanalın bərpa olunması nəzərdə tutulub. Hazırda onlardan 2-də işlər artıq başlamaq üzrədir, 6-sının bərpa olunması istiqamətində işlər davam edir, 12-də isə hazırlıq işləri bitmək üzrədir. Bundan başqa, 13 anbarın yenidənqurulma məsələsi var. Onlardan isə 2-si bərpa olunub.

AZƏRTAC xəbər verir ki, bunu Beynəxalq Su Təsərrüfat Sərgi və Konfransı - "Baku Water Week" sərgisinə həsr olunmuş konfransda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib.

Agentlik sədrinini sözlərinə görə, bu ilin ortalarına kimi Laçın rayonunun Zabux kəndində su anbarının tikilib təhvil verilməsi gözlənilir.

“Paralel olaraq digər anbarların texniki-iqtisadi əsaslandırılması aparılır. Həkəri çayı üzərində Zabuxçay su anbarının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasını və tikinti-quraşdırma işlərini Türkiyənin “Cengiz İnşaat Sənaye və Ticarət A.Ş.” aparır. Bu işlərin görülməsi üçün şirkətlə 128,2 milyon manatlıq müqavilə imzalanıb", - deyə Zaur Mikayılov əlavə edib.

**AZƏRTAC**
**13 mart 2024**

**Zabuxda həkim məntəqəsi açılıb**

Martın 13-də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində Laçın rayonu Zabux kənd həkim məntəqəsinin açılışı olub.

Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, açılış mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev, TƏBİB-in İlkin səhiyyə xidmətinin təşkili şöbəsinin müdiri Nəhmət Rəhmanov, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktor müavini Vüqar İmranov, Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin məsul şəxsləri, Laçın Rayon Mərkəzi Xəstəxanasının direktoru Orxan Cəbrayıl, "Laçın Abadlıq Xidməti" MMC-nin direktoru Nəsimi Ağayev, kənd icra nümayəndəsi, sakinlər, ziyalılar və tibb işçiləri iştirak ediblər. Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Açılış mərasimini giriş sözü ilə açan Nəhmət Rəhmanov bildirib ki, ölkədə əhalinin sağlamlığının qorunması və səhiyyə sisteminin inkişafı istiqamətində dövlət dəstəyini hər bir Azərbaycan vətəndaşı daima hiss edir: "Səhiyyə xidmətinin gündən-günə yaxşılaşması üçün çoxsaylı tədbirlər görülür. Bu tədbirdə iştirakdan xüsusi qürur duyuram. Zabuxdakı açılış heç bir açılışa bərabər deyil. Bu qüruru bizə bəxş edən Müzəffər Ali Baş Komandanımıza və Ordumuza Allahdan cansağlığı diləyirik. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin.

Ən müasir sitildə tikilmiş, bütün avadanlıqlarla təchiz olunmuş bu məntəqənin açılışı Zabux kəndində yaşayan sakinlərin sağlamlığının keşiyində duracaq. Sağlamlığın təməl prinsipi təmiz su və havadır. Zabuxun suyu, havası bu tibb məntəqəsinə ehtiyacı maksimum azaldacaq. Tibb işçiləri olaraq bizim borcumuz bu kənddə ilkin səhiyyə xidmətlərinin göstərilməsini təmin etməkdir. İlk növbədə ana və uşaqların sağlamlığı bizim üçün prioritetdir. Burada yardıma ehtiyacı olan hər bir halda ixtisaslı həkimlərin və mobil tibbi qurğulardan istifadə etməklə Zabux kəndində yaşayan əhali yüksək səviyyəli tibbi xidmətlə təmin ediləcək".

Hüseyn Quliyev çıxışında açılışa toplaşanları xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramı münasibətilə təbrik edib: "Arzulayıram ki, Zabux sakinlərinin yolu xəstəliklə bağlı bura çox az düşsün. Yeni açılan bu tibb məntəqəsi qoruyucu və maarifləndirici müəssisə kimi fəaliyyət göstərsin. 31 ildən sonra Laçında sərhəd ərazidə insanların belə bir tibb məntəqəsinin açılışına gəlməsi bir nailiyyətdir. Bu məntəqənin tikintisində əməyi olan hər kəsə təşəkkür edirəm. Bir xahişim olacaq ki, buranı qoruyaq, müəssisə öz füsunkarlığını və gözəlliyini itirməsin".

Vüqar İmranov qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri dünya standartlarına uyğun, yüksək səviyyədə təşkil olunur: "Bu gün Azərbaycanın sərhəd kəndində tibb məntəqəsi, orta məktəb və digər iaşə obyektləri açılır. Bütün bunlar ondan xəbər verir ki, burada ən yüksək səviyyəli infrastruktur layihələri həyata keçirilir".

Yekunda çıxış edən Orxan Cəbrayıl qeyd edib ki, bu gün səhiyyə işçiləri üçün xüsusi əhəmiyyət kəsb edir: "Zabux kənd həkim məntəqəsi modul tipli Laçın Ailə Sağlamlıq Mərkəzindən əlavə olaraq Zabux kəndinə inşa olunan ilk tibb ocağıdır. 2023-cü ilin may ayından Böyük Qayıdışa dair Dövlət Proqramı əsasında Laçın Rayon Mərkəzi Xəstəxanası və Laçın Ailə Sağlamlıq Mərkəzi olaraq Laçında fəaliyyət göstəririk. Bu gündən üçüncü tibb müəssisəsi fəaliyyətə başlayacaq. İlkin tibb məntəqəsində beş Zabux kənd sakini fəaliyyət göstərəcək".

Məntəqənin rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra qonaqlar yaradılan şəraitlə tanış olublar.

**AZƏRTAC**
**13 mart 2024**

**Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar üçün aktiv məşğulluq tədbirlərini davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdə növbəti tədbir olaraq agentlik Laçın şəhərində qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, Füzuli şəhərində mebel ustası və Ağdam şəhərindəki "Ağdam Sənaye Parkı"nda genişprofilli dəzgahçı peşələri üzrə peşə hazırlığı kursları təşkil edib.

Qarabağ Peşə Hazırlığı Mərkəzi və işəgötürənlərlə birgə təşkil edilən kurslara Laçın, Füzuli və Ağdam rayonları üzrə 30 nəfər cəlb olunub.

Təlimlər xüsusi meyarlar üzrə qiymətləndirilmiş mütəxəssislər tərəfindən həyata keçirilir. Kursları uğurla başa vuran şəxslərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatına da dəstək göstəriləcək.

**AZƏRTAC**
**2024, 13 mart**

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən "Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması" layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində "fokus-qrup" sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**Laçın məktəblilərinin Novruz sevinci - VİDEO**

İşğaldan azad olunan digər ərazilər kimi, Laçın şəhərində də həyat öz axarına qayıdır. Laçın sakinləri illər sonra Novruzu doğma yurdlarında qarşılayırlar. Baharın gəlişinə ən çox sevinənlər isə Laçının balaca fidanlarıdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhər 2 nömrəli tam orta məktəbdə Novruzun gəlişi qeyd olunub. Bayram şənliyində məktəb kollektivi ilə bərabər, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev, Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları və Laçın Rayon Mərkəzi Xəstəxanasının direktoru Orxan Cəbrayıl iştirak ediblər.

Məktəblilər milli geyimlər geyinib, Keçəl və Kosa obrazını canlandırıblar. Həmçinin açılan bayram süfrəsi şəkərbura, paxlava, qoğal və digər şirniyyatlarla bəzədilib. Şagirdlər yumurta döyüşdürüb, oyunlar oynayıb, şən musiqi sədaları altında rəqslər ediblər.

Şagirdlərə Novruz bayramı və çərşənbələr haqqında ətraflı məlumat verilib. Təkcə Novruzun deyil, digər çərşənbələrin də adət-ənənələrimizə uyğun olaraq illər öncə Laçında necə keçirildiyi barədə danışılıb.

Daha sonra məktəb həyətində təhlükəsizlik qaydalarına riayət olunmaqla, tonqal alovlandırılıb, şagirdlər yallı gedib, tonqal üstündən tullanıblar.

Qeyd edək ki, hazırda Laçın şəhər məktəbində 100-dən çox şagird təhsil alır.

**AZƏRTAC**
**2024, 16 mart**

**https://video.azertag.az/site/video/203307**

**“Can Laçın” Novruz yarmarkası keçiriləcək - FOTO VİDEO**

Laçın torpaqları illər sonra Baharı öz doğma sakinləri ilə qarşılayır. Hazırda “Can Laçın” Novruz yarmarkasına hazırlıq işləri gedir. Yarmarkada həm Laçında ərsəyə gələn məhsullar və tanınmış sənətkarların əl işləri sərgilənəcək, həm də bayram şənliyində milli adətlərimizə uyğun müxtəlif əyləncəli proqramlar nümayiş olunacaq.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, “Can Laçın” Novruz yarmarkası martın 19-da Novruzun son çərşənbəsi olan Torpaq çərşənbəsində baş tutacaq. Azərbaycan Respublikası Prezidentinin Laçın üzrə xüsusi nümayəndəliyi, “Bakı Abadlıq Xidməti” MMC və Mədəniyyət Nazirliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə Həkəri çayının kənarında keçiriləcək bayram günündə rəsmi şəxslər, Laçın sakinləri, Laçının tikinti və abadlıq işlərində çalışanlarla bərabər tanınmış qonaqların da iştirakı nəzərdə tutulur.

Can Laçın yarmarkasına usta Hüseyn Hacı Mustafazadə dünyada məşhur şəbəkələri, Aqil Kərimov milli üslubda hazırladığı papaqlarla, usta Zahid Vələdov milli musiqi alətləri ilə, xalq yaradıcılığı üzrə mütəxəssis Elnarə Rəsulova şəxsi kolleksiyası ilə qatılacaqlar. Bundan başqa, yarmarkada “Gilabi Ceramics”, “İslimi”, “Zili”, “Darayı” milli brendlərinin məhsulları sərgilənəcək. Laçın torpağında becərilən kənd təsərrüfatı məhsulları, Laçın xanımlarının əl işləri və şirniyyatlar, Zerti Aqrosənaye kompleksinin məhsulları da yarmarkada yer alacaq.

Həmçinin keçəl və kosanın çıxışları, bir çox əyləncəli proqramlar olacaq. Bayram günündə hədiyyəli müsabiqələr və yarışmalar da təşkil ediləcək. Kosa öz xurcununa bayram iştirakçılarının adları yazılan kağız parçalarını yığacaq və müsabiqədə adları çıxan bir neçə nəfərə “İsmabikes” velosipedləri hədiyyə olunacaq.

“Can Laçın” yarmarkasında tanınmış müğənnilərin iştirakı ilə konsert də keçiriləcək.

Qeyd edək ki, ilk dəfə “Can Laçın” yarmarkası Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil olunub.

**AZƏRTAC**
**2024, 16 mart**

https://video.azertag.az/site/video/203359

**Zabux kənd məktəbində 32 ildən sonra Novruz şənliyi**

32 İldən sonra Zabux kəndinin sakinləri Novruzu doğma yurdlarında qarşılayırlar. Baharın gəlişi məktəblilər tərəfindən də sevinclə qeyd edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın rayonu Ədalət Məmmədov adına Zabux kənd tam orta məktəbində keçirilən bayram tədbirində məktəb kollektivi ilə bərabər, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev, Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi anılıb.

Novruz şənliyində qədim məişət əşyalarının, toxuculuq və əkinçilik alətlərinin, saxsı və mis qabların, digər sənət nümunələrinin sərgiləri maraqla qarşılanıb.

Məktəblilər milli geyimlər geyinib, keçəl və kosa obrazını canlandırıblar. Həmçinin açılan bayram süfrəsi şəkərbura, paxlava, qoğal və digər şirniyyatlarla bəzədilib. Şagirdlər yumurta döyüşdürüb, oyunlar oynayıb, şən musiqi sədaları altında rəqslər ediblər.

Novruz bayramı və çərşənbələr haqqında ətraflı məlumat verilib. Təkcə Novruzun deyil, digər çərşənbələrin də adət-ənənələrimizə uyğun olaraq illər öncə Zabux kəndində necə keçirildiyi barədə danışılıb.

Sonra məktəb həyətində təhlükəsizlik qaydalarına riayət olunmaqla tonqal qalanıb. Novruz tonqalını İkinci Qarabağ müharibəsinin qazisi Taleh İsgəndərli alovlandırıb. Şagirdlər ocaq ətrafında yallı gediblər.

Qeyd edək ki, hazırda Laçın rayonu Zabux kəndində 211 ailə olmaqla, 808 nəfərin məskunlaşması təmin olunub. Kənd məktəbində 60-dən çox şagird təhsil alır.

**AZƏRTAC**
**2024, 18 mart**

**Laçında "Can Laçın" Novruz yarmarkası keçirilir – FOTO**

Laçın sakinləri 32 ildən sonra baharın gəlişini doğma yurdlarında qarşılayırlar. Novruzun sonuncu çərşənbəsi olan İlaxır çərşənbə münasibətilə Həkəri çayının kənarında təşkil edilən bayram tədbirində həm də "Can Laçın" adlı Novruz yarmarkası keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Laçın üzrə xüsusi nümayəndəliyi, "Bakı Abadlıq Xidməti" MMC və Mədəniyyət Nazirliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bayram tədbirində rəsmi şəxslər, Laçın sakinləri, Laçının tikinti və abadlıq işlərində çalışanlarla bərabər, qonaqlar da iştirak edir.

Novruz yarmarkasında Laçında ərsəyə gələn məhsullarla yanaşı, respublikanın tanınmış sənətkarların əl işləri də sərgilənir. Bayram tədbirində, həmçinin milli adətlərimizə uyğun müxtəlif əyləncəli proqramlar nümayiş olunacaq.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**19 mart, 2024**

**Hərbi ekspert: Azad edilmiş ərazilərdə bayram tədbirlərinin keçirilməsi böyük mənəvi əhəmiyyət daşıyır**

Azərbaycan xalqı öz suverenliyini və sərhəd bütövlüyünü tam təmin etdikdən sonra ilk dəfədir Novruzu böyük sevinclə qarşılayır. İşğaldan azad edilmiş ərazilərdə bayram tədbirlərinin keçirilməsi böyük mənəvi əhəmiyyət daşıyır. İnsanların burada nə qədər xoşbəxt, şad olduğunu görmək özü bir səadətdir. Uzun illər ürəyimizdə daşıdığımız o ağır işğal illərinin nisgilini məhz bu tədbirlərlə çiyinlərimizdən atırıq.

Bu fikirləri Laçın şəhərində keçirilən Novruz bayramında AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində hərbi ekspert Ədalət Verdiyev söyləyib.

O, Laçın rayonunun coğrafi mövqeyinin əhəmiyyətini qeyd edərək deyib: “Laçın rayonu bizim üçün xüsusi əhəmiyyət daşıyır. Qarabağın və Şərqi Zəngəzurun hər bir nöqtəsi, hər bir qarışı bizim üçün əzizdir. Amma Laçın Ermənistanı Qarabağla birləşdirən bir yol idi, bir “nəfəs borusu” idi. Bu “nəfəs borusu” qapadıldıqdan sonra həm Laçını, həm də Xankəndini, Xocalını, Ağdərəni, Xocavəndi düşməndən tamamilə təmizləmək mümkün oldu. Bu Qələbəni bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyir, qəhrəman hərbçilərimizə, Ali Baş Komandana uzun ömür, cansağlığı arzu edirəm”.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**19 mart, 2024**

**Laçınlılar Novruz bayramını doğma yurdlarında yüksək əhvali-ruhiyyə ilə qeyd ediblər – VİDEO**

Uzun illər sonra doğma yurdlarına qayıtmış Laçın sakinləri ilaxır çərşənbəni böyük coşqu ilə qeyd ediblər. Həkəri çayının kənarında təşkil edilən bayram tədbirində həm də "Can Laçın" adlı Novruz yarmarkası təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Laçın üzrə Xüsusi Nümayəndəliyi, Bakı Abadlıq Xidməti MMC və Mədəniyyət Nazirliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bayram tədbirində rəsmi şəxslər, Laçın sakinləri, Laçının tikinti və abadlıq işlərində çalışanlarla bərabər qonaqlar da iştirak edib.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin rəsmisi Hüseyn Quliyev və "Laçın Abadlıq Xidməti" MMC-nin direktoru Nəsimi Əsədov çıxış edərək laçınlıları Novruz bayramı münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıblar.

"Can Laçın" yarmarkasında həm Laçında ərsəyə gələn məhsullar, həm də respublikanın müxtəlif bölgələrindən gəlmiş sənətkarların əl işləri sərgilənib. Yarmarkaya usta Hüseyn Hacı Mustafazadə dünyada məşhur şəbəkələri ilə, Aqil Kərimov milli üslubda hazırladığı papaqlarla, usta Zahid Vələdov milli musiqi alətləri ilə, xalq yaradıcılığı üzrə mütəxəssis Elnarə Rəsulova şəxsi kolleksiyası ilə qatılıblar. Bundan başqa, yarmarkada "Gilabi Ceramics", "İslimi", "Zili", "Darayı" milli brendlərinin məhsulları da sərgilənib. Laçın torpağında becərilən kənd təsərrüfatı məhsulları, laçınlı xanımların əl işləri və şirniyyatlar, "Zerti Aqrosənaye" kompleksinin məhsulları da yarmarkada yer alıb.

Bayram tədbirində milli adətlərimizə uyğun müxtəlif əyləncəli proqramlar nümayiş olunub. Novruzun personajları olan Kosa və Keçəl "İsma Bikes"in istehsalı olan velosipedlərdə bayram tədbirinə gəliblər. Bayram tədbirində hədiyyəli müsabiqələr və yarışmalar da təşkil edilib. Kosa bayram iştirakçılarının adları yazılan kağız parçalarını öz xurcununa yığıb və müsabiqədə adları çıxan beş nəfərə "İsma Bikes"in velosipedləri hədiyyə olunub.

Kosa və Keçəl tapmacalar deyib, yumurta döyüşdürüblər. Bayram tədbirində respublikanın tanınmış incəsənət ustalarının, Laçın rayonundan olan aşıqların, Dövlət Mahnı Teatrının, Beynəlxalq Muğam Mərkəzinin solistlərinin iştirakı ilə rəngarəng konsert proqramı təqdim olunub.

Bayram tədbirində Novruz tonqalı alovlandırılıb, iştirakçılar "Yallı" və şən musiqi sədaları altında rəqs ediblər.

AZƏRTAC-ın bölgə müxbiri bayram tədbirində iştirak edən Laçın sakinlərinin təəssüratını öyrənib. Sevil Ağayeva deyib: "32 il Vətənimizdən, doğma yurdumuzdan kənarda yaşamaq məcburiyyətində qaldıq. Biz cənnətdən qovulmuşlar idik. İndi cənnətimizə qovuşmuşuq. Özümü dünyanın ən bəxtəvəri hesab edirəm ki, Laçınıma qayıtmışam. Əziz bayramımız Novruzun belə yüksək səviyyədə qeyd olunması ürəyimi dağa döndərir. Sevincimdən ürəyim sinəmə yerləşmir. Prezidentimizə cansağlığı arzulayıram. Allah şəhidlərimizə rəhmət eləsin".

Orxan Əhmədov isə deyib: "30 ildən artıq müddətdə Ağcabədidə məskunlaşdıq. Bu illər ərzində ən böyük diləyimiz Laçınımıza qayıtmaq, bayramlarımızı burada keçirmək olub. Bu gün arzularımız reallaşıb. Doğma yurdumuza qayıtmışıq. İlaxır çərşənbəni yüksək əhvalla qeyd edirik. Buna görə sevincimizin həddi-hüdudu yoxdur".

Qeyd edək ki, "Can Laçın" yarmarkası ilk dəfə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil olunub.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**19 mart, 2024**

https://video.azertag.az/site/video/203629

**Laçın sakini: Doğma yurdda Novruz bayramını keçirmək böyük xoşbəxtlikdir**

Keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Sanki yuxu görürük. Uzun illərdən sonra doğma yurdumuz Laçında Novruz bayramı keçirmək böyük xoşbəxtlikdir.

Bunu Laçında keçirilən Novruz şənliyində AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində şəhər sakini Nəzakət Əliyeva deyib.

“Laçın bu gün bir cənnətə dönüb. Yüksək zövqlə bərpa işləri aparılıb. Laçının gözəlliyindən doymaq olmur. Bütün bunlara görə Prezidentimizə təşəkkürümü bildirirəm. Allahdan şəhidlərimizə rəhmət diləyirəm. Bir ömür onlara borcluyuq ki, bu günləri bizə yaşatdılar” – deyə Laçın sakini bildirib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**20 mart, 2024**

**Səhiyyə Nazirliyi Laçın şəhərində uşaqların kompleks tibbi müayinəsini aparıb və maarifləndirici aksiya təşkil edib**

Səhiyyə Nazirliyi “İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Proqramı çərçivəsində vətəndaşlar arasında sağlam həyat tərzinin təşviqi və fiziki aktivliyin təbliği ilə bağlı tədbirləri davam etdirir. Tədbirlər zamanı nazirliyin qurumları tərəfindən qeyd edilən ərazilərdə yaşayan əhalinin müxtəlif istiqamətlərdə tibbi müayinələri aparılır, həkim məsləhətləri verilir və sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar keçirilir.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazirliyin təşkilatçılığı ilə növbəti belə tədbir bu gün Laçın şəhərində keçirilib. Aksiya zamanı Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun ixtisaslaşdırılmış həkim heyəti, o cümlədən pediatrlar, nevroloq və uşaq cərrahı məktəbli və azyaşlı uşaqların kompleks tibbi müayinələrini aparıblar.

Müayinələr zamanı səhhətində problem aşkarlanan məktəbli və azyaşlı uşaqlar üçün yerində tibbi məsləhətlər verilib, profilaktik baxış keçirilib və müvafiq müalicələr təyin edilib.

Tədbir zamanı yüzə yaxın uşaq həkimlər tərəfindən ümumi müayinədən keçib.

Müayinələrdən sonra valideynlər üçün maarifləndirici tədbir təşkil edilib. Tədbirdə institutun həkimləri mövsümi xəstəliklər və respirator virus infeksiyaları, həmçinin uşaqlarda qəbizliyin yaranması mövzularında təqdimatlarla çıxış ediblər. Qripin simptomları, profilaktikası, hansı xəstəliklərin qripə bənzər əlamətlərə səbəb olduğu, uşaqlarda respirator virus xəstəliyi və müalicəsi, eyni zamanda körpələrdə qəbizliyin səbəbləri barədə ətraflı məlumat verilib.

Bundan əlavə, yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilən Azərbaycan Respublikasının Milli peyvənd təqviminə uyğun olaraq, körpələrin vaxtında vaksinasiyadan keçməsinin vacibliyi vurğulanıb. Bundan əlavə, valideynlərə övladlarının hərtərəfli inkişafı üçün erkən yaşlardan sağlam həyat tərzi seçməyi, hər gün fiziki aktiv olmağı və sağlam qidalanmanın vacibliyi barədə tövsiyələr verilib.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

Səhiyyə Nazirliyi tərəfindən işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq tibbi müayinələrin və maarifləndirici tədbirlərin keçirilməsi nəzərdə tutulub.

**AZƏRTAC**
**29 mart, 2024**

**Laçındakı Aqrosənaye parkında 46 müəssisə fəaliyyət göstərəcək**

Laçın şəhərində və rayonun Zabux kəndində 661 ailə məskunlaşıb. Laçında əhalinin dayanıqlı məskunlaşmasında ən prioritet məsələlərdən biri məşğulluğun təmin edilməsidir.

Bunu Bərdədə keçirilən “Peşə təhsili və özəl dövlət əməkdaşlığı” mövzusunda regional forumda “Laçın Abadlıq Xidməti” MMC-nin direktor müavini Elnur Abdullayev deyib.

O bildirib ki, Laçın rayonunun Zerti kəndi ərazisində 52 hektarda yaradılmış Aqrosənaye parkında 46 müəssisənin fəaliyyətə başlaması və 1169 vakansiya nəzərdə tutulub. Hazırda 24 bölmə üzrə 494 nəfər işlə təmin edilib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**29 mart, 2024**

**Böyük Qayıdış: Laçın rayonuna növbəti köç karvanı yola salınıb – VİDEO**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 30-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçın şəhərinə daha 21 ailə (68 nəfər), Laçın rayonunun Zabux kəndinə isə 4 ailə (11 nəfər) köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da ümumilikdə Laçın şəhərində 472 ailənin, yəni, 1773 nəfərin, Zabux kəndində isə 215 ailənin - 819 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**30 mart, 2024**

https://video.azertag.az/site/video/204087

**Keçmiş məcburi köçkün: Biz Laçında yeni bir həyata başlamalıyıq**

Bu, gözəl, təssəvüredilməz bir hissdir. Bizə bu hissi yaşadan Ali Baş Komandana uca Allahdan uzun ömür, şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıram.

Bu sözləri martın 30-da Bakının Qaradağ rayonundan doğma yurduna yola salınan keçmiş məcburi köçkün, Laçın şəhər sakini, AMEA-nın əməkdaşı Faiq İsmayılov AZƏRTAC-a açıqlamasında söyləyib.

"Şükürlər olsun ki, biz bu gün artıq 32 illik həsrətdən sonra Laçına qayıdırıq. Bu, yeni bir dövr deməkdir və biz orda yeni bir həyata başlamalıyıq. Mən özüm milli mənəvi dəyərlər üzrə tədqiqatçıyam və hesab edirəm ki, mənim üçün bundan yaxşı fürsət ola bilməz. Çalışacağam ki, Azərbaycanın bölgələri xüsusən də Şərqi Zəngəzur və Qarabağ haqqında daha geniş, daha müfəssəl araşdırmalar aparım", - deyə Faiq İsmayılov vurğulayıb.

**AZƏRTAC**
**30 mart, 2024**

**Laçın sakini: Bu yaşımda doğma torpaqları yenidən görmək çox gözəldir**

Hazırda 82 yaşım var. Düşünürəm ki, bu yaşımda doğma torpaqları yenidən görmək, ora qayıtmaq, yaşamaq çox gözəldir. Mən həmişə bu günü arzulayırdım. Şükürlər olsun Allaha ki, mənə bu günləri qismət elədi.

Bu sözləri martın 30-da Bakının Qaradağ rayonundan doğma yurduna yola salınan keçmiş məcburi köçkün, Laçın şəhər sakini Bulud Hüseynov AZƏRTAC-a açıqlamasında söyləyib.

"Doğma Laçın məni özünə çəkir. Elimizə, obamıza - Laçınımıza qayıtmaq məni də, ailəmi də hədsiz sevindirir. Bizə bu günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Qəhrəmanlıq göstərərək Vətən uğurunda şəhidlik zirvəsinə yüksələnlərə Allahdan rəhmət diləyirəm. Şəhid ailələrinin əllərindən öpürəm", - deyə Laçın sakini bildirib.

**AZƏRTAC**
**30 mart, 2024**

**Keçmiş məcburi köçkün: Yurduma qayıtmaq ən böyük arzum idi**

Yurduma qayıtmaq mənim ən böyük arzum idi. Arzumun gerçəkləşməsinin mənim üçün nə dərəcədə möhtəşəm hiss olduğunu sözlə izah etmək çətindir. Laçın işğaldan azad olunanda bu hissləri bir dəfə də yaşamışdım. Laçının azad olunmasında, ən qısa zamanda bizim Laçına getməyimizdə əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm.

Bu sözləri martın 30-da Bakının Qaradağ rayonundan doğma yurduna yola salınan keçmiş məcburi köçkün, Laçın sakini Mehparə Hüseynova AZƏRTAC-a açıqlamasında söyləyib.

“Ötən illər ərzində biz yaxşı yaşadıq. Dövlətimiz bizə yaxşı baxırdı, qayğımızı çəkirdi. Var olsunlar, Allah hər birindən razı olsun. Mən əməyi keçən hər kəsə minnətdarlığımı bildirir, onları Laçına - evimə qonaq dəvət edirəm", - deyə keçmiş məcburi köçkün qeyd edib.

**AZƏRTAC**
**30 mart, 2024**

**Laçın sakini: 32 il əvvəl doğma yurdumu tərk etdiyim maşınla geri qayıdıram**

Sevincimizin həddi hüdudu yoxdur. İllərdir bu günü gözləyirdik. İnanırdıq ki, bir gün qayırdacağıq. Elə o vaxtdan gətirdiyim maşını da saxlamışam, and içmişdim ki, nə olur-olsun satmayacağam və elə Laçına da bu maşınla qayıdacağam. Çox çətin, maddi sıxıntılı günlərimiz oldu, 32 ildə müxtəlif hadisələr baş verdi ancaq əhdimdən dönmədim. Nəinki özünə, heç bir detalına da toxunmamışam. Hətta münaqişə vaxtı dəyən güllərin izləri də qalmaqdadır.

Bu sözləri martın 30-da Bakının Qaradağ rayonundan doğma yurduna yola salınan keçmiş məcburi köçkün, Laçın sakini Şahlar Cəfərov AZƏRTAC-a müsahibəsində söyləyib.

Laçına qayıtmağın ən böyük arzusu olduğunu bildirən sakin ona bu xoş günləri yaşatmaqda əməyi olanları da unutmayıb: "Şükür bu günə. Bu arzumuz - ən böyük diləyimiz gerçəkləşdi. Ən gözəl illərimi, xoş uşaqlıq illərimi keçirdiyim xatirələr diyarıma - Laçınımıza qayıdıram. Var olsun bu hadisələri bizə yaşadanlar. Var olsun Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev. Allah şəhidlərimizə rəhmət eləsin. Ailələrinə səbir versin. Qazilərizə isə cansağlığı arzulayıram".

**AZƏRTAC**
**30 mart, 2024**

**Laçında daha 25 ailəyə evlərinin açarları təqdim olunub – VİDEO**

Bu gün növbəti köç karvanı ilə Laçın şəhərinə və Zabux kəndinə qayıdan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, "Laçın Abadlıq Xidməti" ASC-nin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.

Köçürülən ailələrin Laçın şəhərində və Zabux kəndində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**15:10**

Böyük Qayıdış üzrə Laçına növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında paytaxtın Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın rayonu bu dəfə 25 ailəyə qucaq açıb, daha 79 laçınlının yurd həsrəti bitib. Onlardan 21 ailə olmaqla, 68 nəfər Laçın şəhərinə, 4 ailə olmaqla, 11 nəfər Zabux kəndinə köçənlərdir.

Uzun illər sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar. Onlar burada böyük coşqu ilə qarşılanıb, Laçının gözəl mənzərəsini seyr ediblər.

Bununla da Laçın şəhərində 472 ailənin, yəni 1773 nəfərin, Zabux kəndində isə 215 ailə olmaqla, 819 nəfərin daimi məskunlaşması təmin edilib.

**A.Yavərzadə**

**AZƏRTAC**
**30 mart, 2024**

https://video.azertag.az/site/video/204131

**Nazir: Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb**

İndiyədək 5 mindən artıq sakin işğaldan azad edilmiş bölgələrə qayıdıb. Onların 2500 nəfərdən çoxunu əmək qabiliyyətli əhali təşkil edir və həmin ərazidə öz həyatlarını qurmaq üçün sakinlərin məşğulluğu təmin edilməlidir. Təkcə mənzillərin verilməsi və sosial ödənişlərlə həyatı təmin etmək olmur. Ona görə də Böyük Qayıdış Proqramı çərçivəsində çoxsaylı məşğulluq tədbirlərinin həyata keçirilməsi də nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, bunu yeni fəaliyyətə başlayan DOST TV-nin ilk efirinin "Sosial saat" verilişinin qonağı olan əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev deyib.

Nazir daha sonra deyib: "İndiyədək 2500 vətəndaşla bu sahədə iş aparılıb. Onların 1500 nəfəri daimi işlə təmin olunub və 1000 nəfərlə aktiv iş aparılır. Nəzərə alsaq ki, bu il daha 20 min nəfər öz doğma yurduna, ev-eşiyinə qayıdacaq, onda qarşıda çox böyük iş dayandığı aydın olar. Ona görə də bütün aidiyyəti dövlət qurumları və özəl sektorla birlikdə ən böyük üstünlüyü məskunlaşan əhalinin məşğulluğuna veririk. Həmçinin onlar üçün özünüməşğulluq proqramları çərçivəsində xüsusi kvota ayrılıb, digər aktiv məşğulluq tədbirləri vasitəsilə onlara dəstək vermək istəyirik. Öz doğma ocağına geri qayıdan şəxslərin bir çoxunun ixtisassız olması əsas çətinliklərdən biridir. Xüsusi olaraq Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb. Hər il təxminən 3 min nəfərə peşə hazırlığı vasitəsilə ixtisas və bilik veriləcək. Artıq həmin ərazilərdə Həm Qarabağ Peşə Hazırlığı Mərkəzi, həm də ona qədər özəl peşə hazırlığı mərkəzləri fəaliyyətə başlayıb. Vətəndaşlar həm onlayn, həm DOST və məşğulluq, həm "Cağrı" mərkəzləri vasitəsilə müraciət edə bilərlər. Bununla əlaqədar bir neçə dəfə Füzuli, Cəbrayıl, Laçın, Şuşa və Xankəndi sakinləri üçün elanlar vermişik. Ən azı ildə 3 min nəfər təlim keçməklə 12 min nəfərin məşğulluğunu təmin etməyi nəzərdə tutmuşuq. Paralel olaraq Elm və Təhsil Nazirliyinin peşə məktəbləri də analoji proqram elan ediblər və təxminən o qədər də vətəndaşın peşələrə yiyələnməsini onlar həyata keçirəcəklər. Məqsəd ondan ibarətdir ki, ən azı 20-25 min nəfərə peşə təhsili verilsin".

**AZƏRTAC**
**2024, 2 aprel**

**Milli Məclisin deputatları Laçın rayonuna səfər ediblər**

Aprelin 3-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və komitənin üzvləri Afət Həsənova, Məşhur Məmmədov, Əliabbas Salahzadə, Fatma Yıldırım, İltizam Yusifov “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində müzakirələr aparmaq üçün Laçın rayonuna səfər ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində deputatlar əvvəlcə işğaldan azad edilmiş Ağdam rayonuna gələrək burada Cümə məscidini və Şəhidlər xiyabanını ziyarət edib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini anıblar.

Sonra deputatlar Xankəndi şəhərində olublar. Şəhərlə tanışlıqdan sonra onlar Laçın rayonuna gəliblər. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində burada Laçın rayon 2 saylı tam orta məktəbdə görüş keçirilib. Tədbirdə işğaldan azad olunmuş ərazilərdəki ekoloji problemlərə dair müzakirələr aparılıb.

Görüşdə çıxış edən Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçın rayonunda aparılan nəhəng tikinti-quruculuq işləri və qarşıda duran vəzifələrdən danışıb.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında Laçında aparılan tikinti-quruculuq işləri barədə fikirlərini bölüşüb, görülən işlərə qanunvericilik sahəsində lazımi dəstəyin göstərildiyini qeyd edib.

Sonra Minatəmizləmə Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini Bəhruz Məmmədov minatəmizləmə sahəsində görülən işlərlə bağlı görüş iştirakçılarına məlumat verib.

Görüşdə çıxış edən Milli Məclisin deputatları Afət Həsənova və Fatma Yıldırım Laçında aparılan tikinti-quruculuq işləri və ekoloji problemlər barədə fikirlərini bildiriblər.

Daha sonra deputatlar Laçında fəaliyyət göstərən Zerti Aqro-Sənaye Parkının fəaliyyəti, “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonu, “Həkəri Balıq Təsərrüfatı” ilə də tanış olublar.

Səfər davam edir.

**AZƏRTAC**
**3 aprel, 2024**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

## İtaliya saytı Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki mina problemindən yazıb

İtaliyanın "Kmetro0" informasiya agentliyi Azərbaycanın işğaldan azad olunan ərazilərindəki mina problemi ilə bağlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə əlaqədar yayımlanan materialda Azərbaycanın Ermənistanın 30 ilə yaxın müddət ərzindəki işğal dövründə və müharibədən sonrakı illərdə mina problemindən ən çox əziyyət çəkən ölkə olduğu bildirilir. Mina terrorunun çoxlu sayda azərbaycanlının ölümünə səbəb olduğu, münaqişədən sonrakı dövrdə 350-dək insanın mina və digər partlayıcı qurğuların qurbanına çevrildiyi bildirilir.

Yazıda hazırda Azərbaycanın Ermənistan tərəfindən minalarla çirkləndirilən ərazilərində bu təhlükə mənbəyi ilə ciddi mübarizə aparıldığı vurğulanır. Bildirilir ki, Qarabağdakı mina təhlükəsi münaqişədən sonrakı dövrdə də Azərbaycan vətəndaşlarının həyatı və sağlamlığı üçün böyük təhlükə mənbəyi olaraq qalır. Bu, həmçinin bölgədə bərpa və yenidənqurma işlərinə, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına mane olur.

Qeyd olunur ki, 44 günlük Vətən Müharibəsi və münaqişə başa çatdıqdan sonra da Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhlükəsini davam etdirmək üçün sui-istifadə edib. Bu fakt 2022-ci ildə, Laçın və Kəlbəcər rayonlarında Ermənistanda 2021-ci ildə istehsal olunmuş 2700-dən çox piyada əleyhinə mina aşkarlanarkən təsdiqini tapıb. 2023-cü ilin sentyabrında Azərbaycanın apardığı antiterror tədbirlərindən sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərdə və onun perimetrləri boyunca yerləşdirilmiş 500 mindən çox minanın aşkarlanması bu təhlükənin miqyasını nümayiş etdirən sübutlardandır. Bu, eyni zamanda, Ermənistanın son onilliklərdə guya mina istehsal və ixrac etməməsi ilə bağlı iddialarının da tamamilə əsassız olduğunu sübuta yetirib.

Vurğulanır ki, Azərbaycan Ermənistanı həmin təhlükəyə son qoymaq üçün mina xəritələri verməyə çağırsa da, bu ölkə uzun müddətdir ki, belə xəritələrin mövcudluğunu inkar edir. Bununla belə, beynəlxalq ictimaiyyətin təzyiqindən sonra verilən və minaların basdırıldığı ərazilərin kiçik hissəsini əhatə edən məlumatların etibarlılığı isə cəmi 25 faiz təşkil edib. Son mina hadisələrinin 55 faizdən çoxu verilən məlumatın əhatə etdiyi ərazilərdən kənarda baş verib. Ermənistanın mina təhlükəsi ilə bağlı davranışı regionda münaqişədən sonrakı dövrdə qəbul edilmiş sülh və etimadın möhkəmləndirilməsi tədbirlərinə növbəti manedir. Azərbaycan bir daha beynəlxalq ictimaiyyəti Ermənistanın mina təhlükəsini pisləmək üçün ardıcıl tədbirlər görməyə, bu ölkə tərəfindən mina xəritələrini təqdim etməyə və mina təhlükəsinin aradan qaldırılmasına dəstək verməyə çağırır.

**Nihad Budaqov**
**AZƏRTAC-ın xüsusi müxbiri**

**Roma**

**AZƏRTAC**
**5 aprel, 2024**

**Müdafiə Nazirliyi: Ötən sutka ərzində mövqelərimiz 30 dəfə atəşə tutulub – VİDEO**

Aprelin 5-i saat 21:55-dən 23:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Aşağı Şorca, Yuxarı Şorca, Günəşli və Gorus rayonunun Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Əlibəyli, Daşkəsən rayonunun Xoşbulaq, Kəlbəcər rayonunun Yellicə, Zəylik və Laçın rayonunun Çağazur yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, ötən sutka ərzində Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri ümumilikdə 30 dəfə atəşə tutulub.

**AZƏRTAC**
**6 aprel, 2024**

https://video.azertag.az/site/video/204619

**Səhiyyə Nazirliyi Laçın şəhərində ağciyər xəstəliklərinin erkən aşkarlanması üçün müayinələr təşkil edib**

Səhiyyə Nazirliyi "Böyük Qayıdış" proqramı çərçivəsində müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi məqsədilə işğaldan azad olunan ərazilərdə silsilə tədbirləri davam etdirir. Eyni zamanda, bu tədbirlər çərçivəsində əhalinin tibbi bilik və məlumatlıqlarının artırılması məqsədilə sağlam həyat tərzi mövzularında maarifləndirici aksiyalar və təqdimatlar keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə tədbir aprelin 6-da Laçın şəhərində olub. Aksiya zamanı Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun tibb heyəti tərəfindən "Ağciyər xəstəliklərinin erkən aşkarlanması" proqramı çərçivəsində rayon əhalisinə tibbi xidmətlər göstərilib.

Aksiyanın məqsədi işğaldan azad edilmiş ərazilərdə məskunlaşan əhali üçün mütəmadi qaydada səyyar tibbi müayinələrin keçirilməsi yolu ilə əhalinin sağlamlığını yaxşılaşdırmaqdır. Eyni zamanda, tədbir Laçın rayon sakinlərinin sağlamlığının qorunmasında dəstək və yardım göstərməsi, həmçinin ağciyər sağlamlığının əsas aspektləri və profilaktik tədbirlər haqqında maarifləndirmə məqsədini daşıyıb.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundovanın rəhbərliyi ilə institutun bir qrup həkim briqadası, o cümlədən pulmonoloq, ftiziatr, kardioloq tərəfindən əhalinin ətraflı müayinəsi aparılıb. Diaqnostik müayinələrdən döş qəfəsi orqanlarının rentgeni, xarici tənəffüs funksiyalarının spiroqraf vasitəsilə müayinəsi təşkil olunub. Eyni zamanda, Elektrokardioqramma (EKQ), Exokardioqrafiya (EXO-KQ), mantu sınağı və arterial qan qazlarının tərkibinin təhlili aparılıb.

Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı 150-yə yaxın Laçın sakini hər biri ayrı-ayrılıqda 5 müayinədən keçiblər.

Müayinələrdən sonra sağlam həyat tərzinin təşviqi ilə bağlı Laçın ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub.

İnstitutun direktoru İradə Axundova ətraflı təqdimatla çıxış edib. Onun sözlərinə görə, vaxtında aparılan diaqnostika və müntəzəm profilaktik müayinə xəstəliyin qarşısını almağa və ya patologiyanın inkişafının erkən mərhələsində müalicəyə başlamağa kömək edir. Həmçinin profilaktik tədbirlərin ağciyər xəstəliklərinin qarşısını alması və tənəffüs sisteminin funksionallığının optimallaşdırmasında vacibliyi əhalinin diqqətinə çatdırılıb. Direktorun sözlərinə görə, müasir diaqnostika tənəffüs sisteminin patologiyalarını vaxtında müəyyən etməyə və erkən mərhələlərdə xəstəlikləri aşkarlamağa imkan verir. Eyni zamanda, sağlam həyat tərzinin prinsiplərinə riayət və siqaret çəkmə kimi zərərli vərdişdən imtinanın vacibliyi vurğulanıb.

Həmçinin İnstitutun həkim-ftiziatrı Aysel Aslanova "Ağciyər xəstəlikləri haqqında nə bilirik" mövzusunda təqdimatla çıxış edib. Vərəm, bronxial astma, pnevmoniya, tütün çəkmə ilə bağlı xəstəliklərdən, həmin xəstəliklərin ilkin diaqnostikası, klinikası və ilkin əlamətləri barədə ümumi məlumat təqdim edilib.

Sonra institutun skrininq məqsədilə istifadə etdiyi ən müasir müayinə üsullarından olan "smart" rentgen aparatı haqqında bilgilər verilib.

Eyni zamanda, tədbirdə yerli əhaliyə ağciyər xəstəlikləri və profilaktikası haqqında faydalı məlumat verilib, maarifləndirici vizual materiallar paylanılıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, işğaldan azad edilən digər ərazilərdə də Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Laçında fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş olub**

*Laçın şəhəri və Laçının Zabux kəndində 748 sakinin məşğulluğu təmin edilib*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi və Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Laçın rayonunda fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müavini Cəmaləddin Quliyev və 40-dan çox işəgötürənin iştirak etdiyi görüşdə işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərdən bəhs olunub.

Laçın şəhərinə və Laçının Zabux kəndinə köçürülən sakinlərdən artıq 748 nəfərin məşğulluğunun təmin edildiyi bildirilib. Həmin şəxslərdən bir qrupu üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulduğu diqqətə çatdırılıb.

Görüş iştirakçılarına Agentliyin fəaliyyət istiqamətləri, rəqəmsal layihələri, işəgötürənlərə yönəlik proqramları barədə məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Laçında sakinlərin məşğulluğunun təminatı sahəsində işəgötürənlərlə gələcək əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb**

Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisində quduzluğa qarşı vəhşi ətyeyən heyvanlar və sahibsiz itlərdə oral immunizasiya tədbirləri həyata keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, əməkdaşlar birdəfəlik geyim, fərdi mühafizə dəstləri və avadanlıqlarla təmin olunublar. Oral immunizasiyanın aparılmasında əsas məqsəd xəstəliyin yayılmasının qarşısının alınması, epizootoloji sabitliyin qorunması məqsədilə xəstəliyin təbii rezervuarında yayılma zənciri qırılmasıdır. Proses çərçivəsində meşəlik və dağlıq ərazilərə tərkibində quduzluq xəstəliyinə qarşı peyvənd vasitəsi olan aldadıcı yemlər atılıb. Aldadıcı yem ətyeyən heyvanlar üçün cəlbedici iyə malik olan xüsusi tərkibə malik briketlərdir. Heyvanlar onu yedikdə onlarda quduzluq xəstəliyinə qarşı immunitet yaranır.

Oral immunizasiyanın ölkə ərazisində yaz və qış mövsümləri olmaqla ildə iki dəfə keçirilməsi nəzərdə tutulur. Növbəti tədbir Ağdam, Xocalı, Xocavənd, Ağdərə, Zəngilan rayonları ərazisində həyata keçiriləcək.

Hazırda ölkədə epizootoloji sabitliyin qorunması istiqamətində "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun olaraq profilaktiki tədbirlər davam etdirilir.

Qeyd edək ki, peyvənd ev heyvanları, kənd təsərrüfatı və vəhşi heyvanlar üçün zərərsizdir. Bir neçə ədəd aldadıcı yemin yeyilməsi ağırlaşmalara səbəb olmur. Peyvəndin müalicəvi xüsusiyyəti yoxdur və yalnız immunitet yaradır. Briketlər vəhşi heyvanların yaşayış areallarına yaxın hərəkət çığırlarına, sahibsiz itlər üçün isə onların populyasiyalarına uyğun yerlərə atılır.

Xatırladaq ki, quduzluq xəstəliyinə bütün növ ev və kənd təsərrüfatı heyvanları, vəhşi heyvanlar, eləcə də insanlar həssasdır. İnsanlar əsasən xəstə heyvanlarla təmas nəticəsində (dişləmə, tüpürcək, nadir hallarda göz və burunun selikli qişası) yoluxurlar. Xəstəliyin simptomları göründükdən sonra həm heyvanlar, həm də insanlar üçün ölümcül olur. Virusun təbiətdə daima vəhşi heyvanlar arasında mövcudluğu, xəstəliyin əlamətsiz keçməsi onların rezervuar kimi təhlükəliliyinin əsas əlamətlərini təzahür edir. Bu xəstəlik Ümumi Dünya Heyvan Sağlamlığı Təşkilatının zoonoz xəstəliklər siyahısında ilk onluqda yerləşir.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Azərbaycan Ordusunun mövqeləri 16 dəfə atəşə tutulub**

Aprelin 6-sı saat 18:30-dan 22:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək, Basarkeçər və Gorus rayonlarının Cil, Günəşli və Xoznavar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Gədəbəy, Kəlbəcər və Laçın rayonlarının Əyrivəng, Cəmilli və Hacılar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini ümumilikdə 16 dəfə olmaqla, müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib**

Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzi aprelin 7-də ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

AZƏRTAC xəbər verir ki, həmçinin işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı təşkil edilib. Belə ki, yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə ilk dəfə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur**

Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin fəal məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam etdirilir. Yaxın zamanlarda sakinlər üçün həm də ödənişsiz peşə hazırlığı kurslarının təşkili nəzərdə tutulub və bu istiqamətdə işlərə start verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə hazırlığı kursları təşkil edilir. Həmçinin Laçın şəhəri və rayonun Zabux, Sus, Bəylik, Güləbird kəndləri üzrə kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələri üzrə peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Peşə hazırlığı kurslarına yazılmaq üçün işaxtaranlar, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək, yaxud “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçə bilərlər. Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Qeydə edək ki, proqramın tərkib hissəsi olaraq Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi, Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi, Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndi üzrə də peşə hazırlıq kursları təşkil olunur.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 aprel, 2024**

**Ermənistan müxtəlif təxribatlar törətməklə Azərbaycanı cavab tədbirləri görməyə təhrik etməyə çalışır**

Ermənistan mütəmadi olaraq şərti sərhəddə atəşkəsi pozur və təxribata əl atır. Bu proses Tovuz, Naxçıvan, Kəlbəcər, Laçın və digər istiqamətlərdə müəyyən müddətdir davam edir.

Bunu AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik, Qarabağ müharibəsi və Silahlı Qüvvələrin veteranı, hərbi ekspert Şair Ramaldanov deyib.

O, Ermənistanın sülh müqaviləsinin imzalanmasında maraqlı tərəf olmamadığını deyir: "Ermənistan müxtəlif dövlətlərin təzyiqləri altında sülh müqaviləsinin imzalanmasından yayınmaqla Azərbaycanla şərti sərhəddə atəşkəsin pozulması üçün zəmin yaradır. Əgər belə olmasaydı, artıq sülh sazişi bağlanardı, müqavilə imzalanmırsa, müharibə şəraitində də istər təxribatlar, istərsə də atəşkəsin pozulmasını normal vəziyyət hesab etmək olar.

**Ermənistan sülh müqaviləsinin imzalanmasından yayınmaqla Azərbaycanla sərhəddə atəşkəsin pozulması üçün zəmin yaradır**

Ona görə də düşünürəm ki, burada Ermənistanın niyyəti məlumdur. Xüsusən də həm müəyyən beynəlxalq səviyyəli danışıqlar ərəfəsində, həm də Azərbaycanda hər hansı tədbirin keçirilməsi zamanı atəşkəsin pozulması halları baş verir. Əgər biz torpaqlarımızın Ermənistan ordusu tərəfindən işğalı dövrünü xatırlasaq, danışıqlar dövründə ya atəşkəs pozulur ya da ki, hər hansı təxribat törədilirdi".

Hərbi ekspertin sözlərinə görə, aprelin 5-də Brüsseldə ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçirilən görüş regionda sabitliyə xidmət etmir: "Biz bilirik ki, ABŞ və Avropa İttifaqının bəzi ölkələri Cənubi Qafqaz regionunda öz maraqlarını təmin etmək üçün fəallaşıblar. Onların məqsədlərindən biri Rusiyanın regionda maraqlarını məhdudlaşdırmaqdır. Bu da iki güc mərkəzinin bölgədə maraqlarının toqquşması deməkdir. Bu halda isə Azərbaycan və Ermənistanın müharibə şəraitində olması vəziyyətindən istifadə olunur. Yəni Azərbaycan-Ermənistan şərti sərhədində düşmən tərəfin mütəmadi atəşkəsi pozması, yaxud müəyyən təxribatlar törətməsi beynəlxalq təşkilatların aktivləşməsinə səbəb olur və onların nəzərləri Cənubi Qafqaz regionuna yönəlir. Sonra həmin təşkilatlar tərəfindən onları idarə edən Avropa İttifaqının və ABŞ-ın maraqlarına uyğun müəyyən qətnamələr qəbul olunur. Beləliklə o qətnamələrin əsasında Cənubi Qafqaz regionundan kənar qüvvələrin və ölkələrin bölgəyə müdaxilə etməsi üçün hüquqi əsas yaranır. Belə olduğu halda burada onların öz maraqlarını təmin etmək üçün platforma yaradılır. Ona görə də Brüssel görüşünün arxasında başqa niyyətlər dayanır. Ermənistan ərazisindən Cənubi Qafqaz regionunda Orta Dəhliz adlanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu yaradılacaq. Orta Dəhlizə də kimin nəzarət etməsi isə indi gündəmdə olan məsələdir. Brüsseldə daha çox Ermənistandan keçən Zəngəzur dəhlizi məsələsinin müzakirə edilməsi istisna olunmur. Ancaq gec-tez Zəngəzur dəhlizi açılacaq və Orta Dəhliz layihəsi bu regiondan keçəcək".

**Təxribat törədilərsə, Silahlı Qüvvələrimiz adekvat cavabı verməyə, öz vəzifəsini yerinə yetirməyə hazırdır**

Qarabağ müharibəsi veteranı bildirib ki, digər tərəfdən Ermənistan Azərbaycanla sərhədə qoşun yığmasının məqsədi var. Məqsəd Azərbaycan Ordusunu da həmin istiqamətdə qarşılıqlı olaraq qoşun yığmaqla müəyyən addımlar atmağa təhrik etmək və sərhəddəki vəziyyəti eskalasiya kimi qələmə verərək Avropa müşahidəçilərinin vasitəsilə bu məsələni şişirtmək. Hər halda təxribat yönlü addımlar atıla, atəşkəs tez-tez pozula bilər. Bu müəyyən qüvvələrin regionda istədiyi maraqlarını təmin etmək üçün yeganə vasitədir. Ona görə ki, ssenari bu şəkildə inkişaf edərsə və vəziyyət gərginləşərsə, beynəlxalq təşkilatlar fəallaşmağa başlaya və həmin dövlətlərin marağına xidmət edən qərəzli qərarlar qəbul oluna bilər. Həmin qərarların əsasında onlar bu regionda öz maraqlarını təmin etmək üçün plasdarm yarada bilərlər. Beləliklə, Azərbaycan-Ermənistan sərhədində Avropa İttifaqının müşahidə missiyasının sayını artıra bilərlər. Azərbaycan Ordusu isə bütün bu prosesləri izləyir və hər hansı təxribatın qarşısını almaq məqsədilə qabaqlayıcı lazımi tədbirlər görür. Əgər hər hansı təxribat törədilərsə, Silahlı Qüvvələrimiz bunun adekvat cavabını verməyə, öz vəzifəsini yerinə yetirməyə, torpaqlarını qorumağa qadirdir.

"Ona görə də düşünürəm ki, hazırda Ermənistanın həm silahlandırılması, həm də Cənubi Qafqaz regionunda gedən digər proseslər bölgə üçün yaxşı gələcək vəd etmir. Ona görə ki, qonşu ölkəyə dörd il

müddətində maliyyə vəsaiti ayrılacaq. Ermənistan isə həmin vəsaitin bu ölkəyə ayrılması üçün hansısa öhdəçilik götürüb sifarişləri yerinə yetirməlidir. Düşünürəm ki, sülh müqaviləsi imzalanmadığı üçün gələcəkdə Ermənistan atəşkəsi pozmağa və təxribatlar törətməyə, hətta müəyyən şəkildə Azərbaycanı da qarşılıqlı tədbirlər görməyə təhrik etməyə çalışır. Belə ki, aprelin 5-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti təxribatlarına zəmin yaratmaq məqsədilə Azərbaycan Ordusunun müəyyən yaşayış məntəqələrimiz istiqamətlərindəki mövqelərinin qarşısında səngərlərin mühəndis cəhətdən təkmilləşdirilməsi işlərini görməyə cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. Hesab edirəm ki, Ermənistan tərəfindən sərhədi möhkəmləndirmək üçün görülən hər hansı işlər qəbuledilməzdir. Çünki şərti sərhəd o deməkdir ki, sərhəd yoxdur və hələ tam müəyyənləşdirilməyib. Ermənistan silahlı qüvvələrinin bölmələri orada mühəndis işləri apardıqda Azərbaycan Ordusu onun qarşısını almaq üçün əvvəlcə xəbərdarlıq etdi, sonra başqa tədbirlər gördü. Ona görə də düşünürəm ki, son zamanlar Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdəki bölmələrinin mövqelərinin sutka ərzində 30 dəfəyədək atəşə tutulması Brüssel görüşündən sonra proseslərin hansı istiqamətdə getməsindən xəbər verir. Buna baxmayaraq bölmələrimiz şərti sərhəddə bütün əməliyyat şəraitini nəzarət altında saxlayaraq təxribatların qarşısını almaq üçün bundan sonra da lazımi tədbirləri görəcəklər", - deyə Şair Ramaldanov vurğulayıb.

**Azərbaycanın Müdafiə Nazirliyi və dövlətimizin başçısı Xankəndidə qarşı tərəfə xəbərdarlıq mesajları verib**

Ehtiyatda olan polkovnik əlavə edib ki, Azərbaycanın Müdafiə Nazirliyi və dövlətimizin başçısı Xankəndidə çıxışında lazımi cavab tədbirləri görüləcəyi barədə qarşı tərəfə artıq xəbərdarlıq mesajları da verib: "Bütün prosesləri sərhəddə vəziyyətin gərginləşməyə doğru getdiyi kimi qiymətləndirmək olar. Hazırda sərhəddəki bütün təxribatları aprelin 5-dəki Brüssel görüşü ilə əlaqələndirmək olar. Avropa İttifaqı və ABŞ tərəfi Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün müəyyən şərait yaratmaq istəyirlər. Çünki onlar bu region üçün kənar aktorlardır. Regionda Azərbaycanın təşəbbüskarı olduğu 3+3 formatı mövcuddur. Qərbin isə burada məqsədi Rusiyanın, Türkiyənin müəyyən şəkildə regionda təsirini azaltmaqdır. Odur ki, bunun üçün Azərbaycan və Ermənistan arasındakı müharibə şəraitindən istifadə etmək istəyirlər.

Bundan başqa, coğrafiyaya baxsaq Ermənistan silahlı qüvvələrinin əsasən Naxçıvan, Şərqi Zəngəzur, Kəlbəcər, Laçın və digər istiqamətlərdə ordumuzun mövqelərini daha çox atəşə tutmasını görərik. Bununla düşmən tərəf öz havadarlarına göstərmək istəyir ki, Azərbaycan-Ermənistan şərti sərhədinin bütün istiqamətlərində vəziyyət gərgindir. Ona görə düşünürəm ki, Avropa İttifaqının müşahidə missiyası həmin istiqamətləri izləyərək müəyyən məlumat toplayıb Azərbaycan əleyhinə qətnamələr qəbul olunması üçün öz tabeliyindəki təşkilatlara göndərirlər. Son zamanlar Azərbaycan tərəfi Ermənistanın ölkəmizlə şərti sərhədə Şərqi Zəngəzurda qoşun yığması barədə görüntülər yaymışdı. Lakin bütün bunlara baxmayaraq, düşünürəm ki, Azərbaycan Ordusu istənilən istiqamətdə hər hansı təxribatın qarşısını almağa hazır vəziyyətdədir".

**AZƏRTAC**
**9 aprel, 2024**

**Laçında mövqelərimiz atəşə tutulub - VİDEO**

Aprelin 8-si saat 23:35-dən 23:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xoznavar, Xanazax, Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Sadınlar, Hüsülü, Malıbəyli və Cağazur yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**9 aprel, 2024**

https://video.azertag.az/site/video/204703

**Laçında atelye fəaliyyətə başlayıb – FOTO**

Laçın şəhərində daha bir istehsalat sahəsi fəaliyyətə başlayıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Naxışlı" atelyesi 10 günə yaxındır Laçında fəaliyyət göstərir. Layihə rəhbəri Təranə Sultanova atelye barəsində danışarkən bildirib ki, atelye müasir standartlara cavab verən istehsal sahəsidir. Əsas məqsəd Laçın brendini yaratmaq, burada xanımların işlə təmin olunmasını təşkil etmək və onların əl işlərini dünyaya tanıtmaqdır.

"İşçilərin hər biri atelyedə hazırlıq kursu keçir. Bu sahədə heç bir fəaliyyəti olmayanlar da atelyedə tərəfimizdən peşə hazırlığı kursu keçib, sonra işə qəbul olunur. Hazırda 13 nəfər işlə təmin olunub, gələcəkdə isə daha 13-14 nəfərin işləməsi üçün vakansiyamız var. Atelye 11 otaqdan ibarətdir və ən son standartlara cavab verən, yüksək keyfiyyət və funksionallığa malik İsveçrə istehsalı olan "Bernina" brendinin avadanlıqları ilə təmin olunub. Avadanlıqlar tam kompüterləşdirilib. Pilot, özünü blok etmə funksionallığı var, bir sözlə, smart maşınlardır. Avadanlıqda problem yaranarsa, özünü avtomatik bloklayır, problemin nədə olduğu monitorda göstərilir və bunun həlli də izah edilir. Bu da o deməkdir ki, hər bir işçi həmin problemi həll edə bilir, ustaya ehtiyac duyulmur. Bununla da zaman qazanmış oluruq", - deyə Təranə Sultanova qeyd edib.

Bu atelyedə toxuma keyfiyyəti çox yüksəkdir, avadanlıqların 1000-dən çox naxış toxuma özəlliyi də var.

İlkin mərhələdə ev tekstili - süfrələr, yemək servisi üçün dekorativ örtüklər, salfetlər, dəsmallar toxunacaq. Zamanla məhsul çeşidləri də artırılacaq.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**9 aprel, 2024**

**Laçındakı seleksiya mərkəzində məhsuldar sortlardan olan heyvanlar yetişdirilir – FOTO**

Laçının Zerti kəndində yerləşən Heyvandarlıq Seleksiya Mərkəzində heyvanların baş sayı artıb. Yerli iqlimə adaptasiya dövrünü keçən müxtəlif sort keçi və qoyunlardan çəpiş və quzular əldə olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Zerti Aqro Sənaye parkındakı Heyvandarlıq Seleksiya Mərkəzi səkkiz aydır fəaliyyətini davam etdirir. Müasir standartlara cavab verən mərkəz müxtəlif sort keçi və qoyunların cins tərkibinin yaxşılaşdırılması, ətlik-südlük və yun çıxımı daha yüksək olan sortların əldə edilməsi məqsədi ilə yaradılıb.

Mərkəzin fəaliyyəti barədə danışan sahə nəzarətçisi Əli Cəmilzadə bildirib ki, əsas məqsəd müxtəlif sort xırdabuynuzlu heyvanların seleksiyasını təşkil etməkdir: “Ərazidə hər biri 240 kvadratmetr olan 5 saxlanc yeri var. Hazırda mərkəzdə 5 sort olmaqla, 31 baş keçi saxlanılır. Əsasən xarici sortlardan ibarət Şamhələb, Honanlı, Alpin, Klis və Saanen keçiləri bəslənilir. Bunlardan Saanen keçiləri südlük, digərləri isə ətlik və bala artımı daha yüksək olan sortlardır. Həmçinin mərkəzdə 15 sort olmaqla, 76 baş qoyun da var. Bunlar arasında türk sortlarından olan və iplik üçün nəzərdə tutulan Merinos sortu, ətlik və südlük Romanov, Akkaraman, Sakız, Asaf, İvesi kimi məhsuldar sortlar yer alır”.

Söhbət zamanı məlum olur ki, mərkəzdə qısa müddət ərzində uğurlu nəticələr əldə olunub. Yerli iqlimə bir çox sortlar, əsasən də Türkiyə sortları uğurla adaptasiya olub. Burada saxlanılan keçilərdən 14 baş çəpiş əldə olunub və bütün sortlar bala verib. Qoyunlar arasında isə İvesi, Sakız, Akkaraman, Anadolu Merinosu, Asaf, Romanov və digər sortlardan, ümumilikdə, 31 baş quzu əldə olunub. Hazırda balalar xüsusi diqqətlə bəslənilir, onların inkişaf prosesi izlənilməklə, daim müşahidə altında saxlanılır.

Qeyd edək ki, Laçında Heyvandarlıq Seleksiya Mərkəzinin yaradılmasında əsas məqsəd mərkəzdə məhsuldar sortlardan olan heyvanlar yetişdirmək və Laçında xırdabuynuzlu heyvandarlığın inkişafını daha da sürətləndirməkdən ibarətdir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**10 aprel, 2024**

**Laçında "Mərkiz" futbol klubu fəaliyyətə başlayıb - VİDEO**

Laçında yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, idman sahəsinə marağı və istedadı olanların aşkar edilməsi məqsədilə futbol klubu yaradılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Mərkiz" adlı futbol klubunun növbəti ildən birinci liqada yarışlara qatılması planlaşdırılır.

Klub rəhbəri Elvin Salahov açıqlamasında bildirib: "Futbolun inkişafı üçün Laçında lazımı şərait yaradılıb və Bakı Abadlıq Xidməti MMC-tərəfindən müasir standartlara cavab verən şəkildə inşa olunan stadionda süni və təbii örtüklü meydançalar, məşqlərin tədrisi üçün lazımi idman vəsaitləri yer alır. Hazırda müxtəlif yaş qruplarından olan 50-yə yaxın yeniyetmə və gəncə futbolun sirləri öyrədilir, peşəkar məşqçilər tərəfindən dərslər tədris olunur. Qarşıdakı hədəf isə gələn ildən "Mərkiz" futbol klubu adı ilə Laçını birinci liqada təmsil etməkdir".

Qeyd edək ki, yeni yaradılan futbol klubu öz adını Laçındakı Mərkiz dağından götürüb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**14 aprel, 2024**

**https://video.azertag.az/site/video/204969**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

https://video.azertag.az/site/video/205023

**Laçın hava limanı "Phoenix" hava hərəkətinə nəzarət sistemi ilə təchiz ediləcək**

Frankfurt-Maynda keçirilən nüfuzlu "Passenger Terminal Expo 2024" konfransında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin (AZANS) direktoru Fərxan Quliyev və "DFS Aviation Services" şirkətinin icraçı direktoru Andreas Petç əməkdaşlığın genişləndirilməsinə dair müqavilə imzalayıblar.

AZAL-dan AZƏRTAC-a bildirilib ki, "DFS Group" şirkətinin bir hissəsi olan "DFS Aviation Services" Almaniyanın aeronaviqasiya xidmətləri təminatçısı və bu sahə üzrə dünya liderlərindən biridir.

Sözügedən müqavilə Laçın Beynəlxalq Hava Limanının qabaqcıl "Phoenix" hava hərəkətinə nəzarət sistemi ilə təchiz edilməsini əhatə edir. Bu addım AZAL-ın davamlı inkişafa və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə töhfə verdiyini vurğulayır.

Səmərəliliyi və etibarlılığı ilə tanınan "Phoenix" sistemi Azərbaycanın hava limanlarında, o cümlədən Füzuli və Zəngilan aeroportlarında AZANS-ın altı hava hərəkətinin idarəedilməsi qülləsində uğurla fəaliyyət göstərir. Bundan əlavə, sistem "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin Hava Hərəkətinin İdarəedilməsi Baş Mərkəzi üçün ehtiyat sistem kimi istifadə olunur.

Uğurlu əməkdaşlıq çərçivəsində AZANS və "DFS Aviation Services" müxtəlif təşəbbüslər üzərində işləyir.

Qeyd edək ki, AZANS və Milli Aviasiya Akademiyası Azərbaycanda aviadispetçerlərin hazırlığı üzrə vahid mərkəzin yaradılması layihəsini həyata keçirir. Bu mərkəz "DFS Aviation Services" şirkətinin təlim materialları və standartları ilə təchiz olunacaq.

**AZƏRTAC**
**17 aprel, 2024**